*AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI*
*FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU*

# İSLAM

## TARİX, FƏLSƏFƏ VƏ HÜQUQ

### *ENSİKLOPEDİK LÜĞƏT*

*Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun Elmi Şurasının 1 iyun 2015-ci il tarixli iclasının (protokol № 4) və Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin DK-340d-07/20 saylı 21 iyul 2015-ci il tarixli qərarına əsasən çap olunmuşdur.*

**Bakı – 2016**

***Müəlliflər kitabın çap olunmasında göstərdiyi köməyə görə “Safi Care” şirkətin təsisçisi Səbinə Rəhimovaya öz dərin təşəkkürünü bildirirlər.***

**Tərtibçi müəlliflər:** Fəl.ü.e.d. Aydın Əlizadə
Fəl.ü.f.d. Elsevər Səmədov

**Elmi redaktor:** Fəl.ü.e.d. İlham Məmmədzadə

**Rəyçilər:** Akademik Vasim Məmmədəliyev
Fəl.ü.e.d. Lalə Mövsümova
Fəl.ü.e.d.Roida Rzayeva
Fəl.ü.f.d. Şölət Zeynalov
Fəl.ü.f.d. Gündüz Süleymanov
İlah.ü.f.d. Aqil Şirinov
Hüq.ü.e.d. Habil Qurbanov

A.A.Əlizadə, E.M.Səmədov. İslam: Tarix, Fəlsəfə və Hüquq. Ensiklopedik Lüğət. Bakı: 3 Saylı Mətbəə, 2016, 400 səh.

*Azərbaycan oxucusuna təqdim olunan “İslam: Tarix, Fəlsəfə və Hüquq” ensiklopedik lüğətində kəlam, fəlsəfə, hədis, təfsir və digər İslami elmlərə aid anlayış, kateqoriya, hadisə və şəxsiyyətlər müasir şərh və izahlarla oxucuların ixtiyarına verilmişdir. Əsərin işlənmə metodologiyasında mötədillik əsas götürülmüş, heç bir təriqətə, məzhəbə və ya əqidəyə üstünlük verilməmişdir. Bütün anlayışlar haqqında qısa, konkret və obyektiv məlumat verilmişdir. Ayrıca, təqdim olunan Ensiklopedik lüğət həm mütəxəssislər, həm də geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

## ÖN SÖZ

Azərbaycanda yaşayan xalqların milli kimliklərinin formalaşmasında İslamın xüsusi yeri vardır. Əsrlər boyu İslam mənəviyyatı və dəyərləri üzərində insanların məişəti, yaşam və düşüncə tərzləri formalaşmışdır. Azərbaycanda müxtəlif millət və xalqların yaşamasına baxmayaraq, İslam onları ümumi ideologiya ətrafında birləşdirməyə qadir olmuşdur.

Eyni zamanda, dini-siyasi proseslər bu dinə baxışların yenilənməsi zərurətini də ortaya çıxarır. Son dövrlər elm və texnikanın inkişafı, qloballaşma proseslərinin dərinləşməsi, informasiya cəmiyyətinin formalaşması insanların düşüncələrini, həyata baxışlarını köklü olaraq dəyişdirmişdir. Artıq keçmiş dəyərlərlə yaşamaq yetərli olmamış, yeniləşən dünyada insanlar yeni dəyərlər arxasınca getməyə başlamışdırlar. Buna görə də, dünya xalqları bu gün öz ənənəvi dəyərlərinə yenidən baxmaq, onları həyatın yeni tələblərinə uyğunlaşdırmaq məcburiyyətində qalmışlar. Bir yandan yeni dəyərlərlə yaşamaq keçmişin bir çox qayda-qanunlarının ortadan qalxmasına səbəb olur, digər tərəfdən isə keçmiş dəyərlərin unudulması milli kimliyimizin sarsılması ilə nəticələnə bilər. Bu baxımdan zaman irəlilədikcə bu problemlərin daha da kəskinləşəcəyi müşahidə edilməkdədir. Bu səbəblə, İslam dəyərlərinə yeni metodla yanaşmaq günün tələblərindən hesab edilir. Çünki, keçmişlə günümüzü birləşdirən körpünün salınması yeni nəslin gələcək rifahına xidmət edəcəkdir. Gənc nəslin keçmiş dəyərləri unutmaması üçün onlara bu dəyərləri yeni metodlarla ötürmək lazımdır.

Bu baxımdan Azərbaycan oxucusuna təqdim olunan *"İslam: Tarix, Fəlsəfə və Hüquq" ensiklopedik lüğəti* də bu məqsədlə hazırlanmışdır. Bu əsərdə kəlam, fəlsəfə, hədis, təfsir və digər İslami elmlərə aid anlayış, kateqoriya, hadisələr və şəxsiyyətlər müasir şərh və izahlarla verilmişdir. Əsərin işlənmə metodologiyasında mötədillik əsas götürülmüş, heç bir təriqətə, məzhəbə və ya əqidəyə üstünlük verilməmişdir. Bütün anlayışlar haqqında qısa, konkret və obyektiv məlumat verilmişdir. Ümumiyyətlə, kitab İslam elmləri haqqında ümumi təsəvvürün formalaşması üçün geniş məlumat vasitəsi kimi nəzərdə tutulmuşdur. Əlbəttə, bütün İslam irsini bu kitabda vermək mümkün deyildir. Bu səbəbdən də, kitabdakı mövzular ümumiləşdirilərək aşağıda şəkildə verilmişdir:

-Məhəmməd peyğəmbərlər , onun əhli-beyti və səhabələrin həyat yolları;

-İslamda əqidə, hüquq və mənəviyyat məktəbləri:

-Təriqətlər və dini cərəyanlar;

-İslamın tarixi, kəlamı və fəlsəfəsi.

Ensiklopedik lüğətdə 700-dən çox böyük və kiçik məqalələr yer almışdır. Məqalələrdə tarixi hadisələr həm hicri, həm də miladi təqvimlərlə göstərilmişdir. Burada birinci hicri, sonra isə miladi tarix göstərilir (32/653 il kimi). Bəzi hallarda

isə tarixi hadisələr yalnız miladi təqvimlə göstərilmişdir. Məqalələrdə *kursiv* olaraq göstərilən söz və ifadələr kitabda eyni adlı məqalənin mövcudluğundan xəbər verir. Kitabın quruluşunda da yeniliklər vardır. Burada bütün termin və anlayışlar həm əlifba sırası, həm də mövzular üzrə verilmişdir. Eyni zamanda, kitabın sonunda məqalələr mövzular üzrə təsnif edilmişdir.

Azərbaycanda bu kitabdan öncə İslam ensiklopedik lüğəti müxtəlif müəlliflər tərəfindən də nəşr edilmişdir. Belə ki, bu nəşrlər əsasən rus dilindən tərcümə olunmuş kiçik tutumlu "İslam - Qısa məlumat kitabçası" (Bakı, 1989), digəri isə Z. Bünyadovun "Məzhəblər və təriqətlər" (Bakı, 1997) kitabıdır. Bundan başqa "Qısa İslam Ensiklopediyası: İslama dair 1001 termin və xüsusi ad" (Bakı, 2012-2013) adlı böyük həcmli və çoxcildli ensiklopediyası işıq üzü görmüşdür. Ayrıca qeyd etmək lazımdır ki, fil.ü.e.d. G. B. Baxşəliyevanın redaktorluğu ilə Rusiyada nəşr edilmiş "İslam. Ensiklopediçeskiy slovar" (Moskva, "Nauka", QRVL, 1991) kitabının tərcüməsi əsasında "İslam: Ensiklopedik lüğəti" ( Bakı "Elm" 2013) kitabı dərc olunmuşdur. Bu kitablar öz dövrləri üçün olduqca əhəmiyyət kəsb edən elmi vasitələr hesab edilirlər. Təqdim olunan "İslam: Tarix, Fəlsəfə və Hüquq" ensiklopedik lüğəti isə bu nəşrlərlə müqayisədə yuxarıda göstərilən fərqli xüsusiyyətləri ilə seçilir.

# A

**ABBAS İBN ƏBDÜLMÜTTƏLİB** (32/653-cü ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin əmisi olmuşdur.*** Onu Əbül-Fəzl də adlandırırdılar. Abbas ibn Əbdülmüttəlib *Məhəmməd* peyğəmbərdən iki yaş böyük idi. Məhəmmədin anası vəfat etdikdən sonra onun atası *Əbdülmüttəlib* onu himayəsinə götürmüşdür. Beləliklə, Abbas Məhəmmədlə bir evdə böyümüşdür.

Abbas ibn Əbdülmüttəlib hələ gəncliyindən ticarətlə məşğul olduğundan, kifayət qədər zəngin idi. O, qardaşları ilə birlikdə *Kəbə* evinə *ziyarətə* gələn zəvvarlara xidmət göstərib, *Zəmzəm* quyusundan onlara su ikram edirdilər. Bu işini o, *İslamı* qəbul etdikdən sonra da davam etmişdir. *Vida həccində* Məhəmməd *peyğəmbər* quyuya yaxınlaşıb, Abbasdan su istəmişdir.

Məhəmmədə peyğəmbərlik verildikdən sonra, Abbas ibn Əbdülmüttəlib İslamı qəbul etməsə də, ona qarşı mövqe də tutmamışdır. O, hətta bəzi hallarda *peyğəmbərə* kömək belə etmişdir. Onun həyat yoldaşı Ümmül-Fəzl isə ilk müsəlman qadınlarından biri olmuşdur.

Bütün bunlara baxmayaraq, *Bədr* döyüşünə *bütpərəstlərin* tərəfində olmağa məcbur edilən Abbas ibn Əbdülmüttəlib müsəlmanlar tərəfindən əsir götürülmüşdür. Əsirlikdən azad olunduqdan sonra İslamı qəbul edərək, *Məkkəyə* qayıtmış, ancaq bir müddət müsəlman olduğunu gizlətmiş, *təqiyyədə* olmuşdur. O, oradakı müsəlmanlara köməklik göstərmiş, *Mədinədə hicrətdə* olan peyğəmbərə Məkkədəki vəziyyət haqqında xəbərlər göndərmişdir. Daha sonra, müsəlmanların Məkkəni fəth etməsinə az qalmış o da, *Mədinəyə* hicrət etmişdir. Müsəlmanlar Məkkəni fəth etdikdən sonra Abbas ibn Əbdülmüttəlib Məhəmməd peyğəmbərin tərəfində olmuş, Hüneyn döyüşündə bütpərəstlərə qarşı vuruşmuşdur. Məhəmməd peyğəmbərin vəfatından sonra isə Abbas ibn Əbdülmüttəlib *Xilafət* üçün böyük işlər görmüş və ilk üç *Raşidi xəlifələrə* yaxından köməklik göstərmişdir. O, İslam ordusu üçün böyük məbləğdə vəsait xərcləmiş, xüsusən də, Bizansa qarşı yürüşlərin bütün xərcini öz öhdəsinə götürmüşdür. Abbas ibn Əbdülmüttəlib xəlifə *Osmanın* xəlifəliyi zamanı dünyasını dəyişmişdir. Yüz ilə yaxın bir müddət keçdikdən sonra, onun soyundan olan varisləri *Xilafətə* başçılıq etmişdirlər. Məhz, *Abbasilər* sülaləsi onun soyundan gəlməkdədirlər.

**ABBASİLƏR** (132/749 – 656/1258) – ***Xilafəti beş əsr idarə etmiş qüreyşdən olan ərəb sülaləsidir.*** Onların soyu *Məhəmməd* peyğəmbərin əmisi *Abbas ibn Əbdülmüttəlibə* qədər yüksəlir. *Əməvilər* xilafəti əllərinə keçirdikdən sonra, ilk vaxtlarda Abbasilər onlara qarşı müxalif olmamış, lakin sonralar Əməvilərə qarşı üsyana qoşulmuş, hətta bu üsyana başçılıq belə etmişdirlər. Abbasilərin hakimiyyətə gəlmə tarixi *Abdullah ibn Zübeyrin* zamanından başlamışdır. O dövrlərdə Muxtar Səqəfi adlı bir şəxs iraqlıları *Hüseyn ibn Əlini* şəhid edənlərdən *qisas* almağa və Məhəmməd ibn Hənəfiyyənin imam kimi tanınmasına çağırışlar etmişdir. Onun səylərinin nəticəsində Taifdə Məhəmməd ibn Hənəfiyyənin imamlığını tanıyan və *qeysanilər* adlanan bir qrup ortaya çıxmışdır. Onlar onun vəfatından sonra öz başçıları kimi oğlu Abdullahı tanımışdırlar. O, daha çox Əbu Həşim adı ilə tanınırdı. Əbu Həşim Əməvilərə qarşı üsyana qalxmışdır. Sonra o, Abbasın soyundan olan qohumu Məhəmməd ibn Əli ibn Abdullahın yanına gedərək, Məhəmməd *peyğəmbərin* soyunun hakimiyyətdə olmasının və Əməvilərin devrilməsinin vacibliyini qeyd etmişdir.

Məhəmməd ibn Əli ibn Abdullah da onun bu çağırışını dəstəkləmiş, *hicrətin* 100-cü ilindən başlayaraq Əməvilərə qarşı yönələn təbliğata qoşulmuşdur.

Əbu Həşimin ölümündən sonra, onun *xəlifə* Süleyman ibn Əbdül-Məlik tərəfindən zəhərləndiyi haqqında şayiələr yayılmışdır. Ölümündən öncə o, öz yerinə Məhəmməd ibn Əlini təyin etmişdir.

Uzun müddət Abbasi dəvəti gizli həyata keçirilmişdir. Əməvilərə qarşı həlledici üsyanları Abbasilərin Kufədəki tərəfdarları təşkil etmişdirlər. Onların mərkəzi Xorasanda yerləşirdi. Hicrətin 124-cü ilində, Məhəmməd ibn Əlinin ölümündən sonra, onun oğlu İbrahim üsyançıların rəhbəri olmuşdur. 129-cu ildə o, keçmiş qul Əbu Müslüm adlı bir şəxsə Əməvilərə qarşı açıq silahlı üsyana çıxmaq əmrini vermişdir. O da, tərəfdarları ilə birlikdə Herat şəhərini ələ keçirmişdirlər.

Hadisələrin bu istiqamətdə inkişaf etdiyini görən Əməvilər İbrahimi həbs etmişdirlər. O, zindanda öldürülmüş, başqa rəvayətlərə görə isə öz əcəli ilə vəfat etmişdir. Ondan sonra Əməvilərə qarşı üsyana Abdullah ibn Məhəmməd Əs-Səffah başçılıq etmişdir. Əbu Müslüm və onun tərəfdarları irəliləyərək 130-cu ildə Mərvi ələ keçirtmişdirlər. Əməvilər bu hücumların qarşısını ala bilməmiş və hakimiyyətdən uzaqlaşmağa məcbur qalmışdırlar. Onların sonuncu *xəlifəsi* Mərvan hakimiyyəti itirdiklərini görüb, *Misirə* qaçmış və 132-ci ildə orada öldürülmüşdür.

Bu hadisələrin sonunda Abbasilər Xilafəti ələ keçirmişdir. Onların ilk xəlifəsi Abdullah ibn Məhəmməd əs-Səffah olmuşdur. Abbasilərin hakimiyyətə gəlməsindən sonra onların *Əli Əbu Talibin* varisləri ilə *ixtilafları* yaranmışdır. Çünki, onlar birbaşa Məhəmməd peyğəmbərin soyundan idilər. Buna görə də, Əli soyunun tərəfdarları onları xəlifə kimi görmək istəyirdilər. Əvvəl, Abbasilər Əli soyunun tərəfdarlarını təqib etmiş, sonralar isə bəzi xəlifələr onları özlərinə yaxın buraxmışdırlar. Abbasilər dövründə Xilafətdə fars mədəniyyətinin təsirləri də güclənmişdir. Abbasilər hakimiyyətini dörd dövrə ayırmaq mümkündür: yüksəliş; tənəzzül; Büveyhililərin təsiri altına düşmə (132/750 – 247/861); Səlcuqluların (467/1075 – 560/1194) təsiri altına düşməsi dövrləri.

Beləliklə, ilk olaraq Abbasilərin yüksəlişi tənəzzüllə nəticələnmişdir. Tənəzzül dövründə onlar türk əsilli ordu başçılarının təsiri altına düşmüşdürlər. Elə o dövrlərdən, Xilafətin parçalanması prosesi başlamışdır. Bundan sonra Abbasilərin hakimiyyəti formal xarakter daşıyırdı. Həqiqətdə isə onlar öncə iranlı Büveyhilərin, daha sonra isə türk Səlcuqluların təsiri altına düşmüşlər.

Səlcuq imperiyası dağıldıqdan sonra Abbasilər daha 60 il hakimiyyətdə qalmışdırlar. Onların xilafətdə hakimiyyətinə monqollar son qoymuşdur. Bundan sonra Abbasilər sülaləsinin nümayəndələrini *məmlüklər (II)* Misirə dəvət etmiş, onların xəlifəliyini formal olaraq tanımışlar. Hicri X/XVI əsrdə isə *osmanlı* sultanı I Səlim Misirdə məmlüklərin hakimiyyətinə son qoymuş, Misirə gələrək sonuncu Abbasi xəlifəsi hesab edilən Mütəvəkkildən xəlifəliyi almışdır. Bundan sonra Osmanlı sultanları bütün müsəlmanların xəlifəsi olmuşdurlar. Bu hadisədən sonra Abbasilər dövrü bitmişdir.

**ABDULLAH İBN ABBAS** (68/687-ci ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin tanınmış səhabəsi, İslam alimi və fəqihi olmuşdur.*** *Məhəmməd* peyğəmbərin əmisi *Abbasın* oğlu idi. Peyğəmbərin *Mədinəyə hicrət* etməsinə üç il qalmış *Məkkədə* doğulmuşdur. Məhəmməd *peyğəmbərin* yanında böyümüş, gənc yaşlarında ondan *İslam* dinin əsaslarını öyrənmişdir. *Hicrətin* səkkizinci ilinə qədər, Abdullah ibn Abbas öz ailəsi ilə Məkkədə yaşamışdır. Ancaq, şəhərin müsəlmanların əlinə keçməsindən az

öncə, onlar da Mədinəyə hicrət etmişdirlər. O, Hüneyn və Taif döyüşlərində, eləcə də, Məkkənin alınmasında iştirak etmişdir. Abdullah ibn Abbas *Raşidi xəlifələr* dövründə xəlifələrə yaxın olmuş, müsəlmanların Şimali Afrika və Təbəristana yürüşlərində iştirak etmişdir.

*Xəlifə Osmanın* vəfatından sonra Abdullah ibn Abbas *Əli ibn Əbu Talibi* xəlifə kimi tanıyıb, ona dövlət işlərində yaxından köməklik göstərmişdir. Əli onu idarəçilik qabiliyyəti səbəbi ilə Bəsrə şəhərinin başçısı təyin etmişdir. Bu vəzifədə olarkən o, *xaricilərin* üsyanını yatıra bilsə də, sonra dövlət işlərindən uzaqlaşmış, həyatının sonuna kimi Məkkədə yaşayaraq, elmlə məşğul olmuşdur. Xəlifə *Müaviyə* öldükdən sonra Abdullah ibn Abbas, *Hüseyn ibn Əlini* xəlifə Yəzidə qarşı çıxmış kufəlilərin çağırışına uymamağa dəvət etmiş, onun oraya getməsinin məqsədə uyğun olmadığını qeyd etmişdir. Buna baxmayaraq, Hüseyn Kufəyə yollanmış və orada *şəhid* olmuşdur.

Abdullah ibn Abbas *fiqh* elminin ən mahir bilicisi idi. Hər hansı hökmü verdikdə o, ilk olaraq *Qurana* müraciət edirdi. Orada problemin həllini tapmayanda isə o zaman Məhəmməd peyğəmbərin həyat yoluna, daha sonra onun səhabələrinin həyat nümunələrinə istinad edərək problemləri həll edirdi. Bundan başqa, Abdullah ibn Abbas Quran *təfsirçisi* kimi də tanınırdı.

Abdullah ibn Abbasın elmini, mədəniyyətini və bacarığını müsəlmanların düşmənləri də dəyərləndirmişlər. O, elçi kimi müsəlman ordusunun rəhbərliyi adından Bizansın Şimali Afrika bölgələrinin başçısı Georgiusun yanına göndərilmiş, orada elmi mübahisələrdə iştirak etmişdir. Onu dinləmiş Georgius, Abdullah ibn Abbası ən bilikli ərəb adlandırmışdır. Abdullah ibn Abbas 70 yaşında Taifdə vəfat etmişdir.

**ABDULLAH İBN ƏBDÜLMÜTTƏLİB** – ***Məhəmməd peyğəmbərin atası idi.*** Abdullah atası Əbdülmüttəllibin sevimli oğlu olmuşdur. Rəvayətlərə görə *Əbdülmüttəlib* çoxlu oğlu olarsa, birini qurban verəcəyinə söz vermişdir. İllər sonra onun on oğul övladı dünyaya gəlmişdir. Buna görə də Əbdülmüttəlib verdiyi sözü tutmuş və övladlarından birini qurban verməyi qərara almışdır. Onun atdığı püşk oğlu Abdullaha düşmüşdür. Beləliklə, Əbdülmüttəlib sevimli oğlunu qurban verməli idi. Ancaq sonra, qüreyşlilərin təkidi ilə o öz fikrindən daşınmış, oğlunun yerinə 100 dəvəni qurban kəsmişdir.

Daha sonralar Əbdülmüttəllib Abdullahı nüfuzlu ərəb qəbilələrindən birinə məxsus *Əminə* adlı bir qızla evləndirmişdir. Bu evlilikdən Məhəmməd dünyaya gəlmişdir. Ancaq, Abdullah gənc yaşlarında vəfat etdiyindən oğlu Məhəmmədi görə bilməmişdir. Bir çox tarixçilərin yazdıqlarına görə, Əminə hamilə olduğu zaman, o, ticarət işləri ilə əlaqədar Suriyaya getmiş, yolda qəfildən xəstələnərək Yəsrib (*Mədinə*) yaxınlığında vəfat etmişdir. O zaman Abdullahın 25 yaşı olduğu qeyd edilir.

**ABDULLAH İBN ƏMİR** (65/684-cü ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin tanınmış səhabələrindən biri olmuşdur.*** *Əmir ibn Asın* oğlu idi. Abdullah ibn Əmir *Məkkədə* doğulmuşdur. Bəzi rəvayətlərə görə o, səmimi şəxsiyyəti və imanı ilə digərlərindən seçilmişdir. Günlərinin çoxunu ibadətlərdə keçirən Abdullah, *müşriklərə* qarşı döyüşlərdə iştirak etmişdir. Süffeyn döyüşündə öz atası ilə birlikdə *Xəlifə Əlinin* tərəfdarları ilə döyüşmüşdür. Digər mənbələrdə qeyd edilir ki, Abdullah orada olsa da, döyüşdə iştirak etməmişdir. Rəvayətlərə görə, Abdullah ibn Əmir öz dövrünün ən elmli insanlarından biri olmuşdur. O, *Məhəmməd peyğəmbərdən* rəvayət edilən *hədislərin* yaxşı bilicisi kimi tanınmışdır. Bu istiqamətdə o, bir çox kitablar da yazmışdır. Eyni zamanda, müəllimlik fəaliyyəti ilə də

məşğul olmuşdur. O, Ərəb dilini gözəl bilməklə bərabər, qədim yəhudi (ibrani), eləcə də süryani dillərini də bilmişdir. Abdullah ibn Əmir 72 yaşında Misirin Fustat şəhərində vəfat etmişdir.

**ABDULLAH İBN MƏSUD** (32/653-cü ildə vəfat etmişdir) – ***İslamı ilk qəbul edənlərdən və Məhəmməd peyğəmbərin ən tanınmış səhabələrindən biri olmuşdur.*** O, *Məkkədə* doğulmuş, orada böyümüş və gənc yaşlarında çobanlıq etmişdir. *İslamı* qəbul etdikdən sonra o, *Məhəmməd* peyğəmbərdən ayrılmamış, müsəlmanların *Ərqəmin* evində olan məşvərətlərində iştirak etmişdir. O dövrdə müsəlmanlar, *bütpərəstlərin* təzyiqlərinə məruz qaldıqlarına görə, dini ayin və ibadətlərini açıq bir şəkildə yerinə yetirə bilmirdilər. Buna baxmayaraq, Abdullah heç nədən çəkinməmiş, *Quranın* "Ər-Rəhman" surəsini *Kəbədə* insanların qarşısında oxumuşdur. Buna görə o, *qureyşlilərin* işgəncələrinə məruz qalmışdır. Müşriklər İslamdan imtina etməsi üçün onu qızmar günəş altında qum üzərinə uzadaraq işgəncələr vermişdirlər. Ancaq, Abdullah ibn Məsud bu əzablara dözərək, inancından dönməmiş, heç bir nəticə əldə edə bilməyən qureyşlilər ondan əl çəkmək məcburiyyətində qalmışdırlar.

Təqiblərdən qurtulmaq üçün Abdullah ibn Məsud ilk öncə Həbəşistana, sonra isə *Mədinəyə hicrət* etmişdir. Mədinəyə hicrət etdikdən sonra, Abdullah ibn Məsud müsəlmanların güclənməsi üçün əlindən gələn hər şey etmişdir. O, *Bədr, Uhud, Xəndək, Xeybər, Hüneyn,* eləcə də Məkkənin alınması uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

Məhəmməd *peyğəmbərin* vəfatından sonra Abdullah ibn Məsud İslam ordusunun döyüşçüsü kimi, Suriyada Bizans imperiyasına qarşı yürüşlərə qatılmış, sonra isə xəlifə *Ömər* onu Kufədə hakim vəzifəsinə təyin etmişdir. Bu vəzifəni Abdullah ibn Məsud böyük məharətlə yerinə yetirmişdir. O, qanun pozuntusunu heç kimə, yaxınları və dostlarına belə bağışlamırdı. Abdullah ibn Məsud çox bilikli, güclü yaddaşı ilə seçilən bir insan olmuşdur. O, Quranı əzbərdən bilirdi. O, Quran və *hədislərin* ən yaxşı bilicisi kimi *fiqhi* hökmlər verirdi. İmanlı şəxs olaraq, o, *zühd* həyatı yaşamış və müəllimlik etmişdir. Onun çoxlu tələbələri olmuşdur.

Abdullah ibn Məsud İraq fiqh məktəbinin yaradıcısı hesab edilir. Onun Kufədə işlətdiyi hüquqi metodları *Əbu Hənifə* inkişaf etdirmişdir. *Hənəfi məzhəbinin* əsasları onun fiqhi yanaşmaları üzərində qurmuşdur. O, Quran və hədislərdə problemin həlli yollarını tapa bilməyəndə, *qiyas* metodundan istifadə edirdi. Abdullah ibn Məsud altmış yaşında dünyasını dəyişmişdir.

**ABDULLAH İBN ÖMƏR** (74/693-cü ildə öldürülmüşdür) – ***Məhəmməd peyğəmbərin ən tanınmış səhabələrindən biridir.*** Abdullah *Ömər ibn Xəttabın* oğlu idi. Məhəmmədə *peyğəmbərlik* veriləndən ya üç, ya da bir il öncə *Məkkədə* doğulmuşdur. Abdullah ibn Ömər *İslamı* gənc yaşlarında qəbul edib, *Mədinəyə hicrət* etmişdir. Yetkinlik yaşına çatmadığına görə *Bədr* və *Uhud* döyüşlərində iştirak etməmişdir. Ancaq, 18 yaşından sonra *Xəndək* döyüşündə, daha sonra Muta, Təbuk yürüşlərində və Məkkənin alınması uğrunda gedən müharibələrdə döyüşmüşdür.

*Məhəmməd* peyğəmbərin vəfatından sonra, Abdullah ibn Ömər siyasi məsələlərlə maraqlanmamış və ona görə də Xilafətdə heç bir vəzifə tutmamışdır. O, İslam ordusunun Şimali Afrikaya (hicri 27-ci ildə), Təbəristana, Xorasana (hicri 30-cü ildə) etdikləri yürüşlərdə iştirak etmişdir. Xəlifə *Osmanın* qətlindən sonra Abdullah ibn Ömər *Əli ibn Əbu Talibin* xəlifəliyini tanımışdır. Xilafətdə baş verən daxili savaşda Əliyə rəğbəti olsa belə, bitərəf qalmış, savaşlarda iştirak et-

məmişdir. Müaviyə ibn Əbu Süfyan xəlifə olandan sonra, Abdullah ibn Ömər yenidən savaşlarda iştirak etməyə başlamış, Konstantinopolisin (İstanbulun) ətrafında gedən döyüşlərdə vuruşmuşdur. O, *Əməvi* hakimiyyətinin təqiblərindən çəkinməyərək, amansızlığı ilə seçilmiş İraq valisi Həccaca qarşı mübarizəyə qoşulmuşdur. Bundan başqa, Abdullah ibn Ömər *Abdullah ibn Zübeyrə* çox hörmət bəsləmiş və onun faciəli ölümünə görə qəlbdən üzülmüşdür. Abdullah ibn Ömər savadlı insan olmuşdur. O, *Quran* və onun *təfsirinin, hədislərin,* İslam *fiqhinin* yaxşı bilicisi kimi tanınırdı. Alimlərin bir çoxu hökmlər verərkən ona istinad etmişlər. *Hicrətin* 74-cü ilində, Abdullah ibn Ömər şəxsiyyəti bilinməyən bir nəfər tərəfindən həccdə olarkən, ağır xəsarət yetirilərək öldürülmüşdür. Rəvayətlərə görə, bu cinayəti Həccacın göndərdiyi adamlar həyata keçirmişdirlər.

**ABDULLAH İBN RƏVAHA** (8/629-cü ildə öldürülmüşdür) – ***Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuşdur.*** O, *Xəzrəc* qəbiləsindən bir ailədə doğulmuşdur. Müsəlman olduqdan sonra *Əqəbə beyətində* (sadiqlik andı) mədinəlilərin sıralarında yer almışdır. *Məhəmməd* peyğəmbərin yaxın səhabəsi, eləcə də katibi olmuşdur. *Bədr, Uhud, Xəndək, Xeybər* döyüşlərində müsəlmanların sıralarında vuruşmuşdur. Muta döyüşündə qəhrəmancasına vuruşaraq *şəhid* olan Abdullah ibn Rəvahanın gözəl şeir yazmaq bacarığının olduğu da qeyd edilir. O, bəzi *bütpərəst* şairlərin Məhəmməd *peyğəmbərə* qarşı yazdıqları alçaldıcı seirlərinə qarşı cavablar yazdığı bilinir. Bu isə *Quranda* (26: 224-227) qeyd edilmişdir.

**ABDULLAH İBN SALAM** (22/643-cü ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuşdur.*** O, *Mədinədə* doğulmuşdur. *İslamı* qəbul etməzdən əvvəl o, Yəhudi kahini olmuşdur. O dövrdə onun adı Hüseyn ibn Salam olmuşdur. O, sonuncu *peyğəmbərin* gələcəyinə inanmışdır. *Məhəmməd* peyğəmbər haqqında insanlardan eşitsə də, onunla tanış olmamışdır. Peyğəmbər *Mədinəyə hicrət* etdikdən sonra, Hüseyn onun yanına gəlmiş və onun simasında əski yəhudi mənbələrində gəlişi gözlənilən sonuncu *Tanrı* elçisini tanımışdır. Bundan sonra o, İslamı qəbul etmiş və Məhəmməd peyğəmbər də onu Abdullah ibn Salam adlandırmışdır.

Abdullah ibn Salam yazıb-oxumağı bacarmış, həyatı boyu dini elmlərlə məşğul olmuşdur. Ondan bir neçə *hədis* də rəvayət edilmişdir. Xəlifə *Əbu Bəkrin* xəlifəliyi dövründə, İslamdan çıxan ərəb qəbilələrinə qarşı aparılan savaşlarda (*riddət II*) iştirak etmişdir.

**ABDULLAH İBN SƏBA** – bax: **SƏBAİLƏR.**

**ABDULLAH İBN ÜBEY** (9/630-cu ildə vəfat etmişdir) – ***Mədinədə Xəzrəc qəbiləsinin hörmətli insanlarından biri, sonralar isə münafiqlər qruplaşmasının başçısı olmuşdur.*** Abdullah ibn Übey *Mədinənin* başçısı olmaq istəmiş, ancaq şəhərdə *İslamın* yayılması, eləcə də *Məhəmməd* peyğəmbərin *Mədinəyə hicrət* etməsi, onun istəklərinin reallaşmasının qarşısını almışdır.

Mədinə İslamın dayağına çevrildikdən sonra, Abdullah ibn Übey müsəlman kimi görünsə də gizli İslam düşməni olmuşdur. Onun törətdikləri əməllər Məhəmməd *peyğəmbərə* və müsəlmanlara qarşı yönəlmişdir.

Abdullah ibn Übey *Uhud* döyüşündə sayı 300-ə yaxın dəstəsini geriyə çəkməklə, müsəlman qoşununu gücdən salmışdır. Bundan sonra o, zaman-zaman müsəlmanların düşmənləri ilə gizli danışıqlar aparmışdır. Onun məqsədi Mədinədə gücünü artırmaq və

Məhəmməd peyğəmbəri şəhərdən qovmaq idi.

Abdullah ibn Übey peyğəmbər və müsəlmanlar haqqında yalanlar danışaraq, onları pisləmişdir. Ancaq, etdikləri bu pis əməllərə baxmayaraq, heç bir nəticə əldə edə bilməmişdir. Çünki, onun və dəstəsinin müsəlmanlarla mübarizə aparmaq gücləri olmamışdır. Onların Mədinə yaxınlığındakı *Quba* adlanan yerdə tikdikləri *"Dirar"* məscidini öz siyasi mərkəzlərinə çevirmək istəkləri də uğursuzluqla nəticələnmişdir. Sonra isə bu *məscidi* müsəlmanlar dağıtmışlar.

Abdullah ibn Übey müsəlmanların Təbuk yürüşündən sonra ölmüşdür. Müsəlmanlara qarşı düşməncəsinə davranmasına baxmayaraq, Məhəmməd peyğəmbər onun *cənazəsi* üzərində *cənazə* namazını qıldırmışdır. Ancaq, bundan sonra ölən *münafiqlər (I)* üçün bu namazın qılınmasını qadağan etmişdir (*Quran,* 9:84).

**ABDULLAH İBN ÜMM MƏQTUM** (14/635-ci ildə şəhid olmuşdur) – *Məhəmməd peyğəmbərin səhabələrindən olan Abdullah ibn Ümm Məqtum, Məhəmməd peyğəmbərin həyat yoldaşı Xədicənin xalası oğlu idi. Bilal Həbəşi* ilə birlikdə, *İslamın* ilk *müəzzinlərindən* olmuş və bu səbəbdən də o, Quranda (*surə* 80) ayələrində anılmışdır. *Qureyş* qəbiləsindən olan Abdullah ibn Ümm Məqtum anadangəlmə kor olmuşdur. O, *Məkkədə* doğulmuşdur. İslamı ilk qəbul edənlərdən biridir. Müsəlman olduğuna görə təqiblərlə üzləşmiş, bu səbəbdən də *Mədinəyə hicrət* etməyə məcbur qalmışdır. *Müsab ibn Ümeyrlə* birlikdə mədinəlilərin arasında İslamı yaymışdır. Abdullah ibn Ümm Məqtum *Quranın* yaxşı bilicisi hesab edilirdi. Kor olmasına baxmayaraq o, döyüşlərə qatılmış, döyüşçülərə yardım etmiş və döyüşlərdə bayraqdar kimi vəzifə almışdır. Xəlifə *Ömərin* hakimiyyəti dövründə İslam ordusu iranlıları Qadisiyyə döyüşündə məğlub etmişdir. Bu döyüşdə İslam ordusunun bayraqdarı olan Abdullah şəhid olmuşdur.

**ABDULLAH İBN ZEYD** (22/644-cü ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin tanınmış səhabələrindən biri olmuşdur.*** Rəvayətlərə görə, namaza *azanın* necə səslənməsi barədə yuxusunu *Məhəmməd peyğəmbərə* söyləmiş, o da bunu bəyənmişdir. Abdullah ibn Zeyd Mədinənin *Xəzrəc* qəbiləsindən idi. O, *Əqəbədə* peyğəmbərə *beyət* edən ilk müsəlmanlardan biri olmuşdur. Məhəmməd peyğəmbər *Mədinəyə hicrə*t etdikdən sonra, *Bədr* və digər döyüşlərdə iştirak etmişdir. *Məkkənin* fəthində xəzrəclilərin bayraqdarı olmuşdur. Abdullah ibn Zeyd 64 yaşında xəlifə *Osmanın* hakimiyyəti dövründə vəfat etmişdir.

**ABDULLAH İBN ZÜBEYR** (1/622 – 73/692) – ***Məhəmməd peyğəmbərin tanınmış səhabələrindən biri olmuşdur.*** O, *Zübeyr ibn Əvvamın* oğludur. O, həm də dövrünün siyasi xadimi olmuşdur. *Quran təfsirinin, fiqh* elminin və *hədislərin* bilicilərindən hesab edilir. Onun nəql etdiyi 30-dan artıq hədis müxtəlif kitablarda yer almışdır.

Abdullah ibn Zübeyr *hicrətin* birinci ilində Mədinədə, *mühacirlər* arasında doğulmuşdur. *Məhəmməd* peyğəmbər onun dünyaya gəlməsinə sevinmiş, körpəni Abdullah adlandırmışdır. O, *peyğəmbərin* yanında böyüyərək, ondan dərin *elm* öyrənmişdir. *Hic rətin* 13-cü ilində, Abdullah ibn Zübeyr hələ 12 yaşında olarkən Yərmuk döyüşünü izləmiş, yetkinlik yaşına çatanda isə *Misirdə*, daha sonra Şimali Afrikada bərbərlərə qarşı yürüşlərdə iştirak etmişdir.

Abdullah ibn Zübeyr igidliyi, əqidəsi, ədaləti, yüksək əxlaqı, dərin düşüncəsi və digər müsbət xüsusiyyətləri ilə başqalarından seçilmişdir. O, təzyiqə, zülmə və ədalətsizliyə qarşı mübarizə aparan şəxs kimi tanınmışdır. *Hüseyn ibn Əli* ilə birlikdə *xəlifə*

*Müaviyənin* oğlu Yəzidin hakimiyyətini tanımamışdır. O, Yəzidin ilk xəlifələrin tərtib etdiyi idarə etmə üsulundan yayınmasına və *Əməvilərin* hakimiyyətdə möhkəmlənməsinə qarşı çıxmışdır.

Abdullah ibn Zübeyrə *Hüseyn ibn Əlinin* faciəli ölüm xəbəri çatanda, o xəlifə Yəzidə qarşı çıxmış, Məhəmməd peyğəmbərin nəvəsinin ölümündə günahkar olan sülaləyə tabe olmaq istəməmişdir. O, Əməvilərə qarşı olan üsyançılara başçılıq etmişdir. *Məkkə və Mədinə* rəhbərləri, daha sonra isə bütün hicazlılar ona dəstək olmuş, onu xəlifə kimi tanımışdırlar. Əməvi xəlifəsi Yəzid, onun üzərinə ordu göndərməsinə baxmayaraq, onun müqavimətini qıra bilməmişdir.

Tərəflər arasında gedən döyüşlər zamanı, xəlifə Yəzidin ölüm xəbəri gəlmiş, bundan sonra Əməvi ordusu Hicazdan Suriyaya çəkilmiş, bu bölgədə hakimiyyət Abdullah ibn Zübeyrə keçmişdir. Onun xəlifəliyini Yəmən, Bəsrə, Kufə, Xorasan, eləcə də bir sıra başqa şəhərlər və bölgələr tanımışlar. Əməvilər isə yalnız Suriya və *Misirin* ayrı-ayrı bölgələrini öz əllərində saxlaya bilmişlər. Beləliklə, *İslam* alimlərinin çoxu Abdullah ibn Zübeyri xəlifə kimi tanımışlar. Onun hakimiyyəti *hicrətin* 64-cü ilindən 73-cü ilə qədər davam etmişdir. Ancaq, Əbdül-Məlik ibn Mərvan dövründə güclənən Əməvilər, Abdullah ibn Zübeyrin hakimiyyətinə son qoya bilmişlər. Əməvi ordusunun baş komandanı Həccac, Məkkəni ələ keçirmiş və döyüşlərdə şəhər böyük dağıntılara məruz qalmışdır. Abdullah ibn Zübeyr şəhərə girən Əməvi qoşunu ilə sona qədər vuruşaraq, 73 yaşında Məkkə *məscidində* həlak olmuşdur.

**ABİD** – ***Allaha bütün qəlbi ilə inanaraq bütün varlığı ilə Ona qulluq etməyə çalışan, Allahdan qorxan, bütün dini ayinləri yerinə yetirən və yaşadan, günlərini ibadətlərdə keçirən, yüksək əxlaqi xüsusiyyətləri ilə seçilən müsəlmandır.*** Abid insanlar *İslamın* ilk dövrlərindən günümüzə qədər hər dövrdə mövcuddurlar. Sufi ənənəsinə görə, abidlər *Məhəmməd peyğəmbərin* və onun ardıcıllarının yolu ilə getmiş, öz həyatlarını bütövlüklə *Allaha* həsr etmiş və *dünyanın* aldadıcı gözəlliklərinə aldanmamış insanlardır.

**AD** – ***Yəmənin mağaralı dağlarında yaşamış, Quranda (51: 41-42) adı anılan qədim bütpərəst bir qövm olmuşdur.*** Onlara göndərilmiş *Hud peyğəmbər*, onları *Allaha* inanmağa və *günahlardan* çəkinməyə dəvət etmişdir. Buna baxmayaraq, bu qövm *bütpərəstlikdən* və çirkin əməllərindən əl çəkməyəcəklərini təkid etdikdə, rəvayətlərə görə *Allah* onları yeddi gecə, səkkiz gün dayanmadan əsmiş qasırğa ilə məhv etmişdir.

**ADƏM** – ***İlk insan və bəşəriyyətin atası hesab edilir.*** *Quran* ayələrinə görə *Allah* Adəmi su ilə qarışdırılmış gildən yaratmış, sonra ona *ruh* vermiş və bütün *mələklərə* insana *səcdə* etməyi buyurmuşdur. Bu da insanın üstün bir varlıq olmasının əsas göstəricisi idi. Ancaq, öz təbiəti və yaradılışı ilə mələklərdən fərqlənən *İblis* adında bir *cin*, insana səcdə etməyib, özünün daha üstün olduğunu bildirərək insanı tanımamışdır. Bununla da İblis, Allahın əmrini yerinə yetirməmiş, Ona qarşı çıxmış və yolunu azmışdır.

Sonra, Allah Adəmi gözəl bir bağda (cənnətdə) məskunlaşdırmış, orada onun tənhalığını aradan qaldırmaq üçün onun sol qabırğasından *Həvvanı* yaratmışdır. Allah onlara *cənnətdəki* bütün nemətlərdən istifadə etməyi icazə vermiş, təkcə bir ağaca yaxınlaşmamağı əmr etmişdir (Quran, 2: 35). Ancaq İblis, Adəm və Həvvanı yoldan çıxarmış, onlar da İblisin fitnəsinə uyaraq qadağan olunmuş ağacın meyvələrini yemişdirlər (Quran, 7: 20-22). Bu *günahı* etdikdən sonra Allah onlara qəzəblənərək onları cənnətdən yer üzünə qovmuşdur (Quran, 7: 24). Sonra etdiklərindən peşman olan ilk insanlar *tövbə* etmişdirlər (Quran, 7: 22-23).

Bəzi rəvayətlərə görə Adəm Seylon adasına, Həvva isə Ciddəyə (Ərəbistana) endirilmişdir. Onlar 200 il boyu sıxıntılar çəkmiş, Allahın onları bağışlaması üçün çoxlu *dualar* etmişlər. Nəhayət, Allah onların dualarını qəbul edib, törətdikləri günahları bağışlamışdır (Quran, 20: 122). Bəzi rəvayətlərə görə, günahlarının *kəffarəsi* olaraq onlara *həcci vacib* qılmışdır.

Rəvayətlərdə, Allahın bu buyruğunu yerinə yetirən Adəm və Həvva uzun sürən ayrılıqdan sonra *Ərəfat* vadisində görüşmüşlər. İndiki *Məkkə* torpaqlarına gələn Adəm, *Kəbəni* inşa etmiş, sonra isə davamlı olaraq həcc ibadətini yerinə yetirmişdir. Daha sonralar isə Adəm və Həvva indiki Suriyaya doğru istiqamət almış, orada onların *Şit, Habil və Qabil* adlı uşaqları dünyaya gəlmişdir. Bu uşaqlardan isə fərqli dillərdə danışan insan qəbilələri yaranmışdır. Uşaqları, nəvə və nəticələri dünyaya gələndən sonra Adəmə *peyğəmbərlik* verilmiş və *Cəbrayıl* vasitəsi ilə *vəhylər* almışdır (Onlara *"səhifələr"* deyilir). Bununla da, o öz övladlarına dinin əsaslarını öyrətməkdən məsul tutulmuşdur. Bəzi rəvayətlərə görə Adəm 2000 il yaşamış, Həvva isə onun vəfatından 40 il sonra dünyasını dəyişmişdir. Adəmi *İslam* ənənəsində həmçinin "Bəşəriyyətin atası" da adlandırırlar.

**ADƏT** – ***Xalqların məişətlərində tarix boyu formalaşaraq kök salmış ənənələrdir.*** *Adətlərin* yaranması cəmiyyətin idarə olunması və nizamlanması ehtiyacından irəli gəlir. *İslam* hüquqçuları cəmiyyətdə münasibətlərin qurulması və tənzimlənməsində *şəriətə* qarşı olmayan adətlərə böyük əhəmiyyət vermişdirlər (Quran, 7: 28).

Ayrıca, İslam ənənəsində adət və örflər dəlil kimi də istifadə olunmaqdadır. İslam hüquqçuları *Quran* və ya *hədislərdə* həlli yolu tapılmayan problemin ortadan qaldırılmasında bu vasitədən istifadə etmişlər. Adət doğru və yanlış ola bilər, doğru adət *şəriətə* uyğundur, buna görə də tətbiq edilə bilər; yanlış adət isə, şəriətə zidd olduğuna görə, tətbiq edilə bilməz.

**ADÜL-İRƏM** – ***çoxsütunlu İrəm deməkdir*** (Quran, 89: 7-8). Bu memarlıq abidəsini *Ad* qövmü (cənubi Ərəbistanda) ucaltmışdır. Rəvayətlərə görə bu əzəmətli abidə mənbələrdə həkk olunmuşdur. Bu möhtəşəm abidəni ucaldan adlılar çox təkəbbürlü olduqlarından *Allaha* tabe olmamışlar. Buna görə də, Allah onları doğru yola yönəltmək üçün *Hud peyğəmbəri* göndərmişdir. Ancaq, buna baxmayaraq Ad qövmü onu qəbul etməmiş və yenə də, öz pis əməllərinə davam etmişlər. Bu səbəbdən də, Allah onları cəzalandıraraq yer üzündən silmişdir.

**AXİRƏT** – ***"son" mənasını ifadə edən ərəb dilindəki axır sözünün müənnəs formasıdır.*** *Quranın* 26 yerində "son gün", 9 yerdə "son qərar tutulan yer", bir yerdə "son yaradılış", 50 yerdə isə dünya ilə eyni mənada istifadə edilir.

Axirət *dünya* həyatından sonra başlayıb əbədiyyətə qədər davam edəcək ikinci həyatdır. Dünya həyatını izləyən ona oxşar, ancaq fərqli və ən önəmlisi isə ölümsüz bir həyatı, əbədiyyəti əhatə edir. İnsanın ölümü ilə bədəndən ayrılan *ruh* axirət aləminin başlanğıcı olan qəbir həyatını yaşayar.

Bu fikir digər səmavi dinlərdə (yəhudilik və xristianlıq) və *İslamda* daha dərin şəkil almışdır. *Tövratda* dünya həyatından sonra ruhun ölməzliyi və insanların imtahana çəkiləcəkləri, işlədikləri əməlin əvəzini alacaqları, ölümdən sonra Tanrının görüləcəyi də ifadə edilir. Bununla bərabər Matta İncilində (22/23-30), Sadduki *məzhəbinə* bağlı *yəhudilərin* Musa peyğəmbərin nəql etdiyi axirət ilə əlaqəli məsələni inkar etdikləri bildirilir.

*İncildə* istər axirət, istərsə möcüzə inancı

açıq bir şəkildə mövcuddur. Quranda isə *Nuh, İbrahim, Yusif,* Musa və *İsa* kimi *peyğəmbərlərin öz ümmətlərinə* axirət əqidəsini təlqin etdikləri bildirilir. Ayrıca *Allaha* və axirət gününə iman gətirən Yəhudi, Nəsrani və *Sabiilərin* qurtuluşa nail olacaqları da Quranda qeyd edilir. Bununla bərabər axirətə inananların "özündən əvvəlki ilahi kitabları təsdiqləyən" Quranı qəbul edəcəkləri xəbəri də verilir. Qurandan əvvəlki müqəddəs kitabların həm kanonik (kilsə tərəfindən tanınan), həm də apokrif (kilsə tərəfindən tanınmayan) qəbul edilən nüsxələrində axirət inancına yer verilmişdir.

Tədqiqatçıların bir çoxu hesab edir ki, İslam axirət inancına aid düşüncələri Yəhudilik və Xristianlıqdan almış olması ehtimalı yoxdur. Səmavi dinlərin təməl əsaslarından birini təşkil edən axirət inancı arasında oxşarlığın olması o qədər də təəccüblü deyildir. Çünki, bu dinlər ilahi mənşəli dinlər olduğundan bənzərliyin olması da normaldır. Çünki bu dinlərin qaynağı *vəhydir.*

Fəxrəddin ər-Raziyə görə axirət mövzusunun əqli və nəqli olmaq üzrə iki yönü vardır. Bədənin və bizi əhatə edən kainatın *fani* olduğunu, öldükdən sonra təkrar dirilməyin də imkan daxilində olduğunu qəbul etmək mövzunun əqli yönünü təşkil edir. *Qiyamətin* necə qopacağı və axirət həyatının necə başlayacağı məsələsi isə mövzunun nəqli tərəfini bildirir.

İlk dövrlərdən başlayaraq filosoflar da esxatologiya ilə məşğul olmuşlar. Onların bu mövzu ilə məşğul olmaları dini inanclarından deyil, yaradılış fəlsəfəsi, əxlaq anlayışı və ruhun ölməzliyi problemindən irəli gəlir. Axirət və digər metafizik problemlər beş duyğu orqanı və pozitiv elmlərlə dərk edilməz. Ona görə də pozitiv *elm* adına dəqiq bir şey söyləmək absurd olardı. Axirət inanc məsələsi olduğu üçün ancaq ona inanmağı tələb edir.

Quran digər müqəddəs kitablarla müqayisədə axirət əqidəsini olduqca çox təlqin etməkdədir. Bununla birlikdə İslamiyyət dünya həyatından da əl çəkməyi tövsiyə etməmişdir. Dünya başlanğıc, axirət son olduğuna görə ikisi arasında tarazlıq qurmaq İslamda xoş qarşılanır. İnsan axirətə hazırlanarkən dünya nemətlərindən də faydalanmağı unutmamalıdır. Önəmli olan dünya həyatının *cazibəsindən* ayrıla bilib, axirət səadətini əldən verməməkdir. Çünki "Dünya həyatı axirətə nisbətən keçici və az faydalanılan yerdir". Axirət həyatına gəlincə isə əsl həyat, səadət və rahatlıq oradadır.

Rəvayətlərə görə qiyamət Allahın dörd böyük *mələklərindən* biri *İsrafil* iki dəfə "suru" üflədikdən sonra başlayacaqdır (Quran, 39: 68). Birinci dəfə üfürdükdən sonra bütün kainatdakı varlıqlar məhv olacaqdır. *Allah* göyü (Quran, 21: 104), ulduzları (Quran, 77: 8), dənizləri (Quran, 82: 3) də məhv edəcəkdir Bundan sonra dünya yenidən yaradılacaq (Quran, 18: 47; 14: 48) və yer üzü yenidən ovuc içi kimi hər yer görüləcək qədər düz olacaqdır. İsrafil ikinci dəfə suru üflədikdə isə bütün insanlar dirilib (Quran, 36: 51-52), bir yerə toplanacaqlar. Buna isə dini ədəbiyyatda "həşr" (toplantı yeri) deyilir. Bundan sonra Allahın ədalət məhkəməsi başlayacaq, (Quran, 36: 53, 54) orada hakim Allah olacaqdır (Quran, 1: 4). Məhəmməd peyğəmbər bütün müsəlmanlar üçün Allahdan *şəfaət* diləyəcək, sonda müsəlmanlar *cənnətə, kafirlər* isə *cəhənnəmə* girəcəklər.

İlahiyyatçılara görə, Allahdan başqa heç kim Qiyamət gününün nə zaman qopacağını bilmir. Ancaq, rəvayətlərdə qiyamətin yaxınlaşmasının əlamətləri haqqında məlumat vardır. Bunlardan bəziləri *Yəcuc* və *Məcucun* hücumu; İsa və *Mehdinin* zühuru; *Dəccalın* peyda olmasıdır.

Axirət hər bir insan üçün ölümdən sonra başlayır. Rəvayətlərə görə dünyasını dəyişən hər bir insan üçün öncə *qəbir əzabı* vardır.

Daha sonra insanın *ruhu "bərzəx"* adlanan bir yerdə qiyaməti gözləyəcəkdir. İnsan burada dünya həyatında etdikləri yaxşı və ya pis əməllərə görə cavab verəcəkdir.

Axirət Quran və *hədislərdə* geniş işıqlandırılmışdır. İslam mənbələrində bu məqamlar haqqında çoxlu əsərlər yazılmışdır. Ancaq buna baxmayaraq, axirət ilə əlaqədar hadisələri insan düşüncəsi ilə dərk etmək olduqca çətindir.

**AİŞƏ BİNT ƏBU BƏKR** (56/676-cı ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin həyat yoldaşlarından biri, Əbu Bəkr Siddiqin qızıdır.*** Təxminən miladi 612-ci ildə *Məkkədə* doğulmuş, kiçik yaşlarından müsəlman olmuşdur. Rəvayətlərə görə, Məhəmməd peyğəmbərlə 620-ci ildə Məkkədə evlənmiş, ər evinə isə iki ildən sonra köçmüşdür. O zaman onun 9 və ya 10 yaşı olmuşdur. Ancaq, bu hadisə barəsində başqa rəvayətlər də mövcuddur. İbn Hişamın eləcə də, digər tarixçilərin yazdıqlarına görə, Aişə ilk *İslamı* qəbul edənlərdən biridir. Buna görə də, onların izdivacı reallaşanda onun 15 yaşının olduğu qeyd edilir. Bununla belə, müxtəlif tarixçi və tədqiqatçılara görə, *peyğəmbərdən* əvvəl Cubeyr ibn Mutim Aişəyə elçi göndərmişdir. Buna görə də, tarixi hadisələrdən hərəkətlə deyə bilərik ki, peyğəmbərlə evləndiyi vaxt onun 17 yaşının olması ehtimal da vardır. Ayrıca, yaşının daha çox olduğu haqqında da ehtimallar güman edilir. Bu evlilik, erkən müsəlman cəmiyyətində hörmət sahibi olan *Əbu Bəkr Siddiqlə* Məhəmməd peyğəmbərin dostluq bağlarını daha da gücləndirmişdir. Rəvayətlərə görə, peyğəmbər Aişəni çox sevmişdir. *Hicrətdən* sonrakı dövrlərdə, Aişə müxtəlif döyüşlərdə iştirak edərək yaralı müsəlman döyüşçülərə tibbi yardım göstərmişdir. Rəvayətlərdə onun həyatında xoşagəlməyən bir hadisənin baş verdiyi haqqında məlumat verilir. Bəni Müstəliq qəbiləsinə qarşı yürüş zamanı o, müəyyən səbəblərdən karvandan uzaq düşmüş, Səfvan adlı bir müsəlman isə onu Məhəmməd peyğəmbərin yanına gətirmişdir. Müsəlmanların arasında olan *münafiqlər (I)* Aişə haqqında yalan və böhtanlar yaymağa başlamışdırlar. Onlar müsəlmanlar arasında onun namusunun kirləndiyi haqqında şayiələr yayaraq, orada müsəlmanlar arasında nifaq salmağa çalışmışdırlar. Buna görə o, çox üzülmüş, *Mədinəyə* qayıdandan sonra xəstələnmişdir. Hətta, bir ay atasının evində qalmışdır. Nəhayət, Məhəmməd peyğəmbərə *Allahdan* Aişənin günahsız olduğunu sübut edən ayə (*Quran*, 24: 1-10) nazil olmuş, bununla da problem ortadan qalxmışdır.

Məhəmməd peyğəmbər həyatının son günlərini Aişənin evində keçirmiş və onun yanında dünyasını dəyişmişdir. Onun vəfatından bir qədər sonra, Aişənin həyatında daha bir önəmli hadisə baş vermişdir. Xilafətdə daxili çəkişmələr gedən zaman o, Cəməl döyüşündə *xəlifə Əlinin* qoşununa qarşı vuruşanların sırasında yer almışdır. Ancaq, bu döyüşü qazanan xəlifə Əli ona böyük hörmət və izzət bəsləyərək Mədinəyə yola salmışdır.

Aişə bacarıqlı və bilikli qadın olmuşdur. Onun yaxşı yaddaşı olduğundan, çoxlu *hədislər* rəvayət etmişdir. O, *müsəlman* hüquq elminin yaradıcılarından biri hesab edilir. Ayrıca, Aişə tibb və ədəbiyyat sahəsində də bacarığa sahib olmuşdur. Aişə, Müaviyə ibn Əbu Süfyanın hakimiyyəti dövründə Mədinədə dünyasını dəyişmişdir.

**ALLAH** – ***yaradıcı və idarəedici xüsusiyyətə malik olan mütləq varlıqdır.*** Ondan başqa heç bir varlığın bu kimi mütləq xüsusiyyətləri yoxdur. Allahın olması *dünya* üçün *vacib*, yoxluğu isə imkansızdır. O, yetkin bir varlıqdır. *İslam* ilahiyyatına görə Allah bütün kainatın yaradıcısı və sahibidir. O, bütün yüksək xüsusiyyətləri özündə

ehtiva edən adlara sahib olan bənzərsiz varlıqdır. “Allah” sözü müəyyənlik bildirən “Əl” və “İlah” (Tanrı) sözünün birləşməsindən yaranmış, mənası isə “Ona ibadət etmək üçün layiqli olan” varlıq deməkdir.

Allah sözünü hələ qədim samilər (müasir ərəb və *yəhudilərin* əcdadları) istifadə etmişdirlər. Onlar tanrını Eloh (Eloah) adlandırmışlar. Bu söz Əhdi-Ətiqin “Yaradılış” kitabında da vardır və orada bu ad Tanrının adlarından biri kimi istifadə edilir.

Allah hər şeydən əvvəl mövcud olan, eləcə də sonsuzdur (əbədi və əzəlidir). Onu insan düşüncəsi ilə dərk etmək mümkün deyildir. Bununla belə, Onun ayrı-ayrı özəlliklərini insan düşüncəsi qavraya bilər. Məsələn, Allahın varlığı, mükəmməl olması kimi xüsusiyyətlərini dərk etmək mümkündür.

*Quranda* (45: 3-5) bu *dünya* haqqında düşünməyə çağırışlar vardır. Bütün dövrlərdə insanlar dünyanın yaradıcısı haqqında düşünmüşdürlər. Məsələn, mütəfəkkirlər dünyanın və insanın yaranması, insanın dünyadakı yeri haqqında çox saylı məsələləri cavablandırmağa çalışmışlar. Hələ qədim dövrün mütəfəkkirləri bir olan Yaradanın olduğunu etiraf edərək, Onu bir şəxs kimi deyil, sonsuz varlıq kimi təsəvvür edirdilər.

Quranda (10: 22-23, 39: 3) deyilir ki, bir çox insanlar bir olan Yaradıcının varlığını qəbul edirlər. Ancaq bununla belə, yalançı tanrılara da tapınırlar. Tanrının varlığını insanlar öz düşüncələri ilə dərk edə bilərlər. Buna misal olaraq *İbrahim* peyğəmbəri göstərə bilərik, hansı ki, Quranda bu haqda məlumat verilir (6: 76-79).

Bununla belə, İslam mənbələrinə görə Allahın varlığı və Onun haqqında biliklərin əldə edilməsi, təkcə düşüncənin və təcrübənin məhsulu ola bilməz. Allah qədim zamanlarda, yer üzərindəki bütün millətlərə təktanrıçılıq inancını yayan, Onun sifətləri haqqında doğru məlumatlar verən *peyğəmbərləri* göndərmişdir. Onlar bu məlumatları *vəhy* yolu ilə əldə etmişlər.

*İslam* ilahiyyatçılarına görə, Allah insan əqli ilə tam dərk edilə bilməz. O, hər şeyin tək yaradıcısıdır. Ondan başqa heç bir tanrı yoxdur. Allah bütün varlıqları yoxdan var edən və idarə edəndir. Dünyada mövcud fenomenlər və varlıqlar arasında qırılmaz bağlantı və ahəng vardır. O, dünyanın bütün hadisə və proseslərini idarə edir. Allah varlığın bütün formalarının yaradıcısı və həyatvericisidir. Eyniliklə O, bütün yaratdığı varlıqları ölümlü və sonlu xəlq etmişdir.

Dünyada hər bir şey Allahın istəyi ilə baş verir. Yalnız, Onun mütləq istəyi ilə hər şey var və ya yox olur. Heç bir şey Onun gözündən əsla yayına bilməz. Allah insanın anlamadığı bir tərzdə, hər şeyi bilir və eşidir, heç bir şey Ondan gizli qala bilməz. O, bütün varlığın bir olan sahibidir. Allahdan başqa tanrının olmadığına görə, ibadət yalnız Ona edilməlidir.

Allah yalançı tanrılara tapınmağı yasaqlamışdır. Ona ibadət etmək isə insanı ucaldır, müxtəlif mifik varlıqlara, təbiət qüvvələrinə və insanlara boyun əyməkdən və onların köləsinə çevrilməkdən qoruyur. *Bütpərəstlik*, eləcə də digər *batil* inanclar Allah dərgahında ən ağır və bağışlanmaz *günahlardan* hesab olunur. Bununla belə O, qarşısında *tövbə* etmiş hər insanı da bağışlayandır.

İslam mütəfəkkirlərinə görə Allahın mahiyyətini insan düşüncəsi və ya duyğuları ilə anlamaq mümkün deyildir, hətta buna cəhd etmək belə yanlışdır. Beləliklə insan, Allahın mahiyyətini bənzəri olmadığına görə təsəvvür edə bilməz (Quran, 112: 1-5). İnsan öz duyğu orqanları ilə yalnız maddi aləmi dərk edə bilər. İnsan yalnız Allahın özü haqqında bildirdiyini bilə bilər. Bu isə Onun peyğəmbərləri vasitəsi ilə mümkündür.

İslam ənənəsində Allahın müəyyən adları vardır ki, bunlar da Allahın zati-sifətlərinin

dərk olunmasında xüsusi əhəmiyyətə malikdir. Bu adlar yalnız Allaha aid adlardır. Bu adların Allahdan başqasına verilməsi və ya bənzədilməsi yolverilməzdir. *Hədislərə* görə, Allahın 99 adı (*Əsmaül-Hüsnə*) vardır. Allahın Quran və hədislərdə qeyd edilməyən adları da mövcuddur.

**ALLEQORİYA** – ***mənaları aydın olmayan Quran ayələrinin və hədislərin fərqli obrazlarla açılması və ya izah olunmasıdır.*** Bu izahlar *Məhəmməd* peyğəmbərin, onun *əhli-beyti* və *səhabələrinin* dediklərinə zidd olmamalıdır. Ənənəvi *İslamda* izah buna uyğun olarsa, qəbul oluna bilər. Bu *şərtə* uyğun olmayan alleqoriyalar *təfsirçinin* öz düşüncəsi hesab edilərək, dəlil kimi qəbul edilmir. Bundan başqa, Məhəmməd *peyğəmbərin hədislərinə* görə belə alleqoriyalar təriqətçiliyə və dində olmayan bidət inancların ortaya çıxmasına səbəb ola bilər. Buna görə də, müsəlmanların əksəriyyəti alleqoriyalara ehtiyatla yanaşırlar.

İslam alimlərinin çoxu *Quran ayələri* və *hədislərdən* hərəkətlə hökmlər çıxarırlar. Alleqoriyaları isə müstəsna durumlarda, ehtiyac olanda istifadə edirlər. Ancaq, bəzi müsəlmanlar Quran ayələrinin açıq, eləcə də gizli mənalarının olduğunu qeyd edərək, onlarda alleqoriyaların olduğunu iddia etmişlər. Məsələn, alleqoriyalarla ayə və hədislərdə olan *cənnət* və *cəhənnəmin* izahını vermək mümkündür. Çünki, bunları insan düşüncəsi qavraya bilmir. Üstəlik belə ayələrin gerçək mənada başa düşülməsi, əqidədə təhriflərə yol aça bilər. Buna görə də, ehtiyac halında, bu kimi ayələri alleqorik izahlarla izah etməyə cəhd edirlər. Onlar bunu edərkən, onların doğru mənasının yalnız *Allaha* dərgahında bilindiyini qeyd edirlər (Quran, 3: 7).

**ANTAKİYA** – ***qədim dövrdə Antioxiya adlanan bir şəhərdir.*** Şəhər Mons Silpius dağının ətəyində, Kasius Mons (Kuşeyr Akra) dağ silsiləsinin şimal yamacında, Asi çayı vadisinin kənarında, Aralıq dənizinin 22 kilometrliyində, indiki Türkiyə ərazisində yerləşir. Ərəblər Silpius dağının adını *Həbib ən-Nəccar* adlandırmışlar. Həmin dağ indiyə kimi onların ibadət yeridir. Antakiyanın əsası eramızdan 3000 il əvvəl iki tərk edilmiş qədim Roma koloniyasının yerində imperator Selevkius (311 – 281) tərəfindən qoyulmuşdur.

**ARİF** – ***irfani elmlərə sahib insandır.*** Bununla belə, ariflər də yanlışlıqlara yol verə bilərlər. Çünki, yalnız *peyğəmbərlər* yanlış və *günah* əməllər işləməzlər. Ariflərin buraxdığı səhvlər, *müctəhidin* hüquqi problemi həll edəndə buraxdığı səhvlərə bənzərdir. Arif insanlar dərin imanları və müdrikliklərі ilə digər insanlardan seçilərlər. Onlar həyatlarını ibadət etməklər keçirir, hər hansı bir problemin həllində öz müdrikliklərindən istifadə edərək çıxış yolu taparlar. Arif insanlar *Allah* dostlarıdırlar.

**ARİYƏ** – ***yardımlaşma və ya bir şeyin müvəqqəti olaraq istifadə edilməsi üçün ödənişsiz olaraq başqa adama verilməsidir.*** *İslamın* ilk dövrlərində yardımlaşma müsəlmanlar üçün *vacib* bir məsələ idi, ancaq sonralar bu ənənə ortadan qaldırılmışdır. İslam mənbələri (*Quran* 5: 2) ariyəni əhəmiyyətini vurğulamışdır. Ariyə ictimai münasibətlərdə əhəmiyyətli bir vasitə hesab edilir. Rəvayətlərə görə, *Məhəmməd peyğəmbər* və onun *səhabələri* müəyyən insanlardan müxtəlif şeyləri ödənişsiz istifadə etmək üçün alırdılar. Bəzi hüquq məktəblərində ariyənin əsas *şərtlərindən* biri kimi həm əşyanın sahibinin, həm də onu alanın buna razı olmasını qeyd edirlər.

**AS İBN VAİL** – ***Məkkənin varlı adamlarından biri olmuşdur.*** *Məhəmməd* peyğəmbərə və ilk müsəlmanlara qarşı

düşmən mövqe tutan bir şəxsdir. Müsəlman tarixçilərinə görə o, Məhəmməd *peyğəmbəri* aşağılamaq məqsədi ilə oğul övladının olmamasına görə, "arxası kəsik" və ya "nəsli kəsilmiş" kimi ifadələr istifadə edirdi. Bu səbəbdən də *Kövsər* (108) surəsi nazil olmuşdur.

**ASƏF İBN BƏRXİYƏ** – ***rəvayətlərə görə Süleyman peyğəmbərin vəziri olmuşdur.*** O, çox imanlı bir şəxs kimi tanınır. Süleyman *peyğəmbər* Səba kraliçasının taxtını onun yanına gətirtmək əmrini verdikdə, öncə *İfrit* adlı bir cin onu gətirmək istəmişdir. Ancaq sonra, Asəf ibn Bərxiyə *Süleymanı* inandırdı ki, o bu işi daha yaxşı yerinə yetirəcəkdir. O, taxtı bir göz qırpımında gətirəcəyini vəd vermiş və verdiyi vədi də həyata keçirmişdir. Bu hadisə *Quranda* (27: 40) anılmaqdadır.

**ASİYA BİNT MƏZAHİM** – ***Musa peyğəmbərin dövründə yaşamış Fironun həyat yoldaşı olmuşdur*** (Quran, 66: 11). *Firona* bir oğlan uşağının doğulacağı və həmin uşağın onun krallığına son qoyacağı xəbərini vermişlər. Buna görə də o, həmin il doğulan bütün oğlan uşaqlarının öldürülməsi əmrini vermişdir. *Musanın* anası isə oğlunu ölümdən qurtarmaq üçün onu bir zənbilə qoyub Nil çayına buraxmışdır. Suyun axarı zənbili Fironun sarayının önünə tərəf aparmış və sandığı görən kölələr onu sudan çıxarıb saraya gətirmişdirlər. Orada Asiya uşağı oğulluğa götürmüş və ölümdən qurtararaq boya-başa çatdırmışdır. Musa ona *peyğəmbərlik* verilənə qədər, *Misirdən* uzaqlaşmış və peyğəmbərlik verildikdən sonra isə Fironun yanına gəlib, onu və yanındakıları tək olan *Allaha* inanmağa dəvət etmişdir. Ancaq, özünü tanrı hesab edən Firon bu çağırışı rədd, bəzi saray xadimləri isə Musanın möcüzələrini görüb, Allaha inam etmişdirlər. Buna görə də, Firon onları edam etdirmişdir. Onlardan biri də, Asiya olmuşdur. Firon ona işgəncələr verərək edam etdirmiş, Allah isə onu Quranda *cənnətlə* müjdələmişdir.

.

**AŞURA** – bax: **MƏHƏRRƏM.**

**ATA** – ***müxtəlif yerləri gəzib-dolaşan türk sufi dərvişidir.*** Onlar xalq arasında gəzib-dolaşaraq onlara öz məsləhətləri ilə yardımçı olurlar. *İslamın* türk xalqları arasında yayılmasında bu şəxslərin böyük rolu olmuşdur. Onların müdrik kəlamları indi də atasözləri kimi şifahi xalq yaradıcılığında yaşamaqdadır. Bu insanlar xalq arasında böyük hörmət və izzətə sahib olmuşlar. Onlar yüksək əxlaqları və örnək davranışları ilə seçilirdilər.

**AYƏLƏR** – ***sözünün etimoloji mənası nişanə, işarə, ilahi hikmətin sərgilənməsi deməkdir.*** Quran *surələrindəki* cümlələr də ayə adlanır. Bu sözlə həm *Allahın vəhylərini*, həm də Allahın yaratdığı müxtəlif təbiət hadisələrini ifadə edirlər. *Quran* hər bir kəsi bu hadisələrin mahiyyəti və onları yaradan *səbəblər* haqqında düşünməyə çağırır. Heç bir şeyin səbəbsiz yarana bilmədiyinə görə, təbiətdə baş verən obyektiv hadisələr Allahın varlığını sübut edir. *İslam* ənənəsində *peyğəmbərlərə* endirilmiş bütün vəhylər də ayələrdən ibarətdir. Quran ayələri mənalarına görə *möhkəm və mütəşabih* kimi bir neçə kateqoriyalara bölünürlər. Quranda ayələrin dəqiq sayı haqqında alimlər arasında fikir ayrılığı vardır. Onlardan bəziləri orada 6600, digərləri isə 6204, 6214, 6219, 6225 və 6236 ayənin olduğunu qeyd edirlər.

Fərqli olan bu rəqəmlər müxtəlif səbəblər üzündən ortaya çıxmışdır. Misal üçün, Quran surələrinin bütünü ("Tövbə" surəsindən başqa) "Mərhəmətli və mehriban Allahın adı ilə" sözləri ilə başlayır. O ifadənin ayə hesab edilməsi haqqında müxtəlif fikirlər vardır.

Eyni zamanda, Quranın bəzi surələri *Hurufi-Müqəttəə* adlanan hərf və ya hərf birləşmələri ilə başlanır. Bu baxımdan da, onların ayə olub-olmamağı haqqında fərqli fikirlər mövcuddur. Buna görə, Quranın bəzi nəşrlərində ayə sayı bir-birindən fərqli ardıcıllıqla verilir.

**AYƏTİ-KÜRSİ** – ***"Bəqərə" (2) surəsinin 255-ci ayəsidir.*** Bu sözlər orada *Allahın* yer və göyləri əhatə edən kürsüsü anlamında işlədilir. *İslam* tarixində bu sözü hərfi mənada başa düşənlər olsa da, alimlərin çoxu ona alleqorik anlam verirlər. Onlar hesab edirlər ki, bu sözlərlə Allahın elmi, gücü və hakimiyyəti ifadə edilir.

**AYƏTULLAH** – ***hüquqi məsələlər ətrafında müstəqil şəkildə fətva verə bilən şiə ilahiyyatçısıdır.*** Sözün etimoloji mənasına gəldikdə isə "*Allahın* ayəsi" deməkdir. Bu termin hicri XIII (miladi XIX) əsrin ortalarında formalaşmış, sonra *şiələr* arasında geniş vüsət tapmışdır. Günümüzdə İranda, Livanda və İraqda çoxlu ayətullahlar fəaliyyət göstərirlər.

**AYİN** – ***ibadətlərin camaatla və ya fərdi şəkildə yerinə yetirilməsidir.*** *Sufilikdə Allahın zikr* edilməsi də ayin hesab edilir. Ayinlərin müxtəlif formaları mövcuddur. Ümumiyyətlə, ayin sözü dini mahiyyət daşınam bütün fəaliyyətlərə şamil edilir. Yəni, metafizik məna daşıyan bütün fəaliyyət növlərini ayin hesab etmək mümkündür.

**AZAN** – ***namaz qılmaq və başqa dini-ictimai işləri görmək üçün yüksək yerlərdən (əsasən minarələrdən) xalqa edilən səsli çağırışdır.*** Daha çox *namaz* vaxtının girdiyini bildirmək üçün səsləndirilir. Bunu *müəzzinlər* yerinə yetirilər. Namazın qılınmasından əvvəl, *azanın* oxunması hər bir müsəlman üçün *savabdır*. Azan gözəl səslə, tələsmədən oxunmalı, ancaq *musiqiyə* çevrilməməlidir. Azan verilərkən müsəlmanlar onu dinləməlidirlər. Rəvayətlərə görə, *Allah* tərəfindən namazın qılınması müsəlmanlara Məhəmmədin *peyğəmbərliyinin* 9-cu ilində *Məkkədə* əmr edilmişdir. Bundan əvvəl isə müsəlmanların namaza çağırış forması olmamışdır. Onlar təqib dövrlərində namazlara azansız yığışırdılar.

İslam *Mədinədə* surətlə yayıldıqdan sonra, vahid azan formasının olmasına ehtiyac hiss olunmuş, bu məqsədlə Məhəmməd peyğəmbər səhabələri ilə məsləhətləşmişdir. Onlardan bəziləri zəng və ya nəfəs alətlərinin çalınmasını, digərləri isə tonqalların qalanması təklifini irəli sürmüşdürlər. Ancaq peyğəmbər, bunları xristianların, *yəhudilərin* və zərdüştilərin *adətləri* olduğuna görə bəyənməmişdir.

Rəvayətlərə görə, peyğəmbərin səhabələrindən biri olan *Abdullah ibn Zeyd* elə o gecə yuxusunda yaşıl geyimə bürünmüş bir şəxsin (ehtimallara görə o, *Cəbrayıl* olmuşdur) ona yaxınlaşıb, azan qaydalarını öyrətdiyini gördü. Abdullah yuxusunu *Məhəmməd* peyğəmbərə danışmış, o da bunu bəyənmiş və beləliklə də, azan forması təsbit olunmuşdur. *İslamın* ilk müəzzini Bilaldır. Bundan sonra azan bütün müsəlmanlar arasında geniş yayılmışdır.

**AZƏR** – ***Quranda (6: 74) İbrahim peyğəmbərin atası kimi qeyd edilən şəxsdir.*** Rəvayətlərə görə, o *bütpərəst* olub, bütlərin düzəldilməsi və satışı ilə məşğul olmuşdur. Ancaq, bir çox tanınmış İslam *təfsirçiləri* Azərin *İbrahimin* doğma atası olmadığını da iddia etmişdirlər. Onların dediklərinə görə onun doğma atası *Tarux* adlı mömin bir insan olmuşdur. Təfsirçilər Taruxun İbrahim *peyğəmbərin* yetkinlik yaşına çatmamış vəfat etdiyini qeyd edirlər.

# B

**BAB** – ***həqiqətin qapısıdır.*** *Babilər* hərəkətinin lideri olan Mirzə Əli Məhəmməd Şirazi özünü bu adla tanıtmışdır.

**BABİL** – ***Cənubi Mesopotamiya ərazisində (müasir İraq ərazisi) yerləşmiş qədim dövlət və mədəniyyətin adı olmuşdur.*** Miladdan öncə II minilliyin əvvəllərindən, m. ö. 539-cu ilinədək mövcud olmuş ən qədim mədəniyyətlərdən biri hesab edilir. Babil dövlətinin paytaxtı Babil şəhəri idi. Ən görkəmli hökmdarı Hammurapi (m. ö. 1798 – 1750) olmuşdur. Hammurapi olduqca uzaqgörən və islahatçı hökmdar kimi bilinməkdədir. Onun qanunları günümüzə qədər gəlib çatmışdır.

Rəvayətlərə görə, qədim dövrlərdə bəşəriyyət bu dildə danışmışdır. Ancaq, sonralar onlar Tanrının dərgahına çatmaq *niyyəti* ilə göylərə ucalan nəhəng bir qüllə tikmək istəyinə düşmüşdürlər. İnsanların bu fikrikini duyan Tanrı qəzəblənərək onları bir-birlərindən uzaq salmış və beləliklə, onlar müxtəlif qövmlərə ayrılaraq fərqli dillərdə ünsiyyət qurmağa başlamışdırlar. Nəticədə, bir-birilərini anlamayan insanlar bu istəklərinin yerinə yetirə bilməmişlər. Beləliklə, yer üzərində irqlər, millətlər və xalqlar yaranmışdır.

Babil Yaxın Şərqin ən qüdrətli şəhəri olsa da, əhalisi *bütpərəst* idi. Müqəddəs kitablarda Babilin *İsrail oğullarını* məğlub etməsi faktı vardır. O zaman, Babil çarı *Bühtünnəsr Qüds* üzərinə yürüş edib o şəhəri dağıtmış, İsrail oğullarını isə Babilə sürgün etmişdir. O, hətta *Tövratın* mətnlərini də yandırmışdır. Bu hadisələr İsrail oğullarının Tanrıya qarşı asilik etməsi və onların *Allah* yolundan dönməsi üzündən baş vermişdir. 70 illik sürgündən sonra babilliləri məğlub etmiş İran şahları, onların *Qüdsə* qayıtmalarına icazə vermişdirlər. Babilin dağıntıları təxminən Bağdadın 100 km-də yerləşməkdədir.

**BABİLƏR** – ***XIX əsrin ortalarında İranda Babilik dini hərəkatının davamçıları olmuşdurlar.*** *Babilik sonradan ayrıca dinə - bəhailiyə* çevrilmişdir. Hazırda Babilik, eləcə də onlardan ayrılmış bəhailik İslam dininə məxsus dini cərəyan kimi qəbul edilmir. Artıq bəhailik dünyada müstəqil din kimi tanınmaqdadır.

Babilər hərəkatı İranda 1819-cu ildə anadan olmuş Seyid Əli Məhəmmədin (Babın) adı ilə bağlıdır. Öncə o və onun ardıcılları *Şeyx* Əhməd Əhsainin "Şeyxilər" *təriqətinə* mənsub idilər. Bab 1844-cü ildə özünü *Mehdi* elan etmiş, ancaq bununla kifayətlənməyərək, "Birinci Nöqtə" adını götürmüşdür. Bab günəş təqvimini bərpa etmiş və özünün zühur etdiyi ili yeni eranın başlanğıcı elan etmişdir. O bildirmişdir ki, onun təlimi əsasında qurulacaq cəmiyyətdə qadınlara geniş azadlıqlar veriləcək, yoxsullar ümumi xəzinədən yardım alacaq, təhsil hamı üçün icbari olacaqdır.

Babın bərabərlik, ədalət, qadınlara azadlıq çağırışları İranda Babilər hərəkatına səbəb olmuşdur. Hərəkat 8 il sonra böyük çətinliklə yatırılmışdır. Hakim dairələr Babın *Allahın* təcəllisi olmadığını insanlara sübut etmək məqsədi ilə onu 1850-ci il iyulun 9-da Təbriz şəhərində kütlə qarşısında edam etmişdirlər.

Babilər hərəkatı sosial ədalət uğrunda mübarizə kimi tanınsa da, Babın dini təliminin başlıca hissəsini İslam ilə ziddiyyət təşkil edən *həşr, qiyamət* günü, *cənnət* və *cəhənnəm* məsələlərinin şərhi və özündən sonra gələcək Mehdinin zühurunun mədhi təşkil edirdi. O, qiyamətə ölülərin fiziki dirilməsi kimi baxılmasını, eləcə də, Məad hadisəsini inkar edir və onların məcazi iza-

hını verirdi. Baba görə həşr – "Cəhalət və nadanlıq qəbirlərində yatanların mənəvi oyanışıdır". O, maddi cənnət və cəhənnəm anlayışlarını insan təxəyyülünün uydurması adlandırırdı. Baba görə cənnət – həm bu, həm də ölümdən sonrakı həyatda ruhun Allaha yaxınlığı, cəhənnəm isə Ondan uzaqlığıdır. O, İslamın sonuncu din olmasını qəbul etmirdi. Onun düşüncələrinə görə *vəhy* arasıkəsilməz davamlı prosesdir. Peyğəmbərlər həmişə gəlmiş və bəşəriyyət tam kamilliyə çatana kimi, bundan sonra da gələcəklər. O qeyd edirdi ki, Müqəddəs Kitablar öz dövrləri üçün endirilmiş və onlar sonsuzluq üçün nəzərdə tutulmamışdırlar. Allah *Musa, İsa və Məhəmmədə* bir-birini əvəz edən *Tövrat, İncil* və *Quranı* nazil etdiyi kimi ona da Quranı əvəz edəcək "Bəyanı" göndərmişdir. İnsanlar onu qəbul etməklə öncə İranda, sonra isə bütün dünyada sülh və qardaşlığın bərqərar olduğu sivilizasiyanı quracaqlar.

Babın ən fəal ardıcılları arasında Azərbaycan əsilli Tahirə Qurrətüleyn adlı qadın da olmuşdur. Tahirə Babın təlimlərindən *ilhama* gələrək, Babilərin Bədəşt konfransında (1848) nümayəndələr qarşısında çadrasını atmış və qadın-kişi bərabərliyi haqında nitq söyləmişdir. Həmin konfransda Babilər öz inanclarının İslamla əlaqəli olmadığını və özlərinin isə İslamdan rəsmən çıxdıqlarını elan etmişdirlər.

**BAĞDADİ ƏBDÜLQAHİR** (1037-ci ildə vəfat etmişdir) – ***görkəmli şafii fəqihi və əşəri kəlamçısı olmuşdur***. Həyatının böyük bir hissəsini İranda Nişapur şəhərində keçirmişdir. Bağdadi hüquq, *kəlam (I)* və riyaziyyatın ən kamil bilicilərindən biri olmuş, müxtəlif elmləri öyrənmiş və tədris etmişdir. *Şiə, xarici, mütəzili* və digər müsəlman dini cərəyanların ardıcılları ilə polemikalar aparmış, bir neçə tanınmış kitabların müəllifi olmuşdur. "Dinin üsulu" kitabında o, kəlam və *fiqh* problemlərini tədqiq etmişdir. "Təriqətlər arasındakı fərqlər" adlı kitabında isə müxtəlif *İslam* təriqətlərinin təlimlərini izah edərək, onları *sünni* İslamı baxımından tənqid etmişdir. Onun üçüncü tanınmış kitabı isə "Dinlər və təriqətlər haqqında kitab" adlanır.

**BAKİLLANİ MƏHƏMMƏD** (403/1013-cü ildə vəfat etmişdir) – ***görkəmli İslam alimi və kəlamçısı, əşəri kəlam məktəbinin təmsilçisi olmuşdur.*** Soyu Bəsrədən olsa da, həyatının böyük bir hissəsini Bağdadda keçirmiş, orada hakim vəzifəsinə qədər yüksəlmişdir.

Bakillaninin elmi fəaliyyəti Bəsrədə olarkən başlamış, xüsusən də *əşəri kəlamına (I)* böyük maraq göstərmişdir. Bakillani elmi Əbu Həsən Əşərinin tələbələrindən İbn Mücəhid Taidən və Əbu Həsən Bəxilidən öyrənmişdir. O, *fiqh* elminin bilicisi kimi də tanınırdı.

Bağdada gəldikdən sonra Bakillani Məhəmməd burada elmi fəaliyyətini davam etmiş və o, burada Əbu Bəkr ibn Malik Qatidən, Əbu Məhəmməd ibn Məsi, Dəraqutnidən, Əbu Əhməd Hüseyn ibn Əli Nişapuri kimi alimlərdən *hədis* elmini öyrənmişdir.

Sonra Bəsrəyə qayıdaraq *məscidlərdə* müdərrislik etmiş, əşəri kəlamını inkişaf etdirmişdir. O, sonrakı bütün həyatında apologetik fəaliyyətini davam etdirmişdir. Büveyhi Ədudəd-Dövlənin hakimiyyəti zamanında o, Şirazda müxalifləri ilə dini-fəlsəfi müzakirələrdə iştirak etmişdir. Büveyhilərin şiə hökmdarları olduqlarına baxmayaraq, Ədudüd-Dövlə Bakillani Məhəmmədi dəyərləndirərək, ona hörmət bəsləmiş, onu öz oğlu Simnanəd-Dövlənin müəllimi təyin etmişdir. Bundan başqa Ədudəd-Dövlə Bakillani Məhəmmədi öz elçisi kimi Bizans imperatorunun yanına göndərmişdir. Ədudəd-Dövlənin ölümündən sonra o, Bağdadda

yaşamış və orada Mənsur məscidində müdərrislik etmişdir. Onun dərslərinə tələbələr İraqdan, Xorasandan, Əndəlüsdən, müsəlman dünyasının müxtəlif yerlərindən gəlirdilər. Onun tələbələri arasından məşhur müsəlman mütəfəkkirləri də çıxmışdır.

Əşəri kəlamının əsaslarını inkişaf etdirmiş Bakillani, onları digər təlimlərin nümayəndələrinin tənqidlərindən qorumuşdur. Bununla da o, sünniliyin daha da bərkiməsi və geniş yayılmasını təmin etmişdir. Buna görə də, onu öz dövrünün mucəddidi adlandırmışlar. Bakillaninin bacarığını müxtəlif müsəlman hökmdarları yüksək dəyərləndirərək onu dəstəkləmişlər. O, "İcazül-Quran" (Quranın bənzərsizliyi), "Təmhidül-Əvail və Təlxisüd-Dəlail" (Başlanğıcların yüngülləşdirilməsi və dəlillərin qısa olaraq verilməsi), "Mənakibül-Əimmə" (İmamların həyatı) kimi əsərlərin müəllifidir. Bakillaninin elmi irsindən İslam alimləri bu gündə istifadə etməkdədirlər.

**BAKUVİ SEYİD YƏHYA** – bax: **XƏLVƏTİLƏR.**

**BALİQ** – ***yetkinlik yaşına çatmış insandır.*** İslam hüququna görə, bu yaşa çatanda hər bir müsəlman etdiklərinə görə məsuliyyət daşıyır. Yetkinlik yaşına çatan hər bir müsəlman İslam dininin əsaslarını bilməli və ona tabe olmalıdır. İslam alimlərinə görə nisbi olaraq qız yetkinlik yaşına 9, oğlan isə 12 yaşlarında çatır. Təbii ki, bu insanın bioloji, fiziki və ruhi vəziyyətindən asılıdır. Buna görə də, yetkinliyin son yaş həddi qızlar üçün 17, oğlanlar üçün isə 18 yaş qəbul olunmaqdadır.

**BATİL** – ***həqiqətlə heç bir əlaqəsi olmayan bir şeydir.*** *İslamda* Quran və peyğəmbərin qoyduğu yola uyğun olmayan hər bir inanc, düşüncə və davranış *batil* hesab olunur. *Quranda* batil sözü inancsızlıq, pislik kimi mənalarda da işlədilir. Batilin əksi isə həqiqətdir.

**BATİN** – ***insanlar üçün əsl mahiyyəti bilinməyən gizli və sirli hər hansı bir şey və ya varlıqdır.*** Allahın gözəl adlarından biridir. *Kəlamda (I)* batin, hər hansı bir varlığın gizli, sirli və ezoterik tərəfini əks etdirir.

**BAYRAMİLİK** – ***Türkiyə və Balkan ölkələrində yaşayan müsəlmanlar arasında yayılan sufi təriqətlərindən biridir.*** Bu *təriqətin* adı Hacı Bayram Vəli (833/1429 ildə vəfat etmişdir) ilə bağlıdır. O, Ankaranın Zülfədl kəndində doğulmuşdur. Dini elmləri dərindən mənimsədikdən sonra Zülfədl mədrəsələrində müdərris kimi fəaliyyət göstərmişdir. Sonra o, müdərrislikdən uzaqlaşaraq, tanınmış sufi Əbu Hamidəddin Ağsarayinin (815/1412 ildə vəfat etmişdir) başçılığı altında mənəviyyat yolçuluğuna başlamışdır. Onun ölümündən sonra Hacı Bayram Vəli Ankarada *sufi təkkəsi* yaradaraq dövrünün ən hörmətli sufi *şeyxlərindən* biri olmuşdur.

Sultan II Muradın dəvəti ilə o, Ədirnəyə gedib orada ölkənin tanınmış alimləri ilə tanış olmuşdur. Onun davamçısı (*xəlifəsi*) olmuş Ağ Şəmsəddin İstanbulu fəth etmiş sultan II Məhmət Fatihin müəllimi olmuşdur. Yazıçıoğlu Məhməd, Əhməd Bican, Ağbıyıq Sultan, Dədə Ömər Sikkini kimi tanınmış sufilər də onun ardıcılları olmuşdurlar.

Bayramilərin mənəvi yolu *nəqşibəndilik* və *xəlvətiliyin* yoluna bənzəməkdədir. Onların irfani dünyagörüşü daha çox *İbn Ərəbinin* dünyagörüşünə yaxındır. Öz ayinlərində onlar, çox vaxt ucadan deyilən "*cəhri*", bəzən isə pıçıltı ilə deyilən *"hafi" zikrləri* oxuyurlar. Bayramilərin ibadətlərinin əsas məqsədi "*Allahın cazibəsi*, sevgisi və gizliliyidir". Bu təriqətin əsas əsərlərini daha çox Ağ Şəmsəddin yazmışdır. Hacı Bayram Vəlidən isə heç bir əsər günümüzə gəlib çatmamışdır.

Təriqət davamçıları çoxda uca olmayan ağ mahuddan tikilmiş altıguşəli papaq geyinirdilər. Hacı Bayram Vəlinin sağlığında onun davamçıları əsasən Ankara, Bursa və Ədirnədə geniş yayılmışdırlar. Bayramilərin əsas üç başlıca qolu vardır:

1. Ağ Şəmsəddinə bağlı Şəmsiyyə qolu. Bu qol günümüzdə klassik bayramilik təriqətidir;

2. Dədə Ömər Sikkiniyə bağlı Məlamiyyə qolu;

3. Ağbıyığa bağlı xəlvəti qolu. Bu qol isə daha sonralar müstəqil sufi təriqətinə çevrilmişdir. Öz dövrünün elm-irfan ərlərindən biri hesab olunan Əziz Mahmud Hüdai (1038/1628 ildə vəfat etmişdir) Osmanlıda bu təriqətin inkişafında böyük rol oynamışdır. O, otuzdan artıq əsərlərin müəllifi olmuşdur. Onun *mürşid* kimi yetişdirdiyi minlərlə tələbə və *müridləri* onun qoyduğu sufi ənənəsini davam etdirmişdirlər. Xəlvətiliyin sonrakı inkişafında isə İsmail Həqqi Bursalının (1137/1724 ildə vəfat etmişdir) rolu böyük olmuşdur.

**BEYDAVİ ABDULLAH** (685/1286-cı ildə vəfat etmişdir) – ***Quran təfsirçilərindən biri olmuşdur.*** Tam adı *Abdullah ibn Ömər* Məhəmməd Nəsirəddin Beydavidir. O, Şirazın yaxınlığındakı Bəyda kəndində doğulmuşdur. Onun ilk müəllimi Şirazın baş qazısı vəzifəsində işləyən öz atası olmuşdur. Abdullah da ailə ənənəsini davam etdirərək *qazi (II)* vəzifəsində işləmişdir. Buna görə də onu daha çox Qazi (Hakim) Beydavi adlandırırdılar. 650/1252-ci ildə Təbriz şəhərinə köçən Beydavi uzun müddət burada yaşamışdır. O, *hədis* üsulu, *fiqh*, məntiq, *kəlam (I)* və tarix elminə aid bir çox kitabların müəllifi olmuşdur. Abdullah Beydavinin ən tanınan əsəri Təbrizdə yazılmış "Ənvərüt-Tənzil və Əsrarüt-Təvil" adlı *Quran təfsiri* olmuşdur. *Əşəri* kəlamı və *Şafii məzhəbinin* üsulları ilə yazılan bu təfsir bir neçə *əsr* Osmanlı mədrəsələrində tədris edilmiş və sonralar bu təfsirə 250-dən çox şərh yazılmışdır.

**BEYƏT** – ***İslam hüququnda hər hansı bir şəxsin hakimiyyətinin tanınmasıdır.*** *Adətə* görə beyət edən insan hakimiyyəti tanınan şəxsin əllərini sıxaraq, ona bağlılıq (sadiqlik) andını içir. Bu qayda ilə səhabələr *Məhəmməd peyğəmbərə* sadiqlik andını içmişlər. Müsəlmanlar arasında ilk beyət *Əqəbədə* reallaşmışdır.

Sufizmdə beyət müridin öz mürşidinə bağlılıq andıdır. Məsələn, Məhəmməd *peyğəmbərin* səhabələri ona beyət etmişlər. Beyət prinsipləri bütün sufi *təriqətlərində* eynidir. Təriqətə daxil olan mənəviyyat yolçusunun onu bu yola yönəldən *şeyxi* və ya *mürşidi* olmalıdır. Mürşid onunla *rabitə* qurur, sonra isə onun təriqətə girməsi barədə hökm verir. Hökm verildikdən sonra beyət mərasimi başlayır. Mürid *dəstəmaz* alaraq mürşidinin yanına gəlməli, onun yanında dizləri üstündə oturmalıdır. Sonra mürşid *müridin* əllərindən tutaraq onu törətmiş *günahlarına* görə *Allah* qarşısında *tövbə* etməyə çağırır. Tövbə edən mürid Allah və mürşidinə tabe olacağına söz verir. Bundan sonra o, Allahı tanrı, *Məhəmmədi* elçi, təriqət yolunda ona yol göstərən şeyxi isə özünə mürşid kimi qəbul etdiyini qeyd edir.

Qadının da təriqətə girməsi mərasimi buna bənzər baş verir. Sadəcə, burada mürşid onun əllərini tutmur. Bəzi təriqətlərdə beyət zamanı müridin əyninə "*xirqə*" adlanan xüsusi geyim geyindirirlər, bəzilərində isə onun başını xüsusi örtü ilə bağlayırlar. Ayinin sonu olaraq mürşidlə mürid arasında mənəvi bağlantı yaranır və onu pozmaq olmaz. Sufi təriqətlərinin qaydalarınarına görə beyəti pozmaq ədəbdən hesab olunmur.

**BEYƏTÜR-RİZVAN** – ***Məhəmməd peyğəmbərə Hüdeybiyə anlaşmasından əvvəl Məkkə yaxınlığındakı Samur ağacının altında 1400-ə yaxın səhabənin***

***beyətidir.*** Bununla onlar, müsəlmanları *Məkkəyə* ziyarətə buraxmayan bütpərəstlərə qarşı son damla qanlarına qədər vuruşmaq əzmində olduqlarını bildirmişdirlər. Bu hadisə *hicrətin* 6-cı ilində baş vermişdir. O zaman *Məhəmməd* peyğəmbərin başçılığı altında, *ziyarət* məqsədi ilə Məkkəyə doğru yola çıxmış müsəlmanların yolunu məkkəli yaraqlılar kəsmişdirlər. Buna görə müsəlmanlar, Hüdeybiyə adlı bir yerə çəkilərək, bütpərəstlərlə danışıqlar aparmaq üçün Məkkəyə *Osman ibn Əffanı* göndərmişlər. Bütpərəstlərin onu öldürdüklərini sanmış müsəlmanlar *peyğəmbərin* yanına gəlib bir ağacın altında ona *beyət* etdilər. Ancaq, Osmanın geriyə qayıdışından sonra, müsəlmanlarla bütpərəstlər arasında 10 illik *Hüdeybiyə* sülhü bağlanmışdır.

**BEYTÜL-İZZƏT** – ***rəvayətlərə görə Allahın Ramazan ayında Quranı tam olaraq endirdiyi xüsusi bir yerdir***. *İslam* əqidəsinə görə Beytül-İzzət kainatın yüksək yerində yerləşən, insan ağlı ilə dərk edilməyən yerdir. Buradan *Cəbrayıl* mələk *ayələri* aramla Məhəmməd peyğəmbərə nazil etmişdir.

**BEYTÜL-MAL** – ***İslam dövlətində xəzinənin saxlanıldığı və qorunduğu bir yerdir.*** Bu söz ilk dəfə xəlifə *Ömərin* hakimiyyəti dövründə istifadə edilməyə başlamışdır. *İslam* ordusu yeni torpaqları ələ keçirdikcə müxtəlif vergilər tətbiq edilirdi. Bu vergi və müharibələr zamanı əldə edilən *qənimətlər* Beytül-Mala toplanırdı. Beytül-Mala gəlirlər əsasən *Zəkat, Üşr, Cizyə*, kimi vergilərdən və savaşlar zamanı əldə edilmiş *qənimətdən* toplanırdı. *Zəkat* və *üşr* vergisindən əldə edilən gəlirlərin Beytül-Malda xüsusi yeri var idi. Onlar *Quran* ayəsində (9: 60) vurğulanan insanlar arasında bölüşdürülürdü. Bunlar yoxsullar, miskinlər, zəkatı yığanlar, iman gətirib hələ kamil mömin olmayanlar, azad ediləcək kölələr, borcu ödəməyə imkanı olmayan borclular, *Allah* yolunda *cihad* edənlər və səfərdə olanlardırlar. Qənimətin alınması barədə də Quranda (8: 41) ayə vardır. Mədənlərdən alınan vergilər yoxsul, yetim və pulları olmayan yolçulara verilməlidir. Xərac və *cizyədən* əldə edilən gəlirlər isə ordunun saxlanılmasına, sağlamlığın qorunmasına, təhsilə, eləcə də körpülərin, yolların, kanalların və s. kimi ölkə əhəmiyyətli obyektlərin inşasına xərclənməlidir.

**BEYTÜL-MƏMUR** – ***mələklərin qibləsi, göylərdə mələklərin davamlı olaraq təvaf etdikləri bir məkandır.*** Rəvayətlərə görə, burada hər gün yetmiş min mələk *namaz* qılır. Bir dəfə namaz qılana, ikinci dəfə sıra gəlməz. Beytül-Məmur göyün üçüncü, altıncı və ya yeddinci qatında yerləşir. Onun oradakı dəyəri *Kəbənin* Yer üzündəki dəyəri kimidir.

**BƏDƏVİ ƏHMƏD – bax: BƏDƏVİLƏR.**

**BƏDƏVİLƏR** – ***çöl və ya səhrada yaşayan köçəri ərəblərdir.*** Onlar əsasən səhrada və vadidə yaşayırlar. Məhəmməd *peyğəmbərin* dövründə *Mədinə* ətrafında yaşayan Müzeynə, Cüheynə və Əsləm kimi bədəvi ərəb qəbilələri müsəlmanlarla savaşaraq onların əsasən ticarət karvanlarını qarət edərək günlərini keçirirdilər. *Məhəmməd* peyğəmbərin səyləri nəticəsində bədəvi Ərəblər *İslamı* qəbul etmişdirlər.

**BƏDƏVİLİK** – ***sufi təriqətlərindən birinin adıdır.*** Onları "əhmədilər" də adlandırırlar. Bu *təriqətin* adı Əhməd Bədəvi (675/1276-cı ildə vəfat etmişdir) ilə bağlıdır. O, Fəsdə (Mərakeşdə) doğulmuşdur. O, öncə *təfsir, hədis və fiqh* elmlərini öyrənmiş, sonra sufi yolunu seçmişdir. *Əbdülqədir Gilaninin* və *Əhməd Rifainin* məzarlarını *ziyarət* etmişdir. Onun *şeyxi* tanınmış sufi Bədrəddin

Həsən Məğribi olmuşdur. Əhməd Bədəvi həyatının çoxunu *Misirin* Tanta şəhərində keçirmişdir. Hal-hazırda onun məzarı həmin şəhərdə yerləşir. Görkəmli Məmlük Sultanı Bəybars ona bir alim kimi böyük hörmət bəsləmişdir. Bədəvi təriqətinin kitabları günümüzə qədər gəlib çatmışdır.

Bədəvilik *şazililikdən* sonra Misirdə ən geniş yayılmış ikinci təriqət olmuşdur. Bu təriqət ölkənin ictimai həyatında böyük əhəmiyyətə malik olmuşdur. Ancaq, Misirdən kənar yerlərdə az yayılmışdır.

Bədəviliyin mənəvi *silsiləsi Əli ibn Əbu Talibə* uzanır. Bu təriqətin *dərvişlərinin xirqələri* və başqa simvolları qırmızı rəngdə idi. Qırmızı sarğı onların baş örtüyündə də əks olunurdu. İlk dövrlərdə bu təriqətin *zikrləri* səssiz olmuş, ancaq sonra onlar zikrlərini ucadan səsli olaraq oxumuşlar. Sufilər zikrlərini ayaq üstə və ya oturaraq trans (*vəcd*) halında olaraq edirdilər. Təriqətin ən böyük bayramı, Əhməd Bədəvinin *Zülhiccə* ayının sonuncu həftəsində qeyd edilən doğum günüdür.

**BƏDİUZZAMAN** – bax: **NURSİ SƏİD**.

**BƏDR** – ***Məkkə ilə Mədinə arasında yerləşən yerdir.*** *Hicrətin* ikinci ilində müsəlmanlar ilk dəfə məkkəli *müşriklərlə* Bədrdə müharibə etmişlər. Tarixdə bu müharibə Bədr savaşı olaraq bilinir. Bu savaşda müşriklərin sayca çox olmalarına baxmayaraq müsəlmanlar qalib gəlmişlər. Bu döyüşün sonrakı *İslam* tarixi üçün böyük əhəmiyyəti olmuşdur. Bədr döyüşü *Quranda* (3: 13) da anılmışdır.

**BƏHAİLİK** – ***babiliyin dini prinsipləri üzərində qurulan yeni dinin adıdır.*** *Babilər* hərəkatı yatırılan zaman (1852) Babın davamçısı Mirzə Hüseyn Əli - Bəhaullah ("Allahın Cəlalı") həbs olunmuşdur. Sonra isə həbsxanadan İraqa sürgün edilən Mirzə Hüseyn Əli - Bəhaullah Bağdadda 1863-cü ildə özünü Babın vəd etdiyi "ilahi zühur" olduğunu bəyan etmiş və ona Tanrıdan yeni ilahi *vəhyin* nazil olduğunu bildirmişdir. Ədirnədə və Əkkada həbsdə olarkən o, Avropa hökmdarlarına məktub yazaraq onları yeni dini tanımağa çağırmışdır.

Bəhaullah Babın təlimini inkişaf etdirmiş, bəhailiyin əsaslarını "Kitabi-Əqdəs" kitabında və başqa yazılarında işıqlandırmışdır. Lakin, başda Sübhi-Əzəl olmaqla babilərin kiçik qrupu ona qarşı çıxmışdırlar. 1868-ci ildən etibarən Bəhaullahı "ilahi zühur" kimi qəbul edənlər "Bəhai", onu qəbul etməyənlər isə "Əzəli" adlanırdılar. Bəhailər Əkka və Hayfaya, əzəlilər isə Kıbrıs (Kipr) adasına sürgün olunmuşlar. Bəhailər sonralar Avropa, Amerika, Afrika və Okeaniya adalarına yayılır, əzəlilər isə vaxt keçdikcə azalaraq yox olmuşlar. Babilərdən fərqli olaraq, Bəhailər hər cür siyasi mübarizənin, qarşıdurmanın əleyhinədirlər. Öz ideyalarını dinc yolla təbliğ etməkdədirlər. Bu gün Bəhailər öz dini təlimlərini milli, dini, irqi ayrıseçkilikləri aradan qaldıran humanist dəyərlər sistemi kimi dəyərləndirirlər.

Bəhaullah 40 il məhbus və sürgün həyatını yaşadıqdan sonra 1892-ci ildə dünyasını dəyişmişdir. Ölümündən əvvəl o, böyük oğlu Əbdül-Bəha Abbası "Əhdin Mərkəzi" təyin etmişdir. Əbdül-Bəhanın dövründə Bəhailik artıq dünyanın 37 ölkəsində yayılmışdır. Əbdül-Bəha 1921-ci ildə ölmüş və onun *vəsiyyətinə* uyğun olaraq Bəhailərin rəhbərliyi nəvəsi Şövqi Əfəndiyə (1897 – 1957), 1963-cü ildən isə kollegial təsisat olan "Uca Ədalət Evinə" (UƏE) verilmişdir. UƏE-nin rəsmi iqamətgahı İsrailin Hayfa şəhərində yerləşməkdədir.

Bəhailiyə bu gün dünyanın 234 ölkəsində yaşayan 7 milyondan çox insan inanır. Bu dinin ardıcılları qadın və kişi bərabərliyinə, dünyanın təbii sərvətləri üzərində beynəlxalq nəzarətin olmasına,

vahid qlobal təhsil sistemi, ümumdünya sülh anlayışı, ümumi din, dünya dövləti və dünya vətəndaşlığı, vahid beynəlxalq dilin qəbulu və planetimizdə yeni beynəlxalq münasibətlərin yaradılması ideyalarını təbliğ edirlər. Bu məsələlərin həlli yollarının tapılmasında BMT ilə əməkdaşlıq etməkdədirlər.

**BƏHAULLA MİRZƏ HÜSEYN** – bax: **BƏHAİLİK.**

**BƏHİRƏ** – ***İslamdan əvvəlki dövrdə ərəblərin xüsusi dəyər verdikləri süd verən dişi dəvənin adı olmuşdur.*** Dəvə ardıcıl olaraq on dişi bala dünyaya gətirirdisə, onda bütlərə tapınan Ərəblər onu *Saibə* adlandırır və ona təzim edirdilər. Bundan sonra bu dəvə daha bir dişi bala dünyaya gətirərdisə, o zaman onu bəhirə adlandıraraq ona da anası ilə birlikdə xüsusi sayğı göstərirdilər. *Bütpərəstlər* onun qulağının bir parçasını kəsir, üstünə minmir, belində yük daşımır və yununu qırxmırdılar. Onun südündən yalnız qonaqlar içə bilərdilər. Bəhirə ərəblərin bəzi digər cahiliyyə dövrünün anlayış və *adətləri* kimi *İslamdan* sonra ortadan qaldırılmışdır (*Quran*, 5: 103).

**BƏKTAŞİLİK** – ***Anadoluda yayılmış sufi təriqətinin adıdır.*** *Təriqətin* adı Hacı Bəktaş Vəli ilə bağlıdır (645/1208 – 738/1270). Bəktaşilər öz mənəvi *silsilələrini Əli ibn Əbu Talibə* bağlayırlar. Hacı Bəktaş İranın Nişapur şəhərində doğulmuşdur. 680-ci ildə o, *Əhməd Yəsəvinin* məsləhəti ilə Anadoluya gedib orada öz təlimini yaymışdır. Hacı Bəktaşın həyat və yaradıcılığı haqqında bir-çox məqamlar bilinməməkdədir. O, bizim zamanımıza gəlib çatmayan bir sıra əsərlərin müəllifi hesab olunur.

Hacı Bəktaşdan sonra onun davamçıları öz sufi təriqətlərini yaratmışlar. Bəktaşiliyin inkişafında bu təriqətin ikinci qurucusu hesab olunan Bəlim-Sultanın (X/XVI yüzillikdə yaşamışdır) böyük rolu olmuşdur. Bəktaşilik daha çox kənd əhalisi arasında yayılmışdır. Onların təlimi bəzi hallarda gizli xarakter daşımışdır. Təriqətçilər dinin “gizli”, ezoterik tərəflərinə böyük əhəmiyyət verirdilər. Hətta, məclisləri və ucadan söylənilən *zikrləri* də yalnız təriqətin “seçilmişləri” arasında keçirilirdi. Bununla da, onlar *ismaililərin* nizari təriqətinin davamçıları (batinilər) kimi ifratçı təriqətlərə yaxınlaşırdılar.

İfratçı (qulat) şiə təriqətlərində olduğu kimi Bəktaşilikdə də Əli ibn Əbu Talib *Allahın* yerdəki təcəllisi hesab edilir. Onlar 12 şiə imamlarını qəbul edərək *Məhərrəm* ayının ilk on günündə *Əhli-Beytdən* öldürülənlər üçün yas saxlamaqdadırlar. İlk *Raşidi xəlifələri: Əbu Bəkri, Öməri, Osmanı* və *Məhəmməd peyğəmbərin* həyat yoldaşı olmuş *Aişəni* qəbul etmirlər. Bundan başqa Bəktaşilər şiə hüquq məktəbi olan *Cəfəri məzhəbinin* davamçıları da olmuşdurlar.

Bunlarla yanaşı Bəktaşilikdə müxtəlif *İslam* təriqətlərinin təlimləri və hətta başqa dinlərin – Xristianlığın, Lamaizmin, türk şamançılığın ayrı-ayrı elementləri sinkretik şəkildə qarışmışdır. Tənqidçilərə görə onların, digər sufi təriqətlərindən fərqli olaraq özlərinə məxsus təriqət yolları olmamışdır. Bəktaşiliyin “seçilmişləri” üçün İslamdakı ibadətlərin və ritualların yerinə yetirməsi *vacib* deyildir. Onlar gündəlik beş dəfə qılınan *namazı* və namazdan öncə alınan *dəstəmazı* vacib hesab etmirdilər. Bəktaşi *şeyxləri* davamçılarına şərab içməyi və *şəriətdə* qadağan olunan müxtəlif işlərin görülməsinə icazə vermişlər. Onlardan bəziləri *ruh* köçünə (*tənasüh*) və Tanrının insanda təcəlli etməsinə inanırdılar.

Bəktaşilik ideyaları Osmanlı imperiyasının siyasi həyatında əsrlər boyu böyük rol oynamış, ölkənin ən döyüşkən qoşun birləşməsi olan “yeniçərilər” onun

davamçılarından təşkil olunmuşdurlar. Osmanlı cəmiyyətinin böyük bir hissəsinin *sünni* olmasına baxmayaraq Bəktaşilik də nüfuz qazana bilmişdir.

Bəktaşiliyin yayılmasının digər səbəbi isə, onların əsərlərinin və məişət dilinin türk dilində olması idi. Təriqətin sinkretik təlimi Balkan yarımadası və Macarıstanın xristian əhalisi üçün anlaşıqlı olmuşdur. Buna görə də, onların arasında Bəktaşiliyin çoxsaylı tərəfdarları var idi.

Türk sultanı II Mahmudun hakimiyyəti dövründə yeniçərilər artıq irticaçı bir quruma çevrilmişlər. Buna görə də, Sultan bu qurumun varlığına 1826-cı ildə son qoymuşdur. Bundan sonra Bəktaşilik bütün imperiya boyu təqiblərə məruz qalmışdır. Onların başçıları edam edilmiş, bütün mülkləri isə əllərindən alınmışdır. Bəktaşilərin bütün strukturları, obyektləri və *təkkələri nəqşibəndi* sufi təriqətinin davamçılarına verilmişdir. Təqiblərin sonunda Bəktaşilik Arnavutluğa (Albaniyaya) intiqal etmiş və orada mərkəzləşmişdir.

Daha sonra sultan Əbdul-Məcidin (1839 – 1861) hakimiyyəti dövründə Bəktaşilər itirdiklərini müəyyən qədər qaytara bilsələr də, keçmişdə olan nüfuzlarını bərpa edə bilməmişdir. Üstəlik, aralarında baş vermiş *ixtilafların* sonunda, Bəktaşilər müxtəlif qruplara parçalanmışlar. 1925-ci ildə Türkiyə Cümhuriyyəti Bəktaşiliyi ölkədə qadağan etmişdir. Arnavutluqda isə onlar 1967-ci ilə qədər fəaliyyət göstərə bilmişdirlər. Müasir Türkiyədə bu təriqətin azsaylı davamçıları bu gün də mövcuddur.

Bəktaşilik iki böyük qola ayrılır:

1. Əsasını Hacı Bəktaş Vəliyə bağlayan "Çələbilər"-dir, hansı ki bu qol Anadoluda geniş yayılmışdır;

2. Hacı Bəktaş Vəlinin ailəsinin olmadığını və soyunun bitdiyini iddia edən "babaqanlar"dır. Bu qol isə Osmanlı imperiyasının Avropa hissəsində daha çox yayılmışdır.

Bəktaşi *müridləri* isə beş qrupa bölünürdülər:

1. Mühiblər – *beyət* ayinindən keçərək təriqətə daxil olan insanlardır. Bunun üçün iki bəktaşidən razılıq alınmalı idi;

2. Dərvişlər – təriqətə daxil olandan sonra ona sadiqlik göstərənlərdir. Onlar "tac" adlanan baş örtükləri və *xirqə* geyinirdilər;

3. Babalar – təriqətin xəlifəsi tərəfindən təyin edilən başçılardır. Onlar *mühib və dərvişləri* yetişdirirdilər;

4. Mücərrədlər – təriqətin evlənməyən subay davamçılarıdırlar. Onlar xəlifəyə daha yaxın olmuşlar. Mücərrəd olmaq üçün xüsusi qapalı bir ayin keçirilirdi. Burada, özünü təriqətə bağlayanın sağ qulağını deşib, ona sırğa taxırdılar. Mücərrədlərin özlərinə məxsus tacları olmuşdur.

5. Xəlifələr – əsasən babalardan seçilirdi. Bunun üçün bir babanın və üç mücərrədin razılığını almaq lazım idi. Xəlifələrin də öz tacları olmuşdur. Bəktaşilik türk ədəbiyyatı və *musiqisinin* inkişaf etməsində böyük rol oynamışdır.

**BƏL** – ***qədim zamanlarda yaxın Şərqdə ibadət edilən ən məşhur bütlərdən biri idi.*** Bu bütə sami xalqları tapınırdılar. Bəlin bütləri Suriya, *Fələstin* və Şimali Afrikada qurulmuşdur. Onun şərəfinə hətta insanları belə qurban edirdilər. Ancaq, sonra bu *adət* ortadan qaldırılmışdır. *İslama* qədər artıq Yaxın Şərqdə Bələ tapınmırdılar. Ancaq, Ərəbistanda bu bütlər hələ də qalmaqda davam edirdi. İslamın qəbulundan sonra isə Ərəbistanda da bu bütlərə sitayiş aradan qaldırılmışdır.

**BƏLƏM İBN BƏUR** – ***qədim yəhudi və yəmənlilər arasında yüksək elmi və bacarığı ilə seçilən şəxs olmuşdur.*** Ona *Allah* zənginlik vermiş, öz *ayələrini* ona bəyan etmişdir. Bütün bunlara baxmayaraq *şeytanın* hiylələrinə uyan Bələm, Allaha

üsyan etmiş, ehtiram və hörmət göstərməmiş, beləliklə də, doğru yoldan sapmışdır. Rəvayətlərə görə, *Musa peyğəmbər* Bələmin cəzalandırılmasını Allahdan istəmiş, O, da bunu həyata keçirmişdir. Təfsirçilərə görə, Bələmin *Quranda* adı çəkilməsə də, Əraf surəsində ona işarə edilir.

**BƏNİ İSRAİL** – ***İsrail oğulları və ya qədim yəhudi xalqının adlarından biridir.*** "İsrail" sözü ibrani (qədim yəhudi) dilində "Allahın qulu" deməkdir. İsrail *Quranın* "Ali-İmran" surəsinin 93-cü ayəsinə görə *Yaqub peyğəmbərin* adlarından biridir. Məhz, Yaqub peyğəmbərdən *yəhudilərin* 12 qolu törəmişdir.

**BƏRA İBN ƏZİB** (72/691-ci ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuşdur.*** Bəra *Mədinədə* dünyaya gəlmişdir. Onun Evs qəbiləsindən olduğu bilinməkdədir. İslamı *hicrətdən* əvvəl qəbul etmişdir. *Uhud* döyüşündən başlayaraq müsəlman ordusunun sıralarına qatılmış, *müşriklərə* qarşı bütün döyüşlərdə iştirak etmişdir. İlk *xəlifələrin* dövründə Bizans və Sasani imperiyalarına qarşı gedən savaşlarda, xüsusən də Rey və Şüştərin alınması uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Xilafətdəki daxili çəkişmələrdə isə xəlifə *Əlinin* tərəfini tutmuşdur. Bəra 80 yaşında Kufədə vəfat etmişdir.

**BƏRAƏT GECƏSİ** – ***müsəlmanların müqəddəs hesab etdikləri gecələrdən biridir.*** Hər il *Şaban* ayının 14-dən 15-nə keçən gecə qeyd edilir. Rəvayətlərə görə *Allah* bu gecə bütün insanların *dualarını* və istəklərini yerinə yetirmək üçün *mələklərini* yer üzünə göndərir. Eyni zamanda, bu gecə Allah insanların *günahlarını* bağışlayır. Bəraət gecəsi *möminlər* arzularını dilə gətirərək Allahdan onların yerinə yetirilməsini diləyirlər. Çoxlu duaların edilməsi tövsiyə edilsə də, bu gecənin ayrıca bir *namazı* yoxdur. Rəvayətlərə görə, Allah *Məhəmməd peyğəmbərə* bütün müsəlmanlar üçün *şəfaətçi* olmaq vəzifəsini bu gecə vermişdir. Şaban ayının 15-ci gecəsinin müqəddəsliyi haqqında *hədislər* mövcuddur.

**BƏRƏKƏT** – ***bu söz bolluq, çoxluq, dində qazanılan mükafat mənasını verməkdədir.*** Bərəkət sözü *Quranın* ayrı-ayrı *ayələrində zikr* edilməkdədir. *Allah* onu istədiyi insana verir. *Sufilikdə, şiəlikdə* və bir sıra digər *təriqətlər* və cərəyanlarda bərəkətin peyğəmbərlərdən *övliyalara*, onlardan isə digərlərinə varisliklə keçməsi iddia edilir. Sufi dünyagörüşünə görə bərəkət ilk olaraq *Məhəmməd peyğəmbərin* birbaşa varisləri olan *seyidlər* və *şəriflərə* verilmişdir. Onlar isə onu sadə insanlara ötürə bilərlər. Bərəkəti yalnız sağ olan müqəddəsdən deyil, onun *məzarından* da almaq mümkündür. Buna görə də, sufilikdə (eləcə də şiəlikdə) müqəddəslərin məzarlarına da hörmət bəslənilir. Onların məzarları üzərində türbələr tikilir və bu yerlər zamanla *ziyarət* yerlərinə çevrilirlər.

**BƏRZƏX** – ***pərdə və ya iki şey arasında yerləşən yerdir (Quran 55: 19-20).*** Bu söz eyni zamanda, dənizi ayıran su sərhədi və ya boğaz mənasında da istifadə edilir. Bərzəx sözünü ölən insanların ruhlarının *qiyamət* gününə qədər qaldıqları yer mənasında da işlədirlər. Bərzəx aləmi *dünya* həyatından sonrakı həyatın başlanğıcıdır. Bədəndən ayrılmış ruhlar burada bədənlərin yenidən təkrar diriləcəyi günə qədər gözləyirlər. Bərzəx vəfat etmiş mömin insan üçün *cənnətdən* bir guşəyə və ya günahkar insanlar üçün əzablarla dolu *cəhənnəmə* bənzər atəş dolu çuxura bənzəyir (*Quran* 23: 99-100).

**BƏST** – bax: **QƏBZ VƏ BƏST.**

**BƏYAZİD BİSTAMİ** (262/875 ildə vəfat etmişdir) – ***görkəmli İran sufisi, Sufizmdə əsas təriqətlərdən birinin qurucusu və dünyaca məşhur təsəvvüf alimi olmuşdur***. Tam adı – Əbu Yəzid Təyfur (Bəyazid) ibn İsa Bistamidir. O, İranın Bistam şəhərində doğulmuş, həyatını orada keçirmişdir. Təriqət yolunda onun müəllimi sufi Əbu Əli Sindi olmuşdur.

Bəyazid Bistami insanın öz "Mən"ini itirərək, Tanrıda ərimək ideyasını irəli sürmüşdür. Bu durumu o, "*fəna*" adlandırmışdır. *Fəna* (yoxluq) ilə birlikdə ortaya çıxan, digər anlayış Tanrıya olan heyranlıq və sevgidən irəli gələn sərxoşluqdur. Belə ki, Tanrıya yönəlmiş və onda ərimiş insan, Onun sifətlərini mənimsəmiş olur. O, ilk dəfə "Sən Mənsən, mən isə Sən" sözlərini istifadə etmişdir. Sufilər mistik təcrübələri zamanı, ruhun yüksəlməsinə "*merac*" deyirlər. Ehtimal edilir ki, bu termin də ilk dəfə Bəyazid Bistami tərəfindən istifadə edilmişdir. Bəyazid Bistaminin bu kimi ideyaları ənənə tərəfdarı müsəlmanlar tərəfindən rədd edilmişdir. Onlar onu *küfrdə* ittiham etmişdirlər.

Bəyazid Bistamidən heç bir əsər qalmamışdır. Onun 500-ə yaxın kəlamını onun tələbələri ölümündən sonra qələmə almışdırlar. Sonra onları Küşeyri, Süləmi, Hüciviri, Münəvi və Sərrac kimi müsəlman sufi mütəfəkkirləri öz əsərlərində istifadə etmişdirlər.

**BƏYHƏQİ ƏHMƏD** (384/994 – 458/1066) – ***görkəmli fəqih, mühəddis və təfsirçi olmuşdur.*** Tam adı – Əbu Bəkr Əhməd ibn Hüseyn Bəyhəqidir. O, İranın Nişapur şəhərinin yaxınlığındakı Bəyhəq bölgəsində doğulmuşdur. Xorasan, Bağdad, Kufə, *Məkkədə* təhsil almışdır. O, *hədis* və *fiqh* elmlərini yüzdən çox müəllimdən öyrənmişdir. Daha sonra Bəyhəqi müəllimlik etmiş və elmi fəaliyyətlə məşğul olmuşdur. O, hüquq, *kəlam (I)* və hədis elminə aid bir çox kitabın müəllifidir. O, *Şafii məzhəbinin* davamçılarından hesab edilir. Hədislər məcmuəsi hesab olunan "Sünəni-Kubra" (peyğəmbər yolunun böyük məcmuəsi) və "Sünəni-Suğra" (*peyğəmbər* yolunun kiçik məcmuəsi) kitabları ilə tanınmışdır. Eləcə də, *Allahın* adları və sifətləri ilə bağlı "Kitabül-Əsma vəs-Sifət" (Allahın adları və sifətləri haqqında) kitabının da müəllifidir.

**BƏYY** – ***İslam hüququnda bir malın başqası ilə dəyişdirilməsi və ya alqı-satqısıdır.*** Bəyy ticarətdə tərəflərin nə isə almaq və satmaq istəyi ilə baş tutur. Bundan sonra alqı-satqı qanuniləşir və bu anlaşma birtərəfli pozula bilməz. Onu yalnız hər iki tərəf anlaşaraq poza bilərlər. İstisna hallarda isə alan və satan arasında bu barədə anlaşma olmayıbsa *mal* geri qaytarıla bilər. Alqı-satqının *şərtləri* bunlardır: Ticarətdə tərəflərin qarşılıqlı razılığı; Onların ağıllı, azad olmaları və yetkinlik yaşına çatmaları; Malın *şəriət* qanunlarına uyğun olması, məsələn; donuz əti, spirtli içkilər kimi dində qadağan olunan malları satmaq olmaz; Satıcının malı satmaq hüququnun olması; Malın qiyməti müəyyənləşdirilməlidir.

**BİDƏT** – ***Məhəmməd peyğəmbər və onun səhabələrinin zamanında olmayan, sonra İslam dininə gətirilmiş bütün yeniliklərdir.*** Bidətin iki tərifi vardır:

1. *İslam* alimlərindən bəziləri Məhəmməd *peyğəmbərdən* sonra İslamda ortaya çıxan yeni hər bir şeyi bidət hesab edirlər. Onlara görə, "yenilik" geniş anlayışdır. Onlar bütün yenilikləri iki hissəyə ayırırlar. Birincisi, *Quran* və peyğəmbərin göstərdiyi yola qarşı olmayan, ikincisi isə bunlara qarşı olan bidətlərdir. Buna görə də, İslam hüququnda bunlar dərəcəsinə görə *vacib, mübah,*

*məkruh, haram* kimi kateqoriyalarla dəyərləndirilir. İslam əqidəsi ilə təzad təşkil etməyən hər hansı bir elmi yenilik İslam dünyagörüşündə xoş qarşılanır. Məsələn, fiqhdə problemin həlli yolunda hər hansı bir yeniliyin ortaya qoyulması və ya bu qəbildən olan bütün yeniliklər xoş qarşılanan bidətlərdəndir.

2. Digər müsəlman alimləri isə dindəki yenilik probleminə başqa cür yanaşırlar. Onlara görə, Quran və peyğəmbərin peyğəmbərin göstərdiyi yola uyğun olan anlayışları bidət adlandırmaq olmaz. Beləliklə, bu alimlərə görə İslamın ilk qaynaqlarında anılmış başlıca ideyalar, sonra inkişaf etdirilibsə onları bidət kimi dəyərləndirmək doğru deyildir. Məsələn, *minarələrin* tikilməsi, kitabların yazılmasını göstərmək mümkündür. Bütün bunlar *Məhəmməd* peyğəmbərin dövründə bizim anladığımız anlayışlarda olmasa da, onlara yaxın formalarda mövcud olmuş, sonralar isə inkişaf etdirilmişdir. Məsələn, peyğəmbərin dövründə minarələr olmasa belə, müsəlmanlar uca yerlərdən *azan* oxumaqla müsəlmanları *Allaha* ibadət etməyə dəvət edirdilər. Peyğəmbərin sağlığında müasir məktəblər olmasa belə, peyğəmbər hamını dinin əsaslarını öyrənməyə və öyrətməyə səsləmiş, bu məqsədlə dini bilən müəllimləri müxtəlif qəbilələrə göndərmişdir. Buna görə də, bütün bunlar bidət hesab edilmir. Bu alimlərə görə, Quran və peyğəmbərin *hədislərində* adı keçməyən müəyyən şeyləri bidət adlandırmaq mümkündür. Misal üçün, Məhəmməd peyğəmbərin adı çəkiləndə *salavat* çevirmək *adəti* bəzi hədislərdə qeyd edilir. Ancaq, onun *mövludu* ilə bağlı hər-hansı bir şənliyin keçirilməsi haqqında Quran və ya hədislərdə hər hansı bir məlumat yoxdur. Ölənləri hörmətlə anmaq adəti hədislərdə vardır, ancaq ölünün qırxıncı gününün qeyd edilməsi barəsində məlumatın orada olmadığına görə bidət sayılmalıdır.

**BİLAL HƏBƏŞİ** (20/641-ci ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin ən tanınmış Həbəşistan əsilli səhabələrindən biri və İslamın ilk müəzzini olmuşdur.*** *İslamı* qəbul edən ilk müsəlmanlardan biri olan Bilal Həbəşi, Ümeyyə ibn Xələfə adlı tanınmış bir məkkəlinin köləsi olmuşdur. Ümeyyə ibn Xələfə Bilal Həbəşinin müsəlman olmasını biləndə, ona ən ağır işgəncələr vermiş, dindən çıxmasını tələb etmişdir. Bilal Həbəşini qızmar qumun üstünə uzadıb, sinəsinə ağır daşlar qoymuşdular. Ancaq bütün bunlara baxmayaraq o, İslamdan üz çevirməyərək, bütün işgəncələr qarşısında səbir etmiş və öz inancında səmimi olduğunu sübut etmişdir. Sonda Əbu Bəkr Ümeyyə ibn Xələfəyə pul ödəyərək, Bilal Həbəşini azad etmiş, Məhəmməd *peyğəmbərin* yanına gətirmişdir.

*Mədinəyə hicrət* zamanı Bilal Həbəşi də digər müsəlmanlarla birlikdə, oraya *hicrət* etmiş, gözəl səsə malik olduğuna görə İslamın ilk *müəzzini* olmuşdur.

Bilal Həbəşi *müşriklərə* qarşı döyüşlərdə iştirak etmişdir. O, *Bədr* döyüşündə ona işgəncələr vermiş keçmiş sahibi Üməyyə ibn Xələfə ilə qarşılaşmış və tərəfdaşları ilə birlikdə onu, eləcə də onun oğlunu öldürmüşdür.

Müsəlmanlar *Məkkəni* fəth etdikdən sonra Məhəmməd peyğəmbər *Kəbəyə* daxil olmuş və oradakı bütün bütləri sındıraraq dağıtmışdır. Sonra isə Bilal Həbəşi Kəbənin üzərinə çıxaraq orada *azan* oxumuşdur.

*Məhəmməd* peyğəmbərin ölümündən sonra, *Əbu Bəkr* və *Ömərin* xəlifəliyi dövrlərində Bilal Həbəşi Suriyada bizanslılara qarşı döyüşlərdə də iştirak etmişdir. Ayrıca, xəlifə *Ömər Qüdsü* fəth etdiyi və şəhərin

müsəlmanlara verilməsinin *şərtlərini* qəbul edəndə Bilal Həbəşi onun yanında olmuşdur.

Daha sonra Bilal Həbəşi müəyyən vaxt Suriyada yaşamış, ölümünə az qalmış isə Mədinəyə qayıtmışdır. Rəvayətlərə görə o, 60 yaşında vəfat etmişdir.

**BİLQEYS** – ***rəvayətlərə görə Səba krallığının hökmdarı olmuşdur.*** *Süleyman* peyğəmbər onu öz yanına dəvət etmişdir. O, Süleyman *peyğəmbərin* hüzurunda olarkən isə Bilqeys imana gəlmişdir. Bu hadisələr *Quranda* (27: 20-44) anılmaqdadır.

**BİNYAMİN** – ***Yusif peyğəmbərin qardaşıdır.*** O, qardaşlarının yolu ilə getməmiş, *Yusifə* qarşı mövqe tutmamışdır. *Yusif* peyğəmbər *Misirdə* olduğu zaman Binyamin atası *Yaqubun* xidmətində durmuşdur. *Fələstində* aclıq olanda, Binyamin öz qardaşları ilə azuqə arxasınca Misirə getmiş, orada Yusif *peyğəmbəri* tanımış və onun yanında qalmışdır. Sonra isə onun yanına qardaşları və atası da gəlmişdir. Beləliklə, Binyamin və qardaşları Misirdə məskunlaşmışdırlar. Yusif peyğəmbər isə öz qardaşlarını işlədikləri *günah* və cinayətə görə bağışlamışdır.

**BİRÜL-MƏUNƏ** – ***Məkkə ilə Mədinə arasında yerləşən quyunun adıdır.*** Bəni Süleym qəbiləsinin yaraqlı dəstələrinin basqını zamanı, burada yetmiş müsəlman din bilicisi öldürülmüşdür. Onları *Məhəmməd peyğəmbər* Bəni Əmr qəbiləsinə onların başçılarının dəvəti üzərinə, dinin əsaslarını öyrətmək məqsədi ilə oraya göndərmişdir.

**BUHTUNNƏSR** – ***yəhudiləri məğlub edərək Qüdsü dağıtmış qədim Babil hökmdarı olmuşdur.*** Dini rəvayətlərə görə, bu məğlubiyyətin səbəbi *yəhudilərin Tanrının* yolundan uzaqlaşmaları və böyük *günahlar* işləmələri olmuşdur. Buhtunnəsrin onlara etdiyi zülmlər, Tanrının cəzası kimi dəyərləndirilmişdir. Bu hadisələr zamanı yəhudilərin çoxu öldürülmüş, sağ qalanlar isə sürgün edilmişlər. *Babil* imperiyasının müxtəlif yerlərinə sürgün edilən yəhudilər, 70 ilə yaxın müddətdən sonra Babili məğlub edən İran çarları onları sürgün həyatından qurtarmış və öz yurdlarına qayıtmalarına icazə vermişdirlər.

**BUXARİ MƏHƏMMƏD** (194/810 – 256/870) – ***görkəmli hədis və fiqh alimi olmuşdur.*** Buxarada doğulmuş və bütün həyatını orada keçirmişdir. Tam adı – Əbu Abdullah Məhəmməd ibn İsmail ibn İbrahim ibn Müğirə ibn Bərdizbə Buxari Cufidir. Buxari atasını erkən yaşlarında itirdiyindən, onu anası böyütmüşdür. On yaşından başlayaraq *hədislərə* maraq göstərən Buxari, onları əzbərləməyə başlamışdır. Onun əzbərdən bildiyi hədislərin ümumi sayı yetmiş mini ötüb keçmişdir.

İlk dövrlərdə Məhəmməd hədisləri tanınmış alimlərdən Məhəmməd ibn Salamdan, Müsnididən, Məhəmməd ibn Yusif Bəykəndidən öyrənmişdir. Sonralar o, anası ilə birlikdə səfərə çıxmış, Bəlxdə, Kufədə və Dəməşqdə *elm* hasil etmişdir.

Hədis alimi kimi tanınan Məhəmməd çoxlu sayda rəvayət olunmuş hədis toplamışdır. Hələ o, öz sağlığında ikən etibarlı *mühəddis* kimi tanınmışdır. Sonralar isə *Müslim, Tirmizi* və İbn Hüzeymə kimi hədis alimləri, onun tətbiq etdiyi metodlarla toplanan hədisləri öz kitablarında vermişdirlər.

Buxari hədis rəvayətçisi olmasından başqa, eləcə də ilk dəfə olaraq hədislərin asan bir şəkildə seçilməsi üçün özünə məxsus metodun əsasını qoymuşdur. Ondan sonrakı hədisçilər isə onun bu metodundan istifadə etmişdirlər. Buxari bacarıqlı *fiqh* alimi kimi də tanınmışdır.

Buxaridən öncə mühəddislər, hədisin *səhih* sayılması üçün *ravilərin* doğru danışan və inanclı mömin olması *şərtini* irəli sür-

müşdür. Ancaq, Buxari təkcə bu şərtlə kifayətlənməmiş, yeni metodunu ortaya qoymuşdur. Bu metoda görə ravilərin bir-biri ilə görüşməsi faktı sübuta yetirilməli idi. Ayrıca, bunu başqaları da təsdiq etməli idilər. Bu şərt yoxdursa, onda hədis etibarlı hesab edilmirdi. Çünki, ravilər bir-birləri ilə görüşməyiblərsə, onda hədis də ötürülə bilməzdi. Beləliklə, hədislərin etibarlı sayılması üçün, hədis ravilərinin görüşmək şərti ilə ardıcıl *silsiləsi* sübuta yetirilməli, bundan başqa ravilərin soyu, doğum və ölüm tarixləri, yaşayış yeri və müəllimləri bilinməli idi.

Buxarinin ən məşhur əsəri "Cəmiüs-Səhih" (Etibarlı hədislər toplusu) kitabıdır. Bu əsərində o, irəli sürdüyü metoda uyğun ən etibarlı hədisləri toplamışdır. Rəvayətlərə görə o, bu əsəri 600 minə yaxın hədisi araşdırdıqdan sonra, on altı il müddətində yazmışdır. Ancaq, bunların az hissəsi tətbiq etdiyi seçim metoduna uyğun olmuşdur. Buna görə orada yalnız 7397-yə yaxın hədis vardır.

"Cəmiüs-Səhih" kitabında olan bütün hədislər mövzularına görə ayrı-ayrı fəsillərə bölünmüşdür. Sıralama isə fiqhi mövzulara uyğun aparılmışdır. Beləliklə də, Buxarinin əsəri təkcə hədislərin toplusu deyil, hüquqi hökmlərin verilməsi üçün də faydalı bir dərslik olmuşdur. Buna görə də, orada ehtiyac olanda, bəzi hədislər təkrar olunur. Təkrar olunan hədislərin sayı isə 2762-dir.

Bəzi müsəlman alimləri Buxarinin tətbiq etdiyi metodu tənqid etmişlər. Buna baxmayaraq onun "Cəmiüs-Səhih" kitabı hədis və fiqh elmində özünə layiq yerini tutmuşdur. Bu əsərin bəzi yerlərdə bir-birindən fərqlənən və bir neçə qədim əlyazma nüsxələri günümüzə gəlib çatmışdır.

**BURAQ** – ***gecə vaxtı Məhəmməd peyğəmbəri Məkkədən Qüdsə, sonra isə göylərə Allahın hüzuruna, sonra oradan Onu geri qaytarmış heyvanın adıdır.*** *İslamda* bu hadisəyə *İsra* və *Mirac* (Gecə səfəri və göylərə yüksəliş) deyilir (*Quran* 7: 1). Rəvayətlərə görə, Buraq ağ rəngli, qatırdan kiçik, eşşəkdən böyük və yüksək surətlə irəliləyən bir heyvan olmuşdur.

**BUZOV** – ***Musa peyğəmbərin zamanında İsrail oğullarının tapındıqları bütdür.*** *Musa peyğəmbər İsrail oğullarını* Fironun zülmündən qurtardıqdan sonra *Allahın* buyruğu ilə *Tur dağına* getmiş, qardaşı *Harunu* müvəqqəti olaraq öz yerinə başçı təyin etmişdir. Musa Tur dağında olarkən İsrail oğulları Harunu dinləməyərək öz bəzəkdüzək əşyalarından buzov heykəli düzəltmiş və həmin buzova sitayiş etmişdirlər. Buna görə də, Allah onları cəzalandırmışdır.

**BÜREYDƏ İBN HÜSEYB** (63/682 ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuşdur***. O, Əsləm qəbiləsindən idi. Onun *Məhəmməd* peyğəmbərlə tanışlığı *Mədinəyə hicrət* zamanı başlamışdır. Peyğəmbərin *hicrət* etməsinin qarşısını almaq məqsədi ilə qüreyşlilər onu izləmək qərarına gəlmişdirlər. Ancaq, axtarışlar heç bir nəticə vermədiyindən, onlar Məhəmməd *peyğəmbəri* tapan şəxsə yüz dəvə verəcəklərinə söz vermişdirlər. Bu xəbər başqa yerlərdə yaşayan ərəb qəbilələrinə də gedib çatmışdır.

Rəvayətlərə görə, Büreydə ibn Hüseyb söz verilən mükafatı almaq istəyinə düşərək, Məhəmməd peyğəmbərin axtarışına başlamışdır. Bu məqsədlə o, yetmiş atlı ilə qəbiləsinin yaşadığı yerdən keçən yolu kəsmiş və orada səfərdə olan bütün yolçuları saxlayıb onların kim olduğunu müəyyənləşdirmişdir. *Mədinəyə* doğru hərəkət edən Məhəmməd peyğəmbər və *Əbu Bəkr* bu yoldan keçmək məcburiyyətində qalmışlar. Onlar Büreydə ibn Hüseyb və onun silahdaşları ilə salamlaşmışlar. Bundan sonra onların arasında danışıqlar başlamışdır. Məhəmməd peyğəmbər və Əbu Bəkr Büreydə ibn Hüseybə özlərini olduqca yaxşı

tərəfdən göstərmişlər. Qarşısında Məhəmməd peyğəmbərin olduğunu biləndən sonra o, əvvəlki istəyindən çəkinmiş, *İslamı* qəbul etmişdir. Ardınca onun silahdaşları da müsəlman olmuşdurlar. Sonra onlar peyğəmbərin arxasında *namaz* qılmış, sonra isə Büreydə ibn Hüseyb dəstəsi ilə Məhəmməd peyğəmbəri Mədinəyə qədər müşayiət etmişdir.

Müsəlman olmuş Büreydə özü də Mədinəyə köçmüşdür. Orada o, İslam ordusunun sıralarına qatılaraq, on altı döyüşdə vuruşmuşdur. Xüsusən də, igidliyini Xeybər qalasının alınmasında göstərmişdir. *Məkkənin* fəthi günü isə o, Əsləm qəbiləsinin bayraqdarı olmuşdur.

*Raşidi xəlifələri* dövründə Büreydə ibn Hüseyb Xilafətin genişlənməsi uğrunda aparılan savaşlara qatılmışdır. Xüsusən də, Xorasana edilmiş yürüşdə öz döyüş bacarığını göstərə bilmişdir. Fəth edilmiş yerlərdə Büreydə İslamın yayılması üçün böyük işlər görmüşdür. O həm də *hədis* ravisi kimi tanınmışdır. Onun rəvayət etdiyi hədislər *Buxari* və *Müslimin* kitablarında vardır. Büreydə ibn Hüseyb xəlifə Yəzid ibn Müaviyənin hakimiyyəti dövründə Xorasanda vəfat etmişdir.

**BÜT** – ***insan tərəfindən yaradılan, uydurulmuş tanrı obrazıdır.*** Bütlər tarixdə və günümüzdə bəzi insan, qəbilə, tayfa, millət və xalqların ibadət etdikləri daş, ağac, torpaq və buna bənzər şeylərdən hazırlanmış heykəl, şəkil, oyma və fiqurlardır. Bütlərə sitayiş edən insanlara *bütpərəst* deyilir.

*Cahiliyyə* dövründə ərəblər çoxlu bütlərə tapınmışlar. Onların əsas tanrıları *Hübəl, Lat və Mənat* olmuşdur. Qüreyşlilər *Kəbənin* yaxınlığında yerləşdirilmiş İsaf və Nailə adlı bütlərə də qurban kəsib, onlara tapınırdılar. Rəvayətlərə görə İsaf adlı kişi ilə Nailə adlı bir qadın Kəbədə cinsi əlaqəyə girdiklərinə görə, *Allah* onları daşa çevirmişdir.

Bu bütlərdən başqa, hər bir məkkəli *müşrikin* tapındıqları ailə bütləri də mövcud olmuşdur. Onlar səfərə çıxdıqda bu bütlərə toxunaraq və üzlərini onlara sürtərək yolda qorunmalarını diləyirdilər. Bu tapınma geri qayıdandan sonra da təkrarlanırdı.

**BÜTPƏRƏSTLƏR** – ***Allahla yanaşı başqa tanrıların varlığına inanan və onlara tapınan insanlardır.*** Bütpərəstlər yaradanı yaradılmışdan ayrılmış, ondan uzaqlaşmış hesab edirlər. Onlara görə, Yaradanla *dünya* arasında əlaqəni yalnız vasitəçilər qura bilər. Bu vasitəçilər də, sayları çox olan tanrılardır(*Quran*, 39: 3).

*İslam* alimlərinin çoxu başqa tanrılara tapınanları bütpərəst hesab edir və buna dəlil kimi Quranın (9: 30) ayəsini gətirirlər. İslamda bütpərəstlər ən böyük günahkarlar hesab olunurlar. Onlar bu inanclarına görə *tövbə* etməsələr, *Allah* onları əsla bağışlamaz (Quran, 4: 48). Hətta, Quranın (9: 113) ayəsinə görə Allaha bütpərəstlərin bağışlanması üçün *dua* etmək belə yol verilməzdir.

Quran (9: 28) ayəsinə görə bütpərəstlərin *Məkkədə* müqəddəs məkanlardan hesab edilən *Məscidül-Harama* girməsi qadağan olunmuşdur. Ancaq, bu ayəni başqa cür *təfsir* edənlər, onların ora girməsində heç bir problemin olmadığını qeyd edirlər. Bütpərəstlərin başqa məscidlərə girmələri haqqında isə müxtəlif hökmlər vardır. Bəzi alimlər onların başqa *məscidlərə* girmələrini də eyni dəyərləndirmiş və bunun *haram* olduğunu iddia etmişlər. Bəziləri isə buna icazə verərək burada heç bir problemin olmadığını qeyd etmişlər.

Müsəlmanlar özlərini bütpərəstlərə bənzətməməli, onlar kimi yaşamamalı, onların *adətlərini* mənimsəməməlidirlər. Müsəlman alimlərinin əksəriyyətinin fikrinə görə Allah bütpərəst olan yetkinlik yaşına çatmamış, müstəqil düşüncəsi olmayan uşaqları cəzalandırılmayacaq, onları bağışlayacaqdır (Quran, 17: 15).

# C

**CABİR İBN ABDULLAH** (77/696 ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuşdur.*** Xəzrəc qəbiləsindən olan Cabir Mədinə şəhərində doğulmuşdur. Cabir ibn Abdullahın atası *İslamı* qəbul edərək müsəlmanların mübarizəsində iştirak etmişdir. O, *Uhud* döyüşündə 95 yaşında *şəhid* olmuşdur. Cabir ibn Abdullah digər müsəlmanlarla bərabər *peyğəmbərin* sağlığında 19 döyüşdə iştirak etmişdir. Əlinin *xəlifəliyi* dövründə onun tərəfində olsa da, onun vəfatından sonra Müaviyəni xəlifə kimi tanımışdır.

Cabir ibn Abdullah eyni zamanda *hədis ravilərindən* biri olmuşdur. Onun rəvayət etdiyi 1500-dən artıq hədis vardır. Cabir ibn Abdullah İslamı yaxşı bilən bir şəxs kimi Mədinədə *Məscidün-Nəbəvidə* müsəlmanlara elm öyrətmişdir. Ayrıca, Cabir ibn Abdullah ən son vəfat edən səhabələrdən biri olmuşdur.

**CADU** – ***müxtəlif vasitələrlə insanın ruhuna, bədəninə və həyatına təsir edən fövqəltəbii bir güc və ya sehrdir***. Sehr hələ ən qədim zamanlarda müxtəlif ölkələrdə istifadə edilirdi. Bu işi daha çox *Babil* və *Misir kahinləri* həyata keçirirdilər. *Quranda* (2: 102) sehrin Babildən gəlməsi göstərilir. *İslamda* isə cadu və ya sehr, fal oxları kimi məsələlər qadağan edilmişdir. Cadu ilə məşğul olan insanların *şeytanlarla* bağlılıqlarının olduğu iddia edilir. İmanlı insanlar cadu ilə məşğul olanların yanına getməməli, onlara inanmamalıdırlar.

**CAHİL** – ***Allahı tanımayan, İslamın əmr-lərindən xəbərsiz olan insandır.*** Daha geniş mənada bu söz avam, elmsiz, məlumatsız kimi mənalarında istifadə edilir. Cahil həqiqəti bilmədiyindən, qarşısındakı insana düşmən kəsilir və zidd hərəkət edir. *İslamda* cahillik ən aşağılanmış anlayışlardan biridir. *Quranda* (2: 67) *Musa peyğəmbər* "Cahillikdən *Allaha* sığınıram" demişdir.

**CAHİLİYYƏT** – ***İslamöncəsi dövrü əhatə edir***. Bu söz *Quranda* da anılmaqdadır (5: 50). Bu termin daha çox ərəblərin *İslama* qədərki *bütpərəstlik* dövrlərinə aid edilir. İslamdan əvvəlki dövrdə insanlar *Allaha* üsyan etmiş, öz əlləri ilə düzəltdikləri bütlərə sitayiş edərək Allahın hökmlərinə qarşı çıxmışdırlar. Onlar doğulan qız uşaqlarını diri-diri torpağa basdırmış, istədikləri qədər qadınlarla evlənmiş, bir-birləri ilə aramsız müharibələr aparan cəmiyyət olmuşdurlar. Ancaq daha geniş mənada, cahiliyyət bilgisizlik və nadanlıq anlamlarında da istifadə edilir.

**CAİZ** – ***İslam hüququnda edilməsinə icazə verilmiş əməldir***. Müsəlman o əməli edib-etməməkdə sərbəstdir və hər iki halda doğru hərəkət etmiş olur. Bu qəbildən olan işlərin görülməsi qadağan olunmasa da, edildiyi təqdirdə də *Allah* qarşısında üstünlük verilmir. Bəzən caiz termininin yerinə "*səhih*" terminini də istifadə edilir.

**CALUT** – ***Misirlə Fələstin arasında yaşamış Amalika qəbiləsinin başçısı olmuşdur.*** *İsrail oğulları* onlara məğlub olanlardan sonra, onlar *İşmail peyğəmbərin* məsləhəti ilə *Talutu* özlərinə kral seçmişdirlər. Talut da hakimiyyətə gələn kimi amalikalıların üzərinə yürüş etmişdir. Ancaq, *yəhudilərin* bir çoxu onlardan qorxmuş, yürüş zamanı ordunu tərk edərək geri çəkilmişlər. Qalan döyüşçülər isə yürüşü davam edərək amalikalılarla qarşılaşmış, onlara qalib gələ bilmişdirlər. Bu döyüşdə İsrailin sonrakı kralı *Davud* Calutu öldürmüşdür. Bu hadisələr *Quranda* (2: 246-252) anılmaqdadır.

**CAMİ** – bax: **MƏSCİD.**

**CARİYƏ** –bax: **MƏMLÜKLƏR (I)**.

**CAZİBƏ** – ***sufilikdə Allahın öz qulunu özünə doğru çəkməsidir.*** Sufizmə görə Allah istədiyi insanı özünə doğru yönəldə bilər. Allah istəsə özü ilə qulunun arasında olan pərdəni aradan götürərək onu mənəvi yetkinliyin ən yüksək məqamına yüksəldər. Allahın cazibəsi və sevgisini özündə duyan qul, *vəcd* halına girir və öz varlığını itirərək içdən gələn sevgi ilə Ona doğru yönəlməyə başlayır. Sufilər cazibəyə dəlili kimi bu *Quran* (42: 13) ayəsini gətirirlər.

**CƏBRAİL** – ***Allaha ən yaxın dörd mələkdən biridir.*** Onun vəzifəsi Allahın *vəhylərini* peyğəmbərlərinə çatdırmaqdır. *Məhəmməd* peyğəmbərə *Quran* Cəbrail vasitəsi ilə nazil olunmuşdur (Quran, 2: 97). Cəbrail sözü iki qədim sami sözlərindən yaranmışdır: “Cibr” (kölə) və “İl” (Tanrı). Birlikdə səsləndə bu sözlər *“Allahın köləsi*” mənasını verir. Quranda Cəbrail – *Ruh* və ya *Müqəddəs Ruh* kimi sözlərlə anılmaqdadır. O, Allahın *peyğəmbərlər*i qarşısında müxtəlif şəkillərdə görünə bilirdi.

**CƏBRİLƏR** – ***İslamda ortaya çıxmış ilk dini dünyagörüşünə sahib cərəyanlardan birinin davamçılarıdırlar.*** Onlara görə, *Allah* hər bir insanın qədərini öncədən təqdir edir. Buna görə insanın öz seçimi, azad istəyi yoxdur və ya bu istək əhəmiyyət kəsb etmir. Hər bir insan öz seçimini deyil, yalnız Allahın ona təqdir etdiyini icra edir. “Cəbr” sözü də zor işlətmə, basqı deməkdir.

Cəbr məktəbi *Əməvilərin* hakimiyyəti dövründə yaranmışdır. Tarixi xronikalara görə onun ilk təmsilçisi və ideoloqu Səd ibn Dirhəm olmuşdur. Onun təlimi ilk olaraq Bəsrədə yayılmışdır. İbn Dirhəmin tanınmış tələbələrindən biri Cəhm ibn Səfvan olmuşdur. O təkcə seçim azadlığı ilə bağlı problemlə deyil, başqa ideyalarla da çıxış etmiş və cəbriliyi inkişaf etdirmişdir. Onun iddiasına görə, *cənnət* və *cəhənnəm* sonlu yerlərdir. İnsanlar orada sonsuz olaraq qalmayacaqlar. *Quranın* əzəliliyini (yaradılışdan öncədən var olduğu inancını) doğru hesab etməyən İbn Səfvan, onun Allah tərəfindən yaradıldığını iddia etmişdir. Eləcə də o, *möminlərin* cənnətdə Allahı görəcəklərini inkar edirdi. Onun davamçılarını “cəhmilər” adlandırmışlar. Hüseyn ibn Məhəmməd Nəccar və Dirar ibn Əmirin davamçıları olmuş dirarilərlə nəccarilər də cəbrilər hesab olunurlar.

**CƏDƏL** – ***kəlam (I) elmində məntiqə əsaslanan dialektik metodlarla aparılan müzakirə və mübahisələrdir.*** *Quranda peyğəmbərlər* öz qövmləri ilə çoxsaylı müzakirələr aparmışdırlar. “Cədəl” sözü *Quran* (43: 58) ayəsində zikr edilməkdədir.

**CƏFƏR İBN ƏBU TALİB** (8/629 ildə həlak olmuşdur) – ***Məhəmməd peyğəmbərin əmisi Əbu Talibin oğludur***. *Məkkədə* doğulmuşdur. *İslamı* ilk qəbul edənlərdən biri olmuşdur. Müsəlmanlar təqib edilən dövrlərdə Cəfər ibn Əbu Talib digər müsəlmanlarla birlikdə *Həbəşistana hicrət* etmişdir.

Həbəşistan *nəcaşisi* (kralı) *Əshəmənin* yanına *hicrət* etmiş müsəlmanları geriyə qaytarmaq üçün iki tanınmış məkkəli - Abdullah ibn Rəbiə və *Əmir ibn As* – getmişdirlər. Nəcaşi də onların istəklərini yerinə yetirmək istəmişdir. O müsəlmanları öz yanına çağırmış, onlara Məkkəyə qayıtmaq əmrini vermişdir. Bu zaman Cəfər ibn Əbu Talib çətin vəziyyətdən çıxmaq üçün Məkkədən gəlmiş elçilərə üz tutub, onlara Həbəşistana sığınmış müsəlmanların qüreyşlilərin kölələri olub-olmadıqlarını və ya Məkkədə hər-hansı bir cinayət törədib-törətmədikləri sualını vermişdir. Qüreyşlilərin elçiləri bu insanların

arasında kölələrin olmadığını, onların cinayət törətmədiklərini bildirmişdir. Onlar yalnız müsəlman olduqlarına görə təqib olunduqlarını bildirdilər.

Bunu eşidən nəcaşi Cəfər ibn Əbu Talibdən müsəlmanların inancları haqqında soruşdu. Cəfər də qısaca İslamın nə olduğunu anlatmışdır. *Quranın* "Məryəm", "Ənkəbut", "Rum", "Kəhf" *surələrindən ayələr* oxumuş, Nəcaşi İslam dininin əsaslarının Xristianlığa yaxın olduğunu anladı və bundan sonra müsəlmanları Məkkəyə qaytarmamaq qərarına gələrək onları dəstəkləmişdir. Bəzi rəvayətlərə görə sonra o, İslamı qəbul etmişdir.

Hicrətin 7-ci ilində Cəfər ibn Əbu Talib və onun dostları Həbəşistandan *Mədinəyə* gəlmişdirlər. O zaman *Məhəmməd* peyğəmbər öz qoşunu ilə *Xeybərdə* döyüşürdü. Bu döyüşü qazandıqdan sonra *peyğəmbər* savaşdan alınmış *qənimətin* bir hissəsini Həbəşistandan gələn müsəlmanlara vermişdir. *Hicrətin* 8-ci ilində təxminən 40 yaşlı Cəfər ibn Əbu Talib Muta döyüşündə igidcəsinə vuruşmuş və orada şəhid olmuşdur.

**CƏFƏR SADİQ** (80/699 – 148/765) – ***dini və ictimai xadim olmuşdur.*** *Cəfəri məzhəbinin* adı onunla bağlıdır. Cəfər Sadiq oniki-imamçı *şiələrinin* altıncı imamı sayılır. *Məhəmməd peyğəmbərin* nəvəsi *Hüseyn ibn Əli* və onun ailəsi Kərbəlada *qətl* edilmişdirlər. Bundan sonra *Xilafətdə* bu ailənin nümayəndələri siyasi səbəblər üzündən təqib olunurdular. Buna görə də onların bir çoxu (xüsusən də *Mədinədə* yaşayanlar) siyasətdən uzaqlaşaraq *elmlə* məşğul olmuşdurlar. Onlar *İslam* mirasının qoruyucuları, biliciləri, *hədis raviləri*, Quran *təfsirçiləri* idilər.

Cəfər Sadiq bir-çox tanınmış alimlərin müəllimi olmuşdur. Məsələn, *Əbu Hənifə* ondan islami elmləri öyrənmiş, ondan öyrəndiklərini isə öz tələbələrindən olan Əbu Yusiflə Məhəmməd ibn Həsən Şeybaniyə ötürmüşdür. *Malik ibn Ənəs* də Cəfər Sadiqin tələbəsi olmuşdur.

Öz ailə ənənələrinə sadiq olan Cəfər Sadiq erkən yaşlarından İslam elmlərinin öyrənilməsinə böyük səylər göstərmişdir. Onun müəllimləri babası *Əli Zeynül-Abidin* və atası *Məhəmməd Baqi* olmuşdurlar. Ümumiyyətlə, Cəfər Sadiq İslam hüquq elminin yaradıcılarından biri hesab edilə bilər. O, İslam hüququnun metodlarını sistemləşdirdikdən sonra, digər hüquqçular bu metodları daha da inkişaf etdirmişdirlər.

Cəfər Sadiqin dini dünyagörüşü və düşüncəsi tələbələrinin yazılarında yer almışdır. Tələbələrindən biri Mufəddəl ibn Əmir olmuşdur. O, öz kitabında töhviddən yazarkən ustadının dini dünyagörüşünə xüsusi yer vermişdir. *Allahın* varlığını və birliyini dəlilləri ilə isbatlamağa çalışmışdır.

Cəfər Sadiq irsinin davamçılarından biri də Cabir ibn Xəyyan olmuşdur. O, müəllimini təkcə hüquqçu kimi deyil, həm də təbiət elmlərində və kosmoqoniya sahəsindəki işləri ilə tanıtmışdır. Ancaq, Cabir ibn Xəyyamın fikirlərini şübhə ilə qarşılayan tənqidçilər də olmuşdur.

Şiə etiqadına görə din haqqında bütün məsələləri *Məhəmməd* peyğəmbər öz *əhli-beytinə* ötürmüşdür. Onların inanclarına görə bu bilgilər bir imamdan digərinə ötürülürdü. Şiələrə görə Cəfər Sadiq bütün elmlərin ən mahir bilicisi və dövrünün ən yaxşı alimi olmuşdur. "Cəfr" adlanan bu elm, gizli və müqəddəs hesab edilirdi. Şiə alimi Məhəmməd ibn Yaqub *Küleyni* (238-ci hicri ilində ölmüşdür) əsərində "Cəfr" elmi haqqında məlumat vermişdir.

Məlumdur ki, Cəfər Sadiq hakimiyyətə gəlmək fikrində olmamışdır. Bəlkə də, *Zeyd ibn Əlinin* faciəli ölümü, onun bu fikrə gəlməsinə təsir etmişdir. Onun qeyd etdiyinə görə bir çox insanlar sözdə *əhli-beyt* tərəfdarları olmalarını iddia etsələr də, əslində onlar-

dan üz çevirmişdirlər. Məsələn, onlar müəyyən dövrlərdə *Əli ibn Əbu Talibi*, sonra Hüseyn ibn Əlini, daha sonra Zeyd ibn Əlini özlərinə rəhbər seçsələr də, onlardan üz çevirdikləri tarixi salnamələrə həkk olunmuşdur.

Bundan başqa Cəfər Sadiq, Abbasi *xəlifəsi* Əbu Cəfər əl-Mənsurun əhli-beyti necə təqib etdiyinin şahidi olmuşdur. Bu xəlifə ona qarşı üsyan etmiş Həsən ibn Əlinin soyundan olan Məhəmməd ibn Abdullahı, eləcə də onun qardaşı İbrahimi edam etdirmişdir. Sonra əhli-beytdən olan digər insanlara qarşı da təqiblər davam etmişdir. Buna görə də Cəfər Sadiq siyasətlə məşğul olmamağa qərar vermişdir.

Qeyd etdiyimiz kimi oniki-imamiyyə şiələri Cəfər Sadiqi öz imamları hesab edirlər. Onların inanclarına görə, Allahın istəyini həyata keçirən bir imamın dünyada olması hər dövrdə *vacibdir*. O, siyasi hakimiyyətə can atmasa da, bu məqsədlə insanlara çağırışlar etməsə də o, yenə də imamdır. Ancaq, zeydi şiələri siyasi rəhbər olmayan insanı imam hesab etmədiklərinə görə Cəfər Sadiqi imam kimi tanımamışdırlar.

Oniki-imamiyyə şiələri Cəfər Sadiqin siyasi passivliyini, onun *təqiyyədə* olduğu ilə izah etmişlər. Onlara görə o, gizli olaraq doğru inancda olmuş, sadəcə təqiblər səbəbindən fikirlərinin ayrı-ayrı məqamlarını gizlətməli olmuşdur. Xəlifə Əbu Cəfər əl-Mənsur bir zaman Cəfər Sadiqi də təqib etmişdir. Ancaq, sonra onun siyasətə qarışmadığına tam əmin olduqdan sonra buna son qoymuşdur.

Cəfər Sadiqin *fiqh* elmi haqqındakı düşüncələrinə gəldikdə isə deyə bilərik ki o, müxtəlif problemlərin həllini açıq-aydın Quran *ayələri* və hədislərdən çıxarırdı. O, bəzən *rəy* metodunu da istifadə edirdi. Ancaq o, *qiyas* və *istihsan* metodlarından istifadə etməmişdir. O, *Quran* və hədislərdə anlaşılmayan problemlərin həllində qiyasa deyil, əqli dəlillərə üstünlük vermişdir. Düşüncəyə xüsusi əhəmiyyət verən *Cəfər* Sadiqə görə hər bir insan bir şeyin yaxşı və ya pis olduğunu anlayırsa, deməli reallıqda da bu belədir.

**CƏFƏRİ MƏZHƏBİ** – ***şiəliyin ən geniş yayılmış fiqhi məzhəbdir.*** Bu *məzhəbin* adı *Cəfər Sadiqlə* bağlıdır. O, müxtəlif problemlərin həlli yollarını *Quran* və *hədislərdən* axtarıb tapmışdır. O, bəzən *rəy* metodunu da istifadə edirdi. Ancaq bunu edərkən o, *qiyas* və *istihsan* metodlarından istifadə etməmiş, əqli dəlillərə üstünlük vermişdir. Əqli dəlillərə üstünlük verən Cəfər Sadiqə görə hər bir insan bir şeyin yaxşı və pis olduğunu anlayırsa, deməli reallıqda da bu belədir. Cəfəri məzhəbinin davamçıları *müctəhidlərin* hökmlərini *təqlid* etməlidirlər. Müctəhidlər şiə məzhəbində böyük rol oynayırlar. Şiəlikdə imamların *günahsız* olması inancının olduğuna görə onların hər bir buyruğu *Allahdan* gəlmiş əmr kimi dəyərləndirilir. Buna görə də şiə inancında *Quranı* yalnız imamlar doğru *təfsir* edə bilərlər. Yəni, yalnız onlar müqəddəs kitabı doğru anlamağa qadir olmuşdurlar. Bundan başqa *şiələr* Quran *ayələri* və hədislərin gizli və açıq mənalarının olduğuna da inanırlar.

Cəfərilərin ən tanınmış Quran təfsirləri bunlardır:

1. *Hicri təqvimi* ilə III - IV əsrlərdə yaşamış Əli İbrahim Qumminin "Təfsirül-Qummi" kitabı;
2. Əbu Cəfər Məhəmməd ibn Həsən Tusinin (460/1068-ci ildə vəfat etmişdir) "Tibyan" (Anlatma) kitabı;
3. Əbu Əli Təbərsinin (548/1153-cü ildə vəfat etmişdir). "Məcmuil-Bəyan fit-Təfsirül-Quran" (Quran yozumu üçün yığılmış anlatmalar) kitabı.

Cəfərilərdə hədislərin seçilmə üsulu və onların təsnifi bir çox məqamlarda digər

məzhəblərin üsulları kimidir. Ancaq, onların arasında fərqlər də vardır. Məsələn, cəfərilər yalnız Məhəmməd *peyğəmbər* və *Əli ibn Əbu Talibin* soyundan olan günahsız *əhli-beytin* həyatını təsvir edən rəvayətləri hədis hesab edirlər. Onlar digər məzhəblərdə olduğu kimi peyğəmbərin *səhabələrinin*, onların davamçılarının, onlara yaxın olan insanların rəvayət etdikləri hadisləri *şəriət* problemlərində dəlil (*hüccət*) kimi istifadə etmirlər.

Cəfərilərə görə Məhəmməd peyğəmbərin sağlığında müsəlmanlar arasında onun həyat yolu haqqında *səhih* rəvayətlər yayılmışdır. Onları peyğəmbərə yaxın olan səhabələri rəvayət etmiş və yazmışdırlar. Ancaq peyğəmbərin vəfatından sonra bir neçə onilliklər boyu hədislərin yazılması qadağan edilmişdir. Cəfərilər hesab edirlər ki, bunu edən müsəlman hökmdarları yanlışlığa yol vermişdirlər. Çünki, onların fikirlərinə görə Məhəmməd peyğəmbər bütün Quranı təfsir etmişdir. Rəvayətlərdə əks olunan bu təfsirləri bilmədən Quranı əsl mənada anlamaq mümkün deyildir. Elə buna görə də, *İslamda* çoxlu *təriqətlər* yaranmışdır. Bundan başqa hədislərin yazılmasının qadağan edilməsi Məhəmməd peyğəmbərin buyruqlarına ziddir. Hədislərin yazılması qadağan edildikdən sonra Əli ibn Əbu Talib peyğəmbərin hədislərinin bilicisi və qoruyucusuna çevrilmişdir. Bu vəzifəni ona peyğəmbərin özü həvalə etmişdir. Çünki o, rəvayətlərin gələcəkdə qadağan ediləcəyini bilirdi.

Əli ibn Əbu Talib bu hədisləri öz soyundan olan *imamlara*, onlar isə xalqa ötürmüşlər. Əli isə bütün səhih rəvayətləri bir kitabda toplamışdır. Cəfəri inancına görə ilk *xəlifələr* hədislərin yazılmasını qadağan etsələr də, peyğəmbərin əhli-beytinin davamçıları İslam tarixinin ən erkən dövrlərindən bəri onları qorumağa çalışmışlar. İlk hədis kitabını Əli ibn Əbu Talib yazmış, Məhəmməd peyğəmbər də onu bəyənmişdir. Ümumiyyətlə, cəfəri ənənəsində ən etibarlı mənbə hesab edilən ilkin kitabları bunlardır: dünyanın bütün qanunauyğunluqlarını açan “Cəfr və Camiyyə”, şəriət problemlərini əhatə edən “Fəraiz” (dinin əsasları), *fiqhi* məsələləri izah edən “Əbvabül-Fiqh”, eləcə də Məhəmməd peyğəmbərin qızı *Fatimənin* hifz etdiyi “Müzhaf”.

Cəfərilərə görə yuxarıda adları çəkilən kitablar yazıldıqdan sonra Məhəmməd peyğəmbərin başqa səhabələri də hədisləri toplamağa başlamışlar. Bunlar da Əbu Rəfa (Məhəmməd peyğəmbərin azad etdiyi qulu olmuşdur), *Səlman Farisi* və *Əbu Zər Ğəffari* olmuşdurlar. Hədislərin yazılması işini Əsvaq ibn Nəbati, Əbu Rəfanın oğulları Heybulla və Əli, Həras ibn Abdullah Əvari Həmdani, Rabiyə ibn Səmi, Süleyman ibn Qeysi kimi səhabələr davam etdirmişlər.

Bu silsilədə daha sonra “Səhifeyi-Səccadiyyə” və “Risaleyi-Hüquq” kitablarının müəllifi imam *Zeynül-Abidin*, onun tələbələri Zuhri, Nafi Vakidi, Məhəmməd İbn İshaq, eləcə də davamçıları *Cabir ibn Abdullah* Ənsari, Əbu Tüfeyl Əmir ibn Vail, *Səid ibn Müseyyib*, daha sonra ikinci nəsildən olan *Səid ibn Cübeyr*, Əbu Həmzə, Tavus, Zeyd olmuşlar. Üçüncü nəslin nümayəndələri isə imam Bagir və onun tələbələri Yəhyə ibn Qasım, Zürərə, Məhəmməd ibn *Müslim*, Mütəlləb ibn Zühri və Müaviyə ibn Əmmar olmuşdurlar.

Cəfərilər hər hansı bir peyğəmbər hədisini qəbul etmək üçün müəyyən *şərtlər* irəli sürürlər. Onlardan bəziləri aşağıdakılardır:

1. Hədislər Quran ayələrinə və məntiqə zidd olmamalı;
2. Bütün hədislərin *ravilər* silsilələri Məhəmməd peyğəmbər və şiə ənənəsində günahsız hesab edilən Əli ibn Əbu Talibin soyundan gələn imamlara (əhli-beytə) gedib çıxmalı;
3. Məhəmməd peyğəmbərin səhabələrinin söylədikləri hədislər, onun əhli-

beytindən olan günahsız imamların rəvayətlərinə zidd olmamalıdırlar. Belə olarsa onlar dəlil kimi qəbul edilmirlər;

4. Fiqhi problemlərin çözülməsində səhabələrin deyil, əhli-beytinin təfsiri dəlil kimi əsas götürülməli;

5. Din və onun əsasları ilə bağlı məsələlər yalnız *mütəvatir* xəbərlərin əsasında qurulur;

6. *Səhih* olan *əhəd xəbərlər* yalnız fiqhi məsələlərdə dəlil kimi tanına bilər;

7. Hədisin ravisi yalnız şiə ənənəsində tanınan səhabə olmalıdır.

Cəfərilər səhabələrin bir çoxundan rəvayət edilən hədisləri qəbul etmirlər. Çünki, onlar digər insanlar kimi günahkar olmuşlar. Yalnız əhli-beytə yaxın olan Əbu Zər Ğəffari, Səlman Farisi, *Əmmar ibn Yasir* kimi bəzi səhabələrin hədisləri qəbul edilir. Buna görə də başqa məzhəblərdə səhih kimi qəbul edilən bir çox hədislər cəfərilər tərəfindən şübhə ilə qarşılanır.

Cəfərilər bütün hədisləri aşağıdakı kateqoriyalara bölürlər:

a) *Səhih hədislər* - bu kimi hədisləri nəql edən səhabənin silsiləsi əhli-beytə gedib çıxmalı və onların bütün raviləri *isna-əşəri* şiələri olmalıdırlar;

b) *Həsən hədislər* - bu kimi hədis ravilərinin silsiləsi də günahsız şiə imamlarına gedib çıxmalı, onların bütün ötürücüləri də etibarlı isna-əşəri şiələr olmalıdırlar. Ancaq, bəzi məqamlarda bu kimi rəvayətlər səhih hədislərdən fərqlənir. Məsələn, həsən hədislərin ravilərinin nə dərəcədə inanclı olduqları haqqında məlumat olmaya bilər;

c) Müvəssəq hədislər - bunlar etibarlı ravilərin söylədikləri hədislərdir. Onlar da imamlara gedib çıxır. Ancaq, onların raviləri arasında şiə olmayanlar da vardır;

ç) *Zəif hədislər* - bunlar səhih, həsən və müvəssəq hədislərin qarşısında qoyulmuş tələblərə cavab verməyən rəvayətlərdir.

Şiəlikdə ən tanınan hədis məcmuələri aşağıdakılardır:

1. Əbu Cəfər Məhəmməd *Küleyninin* (329/941-ci ildə vəfat etmişdir) "Kitabül-Kafi" kitabıdır ki, orada on altı min hədis vardır;

2. Məhəmməd ibn Əli Babaveyh Quminin (*Şeyx Səduqun*) "Mən lə Yəhzuruhul-faqih" kitabıdır ki, hüquq məsələləri üzrə dərslik olan bu kitabda 6000-ə yaxın hədis toplanmışdır;

3. Məhəmməd ibn Həsən Tusinin "Təhzib əl-Əhkam" kitabıdır. Hansı ki burada 14000-ə yaxın hədis toplanmışdır;

4. Şəriətin müxtəlif məsələləri üzrə 6000-ə yaxın hədisi toplamış Məhəmməd ibn Həsən Tusinin "İstibsar";

5. *Məhəmməd Bagir* Məclisinin (505/1111-ci ildə vəfat etmişdir) "Biharül-Ənvar";

6. Məhəmməd ibn Mürtəzanın (484/1091-ci ildə vəfat etmişdir) "Əl-Kafi";

7. Məhəmməd ibn Həsən Şeyx Hürr Amilinin (500/1104-cü ildə vəfat etmişdir) "Vasailüş-Şiə" kitablarıdır.

**CƏHƏNNƏM** – ***axirətdə günahkar insanların, müşrik və kafirlərin cəzalandırılacaqları yerdir.*** *Qurana* görə Allahın əmir və qadağanlarını yerinə yetirməkdən boyun qaçıran günahkarlar və *kafirlər* cəhənnəmdə sonsuz olaraq qalacaqlar. Orada onlar bitmək bilməyən işgəncələrə məruz qalaraq ağrı-acı içində qıvrılacaqlar. Quran və *hədislərdə* cəhənnəmin yeddi təbəqəsinin olduğu haqqında məlumat vardır. Bu təbəqələr: Nar, Ləza, Hutamə, Sair, Səqər, Cahim, Haviyə (Quran 4: 55; 74: 26-27; 44: 47-56) adlanır.

Həyatda törətdikləri *günahların* ağırlığından asılı olaraq dinsiz və günahkarlar bu təbəqələrdə əzab görəcəklər. Bu cəhənnəm təbəqələrinin giriş qapıları da vardır. Bu qapılardan inancsızlar və günahkarlar cəhənnəmə girəcəklər. Burada, atəş bütün təbəqələri bürüyərək aşağıya doğru daha dözülməz olacaqdır.

*Qiyamət* günündən sonra bütün kafirlər və günahkarlar "zəbani" adlanan *mələklər* tərəfindən cəhənnəm oduna atılacaqlar. Quran *təfsirçilərinə* görə "Duxan" (4) surəsinin 47- 48-ci *ayələrində* Allah onlara üz tutub, bu barədə xəbər vermişdir. Bəzi rəvayətlərə görə cəhənnəm odunun istisi yerdəki oddan yetmiş dəfə güclü olacaqdır. Quranda qeyd edilir ki, cəhənnəmdə günahkarların dəriləri təkrar-təkrar sonsuzluğa qədər yanacaqdır (Quran, 74: 29).

Quran və hədislərdə cəhənnəm əhlinin xüsusiyyətlərindən və onların gördükləri əzablar haqqında məlumat verilmişdir (Quran 2: 167; 3: 131). Təbii ki, bunların insan düşüncəsi ilə dərk olunması olduqca çətindir. Rəvayətlərdə cəhənnəmin kafir və günahkarlar üçün yaradıldığı, onların orada sonsuz əzablar içində qalacağı vurğulanmaqdadır. Quranda dinsiz və günahkarların ölüm və həyat arasında qalacaqları bildirilmişdir. Orada onların ölməyəcəyi, sonsuz əzablar içində qalacaqları haqqında xəbərlər verilir (Quran, 20: 74). Ayrıca, cəhənnəm əhli *Zəqqum* adlanan ağacının meyvələrini yeyəcəklər. Bu meyvələr olduqca acı olacaqdır. Onlar bu meyvəni yeyən kimi bu meyvə onların mədələrində atəşə çevrilib onlara dəhşətli əzablar verəcəkdir (Quran, 37: 62-68).

Ümumiyyətlə, cəhənnəm əhlinin yer üzündə etdikləri *günahların* ağırlığına görə cəzaları da fərqli olacaqdır. Onların cəhənnəmdəki həyatı da yerdəkindən insan düşüncəsi ilə anlaşılmayan qədər fərqli olacaqdır.

**CƏHMİLƏR** – bax: **CƏBRİLƏR.**

**CƏLVƏT** – ***sufizmdə insanlar arasına çıxmaqdır.*** *Sufilikdə* bu termin *xəlvətin* (təkliyə çəkilmənin) əksidir. *Təriqət* yolunda olan "salik" dünyanı tərk edərək xəlvətdə uzun müddət qaldıqdan sonra saflaşaraq xalq arasına çıxır. Cəlvət və xəlvət terminləri ilk dəfə *İbn Ərəbidən* sonra *təsəvvüfi* ədəbiyyatda işlənməyə başlanmışdır. Sufilər bu anlayışları *Məhəmməd peyğəmbərin* həyatı ilə bağlayırlar, çünki o da, öncə Hira mağarasında xəlvətə çəkilmiş, sonra isə xalqın qarşısına çıxmış, bundan sonra insanları *İslama* dəvət etmişdir.

**CƏLVƏTİLƏR** –bax: **BAYRAMİLƏR**.

**CƏM** – ***sufizmdə insana Allahın varlığı və birliyini hiss etdirən mənəvi haldır.*** Bu hala girən insan düşüncəsini yalnız *Allaha* yönəldir, yalnız Ona ibadət edir, Ondan başqa heç bir şeyi hiss etmir. Cəmin ən yüksək məqamında sufi hər şeydə Tanrının təcəssümünü görür.

**CƏNABƏT** – ***cinsi əlaqədən sonra bütün bədənin yuyunmasını vacib edən haldır.*** Kişilərdə müəyyən səbəblər üzündən məninin (spermanın) çıxması *qüsulu* vacib edir. Bu durumlarda olan kişi və qadınlara "cünub" deyirlər. Müsəlman cünub olarkən dini ayin və ibadətlər yerinə yetirilə bilməz. Cünub olan insan su olmayanda *təyəmmüm* edərək qeyd edilən ibadətləri yerinə yetirə bilər.

**CƏNAZƏ** – ***ruhu bədənindən ayrılan, ölmüş, ancaq torpağa tapşırılmamış insandır.*** *Müsəlman* öldükdən sonra onu *qüsul* aldıraraq yumaq, kəfənləmək, cənazə *namazı* qılmaq və torpağa tapşırmaq *vacibdir*. Bütün bu dini ayinləri ölmüş insanın yaxınları yerinə yetirməlidirlər. Ölənin yaxınları yoxdursa, onda bu işlərin yerinə yetirilməsi o adamın öldüyünü bilən hər bir müsəlmanın üzərinə düşür. Ölü ilə bağlı bütün vəzifələr *Məhəmməd peyğəmbərin hədislərində* qeyd edilmişdir. Bunları etmək hər bir müsəlmanın borcudur.

Bir müsəlman ölüm ayağında olarkən o

insana yaxın olan müsəlmanların onun yanında olması, ona yardım etməsi *Allahın* bəyəndiyi əməllərdəndir. Dünyasını dəyişmək üzrə olan insanın yanında *kəlmeyi-şəhadət* söylənilir. O da, bunu bacardıqca təkrarlamalıdır.

İnsan öləndən sonra, onun ağzı və gözlərini bağlayıb, əllərini yanlarına qoymaq lazımdır. Sonra ölü kəfənlənməlidir. Ölənin bütün borcları onun malından ödənməli, malı-mülkü qalmayıbsa, onda imkanlı insanlar onun borclarının ödənilməsini öz öhdələrinə götürsələr xeyr əməl işləmiş olarlar. Hər bir insanın ölümü dərhal hamıya bildirilməlidir. Ölən insanı qüsul etdirərkən sabun, eləcə də digər təmizləyici vasitələrdən istifadə edilə bilər. Burada ətirli maddələrdən də istifadə etmək mümkündür. Ölünü yuyarkən onun övrət yerləri örtülməlidir. Ölünü yuyan (mürdəşir) bu yerləri yumaq üçün əllərinə bezdən tikilmiş parça geyinməlidir.

Ölü yuyulduqdan sonra qurulanıb kəfənlənilir. Bu dində vacib hesab edilir. Cənazə üzərində ayaq üstə namaz qılınır. Bu namazda *rüku* və *səcdə* halları yoxdur. Namazın imamı ölünün qarşısında durur, müsəlmanlar isə imamın arxasında sıra ilə yer alırlar. Bu namazın qılınması vacibdir, onun yerinə yetirilməsi üçün bütün müsəlmanlar məsuldurlar. Digər din mənsubları və *münafiqlərin (II)* ölüləri üzərində namaz qılınmır. Sonra dəfn mərasimi başlanır. Ölünü gün batmamış torpağa tapşırmaq lazımdır. Məzarlığa onu yalnız kişilər aparmalıdırlar. *Məzar* dərin, eləcə də bir qədər geniş olmalıdır. Məzarın içini daş və ya kərpiclə hörmək də mümkündür.

**CƏNİN** – ***ananın qarnında olan doğulmamış döldür (embriondur)***. *İslam* hüququnda dölün, doğulmuş uşaq kimi bəzi hüquqları vardır. Məsələn, ona *vəsiyyət* edilə bilər, hətta mülkə varis belə ola bilər. Dölün öldürülməsi (abort) İslam hüququnda bəzi istisnalar olmaqla qadağandır (*Quran* 17: 31).

**CƏNNƏT** – ***axirətdə möminlərin əbədi olaraq qalacaqları yerdir.*** *Allah* cənnətlə yalnız Ona inananları, Onu tanıyaraq dinin *vacib* əməllərini yerinə yetirənləri, yaxşı işlər görənləri mükafatlandıracaqdır. *Quran* və *hədislərdə* cənnət haqqında müəyyən təsəvvürlər vardır. Orada *möminlər* xoşbəxtlik içində yaşayacaqlar. *İslam* alimlərinin bir çoxuna görə xoşbəxtliyin ən yüksək məqamı möminlərin Allahı görməsi olacaqdır (Quran, 75: 22-23). Ancaq, bəzi alimlər Allahın cənnətdə görülməsini mümkünsüz hesab edərək, bu Quran ayəsini fərqli mənada *təfsir* edirlər. Bəzi İslam alimləri iddia edirlər ki, cənnət və *cəhənnəm* artıq yaradılmışdır və onlar əbədi xarakter daşıyır.

Ümumiyyətlə, cənnət və cəhənnəmi insan düşüncəsi ilə qavramaq mümkün deyildir. Onların əsl mənası *qiyamətdən* sonra bilinəcəkdir. Beləliklə, onların əsl mahiyyətini yalnız Allah bilir. Bu baxımdan, cənnət əbədi, sonsuz, zamansız bir yerdir (Quran, 57: 21). Orada çoxlu bir-birindən fərqli bağlar vardır: *Ədn* (Quran, 9: 72), Firdovs (Quran, 18: 107), Məva (Quran, 32: 19), Nəim (Quran, 37: 40-44) və s. Bunlardan ən yüksəkdə olanı Firdovs bağıdır. Bu bağlarda çaylar axır (Quran, 2: 25; 3: 15). Bunlardan birində su, ikincisində süd, üçüncüsündə şərab, dördüncüsündə isə bal axır. Ola bilsin ki, bunlar Quranda adı çəkilən Səlsəbil (Quran, 76: 18), Təsmim (Quran, 83: 27), Məin (Quran, 56: 18), Kövsər (Quran, 108: 1) çaylarıdır. Hədislərdə cənnətdə Tuba adlı bir ağacın olduğu da qeyd edilir. Bu ağacın gövdələrinin qızıldan olduğu haqqında da rəvayətlər vardır.

Ailə həyatı cənnətdə də olacaqdır (Quran, 56: 35-37). Ancaq, buna baxmayaraq cənnət əhlinin uşaqları olmayacaqdır. Cənnətdə insanı sərxoş etməyən şərab kimi içkilər də olacaqdır (Quran, 56: 19). Cənnətdəkilər

böyük ölçülü yaqut, mirvari, eləcə də başqa daşlardan düzəldilmiş çadırlarda hurilərlə yaşayacaqlar. Rəvayətlərə görə bu çadırlarda yalnız Allahın varlığını qəbul etmiş, bütün *peyğəmbərləri* tanınmış möminlər yaşayacaqlar. Möminlər cənnətdə qızıl qolbağlar taxacaq; tünük, eləcə də qalın ipəkdən yaşıl geyimlər geyəcəklər (Quran, 18: 31).

**CİBT** – ***cadugər və falçılar belə adlanırlar.*** *İslamın* ilk mənbələrində bu söz tez-tez "tağut" sözü ilə birlikdə ifadə edilirdi. "Cibt və tağut" ifadələri bütlər anlamında da istifadə olunmuşdur.

**CİHAD** – ***dünyada müsəlmanın din və inancı, istək və arzuları, haqq və hüquqları uğrunda mübarizə aparması və bu istiqamətdə səy göstərməsidir.*** *İslam* əqidəsinə görə cihad *vacibdir* (*Quran*, 2: 216, 193; 9: 36). Hər bir müsəlman İslamın müdafiəsi üçün bütün varlığını və gücünü ortaya qoymalıdır. Lazım olarsa din düşmənlərinə qarşı döyüşməlidir. Ayrıca, cəmiyyətdə ortaya çıxan mənəvi problemlərlə də mübarizə aparmalıdır. Beləliklə, cihad – insanın öz qüsurları ilə mübarizə aparması, cəmiyyətdə ədalətsizliyin aradan qaldırmasıdır.

Hətta, zərurət halında silahlı cihadın edilməsi hər bir müsəlmanın qarşısına qoyduğu məqsəd olmalıdır. Bəzi hallarda cihadı ümumi müsəlmanlar adından bir qrup müsəlman da edə bilər. Belə olarsa, onlar hamının qorunması işini öz öhdələrinə götürməlidirlər. Silahlı cihadın məqsədi nizamın qurulması, hər cür ədalətsizliyin aradan qaldırılmasıdır. Silahlı cihad *qisas*, *qətl*, soyğunçuluq, kölələrin alınması, başqa xalqların istismar edilməsi məqsədi ilə aparılmamalıdır. İnsanları zorla İslamı qəbul etdirmək üçün cihad etmək olmaz. İslama yalnız hər kəs öz istəyi ilə gəlməlidir. Bunun üçün İslamla tanış olmaq üçün imkanlar yaradılmalıdır.

Müharibə zamanında müsəlmanlar çoxlu qanın axıdılmamağının qarşısını almaq üçün əllərindən gələni etməlidirlər. Bunun üçün düşmənlərə İslamı qəbul etmək imkanı verilməlidir. Onlar bu təklifi rədd etsələr, *cizyə* verməlidirlər. Bununla razı olsalar, onda müsəlmanlar onlarla anlaşaraq onları qorumalıdırlar. Düşmənlər bu kimi təklifləri qəbul etməsələr, o zaman onlarla müharibə etmək olar.

Müharibələri İslam ordusu apara bilər. Bunu etmək üçün düşmənlərlə hər-hansı bir sülh müqaviləsi bağlanmamalıdır. Döyüşün gedişində dinc əhalinin öldürülməsi qəti qadağandır. Düşmənlərdən əsirliyə götürülənlərlə də yaxşı davranılmalıdır. Əgər qarşı tərəf sülh istərsə, o zaman razılığa gəlinməlidir.

**CİMA** – ***kişi və qadının cinsi orqanlarının qovuşmasıdır.*** Buna yalnız evlilikdə yol verilir (*Quran* 2: 223). Alimlərin *ictihadlarına* görə cinsi yaxınlıq olanda ər və arvad əxlaqi qaydalara riayət etməlidirlər. Məsələn, yaxınlıqdan öncə bədənlərinin təmizlənməsi, *duaların* oxunması, cinsi yaxınlıq üçün hislərin öncədən oyadılması *savabdır.* Cinsi yaxınlığı örtük altında, övrət yerlərin görünməməyi *şərti* ilə edilməsi ədəb qaydalarına uyğun hesab edilir. Ər arvadla yaxşı davranmalı, onu fiziki baxımdan məmnun etmədən, ondan ayrılmamalıdır. Arxadan cinsi əlaqəyə girmə müsəlmanların əksəriyyəti tərəfindən birmənalı olaraq qəbul edilmir. Qadınlar *nifas* və *heyz* halında olanda onlarla yaxınlıq etmək *haramdır* (Quran 2: 222). Cinsi yaxınlıqdan sonra ər və arvad *qüsul* almalıdırlar.

**CİNLƏR** – ***insanlar kimi şüurlu varlıqlar olduqlarına görə Allah qarşısında etdikləri əməllərdən məsul varlıqlardır.*** *Allah* cinləri insanlardan əvvəl oddan yaratmışdır (Quran, 55: 15; 15: 26-27). Cinlər gözə görünməyən varlıqlardır. Onlar da insanlar

kimi kişi və qadın cinsinə ayrılırlar. Onlar bir-birləri ilə evlənir, nəsillərini artırır, yeyir və içirlər. Hətta, bəzi insanların onlarla əlaqə yaradıb, onlardan istifadə etdikləri haqqında rəvayətlər də vardır. Məsələn, *Süleyman* peyğəmbərin cinlərlə əlaqəsi haqqında məlumat verilir (Quran, 34: 12).

Cinlər də insanlar kimi şüurlu varlıqlardır. Buna görə də, Allah qarşısında etdikləri əməllərə görə məsuliyyət daşıyırlar. Onların arasında da mömin və *kafirlər* vardır. İnanclı cinlər Allaha ibadət edirlər (Quran, 51: 56). Dinsiz cinlər isə *şeytanın* silahdaşlarıdırlar. *Quranın* "Ənam" (6) surəsinin 130-cu ayəsində cinlərə onların özlərindən olan *peyğəmbərlərin* göndərildiyi bildirilir. Onları danan cinlər şeytanlardır. Şeytan və onun silahdaşları olan dinsiz cinlər *qiyamət* günündən sonra, *cəhənnəmdə* sonsuzluğa qədər qalacaqlar (Quran, 32: 13).

*İslamın* ilk mənbələrində "cin" sözü, "*insan*" (ins) sözü ilə birlikdə anılır. Hər iki sözün birlikdə olan mənası ərəbcə "*səqaleyn*" kimi ifadə edilir. İslam alimlərinə görə "səqaleyn" həm də, gözə görünməyən *mələklər* və şeytanlardır. Quranın 72-ci surəsi "*Əl-Cin*" adlanır.

**CİZYƏ** – ***müsəlman olmayan vətəndaşların, canları və mallarını qorumaq üçün İslam dövlətinə ildə bir və ya iki dəfə ödədikləri vergidir.*** Bu vergi *Məhəmməd* peyğəmbərin sağlığında tətbiq edilmişdir (*Quran*, 9: 29). Cizyə müsəlmanlar və digər din mənsubları (*əhli-kitab*) arasında gəlinən razılıqdan sonra alına bilərdi. Müharibə vaxtı müsəlmanlar digər din mənsublarının yaşadıqları yerləri ələ keçirdikdən sonra onların can varlığını qorumaq *şərti* ilə bu vergini alırdılar.

*Peyğəmbərin* sağlığında *Nəcran* xristianları özlərini qorumaq üçün müsəlmanlara vergi ödəmiş, bunun üçün peyğəmbərlə müqavilə bağlamışdırlar. Müqaviləyə əsasən hər ilin Səfər ayında onlar müsəlmanlara iki min, *Rəcəb* ayında isə min dəst geyim verməli idilər. Hər bir dəstin dəyəri qırx dirhəmə (üç qrama yaxın çəkisi olan gümüş sikkəyə bərabərdir) yaxın olmuşdur.

Xəlifə *Əbu Bəkrin* hakimiyyətinin sonuna qədər verginin məbləği bu ölçüdə saxlanılmışdır. Xəlifə *Ömərin* xəlifəliyi dövründə xilafətə çoxlu sayda müsəlman olmayan xalqların qatılması ilə bu vergi növü də genişlənmişdir. Bu səbəbdən də, vəziyyətlə əlaqədar olaraq vergi siyasəti də müəyyən dəyişikliklərə məruz qalmışdır. Bu dövrdən başlayaraq bütün yetkinlik yaşına çatmış qeyri-müsəlmanlar dörd qızıl dinar və ya qırx gümüş dirhəm məbləğində vergi ödəməli idilər.

Daha sonrakı dövrlərdə cizyənin tutumu hər kəsin maddi durumundan asılı olaraq dəyişmişdir. Çox varlı qeyri-müsəlmanlar hər il qırx səkkiz, orta səviyyəli qeyri-müsəlmanlar iyirmi dörd, yoxsullar isə on iki dirhəm vergi ödəmişlər. Bu verginin ödənilməsi *İslam* dövlətinin himayəsində yaşamaq, eləcə də öz inanclarında qalmaq imkanlarını verirdi.

Cizyə yalnız yetkinlik yaşına çatmış, azad, sağlam düşüncəli kişilərdən alınırdı. Çünki, onlar müsəlmanlarla döyüşmək bacarığında və iqtidarında olan insanlardır. Xəstə, uşaq, qadın, kölə və qocalar bu vergini ödəmirdirlər. Rahib və keşişlərin vergini ödəməsi məsələsində müsəlman hüquq məktəbləri arasında fərqli fikirlər mövcuddur. Bizim dövrümüzdə isə cizyə vergisi İslam dövlətində alınmır.

**CUDİ DAĞI** – ***Nuh peyğəmbərin gəmisinin tufandan sonra quruda lövbər saldığı dağdır (Quran, 11: 44).*** Hazırda Türkiyə-İraq sərhədinin yaxınlığında yerləşən və hündürlüyü 2100 metr olan bu dağdır. Qeyd olunan dağın həmin dağ olduğu güman edilir.

**CÜMƏ** – ***İslam ənənəsində mübarək***

***günlərdən hesab olunan həftənin beşinci günüdür.*** Ərəb dilində bu söz "toplantı" mənasında da işlədilir. Cümə mənəvi təmizlənmə və ibadət günüdür (*Quran*, 62: 9). Rəvayətlərə görə, ilk insan (*Adəm*) cümə günü yaradılmış, o gün *cənnətə* girmiş, sonra elə həmin gündə də oradan qovulmuşdur. *Qiyamət* gününün də cümə günü qopacağı haqqında rəvayətlər vardır.

Bu günün nə üçün cümə adlanması, eləcə də ilk *cümə namazının* nə vaxt qılınması haqqında bir-biri ilə üst-üstə düşməyən fərqli rəvayətlər vardır. Onlardan birinə görə bu günü *Məhəmməd peyğəmbərin* əcdadlarından biri olmuş Kəb ibn Luqay cümə adlandırmışdır. Digər rəvayətlərdə isə bu gün müsəlmanların cümə namazlarını qıldığına eləcə də, *İslamda* bu namazın *vacib* olduğuna görə belə adlandırılmışdır.

**CÜMƏ NAMAZI** – ***müsəlmanların cümə günü günorta vaxtında böyük məscidlərdə qıldıqları namazdır***. İlk dövrlərdən başlayaraq müsəlmanların digər din mənsubların da (əhli-kitab) olduğu kimi bir araya gələ biləcəkləri xüsusi əhəmiyyətə sahib bir günə ehtiyacları var idi ki, bu gün də məhz *cümə* günü olmuşdur. Məsələn, *yəhudilər* şənbə, xristianlar isə bazar günlərini bir yerə yığışaraq Tanrıya ibadət edirdilər. Müsəlmanlar üçün də cümə günü müqəddəs gün kimi təqdir olunmuşdur.

*Məhəmməd* peyğəmbər ilk cümə namazını *hicrətin* birinci ilində *Mədinəyə hicrət* edəndə Səlim oğulları qəbiləsinə məxsus Ranunə kəndində qılmışdır. Bu namazda bütün müsəlman kişilər iştirak etmişdir. Orada peyğəmbər yüksək yerə qalxaraq *xütbə* oxumuşdur. Bundan sonra cümə namazları *Mədinədə* qılınırdı. Mədinədən kənarda isə ilk cümə namazı Bəhreyndə qılınmışdır.

Cümə günü *zöhr* namazının vaxtında Məhəmməd *peyğəmbər* müsəlmanları salamlayaraq yüksək yerə qalxıb, onları ikinci dəfə salamlayaraq orada oturardı. Bilal *azanı* oxuyandan sonra o, iki hissədən ibarət xütbə oxumuş, sonra *minbərdən* düşərək camaatla iki rükətli cümə namazını qılmışdır.

Sonradan yenilik olaraq yalnız azan məscidlərin *minarələrindən* oxunmağa başlamışdır. Bununla da, böyük şəhərlərdə namaza çağırış problemi həll edilmişdir. Cümə namazları böyük şəhər və məntəqələrin məscidlərdə qılınmalıdır. Bu ibadət hər bir yetkin müsəlman kişisi üçün *vacibdir*. *Hədislərə* görə cümə namazının qılınması səfərdə olanlar, kölələr, uşaqlar, qadınlar və xəstələr üçün vacib deyildir.

**CÜVEYRİYƏ BİNT HARİS** (56/676-cı ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin həyat yoldaşlarından biri, Bəni Müstəliq qəbiləsinin başçısı Haris ibn Dirarın qızı olmuşdur.*** *Hicrətin* beşinci ilində müsəlmanlar bu qəbiləni döyüşdə məğlub etmişdirlər. Müharibə zamanı Cüveyriyə bint Haris əsir düşmüşdür. Buna görə onun atası *Məhəmməd* peyğəmbərin yanına gəlib onun buraxılmasını xahiş etmişdir. Bunun qarşılığında o, peyğəmbərə bir neçə dəvəni hədiyyə verəcəyini vəd etmişdir. Məhəmməd peyğəmbər də, Cüveyriyəni azadlığa buraxmışdır. Bundan sonra *Haris* və onun qızı Cüveyriyə, eləcə də onların yaxınları *İslamı* qəbul etmişlər. Daha sonra, Məhəmməd *peyğəmbər* Cüveyriyə ilə evlənməyə qərar vermiş və bunu Harisə bildirmişdir. O da, bu təklifi qəbul etmişdir. Bu evliliyin səbəblərindən biri, peyğəmbərin çox böyük nüfuza sahib Bəni Müstəliq qəbiləsi ilə yaxşı münasibətlərin qurulması idi. Bu iş baş tutandan sonra, Bəni Müstəliqdən yüz ailə əsirlikdən azadlığa buraxılmışdır. Cüveyriyə bint Haris çox inanclı bir qadın olmuşdur. O, *xəlifə* Müaviyənin dövründə *Mədinədə* vəfat etmişdir.

# Ç

**ÇİŞTİLƏR** – ***sufi təriqətlərindən biridir.*** *Təriqətin* adı *Muinəddin Həsən Çişti* (633/1236) ilə bağlıdır. Onun soyu Sistandan gəlməkdədir. O, Buxara və Səmərqənd məktəblərində təhsil alıb, sonra Bəlxə, daha sonra isə Bağdada getmişdir. Orada o, Əbdülqədir Gilani, Sührəvərdi, Nəcməddin Kübra kimi tanınmış sufi alimləri ilə görüşmüşdür. O, Herat yaxınlığındakı Çişt kəndinin ətrafında yaşamış şeyx Əbu İshaq Şaminin başçılığı altında mənəvi yolçuluğa başlamışdır. Oradan o, Hindistana gedib *məzarının* yerləşdiyi Əcmərdə vəfat etmişdir. Elə orada da öz *təkkəsini* yaratmışdır. Çiştilər Hindistanda ən geniş yayılmış sufi təriqətidir. Onun davamçıları müasir Hindistan və Pakistanın islamlaşdırılmasında böyük rol oynamışdırlar. Bir müddət təriqətə Nizaməddin Övliya (726/1325-ci ildə vəfat etmişdir) başçılıq etmişdir. O dövrlərdə çiştilər yüksəliş dövrünü yaşamışdırlar. Ondan sonra bu təriqətdə parçalanma baş vermişdir.

Dehli sultanı II Qiyasəddin Məhəmməd şahın (726/1325 – 752/1351) dövründə çiştilərə qarşı təqiblər olmuş, buna görə də onlar gücdən düşüb parçalanmışdırlar. Bundan sonra tarixin müxtəlif dövrlərində onların Uttar-Pradeşdə sabirilər, Pəncab və Sinddə nizamilər kimi bir çox qolları inkişaf etməyə başlamışdır.

Çiştilərin səsli (*cəhri*) və səssiz (*hafi*) *zikrləri* vardır. Onların qırx günlük təkliyə (*xəlvətə*) çəkilmə, *dünya* həyatından uzaqlaşma kimi sufi *adətləri* mövcuddur. Onların mənəvi yolu 3 pilləlidir: *şəriət, təriqə*t və *həqiqət*. Bu yolda onlar 44 *məqamdan* və 15 *haldan* keçməlidirlər.

Çiştilərin arasında *Vəhdətül-Vücud* təlimi geniş yayılmışdı. Onlar *İbn Ərəbinin* əsərlərini şeyx Məsud bəydən öyrənmişdirlər. Çişti təriqətinin yazılı mənbələri onların şeyxlərinin dediklərindən və əsərlərindən ibarətdir. Hindistandan başqa çiştilər İndoneziya, Malayziya və digər Uzaq Şərq ölkələrində müsəlmanlar arasında geniş yayılmışdır.

# D

**DARUN-NƏDVƏ** – ***Kəbənin cənubunda yerləşən toplantı yeri olmuşdur.*** Darun-Nədvəni Qüreyş qəbiləsinin başçısı Qusay miladi 440-cı ildə inşa etdirmişdir. Darun-Nədvəni “zənginlər məclisi” də adlandırmaq mümkündür. Burada qureyşlilərin qırx yaşdan yuxarı olan başçıları iştirak edə bilərdi. Ayrıca, burada hərb və sülh müqavilələri kimi *Qureyş* qəbiləsinin *vacib* məsələləri həll olunur və *nikah* mərasimləri təşkil edilirdi.

**DARÜL-HƏRB** – ***savaş və müharibə yerləri və ya İslam qanunları ilə idarə olunmayan, müsəlmanlara düşmən olan ölkələr və bölgələrdir.*** *Quranda* bu termin istifadə edilməmişdir. Onun yaranması daha çox *ictihadlarla* bağlıdır. *Fiqh* alimləri Darül-Hərb terminini Ərəbistanın başqa yerlərini, *Mədinədə* qurulmuş müsəlman icmasından ayırmaq üçün istifadə etmişlər.

Xilafət genişləndikcə fiqh alimləri onun ilahi mahiyyətini vurğulayaraq, *Darül-İslamı* Darül-Hərb adlandırdıqları dünyanın başqa yerlərindən fərqləndirməyə başlamışlar. Bunun üçün *İslam* bölgələri qeyri-müsəlmanların təcavüzünə məruz qalanda da, o yerlər Darül-Hərb hesab edilirdi. İctihadlara görə hər hansı bir ölkədə müsəlmanlar dinlərinə görə təqib edilirlərsə, dinlərini gizlətməyə məcbur olurlarsa, onda oranı da

Darül-Hərb hesab etmək mümkündür.

Hüquqi baxımdan Darül-Hərbdə yaşayan müsəlmanlar İslam ölkələrində yaşayan müsəlmanlardan fərqlənmirlər. Fərq yalnız ondadır ki, onların orada sosial həyatı *şəriət* qanunları ilə tənzimlənmir. İslam hüquqçularının əksəriyyətinə görə, Darül-Hərbdə yaşayan müsəlmanlar böyük *günahlara* batmış olsalar belə, bu yerlərdə İslam hakimiyyətinin olmadığına görə, onlar *şəriət* qanunları ilə mühakimə edilməməlidirlər. Bu müsəlmanlar, günahlarına görə *Allahın* qarşısında məsul olacaqlar. Ancaq digərləri hesab edirdilər ki, müsəlmanların müsəlman ölkəsində və ya Darül-Hərbdə yaşamalarından asılı olmayaraq onların hamısı şəriət qanunları ilə mühakimə edilməlidirlər. Bununla belə, müsəlman hüquqçularının əksəriyyətinə görə müsəlmanlar üçün şəriətdə qadağan olunmuş şeylər Darül-Hərbdə də qadağandır. Alimlərin az bir hissəsi Darül-Hərbdə yaşayan müsəlmanlar üçün fərqli fikirlər irəli sürmüşlər.

Bəzi alimlər müsəlmanların Darül-Hərbdə yaşamasını doğru hesab etməmiş, onların oradan İslam ölkələrinə köçməsinin *vacib* olduğu haqqında fikirlər irəli sürmüşlər. Onlar buna dəlil kimi bu Quran (4: 97-100) *ayələrini* göstərirlər. Ancaq digər alimlərə görə müsəlmanlar Darül-Hərbdə təqib olunmurlarsa, onların orada yaşmaları daha yaxşıdır. İslam hüquqçularının əksəriyyətinə görə ehtiyac olmasa, Darül-Hərbdən İslam ölkəsinə köçmək vacib deyildir. Orada yaşamaq, eləcə də, orada İslamı din kimi yaşamağa cəhd etmək daha üstündür.

**DARÜL-İSLAM** – ***İslam qanunları ilə idarə olunan ölkə və bölgələr nəzərdə tutulur.*** *Quranda* bu terminə rast gəlinmir. Onun yaranması daha çox *ictihadlarla* bağlıdır. *İslam* hüquqçuları Darül-İslam terminini *Mədinədə* qurulmuş müsəlman cəmiyyətini Ərəbistanın başqa yerlərindən ayırmaq üçün istifadə etmişdirlər. Daha sonra Xilafət genişləndikcə bu anlayış *şəriətin* hökm sürdüyü hər bir bölgəyə aid edilməyə başlamışdır. Xilafətdə müsəlmanlar ilə yanaşı qeyri-müsəlmanlarda yaşaya bilərdi. Burada başlıca *şərt* məhkəmələrin, eləcə də qanunverici və icraedici orqanların İslam prinsip və qanunları üzərində qurulması olmuşdur. Bu halda ölkə Darül-İslam hesab edilə bilərdi. Bir çox alimlərə görə, müsəlmanlar hər hansı bir yerdə siyasi güclərini itirsələr belə, orada şəriət qanunlarını tətbiq edən varsa o yerlər Darül-İslam olaraq qalır. Ancaq, bu qayda İslamdan çıxmış cəmiyyətlərə (*mürtədlərin*) aid edilməmişdir.

**DAVUD** – ***İsrail oğullarına göndərilmiş peyğəmbərlərdən biri olmuşdur.*** *Qüds* (Yerusəlim) şəhərində doğulub, orada da vəfat etmişdir. Onun soyu *Yaqubun* oğlu Yəhudaya bağlıdır. *Musa* peyğəmbər vəfat etdikdən sonra *Allah* israillilərə çoxlu elçilər göndərmişdir. Onlar bu xalqı *Tövratın* qanunlarına rəyət etməyə dəvət etmişdirlər. Ancaq, israillilərin bir çoxu Tanrı qanunlarına uymamış, onları özləri istədikləri kimi izah edib tətbiq etməyə çalışmışdırlar. Bununla da, cəmiyyətdə ədalətsizlik hökm sürmüş, *peyğəmbərlərinin* sözləri ciddi qarşılanmamışdır. Buna görə Allah Amalika qəbiləsinin çarı *Calutu İsrail oğullarına* qarşı qoyaraq, onları cəzalandırmışdır. O, israilliləri məğlub edərək, onları torpaqlarının bir hissəsindən qovmuşdur. Ancaq sonra, *İşmoil* peyğəmbərin məsləhəti ilə seçilmiş *İsrail* kralı *Talut*, ölkəni uğurla idarə edə bilmişdir. O, güclü bir ordu yaradaraq amalikalılara qarşı yürüş etmişdir. Amalikalılarla israillilərin arasında baş vermiş döyüşdə israillilər döyüşü zəfərlə başa çatmışdır. Bu döyüşə qatılmış Davud Calutla döyüş meydanında vuruşaraq onu öldürmüşdür. *Quranda* (2: 246-251) bu hadisələr anılmaqdadır. Talut öləndən sonra Davud İsrailin

kralı olmuşdur. O, ölkəni ədalətlə, Allahın hökmləri ilə idarə etmişdir. Rəvayətlərə görə, Davud *Fələstini*, Suriyanı, Ərəbistan yarımadasının bir hissəsini özünə tabe edə bilmişdir. O, ölkəsinin baş şəhəri olan *Qüdsdə* tikinti işləri aparmışdır. Bu işlər onun oğlu *Süleymanın* hakimiyyəti dövründə başa çatmışdır. Beləliklə, Qüdsdə böyük *məbəd* ucaldılmışdır.

Allah Davudu peyğəmbər seçərək (Quran, 6:84) ona müqəddəs kitab olan Zəburu nazil etmişdir (Quran, 17: 55). Zəbur gözəl poetik bir kitabdır. Orada şeir üslubunda yazılmış əxlaqi nəsihətlər mövcuddur. Bu kitab Tövratı təsdiq edərək İsrail oğullarını onun qanunlarına tabe olmağa çağırmışdır. Buna görə də, Davud bir peyğəmbər kimi Musadan fərqli olaraq yeni bir din gətirməmişdir.

Zəbur *İslamda* tanınan Allahın dörd kitablarından biridir. Zəbur poetik üslubda olan müqəddəs kitablardan hesab edilir. Rəvayətlərə görə Davud gözəl və ovsunlu səsə sahib olmuşdur. Ona görə də o, Zəburu yüksək səslə oxumağa üstünlük vermişdir. O, Allaha sadiq olmuş, günlərini Ona ibadət etməkdə keçirərək tez-tez *oruc* tutmuşdur. Allah ona möcüzələr göstərmək gücünü də bəxş etmişdir. Dağlar, daşlar, quşlar, yırtıcı heyvanlar onun əmrinə tabe edilmişdir (Quran, 21: 79-80). Davud Zəburdan parçalar oxuduqda quşlar da onunla birlikdə oxuyurdular. O, əlləri ilə dəmiri əyərək istədiyi görkəmə sala bilirdi.

**DAVUD ZAHİRİ** (202/817 – 270/883) – ***zahiri məzhəbinin qurucusu olmuşdur.*** O, dini elmləri Məhəmməd ibn İdris *Şafiidən* öyrənmişdir. O, müəlliminin xüsusiyyətlərini və metodlarını yüksək dəyərləndirmişdir. Məhəmməd ibn İdris hökmlərin çıxarılmasında Quran *ayələrinə* üstünlük verərək, öz metodunu qurmuşdur. Ancaq bununla belə o, başqa metodları, xüsusən də, *qiyasdan* da istifadə edirdi. Davud Zahiri isə bu yolda daha da irəliləyərək ayələrin anlaşıqlı olduğunu iddia etmiş və hökmlərin çıxarılmasında başqa metodlardan istifadə etməmişdir.

Davud Zahiri bütün həyatı boyu topladığı *hədislərin* mahir bilicisi olmuşdur. Ancaq, *Quranı* məxluq hesab etdiyinə görə *sünni* hədis alimləri və *raviləri* ondan hədis rəvayət etməmişdirlər. Buna görə də, onun adı böyük hədis alimləri arasında qeyd edilmir. Bununla yanaşı, Quran ayələrinin anlaşıqlı olduğunu qəbul etməsi və onun *təfsir* metodu, sünni və şiə alimlərinin baxışları ilə ziddiyyət təşkil edirdi. *Əhməd ibn Hənbəl* kimi məşhur sünni din alimi, onunla görüşmək belə istəməmişdir.

Ancaq çoxluğun ona qarşı olmasına baxmayaraq, Davud Zahiri böyük işlər görmüş, özündən sonra böyük irs buraxmışdır. Onun hədis və *fiqh* sahəsində yazdığı kitabları olduqca şöhrət qazanmış, müsəlman alimləri arasında tanınmışdır. O, gözəl polemika aparan biri kimi öz metodunu elmi mübahisələrində bacarıqla ortaya qoya bilmişdir. Bununla yanaşı yüksək əxlaqi xüsusiyyətləri, eləcə də imanı ilə digərlərindən seçilmişdir.

Davud Zahirinin vəfatından sonra, onun davamçıları *hicrətin* III - IV əsrində onun ideya və prinsiplərini İslam dünyasının müxtəlif bölgələrində yaymışlar. Ancaq, bu prosesə Hənbəli *qazisi (II)* Əbu Yəla kimi sünni alimləri qarşı çıxmışdırlar. Buna baxmayaraq, hakim Münzir ibn Səid Bəlluti (hicrətin 355-ci ilində ölmüşdür), *İbn Həzm* (384-456), Məsud ibn Suleyman ibn Müflitə (hicrətin 426-cı hicri ilində ölmüşdür) kimi mütəfəkkirlərin səyləri nəticəsində zahirilik müsəlman İspaniyasında (Əndəlüsdə) geniş yayılmışdır.

**DƏCCAL** – ***gəlişi qiyamətdən öncə gözlənilən zalim bir insan obrazıdır.*** Onun

gəlməsi *axirət* olaylarının əlamətlərindəndir. Rəvayətlərdə Dəccal böyük gücə sahib olan bir insan kimi anılır O, dünyada insanlar arasında *ixtilaflar* yaradacaqdır. *Hədislərdə Məhəmməd* peyğəmbər qiyamətdən öncə onun gələcəyi haqqında məlumat vermişdir. Hədislərdə Dəccalın görkəmi haqqında müxtəlif fikirlər vardır. Onun iri bədənli, qıvrım saçlı və gözünün birinin kor olacağı bildirilir. Dəccal tanrılığa can atacaq, möcüzələr göstərəcəkdir. Hətta, ölüləri belə diriltdə biləcəkdir. Ancaq, bu möcüzələrin yalan və illüziya olacağı qeyd edilir. Məhəmməd peyğəmbər onun irəliləyəcəyi, ancaq *Məkkə* və *Mədinəyə* girə bilməyəcəyini qeyd etmişdir. *Şeytanlar* ona yardımçı olacaqlar, yalançı möcüzələrini doğru kimi göstərəcəklər. Müsəlmanlar onlarla döyüşəcək və sonda göylərdən yerə zühur edən *İsa* peyğəmbər və *Mehdi* Dəccalı öldürəcəklər.

**DƏHRİLƏR** – ***Allahın xaliq olduğunu inkar edənlərdir.*** Onlar materiyanın əbədi olması iddiasını irəli sürmüşlər. Dəhrilər daha çox fəlsəfi bir cərəyan kimi dəyərləndirilə bilər. Dəhrilər hər şeyin yaradıcısız, özbaşına vücuda gəldiyini söyləyir, *Allahın* varlığını inkar edirdilər. Bu baxımdan onları müasir yanaşma ilə ateist adlandırmaq da mümkündür.

**DƏRVİŞ** – ***səyahət edən, fiziki dünyadan əl çəkərək, mənəvi dünyada yaşayan, sufiliyi təbliğ edən dindar insanlardır.*** Dərvişlər hər zaman özlərini *Allaha*, peyğəmbər və *əhli-beytin* mədhiyyəçiləri saymışdırlar. "Dərviş öz evini çiynində gəzdirər" ifadəsi onların laməkan olmasına işarədir. Araşdırmalar göstərir ki, dərvişlik orta əsrlərdə yayılmağa başlamışdır. Həyatlarını səyahətlərdə keçirən dərvişlər əsasən Allahın şəninə, *peyğəmbər* və onun əhli-beytinin şərəfinə qəzəllər oxuyub, müqəddəsləri təbliğ edən mərsiyələr deyərmişlər.

*İslam* ölkələrinin çoxunda dərvişlik ayrıca *təriqət* hesab olunur. "Dərviş" fars sözü olub mənası qapı-qapı gəzən, *sədəqə* toplayan adam deməkdir. Amma, əslində onlar sədəqə toplayan dilənçilər deyil, dərvişlər tamam fərqli həyat və düşüncə tərzinə malik olan insanlardırlar. "Dərviş" sözü zaman-zaman geniş coğrafi məkanda uzun müddət istifadə edilməsi səbəbi ilə dəyişik və daha geniş mənalar qazanmışdır. Dərvişlər evlənməz, ailə həyatı qurmazdılar. Özlərini İslamın, Allahın təbliğinə həsr edib şəhərbəşəhər, kəndbəkənd gəzər Tanrıya, peyğəmbərə və imamlara həsr olunan ilahi nəğmələr oxuyardılar. Dərvişlər özləri də müxtəlif qruplara ayrılırlar. Müxtəlif dərviş qardaşlıqlarında ayinlər, dini hərəkətlər, qəzəl, qəsidə və mərsiyələrin oxunma tərzi fərqli idi. Məsələn, *rifailər* oxumağa, *mövləvilər* dövrə vurmağa, isəvilər tullanma hərəkətlərinə, şuabilər isə rəqsə üstünlük verirdilər. Orta əsrlərdə mənəvi və ruhani həyata yönələn müsəlmanlar arasında iki qüvvətli təmayül meydana çıxmışdır. Bu dərviş tiplərindən birinin mərkəzi İraq, digərinin mərkəzi İranın Xorasan şəhəri olmuşdur. Cəmiyyətdə fərqli bir zümrə kimi görünən bu dərviş qardaşlıqları dindarlığın mənəvi əsaslarına həssaslıqla yanaşdıqlarını iddia etməklə özlərinə məxsus əxlaq qaydaları nümayiş etdiriblər. Onlar özlərini camaatdan fərqli göstərən davranışlara malik idilər. Həm İraq sufilərinin, həm də Xorasan məlamilərinin dərvişliyi hər dövrdə varlığını davam etdirib və tədricən ətraf bölgələrə - Orta Asiya, Əfqanıstan, Pakistan, Qərbi Hindistan və Anadoluya yayılmışdır.

Müxtəlif adlar altında toplanan dərviş zümrələri bəzi fərqliliklər göstərsələr də, onların təməl qanunları eyni olmuşdur. Təməl qanunlarına görə, onlar nəfsin istəklərinə hakim olmağı, ölçülü və intizamlı yaşamağı, ruhi yetkinlik və mənəvi olğunluğa çatmağı bacarmalı idilər. Dərvişlərin yaşadığı çətin

həyat çiləsi, onların muradlarına çatması üçün əsas amil idi.

**DƏSTƏMAZ** – ***ibadətlərdən əvvəl bədən üzvlərinin: əllərin, ayaqların, üz və başın su ilə yuyulması və məsh edilməsidir***. *Hədislərdə* "Dəstəmaz" (vuzu) sözü təmizlik və gözəllik anlamlarında işlədilir. Dəstəmaz almaqla müsəlmanın bədən və ruhu təmizlənmiş olur. Bu baxımdan, *Quranda* (5: 6) dəstəmazın *vacibliyi* qeyd edilmişdir. Məsələn, dəstəmaz almadan *namaz* qılmaq, *Kəbəni* təvaf etmək və Qurana toxunmaq doğru hesab edilmir. Dəstəmaz alanda aşağıdakıları yerinə yetirmək vacibdir: *niyyət* etmək (*Hənəfi məzhəbində* vacib); üzü yumaq; əlləri dirsəklərə qədər yumaq; yaş əllə başı *məsh* etmək; ayaqları topuqlara qədər yumaq (*Cəfəri məzhəbində* ayaqlar yuyulmur, sadəcə yaş əllə məsh edilir).

Dəstəmaz aşağıdakı ardıcıllıqla alınır: niyyət edildikdən sonra əl barmaqları, ovuclar, dişlər yuyulur; sonra ağız və burun üç kərə su ilə yaxalanır. Bundan sonra üz, sonra sağ və sol əllər üç dəfə yuyulur. Daha sonra sağ əlin (ya da hər iki əlin ovucu ilə) barmaqları ilə başa məsh edilir. Daha sonra isə öncə sağ, sonra isə sol ayaq, hər biri üç dəfə olmaqla topuqlara qədər yuyulur (Cəfəri məzhəbinin davamçıları sağ əllə sağ, sol əllə isə sol ayaqlarının üstünü topuğa qədər məsh çəkirlər). Dəstəmazı bədəndən təbii ifrazatların çıxması, insanın yuxuya getməsi və cinsi əlaqəyə girməsi pozur.

**DƏSUKİ BÜRHANƏDDİN** – bax: **DƏSUKİLƏR.**

**DƏSUKİLƏR** – ***sufi təriqətlərindən birinin ardıcıllarıdırlar.*** Onları bürhanilər də adlandırırlar. Təriqətin adı Bürhanəddin İbrahim ibn Əbu Məcd Dəsuki (676/1277 ildə vəfat etmişdir) ilə bağlıdır. Onun soyu *Misirdən* olmuş, uzun müddət orada Dəsuk kəndində yaşamışdır. Burada ilkin biliklərə sahiblənmiş, *Quranı* və *Şafii* fiqhini dərindən öyrənmişdir. Sonra o, təcrübəli *mürşidlərinin* başçılığı ilə *sufi* yolçuluğuna başlamış, tərkidünyalığı seçərək iyirmi il qapalı həyat sürmüşdür. Bundan sonra, aktiv olaraq öz təriqətinin yayılması üçün səylər göstərmişdir. Dəsuki *təriqəti* Misir, Sudan, Şimali Afrikada geniş yayılmışdır. Misirdə dəsukilər davamçılarının sayına görə *Şazili* və *Bədəvi* təriqətlərindən sonra üçüncüdür. Bu təriqətin *rifailər, sührəvərdilər* və şazililərlə müəyyən bənzərlikləri vardır. Bəzən dəsukiləri bədəvi təriqətinin bir qolu da hesab edirlər.

Dəsukilərin *zikri* səsli yerinə yetirilir (*cəhridir*). Davamçılarının ən başlıca vəzifəsi yüksək əxlaqa çatmaq, təriqətə bağlı olmaq, öz mənfi xüsusiyyətləri ilə mübarizə apararaq və onlar üzərində qələbə qazanmaqdır. İlk zamanlar təriqət davamçıları *səmalar* zamanı *vəcd* halına girmək üçün məclislərdə *musiqi* səsləndirib, qəzəllər oxuyurdular. Ancaq sonra onlar məclislərində *mövləlivilər* kimi *səmalar* keçirməyə başlamışdır. Dəsuki sufiləri yaşıl libaslar geyinərdilər. Təriqətin şərnubitilər, aşurilər və süyutilər kimi bir neçə qolları da vardır.

**DİHYƏ İBN XƏLİFƏ** (50/670-ci ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuşdur.*** O, Kəlbilər qəbiləsinin başçılarından biri idi. İslamı Bədr döyüşündən sonra qəbul edərək Məhəmməd peyğəmbərin ən yaxın səhabələrindən biri olmuşdur. O, yunan dilini yaxşı bilirdi. Hüdeybiyyə anlaşmasından sonra Məhəmməd peyğəmbər müxtəlif qəbilələri və ölkələri İslamı qəbul etməyə çağırmışdır. Bunun üçün onların yanına öz elçilərini göndərmişdirlər. Dihyə ibn Xəlifə də onlardan biri kimi Bizans imperatoru Herakliusun yanına göndərilmişdir. O, imperatorla Qüdsdə görüşüb Məhəmməd peyğəmbərin məktubunu ona çatdırmışdır. Dihyə ibn Xəlifə bir-çox döyüşlərdə iştirak etmişdir. Məhəmməd peyğəmbərin vəfatından sonra Bizansa qarşı aparılan müharibədə, Yər-

muk döyüşündə də iştirak etmişdir. Onun söylədiyi ehtimal olunan bir neçə hədis zamanımıza qədər gəlib çatmışdır.

**DİQYANUS** – ***rəvayətlərə görə Quranda adı keçən Əshabi-Kəflə bağlı hadisələrdə möminləri təqib edən ölkə başçısı olmuşdur.*** Ola bilsin ki, bu Roma imperatoru Detsius (190 – 251) idi. A*llahdan* üz çevirib bütlərə sitayiş edən hökmdar olmuşdur.

**DİN** – ***tapınma, yol, təriqət, inanc kimi və s. sözləri özündə ehtiva edir.*** Latınca "religio" sözünün qarşılığı kimi işlədilir. Dinlər haqq və *batil* olmaq üzrə iki yerə ayrılır. Müsəlmanların inancına görə doğru din yalnız *İslamdır* (*Quran* 3:19), digər dinlər isə yanlış və ya təhrif olunmuşdurlar.

**DİRAR MƏSCİDİ** –bax: **MƏSCİDÜL-DİRAR.**

**DİYƏT** – ***qətlə yetirilmiş insanın yaxınlarına və ya əlil edilmiş insanın özünə cinayəti törətmiş insan tərəfindən kəffarənin ödənilməsidir.*** Diyət haqqında *Quranda* müəyyən *ayələr* vardır (4: 92, 17: 33). Hər hansı bir şəxs bilərəkdən kimisə öldürərsə, onda ölənin yaxınları və qohumları onun *qisasını* tələb edə bilərlər. Ancaq, *qətlə* yetirilmiş insana görə qatildən böyük məbləğdə qanbahasını almaq da mümkündür. Məhkəmədə hakim, ölənin qohumlarına qanbahası almağı məsləhət görsə də, onları buna məcbur edə bilməz. Əgər *qətl* və ya bədən xəsarətləri bilərəkdən deyil, təsadüfən baş vermişdirsə, onda bunu edən kimsə ölənin yaxınlarına qanbahasını ödəməlidir. Qanbahasının ölçüsü ölənin (ya da yaralananın) cinsindən, müsəlman olub-olmamasından, azad və ya kölə olmasından asılıdır. Zərər çəkən kölə olarsa, o zaman onun qanbahası sahibinə ödənilir. Öldürülmüş və ya yaralanmış kölənin qanbahası öldürülüb və ya yaralanan azad şəxsin qanbahasından çox ola bilməz. Qanbahasını ödəməklə yanaşı cinayəti bilməyərəkdən törətmiş müsəlman həm də kəffarə verməlidir. O, törətmiş olduğu cinayətin *kəffarəsi* kimi bir köləni azad etməlidir. Kəffarəni ödəyən müsəlman kasıbdırsa, o iki ay *oruc* tutmalıdır. (Quran, 4: 92). Qanbahasının ödənilməsindən təkcə qatilin özü deyil, onun qohumları da məsuldurlar (qadınlar, yetkinlik yaşına çatmamış uşaqlar, ruhi xəstələrdən başqa). Əgər, qatil və onun yaxınları qanbahasını ödəməyə gücləri çatmırsa, o zaman diyət ölkənin xəzinəsindən ödənilir.

**DRUZLAR** – ***ismaili şiələrə yaxın ifrat dini təriqətin davamçılarıdırlar.*** Bu *təriqətin* qurucusu Dərazi olmuşdur. O, Qahirədə Fatimi *xəlifəsi* Biəmrillahın (386/996 – 411/1021) yanında qulluq etmişdir. Dərazi Biəmrillahı Tanrının yerdəki təcəllisi hesab edirdi. Ancaq, bu təriqət *Misirdə* deyil, Libnan (Livan) dağlarında yaşayan müxtəlif qəbilələrin arasında geniş yayılmışdır. Müsəlmanların çoxu druzları müsəlman hesab etmirlər. Druzlar yeni platonçuluq və qnostik inancların, xüsusən də, onların emanasiya (Tanrı işığının saçması sonu dünyanın yaranması) təlimini mənimsəmişdirlər. Onların dünyagörüşündə dünya Əqli emanasiya edərək (işıq kimi saçaraq) müxtəlif insanlarda təkrar-təkrar ortaya çıxır. Druzlar ruhun bir bədəndən başqasına köçə bilməsinə (*tənasüh*) inanmışlar. Onların inanclarına görə dünya Əqli sonuncu dəfə Həmzə adlı bir şəxsdə təcəlli etmişdir.

Ümumilikdə, Druzların təlimi gizli xarakter daşıyır. Onu yalnız təriqətin "uqqal" (ağıllı) adlanan seçilmişləri bilirlər. Digərləri isə "cuhhallardır" (*cahillərdir*). "Uqqallar" ara-sıra xüsusi yerlərdə ibadət etmək üçün yığışırlar. Duruzlarda ən yüksək məqama çatmış insanlar "kamil insan" adlanırlar.

**DUA** – ***Allahdan nə isə istəmək və diləmədir.*** Özünü Allahın qulu hesab edən hər bir kəs Onun gücü qarşısında öz acizliyi və gücsüzlüyünü hiss edib Ona sığınır və əl açır. İmanlı hər bir şəxs Allahdan hər hansı bir işinin reallaşması üçün yardım diləyər və ya Ona özündən bəlaları uzaqlaşdırmağı istəyər. Yalvarışlarında o, Allaha sevgisini və sadiqliyini bildirir. Müsəlmanlar hər hansı bir işə başlamazdan əvvəl Allaha dua edərlər.

**DUHA** – ***quşluq vaxtı deməkdir.*** Bu söz *Quranda* (20: 59, 79: 46, 93: 1) da anılmaqdadır. Duha vaxtı girəndə (günəşin doğuşundan iki saat sonra) eyni adlı *namaz* da qılınır. Duha (quşluq) namazı iki *rükət* və daha çox qılınan müstəhəb namazıdır. Bəzi alimlərə görə rükətlərin sayı iki və ya səkkiz rükət arasında olmalıdır. Duha namazı əsasən günəş çıxdıqdan on beş dəqiqə sonra başlayıb və günəş zenit xəttinə yüksələnədək qılınmalıdır. Quranda *surələrdən* biri "Duha" (93) adlanır. On bir ayəsi olan bu surə "Fəcr" surəsindən sonra *Məkkədə* nazil olmuşdur. Bu surə nazil olana qədər *Məhəmməd* peyğəmbər bir müddət *Allahdan vəhy* almamışdır. Buna görə *bütpərəstlər* ona istehza edərək Allahın onu unutduğunu iddia etmişdirlər. Bu səbəbdən də, "Duha" surəsi nazil olmuşdur. Məhəmməd *peyğəmbərin* bəzi *hədislərində* duha namazı haqqında məlumat vardır.

**DÜNYA** – ***insanı ölümünə qədər əhatə edən bütün maddi və mənəvi aləmdir.*** Ölüm anından sonra hər bir insan o biri dünyaya – yəni, *axirət* həyatına intiqal etmiş olur. Kainat sonlu, axirət isə sonsuzdur. Buna görə də, hər bir şəxs bu dünyada yaşayarkən axirətdə *Allah* tərəfindən bağışlanması haqqında düşünməlidir. Allah *Quranda* dünya həyatını insanlar üşün geniş izah etmişdir. İnancsız insanlar dünyanın keçici nemətlərinə uyarkən *möminlər* həm dünyanı, həm də axirət həyatını eyni dərəcədə qiymətləndirilər.

# E

**EHRAM (I)** – ***kətan və ya pambıqdan, altdan biçilməmiş iki parçadan ibarət olan müsəlman zəvvarın geyimidir.*** Parçanın biri beldən ayaqlara doğru sarılır, digəri isə qabaqdan və arxadan bənd edilir. Zəvvarın sol çiynindən aşırılaraq sinəsini və kürəyini örtür. İhram geyinmənin ilkin vəzifəsi keçdiyi yerlərin əhalisinə gəlişin dinc məqsədini göstərməkdir.

**EHRAM (II)** – ***zəvvarın həcc və ümrədə ziyarətdə ihramda olarkən müəyyən əməllərin qadağan edilməsi halında olmasıdır.*** İhram halında canlıların öldürülməsi, bitkilərin məhv edilməsi, ağac və kolların sındırılması, saç və dırnaqların tutulması, üzün qırxılması və bəzi başqa əməllər qadağan olur.

**EHSAN** – ***yaxşılıq etmə və yardımlaşmadır.*** Yardımlaşma həm maddi, həm də mənəvi davranışdır. Ehsan həmçinin *Allah* rızasını qazanmaq məqsədi ilə doğru yollarla qazanılan vasitələrdən ehtiyac içində olan insanlara maddi və mənəvi yardım göstərməkdir.

**ELM** – ***isbatlanmış obyektiv biliklərdir.*** Bu anlayış *İslamda* ehkamlarla çərçivələnmişdir. İslama görə elmin qaynağı *Allahdır*. Ona yönəlmək alqışlanır, yaxşı işlərdən hesab edilir. *Məhəmməd* peyğəmbərə nazil olunmuş ilk Quran *ayələrində* (96: 1-3) elmə yönəlmənin və oxumağın *vacibliyi* vurğulanmışdır. *Quranda* "elm" sözü və onun müxtəlif sinonimləri dəfələrlə *zikr* edilməkdədir. Elm yalnız oxumaqla deyil, Allahın verdiyi xüsusi istedadla da əldə edilir. Elmi bilik vasitəli və ya vasitəsiz yollarla əldə edilə bilər. Vasitəsiz bilik insana doğuşdan, fitrətən

Allah tərəfindən verilir. Vasitəli bilik isə insanın zəhməti qarşılığında çalışmaqla əldə edilir. Məhz, dini və dünyəvi elmlər bu yolla əldə edilməkdədir.

İslam təlimlərində bilik üç vasitə ilə əldə oluna bilər: duyğu orqanları, metafizik və araşdırma yolu ilə əldə olunan elmlər. Dinə görə ayrı-ayrı biliklərin əldə olunması bütün müsəlmanlar üçün vacibdir. Məsələn, müsəlmanlar *halalı haramdan*, yaxşını pisdən ayırmalıdırlar. Digər elmlər isə ehtiyac olduqca öyrənilməlidir. İslamda bütün pisliklər haqsızlıq, elmsizliklə əlaqələndirilir. Pisliyin nə olmasını anlayan insan, onun elmsizlik və inancsızlıqdan ortaya çıxdığını dərk etməkdədir. İslamın müxtəlif elm sahələrini bilən alimlərə "üləma" deyilir. Onlar elmləri qarşılıqsız öyrətməli, heç bir qazanc və şöhrət məqsədi güdməyərək yalnız İslamın yüksəlişi üçün çalışmalıdırlar. Eyni zamanda, sadə olmalı, bilikləri ilə öyünməməlidirlər. Müsəlman aliminin ən başlıca məqsədi alınmış biliklərin başqa insanlara, yəni müsəlmanlara ötürməli, onu ölkənin çiçəklənməsinə yönəltməlidir. Bunu etmək vacibdir. İslamda dini elmlər ilahiyyat adı altında öyrənilir. Bunlardan bəziləri aşağıdakılardır: əxlaq - gözəl davranış haqqında; kəlam – Allahın varlığı və sifətlərini öyrənən; təcvid – Quranın düzgün və qaydalara uğun oxunmasını öyrədən elm sahəsidir; *təfsir* isə – Quranın izah olunması istiqamətində formalaşan elmidir; *hədis – peyğəmbərin* kəlamlarını araşdıran elm sahəsidir. İslamın inanc doktrinası, hüquq və əxlaq qaydaları "ilmihallar" və "risalələr" adlanan kiçik məcmuələrdə yer alır.

**EŞQ** – ***sevgi hissinin ən yüksək mərtəbəsidir.*** Müsəlman hər şeydən öncə Allahı sevməlidir. Çünki, Allahı sevmək hər bir müsəlman üçün əsasdır. Qadına, anaya, ataya və övladlara olan sevgi dinin buyruqlarına zidd deyilsə, təqdir edilir. İnsanın Allaha olan sevgisi *Quranda* (5: 54) da anılmışdır.

Eşq *sufilikdə* ən geniş yayılmış bir mövzulardan biridir. *Mərifət* və idrak olmadan məhəbbətin hasil olması düşünülməzdir. Çünki insan ancaq tanıdıqlarını sevər. Bunun üçün mərifətdən məhrum olan insanlar sevgidən də uzaq olarlar. Sevmək idrak edən canlının ən əsas xüsusiyyətidir. Sevgi, idrak və mərifətə tabedir. Ancaq, sevgi sadəcə beş duyğu orqanının idrakından ibarət deyildir. Bunlardan əlavə ağıl və qəlbin idrakı da vardır. Çünki, *batini* bəsirət, *zahiri* gözdən daha qüvvətlidir. Qəlb isə idrak baxımından gözdən daha güclüdür. Teosofik sufi *İbn Ərəbi* də eşqin gücünü məhz mərifət və idrakda görürdü. Ona görə də, İbn Ərəbinin və onu kimi düşünən mütəfəkkirlərin *eşq* təcəssümləri yaddaşlara hək olmuşdur. Çünki, İbn Ərəbi və onun kimi düşünən *elm* və irfan əhli eşqi deyil, eşqin həqiqətini axtarırdılar. "Eşq aşiqlər üçün həqiqət yolunu işıqlandırır" deyən Füzuli, "Eşqin həqiqəti, Allahın zatı ilə eynidir" deyən İbn Ərəbi ilə eyni düşüncəni paylaşmışdır.

**ETİQAF** – ***özünə qapanma və ya inzivaya (təkliyə) çəkilməkdir.*** Müəyyən *şərt* və istəklərlə *məsciddə* Allaha ibadət etmək üçün bir neçə gün təkliyə çəkilmək anlamında işlədilən bir termindir. *Vacib* və müstəhəb olmaqla iki növ etiqaf vardır. Etiqafı *niyyət* edən müsəlman üçün bu davranış vacibdir. *Ramazan* ayının sonuncu on günündə bütün fikrini Allaha yönəldərək *dualar* edən hər bir müsəlman etiqaf edə bilər. Etiqaf etmək müstəhəbdir. Etiqafı edən insan müsəlman, eləcə də sağlam düşüncəli adam olmalıdır. Məsciddə olarkən etiqafda olan müsəlman təmiz (*qüsul* almış və *dəstəmazlı*) olmalıdır. Etiqaf zamanı müsəlman məscidi yalnız üzrlü səbəbdən tərk edə bilər. Əks halda etiqaf pozulmuş olur. Cinsi əlaqəyə girmək istəyi və sağlam düşüncədə olmama durumu da etiqafı pozar.

**EVS** – ***Mədinə qəbilələrindən biri olmuşdur.*** *İslamı* qəbul etdikdən sonra evsilər *ənsarlardan* olmuşdurlar. Bu qəbilə öncə Yəməndə yaşamışdırlar. Sonra onlara qohum olmuş Xəzrəc qəbiləsi ilə Yəsribə (*Mədinəyə*) köçmüşlər. İslamdan öncə onlar baş tanrı hesab etdikləri *Mənata* tapınırdılar. Yəsribdə evslilər *yəhudilərlə* birlik təşkil edərək güclənmişdirlər. Ancaq bir qədər sonra, onlardan daha böyük olan Xəzrəc qəbiləsi ilə qarşıdurmaları baş vermişdir. Bu qarşıdurmalar onilliklər boyu davam etmişdir. Onların arasındakı sonuncu qanlı toqquşma Buas döyüşündə olmuşdur. Kureyzə və Nadir kimi yəhudi, eləcə də bəzi ərəb qəbilələrinin yardımı ilə evslilər Xəzrəciləri məğlub edə bilmişlər. Ancaq, uzun sürmüş savaşlar səbəbindən gücdən düşmüş evslilər bu üstünlükdən istifadə edə bilməmişdirlər.

Xəzrəclilər isə qüreyşlilərdən dəstək almaq üçün *Məkkəyə* öz elçilərini göndərmişdirlər. Orada *Məhəmməd* peyğəmbərlə görüşmüş xəzrəclilər anladılar ki, onların evsilərlə onilliklər boyu davam edən qarşıdurmalarına yalnız onun yaydığı dinin vasitəsi ilə son qoymaq mümkün olacaqdır. Onlar İslamı qəbul edən kimi evslilər də İslamı qəbul etmişdirlər. Artıq Məhəmməd peyğəmbərə *Əqəbədə* birinci *beyət* zamanı on xəzrəcli ilə birlikdə iki evsli iştirak etmişdir. Əqəbədə ikinci beyətə evsilər daha böyük sayla gəlmişdirlər. Onlar Məhəmməd *peyğəmbəri* qorumağa, bütün qovulan məkkəli müsəlmanlara sığınacaq verəcəklərinə söz vermişdirlər.

Məkkəli müsəlmanlar Yəsribə *hicrət* etdikdən sonra evslilər və xəzrəclilər birlikdə “*ənsar*” (peyğəmbərin havadarları) adlandırılmışlar. Bununla da evslilər və xəzrəclilər arasındakı qarşıdurmalara son qoyulmuşdur. Daha sonra onlar birlikdə İslam dövlətinin yaranması işində aktiv fəaliyyət göstərmişdirlər.

Məhəmməd peyğəmbərin vəfatından sonra evslilərin çoxu *Əbu Bəkrin* xəlifə olmasını dəstəkləmişlər. Bundan sonra onlar başqa müsəlmanlar kimi onun xəlifəliyi dövründə Ərəbistanda dinlərindən dönmüş *(riddət II* etmiş) qəbilələrlə igidcəsinə vuruşmuş, İslamın möhkəmlənməsində böyük işlər görmüşdürlər. Sonra onlar İslam ordusunun sıralarına qatılaraq İran, Bizans, eləcə də müxtəlif yerlərdə İslam dinini yaymışdırlar.

# Ə

**ƏBABİL** – ***Fil ilində Məkkəyə hücum etmiş Həbəşistan kralı Əbrəhənin qoşunlarına, Allahın buyruğu ilə hücum edərək onları darmadağın etmiş quşlardır.*** Əbabil quşları haqqında *Quranda* (105: 1-5) məlumat verilməkdədir. Bu möcüzəyə görə Əbrəhənin qoşunları şəhəri ələ keçirə və Kəbəni yağmalaya bilməmişlər. Bu hadisə *Məhəmməd peyğəmbərin* anadan olmasından az əvvəl baş vermişdir.

**ƏBBAD İBN BİŞR** (13/634-cü ildə həlak olmuşdur) – ***Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuşdur.*** O, *Mədinədə* dünyaya göz açmışdır. *Məhəmməd peyğəmbərin* Mədinəyə göndərdiyi *Müsab ibn Ümeyrin* vasitəsi ilə *İslamı* qəbul etmişdir. İslamı qəbul etdikdən sonra o, xəlvətə çəkilərək günlərini *Allaha* ibadət etməklə keçirmişdir. *Quranın* ən yaxşı bilicisi hesab edilirdi. Yəmmamədə yalançı peyğəmbər *Müseyliməyə* qarşı döyüşdə *şəhid* olmuşdur.

**ƏBBAN İBN SƏİD** – ***Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuşdur.*** Qüreyşlilərdən olan Əbban *İslamı* gec qəbul etmişdir. Əbban uzun müddət müsəlmanlara qarşı olmuşdur. Onun qardaşları Əmir və Xalid İslamı qəbul etdikdə Əbban onlarla düşmənçilik etmişdir. Hətta, Əbban *Bədr*

döyüşündə müsəlmanlara qarşı belə döyüşmüşdür. Bu döyüşdə onunla birlikdə müsəlmanlarla döyüşən qardaşları Übeyd və As öldürülmüşdür.

*Bütpərəstlərlə* Hüdeybiyə anlaşmasında Əbban *Məkkəyə* danışıqlar aparmaq üçün getmiş, *Məhəmməd peyğəmbərin* elçisi Osman ibn Əffanı öz himayəsi altına almışdır. Əbban sağlam düşüncəli bir insan idi. Müsəlmanlara qarşı olduğu bütün illər boyu İslamı tədricən öyrənmişdir. Rəvayətlərə görə o, tez-tez Suriyaya səfər edərmiş. Bu səfərlərin birində bir rahib ona Ərəbistanda bir peyğəmbərin gəlməsi haqqında məlumat vermişdir. Əbban o peyğəmbərin məhz, Məhəmməd olduğunu anlamışdır. Bundan sonra o, Məkkəyə qayıdaraq müsəlmanlarla düşmənçiliyinə son qoymuşdur. O, *Xeybər* döyüşündən əvvəl, İslamı qəbul etmiş, sonra *Mədinəyə hicrət* etmişdir. Məhəmməd *peyğəmbər* vergilərin toplanılması vəzifəsini ona həvalə etmişdir. O, *Əbu Bəkrin* xəlifəliyi dövründə Bizansa qarşı aparılan döyüşlərin birində *şəhid* olmuşdur.

**ƏBDUH MƏHƏMMƏD** (1265/1849-1322/1905) – ***Camaləddin Əfqanin tələbəsi və davamçısı olmuşdur.*** O, *Misirdə* türkmən ailəsində doğulmuşdur. İlk təhsilini mədrəsədə alan Məhəmməd Əbduh *Quran hafizi* olmuşdur. Sonra atası onu Tantaya "Əhmədiyyə" *məscidindəki şeyx* Səid Bədəvinin *sufi* təriqətinə oxumağa göndərmişdir. Məhəmməd Əbduh bu təriqətin üsuluna uyğun təhsilini bitirdikdən sonra, Qahirədəki "Əl-Əzhər" universitetinə daxil olmuşdur. O, 1394/1877-ci ildə Əl-Əzhəri bitirmiş və doktorluq dərəcəsi almışdır. O, həmçinin həmin universitetdə müəllimlik də etmişdir. Məhəmməd Əbduh dini elmlərdən başqa dünyəvi elmlərə də maraq göstərmişdir. O eyni zamanda, siyasi-ictimai fəaliyyətlə də məşğul olmuşdur. Onun məqalələri Misirin bir çox tanınmış nəşrlərində, daha çox "Əl-Əhram" qəzetində nəşr edilirdi. O illərdə Əbduh *Camaləddin Əfqani* ilə də tanış olmuşdur. 1300/1883-cü ildə Orabi paşanın üsyanında iştirak etməsinə görə Məhəmməd Əbduh Misirdən qovulmuş və bir müddət Fransada mühacirətdə olmuşdur. Burada o, Camaləddin Əfqani ilə birlikdə müsəlman maarifçiləri arasında çox tanınan "Urvai-Vüsqa" (Möhkəm əlaqələr) qəzetini nəşr etdirmişdirlər. 1302/1885-ci ildə o, Beyruta gəlib burada bir neçə kitab yazmışdır. 1305/1888-ci ildə Misirə qayıtdıqdan sonra ölkədə yüksək vəzifələrdə çalışmışdır. O, eyni zamanda, "Əl-Əzhər" universitetində mühazirələr də oxumuşdur. Daha sonra Məhəmməd Əbduh Misirin baş *müftisi* olmuşdur. Eyni zamanda o, "Əl-Əhzərin" təhsil sistemində islahatların aparılmasına nail ola bilmişdir. O, Camaləddin Əfqaninin *İslama* qayıdış şüarı ilə yenidənqurmanın aparılması ideyalarını inkişaf etdirmişdir. *İctihad* qapısının bağlı olması iddialarını tənqid edərək *məzhəb* və müctəhidlərin *təqlid* edilməsinə qarşı çıxmışdır. Onun verdiyi fitvalar nəticəsində bəzi *müctəhidlər* ona qarşı çıxış etmişdirlər. Məsələn, bir fitvasında o banklardan faiz alınmasına icazə vermişdir.

Bu kimi çıxışlarına görə bir çox müsəlman din xadimləri onu kəskin tənqid atəşinə tutmuşdurlar. Xüsusi ilə də onun bu islahatçı fitvalarına qarşı "Əl-Əzhar" universitetinin tanınmış alimi Osmanlı imperiyasının şeyxülislamı olmuş Mustafa Səbri Əfəndi çıxış etmişdir.

Cəmiyyətin siyasi quruluşuna gəldikdə isə deyə bilərik ki, Məhəmməd Əbduh ölkə başçılarının dini işlərə qarışmasına qarşı sərt mövqe tutmuşdur. Ölkə başçısı *Tanrının* istəyini yerinə yetirən vasitəçi deyil, yer üzərindəki işləri nizamlayan şəxsdir. Hakimlərə, şeyxülislamlara və başqa din adamlarına gəldikdə isə onlar, kilsədəki kimi yalnız dini

işlərlə məşğul olmalı, hakimiyyətə can atmamalıdırlar.

Məhəmməd Əbduh xalq hakimiyyətini dəstəkləyərək ölkədə dövlət başçısının seçkilər yolu ilə seçilməsinin tərəfdarı kimi çıxış etmişdir. O, parlament quruluşunun üstünlüyünü iddia etmiş; ölkəyə xalqın istəyinə uyğun başçılıq edilməsini dəstəkləyib, bütün bunların dinin əsasında əks olunduğunu qeyd etmişdir. O, konstitusiya ilə idarə olunan dövlət sistemini tövsiyə etmişdir.

Daha sonra bir müfti kimi o, parlamentarizmə tədricən gedilməsini tövsiyə etmişdir. Parlamentarizmə gedən yol, müvəqqəti diktaturadan başlaya bilər. Diktator cəmiyyətdə ədaləti qoruyub-saxlamalı, özbaşınalığın qarşısını almalıdır, sonra isə ölkəni tədricən parlamentarizmə və demokratiyaya aparmalıdır. Məhəmməd Əbduha görə azadlıq ideyaları tədricən formalaşdırılmalı və bu ideyalar isə ölkəni uçurumlara sürükləməməlidir. Eləcə də, Məhəmməd Əbduh ölkə başçılarına qarşı hər hansı bir üsyanın yolverilməz olduğunu qeyd edirdi. Çünki, belə olan təqdirdə ölkədə qarışıqlıq və xaos yarana bilər.

**ƏBDÜL-MÜTTƏLİB** – ***Məhəmməd peyğəmbərin babası olmuşdur.*** Haşimin (*Haşimilərin* lideri) ölümündən sonra həccin təşkili ilə bağlı işləri onun qardaşı Müttəlib ibn Əbdul-Mənaf öz öhdəsinə götürmüşdür. Bir neçə il sonra o Haşimin oğlu Şeybənin yanına *Mədinəyə* getmiş və onu özü ilə *Məkkəyə* gətirmişdir. Orada Şeybəni Əbdül-Müttəlib (Müttəlibin köləsi) adlandırmağa başladılar. Sonralar isə onu bu adla çağırırdılar. Müttəlib öldükdən sonra o, həccin təşkili üzrə bütün işləri öz üzərinə götürüb el arasında böyük hörmət qazanmışdır. Əbdül-Müttəlibin 10 oğlu olmuşdur: Haris, Zübeyr, Əbu Talib, Abdullah (*Məhəmməd* peyğəmbərin atasıdır), Həmzə, *Əbu Ləhəb*, Hidək, Məkvam, Səfər və Abbas. Eyni zamanda, onun altı qızının olduğu haqqında da məlumat vardır. *Əminənin* (Abdullanın həyat yoldaşı və Məhəmməd *peyğəmbərin* anası) ölümündən sonra, Əbdül-Müttəlib yetim qalmış altı yaşlı nəvəsi Məhəmmədi öz himayəsinə götürmüşdür. İki ildən sonra Əbdül-Müttəlib ölmüş, Məhəmmədi isə onun oğlu Əbu Talib öz himayəsinə götürmüşdür.

**ƏBDÜRRƏHMAN İBN ƏVF** (32/652 ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin tanınmış səhabələrindən biri olmuşdur.*** Müsəlman olmamışdan əvvəl Əbdül-Kəbə (*Kəbənin* qulu) adı ilə tanınmışdır. Əbdürrəhman ibn Əvf ilk müsəlmanlardan biri olmuşdur. O, *Ərqəmin* evindəki yığıncaqlarda iştirak etmişdir. O, başqa müsəlmanlar kimi *Məkkədə* təqib olunduğundan Həbəşistana, sonra isə *Mədinəyə hicrət* etmişdir. Hicrət etdikdən sonra Əbdürrəhman ibn Əvf *İslamın* güclənməsi üçün əlindən gələni əsirgəməmişdir. O, *müşriklərə* qarşı olan bütün müharibələrdə iştirak etmişdir.

*Məhəmməd peyğəmbərin* vəfatından sonra öz fəaliyyətini davam edərək xəlifə *Əbu Bəkr* və *Ömərin* yaxın adamlardan biri olmuş, ölkənin idarə olunmasında onlara yardımçı olmuşdur. Ömər *şəhid* edildikdən sonra o, xəlifəni seçəcək altı nəfərdən ibarət heyətdə yer almışdır. Onlar özlərindən birini xəlifə seçməli idilər. Seçki zamanı *Əli* və *Osmanın* namizədliyi irəli sürülmüşdür. Onlardan birinin seçilməsində Əbdürrəhman ibn Əvf son sözü deməli idi. O, da Osmana üstünlük vermişdir. Onun səsi seçkini həll etmiş, beləliklə, Osman İslam xilafətinin üçüncü *Raşidi* xəlifəsi seçilmişdir. Əbdürrəhman ibn Əvf Mədinədə *hicrətin* 32-ci ilində vəfat etmiş və orada torpağa tapşırılmışdır.

**ƏBU BƏKR** (13/634 ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin ən yaxın dostu, görkəmli ictimai və siyasi xadim, İslamın***

***birinci Raşidi xəlifəsidir.*** *Məhəmməd* peyğəmbər onu Abdulla, Ətiq və Sıddiq (Ona Bağlı Olan) adlandırmışdır. O, Təym qəbiləsinə məxsus idi. Atasının adı Əbu Hüləfə Osman, anasının adı isə Ummül-Xeyr Səlma olmuşdur.

Əbu Bəkr *İslamı* ilk qəbul edənlərdən biri olub, bütün həyatını İslama həsr etmişdir. O, Fil ilinə (572-ci il) iki il qalmış dünyaya gəlmişdir. Geyim və parça ticarəti ilə məşğul olan Əbu Bəkr bu yolla çoxlu sərvət qazanmışdır. Əbu Bəkr Məhəmməd *peyğəmbərin* yaxın dostu olaraq peyğəmbərin ölümünə qədər ondan ayrılmamışdır. Məhəmməd peyğəmbər bir-çox əhəmiyyətli problemlərin həll olunmasında Əbu Bəkrlə məsləhətləşirdi. Ərəblər onu hətta "peyğəmbərin vəziri" belə adlandırmışlar. Onlar təxminən eyni yaşda idilər.

Əbu Bəkr Məhəmmədin peyğəmbərliyi əsnasında onun hər bir sözünə inanmış və onun yanında yer almışdır. Məsələn, peyğəmbər bir gecə Məkkədən *Qüdsə*, buradan da göylərə yüksəlməsini (*İsra və merac* olayı) bəyan edəndə, Əbu Bəkr Məhəmməd peyğəmbərin sözlərinə ilk inanmış şəxs olduğundan peyğəmbər onu "Siddiq" (Sadiq olan) adlandırmışdır.

*Məkkədə* olarkən Əbu Bəkr müsəlman icmasının inkişafı üçün böyük işlər görmüşdür. O, yoxsullara yardım edib *bütpərəstlər* tərəfindən işgəncələrə məruz qalan Bilal, Həbbab, Lübeynə, Əbu Fükeyhə, Əmir kimi kölələri pulla alıb azad etmişdir.

Məkkədə müsəlmanlara qarşı təqiblər başlayanda Məhəmməd peyğəmbər Əbu Bəkri *Həbəşistana hicrət* edən bir qrup müsəlmanlarla o ölkəyə göndərmək istəmişdir. Əbu Bəkr getmək istəsə də, nüfuzlu qəbilə başçılarından biri İbn Dükunnə onu himayəsinə götürdüyünə görə o, bu fikrindən yayınmışdır.

Məhəmmədin peyğəmbərliyindən 13 il keçdikdən sonra müsəlmanların Məkkədən *Mədinəyə hicrəti* başlanmışdır. Məkkəni sonuncu tərk edənlərdən biri də, Əbu Bəkr olmuşdur. O, Məhəmməd peyğəmbər ilə birlikdə Mədinəyə hicrət etmişdir. Onları izləyən bütpərəstlərdən qorunmaq üçün onlar yol üzərində yerləşən Saur mağarasına sığınmışlar (Quran, 9: 40).

Məhəmməd peyğəmbər Mədinəyə hicrət etdikdən sonra Əbu Bəkrin qızı *Aişə* ilə evlənmiş və onunla qohum olmuşdur. Eyni zamanda o, başqa müsəlmanlarla birlikdə ilk İslam dövlətinin qurulmasında fəal iştirak etmişdir. O, *Bədr, Uhud, Xəndək*, Xeybər, *Hüneyn* və digər döyüşlərdə iştirak etmişdir.

Məhəmməd peyğəmbərin həyatının sonlarında xəstələndiyinə görə, camaat namazına başçılıq etmə işini Əbu Bəkrə tapşırmışdır. Bu da, Əbu Bəkrin birinci *Raşidi xəlifə* seçilməsində həlledici rol oynamışdır. Müsəlmanların çoxu onun namazda öndərliyini, dünyəvi işlərdə də öndər olması kimi başa düşmüşdürlər.

11/632-ci ildə Məhəmməd peyğəmbərin vəfatından dərhal sonra *Ənsarlar* əslən məkkəli olan Səid oğullarının (Bəni Səid) yığıncaq yerində səqifədə yığışmışlar. Orada olanların çoxu *xəzrəclilərdən* olmuşdurlar. Onlar öz aralarında böyük nüfuza malik olan *Səd ibn Übeydəni* xəlifə seçmək istəsələr də, bütün bunlardan xəbər tutan Əbu Bəkr Siddiq, *Ömər ibn Xəttab* və *Əbu Übeydə* Əmir ibn Cərrah oraya gələrək müzakirələrdə iştirak etmişdirlər. Onlar xəlifənin *qureyşlilərdən* olmasının vacibliyini qeyd etmişdirlər. Onların səyi nəticəsində orada yığışan müsəlmanlar Səd ibn Übeydənin namizədliyini geri götürmüşdürlər. Onlar ən uyğun namizədin Əbu Bəkr olduğunu qeyd edərək onu xəlifə seçmişdirlər. *Əli ibn Əbu Talib* isə o zaman Məhəmməd peyğəmbərin dəfn edilməsi işləri ilə məşğul idi.

Beləliklə Əbu Bəkr, 11-ci hicri ilinin 12 Rəbiül-əvvəl ayında ilk Raşidi xəlifə seçilmişdir. Seçildiyindən iki gün sonra Məd-

inə *məscidində* xalq onun xəlifəliyini tanımışdır. Əbu Bəkrin xəlifəliyi yalnız 2 il, 3 ay və 10 gün sürmüşdür. Bu müddətdə o, Xilafətinin möhkəmlənməsi üçün önəmli addımlar atmışdır.

Əbu Bəkr xəlifə seçildikdən sonra Xilafətin dağılmasını istəyən güclər hərəkətə keçmişdirlər. Onlar Ərəbistanı *İslamdan* əvvəlki vəziyyətə qaytarmaq, qəbilə savaşlarını dirçəltmək *niyyətində* idilər. Bu qüvvələr xəlifəyə beyət etməmiş, ölkəyə *zəkat* verməkdən imtina etmişlər. Zəkat isə İslam inancına görə dinin əsaslarından biridir və *mal* varlığı olan hər bir müsəlman zəkat verməkdən məsul idi. Buna görə də bəzi ərəb qəbilələrinin vergilərdən yayınması *RIDD"T (II)* kimi dəyərləndirilmişdir. Bundan başqa Ərəbistanın müxtəlif bölgələrində *Müseylimə, Tüleyhə, Əsvəd və Səccah* kimi yalançı peyğəmbərlər ortaya çıxmışdır.

Ölkədəki çətin siyasi duruma baxmayaraq, Əbu Bəkr xəlifəliyinin ilk günlərindən ona qarşı üsyan edənlərlə mübarizəyə başlamışdır. Onlara kiçik güzəştlərə belə getməmişdir. Onun qətiyyətli addımlarının nəticəsində bütün üsyançılar darmadağın edilmişdir. Üsyançılara qarşı aparılan uğurlu siyasətin nəticəsində, Xilafət yenə də xarici qüvvələrin hücumlarının qarşısını ala biləcək güclü ölkəyə çevrilmişdir. Düşmənlər üzərində əldə edilən zəfərlər Xilafətin güclənməsini istəməyən Ərəbistanda üsyançılara yardım edən İran və Bizans qoşunlarına qarşı İraq və Suriya ərazilərində savaşa başlamaq imkanını vermişdir. Bu tarixdən başlayaraq müsəlmanlar Xilafətin genişlənməsi uğrunda savaşlara başlamışdırlar. İslam ordusu İraqda iranlıları darmadağın etmişdirlər. Əbu Bəkrin xəlifəliyinin sonunda Xilafət ordusu Suriyada irəliləmiş, Yərmuk çayına yaxınlaşaraq burada Bizans imperiyasının orduları ilə böyük və həlledici savaşa başlamışdırlar. Yərmuk döyüşünün ən qızmar zamanında İslam ordusu Əbu Bəkrin ölümü xəbərini almışdır. O, Məhəmməd peyğəmbərin *məzarının* yanında torpağa tapşırılmışdır. Ölümündən əvvəl Əbu Bəkr ölkə başçılığını ikinci Raşidi xəlifə olmuş *Ömər ibn Xəttaba vəsiyyət* etmişdir. Rəvayətlərə görə Əbu Bəkr *Quranın* bir kitabda toplanması işinə də başlamışdır. O, bu işi görməyi Məhəmməd peyğəmbərin katiblərindən biri olmuş *Zeyd ibn Sabitə* tapşırmışdır. Yığılmış yazılı Quran səhifələri peyğəmbərin həyat yoldaşı *Həfsəyə* verilmiş və bu səhifələr uzun müddət onda qalmışdır. Xəlifə *Osmanın* dövründə bu səhifələrin üzərində işləyən Zeyd ibn Sabitin başçılıq etdiyi heyət, Quranın son variantının işlənib hazırlanmasında iştirak etmişdirlər. Bu fəaliyyətin nəticəsində Quran bizim günümüzə qədər gəlib çata bilmişdir.

**ƏBU CƏHL** (2/624-cü ildə öldürülmüşdür) – ***Məhəmməd peyğəmbərin barışmaz düşməni olmuşdur.*** *Qureyş* qəbiləsinin məxzumilər qoluna məxsus idi. O, Əsl adı Əmr ibn Hişamül-Müğirə olmasına baxmayaraq müsəlmanlar onu Əbu Cəhl (*cahillik* atası) adlandırmışlar. Əbu Cəhl *Məhəmməd* peyğəmbərlə eyni yaşda idilər. O, Məhəmməd *peyğəmbərə* ilk günlərdən qarşı çıxmış, *Məkkənin* ilk müsəlmanlarını təqib etmişdir. O, *İslam* tarixində ilk öldürülmüş müsəlman qadın olmuş Məhəmməd peyğəmbərin səhabəsi *Əmmar ibn Yasirin* anası Sümeyyəni *qətl* etdirmişdir. Əbu Cəhl Məkkədə müsəlmanların boykot edilməsinin tərəfdarlarından və təşkilatçılarından biri olmuşdur. O, Məhəmməd peyğəmbərin *Mədinəyə hicrətindən* az əvvəl, onun öldürülməsi üçün Məkkədən qatilin seçilməsi təklifini də irəli sürmüşdür. Ancaq, bu qəsd peyğəmbərin bundan az əvvəl evindən çıxıb getməsinə görə nəticəsiz qalmışdır. Müsəlmanlar Mədinəyə hicrət etdikdən sonra Əbu Cəhl onlara qarşı düşmənçiliyini davam etdirmişdir. O, *Əbu Süfyanın* karvanını qoru-

maq üçün yola düşən Qüreyşlilərin yaraqlı dəstəsinə başçılıq etmişdir. Müsəlmanların onlarla ilk böyük toqquşması baş vermişdir. O, bu karvanın sağ-salamat Məkkəyə yaxınlaşdığı xəbərini alandan sonra belə geriyə qayıtmamış, yürüşü davam etdirmişdir. Qüreyş yaraqlıları müsəlmanlarla *Bədr* quyuları yaxınlığında qarşılaşmışdırlar. Burada ayrı-ayrı məkkəlilər savaşdan yayınıb geriyə çəkilmək istəmişlər. Əbu Cəhl onları qorxaqlıqda suçlayaraq döyüşün başlanmasına əmr vermişdir. Döyüşdə *bütpərəstlərin* qoşununu müsəlmanlar darmadağın etmiş, Əbu Cəhl isə bu döyüşdə öldürülmüşdür.

**ƏBU DAVUD** (212/827 – 275/889) – ***görkəmli mühəddis və fəqih olmuşdur.*** Onun tam adı İmam Sabit Seyidül-Hüffaz Süleyman ibn Əşəs ibn İshaq Sicistani olmuşdur. Onun İmran adlı əcdadı *Əli ibn Əbu Talibin* tərəfdarlarından biri kimi Süffeyn döyüşündə iştirak etmiş və orada öldürülmüşdür.

Əbu Davud Bəsrədə yaşamışdır. Ancaq İraq, Hicaz, Suriya, *Misir*, Xorasan və Bağdadda *elm* öyrənmək üçün səyahət etmişdir. O, *hədis* elmini 300-ə yaxın *mühəddisdən* öyrənmişdir. Müəllimləri arasında Əbu Salam, *Əhməd ibn Hənbəl* və İbn Əbu Şeybə və digərləri olmuşdur. Erkən yaşlarından Əbu Davud hədis elminin bilicisi kimi özünü göstərə bilmişdir. O, bu hədislərin mətnləri ilə onların ötürülmə yolunu (*isnadını*) da bilirdi. Əbu Davud *İslam* hüququnun müxtəlif sahələri haqqında çoxsaylı əsərlər yazmışdır. Onun topladığı hədislər məcmuəsi olan “Sünən” kitabı ən məşhur hədis mənbələrindən biridir. “Sünən” hədis məcmuəsində o, 500000 hədisdən 4800-ünü seçmişdir. Əbu Davud hüquqi məsələlərdə *istənilən zəif hədisi qiyasdan* daha etibarlı hesab etmişdir. Bundan başqa o, bu hədislər toplusunda problemlərlə bağlı *səhih* hədislərin olmadığı təqdirdə zəif hədisləri də istifadə etmişdir. O eyni zamanda bu hədislərin zəif olması barəsində də xəbər vermişdir. Əbu Davudun topladığı “Sünən” kitabı *Buxarinin* “Cəmiüs-Səhih” hədis məcmuəsinə bənzəməkdədir. Onun bir necə variantı bizim günümüzə qədər gəlib çatmışdır. Bu nüsxələr arasında ayrı-ayrı kiçik fərqlər də vardır.

**ƏBU DƏRDA** (32/653 ildə vəfat etmişdir) – ***hədis və İslam hüququnun ən mahir bilicilərindən biri olmuşdur.*** *Məhəmməd peyğəmbərin* səhabələrindən biridir. Onun əsl adı Üveymir ibn Malik Xəzrəcidir. *Xəzrəc* qəbiləsinə məxsus olan Əbu Dərda Mədinədə doğulmuşdur. İslamı *hicrətin* ikinci ilində qəbul etmişdir. O, ticarətlə məşğul olsa da, *İslama* gəldikdən *dünya* işlərindən uzaqlaşaraq günlərini *Allaha* ibadət etməkdə keçirmişdir. İslam naminə baş vermiş bütün döyüşlərində (*Uhud* döyüşündən başlayaraq) iştirak etmişdir. *Xəlifə Ömər* ona xilafətin idarə sistemində xidmət etmək imkanı vermək istəmişdir. O isə bundan çəkinmiş, insanlara İslamı öyrətməyi daha üstün bilmişdir. İllər keçdikdən sonra o, Suriyanın *qazisi* olmuşdur. Xəlifə *Osmanın* xəlifəlik dövründə vəfat etmişdir.

**ƏBU DÜCANƏ** (13/634 ildə həlak olmuşdur) – ***Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuşdur.*** *Mədinədə* dünyaya göz açan Əbu Dücanə İslamı *hicrətdən* əvvəl qəbul etmişdir. O, *Xəzrəc* qəbiləsindən idi. Hicrətdən sonra döyüşlərdə qəhrəmancasına vuruşmuş, *Uhud* döyüşündə həyatını təhlükə altına qoyaraq *Məhəmməd peyğəmbəri* qoruyarkən ağır yaralanmışdır. Əbu Dücanə xəlifə *Əbu Bəkrin* xəlifəliyi dövründə xilafətə baş qaldıran qəbilələrə qarşı vuruşmuşdur. O, yalançı peyğəmbər *Müseylimənin* və onun tərəfdarlarının darmadağın edilməsində böyük rol oynamışdır. O, bu döyüşdə *şəhid* olmuşdur.

**ƏBU ƏYYUB ƏNSARİ** (52/672 ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuşdur.*** Xəzrəc qəbiləsinə məxsus Əbu Əyyub Ənsari *Mədinədə* doğulmuşdur. O, *Əqəbədə* Məhəmməd peyğəmbərə and içənlərdən biri olmuşdur. Ümumiyyətlə o, İslamı *hicrətdən* əvvəl qəbul etmişdir.

*Məhəmməd* peyğəmbər *Mədinəyə* hicrət edən zaman onu bütün mədinəlilər hörmətli bir şəxs kimi öz evlərində qonaqlamaq istəmişdirlər. Ancaq, *peyğəmbər* dəvəsini buraxaraq kimin evi qarşısında dayanıb yerə yatarsa orada da qonaq kimi qalacağını bildirmişdir. Bundan sonra o, heyvanı buraxır, heyvanda Əbu Əyyub Ənsarinin evinin önündə yatmış, beləliklə Məhəmməd peyğəmbər onun evində 7 ay qonaq qalmalı olmuşdur.

Əbu Əyyub *Bədr, Uhud, Xəndək*, eləcə də başqa döyüşlərdə vuruşmuşdur. Məhəmməd peyğəmbərin vəfatından sonra o, Xilafətin güclənməsi üçün əlindən gələni etmişdir. *Xəlifə* Əlinin xəlifəliyi dövründə Əbu Əyyub onu dəstəkləyərək *xaricilərə* qarşı vuruşmuşdur. *Müaviyənin* dövründə isə *Misirə* getmişdir.

Əbu Əyyub Xilafət ordusunun tərkibində Konstantinopolisə (İstanbula) yollanmış, bu yürüşdə xəstələnib 80 yaşında vəfat etmiş və orada da torpağa tapşırılmışdır.

**ƏBU HƏNİFƏ** (80/699 – 150/767) – ***görkəmli İslam mütəfəkkiri və fəqihi olmuşdur.*** *İslamın* ən yayılmış hüquq *məzhəblərindən* biri olan *hənəfi məzhəbi* onun adı ilə bağlıdır. Tam adı Nüman ibn Sabit Kufidir. *Fiqh* elmini inkişaf etdirərək sistemləşdirən ilk alimlərdən biri olmuşdur. İran əsilli olan Əbu Hənifə 80/699-cu ildə Kufədə doğulmuşdur. Onun ailəsi ipək ticarəti ilə məşğul olurdu. İraq mədəniyyətlərin, dinlərin və baxışların müxtəlif olduğu bir ölkə idi. Bu da Əbu Hənifənin dünyagörüşünün formalaşmasında böyük rol oynamışdır. Eyni zamanda, Kufə o zaman Xilafətin mədəni mərkəzlərindən biri hesab edilirdi. Buna görə o, *Ənəs ibn Malik, Abdullah ibn Əbu Afv,* Səhl ibn Səid kimi səhabələrlə görüşə bilmiş, onlardan rəvayət etdikləri *hədisləri* yaradıcılığında istifadə etmişdir. Onun birbaşa müəllimi isə tanınmış fiqh alimlərindən olmuş Həmmad ibn Əbu Süleyman olmuşdur. O, *elm* əldə etmək məqsədi ilə səfərlərə çıxmış və müxtəlif alimlərdən elm hasil etmişdir.

Əbu Hənifə gənc yaşlarından *Quran* və hədisləri öyrənməyə başlamışdır. Sonra onları sistemləşdirərək elmi kateqoriyalara salmışdır. Bundan başqa, Əbu Hənifə İslam elmlərini *Məhəmməd* peyğəmbərin *əhlibeytindən* öyrənmişdir. Onun *Zeyd ibn Əli* və *Məhəmməd Baqirlə* yaxın dostluq əlaqələri olmuşdur. O, *Cəfər Sadiqlə* də görüşmüşdür.

120-ci ildə müəllimi Həmmad vəfat etdikdən sonra, Əbu Hənifə onun irsini davam edərək İslam elmləri xüsusən də, fiqh üzrə müəllimlik fəaliyyətinə başlamışdır. Dərslərdə tələbələrlə problemləri müzakirə etmiş, polemikalar aparmışdır. Onlar bir fikrə konsensus yolu ilə gəlirdilər. Məhz, müəllimlik fəaliyyəti zamanı o, fiqh elmini inkişaf etmişdir, zamana və şəraitə uyğunlaşdırmışdır.

Əbu Hənifə çox tanınmış *Əbu Yusif*, Məhəmməd Şeybani, Züfər ibn Hüzeyl, Həsən ibn Ziyad, Həmmad ibn Həsən, Abdullah ibn Mübarə kimi *Hənəfi məzhəbinin* alimlərinin müəllimi olmuşdur.

Zamanımıza çatan "Fiqhül-Əkbar" (Böyük Fiqh) kitabının müəllifi Əbu Hənifənin olduğu güman edilir. Bu kitabda müsəlman dünyagörüşünün əsaslarını vermiş, problemlər əqli dəlilləri ilə izah edilmişdir. Bundan başqa, Əbu Hənifəni daha bir neçə kitabın müəllifi hesab edirlər.

Əbu Hənifə *Əməvilər* dövrlərində yaşamışdır. Xəlifə *Hişamın* hakimiyyəti dövründə peyğəmbərin soyundan olmuş

Zeyd ibn Əli ona qarşı üsyana qalxanda Əbu Hənifə onu dəstəkləmiş, maddi yardım göstərmişdir. Buna görə də, Əməvilər tərəfindən təqib olunmuşdur.

*Abbasi* hakimiyyəti dövründə isə onlar *ələviləri (I)* təqib etməyə başladılar. Ələvilərdən olan Məhəmməd ibn Abdullah və onun qardaşı İbrahim *Abbasilərə* qarşı üsyana qalxmışdır. O zaman, Əbu Hənifə onların tərəfini tutmuş və ona görə də Abbasilər tərəfindən 150/767-ci ildə vəfat edənə qədər təqiblərə məruz qalmış və tutularaq zindana atılmışdır. Onun ölümündən sonra tələbələri onun irsini toplamış və sistemləşdirmişlər. Beləliklə, onlar İslamın ilk məzhəblərindən biri olan hənəfi məzhəbinin əsasını qoymuşdurlar.

**ƏBU HÜREYRƏ** (57/676 ildə vəfat etmişdir) – ***sünni məzhəblərində etibarlı hədis ravilərindən biri kimi tanınmışdır.*** Əsl adı Əbdürəhman ibn Sahrdır. *İslamdan* əvvəlki dövrlərdə onu Əbdüş-Şəms (Günəşin köləsi) adlandırmışlar. İslamı Xeybər döyüşü zamanı qəbul etmişdir. İslamı qəbul etdikdən sonra o da *Mədinəyə hicrət* etmişdir. Bundan sonra o, *Məhəmməd* peyğəmbər vəfat edənə qədər ondan ayrılmamışdır. Rəvayətlərə görə, Əbu Hüreyrə özünü Məhəmməd *peyğəmbərin* irsini öyrənməyə həsr etmiş səhabələrdən biri olmuşdur. Onun kimi insanlar *Mədinə* məscidinin Süffədə toplaşıb peyğəmbərin hər bir sözünü və addımını diqqətlə izləyərək mənəvi həyatlarında tətbiq etmişdirlər. Ona görə də onları *əshabüs-süffə* adlandırırdılar. Əbu Hüreyrə ən çox *hədis* rəvayət edən *ravilərdən* biri olmuşdur. Onun rəvayət etdiyi 5000-ə yaxın hədis vardır. Ancaq, onlara tənqidlə yanaşanlar da az deyildir. O, Mədinədə 78 yaşında vəfat etmişdir.

**ƏBU LƏHƏB** (2/624 ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin əmisi olmuşdur***. O, müsəlmanların amansız düşməni idi. O, qüreyşlilərin ən zəngin və hörmətli nümayəndələrindən biri olmuşdur. Əsl adı Əbdül-Üzzə ibn Əbdülmüttəlib ibn Hişam idi. Əbu Ləhəb (od atası, cəhənnəmlik) adını ona müsəlmanlar vermişdir. Bu ad *Quranda* da qeyd edilməkdədir. Əbu Ləhəb, *Məhəmməd* peyğəmbərə qarşı çoxlu ədalətsiz hərəkətlər etmiş, onun həyat yoldaşı Ümm Cəmil bint Hərb isə onun keçdiyi yollara tikanlar səpmişdir.

Məhəmməd *Allahın* ona verdiyi *peyğəmbərliyi* qohumlarına bildirdikdə (Quran 26: 214) Əbu Ləhəb ona qarşı çıxmışdır. Sonra Allah peyğəmbərə *İslamın* məkkəlilər arasında açıq təbliğatına başlaması əmrini verdikdən sonra (Quran,15: 94) Məhəmməd Səfa təpəsinə çıxmış, ilk dəfə olaraq bir olan Allaha ibadətin, Onun cəzasından qorxmağın vacibliyini söyləyəndə Əbu Ləhəb yenə ona etiraz etmişdir. Buna cavab olaraq Məhəmməd peyğəmbərə Quranın 111-ci ayəsi nazil olunmuşdur. Məhəmməd peyğəmbərin *bütpərəstlər* arasında çoxlu sayda düşmənlərinin olduğuna baxmayaraq onlardan yalnız Əbu Ləhəbin adı Quranda çəkilmişdir. Sonrakı illərdə də Əbu Ləhəb müsəlmanlara qarşı düşmənçiliyini davam etdirmişdir. O, bacısı Ətiqənin pis yuxu görməsi səbəbi ilə *Bədr* döyüşünə vuruşmasa da, qüreyşli döyüşçülərə maddi yardım etmişdir. Əbu Ləhəb qüreyşlilərin məğlubiyyətlərindən üzülərək bir-neçə gün sonra ölmüşdür.

**ƏBU MƏNSUR MATURİDİ** (333/994 ildə vəfat etmişdir) – ***görkəmli İslam kəlamçısı olmuşdur.*** Ən çox yayılmış etiqadi *məzhəblərindən* biri olan *maturidiliyin* adı onunla bağlıdır. Səmərqəndin yaxınlığındakı Maturid kəndində doğulmuşdur. Doğum tarixi haqqında heç bir məlumat yoxdur. Ola bilsin ki, *Məhəmməd peyğəmbərin* səhabəsi olmuş *Əbu Əyyub Ənsarinin* soyundandır. O, *hənəfi* məzhəbinin davamçılarından biri olmuşdur. O, tanınmış *kəlam (I)* və hüquq

alimi Əbu Nəsr İyyaddan elmləri öyrənmişdir. Əbu Mənsur Maturidi *İslam* dininin müxtəlif sahələri haqqında bir çox kitablar yazmışdır. Onun ən məşhur əsəri "Kitabüt-Tövhid" əsəridir. Bu kitabda İslam dininin əsaslarını təhlil etmiş, müxtəlif *təriqətlərin* təlimlərini kəskin olaraq tənqid etmişdir. Bundan başqa o, *mütəzililərin və qərmətilərin* baxışlarını tənqid edən əsər də yazmışdır. Onun *Quran təfsir*i, kəlam, hüquqa aid əsərləri də mövcuddur.

**ƏBU MUSA ƏŞƏRİ** (44/666 ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin ən tanınmış səhabələrindən biri olmuşdur***. Yəməndən olan Əbu Musa Əşərinin əsl adı Abdullah olmuşdur. O, *İslamı* ailəsi ilə birlikdə Yəməndə, *Məhəmməd* peyğəmbərlə qarşılaşmazdan əvvəl qəbul etmişdirlər. O, *hicrət* edən müsəlmanlarla görüşmək üçün Həbəşistana getmişdir. Xeybər döyüşündən sonra *Mədinəyə* köçmüşdür. *Məhəmməd* peyğəmbər onu döyüşçülərdən biri kimi dəyərləndirmiş, *qənimətdən* ona da pay ayırmışdır. Sonra Əbu Musa Əşəri *Məkkənin* alınmasında, *Hüneyn* döyüşündə, Təbük yürüşündə də iştirak etmişdir. Sonralar Məhəmməd peyğəmbər onu *Muaz ibn Cəbəl* ilə birlikdə yəmənliləri İslama dəvət etmək üzrə oraya göndərmişdir. Yəməndən qayıtmış Əbu Musa peyğəmbərin *vida həccində* iştirak etmişdir.

Məhəmməd peyğəmbərin vəfatından sonra Əbu Musa Xilafətin möhkəmlənməsində iştirak etmişdir. Xəlifə *Ömər* onu Hədrəməutun (Cənubi Ərəbistan) valisi vəzifəsinə təyin etmişdir. Ancaq sonra o, istefa vermiş və İraq döyüşlərinə qatılmışdır. Ona Nüseybini almaq tapşırılmışdır. Bu tapşırığı o, uğurla yerinə yetirmişdir. Bundan sonra xəlifə Ömər ona Bəsrənin valisi vəzifəsinə təyin etmişdir. Bu vəzifədə olarkən Əbu Musa idarə etmə işlərini yaxşı yerinə yetirmiş, döyüşlərdə uğur əldə edə bilmişdir. O və onun ordusu iranlılara qalib gələ bilmişdirlər. Onların sərkərdəsi tutularaq Mədinəyə xəlifə Ömərin hüzuru gətirilmişdir. Bu uğurdan sonra müsəlmanlar Xuzistanı ala bilmişdirlər. Daha sonra iranlılar Qadisiyyə döyüşündə bu məğlubiyyətin əvəzini çıxmağa cəhd etsələr də, ancaq yenə də məğlub olmuşdurlar.

Xəlifə Ömər Kufə valisi olmuş Əmmarı geri çağırdıqdan sonra, Əbu Musa Əşərini onun yerinə təyin etmişdir. Ancaq, sonra xəlifə onu yenidən Bəsrə valisi vəzifəsinə qaytarmışdır. *Hicrətin* 23-cü ilində müsəlman qoşunları tərəfindən İsfəhan şəhərinin alınmasında Əbu Musanın böyük rolu olmuşdur. Xəlifə Ömərin vəfatından sonra Əbu Musa 6 il Bəsrə valisi olmuşdur. 29-cu ildə xəlifə *Osman* onu geri çağırmış *Abdullah ibn Əmiri* onun yerinə təyin etmişdir.

34-cü ildə Əbu Musa Əşəri yenidən Kufə valisi olmuşdur. Xəlifə Osmanın vəfatından sonra o, yeni xəlifə olmuş *Əlinin* xəlifəliyini tanısa da, Xilafətdəki daxili savaşda aktiv iştirak etməmişdir. Süffeyn döyüşündən sonra qurulan məhkəmədə o, xəlifə Əlinin təmsilçisi olmuşdur. Bu məhkəmədə Əbu Musa hər iki tərəfin (Əli və *Müaviyənin*) yanlış yolda olduğunu, onların vəsifələrindən kənarlaşmasını, yeni xəlifənin seçilməsinin vacibliyini dilə gətirmişdir.

Əvvəlcədən danışıldığı kimi Müaviyənin təmsilçisi olmuş *Əmir ibn As* da bunları deməli idi. Ancaq Əbu Musadan sonra çıxış edən Əmir, Müaviyənin yanlış yolda olduğunu dilə gətirməkdən çəkinmişdir. Bununla da o, öncədən verdiyi sözdən dönmüşdür. Əmirin bu addımından sonra problemlərin sülh yolu ilə həll olunma imkanının ortadan qalxdığı üçün daxili müharibə yenidən başlanmışdır. Məhkəmədən sonra Əbu Musa Əşəri tamamilə siyasətdən uzaqlaşıb Məkkəyə getmiş, orada həyatını davam etdirmişdir. Əbu Musa Əşəri olduqca bilikli bir şəxs olmuşdur. Bəsrə və Kufənin valisi vəzifələrində olarkən o, çoxlu işlər gör-

müşdür. *Elm* və təhsilin inkişafına yardımlar etmiş, cəmiyyət üçün vacib olan müəssisələri inşa etdirmişdir. İslam tarixində Əbu Musa 360-a qədər *hədisin ravisi* kimi də tanınmışdır.

**ƏBU SƏİD XUDRİ** (74/693 ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin ən tanınmış səhabələrindən olmuşdur.*** Təxminən hicrətə 10 il qalmış *Mədinədə* müsəlman ailəsində doğulmuşdur. Əsl adı Səddir. Onun atası Malik ibn Sinan Mədinədə *İslamı* ilk qəbul edənlərdən biri olmuşdur. O, *Xəzrəc* qəbiləsinin Nəccar soyundan idi. Əbu Səid İslam hüququnun yaxşı bilicisi olmuş və eyni zamanda 2000-ə yaxın *hədisin ravisi* də hesab edilməkdədir. O, atasının öldürüldüyü *Uhud* döyüşündə vuruşmuş, sonralar Xeybər, *Hüneyn* döyüşlərində, Təbük yürüşündə, eləcə də, *Məkkənin* alınmasında da iştirak etmişdir. *Məhəmməd peyğəmbərin* vəfatından sonra *Ömər* və *Osmanın* xəlifəliyi dövrlərində *fiqh* üzrə araşdırmalar aparmış, hökmlər vermişdir. Əbu Səid *Əlinin* xəlifəliyi dövründə isə *xaricilərlə* döyüşlərdə iştirak etmişdir.

**ƏBU SÜFYAN** (32/653 ildə vəfat etmişdir) – ***qüreyş qəbiləsinin öndə gedən başçılarından biri olmuşdur.*** O, *Əməvilərdən* idi. Əsl adı Saxr ibn Hərb olmuşdur. O, hicrətə 57 il qalmış (miladi 565-ci ildə) *Məkkədə* zəngin və hörmətli bir ailədə doğulmuşdur. O, Məkkədə oxuyub-yazmağı bacaran az saylı insanlardan biri idi. Əbu Süfyan uzun müddət müsəlmanların düşməni, qüreyşlilərin rəhbəri olmuşdur. O, mühafizəkar bir insan kimi ərəblərin ənənəvi həyat və dünyagörüşlərinin qorunub saxlanılmasını müdafiə edirdi.

Müsəlmanlar Məkkədən *Mədinəyə* hicrət etdikdən sonra onlar güclü icmanın yaradılması işinə başladılar. Bu da qüreyşliləri narahat edirdi. Buna görə də, bir birinə qarşı olan iki qrup arasındakı toqquşma qaçılmaz olmuşdur. Hicrətin 2-ci ilində Əbu Süfyanın başçılıq etdiyi böyük bir karvan Suriyadan Məkkəyə qayıtdıqda müsəlmanlar *Mədinə* yaxınlığında bu karvanın ələ keçirmə *niyyəti* ilə yürüşə çıxmışlar. Ancaq, Əbu Süfyan müsəlmanları qabaqlayaraq yolunu dəyişmiş, problemsiz Məkkəyə gəlib çata bilmişdir. Bu hadisə zamanı qüreyşlilər bütün alış-veriş yollarının Mədinə yaxınlığından keçdiyinə görə şəhərin rifahının təhlükə altında olduğunu bir daha anladılar. Buna görə də, *Əbu Cəhl* və digər qüreyşlilər müsəlmanlara zərbə endirmək qərarına gəldilər. Bu məqsədlə onlar 1000 nəfərlik qoşun yığaraq müsəlmanlara qarşı yürüşə çıxdılar. Müsəlmanlar onlara qarşısına təqribən 300 nəfərlik ordu ilə çıxmışdırlar. *Məhəmməd* peyğəmbərin başçılıq etdiyi müsəlman döyüşçüləri məkkəliləri *Bədr* quyularının yanında qarşılayıb, onlara qalib gələ bildilər. Əbu Cəhl və bəzi digər qüreyşlilər orada həlak olmuşdurlar. Bundan sonra Əbu Süfyan Məkkənin başçısı oldu və müsəlmanlara qarşı yeni hücum tərtib etmək üçün güclü bir ordu yarada bilmişdir. Bu ordu hicrətin 3-cü ilində müsəlmanlara qarşı yürüşə çıxmış *Uhud* döyüşündə onları məğlub etmişdir. Bu döyüşdə müsəlmanlar ağır itkilər vermişdilər. *Məhəmməd* peyğəmbərin əmisi *Həmzə*, eləcə də digər məşhur səhabələr həlak olmuşdurlar. Bu uğurdan sonra Məkkənin müsəlmanlar tərəfindən fəth edilməsinə qədər Əbu Süfyan şəhərə 8 il başçılıq etmişdir. O, qüreyşlilərin ordusuna *Xəndək* və başqa döyüşlərdə özü başçılıq etmişdir.

Ancaq, Əbu Süfyanın bütün cəhdləri sonda uğursuzluqla nəticələnmişdir. Bunun əsas səbəbi Ərəbistanda *İslam* dininin surətlə yayılması olmuşdur. Eyni zamanda, Məhəmməd peyğəmbərin siyasi bacarığı Məkkənin təcrid olunması və məğlub olmasına gətirib çıxartmışdır. Məkkə şəhərinə on minlik müsəlman ordusunun yürüş etməsi qüreyşlilərin Hüdeybiyə sülh anlaşmasını

pozmasından sonra baş vermişdir. O zaman Əbu Süfyan Mədinəyə gələrək Məhəmməd peyğəmbərlə sülh anlaşmasını təzələmək istəmişdir. Bununla da o, şəhərin müsəlmanlar tərəfindən alınmasının qarşısını almaq istəmişdir. Ancaq, heç bir uğur əldə edə bilməmişdir. Bu uğursuzluqdan sonra o, Məkkəyə dönməli olmuşdur.

Müsəlmanlar Məkkəni aldıqdan az əvvəl Əbu Süfyan müsəlmanların düşərgəsinə gəlmiş, orada o, uşaqlıq dostu olduğu Məhəmməd peyğəmbərin əmisi Abbasla onun hüzuruna getmişdir. Orada Əbu Süfyan İslamı qəbul etdiyini bəyan etmişdir. Məhəmməd peyğəmbər müsəlman ordusuna qarşı müqavimət göstərməyən məkkəlilərin *Kəbədə*, öz evlərində və ya Əbu Süfyanın evində olsalar onlara toxunulmazlıq vədini vermişdir. Bundan sonra müsəlman ordusu Məkkəyə daxil olub qan tökmədən şəhəri fəth etmişdirlər. Kəbəyə girmiş Məhəmməd peyğəmbər oradakı bütün bütləri dağıdıb, sonra bütün düşmənlərini bağışladığını bildirmişdir. Peyğəmbərin rəhmli bir insan olduğunun şahidi olmuş məkkəlilər, onu *Allahın* elçisi kimi tanıyıb İslamı qəbul etmişdirlər. İslamı qəbul etdikdən sonra Əbu Süfyan *Hüneyn* döyüşündə və Taifin alınmasında müsəlman ordusuna qatılaraq döyüşmüşdür. Sonra Məhəmməd peyğəmbər onu *Nəcranın* valisi vəzifəsinə təyin etmişdir. Əbu Süfyan *Əbu Bəkr* və *Ömərin* xəlifəliyi dövrlərində də ölkədə yüksək vəzifələrdə fəaliyyət göstərmişdir.

Əbu Süfyan 70 yaşında ikən belə Suriyada Bizans ordusuna qarşı döyüşlərdə iştirak etmişdir. Oğlu Yəzidin başçılıq etdiyi qoşunun tərkibində Yərmuk döyüşündə vuruşmuşdur. Onun ikinci oğlu *Müaviyə* isə Xilafəti 100 ilə yaxın idarə etmiş *Əməvilər* xanədanının ilk *xəlifəsi* olmuşdur. Əbu Süfyan təxminən 88 yaşında vəfat etmişdir.

**ƏBU ÜBEYDƏ** (18/639 ildə vəfat etmişdir) – ***İslam ordusunun görkəmli sərkərdəsi və siyasət adamı, Məhəmməd peyğəmbərin ən yaxın səhabələrindən biri olmuşdur.*** Əsl adı Əmir ibn Abdullah ibn Cərrah olmuşdur. O, *İslamı* hələ *Məkkədə* olarkən qəbul etmişdir. Müsəlmanlar təqib olunan zamanlar o, digər müsəlmanlarla birlikdə *Həbəşistana hicrət* etmişdir. Sonra Əbu Übeydə digər müsəlmanlarla birlikdə Həbəşistandan *Mədinəyə* köçmüşdür. O, İslamın güclənməsi və inkişafı üçün əlindən gələni əsirgəməmişdir. İslam uğrunda gedən bütün müharibələrdə iştirak etmişdir.

Əbu Übeydə o qədər möhkəm inanca sahib olmuşdur ki, *Bədr* döyüşündə *bütpərəstlərin* qoşununda müsəlmanlara qarşı döyüşən atası Abdullah ilə qarşılaşmış və onu öldürmüşdür. İslamın ilk dövrlərində bu qəbildən olan davranışı *Məhəmməd* peyğəmbərin bir çox səhabələri də etmişdirlər. Məsələn, *Əbu Bəkr* oğlu ilə, *Müsab ibn Ümeyr* qardaşı ilə, *Ömər ibn Xəttab* əmisi ilə döyüşmüşdür. Rəvayətlərə görə, *Allah* Məhəmməd *peyğəmbərə* bunu təqdir edən *Quran* (58: 22) ayəsini nazil etmişdir.

Məhəmməd peyğəmbərin həyatının *Mədinə* dövründə Əbu Übeydə onunla birlikdə olmuşdur. Peyğəmbərin vəfatından sonra o, Səid oğullarının yığıncaq yerlərinə getmiş, orada Süffədə keçirilən yığıncaqda *mühacirlərin* təmsilçisi kimi iştirak etmiş, Əbu Bəkrin birinci *Raşidi xəlifə* seçilməsi üçün səy göstərmişdir. Əbu Übeydənin ordunu idarə etmə bacarığı yüksək olmuşdur. Xilafət İran və Bizans imperiyaları ilə müharibəyə başladığı andan o döyüşlərə qatılaraq igidcəsinə vuruşmuşdur. Hicrətin 13-cü ilində baş vermiş Yərmuk döyüşündə xəlifə *Ömər* onu ordu sərkərdəsi təyin etmişdir. Onun bacarıqlı sərkərdəliyi altında müsəlman döyüşçülər Bizans ordusunu darmadağın etmişdirlər. Bu zəfərdən sonra Əbu Übeydə əldə etdiyi uğurları davam etdirmiş, Fəhl və Bəsəni ələ keçirmişdir. Sonra, hicrətin 14-cü ilində Dəməşqi ala bilmişdir. Daha sonra onun rəhbərliyi altında Xoms, Yerusəlim və başqa Suriya şəhərləri fəth edilmişdir. Bu qələbənin sonunda Bizans Suriya üzərindəki hakimiyyətini itirmişdir. Hicrətin 18-ci ilində

Suriyada vəba xəstəliyi yayıldığına görə Əbu Übeydə də bu xəstəlikdən vəfat etmişdir.

**ƏBU YUSİF** (113/731 – 183/798) – ***hənəfi məzhəbinin ardıcıllarından biri, Əbu Hənifənin tələbəsi, görkəmli İslam hüquqçusu olmuşdur.*** Əsl adı Yaqub ibn İbrahim Ənsaridir. Kufədə yoxsul bir ailədə doğulmuşdur. *Əbu Hənifənin* yardımı ilə oxumuşdur. Əbu Yusif öncə *Məhəmməd* peyğəmbərin *hədislərini* və *fiqhi* müxtəlif müəllimlərindən öyrənmiş, sonra 16 il Kufədə Əbu Hənifənin tələbəsi olmuşdur. 150/767-ci ildə müəllimi vəfat etdikdən sonra Bağdada getmişdir. Orada Abbasi *xəlifəsi Mehdi* onu *qazi (II)* vəzifəsinə təyin etmişdir. Sonrakı xəlifələr Hadi və Harun ər-Rəşidin xəlifəliyi dövründə bu vəzifəsini icra etməyə davam etmişdir. Onu "qazilər qazisi" adlandırmışdırlar. 183/798-ci ildə Əbu Yusifin vəfatından sonra, bu vəzifəyə onun oğlu Yusif təyin edilmişdir.

Əbu Yusif, öz iti məntiqi ilə digərlərindən seçilib hüquqi problemləri bacarıqla çözə bilmişdir. O, hüquqi problemlərin çözülməsində daha çox *öz rəyinə* üstünlük verirdi. O, xəlifələrə yaxın olduğuna görə bəzən tənqid də edilmişdir.

Əbu Yusif öz hüquqi metodunda ilk olaraq, *Quran* və *hədislərə* istinad etmişdir. Bunu edərkən o, müəllimi Əbu Hənifənin *qiyas* metodundan da faydalanmışdır. Eyni zamanda o, hər hansı bir ictimai xarakter daşıyan problemi həll etmək istəyəndə, əvvəlcə *İslamın* ilk qaynaqlarına və müəlliminin hökmlərinə istinad edirdi. Əgər bunlarla problemləri həll etmək mümkün deyildirsə o, onları qiyas, *istihsan* və rəy metodları ilə həll etməyə çalışırdı. Bundan başqa Əbu Yusif İslam hüququ üzrə *Hənəfi məzhəbinin* əsas qaynaqlarından hesab edilən bir-çox əsərlərin müəllifidir. Onun yaradıcılığının nəticəsində Hənəfi məzhəbi müsəlman dünyasında ən tanınmış və geniş yayılmış etiqadi məzhəbə çevrilmişdir.

**ƏBU ZƏR ĞƏFFARİ** (31/651 ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin ən tanınmış səhabələrindən biri olmuşdur.*** Əsl adı Cundub ibn Cənəd olmuşdur. O, *Məkkə* yaxınlığındakı Vəddan bölgəsində yaşamış Ğəffar qəbiləsinə məxsus idi. Bu qəbilənin insanları yollarda soyğunçuluq edirdilər. Bu yollardan keçən qüreyşlilərin karavanları onlara vergi vermək məcburiyyətində qalırdılar. Hələ *İslamı* qəbul etməzdən əvvəl Əbu Zər Ğəffari ata-babalarının dinindən imtina etmiş, monoteist İbrahimi hənif dininə üstünlük vermişdir. Məkkədə Məhəmməd *peyğəmbərin* fəaliyyəti haqqında eşidən Əbu Zər birbaşa oraya yollanmış, *Əli ibn Əbu Talibin* vasitəsi ilə *Məhəmməd* peyğəmbərlə görüşmüş və İslamı qəbul etmişdir. Bundan sonra qəbiləsinə qayıdan Əbu Zər qəbiləsini də İslamı qəbul etməyə dəvət etmişdir. Sonda onlardan bir-çoxları İslamı qəbul edib müsəlman olmuşdurlar. Qalanlar isə hicrətdən sonra İslamı qəbul etmişdirlər.

*Mədinədə* Əbu Zər *Bədr, Uhud, Xəndək* və başqa döyüşlərdə iştirak etmişdir. Müsəlmanlar Məkkəni fəth edəndə o, öz qəbiləsinin bayraqdarı olmuşdur. Məhəmməd peyğəmbərin vəfatından sonra Mədinədən Suriyaya köçüb *Əbu Bəkr* və *Ömərin* xəlifəliyi dövrlərində orada yaşamışdır.

Əbu Zər mənəviyyata üstünlük vermiş, tərki-dünya həyatı sürmüşdür. Xəlifə *Osmanın* dövründə Əbu Zər Rəbəzə kəndində yaşamışdır. O, həm də bir çox *hədislərin ravisi* hesab olunmaqdadır.

**ƏCƏL** – ***dünya həyatının bitməsi, qarşısıalınmaz ölüm anının gəlməsidir***. *İslama* görə *Allah tərəfindən* yaradılmış hər bir şey sonludur. Hər bir canlı varlığın həyatı Allahdan asılı olduğu kimi, ölümü də yalnız Onun izni ilə baş verir (*Quran*, 3: 145). Əcəl anlayışı *qəza və qədər* problemi ilə birbaşa əlaqəlidir. Buna görə də bu barədə müxtəlif İslam *məzhəblərinin* fərqli baxışları mövcud-

dur. *Mütəzililər* bilərəkdən *qətl* edilmiş insanın öz əcəli ilə ölməməsi fikrində idilər. Onlara görə insan öldürülməsə də öz əcəli ilə ölsəydi, yenə də bu qədər yaşayardı. Çünki, bu onun təqdiri idi. Belə yanaşmaya qarşı müsəlman çoxluğunu təmsil edən alimlər çıxış edirdilər. Onlara görə insanın qətlə yetirilməsi də, Allahın müəyyən etdiyi əcəl kimi dəyərləndirilməlidir. Ancaq buna baxmayaraq belə olan təqdirdə qatil tutulub cəzalandırılmalıdır.

**ƏCR** – ***Allahın görülmüş hər hansı bir yaxşı və xeyirli işə görə verdiyi qarşılıqdır.*** İslam görə əcr təkcə maddi deyil, həm də mənəvi xarakter daşıyır. Onu *Allah* bu *dünyada* və ölümdən sonrakı həyatda (*axirətdə*) yalnız imanlı qullarına təqdir edəcəkdir. Belə ki, bu insanlar əcrə *dualarının*, yerinə yetirdikləri ibadətlərinin, xeyir əməllərinin və başqa bu kimi işlərin qarşılığında sahib olacaqlar. Əcr haqqında *Quranın* bir-neçə yerində məlumat verilmişdir (26: 179-180, 95: 6, 12:57).

**ƏCRƏDİLƏR** – ***nəcdilərdən ayrılmış xaricilərin bir qoludur.*** Bu *məzhəbin* yaradıcısı Əbdül-Kərim ibn Əcrəd olmuşdur. O, *nəcdilərə* qarşı çıxmış və onların düşüncələrini tənqid etmişdir. Əcrədilərə görə onlar müharibələrdə iştirak etməsələr də, inanclı müsəlmanlar ola bilərlər. Bununla da onlar *əzraqilərdən* fərqlənirdilər. Əcrədilər öz inanclarını qəbul etməyənlərin yaşadıqları yerlərdən köçmələrini vacib hesab etməyib bunu məsləhət görülən bir addım kimi dəyərləndirmişdirlər. Onlar dinc əhalinin öldürülməsini və onların mülkiyyətlərinin alınmasını qadağan etmiş və yalnız onlarla döyüşən insanların öldürülməsini doğru hesab etmişdirlər.

**ƏDL** – ***Allahın ədaləti deməkdir.*** Bu prinsip *mütəzili kəlamı (I)* və *şiə* inancının əsas təməllərindən biridir. Əl-Ədl adı həm də Allahın ən gözəl adlarında biridir. *İslam* hüququnda "adil" doğru və ədalətli insanlar üçün də istifadə edilir.

**ƏDN** – ***cənnətin ən gözəl bağlarından birinin adıdır.*** Burada *peyğəmbərlər, şəhidlər* və digər mömin insanlar sonsuz nemət və zövq içində olacaqlar. Ədn cənnəti haqqında *Quranın* müxtəlif *ayələrində* (9: 72, 98: 7-8) məlumat verilir. *Hədislərdə möminlərin* Ədn cənnətində *Allahı* görəcəklərini bildirən rəvayətlər də vardır. Bəzi Quran *təfsirçiləri (Zəməxşəri, Beydavi)* Ədn cənnətini müəyyən bir yerin adı kimi təfsir etmişdirlər. Onların fikrincə bura bir şəhər, saray və ya hər hansı bir yer də ola bilər. Digər təfsirçilərə görə isə Ədn cənnətin bir hissəsidir. Hətta, bu adla bütün cənnəti adlandıranlar da vardır.

**ƏFQANİ CƏMALƏDDİN** (1255/1839 – 1324/1907) – ***XIX əsrdə yaşamış böyük din islahatçısı və siyasətçisi olmuşdur***. O, *İslam* dünyasında tanınmış və şöhrət qazanmışdır. Cəmaləddin Kunarda (Şərqi Əfqanıstanda) *seyid* ailəsində doğulmuşdur. Kabil və Hindistanda təhsil alan Əfqani Əfqanıstanda hakimiyyət daxili qarşıdurmalarda iştirak etdiyinə görə 1286/1869-cu ildə ölkədən köçməyə məcbur qalmışdır. O, öncə Hindistana, oradan isə Türkiyəyə köçmüşdür. 1288/1871-ci ildən isə *Misirdə* yaşamağa başlamışdır. Burada o, maarifçiliklə məşğul olmuş və tez bir zamanda Misir gəncləri arasında tanınmışdır. O, Misirin dövrü mətbuatının yaradıcılarından biri olmuş, tez-tez qəzetlərdə yazıları dərc olunmuşdur. Əsərlərində o, Qərb ölkələrinin İslam ölkələrinə qarşı apardıqları siyasəti tənqid etmişdir. O, İslam ölkələrində mütləq monarxiyalarının ləğv olunması, konstitusiyalı quruluşun qurulması ideyaları ilə çıxış etmişdir. İsgəndəriyyədə "Gənc misirlilər" cəmiyyətini yaratmışdır. Bir qədər sonra siyasi fəaliyyətinə görə Misir hakimiyyəti onu ölkədən sürgün etmişdir.

1300/1883 – 1303/1886-cı illərdə Əfqani

Parisdə *Məhəmməd Əbduhla* birlikdə, "Möhkəm əlaqələr" (Urvai-Vüsqa) adlı təşkilat yaratmışdırlar. Onlar eyni zamanda eyni adlı qəzeti də nəşr etdirmişlər. Onların məqsədi müsəlman maarifçilərini hərəkətə gətirmək idi. Bu qəzetdə onlar müsəlmanları Avropa müstəmləkəçiliyinə qarşı qalxmağa səsləmişdirlər.

1309/1892-ci ildə *Osmanlı* sultanı onu İstanbula dəvət etmişdir. Orada vəfat edən Əfqaninin cəsədi 1363/1944-cü ildə Əfqanıstana gətirilmiş, orada təkrar torpağa tapşırılmışdır.

Cəmallədin Əfqani müsəlman xalqlarının müstəmləkəçiliyə qarşı ideoloji savaşlarına aktiv qatılmışdır. O, problemlərin həlli yolunu İslamda axtarmışdır. Ancaq, İslam dünyasında hökm sürən geriləmə və böhran səbəbi ilə ideoloji rəhbər rolunu icra edə bilmirdi. Buna görə də o, İslamı müasir dövrlə uyğunlaşdırmaq üçün islahatların aparılmasını vacib hesab etmişdir. Cəmaləddin Əfqaniyə görə ilk olaraq müsəlman cəmiyyətlərində maarifləndirmə işləri aparılmalı; dini elmlərlə yanaşı, dünyəvi elmlər tədris edilməli; müsəlman gəncləri müasir elmi-texniki biliklərə yiyələnməlidirlər. O, elmlərin öyrənilməsinin vacibliyini *Qurana* istinadən sübut etməyə çalışmış və iddia etmişdir ki, İslam dini cəmiyyətin müasir tendensiyaya uyğun inkişafını dəstəkləməkdədir. İslahatlara doğru addımlar atan Cəmallədin Əfqani İslam dinini sonradan müxtəlif dini *təriqətlərin* gətirdikləri *bidətlərdən* təmizlənməsini vacib hesab etmişdir. Bunun üçün o, *Məhəmməd peyğəmbərin* və onun ilk səhabələrinin həyatlarını öyrənib insanları əsl İslama qayıtmağa dəvət etmişdir.

İslamın ziddiyyətlərdən qurtulması üçün o, müsəlmanların müxtəlif *məzhəblərin* və alimlərin hökmlərinə düşüncəsiz *təqlid* edilməsinin yol verilməz olduğunu qeyd etmişdir. O, bu hökmlərin Quranın birbaşa göstərişləri ilə deyil, daha çox İslam hüquqçuların gəldikləri rəyləri ilə olduğunu iddia etmişdir. Əfqani bir-çox ilahiyyatçıların *ictihadın* qadağan edilməsi fikrinə qarşı çıxmışdır. Ancaq, onun bu cəhdləri və fikirləri müsəlmanların arasında tənqidlə qarşılanmışdır. Müxalifləri onu dinin əsas prinsiplərinə zidd mövqe tutuğuna və İslam məzhəblərini nüfuzdan salmaq cəhdlərində ittiham etmişdirlər.

Fransada müsəlman xalqlarının geridə qalmasını İslam dini ilə əlaqələndirən Ernest Renanla mübahisələrdə iştirak edən Əfqani, İslam sivilizasiyasının zəifləməsinin əsas səbəblərini müsəlmanların İslamın əsl mahiyyətindən uzaq düşmələri və bidətlərin dinə gətirilmələri ilə izah edirdi.

Cəmallədin Əfqani öz ideyalarının reallaşması üçün müxtəlif İslam ölkələrinin başçılarına müraciətlər etmişdir. O hesab edirdi ki, müsəlmanların gələcəyi daha çox Osmanlı imperiyasından asılı olacaqdır. Buna görə də o, bütün müsəlmanları onun ətrafında birləşməyə səsləyirdi. Cəmallədin Əfqaniyə görə müsəlman millətləri qarşıya qoyulmuş məqsədlərə həm sülh, həm də müharibə yolları ilə çata bilərlər. O, İslama zidd olmayan bəzi Avropa dəyərlərinin müsəlman cəmiyyətlərində tətbiq etməsini məqbul hesab etmişdir.

Cəmallədin Əfqaninin dünyagörüşü və ideyaları gələcək müsəlman islahatçılığının inkişafında böyük rol oynamışdır. Sonralar bəzi mütəfəkkirlər onun ideyaları üzərində işləmiş, onları praktik cəhətdən tətbiq etmişdirlər. Bu ideyalar dünyanın müxtəlif ölkələrində siyasi-ictimai proseslərə böyük təsir göstərmişdir. Cəmallədin Əfqani ərəb, fars, fransız dillərində yazılmış bir çox konseptual sosial-siyasi, tarixi əsərlərin, kitab və məqalələrin müəllifidir.

**ƏFV** – ***məhkəmədə çıxarılan qərarla müttəhimin tam bağışlanması və ya ona qarşı yüngül cəzanın tətbiq edilməsidir.*** *İslam* hüququnda cinayətin qurbanı olan insan və onun yaxınları, məhkəmə orqanlarında ona qarşı haqsızlıq edən caninin ona və ya yaxınlarına təzminat ödəməsi və ya təzminatsız bağışlanması haqqında vəsatət qaldıra bilər. Əfv ümumiyyətlə ən humanist davranışdır. Əfv edən insan gərək ki, dərin

imana və yüksək əxlaqi keyfiyyətlərə sahib insan olsun. Çünki, əfv edə bilmək bacarığı insanın yüksək keyfiyyətlərindən xəbər verir. *Məhəmməd peyğəmbər* də *Məkkəni* fəth etdikdə bütün məkkəli *müşrikləri* əfv etmişdir. Onun bu humanist davranışı bütün məkkəlilərin müsəlman olmaları ilə nəticələnmişdir.

**ƏHD** – ***insanın bir işi görəcəyini öhdəsinə götürməsi və ya hər hansı bir işin icra ediləcəyi haqqında verdiyi sözdür.*** Eyni zamanda, bu söz *Allahın* insanlarla andlaşmasını ifadə edir. Bu andlaşmaya görə insanlar yalnız tək olan Tanrıya inanmalı, Ona ibadət etməlidirlər. Allah isə bunun qarşısında onlara sonsuz həyat bəxş etmişdir. Allah əhdi həm *Adəm, Nuh, İbrahim* kimi *peyğəmbərlərlə*, həm də *İsrail oğulları* kimi ayrı-ayrı millətlərlə bağlamışdır. Allahın sonuncu əhdi *İslamla* nəticələnmişdir.

Ancaq insan cəmiyyətləri tarix boyu Allaha imandan uzaqlaşaraq, verdikləri əhdi pozmuş, müxtəlif yalançı tanrılara tapınmışlar. Belə olan təqdirdə Allah onlara öz peyğəmbərlərini göndərərək dinin əsaslarını xatırlatmış, *əhdini* yeniləmişdir. Məsələn, *yəhudilər* və xristianların müqəddəs kitabları Əski və Yeni əhdlər adlanır. İslama görə isə Yeni *əhd* (Əhdi-Cədid) Əski əhdin davamıdır. Məsələn, *yəhudilərlə* bağlanmış əski əhd (Əhdi-Ətiq), sonradan *İsa peyğəmbərlə* bağlanan yeni əhdlə (Əhdi-Cədid) dəyişdirilmişdir. İslam dini isə ən yeni əhddir, onun gəlişindən sonra keçmiş əhdlər öz güclərini itirmişdir. İnsanın Allaha and içməsi də bir əhddir. Verilmiş sözü yerinə yetirməmək və ya pozmaq olmaz. Bu barədə *Quranda* (2: 27, 17: 34, 5: 1, 9: 4) *ayələr* də vardır.

**ƏHƏD HƏDİSLƏR** – ***az sayda səhabənin rəvayət etdiyi hədislərdir***. Çünki, bunlar *mütəvatir hədislərin* qarşısında qoyulmuş *şərtlərə* cavab vermir. *Məhəmməd peyğəmbərin* həyatı, düşüncələri və etdiyi işlərdən xəbər verən az saylı *ravilərin* söylədiyi rəvayətlərə "əhəd hədislər" adlanır. *Əhəd* hədislərin üzərində *İslam* inancının qurulması, onları inancla bağlı problemlərlə dəlil kimi gətirilməsi məsələsində ilahiyyatçılar fərqli fikirdə olmuşlar. Onlardan bəzilərinə görə əhəd hədislərin bütün raviləri etibarlı olarsa, onların *silsiləsi* bilinirsə, onda onları inancla bağlı məsələlərdə dəlil kimi istifadə etmək mümkündür.

Digər ilahiyyatçılar isə bu yanaşma ilə razılaşmayaraq hədis ravilərinin və onların ötürülmə silsilələrinin etibarlı olmasına baxmayaraq o rəvayətlərdə anlaşılmazlıqları istisna etmirlər. Buna görə də onlar, bu hədislərin etibarlı olduğunu qəbul etsələr də, ehtiyac olmadığı müddətdə ondan istifadə etmirlər. Çünki, mütəvatir hədis olan yerdə əhəd hədisdən istifadə olunmur. Onların fikrincə inanc etibarlı və mübahisə doğurmayan müddəaların üzərində qurulmalıdır. Etibarlı ravidən rəvayət olunmuş hədisdə isə az da olsa, şübhəli məqamlar vardır. Bu fikirdə olan alimlər bəzi *Quran* (17: 36, 53: 28) *ayələrini* dəlil kimi gətirirlər.

Ancaq hüquqi problemlərin həll olunmasında bütün müsəlman ilahiyyatçıları əhəd hədisləri dəlil kimi gətirilməsini doğru qəbul edirlər. Buna baxmayaraq yenə də bir sıra tanınmış ilahiyyatçıların onlara yanaşmaları fərqli olmuşdur. Məsələn, *Maliki məzhəbində* əhəd hədislər *Mədinə* şəhərinin adətlərinə uyğun olmalı, məzmunları onlara zidd olmamalıdır. Bu baxımdan o, mədinəlilərin adətini əhəd hədisdən daha etibarlı sayırdı. *Əbu Hənifə* də bir çox hallarda onların əsasında hüquqi hökmlər verməkdən çəkinmişdir. Onun hüquq metoduna görə əhəd hədisdər Quran ayələrinə və mütəvatir hədislərə zidd olmamalıdır. O, daha çox qiyas metoduna üstünlük vermişdir. *Şiə* ənənəsində də, əhəd hədislər Quran ayələrinə, *əhli-beytdən* olan *imamlardan* rəvayət olunan rəvayətlərə zidd olmamalıdırlar.

Əhəd hədislərlə bağlı müxtəlif baxışların

olmasına baxmayaraq onlar müsəlman ənənəsində bütün şərtlərə uyğun gələrsə, onda təkcə hüquqi deyil, digər məsələlərdə də istifadə edilə bilinər. Məsələn əhəd hədislər Quran ayələri və mütəvatir hədislərin anlaşılması və *təfsir* edilməsində istifadə oluna bilərlər.

**ƏHLİ-BEYT** – ***Məhəmməd peyğəmbərin qızı Fatimə və Əli İbn Əbu Talibin izdivacından davam edən peyğəmbər ailəsinə verilən addır.*** Bunların konkret olaraq kimlərdən ibarət olması haqqında müsəlman ilahiyyatçıları arasında fikir ayrılığı vardır. Onların bəzilərinə görə *peyğəmbərin* əhli-beyti dedikdə bütün ailəsi nəzərdə tutulur. Onlar bu siyahıya peyğəmbərin əmiləri Əbu Talib, Abbas və *Həmzəni* də daxil edirlər; *İslama* gec gəldiklərinə görə peyğəmbərin digər əmilərini onun əhli-beyti hesab etməmişdirlər. Bundan başqa İslam alimlərinin çoxu *Quran* (33: 32, 33) ayəsinə istinad edərək *Məhəmməd* peyğəmbərin əhli-beytinə onun həyat yoldaşlarını da daxil etmişdirlər.

Müsəlmanların çoxu Məhəmməd peyğəmbərin qızı *Fatimənin Əli ibn Əbu Taliblə* evliliyindən doğulmuş oğullarını və onların bütün sonrakı nəsillərini də əhli-beyt hesab etmişdirlər. Əlinin peyğəmbərin əmisi oğlu olduğu kimi, İslama erkən yaşlarından gəlməsi, daha sonra müsəlman cəmiyyətinin inkişaf etməsində böyük rol oynaması bilinməkdədir. Bəzi rəvayətlərdə Məhəmməd peyğəmbər öz qızı Fatiməni, onun həyat yoldaşı Əlini, eləcə də onların övladları olan *Həsən* və *Hüseyni* öz əhli-beyti adlandırmışdır. Buna görə *şiələr*, Əlinin soyundan olanlardan bəzi şəxsləri *xəlifə* və *imam* kimi qəbul edirlər. Onlar Quranın müxtəlif *ayələri* və *hədisləri* buna dəlil gətirmişlər. Onlar ən başlıca dəlil kimi hədislərin birində Məhəmməd peyğəmbərin Qədir-Xum adlanan yerdə “Mən hər kimin mövlasıyamsa, Əli də onun mövlasıdır” sözlərini göstərirlər.

Ancaq, İslam alimlərinin əksəriyyətinə görə bu hədisdə Əlinin imamlığı birbaşa vurğulanmamışdır. Onlar qeyd edirlər ki, burada deyilən “mövla” sözünün bir çox mənaları vardır. Bu söz ərəb dilində cənab, köməkçi, əmioğlu, sevimli, istəkli, himayəçi, idarəçi, başçı, yardımçı, qohum, qonşu, dost və başqa mənalarda işlənilə bilər. Bəziləri isə bu hədisin zəif və etibarsız olduğunu iddia etmişdirlər.

İslam alimlərinin az bir hissəsi isə Qədir-Xum hadisəsini həqiqət hesab edərək, burada işlənilən “mövla” sözünün yalnız “cənab” mənasında başa düşülməsində israrlıdırlar. Onların fikrincə bu da Əlinin imamlığına dəlalət edir.

İslam tarixində Əməviləri devirmək yolu ilə əhli-beyti xilafətə gətirmək məqsədini güdmüş güclü hərəkatlar olmuşdur. Onlar əsasən Əli ibn Əbu Talib və Abbas soyunun tərəfdaşları olmuşdurlar. *Abbasilər* bu hərəkatlar arasında ən fəalı olmuşdur. Bu səbəblərdən də Abbasilər xilafəti ələ keçirə bilmişdirlər. Bu da sonralar *Ələvilərlə (I)* Abbasilərin arasındakı qarşıdurmaları daha da alovlandırmışdır. Ələvilər Abbasiləri xilafəti zorla ələ keçirmək, ədalətsizlik və çoxsaylı *günahlarda* günahlandırmışdırlar. Abbasilər isə onları hər zaman təqib etmişdirlər.

Bununla belə, Əlinin *imamətini* qəbul edənlər onun çoxsaylı soyunun arasında kimlərin imam (icma öndəri) olması problemində birliyə gələ bilməmişdirlər. Onların hamısı imamın öz varisini aydın göstərişlə təyin etməsini *vacib* hesab edirdilər. İmamların varislərinin çoxu onların oğulları olurdu, ancaq liderlik qardaşdan qardaşa da ötürülə bilərdi (Həsəndən Hüseynə keçdiyi kimi). Bəzi imamların qardaş və oğullarının çox olduğundan, onlardan kimin imam olması məsələsində Əli tərəfdarları arasında şübhələr və *ixtilaflar* ortaya çıxırdı. Bu qarşıdurmalar onların arasında müxtəlif *təriqətlərin* yaranması ilə nəticələnmişdir.

Bir çox durumlarda bu təriqətlərin baxışları bir-birlərindən gözə çarpacaq qədər fərqlənirdi. Peyğəmbərin həyat yoldaşlarının əhli-beytə aid olub-olmamaları məsələsi də ixtilaf məsələsi olmuşdur.

**ƏHLİ-KİTAB** – ***İslamdan əvvəl Allahın kitab və səhifələr nazil etdiyi millət və ya qövmlər belə adlanır*** (Quran, 3:64). Quranda *yəhudilər*, *xristianlar* və *sabiilər* əhli-kitab olaraq adlandırılmışdırlar. Bəzi *İslam* alimləri zərdüştiləri də Əhli-Kitaba aid edirlər.

*İslam* tarixində əhli-kitab İslam dövləti ərazisində öz dinlərində qala bilər, müsəlmanlar isə onları *cizyə* vergisi qarşılığında qorumalı idilər. Müsəlmanlar onların həyatlarına, mallarına, ləyaqətlərinə qəsd edə bilməzdirlər. İndi isə heç bir İslam dövlətində əhli-kitab ayrı-seçkiliyi və cizyə vergisi yoxdur.

Həmçinin müsəlmanlarla əhli-kitab arasında qohumluq bağları da qurula bilər. Müsəlman kişiləri kitab əhlindən olan qadınlarla evlənə bilsələr də, müsəlman qadınları onlara ərə gedə bilməzlər. Əhli-kitabdan olan birinin dinlərinin yol verdiyi qaydalar uyğun bişirilmiş yeməklərini də yemək olar. Bununla belə, müsəlmanlara donuz əti, spirtli içki kimi *Quranda* qadağan olunmuş yeməkləri yemək və ya içkiləri içmək qadağan olunmuşdur (Quran, 5: 5). Əhli-kitab Quran və *hədislərdə Allahın* göndərdiyi sonuncu *peyğəmbər* olan Məhəmmədi tanımadıqlarına, doğru yoldan çəkildiklərinə, Quranı inkar etdiklərinə, və başqa bu kimi *günahlarına* görə İslam mənbələrində bir mənalı dəyərləndirilmirlər.

**ƏHLİ-SÜNNƏ VƏL-CƏMAƏ** – bax: **SÜNNİLƏR.**

**ƏHMƏD FƏRUQİ** (971/1563 – 1024/1615) – ***islahatçı alim olmuşdur***. Bəzi sufi *təriqətlərində* ikinci minilliyin *müçəddidi* adlandırılmışdır. Onu imam Rəbbani də adlandırırlar. Əsl adı Əbu Bərakət Əhməd ibn Əbdül-Əhəd Zeynül-İbn Abidindir. O, Hindistanın Sirhind şəhərində doğulmuş, soyu ikinci xəlifə *Ömər ibn Xəttaba* dayandığından o Fəruqi adını daşıyırdı. Əhməd Fəruqinin ilk müəllimi onun atası olmuşdur. O, ərəb dilini yaxşı öyrənmiş, *Quran hafizi* olmuşdur. Siyalqut şəhərində qaldığı dövrlərdə tanınmış alimlərdən *hədis* və *fiqh* elmini öyrənmişdir.

*Nəqşibəndiliyin* mənəvi doktrinasını Dehlidə tanınmış şeyx Məhəmməd Baqi Billahdan öyrənmişdir. Əhmədin yüksək əxlaqını və biliyini qiymətləndirən şeyx Məhəmməd ona doğma şəhəri olan Sirhinddə müəllimlik etməyə icazə vermişdir. Müəllimlik fəaliyyəti ilə məşğul olan Əhməd Fəruqi *təfsir*, hədis və fiqhə böyük əhəmiyyət vermişdir. Sonra o, Lahora köçmüş və orada müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur.

Əhməd Fəruqi ənənəvi dinlə *sufilik* arasındakı qarşıdurmanı aradan qaldırmaq istəmiş, bu istiqamətdə bəzi sufilərin dinə gətirdiyi *bidətlərdən* dini ehkamları qorumağa çalışmışdır. O, sufilikdə yayılmış *vəhdətül-vücud* təliminin bəzi məqamlarını tənqid edərək, *vəhdətüş-şühud* konsepsiyasını irəli sürmüşdür.

Qeyd edildiyi kimi Əhməd Fəruqi dinə gətirilmiş müxtəlif bidətləri pisləyərək *İslamın* ilkin təmizliyinə qayıdışın vacibliyini vurğulamış, müxtəlif təriqətlərə və dini cərəyanlara qarşı çıxış etmişdir. Buna görə də, müxtəlif dini təriqətlərin təmsilçiləri ona qarşı çıxmışdırlar. Əhməd Fəruqi "Risalatüt-tahliliyə" (Şanlı mesaj), "İsbatül-nübüvvə" (*peyğəmbərliyin* isbatlanması) və başqa kitabların müəllifi olmuşdur. Ən məşhur kitabı isə məktublar toplusu olan "Məktubatdır".

**ƏHMƏD İBN HƏNBƏL** – ***görkəmli ictimai xadimi, mühəddis və fəqih olmuşdur.*** *İslamın* dörd *sünni* etiqadi *məzhəblərindən*

biri olan *Hənbəli məzhəbi* onun adı ilə bağlıdır. Əhməd ibn Hənbəl Bağdadda doğulmuşdur. Onun soyu Şeyban qəbiləsindən olmuşdur. Onun ata-babaları Ərəbistandan Xorasana köçmüş və orada yaşamışdırlar. Sonra isə Əhməd ibn Hənbəlin doğulmasından öz öncə onun ailəsi Bağdada köçmüş, orada atası Məhəmməd 30 yaşında vəfat etmişdir. Atasını itirdikdən sonra Əhməd anası ilə birlikdə əmisinin himayəsində yaşamışdır. Onun elmə marağı anasının təsiri ilə oyanmışdır. Ancaq, bununla yanaşı Xilafətin paytaxtı olan Bağdadın ictimai həyatı da gənc Əhməd ibn Hənbəlin dünyagörüşünə böyük təsir göstərmişdir.

Əhməd ibn Hənbəl erkən yaşlarından *Quranı, hədisləri* səhabələrin və onların davamçılarının həyatlarını öyrənmiş, ərəb dilinin incəliklərinə qədər yiyələnmişdir. Onu daha da çox hədis və *fiqh* elmi maraqlandırmışdır. Hədisləri xırdalıqlarına qədər öyrənərkən onlardan hüquqi hökmlər çıxarılmasını v*acib* saymışdır. Bu elmlər üzrə onun müəllimi görkəmli *fəqih*, hənəfi məzhəbinin nümayəndəsi *Əbu Yusif* olmuşdur.

Qırx yaşından sonra Əhməd ibn Hənbəl hədis rəvayətçisi olmuş, fiqhi hökmlər verməyə başlamışdır. Eyni zamanda, bu elmləri tədris edərək böyük nailiyyətlər qazanmışdır.

Əhməd ibn Hənbəl *mütəzililiyi* rəsmi ölkə ideologiyasına çevirmiş, Abbasi xəlifəsi Məmunun hakimiyyəti dövründə yaşamışdır. O zaman *Mütəzili kəlamçıları* ilə ənənəvi İslam alimləri arasında Quranın məxluq olub-olmamağı məsələsi üzrə qızğın mübahisələr gedirdi. Belə ki, mütəzililər Quranın yaradılmış olduğunu iddia edirdilər, ənənəçilər isə buna qarşı çıxırdılar. Xəlifələr ilk öncə mütəzililəri dəstəkləmişlər. O dövrdə Əhməd ibn Hənbəl onların ehkamlarını qəbul etmədiyinə görə təqiblərə məruz qalmışdır. Ancaq, daha sonralar xəlifələr mütəzilikdən imtina etdilər. Mütəziliiliyə qarşı mübarizə apardığına görə Əhməd ibn Hənbəlin əsasən ənənəvi dinə üstünlük verən xalqın və hakim dairələrin arasında nüfuzu artmışdır.

Əhməd ibn Hənbəlin günümüzə qədər gəlib çatmış ən tanınan əsəri hədislər toplusu olan "Müsnəddir". Burada o, otuz minə yaxın *səhih* hesab etdiyi hədisi bir araya yığmışdır. O hədisləri seçərkən onların *ravilərinin* kim olduğuna böyük əhəmiyyət vermişdir. Onun başlıca *şərti* bu ravi *silsiləsinin peyğəmbərə* qədər gedib çıxması olmuşdur. Bu şərtə cavab verməyən və ən etibarlı ravilərdən rəvayət olunmuş hədisləri belə, Əhməd ibn Hənbəl zəif hədis hesab etmişdir. Ancaq, buna baxmayaraq bir çox hədis alimlərinə görə onun "Müsnəd" əsərində zəif hədislər də vardır.

**ƏHMƏDİLƏR** – bax: **QADİYANİLİK.**

**ƏQƏBƏ** – ***Məkkə və Mina arasında yerləşən təpənin adıdır.*** Burada İslamın yayılması üçün böyük əhəmiyyət kəsb edən hadisə baş vermişdir. *Məhəmmədin* peyğəmbərliyinin 12-ci ilində *həcc* zamanı *Mədinədən* gələn 10 xəzrəcli, 2 evsli onunla görüşərək ona sadiqlik andını içib, onun *peyğəmbərliyini* tanımışdırlar. Onlar bir olan *Allaha* inanacaqlarına, oğurluq, əxlaqsızlıq, yalandan *şahidlik* etməkdən çəkinəcəklərinə, qız uşaqlarını öldürməyəcəklərinə söz vermişdirlər. Bu hadisə "Birinci Əqəbə andı" kimi tanınmışdır. Bir il sonra isə Məhəmmədin peyğəmbərliyinin 13-cü ilində aralarında 75 müsəlmanın olduğu 500 mədinəli *ziyarətə* gəlmişdir. Onlar gizli olaraq Məhəmməd peyğəmbərlə görüşüb, onu və ona inanan müsəlmanları yaxınları kimi qoruyacaqlarına söz vermişdilər. Bu hadisə isə "İkinci Əqəbə andı" adını almışdır. Bundan sonra müsəlmanların Məkkədən Mədinəyə hicrəti başlanmışdır.

**ƏQİQƏ** – ***uşaq dünyaya gəldikdən sonra Allaha minnətdarlıq rəmzi olaraq kəsilən qurbandır.*** İslamdan öncəsi Ərəbistanda bütlərə tapınan ərəblər yalnız oğlan övladı doğulduqda heyvan qurban kəsirdilər. *Məhəmməd* peyğəmbər bu *adəti* dəyişdirmişdir. Rəvayətlərə görə imkan və istək olarsa, oğlan övladı doğulduqda iki, qız övladı doğulanda isə bir qoyun kəsmək məsləhət görülmüşdür. Yenə rəvayətlərdə Məhəmməd *peyğəmbər* nəvələri *Həsən* və *Hüseynin* doğulmasından yeddi gün sonra qurban kəsdiyi bilinməkdədir.

Qurbanı uşağın doğulmasından yetkinlik yaşına qədər kəsmək olar. Ancaq *hədislərə* görə bu işi onun doğulmasından sonra yeddinci gün yerinə yetirmək daha yaxşıdır. Qurbanlıq heyvanın gözə çarpacaq qədər əskiklikləri olmamalıdır. Qurbanlıq ətindən hamı, eləcə də yenicə doğulmuş körpənin ailə üzvləri də yeyə bilərlər. Bununla belə, bu ətin bir hissəsi yoxsullara verilməlidir. Ümumiyyətlə, əqiqə qurbanı dində *savab*, ancaq *vacib* deyildir.

**ƏL-ƏQSA** – bax: **MƏSCİDÜL-ƏQSA**.

**ƏLƏVİLƏR (I)** – ***Əli ibn Əbu Talib nəslinin nümayəndələridirlər.*** Onların ən tanınmışları onun oğulları – *Həsən, Hüseyn* və Məhəmməd ibn Hənəfiyyə olmuşdur. Həsənin soyundan olanları *şəriflər*, Hüseynin soyundan olanları isə *seyidlər* adlandırırlar. Əli soyunun tərəfdarları olan *şiələ*r onların adından çıxış edərək əsrlər boyu Xilafət hakimiyyətinə və başqa müsəlman hökmdarlara qarşı mövqe tutmuşdurlar. Onlar Əli soyunun hakimiyyətə gəlməsini və ədalətin qurulmasını tələb etmişdirlər.

Xüsusən də onlar Əli soyundan olan "gizli" imamın gəlişini, onun şiələrə öndərlik edəcəyini gözləyirdilər. Ancaq onlar "gizli" imamın kim olacağı məsələsində birliyə gələ bilməmişdirlər. Bu da onların parçalanmasına gətirib çıxarmışdır. Mübarizələrinin nəticəsində müxtəlif şiə qruplarının davamçıları *İslam* dünyasının müxtəlif yerlərində hakimiyyəti ələ ala bilmişdirlər. Onlar Yəmən, Şimali Afrika və İranda müxtəlif dövlətlər qura bilmişdirlər.

**ƏLƏVİLƏR (II)** – ***ismaililik və Xristian qnostik təlimlərinə yaxın təriqətin ardıcıllarıdırlar.*** Onları *nüseyrilər, qızılbaşlar, əli-ilahilər* də adlandırırlar. Ələvilər daha çox Suriyada yaşayırlar. Müsəlman alimlərinin çoxu onları *İslamdan* çıxmış *təriqət* hesab edirlər. Ələvilik hicrətin III əsrində yaranmışdır. Sonra isə bu təriqəti Məhəmməd Cənnan Cünbulani inkişaf etdirmişdir. Ələvilərə görə *əhli-beyt* əzəli olan sonsuz biliyə sahibdir. *Əli ibn Əbu Talib* isə ölməmişdir, *Allahın* yer üzərindəki təcəllisidir. Onlara görə dinin gizli (*batin*) və açıq (*zahir*) tərəfləri vardır. Bununla bərabər onlar inanırlar ki, tanrı nurundan *ilhamlanmış* imamlar gizli biliklərə sahibdirlər.

Ələviliyin bir çox tərəfi ilə antik fəlsəfi cərəyanlardan biri olan Yeni platonçuluğun oxşarlıqları vardır. Xüsusən də, bu bənzərlik emanasiyada (tanrının nurla kainata enməsidir) özünü əks etdirir. Emanasiya ələvilikdə Anlam, Adlar və Qapılar üçlüyü kimi düşünülür. Tanrının nuru öncə göy fələklərinə, sonra yerə enir, sonda isə *peyğəmbərlərdə* özünü göstərir. Ələvilər ruhun bir bədəndən başqasına köçməsinə inanırlar. Bu təlimin davamçıları alimlərə və rəiyyətə bölünürlər. Onlar başqa müsəlmanların inandıqları bir çox inancları inkar edirlər.

**ƏLİ İBN ƏBU TALİB** (40/661 ildə həlak olmuşdur) – ***görkəmli siyasi xadim, Məhəmməd peyğəmbərin əmisi oğlu və kürəkəni, onun ən yaxın səhabələrindən biri, şiələrin birinci imamı və İslamın dördüncü Raşidi xəlifə si olmuşdur.*** Onu Əbu Həsən, Əbu Turab, Heydər də adlandırmışdırlar. Atası Əbu Talib, anası isə *Fatimə* bint Əsəd idi. *Məhəmməd* peyğəmbər onu Mürtəza (seçilmiş) və Mövla adlandırmışdır. Xəlifəlik dövründə Əli "Əmirül-Möminin"

adını qazanmışdır. Əli erkən yaşlarından Məhəmməd *peyğəmbərin* yanında böyümüşdür. O, *İslamı* ilk qəbul etmiş az yaşlı müsəlman olmuşdur. 10 yaşında müsəlman olduqdan sonra bütün həyatını İslam ideallarına qurban vermişdir. Əli heç bir zaman Məhəmməd peyğəmbərdən ayrılmamışdır. Mədinəyə hicrətdən öncə məkkəlilər peyğəmbəri öldürmək istəmişlər. *Müşriklər* peyğəmbərin evinə daxil olduqda Məhəmməd peyğəmbərin yerində onu uzanmış olduğunu görürlər və bununla da Əli həyatını təhlükəyə ataraq onların planlarını pozmuş olur. O zaman peyğəmbər artıq *Mədinəyə* doğru yola çıxmışdır. Məkkəlilər isə Əlini öldürməmiş, onu sərbəst buraxmışdırlar. Bundan sonra o da *Mədinəyə hicrət* etmiş, peyğəmbərin bütün işlərində ona yardımçı olmuşdur.

Əli ilk döyüş sınağını hicrətin 2-ci ilində *Bədr* döyüşündə keçmişdir. Döyüşün başlanğıcında o, *Məkkə* müşriklərinin liderlərindən biri olmuş Valid ibn Muğirə ilə döyüşüb onu öldürmüşdür. Bu döyüşdə müsəlmanların üstünlük qazanmaqlarında Əlinin böyük rolu olmuşdur. İgidliyinə görə onu "Allahın aslanı" (Heydər) adlandırmışdırlar. Peyğəmbər ona "Zülfiqar" adlı iki başlı bir qılınc da bağışlamışdır. Bundan başqa o, Bədrdə göstərdiyi şücaətinə görə *qənimət* kimi dəbilqə və bir dəvə almışdır. Əli Bədr döyüşündən sonra Məhəmməd peyğəmbərin qızı Fatimə ilə evlənmiş, bu evlilikdən onun iki oğlu: Həsən və Hüseyn, eləcə də iki qızı: *Zeynəb* və Ümm Gülsüm doğulmuşdur.

Hicrətin 3-cü ilində baş verən *Uhud* döyüşündə müsəlmanlar məğlub olduqda Əli Məhəmməd peyğəmbəri qarşıda olan düşmənlərdən qoruyarkən yaralansa da, sağ qalmışdır. Daha sonra, hicrətin 6-cı ilində Xeybər döyüşündə *yəhudilərə* qarşı ağır döyüşlərdə igidliyi ilə seçilmişdir. Eyni zamanda, onun sərkərdəlik bacarığına görə müsəlmanlar üstünlük qazanaraq Xeybəri ələ keçirmişdirlər. Hicrətin 8-ci ilində Əli Məkkəni fəth edən İslam ordusunun bayraqdarı olmuşdur. Müsəlmanlar şəhərə girəndən sonra Məhəmməd peyğəmbər onunla birlikdə *Kəbədəki* bütləri dağıtmışdır.

Hicrətin 8-ci ilində Məkkə fəth edildikdən sonra Həvazin və Səqif qəbilələri müsəlmanlara qarşı savaşa qalxmışdırlar. Həlledici döyüşdə müsəlmanlar böyük çətinliklə üstünlük qazana bilmişdirlər. Bu döyüşdə də Əlinin igidliyi müsəlmanların üstünlük qazanmasında böyük rol oynamışdır.

Əli təkcə döyüşkənliyi ilə deyil, müdrikliyi və elmi ilə də digərlərindən seçilmişdir. O, öz səylərini peyğəmbərin vəfatından sonra da davam edərək Xilafətin möhkəmlənməsi və müsəlman icmasının inkişafı üçün böyük işlər görmüşdür. İkinci Raşidi xəlifə *Ömərin* hakimiyyəti dövründə Əli onun ən yaxın və etibarlı yardımçısı olmuşdur. Ömər müxtəlif problemlər haqqında onunla bölüşmüş, bir yerə gedəndə Mədinədə ölkə başçılığını ona tapşırmışdır.

Ölümündən öncə Ömər yeni xəlifənin seçilməsi üçün altı nəfərlik heyətin yaradılmasını əmr etmişdir. Onlar müzakirələr aparıb aralarından bir nəfəri xəlifə seçməli idilər. Əli də bu heyətdə olmuşdur. Ancaq, müzakirələrin nəticəsində *Osman* xəlifə seçilmişdir. Üçüncü Raşidi xəlifə *Osmanın* dövründə Əli baş *qazi (II)* vəzifəsində işləmiş, xəlifənin ən yaxın və inandığı adam olmuşdur. Ancaq, Osmanın xəlifəliyinin sonunda Xilafətdə qarşıdurma baş vermişdir. Üsyançılar Mədinəyə girərək xəlifə Osmanın evini mühasirəyə almışdırlar. Bu hadisələr zamanı Əli onlarla çətin danışıqlar apararaq təhlükəni azaltmağa çalışmışdır. Eyni zamanda o, öz oğulları *Həsən* və *Hüseyni* xəlifəni qorumaq üçün onun yanına göndərmişdir. Üsyançılar Osmanı qətl etdikdən sonra Xilafətdə durum ağırlaşmış, faktiki

olaraq hakimiyyətdə boşluq yaranmışdır. Belə bir ağır vəziyyətdə Əliyə xəlifə olmaq təklifi gəlmişdir. O, bir neçə dəfə bu təklifi qəbul etməsə də, sonra onu qəbul etməyə məcbur olmuşdur və 35/656-cı ildə dördüncü Raşidi xəlifə seçilmişdir.

Əli Xilafətin ən ağır və çətin dövrlərində hakimiyyətə gəlmişdir. Xilafətdə iç savaş başlamışdır. Osmanın ölümündən üzülmüş xalq, eləcə də Məhəmməd peyğəmbərin səhabələri, Əlidən onu öldürənlərin tezliklə cəzalandırılmasını tələb etmişdirlər. Ancaq, üsyançıların da gücləri heç də az deyildir. Buna görə də, onlara qarşı tələsik ölçü götürmək olmurdu. Beləliklə, xəlifə Əli çox çətin durumla üzləşmişdir. O, problemi tələsmədən, yavaş-yavaş çözmək istəmişdir. Buna görə o, ilk öncə bölgələrdəki valilərin etimadını qazanmağa çalışırdı.

36-cı ildə Bəsrədə baş vermiş hadisə Əlinin apardığı siyasəti pozmuşdur. Burada Osmanın ölümünə görə onun *qisasının* alınmasını tələb edən müxtəlif qruplar ortaya çıxmağa başlamışdır. Məkkədən buraya karvanla gələn Məhəmməd peyğəmbərin həyat yoldaşı *Aişə*, görkəmli səhabələr *Təlhə* və *Zübeyr* də onların arasında olmuşdurlar.

Qarışıqlığa yol verməmək məqsədini güdən Əli qoşunu ilə Bəsrəyə yürüş etdi. Ancaq, onun qan tökmək *niyyəti* olmamışdır. Buna görə də o, Aişə, Təlhə və Zübeyr, eləcə də digər nüfuzlu adamlarla danışıqlar aparmağa başlamışdır. Problemin dinc yolla həll edilməsinə şərait yaranmışdır. Ancaq, Osmanın qatilləri barışı istəmirdilər, çünki sülh əldə etmiş tərəflər onları mühakimə edəcəkdilər. Buna görə də, onlar təxribat törətmiş və tərəflər arasında döyüş qızışmışdır. "Cəməl" (Dəvə) adlandırılan bu döyüşdə Əlinin qoşunu üstünlük əldə etmişdir. Ancaq, bundan sonra Xilafətdə durum daha da pisləşdir.

Bundan başqa, Əlinin xəlifəliyinə qarşı *Misir* və İraqda da müxtəlif qüvvələr çıxış edirdilər. Ancaq, onun ən güclü rəqibi *Əməvilərdən* olan Suriya başçısı Müaviyə ibn Əbu Süfyan olmuşdur. O, Əlini xəlifə kimi tanımırdı. Ona görə də, Əli Suriyaya doğru qoşunu ilə irəliləyirdi. 37-ci ildə Süffeyn adlı yerdə tərəflər arasında həlledici döyüş baş verdi. Döyüşdə Müaviyənin qoşunları çətin durumda qaldılar. Buna görə də, onlar nizələrinin uclarına *Quran* səhifələrini keçirərək Əlini problemləri məhkəmədə ədalətlə həll etməyə çağırdılar. Əli bu təklifi qəbul etmək istəmirdi. Buna baxmayaraq onun ordusundan bir qrup bunu ondan tələb etmişdir. Buna görə də Əli, bu təkliflə razılaşmalı olmuşdur. Ancaq, bu məhkəmə nəticəsiz bitdi. Hələ üstəlik burada bu anlaşmadan razı qalmayan, sonradan *xaricilər* təriqəti kimi tanınan bir qrup Əlinin qoşunundan ayrılıb həm ona, həm də Müaviyəyə qarşı vuruşmağa başladılar. 38-ci ildə Əli xaricilərlə vuruşaraq onları Nəhrəvan yaxınlığında məğlub etdi. Ancaq, bu üsyançı *təriqətin* ideyaları bir qədər sonra Xilafətdə surətlə yayılmağa başladı. Onlar iqtisadi və siyasi həyatın bütün sahələrinə təsir göstərmişdirlər. Onlar xəlifə Əlinin qoşununa da nüfuz etmişdirlər. Xaricilər partizan savaşı taktikasını seçərək terrorçu və təxribatçı fəaliyyətə başladılar. Bu təriqət sonralar hakimiyyətdə olacaq xəlifələr üçün də böyük problemlər yaratmışdı.

Sonra, Əlinin tərəfdarları arasında olan parçalanmadan yararlana bilmiş Müaviyənin ordusu hücuma keçmişdir. 38-ci ildə onun komandanı *Əmir ibn As* Misiri ələ keçirdi. 39-cu ildə suriyalılar İraqa basqın etdilər. 40-cı ildə isə Müaviyənin ordusu Hicaz və Yəmənə girdi. Ancaq orada, xəlifə Əlinin qoşunu suriyalıların hücumunun qarşısını ala bilmişdilər.

Döyüşlərin qızğın vaxtında xəlifə Əlinin qətlə yetirildiyi xəbəri yayıldı. Nəhrəvandakı məğlubiyyətə görə qisas almaq üçün xaricilər ona qarşı qəsd hazırladılar. Bu qəsdi İbn

Mülcəm adlı bir nəfər icra edərək Əliyə ağır yaralar yetirmişdir. Bir neçə gün sonra Əli ibn Əbu Talib dünyasını dəyişmişdir.

Bundan sonra xəlifə Əlinin tərəfdarları onun oğlu Həsəni xəlifə kimi tanıdılar. Ancaq, *Həsən ibn Əli* xəlifə olmaq üçün kifayət qədər gücünün olmadığını anlayırdı. Buna görə də o, hakimiyyəti Müaviyəyə təslim etmək məcburiyyətində qalmışdır. Sonda Müaviyə 41-ci ildə Kufəyə girdi. Həsən isə bütün vəzifələrini Müaviyəyə təslim edərək qardaşı Hüseynlə Mədinəyə yollandı.

Bu hadisədən sonra Raşidi xəlifələrin hakimiyyəti dövrü sona çatdı və bir çox tarixçilərin fikrinə görə xilafət mahiyyətini dəyişərək krallığa çevrildi. Xəlifə olan Müaviyə 100 ilə yaxın hakimiyyətdə olmuş Əməvilər sülaləsinin əsasını qoydu.

Əli ibn Əbu Talib Quranın, onun *təfsirinin, hədislərin, fiqhin* ən böyük bilicilərindən biri olmuşdur. Bütün bu elmləri o, Məhəmməd peyğəmbərin birbaşa özündən öyrənmişdir. Əli bütün Quranı əzbərdən bilib, peyğəmbərin katibi olmuşdur. Xəlifə olanda belə o, elmlər üzrə çalışmalarını davam etdirmişdir. O həmçinin, Mədinədə bir məktəb də yaratmışdır. Bu məktəbdə ərəb dili, Quran elmləri və dünyəvi elmlər öyrədilirdi. Xəlifə olanda isə Əli fiqhi hökmlər verirdi.

Tarixi məlumatlara görə Əlinin bir-çox üstünlükləri olmuşdur. O, igid, qorxmaz, həyatı boyu bütün çətinliklərə sinə gəlmiş bir insan idi. Heç vaxt ruhdan düşməmiş, ümidini itirməmişdir. O, hər zaman yalnız irəliyə addımlayaraq məqsədinə çatmışdır. Məhəmməd peyğəmbərin və üç Raşidi xəlifələrin sağlığında, eləcə də xəlifəliyində siyasi vəziyyətin gərginliliyinə baxmayaraq ölümünə qədər mübarizəsini davam etdirmişdir.

Şiəlikdə Əliyə, eləcə də onun soyundan olanlara böyük ehtiram bəslənilir. O, bütün *şiələrin* birinci imamıdır. Şiəliyə görə Əli gizli (*batini*) biliklərin bilicisi olmuşdur. Ondan sonra *imamət* onun varislərinə keçmişdir. Bəzi aşırı təriqətlər isə Əlini hətta tanrılaşdırılmışdırlar. Sufilikdə də Əliyə böyük sayğı və hörmət göstərilir. Sufi təriqətlərinin əksəriyyətinin mənəvi *silsiləsi* məhz Əliyə qədər uzanmaqdadır.

**ƏLİ İBN MƏHƏMMƏD** (212/827 – 254/8680) – ***Əli ibn Əbu Talibin soyundan tanınmış din alimi olmuşdur.*** O, Məhəmməd ibn Əlinin oğludur. Eləcə də o, Nağı və Hadi adlarını da daşıyırdı. Əli ibn Məhəmməd *Mədinədə* yaşamışdır. O, *Quran, hədis* və *fiqh* elmlərinin bilicisi kimi tanınırdı. *Xəlifə* Mütəvəkkil (232/847 – 247/861) onu Samirə şəhərinə dəvət etmişdir. O, bir müddət Samirədə yaşadıqdan sonra 254-cü ildə elə orada da vəfat etmişdir. Onun ölümündə xəlifənin əlinin olmasını iddia edənlər də olmuşdur. Əli ibn Məhəmməd *isna-əşəri* şiələrin onuncu günahsız imamı kimi tanınır.

**ƏLİ İBN MUSA** (148/765 – 203/818) – ***Əhli-beytdən Musa ibn Cəfərin (Kazımın) oğlu olmuşdur.*** Onu Rıza da adlandırırlar. Əli ibn Musa *Quran, hədis* və *fiqh* elminin bilicisi olmuşdur. O, həm də gözəl natiq kimi tanınmışdır.

Əli ibn Musa *Mədinədə* yaşamışdır. *Xəlifə* Məmun (198/813 – 218/833) Əlinin soyu ilə yaxınlıq etmək istəmişdir. Ona görə də o, Əli ibn Musanı (Rızanı) Mədinədən özünün Mərvdəki iqamətgahına dəvət etmişdir. Xəlifə onu öz varisi elan etmişdir. Məmunun qızı Əli ibn Musanın, ikinci qızı isə onun oğlu Məhəmməd ibn Əlinin həyat yoldaşı olmuşdur. Ancaq, digər *Abbasilər* Məmunun bu addımlarına qarşı çıxış edərək onu devirib, əmisi İbrahim ibn Mehdini Bağdadda xəlifə elan etdilər. Buna görə də, Məmun Bağdadan getməli oldu, Əli ibn Musanı da özü ilə apardı. Ancaq, yolda Əli ibn Musa Tus şəhərində olarkən dünyasını dəy-

işdi. Onun Məmunun göstərişi ilə öldürüldüyünü də ehtimal edənlər vardır. Əli ibn Musa (Rıza) *isna-əşəri* şiələrinin səkkizinci günahsız imamıdır. Onun Məşhəddəki *məzarı şiələrin* müqəddəs *ziyarət* yeridir.

**ƏLİ SOYU** – bax: **ƏLƏVİLƏR (I).**

**ƏLİ ZEYNÜL-ABİDİN** (38/658 – 133/750) – ***İsnəəşəri şiələrinin dördüncü imamıdır.*** Onu dindarlığına görə "Səccad" (*səcdə* edən əyilən) da adlandırmışlar. O, *Mədinədə* doğulmuşdur. Onun atası *Hüseyn ibn Əli*, anası isə sonuncu İran şahı III Yezdəgirdin qızı Şahzənən olmuşdur. Əli Zeynül-Abidin Kərbəla qırğınından sonra atasını, eləcə də yaxınlarını itirmiş, ancaq atası *Hüseyn ibn Əlinin* sağ qalmış tək oğlu idi. Qanlı Kərbəla hadisəsindən sonra tutulmuş və *xəlifə* Yəzidin yanına Dəməşqə göndərilmişdir. Sonra Yəzid onu sərbəst buraxmış, o da, Mədinəyə qaytarmışdır. Əli Zeynül-Abidin Xilafətin siyasi həyatına qatılmamış, daha çox *hədis, təfsir, fiqh*, və digər dini elmlərlə məşğul olmuşdur. Müasirləri onun haqqında danışarkən çox bilikli və inanclı bir şəxs olduğunu vurğulamışdırlar.

**ƏLYƏSƏ** – ***Adı Quranda (6: 86, 38: 48) anılmış İlyas peyğəmbərdən sonra İsrail oğullarına göndərilmiş elçilərdən biri olmuşdur.*** Onların hər ikisi bu xalqı *Tövrata* və *Musanın şəriətinə* riayət etməyə çağırmışdır. *İlyas* peyğəmbər *İsrail oğullarını* uzun müddət imana dəvət etsə də, onlar imana gəlməmişdirlər. Onda İlyas *peyğəmbər* onlardan həmişəlik ayrılıb, başqa İsrail qəbiləsinə üz tutmuşdur. Onlar isə İlyas peyğəmbərə iman gətirib onu peyğəmbər kimi tanımışdırlar. İlyas burada oğlunun adı Əlyəsə olmuş bir qadının evində qalmışdır. Bu gənc çox xəstə imiş. Anası onun sağalması üçün İlyas peyğəmbərdən *Allaha dua* etməyi istədi. İlyas da onun istəyini yerinə yetirən kimi *Allah* bu oğlanı sağaltdı. Möcüzə nəticəsində sağalandan sonra Əlyəsə həyatının sonuna kimi İlyasdan ayrılmamış, ondan Tövratı öyrənmişdir. İlyasın ölümündən sonra Allah Əlyəsəni peyğəmbər olaraq seçmişdir. O, insanları Allaha imana çağırsa d, onlar onu inkar etdilər. O zaman müxtəlif İsrail qəbilələri arasında hakimiyyət uğrunda qarşıdurma baş vermişdir. Qardaş qırğını onları gücdən salmışdır. Allah da yollarını azdıqlarına görə bir cəza kimi onların üstünə assuriyalıları göndərmişdir. Assuriyalılar İsrail torpaqlarını ələ keçirib israillilərin əksəriyyətini yurdlarından sürgün edərək kölə etmişdirlər. Sonra isə bəzi israillilər Əlyəsənin peyğəmbərliyini qəbul etsələr də, başqa məsələlərdə ona qarşı çıxmışdırlar. Allah ona möcüzələr göstərmək bacarığı da vermişdir. Əlyəsə ölümündən öncə *Zülkifli* yanına çağırıb Allahın istəyi ilə onu öz varisi elan etmişdir.

**ƏMƏL DƏFTƏRİ** – ***insanların dünyada törətdikləri yaxşı və ya pis əməllərin yazıldığı və axirətdə təkrar özlərinə təqdim olunacağı dəftərin adıdır.*** Qiyamət günü hər bir insana bu dəftər veriləcəkdir (Quran,17: 13-14). Kiramən-katibin, Həfəzə, Rüsul, Raqib və Atid adlı *mələklərin* yazdığı bu kitabda insanın törətdiyi pis və yaxşı bütün əməllər yer alacaqdır (Quran, 18:49). Əməl dəftərləri *cənnət* əhlinə sağdan, *cəhənnəm* əhlinə soldan və ya arxadan veriləcəkdir. Dəftərləri sağdan verilənlər *Quranda* əshabul-yəmin; soldan və ya arxadan verilənlər isə əshabuş-şimal adlandırıllar (Quran, 69: 19, 25; 84: 7, 10). Dəftərin sağdan verilməsi müjdə, soldan ya da arxadan verilməsi isə qorxu və əzaba işarədir.

**ƏMƏVİLƏR** – ***Məkkənin nüfuzlu qəbilələrindən biri olmuşdur***. Bu qəbilənin adı və tarixi Əbd Şəms ibn Əbd Mənaf və onun oğlu Üməyyə ilə bağlıdır. Əməvilər onlara qohum olmuş başqa bir *Məkkə* qəbiləsi olan *Haşimilərlə* rəqabətdə olmuşdurlar. Bu rəqabət *Məhəmməd* peyğəmbərin səyləri

nəticəsində müvəqqəti olaraq aradan qaldırılmış, ancaq sonra yenidən qızışmışdır. Əməvilərdən olan Müaviyə ibn Əbu Süfyan haşimilər nəslinin nümayəndəsi *Əliyə* qarşı çıxmışdır. Məhz, Əbu Sufyan Əməvilər sülaləsinin yaradıcısı olmuşdur.

Əməvilər (41/661 – 132/750) *İslam* tarixinin ilk dövrlərində *Raşidi xəlifələrindən* sonra hakimiyyətə gəlmiş ilk müsəlman xanədanı olmuşdur. Onlar yüz ilə yaxın *Xilafətə* başçılıq etmişdirlər. Bir çox tarixçilərin fikrincə məhz bu sülalə ilkin Xilafətin mahiyyətini dəyişərək onu imperiyaya çevirmişdirlər. Bu imperiyanı birinci Əməvi xəlifəsi Müaviyə ibn Əbu Süfyan qurmuşdur. O, dörd Raşidi xəlifələr dövründə Suriyanın valisi olmuşdur. Onun atası *Əbu Süfyan* uzun müddət Məhəmməd *peyğəmbərə*, eləcə də ilk müsəlmanlara qarşı savaşmışdır. Ancaq, müsəlmanlar Məkkəni fəth etdikdən az əvvəl Əbu Süfyan İslamı qəbul etmişdir.

Xəlifə *Osman* qətl edildikdən sonra Müaviyə ibn Əbu Süfyan onun qatilini birbaşa cəzalandırmaq tələbini irəli sürərək dördüncü xəlifə *Əli ibn Əbu Talibin* hakimiyyətini tanımaqdan imtina etmişdir. Buna görə də, xəlifə Əli ona qarşı hücuma keçmişdir. Hicrətin 37-ci ilində tərəflər Süffeyn döyüşündə qarşılaşmış, ancaq heç bir tərəf uğur əldə edə bilməmişdir. Bu döyüşdə xəlifə Əli zəfərə yaxın olsa da, bir qrup nizələrinə *Quran* səhifələrini sancıb, *Allahın* məhkəməsini tələb etmişdilər. Ancaq, məhkəmədə problemlər həll edilmədiyindən savaş davam etmişdir. Bu dəfə isə üstünlüyü Müaviyə qazanmışdır.

Hicrətin 38-ci ilində *Əmir ibn Asın* başçılığı altında Müaviyənin qoşunu *Misiri* ələ keçirə bilmişdir. 39-cu ildə suriyalılar İraqa girmiş, 40-cı ildə isə onun böyük bir hissəsini ələ keçirmişdirlər. Eyni zamanda, Müaviyənin sərkərdəsi Bişr ibn Əbu Art Ərəbistana hücum edərək Məkkə və Yəməni ələ keçirtmişdir. 40-cı ildə müharibənin ən qızğın vaxtında xəlifə Əli *xaricilərin* qəsdi nəticəsində öldürülmüşdür. Onun tərəfdarları ölümündən sonra *Həsən ibn Əlini* yeni xəlifə kimi tanımışdırlar. Ancaq, onun savaşlar nəticəsində parçalanmış Xilafətə başçılıq etmək üçün yetərli gücü olmamışdır. Buna görə də Həsən, müharibəyə girmədən Müaviyə ibn Əbu Süfyanla danışıqlara başlamış və sonra isə hakimiyyəti ona təslim etmək qərarına gəlmişdir.

Hicrətin 41-ci ilində Həsən ibn Əli Kufədə Müaviyə ilə görüşərək hakimiyyəti ona təhvil vermişdir. Sonra isə qardaşı Hüseyn ilə birlikdə *Mədinəyə* qayıtmışdırlar. Bu hadisədən sonra Müaviyə yeni xəlifə olmuşdur. Ancaq hakimiyyəti ələ alandan sonra o, Xilafətin mahiyyətini dəyişərək onu ailə xənadanına çevirmişdir.

Xilafətin quruluşunun dəyişdirilməsi və onun imperiyaya çevrilməsi bir çox səhabələrin və peyğəmbərin ailə üzvlərinin müqavimətinə səbəb olmuşdur. Onlar xəlifəliyin Müaviyənin oğlu Yəzidə verilməsinə qarşı çıxdılar. Kufədə (İraqda) Əməvi hakimiyyətinə qarşı üsyanlar başlamışdır. Üsyançılar Məhəmməd peyğəmbərin nəvəsi Hüseyni onlara başçılıq etməyə çağırmışdırlar. Onların çağırışına səs vermiş Hüseyn Kufəyə doğru yola çıxmışdır. Ancaq o, yolda olarkən xəlifənin Kufədəki yeni təyin olunmuş valisi İbn Ziyad bu üsyanı yatırmış, kufəlilərin əksəriyyətini özünə tərəf çəkə bilmişdir. Bununla da onlar, Kufəyə dəvət etdikləri Hüseynə arxa çevirmiş oldular. Beləliklə, kiçik bir dəstə ilə şəhərə doğru irəliləyən Hüseyni Kərbəla adlı yerdə Yəzid ordusu qarşılamışdır. Burada Hüseyn və onunla bərabər olan digər ailə üzvləri, eləcə də onun digər tərəfdaşları Yəzidin göndərdiyi ordu tərfindən qətl edilmişdir. Belə ki, peyğəmbərin nəvəsinin öldürülməsi Xilafətdə zorakılığın daha da artmasına yol açmışdır. Yenə də, xilafətdə qanlı daxili qarşıdurmalar başlanmışdır.

Əməvilərə qarşı Hicazda böyük bir qiyam baş vermişdir. Ona *Abdullah ibn Zübeyr* başçılıq edirdi. O, Xilafət ordusuna güclü müqavimət göstərərək onu geri çəkilməyə məcbur etmişdir. Bundan sonra Əməvilər yalnız Suriyada hakimiyyətlərini qoruyub saxlaya bilmişdilər. Abdullah isə xəlifə kimi tanınaraq hakimiyyətini 64/684 – 73/692-ci illərə qədər davam etdirmişdir.

Ancaq, Abdullahın uğurları çox da davam etməmişdir. Belə ki, Əməvilər öz aralarında siyasi çəkişmələrə son qoya bilmişdirlər. Beləliklə, hakimiyyət onların Süfyanilər qolundan olan Mərvanilərə keçmişdir. Bundan sonra suriyalılar Hicaz üzərinə hücuma keçərək Abdullah ibn Zübeyrin qoşununu məğlub etdilər. Abdullah isə döyüşlər zamanı həlak olmuş, Əməvi Əbdül-Məlik ibn Mərvan (73/692 – 86/705) isə xəlifə təyin edilmişdir.

Bundan sonra Xilafətdə stabillik dövrü başlamışdır. O zaman Xilafətin sərhədləri genişlənmiş və beləliklə, İslam ordusu Asiya, Afrika və Avropada yeni torpaqları ələ keçirə bilmişdirlər. Məhz Əməvilərin hakimiyyəti dövründə İspaniya alınmış və bütün bu yerlər Əməvi Xilafəti adlanan imperiyanın tərkib hissəsinə çevrilmişdir.

Ancaq, bütün bu zamanlarda Əməvilərə qarşı üsyanlar da səngimirdi. Xüsusən də, şiə və xaricilər aktivlik göstərirdilər. Onların hərəkatı Əməviləri sarsıdırdı. Eyni zamanda, hakim sülalənin öz arasında saray qarşıdurmaları da baş verirdi. Bütün bunlar onları gücdən salırdı. Əməvilərə qarşı daha bir güclü qiyam 121/740-cı ildə baş vermişdir. *Əhli-beytdən* olan *Zeyd ibn Əli* İraqa dəvət edilmiş və o, xəlifə I Hişam ibn Əbdül-Malikin hakimiyyətinə qarşı üsyana başçılıq etmək istəmişdir. Ancaq o da, xəyanət ilə üzləşmişdir. Zeyd babası Hüseyn kimi kiçik bir qrup tərəfdarları ilə Xilafət qoşunu tərəfindən darmadağın edilmişdir. Ancaq, Zeyd ibn Əlinin qaldırdığı üsyanın yatırılması Əməvilərin nüfuzuna çox ağır zərbə vurmuşdur. Getdikcə Xilafəti hakimiyyətə qarşı olan üsyanlar bürüyürdü. Sülalə isə ölkəyə artıq nəzarət edə bilmirdi. Zeydin qətlə yetirilməsindən on il sonra Əməvi hakimiyyətinə son qoyuldu. O zaman Əməvilər *Abbasilərin* Xorasanda qaldırdıqları üsyanının qarşısını ala bilmədilər. Bunun nəticəsində onlar Xilafəti əldən vermiş oldular.

Abbasilər xilafətə gəldikdən sonra Əməvilər hər yerdə təqib olunub öldürülürdülər. Ancaq xəlifə Hişamın oğlu Əbdürrəhman İspaniyaya qaçmış və orada 138/756-cı ildə Kordova əmirliyini yarada bilmişdir. Bu əmirlik Abbasilərin nəzarətindən çıxa bilmişdir. 316/929-cu ildə isə Kordova əmiri III Əbdürrəhman özünü xəlifə elan etmişdir. Beləliklə, Əməvilər İspaniya və Şimali Afrikanın bir hissəsində öz Xilafətlərini bərpa edə bilmişdir. *Kordova Xilafəti* 422/1031-ci ilə qədər davam etmiş və sonra daxili çəkişmələr səbəbindən parçalanmışdır. Kordova Xilafətinin dağılmasından sonra Əməvilər tarixdən silinmişdirlər.

Əməvilər dövründə bütün Şimali Afrika, İspaniya, Mavərrənnəhr, Hindistanın bir neçə bölgələri ələ keçirilmişdir. Onların İspaniyadakı hakimiyyəti dövründə isə Kordova Xilafəti Avropanın mədəni və *elm* mərkəzi olmuşdur.

**ƏMİNƏ BİNT VƏHB** – ***Məhəmməd peyğəmbərin anası, Vəhb ibn Əbdülmənafın qızı olmuşdur.*** O, *Qüreyş* ailəsindən idi. Əminənin doğum və vəfat etmə tarixi bilinməməkdədir. Onun təxminən miladi 577-ci ildə vəfat etdiyi ehtimal edilir. Əminənin bir-çox fəzilətləri olmuş, bu səbəbdən də *Haşimilər* soyunun başçısı *Əbdülmüttəllib* onu oğlu Abdullahla evləndirmişdir. Bu evlilikdən Məhəmməd doğulmuşdur. Ancaq, atası körpəsini görmədən dünyasını dəyişmişdir. O, Suriyaya doğru yola çıxmış,

orada Yəsrib (*Mədinə*) yaxınlığında Əminə hələ hamilə olarkən vəfat etmişdir. Beləliklə, *Məhəmməd* peyğəmbər yetim olaraq dünyaya gəlmişdir. Bir neçə il sonra Əminə altı yaşlı oğlunu götürərək Yəsribə getmişdir. Orada ölmüş əri Abdullahın *məzarını ziyarət* etmişdir. Onlarla birlikdə Abdullahın keçmiş qulluqçusu Ümm Əyman da olmuşdur. Yəsribdə bir ay qaldıqdan sonra onlar geriyə *Məkkəyə* doğru yola düşdülər. Ancaq, yolda Əminə ağır xəstələnərək Yəsrib və Məkkə arasında yerləşən Əbva adlanan bir yerdə dünyasını dəyişmişdir.

**ƏMİR İBN AS** (43/664-cü ildə vəfat etmişdir) – ***tanınmış siyasi xadim və İslam ordusunun sərkərdəsi olmuşdur.*** Nüfuzlu *qüreyş* başçılarından biri olduğundan uzun müddət müsəlmanlara qarşı olmuş, onlarla vuruşmuşdur. Canlarını təqiblərdən qurtarmaq üçün *Həbəşistana hicrət* edən müsəlmanların zorla geriyə qaytarılması məqsədi ilə qüreyşlilər o ölkənin kralı *Nəcaşinin* yanına Əmir ibn Ası göndərmişdirlər. Ancaq o, bu tapşırığı yerinə yetirə bilməmişdir.

Müsəlmanlar Məkkədən *Mədinəyə hicrət* etdikdən sonra Əmir ibn *As Bədr, Uhud* və *Xəndək* döyüşlərində onlara qarşı vuruşmuşdur. Xəndək döyüşündən sonra o, müsəlmanlara qarşı müqavimətin mənasız olduğunu anlamışdır. *Hüdeybiyə* sülh anlaşmasının (8/629) bağlanmasından sonra Əmir ibn As, *Xalid ibn Valid* ilə birlikdə *Mədinəyə*, Məhəmməd *peyğəmbərin* yanına gələrək *İslamı* qəbul etdiklərini bildirdilər. Müsəlmanlar Məkkənin fəth olunmasından az öncə Məhəmməd peyğəmbər ayrı-ayrı ərəb qəbilələrinin onlara qarşı hücum edəcəkləri haqqında xəbərlər almışdır. Buna görə o, *ənsar* və *mühacirlərdən* könüllülər dəstəsi yaratmış, onların başçısı olaraq da Əmir ibn As seçmişdir. İslam ordusunun yaxınlaşdığını görən *bədəvilər* döyüşə girmədən geri çəkilmişdirlər. Əmir ibn As isə dəstəsi ilə Mədinəyə qayıtmışdır. Müsəlmanlar Məkkəni fəth etdikdən sonra Məhəmməd peyğəmbər Əmir ibn Ası ərəb qəbilələrinin tapındıqları Suva bütünü dağıtmağa göndərmişdir.

Birinci Raşidi *xəlifə Əbu Bəkrin* dövründə Əmir ibn As Ərəbistan üsyançıları ilə vuruşmuş, sonra isə Suriya və Bizansla savaşa yollanmışdır. Orada o, Yərmuk döyüşündə, eləcə də Dəməşqin, Əcnədeynin və *Fələstinin* alınması uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

Müsəlmanlar *Misiri* alanda Əmrin bacarıqlı sərkərdə olmasının bir daha şahid olmuşdurlar. O, bu yürüşə çıxmağı təklif edərək özü də orduya başçılıq etmişdir. Xəlifə *Ömər* isə onun təklifini dəstəkləmiş ona yardım etmək üçün o bölgəyə daha bir qoşun birləşməsini göndərmişdir. Yürüşə ciddi hazırlaşmış Əmr irəliləyərək Misir hökmdarı Mukavkasın güclərini məğlub edə bilmişdir. Bu uğurdan sonra Xilafət ordusu bütün Misiri və Şimali Afrikanın bir hissəsini ələ keçirmişdir.

Xəlifə Ömər Əmir ibn Ası Misirin valisi vəzifəsinə təyin etmişdir. Ancaq sonra, *Osmanın* xəlifəliyi dövründə maliyyə işlərində buraxdığı səhvlərə görə o vəzifəsindən uzaqlaşdırılmışdır. Bundan sonra Əmir ibn As bir zaman siyasətdən uzaq qalmışdır.

*Əli ibn Əbu Talib* xəlifə olduqdan sonra Əmir ibn As yenə də siyasətə qatılmışdır. O, Suriya valisi *Müaviyənin* ordusuna komandanlıq etmişdir. Bəzi rəvayətlərə görə buna qarşılıq olaraq Müaviyə uğur qazanardısa, onu yenidən Misirin başçısı vəzifəsinə təyin etməli idi. Xəlifə Əli Suriyaya öz elçisini göndərdikdə Müaviyə ilə Əmir ibn As onu Osmanın qatillərini təmizə çıxartmaqda günahlandırmış və onun xəlifəliyini tanımayacaqlarını bildirmişdirlər.

Suriyalıların müqavimətini qırmaq üçün xəlifə Əli onlara qarşı qoşun yeritmişdir. Əli Süffeyn döyüşündə uğura çox yaxın olmuş-

dur. Çıxılmaz duruma düşmüş suriyalıların ordu komandanı Əmir ibn As döyüşçülərinə nizələrinin uclarına *Quran* səhifələrini sancaraq *Allahın* məhkəməsini qurmağı tələb etmələrini əmr etmişdir. Xəlifə Əli bunun məğlubiyyətdən qurtulub vaxt udmaq üçün bir gediş olduğunu bildiyindən döyüşü dayandırmaq istəmirdi. Ancaq, onun ətrafında olan bir qrup ordu sərkərdələri buna israrlı idilər. Buna görə də o, danışıqlara getməli oldu. Problemi çözmək üçün çağırılan məhkəmədə xəlifə Əli və Müaviyənin təmsilçiləri onların vəzifələrindən getmələrini bildirməli idilər. Sonra o, yeni xəlifə seçilməli idi. Beləliklə, hər iki tərəfin təmsilçiləri Dümətül-Cəndəldə bir araya gəldilər. Birinci xəlifə Əlinin təmsilçisi *Əbu Musa Əşəri* çıxış etdi. Öncə anlaşıldığı kimi o, xəlifə Əli və Suriya başçısı Müaviyənin vəzifələrindən uzaqlaşdırıldığını elan etdi. Ancaq, ondan sonra çıxış edən Müaviyənin təmsilçisi Əmir ibn As Müaviyənin vəzifəsindən uzaqlaşdırılmasını elan etməkdən çəkindi və bununla da tərəflər arasındakı anlaşma pozuldu. Beləliklə, heç bir nəticə əldə olmadığından Xilafətdə iç savaş davam etdi. Ancaq, artıq bu dəfə suriyalılar üstünlük qazanmışdırlar. Çünki, məhkəmədən sonra Əlinin tərəfdarlarının bir hissəsi ona qarşı üsyan edərək ondan ayrıldılar. Bu da Əlinin ordusunu zəiflətdi. Əlini tərk edənlər *xaricilər* adlanmış və onlar həm ona, həm də Müaviyəyə qarşı vuruşmağa başlamışdırlar.

Əmir ibn Asın bu kimi gedişlərinə görə suriyalılar vaxtı qazanaraq öz sıralarını möhkəmlətmişdirlər. Bundan sonra onlar xəlifə Əlinin tərəfdarlarının arasında parçalanmadan yararlanaraq hücuma keçirlər. Hicrətin 38-ci ilində Əmir ibn Asın başçılığı ilə suriyalılar Misirə girmiş xəlifə Əlinin oraya başçı təyin etdiyi Məhəmməd ibn Əbu Bəkrin güclərini məğlub edir, onun özü isə öldürürlər. Bundan sonra suriyalılar İraq və Hicazda da Əlinin güclərinə ağır zərbələr endirmişdilər.

Hicrətin 40-cı ilində Xilafətdə gedən savaşların başlanmasında Əli, Müaviyə və Əmir ibn Ası günahlandıran xaricilər onlara qarşı suiqəsdlər hazırlamışdırlar. Bunun nəticəsində xəlifə Əli öldürülmüş, Müaviyəyə qarşı basqın isə baş tutmamış və o yalnız ayağından yüngül yaralanmışdır. Əmir ibn Asın yerinə isə xaricilər bir səhv səbəbindən onun yaxın adamını öldürdülər. Əli öldürüləndən sonra xəlifə olan Müaviyə ibn Əbu Süfyan Əmir ibn Ası Misirə vali vəzifəsinə təyin etmişdir. O, bu vəzifədə hicri 43-cü (ya da ayrı-ayrı qaynaqlara görə 51-ci) ilə qədər olmuş, sonra ağır xəstəliyə tutulub vəfat etmişdir.

**ƏMMAR İBN YASİR** (37/658-ci ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin ən məşhur səhabələrindən biri olmuşdur.*** Onun atası əslən Yəmənli idi. O, *Məkkəyə* hicrət etdikdən sonra onun Əmmar adında oğlu doğulmuşdur. O, *İslamı* ilk qəbul edənlərdən olmuşdur. O, *Ərqəmin* evində müsəlmanların yığıncaqlarında iştirak etmişdir. Onunla birlikdə ata və anası da İslamı qəbul etmişdirlər. Buna görə də o, ailəsi ilə birlikdə qüreyşlilərin təqiblərinə məruz qalmışdır. Ancaq, onun və ailəsinin durumu daha ağır idi. Çünki, onun atası məkkəli deyil idi, anası isə məhzümilər qəbiləsinin qulluqçusu olmuşdur. Buna görə də, onun sahibləri bu ailəyə onları İslamdan imtina etmək üçün təzyiqlər edirdilər. Ancaq, müsəlmanların inancı çox güclü olduğundan onlar bütün bu təzyiqlərə dözərək bu işgəncələri bir sınaq hesab edirdilər. Əmmar və yaxınları bütün bunlara sinə gələrək İslamdan dönmədilər. Heç bir şey əldə etməyən *qureyşlilər* isə öncə Əmmarın anası Sümeyyəni, sonra isə onun atasını öldürdülər. Buna səbəbdən də Sümeyyə İslam tarixində inancı uğrunda ilk *şəhid* olmuş qadındır. *Bütpərəstlər* Əmmara da ağır işgəncələr vermişdirlər.

Təqiblərdən qurtulmaq üçün *Mədinəyə hicrət* edən ilk müsəlmanlardan biri də Əmmar olmuşdur. Orada o, İslamın güclənməsi üçün bütün fəaliyyətlərdə iştirak etmiş, *Bədrdən* Təbuk döyüşünə qədər bütün müharibələrdə İslam ordusunun sıralarında döyüşmüşdür.

Xəlifə *Əbu Bəkrin* xəlifəliyi dövründə Əmmar Yəmmamədəki dindən çıxmış ərəb qəbilələrinə qarşı müharibədə iştirak etmişdir. İkinci Raşidi xəlifə *Ömər* isə onu Kufə valisi vəzifəsinə təyin etmişdir. Bu vəzifədə o təxminən iki il işləmiş, sonra onun yerinə *Əbu Musa Əşari* keçmişdir. Üçüncü Raşidi xəlifə *Osmanın* dövründə Əmmar onun ən inandığı şəxslərdən biri olmuşdur. Osmanın göstərişi ilə o, *Misirə* gedib oradakı siyasi durumu öyrənmiş, bu bölgədə başlayacaq üsyan xəbərini xəlifəyə çatdırmışdır. Dördüncü Raşidi *xəlifə* Əlinin dövründə isə Əmmar onun xəlifəliyini tanımış və Xilafətdə başlayan daxili savaşda onun ordusunda vuruşmuşdur. O, Süffeyn döyüşündə həlak olmuşdur.

**ƏNƏS İBN MALİK** (90/709-cu ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuşdur***. *Xəzrəc* qəbiləsindən olan Ənəs ibn Malik *Mədinədə* doğulmuşdur. Anası Ümm Süleym ilk müsəlmanlardan biri idi. Buna görə də, əri onunla əlaqələrini pozaraq *İslamdan* dönməsinə çalışmışdır. Sonra o, bütün bunlara nail olmadığını görüb Suriyaya gedərək orada ölmüşdür. Ondan sonra Ümm Süleym müsəlman olan Əbu Təlhəyə ərə getmişdir.

Rəvayətlərə görə *Məhəmməd* peyğəmbər Mədinəyə hicrət edəndə Ənəs ibn Malikin 10 yaşı olmuşdur. Bir-çox mədinəli *peyğəmbərə* öz xidmətlərini təklif etmişdirlər. Ənəsin anası da peyğəmbərin yanına gələrək öz oğlunu ona qulluqçu kimi gətirmişdir. Peyğəmbərin qulluqçuya ehtiyacı olmasa da o, Ümm Süleymi razı salmaq üçün Ənəsi öz evinə gətirib ona oğlu kimi baxmışdır. Ənəs də peyğəmbərin bütün buyruqlarını yerinə yetirmiş, ondan dinin əsaslarını öyrənmişdir. O, yetkinlik yaşına çatmadığına görə müsəlmanların ilk döyüşlərinə qatılmamışdır. *Bədr* döyüşündə o, arxada qalaraq müsəlman döyüşçülərə yardım etmişdir. Yetkinlik yaşına çatdıqdan sonra o, *Xeybər* və *Hüneyn* döyüşlərində vuruşmuş, *Məkkənin* alınmasında iştirak etmişdir.

Xəlifə *Əbu Bəkrin* dövründə Ənəs Bəhreynə *zəkatın* toplanılması üçün göndərilmişdir. Əbu Bəkr vəfat etdikdən sonra o, Mədinəyə qayıtmışdır. Xəlifə Ömər onun döyüşlərə göndərməmiş, öz yanında saxlamışdır. Buna görə də Ənəs, *fiqhi* məsələlərlə məşğul olmağa başlamışdır.

Bir qədər sonra, Ənəs ibn Malik Bəsrəyə köçmüş, oradakı xalqı İslamın əsasları, eləcə də İslam qanunu ilə tanış etmişdir. Bəsrədə olarkən Ənəs iranlılarla gedən döyüşlərdə iştirak etmişdir. O, Şüştəri ələ keçirmiş müsəlman ordusunda olmuşdur. Bəsrəyə qayıtdıqdan sonra Ənəsə xəlifə Ömərin öldüyü xəbəri çatmışdır. Üçüncü xəlifə *Osmanın* dövründə də o, Bəsrədə xalqın maarifləndirilməsi ilə məşğul idi. Xilafətdə daxili çəkişmələr başlayanda o, heç bir tərəfdə mövqe tutmamışdır. O, heç bir vaxt zülm və cəmiyyətdəki ədalətsizliklərlə barışmamışdır. Belə ki, *Əməvilərin* İraq valisi Həccacın istibdadına qarşı çıxış etməkdən çəkinməmişdir. Rəvayətlərə görə Ənəs ibn Malik çox inanclı bir şəxs olmuşdur, bir-çox *hədislərin ravisi* kimi də bilinməkdədir. O, 80 yaşında Bəsrədə vəfat etmişdir.

**ƏNSARLAR** – ***Məhəmməd peyğəmbərin mədinəli səhabələri belə adlandırılmışdır.*** Onlar *Məkkədən*, eləcə də başqa yerlərdən köçüb gəlmiş bütün *mühacir* müsəlmanları öz şəhərlərində, evlərində qəbul etmiş bütün mal varlıqlarını onlarla paylaşaraq onlara qucaq açan insanlar olmuşdurlar.

Ənsarlar Mədinənin *Evs* və *Xəzrəc* adlanan iki başlıca qəbilələrini təşkil edirdi. Bu iki bir-birinə qohum olan qəbilə öncə Yəməndə yaşamış, sonra isə Yəsribə (*Mədinəyə*) köçmüşdürlər. Ancaq burada onların arasında uzun sürən bir qarşıdurma başlamış, bu hadisə isə Buas döyüşü adlanan qanlı bir toqquşmaya gətirib çıxarmışdır. Bu döyüşü evslilər qazansalar da, onlar bundan faydalana bilməmişdirlər. Hər iki qəbilə gücdən düşmüşdür. Məğlub olan Xəzrəclilər qüreyşlilərdən dəstək almaq üçün Məkkəyə öz elçilərini göndərmişdirlər. *Məhəmmədin* peyğəmbərliyinin 11-ci ilində onlar Məkkəyə gəlib onunla görüşərək *İslamı* qəbul etmişdirlər. Onlar yalnız bu dinin vasitəsi ilə Yəsribdəki ərəb qəbilələrinin arasındakı müharibələrə son qoya biləcəklərini anlamışdırlar.

Geri qayıtdıqdan sonra onlar evsiləri də İslamı qəbul etməyə dəvət etmişdirlər. Sonra, Evs və Xəzrəc qəbilələrinın təmsilçiləri Məhəmməd peyğəmbərlə *Əqəbədə* birinci və ikinci beyət zamanı görüşdülər. Onlar *peyğəmbəri* qoruyacaqlarına, bütün məkkəli müsəlmanları qəbul edəcəklərinə söz vermişdirlər.

Bundan sonra məkkəli müsəlmanların Mədinəyə hicrəti başladı. Xəzrəclilər və evslilər onları sevgi ilə qarşılayıb, sığınacaq verdilər. Beləliklə də, onlar peyğəmbərin ənsarları (yardımçıları) adını almış oldular. Peyğəmbərin buyurduğu kimi ənsarlar mühacirlərlə qardaşlaşaraq evlərində onlara yaşamaq üçün yer, eləcə də mallarından pay verdilər. *Quranda* (59: 9) da bu hadisə anılmışdır.

Beləliklə, ənsarlar və mühacirlərin qardaşlığı Mədinədə müsəlman icmasının yaranmasına gətirib çıxarmışdır. Bundan sonra məkkəli *bütpərəstlərlə* savaş başlamışdır. *Bədr* döyüşündən başlayaraq peyğəmbərin vəfatına qədər, ənsarlar mühacirlərlə çiyin-çiyinə düşmənlərə qarşı həyatlarını qurban verməyə hazır olaraq İslam uğrunda döyüşmüşdürlər. O dövrlərdə Məhəmməd peyğəmbərin başçılıq etdiyi müsəlman icmasının güclənməsində onların böyük rolu olmuşdur. Peyğəmbər də ənsarları çox sevmiş, hər zaman onlara öz razılığını bildirirdi. Məkkə fəth olunduqdan sonra peyğəmbər orada qalmayıb yenə də Mədinəyə ənsarların yanına qayıtmışdır.

Məhəmməd peyğəmbər vəfat etdikdən sonra müsəlman cəmiyyətinin gələcəyini düşünən ənsarlar tezliklə bir yerə toplaşaraq *Səd ibn Übədəni* xəlifə seçmişdirlər. Ancaq sonda, özlərini oraya yetirmiş mühacirlərin dedikləri ilə razılaşaraq Əbu Bəkri xəlifə kimi tanımışdırlar. Bundan sonra ənsarlar Xilafətin siyasi-ictimai həyatında böyük rol oynayırdılar. Onlar *riddət (II)* hadisələrində vuruşmuş, Bizans və İran imperatorluqlarına qarşı döyüşlərə qatılmışdırlar.

Ənsarlar Məhəmməd peyğəmbərin çoxsaylı *hədislərinin* də ötürücüləri olmuşdurlar. Onların aralarından İslam elmləri və metodologiyasının əsaslarını qurmuş bir-çox alimlər yetişmişdir. Sonrakı illərdə ənsarlar İslam ənənəsinin qoruyucuları kimi böyük işlər görmüşdürlər. Quranın (9: 100, 9: 117) *ayələrində* onların fəzilətləri qeyd edilmişdir. Ənsarların İslam tarixindəki xidmətləri haqqında müxtəlif hədis kitablarında rəvayətlər mövcuddur.

**ƏRAF** – ***cənnətlə cəhənnəm arasında olan bir yerdir*** (Quran, 7: 46-47). O yer insanların *axirətdə* öz aqibətlərinin necə olacağını gözləyəcəyi bir məkandır. Onların dünyadakı yaxşı işlərinin çəkisi, pis işlərinə bərabər olacaqdır. Buna görə də onlar, *cənnət* və *cəhənnəm* arasında *Allahın* onlara qarşı rəhmli olmalarını gözləməli olacaqlar. Bu kimsələr cənnətdə olanlara salam deyib, onların sıralarında olmaq istəyəcəklər. Bundan başqa onlar cəhənnəm əzablarını görərək Al-

lahın onları bağışlamalarını diləyəcəklər. Sonda Allah onları bağışlayıb cənnətə daxil edəcəyi güman edilir.

**ƏRƏFAT** – ***Məkkənin 25 kilometrliyində yerləşən zəvvarların Zülhiccə ayının doqquzuncu günü qaldıqları yerin adıdır.*** Burada qalmaq *həccin* başlıca *şərtlərindən* biridir. Ərəfatda gecələmək və orada ibadətlə məşğul olmaq həccdə olan zəvvarın mənəvi durumunu daha da yüksəldir.

**ƏRƏFƏ** – ***qurban bayramından öncəki gündür.*** Xüsusən də, *Zülhiccə* ayının 9-cu günü belə adlanır. Bu gün boyu *həccə* gəlmiş zəvvarlar *Ərəfat* adlanan yerdə *Allaha* ibadət edirlər.

**ƏRİM** – ***Quranda (34: 15-16) haqqında məlumat verilən selin adıdır.*** *Allahın* Səba elini cəzalandırdığı sel belə adlanmışdır. Rəvayətlərə görə bu sel Mərib bəndini iki dəfə dağıtmışdır. Mərib Səbanın mərkəzi idi. Ətrafı su basandan sonra Səba xalqı, o cümlədən Mərib şəhərinin əhalisi yurdlarını tərk edərək Ərəbistanın ayrı-ayrı yerlərinə köçmüşdürlər.

**ƏRQƏM İBN ƏBU ƏRQƏM** (53/673-cü ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin yaxın səhabəsi olmuşdur***. *Məkkənin* ən varlı və nüfuzlu qəbiləsindən olan məhzumilərdən idi. Ərqəm bütün həyatı boyu ədalət tərəfdarı olmuşdur. O, hər zaman məzlumları və yoxsulları müdafiə etmişdir. O, ədalətin bərqərar olması üçün toplaşan insanların *Hilfül-Füdul* adlanan yığıncağına qatılmışdır. Ərqəm dərin imanı və tərkidünyalığı ilə seçilmişdir. Onun qohumları *İslama* qarşı olmuşdurlar. O isə 17-18 yaşlarında ikən İslamı ilk qəbul edənlərdən olmuşdur.

Onun Məkkədəki Səfa təpəsindən qərbə doğru baxan evində müsəlmanların ilk yığıncaqları keçirilirdi. Müsəlmanlar bu evə gəlmiş, *Quran* oxumuş, birlikdə ibadətlər etmişdirlər. *Məhəmməd* peyğəmbər də bu evə köçüb bir müddət burada yaşamışdır.

Təqib olunan dövrlərdə müsəlmanların toplantı yerləri Ərqəmin evi olmuşdur. Burada onlar problemlərini bölüşür, Məhəmməd *peyğəmbərlə* görüşüb birlikdə *Allaha* ibadət edirdilər. Bu evdə *Ömər, Həmzə, Əmmar* və başqa görkəmli şəxslər İslamı qəbul etmişdirlər. Məkkədə təqiblər dözülməz hala gəldikdə isə Ərqəm *Mədinəyə hicrət* etmiş ilk müsəlmanlardan biri olmuşdur. *Mədinədə* müsəlman icmasının güclənməsi üçün əlindən gələni edən Ərqəm *Bədr, Uhud, Xəndək* və başqa döyüşlərdə igidcəsinə döyüşmüşdür. O, savadlı insan idi. Ona görə də, Məhəmməd peyğəmbərin katibi olmuşdur. Allahın nazil etdiyi Quran *ayələrini* yazırdı. Ərqəm Mədinədə təxminən 83 yaşında vəfat etmişdir.

**ƏRŞ** – ***ən uca, ən yüksək, ən ali və hər şeyin üzərində olan yerdir.*** Ərş sözü kralın oturduğu taxt mənasını da verir. Bu söz *Quranın* 7:54, 9: 129, 10: 3, 23: 116, 43: 82 *ayələrində* qeyd edilir. Onun mahiyyətini yalnız *Allah* bilir. Göyün yeddi qatı, *cənnət, sidrətül-müntəha* ərşin altında yerləşir.

Müsəlman *təfsirçilərinin* çoxuna görə, "Ərş" sözü və Allahın onun üzərində olması *məcazdır.* Misal üçün Süyuti onu "bilik", Bəydavi "ucalıq", Razi "hakimiyyət" kimi təfsir etmişdirlər. Allahın *dünyanı* yaratdıqdan sonra onu idarə etməsi anlamını verir. Bəzi təfsirçilərə görə Quranın 2: 255 ayəsində işlədilmiş "ərş" və "kürsi" sözləri bu anlamdadır. Ancaq, ərşi məcazi deyil, həqiqi mənada (taxt kimi) anlayan təfsirçilər də olmuşdur.

**ƏSƏD İBN ZÜRARƏ** (1/623-cü ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuş, Mədinədə İslamın yayılmasında böyük xidmətləri olmuş insanlardan biridir.*** O, *Xəzrəc* qəbiləsindən idi. Əsəd hələ *Məhəmmədin* peyğəmbərliyindən öncə bütlərə tapınmaqdan imtina etmiş, *İbrahim* peyğəmbərin dininin (hənifliyin) davamçısı olmuşdur. Sonra o, *Mədinənin* ilk müsəlmanlarından olmuş, Məhəmməd peyğəmbərlə *Məkkədə* görüşmüş, *Əqəbə beyətində* isə ona sadiqlik andını içmişdir.

Əsəd Mədinədə ilk *İslam* dinini yayanlardan biri kimi çətinliklərlə qarşılaşıb, Məhəmməd *peyğəmbərdən* bu şəhərə öz təmsilçisini göndərməsini xahiş etmişdir. O da oraya *Müsab ibn Ümeyri* göndərmişdir. Əsəd onunla birlikdə Xəzrəc və *Evs* qəbilələrini İslamı qəbul etməyə dəvət etmişdir. Əsədin evi Mədinədə müsəlmanların qərargahına çevrilmişdir. Məhəmməd peyğəmbərin *Mədinəyə hicrət* etməsindən az sonra *Bədr* döyüşündən öncə xəstələnən Əsəd vəfat etmişdir.

**ƏSHABÜL-BƏDR** – ***Bədr savaşında döyüşən müsəlmanlardır.*** Bu döyüş *İslam* tarixində müsəlmanlar və *bütpərəstlər* arasında baş vermiş ilk döyüş olmuşdur. Onlar *Məhəmməd peyğəmbərin* ən nüfuzlu səhabələrindən olmuş, müsəlmanlar arasında çox nüfuz qazanmışdırlar.

**ƏSHABÜL-FİL** – ***Quranda (105-ci surədə) adı keçən həbəşilərin Məkkəyə yürüşü ilə bağlı hadisədir.*** *Kəbəni* dağıtmaq istəmiş Həbəşistan kralı Əbrəhənin qoşunudur. Rəvayətlərə görə bu hadisə *Məhəmməd* peyğəmbərin dünyaya gəlməsindən bir qədər öncə baş vermişdir. VI əsrin ortalarında Həbəşistanın xristian kralı Əbrəhə Sənada (Yəmən) böyük "Qülleys" kilsəsini tikərək ərəbləri Kəbəyə ehtiramdan çəkindirmək istəmişdir. O, onların Kəbəni deyil, bu kilsəni ziyarət etmələrini istəmişdir. Ancaq, ərəblər "Qülleysi" *ziyarət* etmək istəməmişdirlər. Buna görə Əbrəhə Kəbəni dağıtmaq istəyinə düşmüşdür. Bu məqsədlə o, qoşunu ilə *Məkkəyə* doğru irəliləmişdir. Məkkəliləri qorxutmaq üçün Həbəşistanlıların qoşununda Afrikadan gətirilmiş fillər də olmuşdur. Buna görə də, bu hadisə "Fil" onun baş verdiyi il isə "Fil ili" adlandırılmışdır.

Məkkəlilər onlara qarşı müqavimət göstərə bilməmişdirlər. Şəhərə yaxınlaşan qoşun *Əbdülmuttəlibin* mal-qarasını ələ keçirmişdirlər. Sonra onlar Məkkəyə elçilərini göndərərək məkkəlilərin onlara təslim olmasını tələb etmişdirlər. Əks təqdirdə bütün şəhəri dağıdacaqlarını bildirmişdirlər.

Əbdülmüttəlib Əbrəhənin yanına danışıqlara getmiş, onun Kəbənin dağıdılmasına israrlı olduğunu görüb geri qayıtmışdır. Şəhərin qorunması üçün heç bir imkanların olmadığından o, bu işi *Allaha* buraxıb, şəhərdən əhali ilə birlikdə çıxaraq Məkkə ətrafındakı təpəyə sığınmışdır.

Bundan sonra Əbrəhə qoşunları şəhərə girmiş, Kəbəni dağıtmaq göstərişini vermişdir. Ancaq, bunu edən kimi möcüzə baş vermiş, Məkkə səmalarında caynaqlarında daşları daşıyan quşlar görünmüşdür. Onlar bu daşları düşmən ordusunun üzərinə yağdırmağa başladılar. Bu daşlar onlara dəyərək dərilərini zədələmiş, bilinməyən ağır xəstəlik törətmişdirlər. Beləliklə, qoşun şəhərə girə bilməmiş, Həbəşistanlı döyüşçülərin çoxu şəhərin ətrafında həlak olmuşdurlar. Sağ qalanlar isə qaçaraq, Yəmən yolunda xəstəliyə yoluxaraq ölmüşdülər. Əbrəhə də bu hadisələr zamanı həlak olmuşdur. Beləliklə də, Allah möcüzə göstərərək Məhəmməd peyğəmbərin doğulacağı Məkkə şəhərini və Kəbəni qorumuşdur.

**ƏSHABÜL-HƏDİS** – ***Quran və hədislərin aydın mənalarından hüquqi hökmlər çıxaran alimlər idilər.*** Onlar başqa hüquq metodlarımdan yararlanmamışdırlar. Bu hüquqi məktəb Mədinədə fəaliyyət göstərmiş və "Hicaz məktəbi" olaraq adlandırılmışdır. Zaman keçdikcə Hicaz məktəbi də başqa hüquq metodlarını (*qiyas* və *istihsanı*) istifadə edib, İraq hüquq məktəbinə (*Əshabür-Rəyə*) yaxınlaşmışdır.

**ƏSHABÜL-KƏHF** – ***inancları səbəbi ilə təqiblərdən mağarada sığınacaq tapmış bir qrup insanlar olmuşdurlar.*** *Allahın* istəyi ilə onlar orada yuxuya getmişdirlər. Bu gənclərin yuxusu 300 ildən bir az çox sürmüşdür (*Quran,* 18: 25). Onlarla birlikdə Katmir adında bir it də olmuşdur. Bu gənclər yaşadıqları yerin yanlış inanclarını tərk edərək Allaha sığınmış, pis işlərdən çəkinib düz yola yönəlmişdirlər. Buna görə də, onlar təqiblərə uğrayaraq öz şəhərlərindən çıxmış, mağaraların birində sığınacaq tapmışdılar. Bəzi tarixçilər və *təfsirçilərə* görə bu hadisə *miladi* III əsrin ikinci yarısında Anadolunun Tarsus şəhərində baş vermişdir. Ehtimallara görə Roma canişini *Diqyanus* (ola bilsin, o Roma imperatoru Detsius da olmuşdur) bu imanlı gənclərdən inanclarından dönmələrini tələb etmişdir. İnanclarından dönməyən bu gənclər isə şəhərdən Katmir adlanan bir itlə çıxaraq təqiblərdən qorunmaq üçün mağaraya sığınmış və orada yuxuya getmişdirlər.

Onlar yuxudan oyandıqda yalnız bir gün yatdıqlarını sanmışdırlar. Onlar ac olduqlarından aralarından birini şəhərə azuqə arxasınca göndərmişdirlər. Yolda ikən o, şəhərin gözə çarpacaq qədər dəyişdiyini görmüşdür. Dükana yaxınlaşaraq dükançıdan çörək istəyərək ona pul uzatmışdır. Dükançı bu gəncin görkəminin və verdiyi pulun qeyri-adi olduğunu görüb bunu şəhər valisinə bildirmişdir. Valinin yanına gətirilən bu gənc isə olanları anlatmışdır. Bunu eşidənlər bu hadisənin üç yüz il bundan öncə baş verdiyini anlayıb, o gəncə zamanın dəyişdiyini, artıq şəhərlilərin vahid tanrıya iman gətirdiklərini qeyd etdilər. Bu dövrdə artıq Roma imperiyasında Xristianlıq hakim din olmuşdur. Bundan sonra insanlar gəncin göstərdiyi mağaraya getmiş, ancaq onlar ora gəldikdə onları mağaraya gətirən gənc və onun dostları *qeybə* çəkilmişdirlər.

Təfsirçilərə görə Əshabül-Kəhf möcüzəsi həm də, bütün insanlara öldüklərindən sonra dirilərək Allahın mühakiməsinə qatılacaqlarını xatırladır. O gənclərin dəqiq sayı haqqında *İslam* qaynaqlarında məlumat yoxdur. Bu hadisənin baş verdiyi yer də bilinməməkdədir. Başqa rəvayətlərə görə bu hadisə Tarsusda deyil, Maraşda, Şimali Afrikada, Azərbaycanda, Urumçidə (Şərqi Türküstanda) və s. yerlərdə baş verə bilərdi.

**ƏSHABÜL-KİRAM** – ***Məhəmməd peyğəmbərin ən yaxın və nüfuzlu səhabələri olmuşdurlar.*** Bu insanlar bütün həyatları boyu *Məhəmmədə* sadiq olmuş, *İslam* dininin yayılması üçün əllərindən gələnləri əsirgəməmişdirlər. Müsəlman çoxluğu hesab edir ki, bunlar *Əbu Bəkr, Ömər, Osman, Əli, Əbu Zər Ğəffari* və s. kimi böyük səhabələr olmuşdurlar.

**ƏSHABÜL-QARYƏ** – ***Allahın peyğəmbərlərini tanımayan, onlara hörmət bəsləməyən müəyyən bir yerin sakinləri olmuşdurlar.*** Rəvayətlərə görə bu yer Antakyadır (Antioxiya). Oraya *Allah* öncə iki, daha sonra bir *peyğəmbər* göndərmişdir. Bu peyğəmbərlər Allahın göndərdiyi elçilər olduqlarını bildirdikdə, Əshabül-Qaryə onları rədd etmişdir (*Quran*, 36: 15). Bundan sonra onlar peyğəmbərləri daşlayaraq qorxutmaq istəmişdirlər. Rəvayətlərə görə *Həbib Nəccar* adlı bir şəxs onlara yaxınlaşmış və Allaha iman etmələrini istəmişdir. Azğın-

laşmış qövm isə onu daşqalaq edib öldürmüşdürlər. Allah isə onu *cənnətlə* mükafatlandırmışdır (36: 26-27). Bundan sonra Allahın peyğəmbərləri onlardan üz döndərmişdir. Sonra isə Allah onları cəzalandıraraq məhv etmişdir (Quran, 36: 29). Bu hadisə ilə əlaqədar müxtəlif fikirlər vardır. Bəzi *təfsirçilərə* görə burada *İsa* peyğəmbərin həvarilərindən söhbət gedir. Digərləri isə bunu məcazi və ya nəsihət xarakterli bir hadisə kimi dəyərləndirirlər. Onlara görə Əshabül-Qaryə üç peyğəmbəri (*Musanı, İsanı və Məhəmmədi*) tanımamışdır.

**ƏSHABÜR-RƏSS** – ***Quranda (25:38) Ad və Səmud qövmləri ilə bərabər adı çəkilmiş qövm olmuşdur.*** *Allah* onları göndərdiyi *peyğəmbərlər* vasitəsi ilə doğru yola dəvət edilmişdir. Ancaq onlar bunu etməkdən imtina etmiş, yer üzündə haqsızlıqlar törətməyə davam etmişdirlər. Onlara göndərilmiş peyğəmbərləri quyulara atmışdırlar. Buna görə Allah onları məhv etmişdir. Müxtəlif rəvayətlərə görə Əshabür-Rəss qövmü ya Yəmmamədə, ya Azərbaycanda, ya da Antakyada yaşamışdırlar.

**ƏSHABÜR-RƏY** – ***əqli dəlilərə əsaslanaraq hüquqi hökm verən şəxslərdir***. *Quran* və *hədislərə* istinad edən, ancaq hər hansı bir problemin hüquqi həllini tapa bilməyən bir çox alimlər əqli dəlillərlə hökm vermək məcburiyyətində qalmışdırlar. Bu hökmlər *İslamın* ümumi ruhuna uyğun olaraq *qiyas* yolu ilə əldə edilirdi. Rəvayətlərə görə qiyasın işlədilməsini *Məhəmməd* peyğəmbər dəstəkləmişdir. Onun səhabələri bu metoddan faydalanmışdırlar.

*Peyğəmbər* müsəlman icmasında bütün *fiqhi* məsələləri özü həll edirdi. Buna görə də o dövrlərdə başqa metodlardan geniş istifadə edilmirdi. Buna baxmayaraq peyğəmbər, ayrı-ayrı durumlarda *ictihad* edərkən öz düşüncəsinin əsasında hökmlər verirdi.

Peyğəmbərin vəfatından sonra Xilafətin sərhədləri genişlənmişdir. Bu proses isə bir çox problemlərin yaranmasına gətirib çıxarmışdır. Çünki, ilk İslam qaynaqlarına əsaslanaraq bir çox yeni məsələlərin həlli istiqamətində hökmlər çıxarmaq mümkün olmurdu. Buna görə də, yeni metodlara ehtiyac var idi. İslam alimlərinin bir çoxu yaranmış problemləri öz məntiqi düşüncələri ilə çözməyə çalışmışdırlar. Bu alimlərin əksəriyyəti əsasən İraqda yaşayıb yaradırdılar. Çünki, İraq elə bir yer idi ki, orada çoxlu xalqlar və millətlər yaşayırdı və bu səbəbdən də, orada çoxlu yeni problemlər ortaya çıxırdı. Bu baxımdan da orada çoxlu hüquqi məktəblər ortaya çıxmışdır. Bu məktəbləri "İraq məktəbi", onun davamçılarını isə "Əshabür-Rəy" adlandırmışlar.

Bununla belə, Hicazda Məhəmməd peyğəmbərin dövründən qalan siyasi-ictimai mühit saxlanılmaqda idi. Buna görə, burada rəy metodunun geniş istifadə olunmasına ehtiyac olmamışdır. Bu səbəblə də, burada problemlər birbaşa ilkin mənbələrə əsaslanaraq həll olunurdu. Bu məktəbin mərkəzi *Mədinədə* yerləşdiyindən, onu "Hicaz məktəbi" adlandırırdılar. Daha sonra Hicaz və İraq hüquq məktəblərinin davamçıları arasında sıx bağlantılar qurulmuş, onların metodları bir-birinə qarışmışdır.

**ƏSHABÜS-SÜFFƏ** – ***Mədinə məscidinin ətrafında Süffə adlanan yerdə, oxuyub-yazmağı və dinin əsasını öyrənmək məqsədi ilə bir araya gələn səhabələrdir.*** Rəvayətlərə görə onların sayı səksən və ya bundan bir qədər çox olmuşdur. Onlar Süffədə məskunlaşaraq *peyğəmbər* vasitəsi ilə dini biliklərə sahiblənən yoxsul insanlar idilər. Əshabüs-Süffə əsl *abidlik* nümunəsidir. Onlar bütün ömürlərini *Allaha* ibadət etməklə keçirmiş, yalnız ehtiyac olanda *məsciddən* kənara çıxmışdırlar. Bununla yanaşı, Əshabüs-Süffə bacardıqları qədər tələbat-

larını ödəmək məqsədi ilə əməklə də məşğul olmuşdurlar. *Quranın* “Bəqərə” (2) surəsinin 273-cü ayəsi məhz Əshabüs-Süffə haqqında nazil olmuşdur. Məhəmməd peyğəmbər onlara qayğı göstərmiş, *Beytül-Malın* bir hissəsini onlar üçün ayırmışdır. Bununla belə, Əshabüs-Süffə təkcə yoxsul insanlardan ibarət deyildilər. Onların arasında *Məhəmməd* peyğəmbəri görmək üçün *Mədinəyə* gələn və qalmağa yerləri olmayan *ziyarətçilərdə* olmuşdurlar. Bundan başqa Əshabüs-Süffəni tərk edənlər də olurdu. Onların yerlərinə isə başqaları gəlirdi.

Əshabüs-Süffə aramsız ibadət edib, *oruc* tutmaqla yanaşı dini elmləri də öyrənirdilər. Məhəmməd peyğəmbərlə yanaşı bəzi tanınmış səhabələr də onlara dinin əsasını və digər dini məsələləri öyrədirdilər.

Əshabüs-Süffəni *İslamda* ilk *elm* ocağı kimi dəyərləndirmək mümkündür. Əshabüs-Süffə davamlı olaraq Məhəmməd peyğəmbəri izləmiş və onun söylədiyi ifadələri, etdiyi davranışları nəql edərək *hədis ravilərindən* olmuşdurlar. Məhəmməd peyğəmbər onlardan ən savadlılarını müxtəlif qəbilələr arasında İslamı təbliğ etmək üçün fəth olunmuş yeni ərazilərə göndərirdi.

*Mədinəyə* İslam dini ilə tanış olmağa gəlmiş çoxlu sayda insan Əshabüs-Süffədən elm öyrənmişdir. İslamın ilk *müəzzinləri* – *Bilal Həbəşi* və *Abdullah ibn Ümm Məqtum*, eləcə də *Əbu Zər Ğəffari*, Hüzeyfə, Əmmar, Həbbab, *Səlman Farisi, Süheyb Rumi*, Ukbə ibn Əmir kimi görkəmli səhabələr də Əshabi-Süffədən olmuşdurlar. Müxtəlif tədqiqatçılar hesab edirdilər ki, “süffə” sözündən “sufi” sözü yaranmışdır. Sufi kitablarında Əshabi-Süffə ilk müsəlman *abidləri* kimi anılırlar.

**ƏSHABÜŞ-ŞƏCƏRƏ** – ***Məhəmməd peyğəmbərə Hüdeybiyədə beyət edən, bununla da Allahın rizasını qazanmış səhabələrdir.*** Onların ümumi sayı 1400-ə yaxın olmuşdur. Hansı ki, bu müsəlmanlar İslamın yayılması və güclənməsində müstəsna rola sahib olmuşdurlar. Onlar o dövrdə *İslamın* himayədarlarına çevrilmişdirlər.

**ƏSMAÜL-HÜSNƏ** – ***Allahın gözəl adlarıdır.*** Müsəlmanlar ibadətlərdə onları *zikr* edərlər. *İslama* görə Allahın sifətlərini əks etdirən Ər-Rəhman, Əs-Səməd, Əl-Baqi, Əl-Qadir kimi çoxsaylı adları vardır. Bu adların hər biri Onun xüsusiyyətlərini əks etdirir. *Quranda* (7: 180) da “Əsmaül-Hüsnə” ifadəsi istifadə edilməkdədir. İslam ənənəsinə görə Allahın 99 adı vardır.

**ƏSR** – ***günortadan sonrakı vaxtdır***. O zaman müsəlmanlar *vacib* olan eyni adlı *namazı* qılırlar. Əsr namazının vaxtı *zöhr* namazının vaxtı bitdikdən sonra başlayır. O zaman hər bir şeyin kölgəsinin uzunluğu, onların uzunluğuna bərabər olmalıdır. Bu namazı günəşin batmasına az qalmış bitirmək lazımdır.

**ƏSRİ-SƏADƏT** – ***xoşbəxtlik əsri deməkdir.*** Məhəmməd *peyğəmbərin* və onun səhabələrinin yaşadığı dövr belə adlanır. Əsri-Səadətdə *Məhəmməd* peyğəmbər və onun səhabələrinin başçılığı ilə müsəlmanlar bütün sahələrdə böyük uğurlar əldə etmişdirlər.

**ƏSVƏD ƏNSİ** (11/632-ci ildə vəfat etmişdir) – ***Ərəbistanın yalançı peyğəmbərlərindən biri olmuşdur.*** O, özünü *peyğəmbər* elan edərək Sənanı ələ keçirmiş və özünü Yəmənin başçısı kimi tanıtmaq istəmişdir. Əsvəd Ənsinin təqiblərinə dözməyən *Məhəmməd* peyğəmbərin Yəmənə göndərdiyi *zəkat* toplayanlar bu bölgədən çıxmalı olmuşdurlar. Daha sonra Əsvədə qarşı Firuz Deyləminin başçılığı altında *İslam* ordusu yürüşə çıxdı. Müsəlmanlar Əsvədin güclərini dağıdaraq onu döyüşdə öldürdülər. Bu hadisə

Məhəmməd peyğəmbərin vəfatına bir gün qalmış baş vermişdir.

**ƏŞƏRİ ƏBÜLHƏSƏN** (260/873 – 330/985) – ***görkəmli İslam mütəfəkkiri olmuşdur.*** İraqın cənubunda yerləşən Bəsrədə yaşamışdır. İslamda *kəlam (I) məzhəblərindən* biri olan *əşərilik* onun adı ilə bağlıdır. Rəvayətlərə görə onun soyu *Məhəmməd* peyğəmbərin səhabəsi olmuş *Əbu Musa Əşəriyə* gedib çıxır.

Əbülhəsən Əşəri öncə *mütəzili* olmuşdur. Təxminən qırx yaşında öz düşüncəsini dəyişmiş və ənənəvi İslam düşüncəsini mənimsəmişdir. O, İslam inancının və kəlamının müxtəlif məsələləri üzrə əsərlərin müəllifidir. İlk əsərləri mütəzili kəlamına həsr olunmuşdur. Əbülhəsən Əşəri "Kitabül-Fusul" (Dindən çıxan və yollarını azmışlar haqqında kitab) əsərində müxtəlif dini təlimləri (xristianlığı, yəhudiliyi, zərdüştiliyi və brahmanizmi), İslamdakı müxtəlif *təriqət* və cərəyanları, filosofların düşüncələrini tədqiq etmişdir. O, "Kitabül-Fünun" (Yollarını azmışlardan bilgi kitabı), "Məqalətül-Fələsifə" (Filosofların dedikləri), "Əl-İbanə" (Dinin əsaslarının anlatması) kitablarında da araşdırmalarını davam etdirmişdir.

Əbülhəsən Əşəri "Əl-Lumə" (Dindən çıxan və yolları azmışlar haqqında parlaq kitab) adlı əsərində İslamın dini dünyagörüşün təmələri haqqında öz düşüncələrini açıqlamışdır. Bu kitabında *Quranın* mahiyyəti, Tanrının *iradəsi, Allahı* görməyin imkanları, alın yazısı və *imamət* problemləri üzrə bir-çox məsələləri də düşüncədən keçirmiş, öz fikirlərini ortaya qoymuşdur. Bu kitab Avropa dillərinə də tərcümə edilmişdir.

Əşərinin kəlama aid yazdığı "Məkalət əl-İsləmiyyin" (Allaha qulluq edənlər nəyi deyib, nədə fərqləndikləri haqqında) kimi başqa kitabları da olmuşdur. Bunlarla yanaşı, Əşəri Quranın *təfsiri* və *fiqh* problemləri üzrə çoxsaylı kitablar da yazmışdır.

**ƏŞƏRİLƏR** – ***ən çox yayılmış etiqadi məzhəblərdən birinin davamçılarıdırlar.*** Bu *məzhəbin* adı görkəmli müsəlman mütəfəkkiri *Əbu Həsən Əşəri* ilə bağlıdır. O, böyük müsəlman kəlamçısı *Əbu Mənsur Maturidi* (260/873 – 330/985) ilə eyni dövrdə yaşamışdır. Əbu Həsən Əşəri o zamanlar *İslam* dünyasının ictimai, hüquqi və *fəlsəfi* mərkəzlərindən biri olmuş Bəsrədə yaşayıb-yaratmışdır. O dövrdə burada müxtəlif *məzhəblərin* davamçıları arasında ideoloji polemikalar gedirdi. O, uzun müddət *mütəzili* kəlamçısı kimi tanınmışdır. Sonra öz baxışlarını dəyişərək, mütəzililikdən ayrılıb ənənəvi İslam *kəlamının (I)* əsaslarını qoyan ilk mütəfəkkirlərdən olmuşdur.

O dövrdə İslam əqidəsinə fəlsəfi baxımdan yanaşma və dini müddəaların sistemləşməsi zərurəti yaranmışdır. Bu da ilk öncə *Quran və hədislərdə* müxtəlif məsələlərlə bağlı tənqidlərə tutarlı məntiqi cavabların verilməsi zərurətindən irəli gəlmişdir. Dini problemlərin kəlam baxımından həll olunması, onların düşüncə baxımından sistemləşdirilməsi olmadan çoxsaylı tənqidçilərlə uğurlu polemikalar aparmaq olmurdu. O dövrdə Quran və hədislərin ənənəvi *təfsir* metodları müxtəlif dini-fəlsəfi məzhəblərin davamçılarının dəlillərinin qarşısında davam gətirmirdi.

*Fəlsəfə* və kəlam metodlarının yaxşı bilicisi olan Əbu Həsən Əşəri ənənəvi İslam düşüncəsini mənimsədikdən sonra fəlsəfi metodları kəlam elmində istifadə etməyə başlamışdır. Bu metodlardan faydalanan ənənə tərəfdarları olan mütəfəkkirlər sonralar bir çox məsələlərə aydınlıq gətirmiş, etiqadla bağlı problemləri sistemləşdirilmiş, tənqidçilərə qarşı uğurlu polemikalar apara bilmişdirlər. Beləliklə Əşəri *Allahın* endirdiklərini düşüncənin dəlilləri ilə uyğunlaşdırması problemini çözməyə çalışmışdır.

Burada Əşəri ilk olaraq inancla düşüncənin dəlilləri arasındakı əlaqələri

araşdırmışdır. Bu iki kateqoriyalar arasındakı bütün ziddiyyətlər aradan qaldırılmalı idi. Buna nail olmaq üçün müsəlman çoxluğunun inancına uyğun olan fundamental və sistemli dünyagörüşü ortaya çıxarılmalı idi. Əşəri *vəhyi* əqli dəlillərlə isbatlamağa çalışırdı. Ancaq, onun düşüncəsinə görə dinin təməlləri şərtsiz olaraq qəbul edilməli, yalnız bundan sonra onların məntiqi düşüncə ilə anlaşılması problemi ortaya qoyulmalı idi. Başqa sözlə o, dinin əsaslarının isbatlanmasında əqli dəlillərinin əhəmiyyətini tanısa da, Allahın nazil etdiyi vəhyin qəbul edilməsinin vacibliyini vurğulayırdı. Beləliklə də, əşərilikdə əqli dəlillər inanca tabe edilir və yalnız bundan sonra o istifadə oluna bilər.

Əşərilərin Allahın sifətləri barəsində baxışı daha çox *maturidilərin* düşüncələrinə bənzərdir. Əşərilər Allahın sifətlərini üç hissəyə bölürlər:

1. Yaradılmış varlığın deyil, yalnız Allaha məxsus olan sifətlər (Sifətüs-Səlbiyə). Onlar altıya bölünür: Birlik (Vəhdəniyyət), Varlıq (Qidəm), Əbədilik (Bəqa), Bənzərsizlik (Müxalifətül-Həvadis), Ehtiyacsızlıq (Qiyam Binəfsihi), Varlıq (Vücud);

2. İsbatlayıcı sifətlər (Sifətüs-Sübutiyyə). Onlar yeddiyə bölünür: Dirilik (Həyat), Bilmək (Elm), Eşitmək (Səmi), Görmək (Bəsar), İstək (İradə), Güc (Qüdrət), Söyləmək (Kəlam);

3. Allaha məxsus olan sifətlər (Sifətül-Əsma). Onlar da yeddiyə bölünür: Diri (Həyy), Hər şeyi bilən (Alim), İradəli (Mürid), Qadir; Eşidən (Səmi), Görən (Bəsir), Danışan (Mütəkəllim).

Əşəri bütün yaradıcılığında Quran, eləcə də hədislərə istinad etmişdir. *Peyğəmbərin* səhabələrindən, onların da davamçıları olmuş sonrakı nəsillərdən nəql edilmiş, onun dövrünə qədər gəlib çatmış ənənəvi İslam dünyagörüşünü dəstəkləmişdir. O, hədislərin bir və ya bir neçə ravidən rəvayət edilməsi məsələsinə varmamışdır. Əşərilər səhabələrin hamısını tanıyır və hörmətlə yanaşırlar. Onlar ilk dörd *Raşidi xəlifənin* dövrünü qəbul edirlər.

*Kəramətlə* bağlı məsələlərdə əşərilər onları Allahın ayrı-ayrı imanlı insanlara verdiyi mənəvi durum kimi dəyərləndirirlər. Ancaq, onlara görə kəramət Allahın peyğəmbərlərinə verdiyi möcüzədən fərqli anlayışdır.

Allahın sifətləri məsələsində Əbu Həsən Əşərinin baxışları *mücəssimilərdən* və mütəzililərdən fərqlənirdi. Quranda sözü keçən Allahın üzü, əlləri və bu kimi başqa anlayışlarına gəldikdə Əşəri mütəzililərdən fərqli olaraq onların var olduğunu qəbul etmişdir. Eyniliklə o, bu məsələ üzrə Tanrını insana bənzədən mücəssimələrin baxışları ilə də razılaşmamışdır.

Əşəri Quranda olan Allahın üzü, əlləri ilə başqa bu kimi anlayışları *məcaz* kimi qəbul edirdi. Xüsusən də o, "Lümə" əsərində mütəzililər kimi "Allahın əli" anlayışını Tanrı gücünün göstəricisi kimi anlamışdır. Alın yazısı və insanın *iradə* azadlığı problemində Əşəri mütləq alın yazısı və mütləq iradə azadlığını qəbul edənlər (*qədərilərin və cəbrilərin*) arasında olan orta yolu tutmuşdur. Onun təlimində hər bir insan etdiklərinə görə cavab verəcək. Ancaq, Tanrının alın yazısı da vardır, çünki belə olmasa Allahın hər şeyi yaratması, bilməsi və güclü olması kimi özəllikləri sual altına qoyulmuş olur. Buna görə də, Əşəri insanın davranışının Allahdan gəldiyi fikrini irəli sürmüşdür. İnsan isə bunu öz iradəsi ilə davranışına uyğun olaraq mənimsəyir ("kəsb" edir). "Kəsb" insanın Allahın istəyi ilə özünün düşünülmüş hərəkətlərinin birləşməsidir. Əşərilərə görə insanın Allahın yaratdığı kəsbə təsiri yoxdur. Bu məsələdə onların baxışları maturidilərdən fərqlənir. Buna görə də, əşəriliyin tənqidçiləri onun cəbriliyə yaxın olmasını iddia edirlər. *Maturidi* isə əşərilikdəki "kəsbi" tanısa da, onun insandan irəli gəldiyini iddia etdiyinə görə

qədərilərə daha yaxın olmuşdur.

Quranın "O gün neçə-neçə üzlər sevinib güləcək, öz Rəbbinə baxacaqdır!" (75: 22-23) ayəsinə münasibətini bildirən Əşəri, Allahı görməyin mümkünlüyünü danmamışdır, ancaq onu yalnız *cənnətdəki möminlər* tərəfindən görəcəyini iddia edirdi. Bununla belə, o deyirdi ki, Allahı görmənin özəlliklərini, onun necə baş verəcəyini insan düşüncəsi ilə anlamaq mümkün deyildir. Mütəzililər isə ondan fərqli olaraq Qurandakı bu ayənin mənasının məcazi olduğunu iddia edirdilər. Onlara görə, Allahın görünməsi üçün məkana ehtiyac vardır. Tanrı isə hər bir yerdən daha ucadır. Mütəzililər və əşərilərdən fərqlənən mücəssimilər isə möminlərin Allahı cənnətdə müəyyən bir görkəmdə görəcəyini iddia edirdilər.

Mütəzililərdən fərqli olaraq əşərilər və maturidilər Quranı sonsuz, eləcə də yaradılmamış Allahın *kəlamı (II)* hesab edirlər. Ancaq, üzərində yazısı olan səhifələri, eləcə də hərfləri yaradılmış olduğunu iddia edirlər.

Böyük *günahlar* məsələsinə gəldikdə mütəzililər Allah qarşısında etdiyi günaha görə üzülərək *tövbə* etməyən günahkarın mütləq *cəhənnəmə* atılacağını düşünürlər. Bu suala ifrat tərəfdən yanaşan *xaricilər* günah etmiş müsəlmanı dinsiz hesab edirlər. *Mürciilər* isə məsələyə başqa bir tərəfdən yanaşmışdırlar. Onlara görə insan inanclıdırsa nə qədər çox günahları olsa belə bağışlanacaqdır. Əşərilər isə bu ifrat yanaşma arasında orta yol tutaraq günah etmiş insanın Allahın istəyindən asılı olduğunu qəbul etmişdirlər. Allah istəyindən asılı olaraq onu cəzalandıra və ya bağışlaya bilər. Ancaq sonda günahkar müsəlmanları Allah cəzalandırsa belə, onları bağışlayıb cənnətə müjdələyəcəkdir.

Əşəri ölümdən sonra insanın *qəbir əzab*ı çəkəcəyi haqqında rəvayətləri qəbul edirdi. Müsəlmanların çoxu insanın ölümündən sonra *məzarda* bu *dünyada* etdiklərinin ilkin hesabatının veriləcəyinin başlanacağına inanırlar. Əşərilər bu baxımdan qəbir əzabını qəbul etməyən mütəzililəri kəskin tənqid etmişdirlər.

Müxtəlif müsəlman qrupları arasındakı çəkişmələr *şəfaət* problemi üzrə də aparılmışdır. Hədislərə görə *qiyamət* günü Allah Məhəmməd peyğəmbər başda olmaqla bütün elçilərə günahkar müsəlmanlar üçün şəfaətçi olmaq vəzifəsini verəcəkdir. Bunun sonunda günahkar müsəlmanlar cəhənnəm əzabından qurtulub, cənnətə girəcəklər (Quran, 20: 109).

Ancaq, mütəzililər şəfaəti inkar etmişdirlər. *Şiələr* isə təkcə peyğəmbərin deyil, müqəddəs və günahsız saydıqları Məhəmməd peyğəmbərin soyundan olmuş *imamların* da şəfaətçi olacaqlarına inanırlar. Əşəri isə şəfaətçi kimi yalnız Məhəmməd peyğəmbərin olduğunu iddia edirdi.

Əbu Həsən Əşərinin dini dünyagörüşü imkan verirdi ki o, bütün dini və fəlsəfi dünyagörüşünə mənsub insanlarla polemikalar aparsın. Buna görə də onun təlimi çox sayda müsəlmanların arasında bəyənilərək yayılmışdır. Buna görə də, Əşərini ənənəvi İslam düşüncəsinə sahib müsəlmanların öndəri (imamı) adlandırırdılar. Sonralar onun metodlarını davamçıları inkişaf etdirmişdirlər. Onların arasında tanınan mütəfəkkir Məhəmməd Bakillani (403/1013-cü ildə vəfat etmişdir) də olmuşdur.

Sonralar əşəriliyi *sələfilər* də tənqid etmişdirlər. Əşəriliyin başqa bir tanınan tənqidçisi *İbn Həzm* olmuşdur. Onun fikrincə əşərilər *cəbrilər* (alın yazısı ilə istək üzrə) və mürciilərin (böyük günahlar işlətmişlər üzrə) dediklərini təkrarlamışdırlar. Ancaq, bütün bu tənqidlərə baxmayaraq Əbu Həsən Əşərinin təlimi İslam dünyasında geniş yayılmışdır.

**ƏŞHURÜL-HURUM** – ***İslamın təqviminin Zülqədə, Zülhiccə, Məhərrəm və Rəcəb adlanan"haram" aylarıdır.*** Qədim ərəblərin inanclarına görə bu aylar boyu müharibələrin aparılması, eləcə də *Kəbə* ətrafında ov etmək *haram* edilmişdir. Bu qadağalar Kəbəyə *ziyarətə* gələnlərin təhlükəsizliyi üçün lazımlı idi. Buna görə də, o zaman Kəbədə ticarət canlanır, tacirlər böyük gəlirlər əldə edirdilər. Ancaq istisna durumlarda müharibələr qaçınılmaz olduqda, ərəblər "haram" aylarını təqvimdə önə və ya geriyə çəkirdilər. İlk müsəlmanlarda da bu haram aylar olmuşdur. Bu aylar *Quranda* da (9: 36) *zikr* edilmişdir. Hicrətin ikinci ilinin *Rəcəb* ayında müsəlmanlar bu aylardakı müharibələrin aparılmasına qoyulmuş yasağı pozmuşdurlar. O zaman Abdullah ibn Cəhşin başçılığı altında müsəlmanların kiçik dəstəsi məkkəlilərin karvanına hücum etmişdir. Döyüşdə məkkəlilərdən biri öldürülmüş, ikisi isə əsir götürülmüşdür. Döyüşdə uğur qazanan müsəlmanlar, *Mədinəyə* əldə etdikləri *qənimətlərlə* qayıtdıqda, *Məhəmməd peyğəmbər* onları yasaq ayda döyüşdüklərinə görə qınamış, onlara bunu buyurmadığını qeyd etmişdir. O, isə onları yalnız kəşfiyyat üçün göndərmişdir. Məkkə *bütpərəstləri* isə bu hadisədən yararlanaraq müsəlmanları haram ayları pozmaqda günahlandırmağa başladılar. Buna görə də, müsəlmanlar çətin bir vəziyyətdə qalmışdırlar. Ancaq, bir qədər sonra Məhəmməd peyğəmbərə *Allahdan* onları təmizə çıxaran ayə nazil olmuşdur (Quran, 2: 217).

Bununla da, haram hesab edilən aylarda müharibələrin aparılmasına qoyulmuş yasaq ortadan qaldırılmışdır. Ancaq, buna baxmayaraq *İslamda* "haram" aylar müqəddəs hesab edilir. Çünki, bu barədə Quran (5: 2) ayəsi də vardır. Buna görə də, bəzi müsəlman hüquqçuları bu aylarda müsəlmanların müharibə etməsini məsləhət görməmişdirlər, yalnız öncə başlanmış müharibənin davam etdirilməsinə icazə vermişdirlər. Ancaq, haram aylarda ölkəyə hücum edən düşmənlərə qarşı döyüşmək *vacibdir.*

**ƏYKƏ** – ***Şüeyb peyğəmbəri tanımayan, onu yalançı adlandıran qövm olmuşdur.*** Buna görə Allah onları cəzalandırmışdır. Bu hadisə *Quranda* (26: 176-184) da anılmışdır.

**ƏYYAMÜT-TƏŞRİQ** – ***Zülhiccə ayının on birinci, on ikinci və on üçüncü günləridir.*** Bu günlərdə müsəlmanlar *Allaha* qurbanlar kəsir, *dualar* edirlər.

**ƏYYUB** – ***Qurana görə İsrail oğullarına göndərilən elçilərdən biri olmuşdur.*** Onun *İshaq* peyğəmbərin soyundan olduğu bildirilir. Əyyub bir-çox müsbət xüsusiyyətləri ilə yanaşı, sonsuz *səbri* və kamil imanı ilə digərlərindən fərqlənirdi (*Quran*, 38: 44). Rəvayətlərə görə Əyyub Şamda (Suriya) yaşamış və zəngin bir şəxs olmuşdur. Ayrıca o, ətrafında olan yoxsullara da yardım etmişdir. *Allah* Əyyubu *peyğəmbər* təyin etdikdən sonra o, yaşadığı yerdə dini yaymağa başlamışdır. Onun bir-neçə övladı olmuşdur.

Rəvayətlərə görə Allah Əyyub peyğəmbəri sınağa çəkmək istəmişdir. Qısa bir zamanda o bütün var-dövlətini itirmişdir. Bu xəbəri ona çoban görkəminə girmiş *şeytan* çatdırmışdır. Ancaq Əyyub bu sınaqdan uğurla çıxaraq var-dövlətin Allaha məxsus olduğunu qeyd etmiş, Onun istədiyi vaxtı geri ala biləcəyini söyləmişdir. Sonra Allah Əyyub peyğəmbəri yeni ağır sınağa çəkmişdir. Güclü zəlzələ nəticəsində onun bütün övladları həlak olmuşdur. Bu xəbəri də ona övladlarının müəllimi görkəminə girmiş şeytan çatdırmışdır. Əyyub peyğəmbər bu fəlakətə də səbir edib, Allahın istəyinə tabe olduğunu bildirdi. O qeyd etmişdir ki, övladları ona Allah vermiş və istədiyi vaxtda onları ondan ala bilər. Sonra Əyyub peyğəmbər ağır

xəstələnmiş, durumu gündən-günə ağırlaşmış və hətta gəzə bilməmişdir. Bütün qohumları ondan uzaqlaşmışdır. Yalnız Əyyub peyğəmbərin həyat yoldaşı onun yanında qalmış, ona qulluq etmişdir. Bu dəfə də Əyyub peyğəmbər Allaha şükürlər edib, Onun istəyinə tabe olduğunu bildirmişdir. Bu zaman şeytan şəhərdə Əyyubun yoluxucu xəstəliyə tutulduğunu və bu xəstəliyə şəhər sakinlərinin də yoluxa biləcəyi xəbərini yaymışdır. Bunu eşidən adamlar Əyyubu və arvadını şəhərdən qovmuşdurlar. Onlar da şəhərin ətrafında bir yerdə məskunlaşmağa məcbur qalmışdırlar. Əyyubun xəstəliyi yeddi il sürsə də, o bir kərə belə olsun bu ağır vəziyyətindən narazılığını bildirməmişdir. Şeytan isə Əyyubun arvadını ondan boşanmasına təhrik edirdi. Bir gün Əyyub xəstəliyi dözülməz bir həddə çatdıqda Allaha *dua* etmiş (Quran, 21: 83) və Allah bu duanı eşidərə, onun yanına Cəbrayılı göndərmişdir. O da Əyyuba böyük mükafatın veriləcəyi xəbərini çatdırmışdır. Allah Əyyub peyğəmbərə onun sağlamlığını, var-dövlətini, övladlarını geri qaytarmış və bundan da artığını vermişdir (Quran, 21: 84, 38: 43). Belə ki, Allah ona möcüzələr göstərmək bacarığını vermiş və o uzun ömür sürmüşdür.

**ƏZAZİL** – ***şeytanın adlarından biridir.*** Bu ad nə *Quranda*, nə də *hədislərdə* qeyd edilməmişdir. Buna baxmayaraq ona bəzi qaynaqlarda rast gəlmək mümkündür. Orada Əzazilin şeytanın ilk adı olduğu bildirilir. Ola bilsin ki, bu ad İslama *israiliyyatdan* keçmişdir.

**ƏZRAQİLƏR** – ***xaricilərin ən aşırı qruplarının birinin davamçıları olmuşdurlar.*** Əzraqiliyin yaradıcısı Nafi ibn Əzraq (66/685-ci ildə vəfat etmişdir) olmuşdur. Onlar Xilafətə qarşı çıxaraq onlarla müharibələr aparmışdırlar. Xilafətə qarşı çıxış etməyənləri isə dinsiz adlandırıb öldürürdülər. Nafi ibn Əzraq onlara qarşı olanların qadınlarını və uşaqlarının da öldürülməsinə hökm vermişdir. Onlar böyük *günah* işləmiş hər bir müsəlmanı dinsiz hesab edirdilər. Belə insanları *İslamdan* çıxmış bilib, *cəhənnəmdə* sonsuzluğa qədər övladları ilə birlikdə qalacaqlarına inanırdılar. Əzraqilər onların inanclarını paylaşmayanların yaşadıqları yerləri *Darül-Hərb* adlandırırdılar. Bu ifrat mövqe tutan dini qrup günümüzə qədər gəlib çatmasa da, bu gün onların inanclarının elementlərini daşıyan müəyyən dini qrup və ya cərəyanlar vardır.

**ƏZRAYIL** – ***ölüm mələyidir.*** *Quran* və *hədislərdə* ona *Mələkül-Mövt* deyilir. *Allaha* ən yaxın 4 mələkdən biridir. Əzrayıl Allahın istəyi ilə insanların canını alan mələkdir. O, Allahın əmri olmadan insanların canını ala bilməz (Quran, 32: 11). Əzrayıl vəzifəsini yerinə yetirərkən bu işdə ona çoxlu digər *mələklər* yardım edirlər. *Möminlərin və kafirlərin* canlarını alan mələklər fərqlidirlər (Quran, 79: 1-2).

# F

**FAİZ** – bax: **RİBA**.

**FANİ** – ***sonlu və keçici olan hər bir şeydir.*** *İslama* görə *Allahdan* başqa hər şey fanidir. Bu barədə *Quranda* da (28: 88) *ayə* vardır. *Möminlər* inanırlar ki, *dünyada* həyat keçici olsa da, *axirət* həyatı əbədidir.

**FASİD** – ***korlanmış bir şey və ya doğru əməldən çəkinməkdir***. Bu ifadə "pozulmuş" sözünə yaxın məna kəsb edir. İslam *məzhəblərinin* çoxu insanlar arasındakı müxtəlif münasibətlərlə bağlı məsələlərdə "fasid"

ifadəsini "*batil*" anlayışı ilə bir mənada işlədirlər. Hənəfi məzhəbində isə bu anlayışlar bir qədər fərqli mənada istifadə edilir. Ticarət münasibətlərində *şəriətə* uyğun olan əsaslar pozulmuşdursa o "batil", *şərtləri* pozulmamışdırsa "fasid" hesab edilir. Bu zaman fasid alış-veriş baş tutmuş, ancaq korlanmış hesab edilir.

**FASİQLƏR** – ***fiqhə görə davamlı olaraq günah işləyən insandır.*** *Quranın* bir-neçə yerində (49: 6, 49: 11) fasiqlər haqqında məlumat verilmişdir. Fasiqlər *Allahı* və dini inkar etmir. Sadəcə dinin buyruqlarını yerinə yetirmirlər. Onlar dindən çıxmasalar da, günahkar müsəlman olaraq qalırlar. Ancaq ənənəvi olaraq fasiqlərin məhkəmələrdə *şahidlik* etmələrinə yol verilmir. İslam *məzhəblərdə* böyük *günahlar* törətmiş insanlarla əlaqəli müxtəlif hökmlər vardır. Məsələn, *xaricilərə* görə onlar dinsiz sayılır və *cəhənnəmə* atılacaqlar. *Mütəzililər* isə fasiqləri nə müsəlman, nə də dinsiz hesab edirlər. Onlara görə günahkarlar bu *dünyada* şübhə içində qalmaqdadırlar. Onlar etdiklərindən *tövbə* etsələr Allah onları bağışlayacaqdır. Bunu etməsələr cəhənnəmə atılacaqlar, ancaq əzablarının ağırlığı *kafirlərdən* yüngül olacaqdır. Bu yanaşma mütəzili inancının ən başlıca prinsiplərindən biri olmuşdur.

**FATİMƏ BİNT MƏHƏMMƏD** (11/633-cü ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin qızı olmuşdur.*** O, *Məkkədə*, atasına *peyğəmbərliyin* verilməsindən beş gün sonra doğulmuş, onun vəfatından bir neçə ay sonra isə dünyasının dəyişmişdir. *Fatimə Əli ibn Əbu Talibin* həyat yoldaşı olmuşdur. Onların evliliyindən *Həsən, Hüseyn,* Mühsin adlı oğlanları və *Zeynəb,* Gülsüm adlı qızları dünyaya gəlmişdir. Onun torpağa tapşırıldığı yer məlum deyildir.

Müsəlmanlar Fatiməni: Siddiqə, Mübarəkə, Tahirə, Zəkiyyə, Raziyyə, Mərziyyə, Mühəddisə, Zəhra adlarlı ilə də tanınmışdır. Ümumilikdə, Fatimə heç bir zaman siyasətə qatılmamışdır. Rəvayətlərdən də məlumdur ki o, *Məhəmməd* peyğəmbərin vəfatından sonra ona məxsus olan Fədək və Xeybər məntəqələrində olan bağları xəlifə *Əbu Bəkrdən* istəmiş, ancaq o onun istəyini yerinə yetirməmişdir. Bunu da onunla izah etmişdir ki, Məhəmməd peyğəmbərdən eşitdiyi bir *hədisə* görə peyğəmbərlər özlərindən sonra miras qoymazlar, onların hər şeyi *beytülmala* məxsus olmalıdır. Fatimə bütün müsəlmanlar arasında hörmətlə anılan bir qadın olmuşdur. Ancaq, *şiələrin* ona qarşı xüsusi sevgisi vardır. Onlar Fatiməni Məhəmməd peyğəmbər və 12 imamla bərabər məsumlardan hesab edirlər. Orta əsrlərdə İsmaili *təriqətindən* olan Fatimi xanədanı *Misirdə* xilafət qurduqda öz soylarının Fatimədən gəldiyini iddia etmişdirlər. Müxtəlif "ifrat" təriqətlər arasında ona qarşı bəslənilən sevgi və hörmət, hətta onun tanrılaşdırılmasına gətirib çıxarmışdır.

**FƏCR** – ***dan yeri ağaran vaxtdır.*** Bu vaxtdan başlayaraq günəş doğana qədər *vacib* olan *sübh namazı* qılınmalıdır.

**FƏQİH** – ***fiqh alimi və ya İslam hüququnun mahir bilicisidir.*** Müstəqil olaraq hüquqi hökmlər verə bilən fəqihlər şiə məzhəbində müctəhid adlanırlar. Onlar başqa müctəhidlərin hökmlərindən asılı deyillər, yalnız *İslam* mənbələrinə istinad edərək öz hökmlərini çıxarırlar. Adi fəqih müctəhid dərəcəsinə çatmayıbsa, hüquqi hökmləri irəli sürərkən müctəhidlərin hökmlərinə istinad etməlidir. Fəqihin verdiyi hüquqi hökm *fətva* adlanır.

İslamın ilkin dövrlərində fəqihlər *Məhəmməd* peyğəmbərin yanında çox vaxt keçirmiş və dərin elmi biliyə sahib səhabələr olmuşdurlar. Bəzi rəvayətlərə görə onların

sayı 130-a yaxın olmuşdur. Məhəmməd *peyğəmbərin* vəfatından az sonra onun səhabələrinin, eləcə də onların davamçılarının adları ilə bağlı olmuş *fiqhi məzhəblər* yaranmağa başlamışdır. Sonralar onlar inkişaf etmiş, ortaya öz metod və sistemlərini qoymuş və fiqhdə öz ənənələrini yaratmışdırlar. Bu məzhəblərin bir çoxu günümüzə qədər gəlib çatmamışdır. İndi İslamda *Hənəfi, Maliki, Şafii, Hənbəli, Cəfəri, Zeydi* və *Zahiri* kimi fiqhi məzhəblər mövcuddur.

**FƏQİRLƏR** – ***yoxsulluq və ehtiyac içində yaşayan insanlardır.*** Onlar haqqında *Quranda ayələrə* rast gəlmək mümkündür. *İslama* görə *zəkatı* verə bilməyən müsəlmanlar yoxsul hesab edilirlər. Zəngin müsəlmanlar zəkat, eləcə də digər *mal* varlıqlarından düşən payı bu insanlarla bölüşməlidirlər (Quran, 9: 60). Yoxsul müsəlmanlar qurban kəsməkdən də məsul deyillər. Fəqir sözünü geniş anlamda bütün insanlara da aid etmək olar. Çünki onlar *Allahın* varlığından asılıdırlar (Quran, 35: 15). Beləliklə, hamı yoxsuldur, yalnız Allahın heç nəyə ehtiyacı yoxdur.

Sufilərə görə bütün maddi və mənəvi hər bir şeyin Allaha ehtiyacı vardır. Bunu anlayan hər bir insan özünün yoxsul olduğunu dərk edir. Buna görə də onlar “yoxsulluq” sözünü və tərki-dünyalıq anlamında da başa düşürlər.

İki növ yoxsulluq vardır: maddi və mənəvi. Bunu dərk edən mənəviyyatlı insan özünü yoxsul hiss edir. Bu yoxsulluq duyğusu insanı var-dövlətin köləsinə çevrilməkdən qoruyur. Ancaq zəngin olmasına da əngəllər yaratmır.

**FƏLƏSTİN** – ***Aralıq dənizinin şərqində yerləşən tarixi bir ərazidir.*** Miladi tarixlə m. ö. III minillikdə orada kənanlılar adlanan sami xalqı yaşamışdırlar. Buna görə əvvəllər bu yerlərə Kənan eli də deyilmişdir. Sonra buranı fələstinlilər ələ keçirmiş və onlar burada inkişaf etmiş bir qövmə çevrilmişdirlər. Onların əsas məşğuliyyəti gəmiçilik olmuşdur.

Tarixi mənbələrə görə onlarla yanaşı burada *İsrail oğulları* da yaşamışdırlar. Sonra onların çoxu *Misirə* köçmüşdür. Sonralar onlar yenə də *Fələstinə* qayıdıb yerli xalqlarla savaşmış, onları məğlub etmişdilər. Daha sonra İsrail oğullarından *Davud* və *Süleyman* orada güclü bir dövlət yarada bilmişdirlər. Ancaq sonralar bu ölkə gücdən düşmüş, İsrail və Yəhudiyyə adlanan iki ölkəyə parçalanmışdır. Sonra İsrailin varlığına Assur imperiyası son qoymuşdur. Yəhudiyyəni isə bir neçə əsrdən sonra babillilər darmadağın edərək əhalisini sürgün etmişdir.

Makedoniyalı İsgəndərin hakimiyyətindən sonra bu yerləri onun varisləri olan Selevkoslar idarə edirdilər. Sonralar isə bu ölkəni romalılar ələ keçirmişdirlər. Onlara qarşı *yəhudilərin* bir neçə üsyanı uğursuzluqla nəticələnmişdir. Bundan sonra romalılar onların əksəriyyətini yenə də sürgün etmişdir. Bununla da, yəhudilərin o yerlərdəki dövlətçilik ənənəsi sona çatmışdır.

Sonralar bu yerlər bizanslıların, daha sonra isə *Osmanlıların* hakimiyyəti altında olmuşdur. Birinci dünya müharibəsindən sonra Fələstin ingilislərin əlinə keçmiş, 1948-ci ildə isə burada İsrail dövləti yaradılmışdır. Bununla yanaşı orada ərəb fələstinlilərinin də muxtar vilayəti vardır.

**FƏLSƏFƏ** – ***yunancadan alınma söz olaraq fəlsəfə hikmət sevgisi deməkdir.*** Yəni müdrikliyə yönəlmək anlamında istifadə edilir. Orta əsrlərdə antik filosofların metodlarına istinad etmiş filosofların əsərlərini və düşüncələrini bu sözlə ifadə edirdilər. Ən qədim dövrlərdən başlayaraq Yaxın Şərq və Aralıq dənizinin cənub sahillərində yerləşmiş bölgələrdə elmlə bərabər fəlsəfi düşüncə də

inkişaf etmişdir. Müsəlmanların bu yerlərə gəlişinə qədər burada aristotelizm, platonçuluq, pifaqorçuluq və yeni platonçuluq kimi fəlsəfi məktəblər geniş yayılmışdır. O zaman yunan və Yaxın Şərq mədəniyyətlərinin sintez olduğu yer Suriya dünya fəlsəfi düşüncəsinin inkişaf etməsində çox böyük rol oynamışdır. Porfirius, Yamblix kimi yeni platonçular bu bölgədən çıxmışdılar. Orada antik dövrün sonlarında Edessa şəhərində böyük fəlsəfi məktəb yaranmışdır.

Xristianlığın Roma imperiyasında (xüsusilə, onun Şərq bölgələrində) ölkənin rəsmi dininə çevrilməsindən sonra, din adamları imperatorluğun hakimiyyət dairələri ilə birlikdə bu dinlə rəqabət apara biləcək hər hansı ideya və inanclarla barışmaz savaş aparmışdırlar. Beləliklə, ölkə başçıları ilə anlaşmaya gəlmiş Xristian kilsəsinin davamçıları, antik fəlsəfi irsə ağır zərbələr endirmişdirlər. Bir-birinin ardınca bütün fəlsəfi məktəblər bağlanmış, filosoflar isə təqib olunurdular. Fəlsəfi kitablar tonqallarda yandırılırdı. Afinada yerləşmiş o dövrün sonuncu *elm* ocağı olmuş yeni platonçuların məktəbi də məhz 529-cu ildə imperatorun əmri ilə bağlanmışdır.

İmperiyada hakim din olan Ortodoks (Pravoslav) kilsəsinin təlimi ilə tam və ya da qismən razılaşmayan digər xristian *məzhəblərinin* davamçıları da təqib olunurdular. O zaman filosofların çoxu artıq xristianlığın monofizit və nestorian *təriqətlərini* qəbul etmişdilər. Bu təriqətləri isə rəsmi kilsə tanımamış, davamçılarını "heretik" (yollarını azmış) adlandırılmışdılar. Belə bir ağır durumda yalnız Suriyanın Edessa şəhərində bir fəlsəfi məktəb fəaliyyətini davam edirdi. Xristianlığın Roma imperiyasında tam qələbə çalmasından sonra da bu məktəbin ənənələrini rəsmi kilsə tərəfindən "heretik" adlandırılmış nestorian xristianları qoruyub saxlayırdılar.

Ağır təqiblərdən qorunmaq üçün yeni platonçular, aristotelçilər və digər fəlsəfi məktəblərin davamçıları İrana köçüb bir müddət orada fəaliyyət göstərdilər. İranın Sasani sülaləsindən olan şahları Romadan qaçdıqlarına görə onları dəstəkləyirdilər. Beləliklə, İranın ayrı-ayrı şəhərlərində, bir zamanlar antik fəlsəfi və mədəni irsi qoruyub saxlayaraq inkişaf etdirmiş elmi və fəlsəfi məktəblər mövcud olmuşdur. V – VI əsrlərdə Nüseybin və Nişapur şəhərlərində yerləşən məktəblər (akademiyalar) çox tanınmışdılar. Burada riyaziyyat, astronomiya, tibb, coğrafiya kimi elmlər öyrənilirdi. Nestorian xristianları da antik fəlsəfi və elmi irsin qoruyucuları hesab edilirdi. Onlar Bizansda xristian təəssübkeşlərindən qurtulmuş bir çox yazılı əsərləri yunan dilindən Suriya və Fars dilinə tərcümə etmişdirlər.

Müsəlmanlar Yaxın Şərqi və İranı ələ keçirəndən sonra bu məktəblərin inkişafı üçün daha da əlverişli şərait yaranmışdır. Orta əsr xristian alimlərindən fərqli olaraq erkən *İslam* ölkələrində filosofları təqib etməmişdirlər. Üstəlik böyük sürətlə inkişaf edən müsəlman cəmiyyətləri Avropa ölkələrini geridə qoymuşdular. Beləliklə, İslam mədəniyyətində antik dövrün dünyagörüşünə maraq artmağa başlamışdır. Müsəlman mütəfəkkirləri antik fəlsəfi istiqamətlərlə tanış olmuş, əsərlərində onlara istinad etmiş, filosofların metodlarını yenidən istifadə etməyə başlamışdırlar. Üstəlik o dövrlərdə İslam dininin bir çox müddəalarına yeni baxışların tətbiq edilməsi ehtiyacı da duyulurdu. Çünki, İslam dünya dininə çevriləndən sonra müsəlmanlar öncəki zamanlarda rast gəlmədikləri nəzəri və hüquqi problemlərlə üzləşməyə başlamışdılar. Onları isə yalnız *Quran* və *hədislərə* müraciət etməklə həll etmək olmurdu. Buna görə də, yeni metodlar işlənməli idi. Bundan başqa dini müddəalar sistemləşdirilməli, tənqidçilərin cavabları verilməli idi. Bütün bu kimi problemlər bəzi fəlsəfi

metodlarının dini elmlərdə istifadəsi ilə həll edilirdi. Beləliklə, müsəlman ilahiyyatında *kəlam (I)* elmi formalaşmışdır. Burada əsasən fəlsəfi metodlardan istifadə edərək dinin əsaslarını izah edilməyə və ya irəli sürülən iradlar cavablandırılmağa çalışılırdı.

Beləliklə müsəlmanlar Antik Yunan, İran və Hind fəlsəfələrinin metodlarını mənimsəmiş, onları inkişaf etdirmişdirlər. Fəlsəfəni inkişaf etdirən müsəlman filosoflar eyni zamanda İslam dininin prinsiplərinə də münasibət bildirmişdirlər. Ancaq, dini elmlərdən fərqli olaraq fəlsəfi metodlar təkcə müqəddəs kitabların deyil, həmçinin düşüncənin dəlilləri üzərində qurulmuşdur.

Beləliklə, Orta əsr İslam cəmiyyətində bir yandan müqəddəs kitabların üzərində qurulan kəlam, *təfsir, fiqh* kimi dini elmlər, digər tərəfdən isə məntiqi dəlillərə əsaslanan fəlsəfə, riyaziyyat və təbiət elmləri inkişaf edirdi.

Müsəlmanlar dünyanın bir çox yerlərinə hakim olduqdan sonra, Xilafətdə surətli inkişaf müşahidə olunmuşdur. O zaman yunan, süryani, eləcə də başqa dillərdən müxtəlif fəlsəfi və elmi əsərlərin ərəb dilinə tərcümə edilməsi dövrü başlamışdır. Bu proses o dövrdə Abbasi Xilafətinin paytaxtı və dünyada mədəniyyət mərkəzlərindən biri olmuş Bağdad şəhərində surətlə inkişaf edirdi.

Ən görkəmli orta əsr müsəlman filosofları Əl-Kindi, əl-Fərabi, İbn Sina, İbn Rüşd və s. olmuşdurlar. Orta əsrlərdə fəlsəfi düşüncənin inkişafından sonra müsəlman fəlsəfi fikri obyektiv səbəblər üzündən zəifləmişdir. Sonrakı dövrlərdə isə müsəlman dünyasında parlaq fəlsəfi fikirlər artıq irəli sürülməmişdir.

**FƏNA** – ***sufi təlimində insan “Mən”inin Tanrıda əriməsidir.*** Fəna çox az insanlar üçün açılan mənəvi yolun ən yüksək zirvələrindən biridir. Bəzi sufilərin dediklərinə görə bu durumda olanın mahiyyəti itir və o, Tanrıda əriyərək yox olur. Ancaq ənənəvi *İslama* yaxın olan sufilər fənada insanın xüsusiyyətlərinin çoxu itirilsə belə, insanın “mən”inin qalmasını iddia edirlər. Bu duruma *zikr*, eləcə də digər ülvi və yüksək duyğular vasitəsi ilə ucalmaq mümkündür. Beləliklə, fənada sufi öz yoxluğunu və yalnız Tanrının var olduğunu duyur. O insan mahiyyətini itirir, nə etdiyini bilmir. Bu durumda olan sufi onun təriqətində olan digər insanlara qardaşlıq duyğusu bəsləyir, onların istəklərini öz istəklərindən yüksək hesab edir. Eyni zamanda fəna durumunda olan sufi *şeyxinə* bağlı olmalı, öz istəklərini onun istəklərinə tabe etməlidir.

**FƏRZ** – ***edilməsi vacib olan dini əmrlərdir.*** *Quranda* və *mütəvatir hədislərdə* olan və heç bir şübhə doğurmayan Allahın buyruqlarıdır. Bu söz Quranın bir-çox *ayələrində* (33: 38, 2: 197, 3: 60, 2: 236, 4: 118) anılmışdır. Termin kimi daha çox *Hənəfi məzhəbində* işlədilir. Məsələn, müsəlmanın gündəlik beş vaxt *namazının* qılınması, *Ramazan* ayında *orucun* tutulması fərzdir. Bunları edənlər *Allah* qarşısında böyük *savab* qazandıqlarını, etməyənlərin isə Onun mərhəmətindən uzaq qaldıqlarını iddia edirlər. Bilərəkdən Allahın fərz buyurduqlarını tanımayanlar *İslamdan* çıxmış sayılırlar.

Hənəfi məzhəbində fərzlər ikidir: 1. Fərzül-Əyn – bu Ramazan ayında orucun tutulması, namazların qılınması kimi ibadətlərdir; 2. Fərzül-Kifayə – bu *cənazə* namazının qılınması, *cihad* kimi əməllərdir. Onları müsəlmanların hamısı deyil, yalnız bəziləri yerinə yetirməlidirlər.

**FƏSAD** – ***öncə yararlı olan, sonra isə korlanmış bir şey və ya hadisədir (Quran, 2: 11).*** Bu söz hər bir anlayış üçün istifadə edilə bilər. “Fəsad” sözünün mənası “fasid”

sözünün anlamına yaxındır. Bu termin daha çox hənəfi *fiqhində* istifadə edilir.

**FƏTVA** – ***fiqhdə müsəlmanların gündəlik həyatları ilə əlaqədar və ya hər hansı dini məsələdə din aliminin çıxardığı dini hökmdür.*** *Sünni* məzhəblərində bu problemləri həll edən alim *"müfti"* adlanır. Erkən dövr *İslam* tarixində də hökmlər verilmişdir. Səhabələr onları maraqlandıran problemləri *Məhəmməd* peyğəmbərdən soruşurdular. O isə bəzi səhabələrinə fətva verməyə icazə vermişdir. İstisna hallarda qadınlar da fətva verə bilərlər.

Məhəmməd *peyğəmbərin* vəfatından sonra onun bilikli səhabələri müxtəlif dini problemlər üzrə hökmlər vermişdilər. *Raşidi xəlifələr*, eləcə də Əməvi xəlifəsi Ömər ibn Əbdül-Əziz kimi ölkə başçıları hökmdarlar olmaqla yanaşı, həm də dini lider olmuşdurlar. Ancaq, sonrakı illərdə bu vəzifələr bir-birindən ayrılmışdır. Daha sonra hüquq *məzhəbləri* yaranmışdır. Onların verdikləri bütün bu hökmlər xüsusi məcmuələrdə bir araya yığılaraq İslam qanununu zənginləşdirmişdirlər. Bu da artıq həllini tapmış hüquqi problemlərə bir daha qayıtmamaq məqsədi güdürdü. Sonra bu toplular sistemləşdirilərək daha fundamental kitablara çevrilmişdir. Bundan sonra bütün *fəqihlər* müxtəlif hüquqi problemlərinin həllində, eləcə də hökmlərin verilməsində bu kitablara müraciət edirdilər.

**FƏZL İBN ABBAS** – ***Məhəmməd peyğəmbərin əmisi oğlu, eləcə də səhabəsi olmuşdur***. O, İslamı *Bədr* döyüşdən bir qədər əvvəl qəbul etsə də, bunu açıq bildirməmişdir. Müsəlmanlar *Məkkəni* fəth etməzdən az əvvəl Fəzl atası Abbasla *Mədinəyə* köçmüşdür. Fəzlin qatıldığı ilk müharibə Məkkənin fəthi olmuşdur. Bundan sonra o, *Hüneyn* döyüşündə də iştirak etmişdir. Fəzlin ölümü haqqında dəqiq məlumat yoxdur. Ehtimallara görə o, Bizans ordusu ilə Suriya uğrunda gedən döyüşlərdə həlak olmuşdur. Ancaq onun öz ölümü ilə öldüyü haqqında da rəvayətlər vardır.

**FEY** – ***İslam dövlətinin geyri-müsəlmanlardan aldığı cizyə, xərac və ticarət malları vergilərinin ümumi adıdır.*** *Xəlifə Ömər* fey gəlirlərini müsəlmanlara biri ildə bir dəfə olmaqla pul, digəri isə hər ay ərzaq olmaqla iki formada dağıtmışdır. Fey kəlməsi *Quranda* (Əhzab 33: 50; Həşr 59: 6, 7) "*qənimət* olaraq vermək" mənasında istifadə edilməkdədir.

**FİDYƏ** – ***vacib olan hər hansı bir dini ayinin icra edilməməsinə görə verilən vergidir.*** Məsələn, müsəlman xəstəliyi və ya qocalığı səbəbindən *Ramazan* ayında oruc tutmamağına görə *fitrə zəkatının* məbləğində fidyənin ödənməsidir. Fidyə haqqında *Quranda* da ayə vardır (2: 184). Buraxılan oruc günləri üçün fidyə vermiş xəstə sağalarsa, o günlərin əvəzinə oruc tutmalıdır.

**FİQH** – ***İslam hüququ bu sözlə ifadə edilir.*** İslam ənənəsində hüquqçular isə *"fəqih"* adlanırlar. *Fiqh* sözü "anlamaq" mənasında *Quranın* bir-neçə ayəsində işlədilir (4: 78). Bəzi *hədislərdə* də fiqh sözü keçməkdədir. Bu ayə və hədislərdən göründüyü kimi Məhəmməd *peyğəmbərin* sağlığında "fiqh" sözü dinin müxtəlif aspektlərində dərin bilik anlamında istifadə edilirdi. Onun zamanında, eləcə də sonrakı onilliklər boyu "fiqh" sözü dini dərindən anlamaq və bilik mənalarında işlənmişdir.

Zaman keçdikcə, bu söz daha geniş anlam daşımağa başlamışdır. İnsan-cəmiyyət, insan-tanrı münasibətləri bu sözün ifadə etdiyi dərin məna altında izah edilməyə başlanılmışdır. Peyğəmbərin sağlığında, onun *əhli-beyti* və səhabələrinin dövründə də belə olmuşdur. Ancaq zaman keçdikcə,

çözülməli olan yeni problemlər ortaya çıxmışdır. Buna görə də, müsəlman hüquqçuları fiqh elmini daha da sistemləşdirmiş, bu səbəbdən də bu *elm* olduğu kimi günümüzə gəlib çatmışdır.

*İslam* hüququnun sistemləşdirilməsi prosesi bir neçə tarixi dövrdən keçmişdir. *Məhəmməd* peyğəmbərin sağlığında İslam hüququnun başlıca qaynaqları olan Quran və hədislər meydana çıxmışdır. Bundan sonra peyğəmbərin əhli-beyti və səhabələri endirilmiş ayələri təfsir etmiş, onların mənalarını açıqlamağa cəhd etmişdirlər. Daha sonra fəqihlər İslam hüququnun əsaslarını işləyib onu sistemləşdirmişlər. O zaman İraq və Hicazda iki əsas fiqh *məzhəbləri* yaranmış, onların metodları digərlərindən fərqlənmişdir. Onlara *Əshabül-Hədis* və *Əshabür-Rəy* deyirlər. Sonra onların metodları bir-birinə yaxınlaşmışdır. Bu zaman fiqh fundamental hüquqi sistemə çevrilmişdir. Beləliklə, hicrətin III əsrinə qədər *Hənəfi, Maliki, Şafii, Hənbəli, Zeydi, Cəfər*i və *Zahir*i kimi müxtəlif hüquq *məzhəbləri* ortaya çıxmışdır.

İslam hüquq məzhəblərində bütün hüquqi hökmlər Quran və hədislərə əsaslanaraq çıxarılır (birbaşa, ya da dolayı). Ayələrdə olan əmrlər isə *Allahın* qanunu olduğundan, heç kim onları ortadan qaldıra bilməz. Bununla İslam hüququ digər bütün hüquqi sistemlərdən fərqlənir. Əgər İslam hüquqçusu bu və ya digər problemin həllini birbaşa Quran və hədislərdə və ya İslam alimlərinin *icmasında* tapmazsa, onda o *qiyas, istihsan, örf* kimi başqa hüquqi metodlarına müraciət edə bilər.

Fiqh üç əsas hissəyə bölünür: Birincisi insanın Allah qarşısında olan vəzifələri və öhdəlikləri ki, buna *ibadət* deyilir; İkincisi *müamilədir* ki, burada insanın cəmiyyətlə qarşılıqlı əlaqələrinə baxılır; Üçüncüsü üqubətdir və burada hüquq pozuntularına görə cəzalandırma məsələlərinə baxılır.

Fiqh sahəsində çalışan alimlərə fəqih deyilir. Onlar ərəb dilini, fiqhin qaynağı olan Quranı, hədisləri, eləcə də hər hansı bir məsələ üzrə alimlərin *rəy* və *qiyas* metodunu bilməlidirlər. Tələblərə görə fəqihlərin möhkəm inancı, dərin biliyi və gözəl əxlaqı olmalıdır.

**FİRDÖVS** – bax: **CƏNNƏT.**

**FİRON** – ***qədim Misir hökmdarlarının adıdır.*** Onlardan bəziləri *Quranın* bir-neçə yerində anılmışdır (7: 103). Quranda adı çəkilən *Firon* isə özünü tanrılaşdıraraq *Musa* peyğəmbər və onun xalqını ağır təqiblərə məruz qoymuşdur. Həmin Firon Musanı *peyğəmbər* kimi tanımamış, ona inam gətirənləri *Misirdən* çıxmağa məcbur etmişdir. Ancaq sonda Firon *möcüzə* ilə dənizdə boğulmuşdur. O an bağışlanmasını *Allahdan* diləsə də, Allah onu bağışlamamışdır.

**FİTRƏ** – ***Orucluq bayramının birinci günü girməmiş yoxsul müsəlmanlara verilən sədəqədir.*** Onun verilməsi *şəriətdə* vacibdir. Ev başçısı himayəsində olan hər bir kəs üçün onların yaşlarından asılı olmayaraq fitrə *zəkatını* ödəməlidir. Yığılan *sədəqələr* bütövlükdə yoxsul olan bir müsəlmana və ya bölünərək onlardan bir neçəsinə verilə bilər. Fitrənin buğda, arpa, xurma kimi məhsulla verilməsi də məqbul hesab edilir. Ancaq, müasir dövrdə fitrənin pulla verilməsi daha doğrudur. Bu fitrə zəkatının verilməsindən əsas məqsəd ondan ibarətdir ki, bayram günü yoxsul müsəlmanlar da ailələrində bayramı qeyd edə bilsinlər.

# G

**GİJDUVANİ ƏBDÜL-XALİQ** (595/1199 ildə vəfat etmişdir) – ***"Hvacaqan" adlı sufi təliminin yaradıcısıdır.*** Sonra bu təlim *nəqşibəndi* təriqətinin içində yer almışdır. Əsl adı Xoca Əbdül-Xaliq ibn Əbdül-Cəmil Qijduani olmuşdur. O, Buxara şəhəri yaxınlığındakı Qijduvan kəndində doğulmuşdur. Mənəvi yolunu görkəmli sufi Əbu Yaqub Yusif Həmədaninin başçılığı altında keçməyə başlamışdır. Qijduvani şəriətə önəm verən sufi olmuş, ayrı-ayrı sufi təriqətlərinin *İslama* gətirmək istədikləri *bidətləri* pisləmişdir. O, ucadan söylənilən *cəhri zikrinə* qarşı çıxıb, səssiz söylənən *hafi* zikrlərə üstünlük verirmiş, sufilərin sığınacaq yerləri olan *təkkələrin* tikilməsinə qarşı olmuşdur.

Qijduvani hakimiyyət və var-dövlətdən imtina etmiş, tərki-dünya, sadə yaşamağa üstünlük vermişdir. Günümüzə qədər onun tərəfindən yazılması ehtimal olunan "Təriqət risaləsi" kimi bir-neçə əsərləri gəlib çatmışdır. Qijduvaninin təliminin səkkiz başlıca prinsipi nəqşibəndi *təriqətində* bu gündə izlənilməkdədir. Ancaq, nəkşibəndilikdə bu prinsiplər daha da inkişaf etdirilmişdir.

**GİLANİ ƏBDÜLQƏDİR** – bax: **QADİRİLƏR.**

**GÜNAH** – ***Allahın və peyğəmbərinin yasaq buyurduqları işləri görmək və ya onların görülməsini istəməkdir.*** Ümumiyyətlə, ağıllı və yetkinlik yaşına çatmış insanlara qadağan olunmuş əməllərin törədilməsi günah hesab edilir. *İslam* alimlərinə görə *Allah* qarşısında günahları səbəbi ilə *tövbə* edən müsəlman bağışlana bilər. Çünki, *Qurana* (42: 25) görə Allah qarşısında tövbə edən insan bağışlanılır.

İslamda günahlar böyük və kiçik günah olmaqla iki yerə bölünür (Quran 4: 31). Ən böyük günah Allaha *şirk* qoşmaqdır. Hər hansı bir canlı və ya cansız varlıq Allaha bərabər sayaraq ona tapınılırsa, bu əməl ən böyük günah hesab edilir(Quran 4: 116). Bütün digər günahlar ağırlıq yükünə görə bu günahdan yüngül dəyərləndirilir. Bundan başqa insan öldürmək, əxlaqsız davranmaq, dinin müddəalarını və ya *peyğəmbərləri* inkar etmək kimi günahlar da böyük günahlardan hesab edilir.

Kiçik günahlar nisbətən yüngül günahlar olsa belə, onlardan da çəkinmək lazımdır. Hesab olunur ki, kiçik günahlar böyük günahlara yol açır. Buna görə də, kiçik günahı etmiş hər bir müsəlman Allah qarşısında tövbə etməlidir.

İslam ilahiyyatına görə günahsız insan yoxdur. Yalnız peyğəmbərlər (şiəlikdə həm də *əhli-beyt*) günahsız hesab edilirlər. Onların yalnız kiçik yanlışlıqlara yol verə biləcəkləri ehtimal olunur. Hansı ki, bu yanlışlıqlar insan təbiətindən irəli gələn kiçik xatalardır. Bu yanlışlıqları da Allah bağışlamışdır.

Xristianlıqda olduğu kimi insanların doğulduqları andan başlayan "ilkin günah" anlayışı İslamda yoxdur. İslama görə bütün insanlar təmiz və günahsız dünyaya gəlirlər. Onlar günahları yalnız həyatları boyu qazanırlar.

Müsəlman ilahiyyatçılarının əksəriyyətinə görə dinin əsaslarını qəbul edib yerinə yetirən insan günah etsə də, o dinsiz hesab olunmur, sadəcə günahkar müsəlman olur. Ancaq, bu məsələ haqqında İslamda fərqli görüşlərdə də olmuşdur. Məsələn, *xaricilər* böyük günah etmişləri dindən çıxmış sayırdılar. *Mütəzililər* onların inancla inancsızlıq arasında qaldıqlarını, *mürciilər* isə əməllərin inancla heç bir əlaqəsinin olmadığını qeyd edərək günahkar müsəlmanı mömin hesab etmişdirlər.

# Ğ

**ĞİNA** – ***musiqi, nəğmə oxumaq, ifa etmək kimi mənalarda istifadə edilir.*** Musiqinin hökmü barəsində müsəlman ilahiyyatçılarının arasında *ixtilaf* olmuşdur. Onlardan bir qisim hər növ musiqini *haram* kimi qəbul etmişdirlər. Onlar buna dəlil kimi *peyğəmbərin* bir neçə *hədisini* misal gətirirdilər. Digərləri isə onu *məkruh* qəbul edərək bir neçə hədisi dəlil kimi göstərirdilər. Musiqini haram və məkruh qəbul edənlər hesab edirlər ki, musiqinin törətdiyi sıxıntılardan biri də ürəklərdə Allahdan ayrılıq duyğusunun inkişaf etdirilməsidir. Buna görə də, musiqi düşkünü *Allahdan* uzaqlaşar, *günaha* meyl edir. Ancaq ilahiyyatçılara görə hər melodik səs də musiqi hesab edilmir. Məsələn, gözəl səslə oxunan *azan* və yaxud *Quran ayələri* musiqi deyil, gözəl avazla oxunan bir ibadətdir. Onlara görə musiqi insanda mənfi istəkləri oyandıran melodiyalardır. Bəzi ilahiyyatçılar isə musiqi alətləri ilə müşayiət edilməyən musiqinin oxunmasını, eləcə də haram və məkruh işlərin görülməsinə sövq etməyən musiqini *mübah* hesab etmişdirlər.

**ĞURRA** – ***ana qarnından dölün çıxarılması və öldürülməsi qarşılığında verilən cərimədir.*** Vaxtsız çıxarılmış döl diri doğulub, sonradan öldürülmüş hesab edilir. Bunu edən insan öldürülmüş dölün yaxınlarına və onun qohumlarına böyük məbləğdə pul ödəməlidir.

# H

**HABİL** – bax: **QABİL VƏ HABİL**.

**HACƏT NAMAZI** – ***hər-hansı çətinliyə düşmüş müsəlmanın Allahdan yardım istəyərək qıldığı namazdır (Quran, 2: 45)***. Hacət namazı *vacib* olan axşam namazından sonra qılınır. Bu namaz qılındıqdan sonra hacət duası oxunur.

**HACI BAYRAM VƏLİ** – bax: **BAYRAMİLƏR.**

**HAFİZ** – ***möhkəm yaddaşa sahib və Quranı əzbərə bilən insandır.*** On minlərlə *hədisləri*, onların ötürücülərinin *silsilələrini, səhihlik* dərəcələrini, nöqsanlı məqamlarını əzbərdən bilənlərə də *hafiz* deyilir. *İslamın* ilk mənbələrinin qorunub saxlanmasında, hədislərin sözlə ötürülməsinin böyük önəmi olmuşdur. *Quran ayələri* və hədislər əzbərlənmiş, gələcək nəsillərə bu yolla ötürülmüşdür. Beləliklə, hafizlər İslam irsinin qoruyucularına çevrilmişdirlər. Quran və hədislərin sözlə ötürülməsi *adəti* günümüzə davam etməkdədir.

**HAL** – ***sufilikdə mənəviyyat yolçusunun sevinclə sıxıntı, yüngüllüklə ağırlıq duyğularıdır.*** Bu duyğular *təriqət* yolçusunun cəhdləri və ya istəklərindən deyil, *Allahdan* asılıdır. Buna görə də, hal gəldikdə sufi onu özündən kənarlaşdıra bilmir. Eyniliklə o, bu duruma öz istəyi ilə də girə bilməz.

**HALAL** – ***fiqhdə Allah qarşısında bəyənilən şey, əməl və davranışlardır.*** Evlənmək, qanuna uyğun kəsilmiş heyvanın ətinin yemək və ya *şəriət* qaydalarına uyğun ticarət və s. əməllər halal hesab edilir. “Halal” termininin qarşılığı “*haramdır*”.

**HAMAM**–***müsəlmanın dini ibadətlərdən öncə yerinə yetirdiyi təmizlik ayınlərinin icra olunduğu yerdir.*** *İslam* dini mənəvi təmizliyə üstünlük verdiyi kimi bədən təmizliyinə də böyük əhəmiyyət verir. İnsandan çıxan təbii ifrazatdan, cinsi yaxınlıqdan, eləcə də aybaşı (menstruasiya), doğum və digər bunlara bənzər hadisələrdən sonra müsəlmanlar təmizlənməli, *qüsul və dəstəmaz* almalıdırlar. Bu kimi durumlar olmasa belə, bədəni təmiz saxlamaq lazımdır. Buna görə də, müxtəlif şəhər və kəndlərdə *məscidlərlə* yanaşı hamamlar da tikilməkdədir.

Hamamlarda kişilər və qadınların birlikdə yuyunmaları yasaq əməllərdən hesab edilir. Orada ayrıca kişi və qadın üçün ayrılmış yerlər olmalıdır. Yuyunanda kişilər də, qadınlar da, övrət yerlərini örtməlidirlər. Başqa insanların, hətta eyni cinsdən olanların da qarşısında övrət yerlərin açılması yolverilməzdir. Başqa insanların övrət yerlərinə baxmaq *haramdır.* Kisəçilər insanları kisələyərkən övrət yerlərə toxunmamalıdırlar. *Peyğəmbərin hədislərinə* görə ehtiyac olmazsa qadınların hamama getməsi bəyənilmir. İmkan daxilində onların evdə təmizlənməsi daha yaxşıdır. Hamamlarda *Quran* oxumaq və *namaz* qılmaq olmaz.

**HAMAN** – ***Misir Fironunun vəziri olmuşdur.*** O, *Firona* Musanın çağırışını rədd etməyi tövsiyə etmişdir. Rəvayətlərə görə özünü tanrı bilən Firon *Musaya* gülərək onun dediyi *Allahı* görmək üçün Hamana bir uca qülləni tikməyi əmr etmişdir (*Quran,* 28: 38). Bundan başqa yenə rəvayətlərə görə Haman, Firon və onun qoşunu *İsrail oğullarını* təqib edərkən dənizdə boğulmuşdurlar.

**HARAM** – ***İslam hüququnda qadağan olunmuş şey, davranış və əməllərdir.*** Bütün bu yasaqlar Quran *ayələrinin* və *mütəvatir* hədislərin birmənalı, açıq və aydın göstərişlərindən çıxarılır. Ancaq, az saylı *ravilərdən* rəvayət olunmuş *əhəd* hədislər inancla bağlı məsələlərdə danılmaz dəlil hesab olunmurlar. İlahiyyatçıların çoxu onların əsasında haram hökmünü vermirlər. Onların fikrincə əhəd hədislərin əsasında hər hansı bir şeyi haram deyil, *məkruh* elan etmək olar. Bununla belə, əhəd hədislərin əsasında nəyi isə yasaq edən alimlər də vardır. Alimlərinin *icmasına* görə *Quranda* yasaqlanan şeyləri *halal* saymaq doğru deyildir. Bunu edən dindən çıxar. Haram iş görmüş adam *günah* qazanır. Halal işin görülməsi isə müsəlmana *Allah* qarşısında üstünlük qazandırır. Bundan başqa elə yerlər də vardır ki, ora müəyyən adamlar girə bilməzlər. Belə yerləri haram yerlər adlandırırlar. Məsələn, bəzi alimlərə *görə Kəbənin* yerləşdiyi yerə qeyri-müsəlmanların girməsi haramdır.

**HARUN** – ***Musanın qardaşı, Allahın İsrail oğullarına göndərdiyi peyğəmbərlərdən biri olmuşdur.*** O, *Misirdə* doğulmuşdur. Onun uşaqlıq və gəncliyi orada keçmişdir. Harunla bağlı hadisələr *Quranda* (37: 114-122) və müxtəlif *hədislərdə* keçməkdədir. Misirlilər *İsrail oğullarını* təqib edən dövrdə *Allah* Harunu *peyğəmbər* seçmiş, ona qardaşı *Musa* ilə birlikdə *Fironun* yanına getməyi buyurmuşdur. Ancaq özünü tanrı hesab edən Firon, Allaha itaət etmək istəməmişdir, peyğəmbərlərin çağırışını rədd etmişdir. Bundan sonra İsrail oğullarına qarşı təzyiqlər daha da artmışdır. Harun və Musa isə Allaha *dua* etmiş, Allah da Misiri ağır sınaqlara çəkmiş, ancaq İsrail oğullarının durumu yaxşılaşmamışdır. Onda onlara ölkədən çıxmaq buyurulmuşdur. İsrail oğulları dənizə doğru yaxınlaşdıqda dəniz ikiyə bölünmüş və onlar qarşıda olan sahilə keçə bilmişdilər. Onları izləyən Fironun başçılıq etdiyi qoşun isə o yolu keçdikdə dəniz yenidən birləşmiş və onların hamısı suda boğulmuşdurlar.

Musa *Tur dağına* Allahdan *Tövratı* almaq

üçün getdikdə Haruna İsrail oğullarına başçılıq etməyi tapşırmışdır. Ancaq onlardan olan *Samiri* adlı biri Musanın getdiyindən istifadə edərək "qızıl *buzov*" bütünü hazırlamış, xalqın əksəriyyəti isə ona tapınmışdır. Harun isə bunun qarşısını almaq istəsə də, buna nail ola bilməmişdir. O, *bütpərəstliyin* ağır *günah* olduğunu insanlara bəyan etsə də, yalnız azlıq bu əməldən çəkinmişdir. Çoxluq isə bütə tapınmış, Harunu və onu dəstəkləyənləri ölümlə hədələmişdirlər.

Qarşıdurma qızışan zaman Tur dağında Tövratı alan Musa geri dönmüş, xalqının günaha batdığını görərək üzülmüşdür. O, Harunu öz yanına çağıraraq ondan izahat istəmişdir. Harun da onun gedişindən sonra baş verən hadisələri ona anlatmışdır. Bu xəbəri eşitdikdən sonra Musa Samirini lənətləmiş, İsrail oğullarını *tövbə* etməyə çağırmış, onlar da tövbə etmişdirlər.

Bundan sonra Allah İsrail oğullarına *Fələstində* yaşayan bütlərə tapınan Amalika xalqı ilə savaşa başlamağı, onların torpaqlarını almağı buyurmuşdur. Ancaq onlar amalikalılardan qorxaraq Allahın əmrini yerinə yetirməmişdilər. Onda Allah onlara qırx il ərzində müqəddəs torpağa girməyi yasaqlamışdır. Bu müddət boyu onlar qızmar çöllərdə köçəri həyat sürmüşdürlər. Harun və Musa da onlarla olmuşdurlar. Harun Musadan üç il öncə vəfat etmişdir.

**HARUT VƏ MARUT** – ***insanları cadu elmi ilə tanış edən mələklərdir (Quran, 2: 102).*** Bunlar insanları imtahana çəkmək üçün endirilmiş mələklərdir. Onlar əslində bu bacarıqlarını xeyir işlər üçün istifadə edirlər. Ancaq bəzi insanlar onların dediklərini şər əməlləri üçün istifadə etmişdirlər.

**HAŞİMİLƏR** – ***nüfuzlu Məkkə ailələrindən biri olmuşdurlar***. *Məhəmməd peyğəmbər* bu soya məxsus idi. Onlar *Kəbənin* xidmətçiləri, qoruyucuları, eləcə də *həcci* təşkil edənlər olmuşdurlar. Haşimilərin ulu babası Haşim ibn Abdül Mənaf olmuşdur. O, zəngin və nüfuzlu bir insan idi. Rəvayətlərə görə *Məkkəyə* aclıq düşəndə o, *Fələstinə* getmiş, oradan Məkkəyə çoxlu miqdarda un gətirmişdir. Orada o, aclıq içində olan insanları ət şorbasına doğranmış çörəklə doyuzdurmuşdur. Buna görə də, onu Haşim (doğrayan) adlandırmışdırlar.

Haşim suriyalılar və yəmənlilərlə çox yaxşı ticarət əlaqələri qurmuşdur. Qışda Suriyaya, yayda isə Yəmənə gedərdi. Səfərlərin birində o, Yəsribə (*Mədinəyə*) gələrək Əmir ibn Zeydin evində qalmış, sonra onun qızı Səlməni alaraq onu Suriyaya aparmışdır. Sonra isə yenə də, Yəsribə qayıdaraq körpənin doğulmasını gözləyən Səlməni atasının yanında qoyaraq yenidən Suriyaya doğru yola çıxmışdır. Ancaq o, orada ölmüşdür. Səlma isə Şeybə adlı bir oğul dünyaya gətirmişdir. Sonra isə o, *Əbdülmüttəlib* adı ilə tanınmışdır. Bu hadisələr miladi təqvimlə təxminən 500-cü ildə baş vermişdir.

Rəvayətlərə görə Haşimin 4 oğlu və 5 qızı olmuşdur. Ancaq oğul yolu ilə onun soyunu yalnız Əbdülmüttəlib davam etmişdir. Məkkədə Haşimilərlə ayaqlaşa bilən daha bir nüfuzlu soy *Əməvilər* idi. Onlar Haşimin qardaşı Əbdüş-Şəms və onun oğlu Ümeyyənin törəmələri idilər. Haşimilərlə Əməvilər rəqabətdə idilər. *İslamın* zühurundan sonra bu rəqabət öncə unudulmuş, ancaq sonra yenidən qızışmışdır. Əməvilərdən olan Müaviyə ibn Əbu Süfyan Suriyanın valisi olaraq Haşimilərdən olan *Əli ibn Əbu Talibin* xəlifəliyini tanımamışdır. Buna görə də, Xilafətdə iç savaş başlamışdır. Bu savaşda Müaviyə üstünlük əldə edə bilmişdir. Əlinin *xaricilər* tərəfindən qətlə yetirilməsindən sonra o, 41/661- ci ildə *xəlifə* olmuşdur.

Müaviyə *Raşidi xəlifələrin* dövründə olan xilafəti krallıq üsul-idarəsi ilə əvəz etmişdir. 132/750-ci ildə Əməviləri devirmiş Haşimilərdən olan *Abbasilər* də imperatorluq

metodları ilə ölkəni idarə etmişdirlər. Onların xəlifəliyinə monqollar 656/1258-ci ildə son qoymuşdur. Haşimilərin öz içində də parçalanma baş vermişdir. Onların başqa qolu *Ələvilər (I)*. Abbasilərə qarşı mübarizə aparırdılar. Sonra, *Osmanlı* dövründə Haşimilərdən olan Məkkə *şərifləri* bu şəhərin başçıları idilər. I Dünya müharibəsində şərif Hüseyn ibn Əli ingilislərin tərəfinə keçərək özünü bütün Hicazın kralı elan etmişdir. Ancaq, Nəcdin başçısı Əbdül-Əziz ibn Səud ona qalib gələ bilmiş, bütün bu bölgələri öz hakimiyyəti altına ala bilmişdir. Hüseyn isə ingilislərlə anlaşaraq öz oğlu Feysəli İraqın, digər oğlu Abdullahı isə Ürdünün (İordaniyanın) kralı təyin etmişdir. Onların ikisi də Haşimi kralları kimi tanınmışdırlar. 1958-ci ildə İraqda Haşimilərin hakimiyyətinə son qoyulmuş, Ürdundə isə onlar bu günə kimi başçılıq edirlər.

**HAVİYƏ** – ***cəhənnəmin yeddinci təbəqəsidir (Quran, 101: 8-11).*** Burada inanmadıqları halda özlərini inanmış kimi göstərən *münafiqlər (II)* və müsəlman olandan sonra *İslamdan* üz çevirənlər əzab görəcəklər.

**HEYBƏT VƏ ÜNS** – ***qəbz və bəst üzərində yüksələn sufi hallarıdır.*** Heybət saygı və qorxu duyğularını üzə çıxararaq qəbzin üzərində yüksəlir. Üns isə insanı alovlandırır, onun ruhunu *Allahın* anılması ilə genişləndirir. Heybət ruha Allahın yaxın olması hissindən rahatsızlıq və qorxu duyğusunu verir. Üns isə sufi ilə Allahın arasında rəsmiyyəti aradan qaldırır və Tanrıya olan sevgini olduğu kimi edir.

**HEYZ** – ***hər ayın müəyyən günlərində qadından axan qandır.*** Qədim mədəniyyətlərdə qadınlar bu durumlarda olarkən kirlənmiş hesab edilirdilər. Ərləri onlara yaxınlaşmamış, yemək zamanı bir masa arxasında oturmamışdırlar.

*İslamda* qadının özü deyil, yalnız ondan ifraz olunan qan pis sayılır. *Hədislərə* görə aybaşı durumunu Allah *Adəmin* qızları üçün yaratmışdır. Bu durumda onlar öz gündəlik işlərini görürdülər. Ancaq, kişi aybaşı olan qadınla yaxınlıq etməməlidir. Bunu edən *günaha* batmış olur (*Quran,* 2: 222).

Qadında heyz halının hansı yaşdan başlaması və bitməsi problemi üzrə *fəqihlər* arasında müxtəlif baxışlar vardır. Onlardan bəziləri heyz halının başlanmasını 9-12, bitməsini isə 55 yaşlarla əlaqələndirirlər. Bəziləri isə buna heç bir yaş müddət qoyulmurlar.

Aybaşı olan qadınlara *namaz* qılmaq, *oruc* tutmaq olmaz. Aybaşı bitdikdən sonra isə qılınmamış namazlar *qəza namazın*ı gərəkdirməz. *Ramazan* ayında tutulmamış günlərin orucunu isə başqa vaxtlarda tuturlar. Bundan başqa, aybaşı olan qadınlar Kəbəni *təvaf* etməməli, *məscidlərə* girməməli, *Quranı* oxumamalı, onun səhifələrinə toxunmamalıdırlar. Bundan başqa ər aybaşı olan xanımı ilə boşana bilməz. Aybaşı bitdikdən sonra qadın təmizlənməli və *qüsul* almalıdır.

**HƏBİB NƏCCAR** – ***dülgər Həbib, Əshabül-Qaryə xalqından olan mömin bir insan olmuşdur.*** O, xalqını *Allahın* elçilərini tanımağa dəvət etmişdir. Ancaq onlar onu öldürmüşdürlər. Allah Həbibi elə o anda da *cənnətə* daxil etmişdir (*Quran,* 36: 26).

**HƏBƏŞİSTANA HİCRƏT** – ***Məhəmməd peyğəmbərin səhabələrindən bir qisminin qureyşlilərin təqiblərdən qurtulmaq üçün Həbəşistana köçməsidir***. *Məhəmmədə peyğəmbərlik* verilməsindən 5 il sonra *Məkkədə* müsəlmanlara qarşı təqiblər artmışdır. Buna görə də o, bir qrup müsəlmana ədalətli bir kralın idarə etdiyi ölkəyə köçmək əmrini vermişdir. Müsəlmanların ilk dəstəsi ora miladi 615-ci ildə Osman ibn Məzunun

başçılığı altında göndərilmişdir. Onlar şəhərdən gecə vaxtı gizli çıxmış, Qırmızı dənizə çatmış, oradan isə Həbəşistana keçərək orada məskunlaşmışdırlar. Onların dəqiq sayı bilinməməkdədir. Bir müddət keçdikdən sonra müsəlmanların Həbəşistana *Cəfər ibn Əbu Talibin* başçılığı altında ikinci hicrəti baş tutmuşdur. Rəvayətlərə görə onların sayı 80-ə yaxın idi. Onlar da bu ölkədə yaxşı qarşılanmış və orada sığınacaq tapmışdırlar.

Müsəlmanların Həbəşistana ikinci hicrətindən sonra qureyşlilər təşvişə düşərək onların geriyə qaytarılmasını tələb etmək üçün bu ölkənin kralı olan Əshəmənin yanına Abdullah ibn Rabiə və *Əmir ibn Ası* göndərdilər. Onlar kralın hüzuruna gəldikdə o, bəzi müsəlmanları da ona izahat vermək üçün öz hüzuruna çağırmışdır. Müsəlmanların rəhbəri olan Cəfər ibn Əbu Talib orada kralın verdiyi bütün suallara cavab verə bilmişdir. Bununla da, müsəlmanlar Həbəşistanda qalmaq hüququnu qazanmışdırlar. Beləliklə, qureyşlilərin göndərdikləri elçiləri heç bir nəticə əldə edə bilməyib geriyə dönməyə məcbur oldular.

Müsəlmanlar bir neçə il Həbəşistanda yaşamışdırlar. Onlar orada yerli xalqı da *İslam* dini ilə tanış etmişdilər. Rəvayətlərə görə kral Əshəmə də İslamı qəbul etmişdir. Sonra onların bəziləri Məkkəyə qayıtmışdırlar. Onların qayıtmasını Nəcm surəsinin nazil olması ilə bağlı olan hadisələrlə əlaqələndirənlər də olmuşdur. Ancaq, sonra onların bir çoxu yenə də Həbəşistana geri qayıtmışdırlar. Müsəlmanlar Məkkədən *Mədinəyə* hicrət etdikdən sonra isə Həbəşistanda olan müsəlmanları çoxu Mədinəyə gəlmişdirlər.

**HƏCC** – ***müəyyən vaxtda ziyarət məqsədi ilə Məkkəyə gedərək orada Ərəfatda olmaq, sonra Kəbəyə gedib onu təvaf etməkdir.*** Həcc, hicrətin 9-cu ilindən başlayaraq müsəlmanlar üçün *fərz* olan ibadətlərdən biridir (*Quran* 3: 96-97). Rəvayətlərə görə, həccin tarixi *İbrahim* peyğəmbər və onun oğlu *İsmaildən* başlayır. Onlar bir olan *Allaha* ibadət etmə ənənəsinin əsasını qoymuşdurlar. Ancaq, bir müddət keçdikdən sonra onların soyundan olan insanlar bütlərə tapınmış, *Kəbədə* bütləri yerləşdirmiş, onlara təvaf etməyə başlamışdırlar. Beləliklə, İbrahim və İsmailin ənənəsi pozulmuşdur.

Məhəmməd *peyğəmbər* Kəbədəki bütün bütləri dağıtdıqdan sonra bu ənənə bərpa edilmiş, həcc İbrahim və İsmail peyğəmbərlərin dövründə olduğu kimi yerinə yetirilməyə başlamışdır.

Qeyd etmək lazımdır ki, kifayət qədər pulu olan hər bir sağlam və yetkinlik yaşına çatmış azad müsəlman ən azı həyatında bir dəfə olmaqla *Zülhiccə* ayında həcc ibadətini yerinə yetirməlidir. Yoxsullar, uşaqlar və ruhi xəstələr həcc ibadəti ilə mükəlləf deyillər. Əgər bir zəngin insan, hər hansı bir obyektiv səbəblər üzündən həccə gedə bilmirsə, öz yerinə başqa adamı göndərə bilər. Belə olan halda onun yoldakı bütün xərclərini ödəməlidir. Qadınlar öz ərləri və ya onların ərə gedə bilmədikləri kişi qohumları (qardaş, ata, oğul) ilə həccə gedə bilərlər.

Həccə hər ilin *Şəvval*, Zülqədə, Zülhiccə (bu ayın 10-a qədər) aylarında getmək olar. Başqa vaxtlarda edilən *ziyarət* həcc deyil, *ümrə* hesab edilir.

Həccin aşağıdakı növləri vardır:

1. İfrad: Yalnız həcc etmək *niyyəti* ilə edilir.

2. Təməttu: Ümrədən sonra yerinə yetirilir. Ümrəni yerinə yetirəndən sonra zəvvar *ehramdan (II)* çıxır, ancaq geriyə qayıtmır. Zülhiccənin 8-də o, yenidən ehrama girərək böyük ziyarəti (həcci) yerinə yetirir. Həccin bu növü daha yüksək hesab edilir.

3. Kiran: Ümrəni də, həcci də yerinə yetirmək niyyəti ilə edilir. Həcc vaxtına qədər zəvvar ümrə niyyəti ilə Kəbəni təvaf edir, *Səfa ilə Mərva* təpələri arasında səy edir.

Bundan sonra o, ehramdan çıxmayaraq həcc günlərində də bu mərasimləri yenidən yerinə yetirir.

Müqəddəs yerlərin *"miqatlar"* adlanan sərhədlərinə çatan kimi zəvvarlar həcc etmək niyyəti ilə xüsusi geyim olan ehramı geyinirlər. Ehram tikişi olmayan iki parçalardan ibarətdir. Onlardan biri qurşağa sarınan və ayaqları örtən "izar", ikincisi isə bədənin üstünü örtən "rida"dır. Ehrama girdikdən sonra zəvvar üçün bəzi şeylər *haram* olur. Bu durumda evlənmək və ya cinsi əlaqəyə girmək, *günah* işlər etmək, tikişi olan paltar geymək, üz qırxmaq, saç kəsmək, ovlamaq, ağac kəsmək olmaz.

Ehrama girdikdən sonra zəvvar müqəddəs yerlərə gedir və uca səslə "*təlbiyyə*" duasını oxuyur. Qadınlar bu duanı pıçıltı ilə oxumalıdırlar.

*Məkkəyə* gələn kimi zəvvarlar yuyunub *qüsul* alaraq Kəbəni yeddi dəfə təvaf etməlidirlər. Bu həccin *vacib* olan *şərtidir*. Təvafa qədər kişi zəvvarların sağ çiyini açıq olur. Təvaf *həcərül-əsvəd* daşının yanından başlayır. Hər dəfə təvaf başlayanda Qara daşı öpmək məsləhət görülür. Təvaf başa çatdıqdan sonra isə zəvvarlar üçün *Məqamül-İbrahimdə* iki *rükət* namaz qılmaq və *məscidin* yerində yerləşən *Zəmzəm* quyusunun suyunu içmək savabdır.

Kəbəni təvaf etdikdən sonra zəvvarlar yeddi kərə Səfa ilə Mərva təpələri arasında səy etməlidirlər. Qaçışa Səfa təpəsindən başlanılır. Bu ayini yerinə yetirməyən zəvvarlar ona qarşılıq olaraq *qurban* kəsməlidirlər. Ümrədə olan zəvvar bu qaçışdan sonra saçlarını kəsdirməlidirlər. Bununla da, ümrə bitmiş hesab edilir.

Zülhiccə ayının "tərviyyə" adlanan 8-ci günü zəvvarlar *Mina* vadisinə yollanırlar. Bunu etmək vacib deyil, ancaq edilsə savab qazanılır. Yolboyu zəvvarlar Allahı anıb, "təlbiyyə" duasını oxuyurlar. Bu vadidə onlar *zöhr, əsr, məğrib* və *işa* namazlarını qılıb, elə oradaca gecələyirlər. Bu *namazlar* uzaq səfərlərdə olduğu kimi qısaldılaraq qılınır. Zilhiccə ayının 9-cu günü Minada *sübh* namazı qılınmalı, sonra bu bölgə tərk edilməlidir.

Zilhiccə ayının doqquzuncu günü "Ərəfat" günü adlanır. Bu gün zəvvarlar Ərəfat adlanan yerə gedirlər. Onlar yolboyu Allahı anıb "təlbiyyə" duasını oxuyurlar. Bu da həccin vacib əməllərindən hesab edilir. Orada qalmağın vaxtı, Zilhiccə ayının 9-da günorta vaxtından, bu ayın 10-cu gününün erkən vaxtına qədərdir. Zəvvar orada yalnız günorta və ya axşam vaxtı qalsa kifayətdir.

Günəş batdıqdan sonra zəvvarlar "təlbiyyə" duasını oxuyaraq, asta addımlarla *Müzdəlifə* çölünə yollanırlar. Bunu etmək savabdır. Müzdəlifədə zəvvarlar məğrib və işa namazını birlikdə qılıb, ibadətlər edib, səhərə qədər orada qalırlar.

Zilhiccə ayının onuncu günü *qurban* kəsilməlidir. *Qurban bayramı* da bu gün qeyd edilir. Qurban kimi kəsilən heyvanların gözə görünən əskiklikləri və yaşları çox olmamalıdır. Qurbanlıq kimi dəvəni, inəyi və ya qoyunu kəsmək olar. Dəvəni və inəyi yeddi zəvvar birlikdə alıb qurban kəsə bilərlər. Elə həmin gün simvolik olaraq *şeytanın* daşlanması ayini yerinə yetirilir. Bunun üçün zəvvarlar şeytanın rəmzi olan böyük sütuna 7 daş atırlar.

Bütün bunları etmiş zəvvarlar ehramdan çıxırlar. Bundan sonra onlar üçün yalnız xanımları ilə cinsi yaxınlıq etməkdən başqa, bütün öncəki haramlar ortadan qaldırılır. Bu birinci azad olmadır. Ehramdan çıxmış zəvvarlar gündəlik geyimlərini geyinib, *Məscidül-Harama* gedib, yenə də Kəbəni təvaf edirlər. Bundan sonra onlar, öz xanımları ilə yaxınlıq edə bilərlər. Daha sonra zəvvarlar Mina bölgəsində Zülhiccə ayının 11-dən 13-nə qədər 3 gün gecələməlidirlər. Ayın 11-də günorta çağı, onlar şeytanın rəmzi olan 3 sütuna daş atırlar. Öncə kiçik, sonra orta, sonda

isə böyük sütunlar xırda daşlarla vurulur. Mina vadisində bütün ayinlər başa çatdırıldıqdan sonra, kişi zəvvarlar saçlarını kəsməlidirlər. Qadınlar isə saçlarını bir qədər qısaldırlar.

Həccin sonuncu ayini Kəbənin yenidən yeddi kərə təvaf edilməsidir. Buna "vəda təvafı" deyirlər. Bunu hər bir zəvvar edir. Bundan sonra həcc bitmiş hesab olunur.

Həccdən öncə və sonra Məhəmməd peyğəmbərin *məzarının* yerləşdiyi *Mədinə* şəhərinin ziyarət edilməsi də, Allah qarşısında böyük savablardan hesab edilir. Bu şəhəri müsəlmanlar "Münəvvərə" (İşıqlanmış) adlandırırlar. Orada *Məscidün-Nəbəviyəyə* qüsul alandan sonra girmək, orada 2 rükətli namaz qılmaq lazımdır. Namaz qıldıqdan sonra zəvvarlar Məhəmməd peyğəmbərin məzarına yaxınlaşaraq onu salamlayırlar. Bundan sonra müsəlmanların çoxu Raşidi *xəlifələr* olmuş *Əbu Bəkr* və *Ömərin* həmən yerdə olan məzarlarına yaxınlaşaraq onları da salamlayırlar.

Məhəmməd peyğəmbərin məscidini ziyarət etdikdən sonra, Kuba və Qibləteyn məscidlərini, eləcə də erkən dövr *İslam* tarixinin görkəmli davamçıları olmuş bir-çox səhabələrin və onun *əhli-beytinin* torpağa tapşırıldıqları Baqi məzarlığının da ziyarət edilməsinin ayrıca savabı vardır.

Beləliklə, həcc aşağıdakı ardıcıllıqla yerinə yetirilir: Miqatda ehrama girmək, iki rükətlı namaz qılmaq, həccin edilməsinə niyyət etmək, *dualar* edərək təlbiyyəni oxumaq; Qüsul alaraq Məkkəyə girib *Məscidül-Haramda Həcərül-Əsvədi* salamlamaq, Kəbəni təvaf etmək, *Məqamül-İbrahimdə* namaz qılıb Zəmzəm quyusundan su içmək; Səfa ilə Mərvə təpələri arasında qaçmaq, Zilhiccə ayının 8-də Minaya getmək, 9-da Ərəfatda olmaq, günəş batdıqdan sonra Müzdəlifəyə gedib orada gecələyərək xırda daşları toplamaq; Sonra Zülhiccənin 10-da Müzdəlifədə sübh namazını qılıb Minaya qayıdıb, daşları şeytanın rəmzi olan sütununa atmaq və bundan sonra qurban kəsmək; Qurban kəsildikdən sonra saçları qırxmaq, Məkkəyə qayıdıb Kəbəni təvaf etmək; Zilhiccə ayının 11-dən 13-ə qədər Minaya gedib şeytanı simvolizə edən sütunlara daş atmaq; Bundan sonra Məkkəyə qayıdıb Məscidül-Haramda Kəbəni son olaraq təvaf etmək, iki rükətlı namaz qılmaq; Bundan sonra isə Mədinəyə yollanmaq lazımdır.

**HƏCƏR** – ***İbrahim peyğəmbərin xanımı, böyük oğlu İsmailin isə anası olmuşdur.*** Rəvayətlərə görə *İbrahim* peyğəmbərlə onun birinci həyat yoldaşı Sara *Babildən Misirə* gəldikdə *Firon* Həcəri onlara qulluqçu kimi hədiyə vermişdir. Bundan sonra Həcər övladı olmayan Saranın qulluqçusu olmuşdur. Sonra Sara, İbrahim *peyğəmbərin* Həcərlə evlənməsini və İbrahimi ata olmaqdan məhrum etmək istəməmişdir. Bu evlilikdən də *İsmail* doğulmuşdur. O doğulduqdan sonra Sara körpəyə də, anası Həcərə də qısqanclıqla yanaşmağa başlamışdır. Bu da İbrahim üçün çox üzücü olmuşdur. Buna görə *Allah* ona, Həcərlə İsmaili o zaman qızmar çöllük olan indiki *Məkkə* ərazisinə aparmağı, orada məskunlaşdırmağı buyurmuşdur. İbrahim peyğəmbər də, bu buyruğa tabe olmuş, onları susuz çöldə tərk edərək geri dönmüşdür.

Sonra Həcər içməli suyun qurtardığına görə Səfa ilə Mərva təpələri arasında su axtarmışdır. Bu zaman möcüzə baş vermiş, körpə İsmailin ayaqları altından Zəmzəm bulağı axmağa başlamışdır. Bundan sonra Həcər İsmaillə birlikdə bu su qaynağının yanında məskunlaşmışdırlar. Sonra Yəməndən gəlmiş Curhumlular qəbiləsi də bu yerə gəlib burada məskunlaşmışdırlar. Daha sonra yetkinlik yaşına çatmış İsmail curhumlulardan olan bir qızla evlənmişdir. Bu evlilikdən onun 12 oğlu olmuşdur. Həcər öldükdə *Kəbənin* yaxınlığındakı Hicr adlı bir yerdə torpağa tapşırılmışdır.

**HƏCƏRÜL-ƏSVƏD** – ***Kəbə divarlarının birində yerdən yarım metr hündürlükdə yerləşmiş, uzunluğu otuz santimetrə yaxın olan yumurtaya bənzər bir qara daşdır***. Günümüzdə o, gümüş qutuda saxlanılır. Rəvayətlərə görə, *Nuh* peyğəmbərin dövründə bu daşı *mələklər cənnətdən* gətirmiş və o, Əbu Qubeys dağında hifz olunmuşdur. *İbrahim* peyğəmbər bu daşı Məkkəyə gətirmiş və tikdiyi *Kəbə* divarları arasında bu daşı yerləşdirərək ona təvaf etmişdir.

*Məhəmmədin* peyğəmbərliyindən öncə qüreyşlilər dağılmaqda olan Kəbəni söküb yenidən inşa etmişdirlər. Tikinti işləri bitdikdən sonra Qara daş onun divarlarının birində yerləşdirilməli idi. Bu işin görülməsi çox şərəfli iş hesab olunurdu. Buna görə də, *Məkkə* qəbilələri arasında onu Kəbənin divarına kimin qoyması uğrunda mübahisələr olmuşdur. Bu narazılığı isə Məhəmməd *peyğəmbər* aradan qaldırmış və daşı Kəbənin divarlarının birində yerləşdirmişdir.

Qara daş Kəbədə bir neçə əsr qalmışdır. Sonra onu Məkkəyə hücum etmiş üsyançı *ismaillilərə* yaxın olan *qərmətilər* çıxardıb aparmışdırlar. Onlar daşı parçalamış, ancaq sonra onlar o daşın parçalarını geri qaytarmışdılar. Bundan sonra müsəlmanlar daşı birləşdirib yenə də Kəbənin divarlarının birində yerləşdirdilər. Günümüzə qədər o daş orada qalmaqdadır.

**HƏDD** – ***Quran və hədislərdə adları çəkilmiş günahlara qarşı tətbiq edilən cəzalardır.*** *Quran* və *hədislərdə* bəzi *günahları* törədənlərə qarşı tətbiq edilən cəzalar haqqında *ayələr* vardır (Quran, 4: 14). O cinayətlərin törədilməsinə “həddi aşmaq”, “cızıqdan çıxmaq” da deyilir.

Hədd cəzası beş *haram* işin törədilməsinə görə tətbiq edilir:

1. *Zinaya* görə: *İslam* qanunvericiliyi işləyən ölkələrdə bunu öz istəkləri ilə edən kişi və qadın cəzalandırılır. Bu cəzanın da iki növü vardır: Zina etmiş kişi və ya qadın evli olmasalar, Quran ayəsində (24: 2) buyurulduğu kimi onların hərəsinə başqa adamların qarşısında yüz dəfə şallaq vurulur. Bəzən zina edən insanlar sürgün də edirdilər; Zina edən kişi ilə qadın evli olsalar, onlar hamının gözü önündə daşlarla vurularaq ölümlə cəzalandırılırlar. Bu cəza Əhdi-Ətiqdə də vardır. Bəzi hədislərə *Məhəmməd peyğəmbər* zina edənlərin *rəcm* edilməsini buyurmuşdur. Kişi ilə qadının zina edib etməməyi ölkə məhkəmələrində sübuta yetirilməlidir. Bunun üçün kişi və qadın zina etdiklərini etiraf etməli və ya onların cinsi orqanlarının birləşməsini öz gözləri ilə görmüş dörd *şahid* olmalıdır. Qadın və kişinin bir yataqda olmaları, onların *zina* etməsinə dəlalət etmir;

2. Kimlərinsə *şəriətlə* müəyyən edilmiş ölçüdən (*nisabdan*) çox olan miqdarda malını aparanlara qarşı. Bu da oğurluqdur. Burada nisab hədd cəzasının tətbiq edilməsini *vacib* qılan bir ölçüdür. Bu ölçü müsəlman *məzhəblərinə* görə təxminən qızılın 1/5 qramına bərabərdir.

Quranın 5-ci surəsinin 38-ci ayəsinə görə oğurluğa görə ağır cəza tətbiq edilməlidir. Bu da oğrunun sağ əlinin barmaqlarının kəsilməsidir. Oğurluqda günahlandırılan adamın cinayəti yalnız məhkəmədə sübuta yetirilməlidir. Bunun üçün ən azı iki müsəlmanın şahidliyi olmalıdır;

3. Spirtli içkilərin içilməsinə görə. Spirtli içkiləri qadağan edən Quran ayəsi vardır (5: 90). Müsəlman öz istəyi ilə spirtli içki içsə, şəriət məhkəməsinin qərarı ilə ona hamının gözü önündə 80 şallaq vurulmalıdır. Cinayəti sübut etmək üçün iki insan şahidlik etməli və ya içki içən bunu özü etiraf etməlidir;

4. İftiraya görə. Əgər hər hansı bir insan digər bir insanın zina etdiyini iddia edirsə, o zaman bunu sübut etməlidir. Etməzsə, o zaman yalançı hesab edilərək cəzalandırılmalıdır (Quran 24: 4);

5. Quldurluq və soyğunçuluğa görə. Bu cinayət pozğunluq (fitnə-fəsad) sayılaraq (Quran 5: 33-34) çox ağır cəzalandırılır;

İslam qanunvericiliyinə görə soyğunçuluq məqsədi ilə kimlərisə öldürmüş quldur məhkəmənin qərarı ilə öldürülməli, onun cəsədi isə hamının gördüyü yerdə asılmalıdır. Soyğunçu heç kəsi öldürməyibsə, onda onun əlləri kəsilməlidir. İnsanları yollarda qorxudanlar isə sürgün edilməlidirlər.

**HƏDƏS** – ***insanlar və heyvanlardan ayrılan təbii ifrazatlardır.*** Bunlar eyni zamanda insandan ayrılan sidik, nəcis, məni (sperma) (bəzi *məzhəblərdə* sperma *murdar* hesab olunmur), qusuntu, qadından doğumdan sonra və ya aybaşı zamanı gələn qanlar, axan qan, insan bədənindən ayrılmış parçalardır.

**HƏDİSLƏR** – ***Məhəmməd peyğəmbərin yazılı və ya şifahi rəvayət olunmuş sözləri və əməlləridir.*** Bu baxımdan "hədis" sözü "sünnə" (peyğəmbərin yolu) sözü ilə eyni mənada işlədilir. *Quranda* (18: 6, 20: 9) "hədis" sözü hekayə, xəbər anlamında da işlədilmişdir. *İslamda* hədislərin önəmi çox böyükdür, çünki Quran onların vasitəsi ilə *təfsir* edilir və *fiqhdə* istifadə olunur. Bundan başqa hədislər hər bir müsəlmanın həyat yolunu *peyğəmbərin* örnəyi ilə təyin edir. Beləliklə, müsəlmanların əksəriyyətinə görə hədislər də geniş mənada Quran kimi *Allahın* nazil olmuş *vəhyinə* yaxın olan mənbədir. Quran Allahın *Məhəmməd* peyğəmbərə birbaşa endirdiyi kitabdırsa, hədislər Allahın bəyəndiyi Məhəmməd peyğəmbərin dediyi sözlər və etdiyi əməllərdir. Hədislərdə Qurandakı bilgilər şərh edilir. Bundan başqa rəvayətlərin çoxu Quranda deyil, hədislərdə verilmişdir. Mənaları birbaşa Allahdan gəlmiş, ancaq Məhəmməd peyğəmbərin öz sözləri ilə söylənmiş *qüdsi hədislər* də vardır.

Rəvayətlərə görə Məhəmməd peyğəmbərin həyatı haqqında məlumatlar onun dedikləri və etdiyi əməllər hələ onun sağlığında yazılmışdır. Ancaq, bu yazılar günümüzə qədər gəlib çatmamışdır. Hicrətin II əsrində Əməvi *xəlifəsi* Ömər ibn Əbdül-Əziz hədislərin yığılıb yazılmasını əmr etmişdir. Bundan sonra hədislərin rəvayət edilib yazılmaq işi daha da kütləvi xarakter almışdır. Bu həm də onunla izah olunur ki, inkişaf edən İslam ilahiyyatında çoxlu sayda yeni fiqhi məsələlər ortaya çıxmışdır ki, onların həlli üçün əsaslar tapılmalı idi. Bu problem hədislərin köməyi ilə həll edilirdi. Beləliklə, hicrətin II – IV əsrində müsəlman dünyasında ən tanınmış hədis məcmuələri ortaya çıxmışdır.

Müxtəlif hədislərin ortaya çıxmasına görə müsəlman tədqiqatçıları onların mətni və *ravilər silsiləsini* öyrənmək məqsədi ilə öz metodlarını irəli sürmüşdürlər. Onlar İslam ilahiyyatında *mühəddis* adlanırlar. Mühəddislər hədislərin sistemləşdirilməsi işinə başlamışdırlar. Çünki, o zamanlar çoxlu şübhəli rəvayətlərin sayı artmışdır. Buna görə də, onlar hədislərin doğru olub-olmamasını təyin etməyə çalışmışdılar. Beləliklə, "İlmül-Hədis" adlanan hədislər haqqında *elm* yaranmışdır. Bu elmin irəli sürdüyü tələblərə görə bütün hədislərin mətnləri və raviləri bilinməli və onların hamısı etibarlı olmalıdır. Çoxlu sayda ravisi olan *mütəvatir* hədislər ən etibarlıdırlar, ancaq onların sayı çox deyildir. Hədislərin çoxu isə *ədəddir*, az sayda ravilər tərəfindən rəvayət olunub. Etibarlılıq dərəcəsinə görə bütün hədislər *səhih, həsən* və *zəiflərə* bölünürlər.

**HƏDİYYƏ** – ***fiqhdə hər hansı bir şeyin başqa bir adama qarşılıqsız bağışlanmasıdır.*** Hədiyyənin *şərti* onun təklif edilməsi və alınmasıdır. Hədiyyə *Quranda* birbaşa anılmamışdır. Onun hökmü əsasən *hədislərdən* çıxarılır. Hədiyyəni *rüşvətdən*

fərqləndirmək lazımdır. Hədiyənin rüşvətdən fərq ondan ibarətdir ki, hədiyyə təmənnasız verilir, rüşvət verən isə müəyyən məqsədlər güdür. *Fiqhdə* hədiyyə *halal,* rüşvət isə *haramdır.*

**HƏFSƏ BİNT ÖMƏR** – ***Məhəmməd peyğəmbərin xanımlarından biri və Ömər ibn Xəttabın qızı olmuşdur.*** *Məhəmmədin* peyğəmbərliyindən təxminən beş il öncə doğulmuşdur, *İslama* atası ilə birlikdə gəlmişdir. Onun birinci əri ilk müsəlmanlardan olmuş Hüneys ibn Hüzeyfə olmuşdur. Onlar *qureyşlilərin* təqiblərindən qorunmaq üçün *Həbəşistana hicrət* etməli olmuşdurlar. Daha sonra onlar, başqa müsəlmanlarla birlikdə *Mədinəyə* köçmüşdürlər. Hüneys *Bədr* döyüşündə vuruşmuş, *Uhud* döyüşündə isə həlak olmuşdur. Bu hadisədən sonra dul qalan Həfsə hicrətin 3-cü ilində Məhəmməd *peyğəmbərlə* izdivaca girmişdir. Həfsənin Məhəmməd peyğəmbərin vəfatından sonra rəvayət etdiyi 60-a yaxın *hədisi* günümüzə gəlib çatmışdır. Bundan başqa o, xəlifə *Əbu Bəkrin* dövründə yığılmış *Quranın* ilk yazılı nüsxəsinin qoruyucusu olmuşdur. Xəlifə *Osmanın* dövründə isə bu nüsxə yenidə işlənilmiş və çoxaldılmışdır. Həfsə xəlifə *Müaviyənin* dövründə təxminən hicrətin 45-ci ilində Mədinədə vəfat etmişdir.

**HƏKİMİLƏR – *Tanrının yaradılan şeylərdə, xüsusən də imamlarda təcəlli etməsinə inanan İsmaili təriqətlərindən biri olmuşlar.*** Bu *təriqətin* yaradıcısı *Fatimi xəlifəsi* Həkim Biamrillah (386/996-411/1021) özünü Tanrının təcəllisi elan etmişdir.

**HƏMZƏ İBN ƏBDÜLMÜTTƏLİB** (3/625-ci ildə həlak olmuşdur) – ***Məhəmməd peyğəmbərin kiçik əmisi, süd qardaşı və ən yaxın səhabələrindən biri olmuşdur.*** O, iki və ya dörd yaş *peyğəmbərdən* böyük idi. Məkkədə *doğulmuş*, igidliyi, qorxmazlığı ilə digərlərindən seçilmişdir. İgid döyüşçü olması ilə yanaşı o, həm də yaxşı ox atıcısı olmuşdur. Hər zaman gücsüzləri və yoxsulları müdafiə etmişdir.

Həmzə *İslama* bir qədər gec gəlmişdir. O, Səfa təpəsində *Əbu Cəhlin* Məhəmməd peyğəmbər və onun səhabələrinə qarşı kobud davranışının şahidi olduqdan sonra müsəlman olmuşdur. Orada Həmzə peyğəmbəri müdafiə edərək Əbu Cəhlin adamları ilə qarşı qarşıya gəlmişdir. Səhəri gün isə peyğəmbərin yanına gəlib İslamı qəbul etdiyini bəyan etmişdir. Bu hadisə *Məhəmmədin* peyğəmbərliyinin ikinci ilində baş vermişdir. Həmzənin müsəlman olması müsəlman ictimaiyyətini daha da gücləndirmişdir.

Hicrətdən sonra Həmzə müsəlman icmasının möhkəmlənməsi üçün böyük işlər görmüşdür. *Qureyşlilərin* müsəlmanlara qarşı ədalətsiz davranmalarına, *Mədinədə* vəziyyəti gərginləşdirmək istədiklərinə, müsəlmanların *həccə* gəlməsinə çətinliklər törətdiklərinə görə Məhəmməd peyğəmbər onlarla müharibə etmək məcburiyyətində qalmışdır. O, döyüşçülərinə Məkkə ilə Suriyanı birləşdirən karvan yollarını nəzarət altına götürməyi əmr etdi. Beləliklə, müsəlmanlar qarşı tərəfin karvanlarına hücum edərək qureyşliləri iqtisadi cəhətdən zəiflədirdilər. Həmzə bu əməliyyatların iştirakçısı olmuşdur. Sonra Həmzə *Bədr* döyüşündə igidcəsinə vuruşmuşdur. Müsəlmanların o döyüşdə qalib gəlməsində onun böyük rolu olmuşdur. Döyüşdən öncə o təkbətək Şeybə ilə üz-üzə gəlib onu, sonra isə Ütbə və Tüeym ibn Adiyyəni də məğlub edərək öldürmüşdür.

Bundan sonra Mədinədə müsəlmanlarla yəhudi qəbiləsi olan Kaynuka arasında qarşıdurma baş vermişdir. Məhəmməd peyğəmbər döyüş bayrağını Həmzəyə verərək onun başçılıq etdiyi orduya kaynukalılara qarşı

yürüş etmək əmrini verdi. Bu hadisələrin sonunda *yəhudilər* müsəlmanlara təslim olmuşdurlar.

Bədr döyüşündən bir il sonra məkkəlilər güclərini yenidən toplayaraq müsəlmanlara qarşı yürüşə başladılar. Bədr döyüşündə Həmzə nüfuzlu məkkəli olan Cübeyr ibn Mutinin əmisi Tüeym ibn Adiyəni öldürmüşdü. Cübeyr də onun *qisasını* almaq üçün nizə atıcılığı ilə ad qazanan Vəhşi adlı qaradərili köləsinə məkkəlilərin ordusuna qatılmağı, döyüş zamanı Həmzəni öldürmək tapşırığını, əvəzində isə Vəhşını azadlığa buraxacağına söz vermişdir. Müsəlmanlarla qureyşlilər ikinci dəfə *Uhud* döyüşündə qarşılaşmışdır. Bu döyüşdə Vəhşi atdığı nizə ilə Həmzəni arxadan vurmuşdur. Sonra qureyşlilər onun cəsədinə hörmətsizlik etmişdirlər. Həlak olan zaman Həmzənin 60-a yaxın yaşı olmuşdur.

**HƏNBƏLİ MƏZHƏBİ** – ***fiqhi məzhəblərdən biridir.*** Bu *məzhəbin* adı və yaranması *Əhməd ibn Hənbəllə* və onun fəaliyyəti ilə bağlıdır. Daha sonra davamçıları onun elmi irsini toplayıb sistemləşdirmişlər. Əhməd ibn Hənbəl *fiqhi* hökmləri *Quran* və *səhih hədislərə,* səhabələrin hökm və *rəylərinə*, hədislərə, *qiyas* və *istihsana*, alimlərin *icmasına* istinad edərək verirdi.

Hənbəli məzhəbinin əsaslarını Əhməd ibn Hənbəlin davamçıları inkişaf etdirmiş, günümüzə qədər gəlib çatdırmışdırlar. Onlardan ən tanınmışları onun iki oğlu Saleh (hicri 266-cı ildə vəfat etmişdir) və Abdullah (hicri 290-cı ildə vəfat etmişdir) olmuşdur. Bundan başqa Əhməd ibn Hənbəlin irsinin ötürücüləri arasında onun tələbələri Əbu Bəkr Əsrəm (hicri 261-ci ildə vəfat etmişdir), Əbdül-Malik Məymuni (hicri 274-cü ildə vəfat etmişdir), Əbu Bəkr Mərvədi (hicri 275-ci ildə vəfat etmişdir), Hərb ibn İsmail (hicri 280-cı ildə vəfat etmişdir), İbrahim ibn İshaq Hərbi (hicri 285-ci ildə vəfat etmişdir) olmuşdurlar. Onlardan da sonra Əhməd ibn Hənbəl irsinin ən yaxşı bilicisi və onları sistemləşdirən Əbu Bəkr Həllal (hicri 311-ci ildə vəfat etmişdir) olmuşdur.

Hənbəli məzhəbi bir-neçə qola ayrılmışdır. Bunun da bir çox səbəbləri vardır. Birincisi, Əhməd ibn Hənbəl özünü *peyğəmbərin*, eləcə də “saleh sələflərin” irsinin davamçısı hesab etmişdir. Səhabələrin və onların davamçılarının ayrı-ayrı məsələlər barəsində *ixtilafları* olmuşdur. Belə məsələlər ortaya çıxdıqda Əhməd ibn Hənbəl onlardan heç birinə üstünlük vermədən hamısını qəbul edirdi.

İkincisi, Əhməd ibn Hənbəl ayrı-ayrı məsələlərdə şübhəyə düşərək iki və daha çox hökm vermiş və bunlardan heç birinə üstünlük verməmişdir. Bu obyektiv səbəblərə görə olmuşdur. Onlardan başlıcası şərait və vəziyyətin müxtəlifliyi idi. Üçüncüsü, davamçıları onun irsini fərqli nəql etmişdirlər.

Hənbəlilər *ictihad* qapılarının bağlı olmasını qəbul etmirlər. Onlara görə dini və hüquqi problemlərin araşdırılması hər zaman aktualdır. Bununla yanaşı onlar *müctəhidlərin* olmasını da *vacib* hesab edirlər. Çünki, zaman keçdikcə müxtəlif yeni məsələlər və problemlər ortaya çıxır, bunların həlli üçün isə alimlərə ehtiyac yaranır.

Bu məzhəbin *müftilərinə* qarşı yüksək tələblər irəli sürülür. Onlar *fətva* vermək üçün Quran və hədisləri, səhabələr və onlardan sonra gələn tabiun nəslinin hökmlərini, eyni zamanda, məzhəbin hüquqi metodlarını yaxşı bilməlidirlər.

Hənbəli məzhəbi ümumiyyətlə geniş yayılmamışdır. Ərəbistanda yalnız Səud sülaləsi hakimiyyətə gəldikdən sonra bu məzhəb rəsmi ölkə statusunu almışdır. Buna qədər hənbəlilər müsəlman dünyasında azlıq təşkil edirdi. Hənbəli məzhəbinin belə az yayılmasının səbəbi onun nisbətən gec yaranması olmuşdur. Hənbəliliyin formalaşmasına qədər digər məzhəblər müsəlman dünyasının müxtəlif yerlərində yayılaraq möhkəmlənmişdirlər. Bu məzhəbin az yayıl-

masının digər bir səbəbi isə onun çox mühafizəkar olmasıdır. Hənbəlilər digər məzhəblərin ardıcıllarından daha çox dinin xarici tərəflərinə önəm verir, öz ardıcıllarından hədislərdə əks olunan peyğəmbərin və səhabələrinin həyatına tam uyğun olaraq yaşamağın vacibliyini israrla tələb edirlər. Bəzən bu tələblər dində ifrata da gətirib çıxarır. Ancaq, hənbəlilərin arasında nisbətən mötədil cərəyanlar da vardır.

**HƏNƏFİ MƏZHƏBİ** – ***fiqhi məzhəblərdən biridir.*** Bu məktəbin adı və yaranması *Əbu Hənifə* ilə bağlıdır. Daha sonra onun davamçıları onun elmi irsini toplayaraq sistemləşdirmişdirlər. Əbu Hənifə *fiqhi* hökmlər verdikdə *Qurana*, Məhəmməd *peyğəmbərin hədislərinə*, səhabələrin rəvayətlərinə, *qiyasa, istihsana, örfə*, alimlərin *icmasına* müraciət edirdi. Əbu Hənifəin özündən bir neçə kiçik kitabdan başqa bir şey qalmamışdır. Onların da müəllifliyi mübahisəlidir. Demək olar ki, onun bütün irsini tələbələri ortaya çıxartmışdırlar və onların səyləri nəticəsində hənəfi məzhəbinin əsasları qoyulmuşdur. Əbu Hənifənin təliminin sistemləşdirilməsi və yayılmasında onun tələbələrindən *Əbu Yusifin* və Məhəmməd ibn Həsən Şeybaninin (132 – 189) xüsusi rolu olmuşdur. Əbu Yusif Əbu Hənifənin irsini əhatə edən Kitabül-Əsar, İxtilafu Əbu Hanifa və İbn Əbu Leyla (Əbu Hanifə ilə İbn Əbu Leylanın çəlişməsi), Ər-Rəddu Əla Siyərül-Əvzai (Əvzainin savaşın aparılma qaydalarına qarşı), Kitabül-Xərac (Vergilər kitabı) kitablarını yazmışdır. Bəzi məsələrdə onun baxışları Əbu Hənifənin baxışları ilə üst-üstə düşməmişdir.

Məhəmməd ibn Həsən Şeybani də fiqh üzrə çoxlu kitablar yazmışdır, orada müəllinin irsini də qələmə almışdır. Ümumiyyətlə, Hənəfi məzhəbinin kitabları üç kateqoriyaya bölünür:

1. Zahir ər-Rəvayə (Açıq olan bilgi). Bu kitablar *məzhəbin* ən əsas qaynağıdır. Bura Əbu Hənifənin, Əbu Yusifin, Məhəmməd Şeybaninin, Züfər ibn Hüzeylin, Həsən ibn Ziyadın, eləcə də başqa alimlərin əsərləri daxildir;

2. Qeyri-Zahir ər-Rəvayə (Açıq olmayan bilgi). Zahir ər-Rəvayəyə nisbətən daha zəif hesab edilir. Müxtəlif alimlərin Zahir ər-Rəvayə daxil edilməyən əsərlərindən ibarətdir;

3. Əl-Vaqiət (rəvayətlər) və *fətvalar*. Bu kitabların müəllifləri Əbu Yusif və Məhəmməd Şeybaninin tələbələri, eləcə də onların çox saylı davamçıları olmuşdurlar. Bu kitablarda məzhəbin fiqhi hökmləri, eləcə də müxtəlif rəvayətlər yer almışdır.

Əbu Hənifənin tələbələrinin arasında bəzi fiqhi məsələlər üzrə fikir ayrılığı olsa da, onun adı ilə bağlı bu fiqh məzhəbinin Xilafətdə yayılması üçün onlar böyük səylər göstərmişdirlər. Bununla yanaşı onlar hənəfi məzhəbinin əsaslarını daha da yetkinləşdirməyə çalışmışdırlar. Onların cəhdlərinin nəticəsində Hənəfi məzhəbi bütün problemləri çözə bilən bir hüquqi sistemə çevrilmişdir. Buna görə də o, *Abbasi* xilafətində ən geniş yayılmış məzhəb olmuşdur. Abbasi *xəlifəsi* Harun ər-Rəşidin dövründə Hənəfi məzhəbinin ən görkəmli nümayəndələrindən biri olan Əbu Yusif, Bağdadda baş *qazi* vəzifəsinə təyin olunmuşdur. Xilafətin bütün bölgə qazilərini vəzifələrə o təyin edirdi. Bunu edərkən Əbu Yusif hənəfi məzhəbinin ardıcıllarına üstünlük verirdi. Buna görə də, bu məzhəb ölkədə daha da geniş yayılırdı. Sonra hənəfilik Osmanlı imperiyasında da rəsmi hüquq məzhəbi olmuşdur. Beləliklə, bu məzhəb müsəlman dünyasının bir çox yerlərində yayılaraq bu günə kimi ən geniş yayılmış hüquq məktəblərindən biridir. Hənəfi məzhəbinin ardıcıllarının inancla bağlı yanaşmaları daha çox *maturudiliyin* üzərində qurulmuşdur.

**HƏRRAN** – ***ən qədim şəhərlərdən biri*** olmuşdur. Miladdan öncə III minillikdən miladi VII yüzilliyə qədər Assuriyanın əyalət paytaxtı olmuşdur. Bu şəhərin adı müqəddəs kitablarda da qeyd edilir. Rəvayətlərə görə orada *İbrahimin* atası yaşamış və dəfn edilmişdir.

**HƏSƏN BƏSRİ** (21/641 – 110/728) – ***tanınmış təfsir, hədis və fiqh alimi olmuşdur.*** Tam adı Əbu Səid Həsən ibn Yəsər əl-Bəsri olmuşdur. Əsli iraqlı idi. Həsən Bəsri yetkinlik yaşına çatdıqdan sonra İrana qarşı savaşlarda vuruşmuş, daha sonra Xorasan bölgəsinin başçısı Rabə ibn Ziyadın katibi olmuşdur. Erkən yaşlarından elmə maraq *göstərmiş, İslam* tarixinin erkən dövrlərinin tanınmış alimlərdən biri olmuşdur. Həsən Bəsri İslami elmləri sistemləşdirmişdir. O, *qəza* və *qədərin*, *cənnət* əhlinin *Allahı* görəcəyinin haqq olmasını iddia etmiş, bütün əsas dini vəzifələrin və ibadətlərin icra edilməsini *vacib* saymışdır. Böyük *günahlar* etmiş müsəlmanları *fasiq* hesab etmişdir. Onun fikrincə, inanclı insan Allaha ibadəti onu görsünlər deyə deyil, ürəkdən gələn inancla ilə etməlidir. Buna görə də o, özlərini inanclı göstərmək üçün xüsusi geyimlər geyinənləri tənqid etmişdir. Əsl iman sözlə və ya tərkidünyalıqla deyil, əməllərdə, Allaha sevgidə, insanın mənfi istəklərdən uzaqlaşmasında özünü göstərir.

Həsən Bəsriyə görə bu dünyada insan ruhu kirlərdən təmizlənməli, günah düşüncələrdən azad olmalıdır. Bu da insanı gələcək həyatda əzablardan gurtaracaqdır. Belə olan təqdirdə ən kiçik görünən yaxşı əməl insanı oddan qurtaracağı kimi, gözə görünməyən pis əməl də onun *cəhənnəmə* atılmasına səbəb ola bilər. Ağıl da insana bunu anlamaq, yaxşını pisdən ayırmaq üçün verilmişdir.

*Quran* və *hədislərin təfsir* edilməsinə Həsən Bəsri çox tələbkar yanaşırdı. Bir çox ilahiyyatçılar onları *israiliyyatın* rəvayətləri əsasında təfsir edirdi. O isə bu metoda şübhə ilə yanaşmışdır. O, təfsiri yalnız İslam ənənəsinə əsaslanaraq edilməsinin tərəfdarı olmuşdur.

**HƏSƏN HƏDİSLƏR** – ***möhkəm inancları ilə seçilən ravilərdən alınmış hədislərdir.*** Onlarda heç bir çatışmazlıq olmamalıdır. Buna görə də onlar *səhih hədislərə* yaxındırlar. Ancaq bu hədislərin *ravilərinin* bəzi yanlışlıqları ola bilər. Misal üçün, onlar yaxşı yaddaşa malik olub-olmaması şübhəli ola bilər. Buna görə də, həsən hədislər səhih hədislər dərəcəsinə yüksəlmirlər. Onların dərəcəsi səhih və *zəif hədislər* arasındadır. Həsən hədislər *fiqhdə* müxtəlif problemlərin həll olunmasında istifadə edilir.

**HƏSƏN İBN ƏLİ** (3/625 – 50/669) – ***Məhəmməd peyğəmbərin böyük nəvəsi, Əli və Fatimənin oğlu olmuşdur.*** Atası Əli xəlifə olduqda Cəməl və Süffeyn döyüşlərində vuruşmuşdur. Atası qətlə yetirildikdən sonra isə tərəfdarları onu xalifə elan etmişdirlər. Ancaq bir neçə həftədən sonra Həsən hakimiyyəti Suriya valisi Müaviyə ibn Əbu Süfyana vermək məcburiyyətində qalmışdır. Bundan sonra o, öz kiçik qardaşı Hüseynlə *Mədinəyə* getmişdir. *Şiələr* Həsəni ikinci günahsız *imam* kimi qəbul edirlər. Onların rəvayətlərinə görə Həsəni onun həyat yoldaşı zəhərləmişdir. Onlar Müaviyə ibn Əbu Süfyanı onun ölümündə günahlandırırlar.

**HƏSƏN İBN SABİT** (62/682-ci ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuşdur.*** İstedadlı bir şair kimi *peyğəmbər* və müsəlmanların yanında mövqe tutaraq onların düşmənlərinin cavablarını vermişdir. Buna görə də, onu “Allah elçisinin şairi” adlandırmışdırlar. Həsən Mədinənin *Xəzrəc* qəbiləsindən olmuşdur. *İslama* təxminən 60 yaşında gəlmişdir. Yaşının çox və xəstə olduğuna görə müharibələrdə birbaşa iştirak etməmiş, ancaq müsəlman döyüşçülərini şeirləri ilə ruhlandırmışdır.

**HƏŞR** – ***ölmüş insanların axirətdə dirilərək mühakimə edilmək üçün bir yerdə*** yığışmasıdır. Rəvayətlərə görə bütün canlılar *qiyamətdən* sonra yenidən diriləcək və

mühakimə olunacaqlar. Ondan sonra insanlar əməllərinin qarşılığında ya *cənnətə*, ya da *cəhənnəmə* düşəcəklər.

**HƏVARİLƏR** – ***xristian rəvayətinə görə İsanın 12 davamçısına verilən addır.*** Adətən cəm şəklində həvariyyun şəklində işlədilir. Onlar *İsanın qeybə* çəkilişindən sonra müxtəlif yerlərə gedərək xristianlığı yaymışdırlar.

**HƏVVA** – ***ilk insan, Adəmin həyat yoldaşı, bütün insanların anası olmuşdur.*** Həvva Adəm *cənnətdə* yatarkən sol qabırğasından alınan bir sümükdən yaradılmışdır. *Adəm* arvadına canlı bir vücuddan yaradıldığı üçün Həvva adını vermişdir. Həvva Adəmlə birlikdə *Allahın* əmrindən çıxdıqları üçün cənnətdən qovularaq yerə endirilmişdirlər. Sonra onlardan bütün bəşəriyyət yaranmışdır.

**HİCRƏT** – ***öz vətənlərindən dini inanclarına görə təqiblərə məruz qalan insanların başqa yerə köçməsidir.*** Hicrət *niyyət* etməklə başlayar. Beləliklə, din uğrunda hicrət etmək *Allaha* ibadətin bir növüdür. Dini rəvayətlərə görə ilk dəfə inancına görə hicrət edən *İbrahim peyğəmbər* olmuşdur. Onu Nəmrud təqib etmişdir. Eləcə də, *əshabül-kəhfdən* olan bir qrup gənc inanclarına görə təqib olunmuş və bu səbəbdən öz vətənlərindən çıxaraq mağaraya sığınmışdırlar. *Musanın* başçılığı altında olan *İsrail oğulları* da təqiblərdən və zülmdən qurtarmaq üçün *Misirdən* hicrət etmişdirlər. İnancları uğrunda hicrət edənlər *Quran ayələrində* (4: 97-98) də anılmışdır. Hicrət fərdi və toplu ola bilər. Hicrət etmək üçün əmri müsəlman icmasının rəhbərləri verə bilə. *İslamın* ilkin dövrlərində müsəlmanlar iki dəfə hicrət etmişdirlər: ilk dəfə Həbəşistana, ikinci dəfə isə *Mədinəyə.*

**HİCRİ TƏQVİM** – ***miladi 622-ci ildə Məhəmməd peyğəmbərin Məkkədən Mədinəyə hicrəti ilə başlayan müsəlman təqvimi belə adlanır.*** Qədim ərəblərin dəqiq və sabit bir təqvimi olmamışdır. Onlar ayrı-ayrı tarixi hadisələrdən başlayan, bir-birindən fərqlənən təqvimlərdən istifadə edirdilər. Məsələn, onların təqvimi ulu babaları Qusayın ölümündən, sonra isə həbəşilərin *Məkkəyə* hücum etməsi (*Əshabül-Fil*) hadisəsindən başlayırdı.

İlk müsəlmanların da təqvimi olmamışdır. İkinci xəlifə *Ömərin* hakimiyyəti dövrünə qədər onlar da ayrı-ayrı önəmli hadisələrə (örnək üçün *peyğəmbərin* son *həccinə*) əsaslanaraq təqvimlərini tərtib edirdilər.

Ancaq, genişlənən və inkişaf edən Xilafətin vahid bir təqvimə ehtiyacı yaranmışdır. Artıq xəlifə Ömər bu kimi təqvimin olmamasına görə çıxardığı əmrlərə tarix qoymaq məsələsində çətinlik çəkirdi. Bölgələrdən ona göndərilən məktubların tarixlərində də qarışıqlıqlar yaranırdı. Buna görə o, bu problemi həll etmək üçün öz səhabələrini bir araya yığmışdır. Onlardan bəziləri yunan və fars təqvimlərinin işlənilməsini təklif etmişdirlər. Ancaq bu təkliflər qəbul olunmamışdır. O zaman *Əli ibn Əbu Talib* Məhəmməd *peyğəmbərin* Məkkədən *Mədinəyə hicrət* tarixindən başlayan təqvimdən istifadə etmək təklifini irəli sürmüşdür. Elə bu təklif də bəyənilmişdir. Beləliklə, 16/638-ci ildə Xilafətdə hamı üçün bir olan ölkə təqvimi tətbiq olunmağa başlamışdır.

Hicri təqviminə görə ilin 354 (uzun ildə 355) günü vardır. Uzun ilin əlavə gününü sonuncu ayın günlərinin üstünə gəlirlər. Beləliklə, ay təqvimində günlərin sayı günəş təqviminə nisbətən 10-11 gün az olur. Hicri təqvimin 12 ayı vardır: *Məhərrəm*, Səfər, Rəbiül-Əvvəl, Rəbiül-Axır, Cəmədiyül-Əvvəl, Cəmədiyül-Axır, Rəcəb, Şaban, *Ramazan,* Zülqədə, *Zülhiccə.* Hicri təqvimi

təxminən 18 iyul 622-ci il tarixindən başlayır. Hicri ayında 29,5 gün vardır. Buna görə də, rahatlıq üçün cüt saylı aylar 29, tək saylılar isə 30 gündən ibarətdir. Sonuncu Zülhiccə ayında 29, uzun illərdə isə 30 gün vardır.

Müxtəlif müsəlman ölkələrində ay təqvimi ilə birlikdə günəş təqvimi də istifadə edilir. Bu təqvimə görə yeni il bahara, günlərin bərabərləşən gününə (21 marta) düşür. Ay təqvimində 354 (355), günəş təqvimində isə 365 (366) gün olduğuna görə onların arasındakı fərq hər 33 ildə 1 il artmaqdadır. Ay təqvimi çox dəqiqdir. Ancaq o ilin fəsillərinə deyil, ayın durumuna bağlıdır. Buna görə də bu təqvimi fəsillərə uyğunlaşdırmaq üçün xüsusi cədvəllərə ehtiyac vardır.

**HİLFÜL-FÜDUL** – ***ədalət naminə Məkkədə heç bir insanın mənliyinin alçaldılmasına yol verməmək, cəmiyyətdə ədalətin qorunması üçün anlaşmaya gələn insanlar olmuşdurlar.*** Məhəmmədin *peyğəmbərliyindən* öncə *Məkkənin* başlıca qəbilələrindən olan bəzi mütərəqqi insanların bağladığı anlaşmadır. Anlaşmanın bağlanma səbəbi Məkkədə Ficar döyüşündən sonra yaranmış vəziyyət olmuşdur. Bu döyüşdə məkkəlilər onlarla vuruşan Qeys qəbiləsini məğlub etdilər. Ancaq bundan sonra Məkkədə zənginlər yoxsullara, eləcə də gəlirləri və cəmiyyətdə çəkiləri az olan sakinlərə qarşı çox pis davranmışdırlar. Onları aşağılayır, yeri gəldikdə isə soyurdular. Bir çox Məkkə sakini buna qarşı çıxaraq "Hilfül-Füdul" birliyini yaratmışdırlar.

Bu birliyin yaradılması Zübeyd qəbiləsindən olan bir insanın əhvalatı ilə bağlıdır. O, Məkkəyə *mal* gətirmiş və gətirdiyi malları As ibn Vail Səhmi adlı bir adama satmışdır. O isə *malı* alaraq onun pulunu verməmişdir. O zaman aldadılmış zübeydli şəhərin başqa nüfuzlu adamlarına şikayət etmişdir. Ancaq onlar onu müdafiə etməmişdirlər. O zaman zübeydli şəhərdə olan təpəliyə çıxaraq uca səslə onun zülmə məruz qalması haqqında seirlər söyləməyə başlamışdır. Bu təpənin yaxınlığında olan Məhəmməd peyğəmbərin əmisi Zübeyr ibn Əbdülmüttəlibin ona yazığı gəlmişdir. Bundan sonra onunla olan başqa ədaləti sevən adamlar bir araya yığışaraq birlik yaratmışdırlar. Onlar *As ibn Vail* Səhminin yanına gedərək ondan tələb etdilər ki, pulu zübeydliyə qaytarsın. Bundan sonra isə qureyşin beş başlıca qəbilələrindən olan bu insanlar Məkkədə bütün ədalətsizliyə uğrayanlara yardım etmə anlaşmasını bağlamışdırlar. Bu anlaşmanı bağlayanlardan biri də *Məhəmməd* olmuşdur. O, bu anlaşmanı çox yüksək dəyərləndirmişdir.

**HİND BİNT ÜTBƏ** – ***ən nüfuzlu Məkkə xanımlarından biri olmuşdur.*** O, *Məkkə* başçısı *Əbu Süfyanın* xanımı, birinci Əməvi **xəlifəsi** olmuş *Müaviyənin* anası idi. Hindin qızı Həbibə Məhəmməd *peyğəmbərin* həyat yoldaşı olduğuna görə o, *Məhəmmədin* qayınanası olmuşdur.

Hind öz əri ilə birlikdə uzun müddət müsəlmanlara qarşı mübarizə aparmışdır. *Bədr* döyüşündə *Həmzə ibn Əbdülmüttəlib* onun atası Ütbəni öldürmüşdür. Həmən döyüşdə onun qardaşı Valid də öldürülmüşdür. Bu səbəblə də Hind, müsəlmanlardan qisas almaq fikrinə düşmüş, onlara qarşı savaşın davam etdirilməsinin tərəfdarı olmuşdur. *Uhud* döyüşündə məkkəlilər müsəlmanları məğlubiyyətə uğrada bilmişdirlər. Burada Hind döyüşdə öldürülmüş Həmzə ibn Əbdülmüttəlibin ciyərini çıxardıb yemişdir. Müsəlmanlar Məkkəni fəth etdikdən sonra, Hind ölümə məhkum olmuşdur. Buna baxmayaraq o, Məhəmməd peyğəmbərin yanına gələrək *İslamı* qəbul etdiyini bildirmişdir. O da, onu bağışlamışdır.

**HİZBÜT-TƏHRİR** – ***dünyanın bir çox ölkələrində gizli və ya açıq fəaliyyət göstərən İslam qurtuluş partiyasıdır.*** Təhrirçilərin məqsədi müsəlmanları Xilafəti yaratmaqla *İslami* həyata qaytarmaqdır. Onlar İslam ölkələrinin başçılarını ölkələrini İslam qanunları ilə idarə etmədiklərinə görə günühkar hesab edirlər. Bu məqsədlərin reallaşması üçün təhrirçilər – öz nüfuzlarını və üzvlərinin sayını artırmaq üçün xüsusi siyasi dəstələr yaradaraq bu istiqamətdə təbliğat aparırlar. "Hizbüt-Təhrir" ideyalarını cəmiyyətdə gündəlik dövri yayımlar, kitablar, söhbətlər vasitəsi ilə yayırlar. Onlar həmçinin "dinsizliyə" qarşı mübarizə aparırlar. Partiya Xilafətin nə vaxt qurulacağı haqqında heç bir açıqlama vermir. Bununla belə, onun qurulmasına doğru yönələn məqsədlərini də gizlətmirlər. Məqsədlərinın siyasi metodlarla gerçəkləşdirilməsinə səylər göstərirlər. Hizbüt-Təhriri 1372/1953-cü ildə hakim olan Təkiəddin Nəbhani yaratmışdır. Onun ölümündən sonra bu quruma Əbdül-Qədim Zəllum başçılıq etmişdir.

**HUD** – ***Şərqi Hədrəmautda Əl-Əhqaf adlı yerdə yaşamış, Yəmənin Ad qəbiləsinə göndərilmiş peyğəmbərlərdən biri olmuşdur (Quran, 46: 21).*** Rəvayətlərə görə Hud peyğəmbərin soyu Nuh peyğəmbərin oğlu Samdan gəlir. Hud erkən yaşlarından *Allahı* tanıyan, Ona ibadət edən inanclı bir insan olmuşdur. Onun ticarətlə məşğul olduğu rəvayət edilir.

*Ad* qəbiləsi Yeməndə böyüklüyü və nüfuzu ilə seçilən bir qəbilə idi. Onların yaşadıqları yerlərin torpağı çox münbit olmuşdur. Buna görə də onlar, orada gözəl bağlar salmış, böyük saraylarda və evlərdə yaşamışdırlar. Bu saraylara *Adül-İrəm* Zdeyirlər. Adlılar fiziki olaraq ucaboylu və güclü olmuşdurlar. Bu üstünlüklərə baxmayaraq adlılar Allahın yolundan yayınmış, dindən uzaqlaşmış, *bütpərəstliyə* meyl etmişdirlər. Onlar Allahın verdiyi üstünlüklərini xeyirli işlərə deyil, başqa xalqları təhdid etmək, pozğunluqlar etmək üçün istifadə edirdilər.

Buna görə də, Allah Hudu seçib adlılara peyğəmbər göndərmişdir. O da, onları uzun müddət bütlərə tapınmaqdan çəkindirməyə, doğru yola yönəltməyə çalışmışdır. (Quran, 11: 50-52). Ancaq, adlıların əksəriyyəti onun nəsihətlərini eşitmək belə istəməmişdirlər (Quran, 7: 66). Yalnız azlıq onu peyğəmbər kimi tanımışdır. Sonra adlılar ondan möcüzələrin göstərməsini tələb etdilər. O da böyük bir qayanı toza çevirmiş, küləyin istiqamətini dəyişmişdir. Buna baxmayaraq adlıların çoxu yenə tutduqları yoldan çəkinməmişdirlər. Hud peyğəmbər də onların cəzalanacaqları xəbərini verdi (Quran, 46: 21). Adlılar isə ona dedilər ki, əgər bacarırsınızsa cəzanı siz verin (Quran, 46: 22). Müəyyən vaxtdan sonra adlılar uzaqdan gələn böyük bir buludu gördülər. Onun arxasınca da güclü bir qasırğa qopdu və azmış adlıları məhv etdi (Quran, 41: 16). Bundan sonra Allah o torpaqlarda başqa xalqları məskunlaşmasını təqdir etmişdir (Quran, 23: 42). Bu fəlakətdən yalnız Hud və onun peyğəmbərliyini qəbul edənlər qurtulmuşdurlar. Onlar o yerdən köçərək müasir *Məkkənin* yerləşdiyi yerlərdə məskunlaşmışdırlar. Hud peyğəmbər də həyatının sonuna qədər orada yaşamışdır.

**HULLƏ** – ***arvadı öz ərinə haram edən boşanmadır.*** Bu boşanmadan sonra qadın öz keçmiş ərinə yalnız başqa kişiyə ərə gedib və boşandıqdan sonra (ya da onun ölümündən) qayıda bilər.

**HURUFÜL-MÜQƏTTƏƏ** – ***ilk baxışdan heç bir məna daşımayan, mənaları yalnız Allah tərəfindən bilinən hərf və ya hərfi birləşmələrdir.*** Belə huruful-müqəttəə *Quranın* 29 *surələrinin* başlanğıcında vardır. Məsələn, "Əlif-Ləm-Mim" (31: 1), "Ta-Ha" (20: 1), "Ya-Sin" (36: 1). *Quran* təfsirçilərinə görə Məhəmməd peyğəmbər *Allahın vəhyini* insanlara açıqlayanda *bütpərəstlər* ona bunu etməkdə mane olmağa çalışırdılar (Quran 41:

26). Buna görə də Allah, *peyğəmbərə* hurufi-müqəttəə ilə başlayan surələri endirdi. Onlar bütpərəstlərin diqqətini çəkməyə başlamışdır. Hurufi-müqəttəənin ayrıca *ayələr* olub-olmaması məsələsində iki baxış vardır. İraq məktəbinə məxsus (*Əshabür-Rəy*) alimlərə görə onlardan bəziləri ayələrdir. Bəsrə məktəbinin alimləri isə hurufi-müqəttəəni ayrıca ayələr kimi qəbul etmirdilər. *Məhəmməd* peyğəmbərin səhabələrinə, eləcə də onlardan sonra gələn nəsillərə görə bu hərflərin anlamını yalnız Allah bilir, onları insan düşüncəsi ilə dərk etmək mümkünsüzdür. Başqa sözlə bu hərflərə verilən istənilən təfsir yolverilməzdir. Bəzi alimlərin fikrinə görə hurufi-müqəttəənin mənalarını yalnız Məhəmməd peyğəmbər bilmişdir.

Buna baxmayaraq, *kəlamçılar (I)* bununla razılaşmayaraq hurufi-müqəttəənin mənalarını təfsir etməyə çalışmışdırlar. Onların iddiasına görə ayələri Allah insanların dərkinə uyğun nazil etmişdir. Bəzi alimlərin fikrinə görə hurufi-müqəttəənin heç bir mənası yoxdur. Ayrıca, bəzi kəlamçılara görə hurufi-müqəttəənin mənalarını insanlar anlamağa qadir olmasaydı, Allah onları nazil etməzdi. Buna görə də, onlardan bəziləri hurufi-müqəttəənin mənalarını açıqlamağa çalışaraq *alleqoriyalara* müraciət edirdilər. Buna görə də hurufi-müqəttəənin müxtəlif təfsirləri vardır.

Bəzi kəlamçılara görə hurufi-müqəttəə Allahın sifətlərinin hansınınsa özəlliklərini əks etdirir. Məsələn, onlardan bəziləri "Əlif-Ləm-Mim" hərfi birləşməsini "Allah-Lətif-Məcid" kimi başa düşürdülər. Digər kəlamçılara görə bu hərflərdə Allahın bir neçə gözəl adları zikr olunmuşdur. Məsələn, elə o "Əlif-Ləm-Mim" hərf birləşmələrindəki "Əlif" hərfi, Tanrının: Əhəd, Əvvəl, Axır, Əzəli kimi adlarını; "Ləm" hərfi Lətif; "Mim" hərfi isə Məlik və Məcid adlarını bildirir.

**HÜBƏL** – ***məkkəlilərin qədim dövrlərdə tapındıqları baş tanrı olmuşdur***. Hübəlin *bütü Kəbədə* yerləşdirilmişdir. Şəhərə Hüzəə qəbiləsi başçılıq edən zaman onlardan olan Əmir ibn Luhay, Hübəlin bütünü Suriyadan *Məkkəyə* gətirmişdir. O, Suriyada olduqda əhalinin çoxlu sayda bütlərə tapındığını görmüşdür. Bunun səbəbini soruşduqda onlar bu bütlərin onlara yağışın yağdırılmasında yardımçı olduqlarını bildirmişdirlər. O zaman Əmir bu bütlərdən biri olan Hübəli onlardan almış və onu Məkkəyə gətirmişdir.

Məkkəyə geri qayıdandan sonra Əmir bu bütü Kəbənin yaxınlığında yüksək yerə qoyaraq xalqını ona tapınmağa çağırmışdır. Rəvayətlərə görə Hübəlin bütü qırmızı əqiqdən hazırlanmış, əli qırılmış insan heykəli görkəmində olmuşdur.

Qüreyş qəbiləsi Məkkədə nüfuz qazandıqdan sonra da xalq Hübələ tapınmışdır. Onlar bütün sınmış qolunun yerinə qızıldan yeni bir qol düzəldərək onu yeniləmişdirlər. Sonra *qureyşlilər* Hübəli Kəbənin içində yerləşdirdilər. Müsəlmanlar şəhəri alana qədər büt orada saxlanılmışdır. Məkkə fəth olunduqdan sonra *Məhəmməd peyğəmbər* Kəbəyə daxil olmuş və oradakı Hübəlin, eləcə də digər tanrıların bütlərini dağıtmışdır.

**HÜCCƏT** – ***bir hökmün doğruluğunu sübut etmək və ya hər hansı bir problemə qalib gəlmək məqsədilə irəli sürülən dəlildir.*** Lüğətdə hüccət "nəzərdə tutmaq, yönəlmək, *ziyarət* etmək, üstün gəlmək" mənasını verən *həcc* kökündən törəmiş bir isim olaraq "dəlil" mənasını verir. Hüccət *Quranda* yeddi yerdə isim, on dörd yerdə isə fel kimi istifadə edilir. Quranda hüccət "insanların *peyğəmbərlərdən* sonra *Allaha* qarşı gətirəcəkləri bir dəlil olmasın deyə" (Quran, 4: 165) nümunəsində görüldüyü üzrə bəzən ihticac yəni "dəlil gətirmə" mənasını, "Aramızda müzakirəyə ehtiyac yoxdur"

(Quran, 42: 15) nümunəsində olduğu kimi mənaları ifadə edər.

Yenə Quran *ayələrində* Allah tərəfindən göndərilən *peyğəmbərlər* Allahın insanlara qarşı hüccəti olaraq qəbul edilmiş, inkarçıların önə sürdükləri etirazlar hüccət deyə adlandırılmaqla bərabər iddialarını isbat edən dəlil kimi də götürülmüşdür. Haqqında heç bir məlumatın olmadığı mövzularda istidlal etmək məqsədə uyğun görülməmiş, qəti biliyə söykənməyən hüccət dəyər sayılmadığı kimi qəti hüccətləri qəbul etməyənlərlə müzakirəni davam etdirmək də tövsiyə edilməmişdir. Allaha təslimiyyət göstərilərək müzakirənin sona çatdırılması istənmişdir. Dəlillə əlaqədar ayələri araşdıran alimlər Quranın bütün iddialarını qəti hüccəti dayandırdığına, fikri mübarizələrin hüccətlərlə edilməsini əmr etdiyinə, bundan ötəri onun başdan sona hüccəti, beyyinə və bürhanlarla dolu olduğuna diqqət çəkmişdirlər.

**HÜDEYBİYYƏ** – ***Məkkədən 17 km uzaqda yerləşən bir bölgədir.*** Hicrətin 6-cı ilində orada *Məhəmməd* peyğəmbərlə *qureyşlilərin* təmsilçisi olmuş *Süheyl ibn Əmir* arasında sülh müqaviləsi bağlanmışdır. Hüdeybiyyə anlaşmasının müsəlman cəmiyyətinin gələcəkdə möhkəmlənməsi, *İslam* dininin Ərəbistan yarımadasında yayılmasında böyük rolu olmuşdur. Bu hadisə *Quranın* 48-ci surəsində anılmışdır.

**HÜSEYN İBN ƏLİ** (4/626 – 61/680) – ***Əli ibn Əbu Talib və Fatimənin oğlu olmuşdur.*** *Əməvi* xəlifəsi Müaviyə ibn Əbu Süfyanın (60/680) ölümünə qədər Hüseyn Xilafətin siyasi və ictimai həyatında fəaliyyət göstərmişdir. Müaviyənin oğlu Yəzidi xəlifəliyə varis elan etməsi Xilafətin mahiyyətini dəyişdirmişdir. Çünki, Raşidi xəlifələrin hakimiyyətindən fərqli olaraq ölkə bir sülalə tərəfindən idarə olunan imperatorluğa çevrilmişdir. Bu hadisə cəmiyyətdə, xüsusən də müsəlmanların arasında birmənalı qarşılanmamışdır. *Mədinədə* peyğəmbərin bir neçə nüfuzlu səhabələri və ailə üzvləri Yəzidin xəlifə olmasına qarşı çıxış etmişdilər. Onların arasında Hüseyn ibn Əli də olmuşdur.

Bu zaman Kufə şəhərində, xəlifə Yəzidə qarşı üsyan başlamışdır. Üsyançılar onların hərəkatına başçılıq etmək üçün Hüseyni şəhərlərinə dəvət etmişdirlər. O da bu çağırışa səs vermiş, ailəsi və yaxınları ilə birlikdə Küfəyə doğru yola düşmüşdür. Yolda olarkən Hüseyn şəhərdəki durumu öyrənmək üçün təmsilçisi olan Müslim ibn Aqili oraya göndərmişdir. Küfəyə gəlmiş Müslim Hüseyn ibn Əliyə ona *beyət* etmək istəyində olan 18 minə yaxın adamın hazır olduğu xəbərini göndərmişdir. Ancaq az sonra xəlifə Yəzid Kufə şəhərinin valisini dəyişdirərək vəzifəyə amansızlığı ilə seçilmiş Übeydullah ibn Ziyadı təyin etmişdir. Kufəyə gəlmiş Übeydullah Əməvi hakimiyyətinə qarşı çıxış edən hər bir insanı ölümlə hədələmişdir. Bununla yanaşı o, incə siyasət apararaq şəhər sakinlərinin çoxusunu özünə tərəf çəkə bilmişdir. Bunun sonunda da hakimiyyətə qarşı çıxışlar yatırılmışdır. Yalnız Müslim ibn Aqil ilə olan azsaylı dəstə üsyanı davam etdirmişdir. Ancaq onlar darmadağın edilmiş, Müslim isə öldürülmüşdür.

Müslim ibn Aqil ölümündən az əvvəl Hüseynə bir məktub göndərmişdir. Orada ona şəhərə gəlməsini məsləhət görməmişdir. Buna baxmayaraq Hüseyn Küfəyə doğru irəliləmişdir. Onun kiçik dəstəsi Kərbəla adlı bir yerə çatdıqda orada Xilafət ordusu ilə üzləşdir. Bu ordunun çoxu Hüseyni öz şəhərlərinə dəvət etmiş kufəlilərdən ibarət idi.

Öncə tərəflər arasında danışıqlar aparılmışdır. Hüseyn özünün və tərəfdarlarının sərbəst buraxılmalarını istəyirdi. Ancaq qarşı tərəf Hüseynin qarşısına ağır tələblər qoymuşdur. Bundan sonra xilafət or-

dusu Hüseynin azsaylı dəstəsinə qarşı hücum edərək onları məğlub etdilər. Hüseyn bu döyüşdə öldürüldü. Onun kəsilən başı Übeydullah ibn Ziyada, sonra isə xəlifə Yəzidə Dəməşqə göndərildi. Hüseynlə birlikdə 72 şəxs də öldürülmüşdür. Bunlardan 23-ü onun yaxın qohumları idi.

*Məhəmməd* peyğəmbərin nəvəsi olmuş Hüseynin öldürülməsi, Xilafətdə durumu daha da gərginləşdirdi. Bundan sonra *Abdullah ibn Zübeyrin* başçılığı altında *Məkkədə* yeni üsyanlar başladı. Üsyançılar Raşidi xəlifələr dövründə olan hakimiyyətin bərpa edilməsini, ölkənin krallığa çevrilməsinin qarşısının alınmasını tələb edirdilər.

Bütün bu hadisələrin sonunda Yəzidin hakimiyyətinə son qoyuldu. Abdullah ibn Zübeyr bir müddət xəlifə də oldu. Ancaq, onun 64/684 – 73/692-ci illər arasındakı qısa müddətli hakimiyyətindən sonra *Əməvilər* yenidən gücləndilər.

Hüseyn ibn Əlinin *şəhid* edilməsi sonrakı siyasi hadisələrə də təsir etmiş, *peyğəmbə*r ailəsinin tərəfdarlarını birləşdirmişdir. Sonralar Xilafətdəki hakimiyyətə qarşı qaldırılan bir çox üsyanlar Hüseynin qisasını almaq çağırışları ilə aparılırdı. *Şiələr* Hüseyn ibn Əlini özlərinin üçüncü günahsız imamı kimi tanıyırlar. Onlar Hüseynin Kərbəlada yerləşən *məzarını* günümüzdə də *ziyarət* etməkdədirlər.

**HÜZEYFƏ İBN YƏMƏN** (35/656-cı ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuşdur.*** Onun əsli *Məkkədən* olsa da, *Mədinədə* doğulmuşdur. Onun atası adam öldürdüyünə görə Məkkədən Mədinəyə qaçmışdır. *Məhəmməd* peyğəmbər olduqdan sonra o, onun yanına gəlmiş və *İslamı* qəbul etmişdir. Məhəmməd peyğəmbər *Mədinəyə hicrət* etdikdən sonra isə Hüzeyfə ona yardımçı olmuşdur. Bütün müsəlmanlar kimi o da, müsəlman icmasının möhkəmlənməsi üçün əlindən gələni etmiş, döyüşlərin çoxusunda iştirak etmişdir. Uhud döyüşündə müsəlman döyüşçüləri Hüzeyfənin atasını öldürmüşdürlər. Onlar yanılaraq onun düşmənlərdən biri olduğunu sanmışdılar. Məhəmməd *peyğəmbə*r onun öldürülməsi xəbərini alan kimi Hüzeyfəyə atasına görə *diyətin* ödənilməsinə göstəriş vermişdir. Ancaq Hüzeyfə bundan imtina etmişdir. Xəlifə *Əbu Bəkrin* hakimiyyəti dövründə Hüzeyfə dindən çıxmış insanlara *(riddət II)* qarşı döyüşlərdə iştirak etmişdir. Xəlifə *Ömərin* hakimiyyəti dövründə isə İraqda, Həmədanda, Reydə iranlılara qarşı vuruşmuşdur. Xəlifə *Osmanın* hakimiyyəti dövründə Hüzeyfə Azərbaycanda vuruşmuş, burada o*, Quranın* oxunması məsələsində *ixtilafların* şahidi olmuş, bu barədə xəlifəyə xəbər vermişdir. Bundan sonra xəlifə Osman Quranın redaktə edilib yayılmasını əmr etmişdir. Hüzeyfə həm də, *hədis ravisi* kimi tanınmışdır.

# X

**XALİD İBN VALİD** (21/642-ci ildə vəfat etmişdir) – ***tanınmış ordu sərkərdəsi olmuşdur.*** Məhzumilərdən olan Xalid *Məkkədə* doğulmuşdur. Hicrətin 7-ci ilində *İslamı* qəbul etmişdir. İlk zamanlar Xalid müsəlmanların düşməni olub, onlara qarşı döyüşmüşdür. *Hüdeybiyyə* anlaşmasına qədər o məkkəlilərin yaraqlı dəstələrinin başçılarından biri olmuşdur. Elə o zaman onun yüksək sərkərdəlik bacarığı üzə çıxmışdır. Elə onun taktiki gedişlərinin sonu məkkəlilər *Uhud* döyüşündə müsəlmanlara qalib gələ bilmişdirlər. Ancaq *Hüdeybiyyə* anlaşması reallaşdıqdan sonra Xalid *Məhəmməd* peyğəmbərin yanına gedərək İslamı qəbul etmişdir.

Hicrətin 8-ci ilində Xalid ilk dəfə müsəl-

man ordusuna qatılaraq bizanslılara qarşı Muta döyüşündə vuruşmuşdur. Müsəlmanlar Məkkəni fəth etdikdə Xalid süvarilərə başçılıq etmiş, *qureyşlilərin* azsaylı dəstələrinin müqavimətini qıra bilmişdir. Məkkə alındıqdan sonra Məhəmməd *peyğəmbər* onu ərəblərin tapındıqları *Üzza* bütünü sındırmağa göndərmişdir. Sonra Hüneyn döyüşündə iştirak etmiş Xalid orada ağır yaralanmışdır. O, Taifin mühasirəyə alınmasında da iştirak etmişdir.

Məhəmməd peyğəmbər vəfat etdikdən sonra xəlifə *Əbu Bəkr* Xalidi *zəkat* verməkdən boyun qaçıran ərəb qəbilələrinə qarşı vuruşmağa göndərmişdir. Onun başçılıq etdiyi qoşun Büzahədə yalançı peyğəmbər *Tüleyhəni* və onun davamçılarını darmadağın etmişdir.

Sonralar Xalid yalançı peyğəmbər *Müseyliməyə* qarşı Yəmmaməyə yürüş edərək qoşununu darmadağın etmiş, onun özünü isə öldürmüşdür. Yalançı peyğəmbərləri öldürdükdən sonra Xalid zəkat verməkdən boyun qaçırmış qəbilələrə qarşı yürüş etmiş, onları vergi verməyə məcbur etmişdir.

Hicrətin 12-ci ilində Xalid ibn Valid İraqa İran ordusu ilə döyüşə yollanmışdır. İki ay qızğın döyüşlərdən sonra onun başçılığı etdiyi ordu İran qoşununu tamamilə darmadağın etmiş, Fərat çayının sahillərini ələ keçirmişdir.

Hicrətin 13-cü ilində Xalid Bizans ordusuna qarşı döyüşərək Əcnadeyn, Dəməşq, Xoms, *Qüdsü* ələ keçirmişdir. Onun başçılığı ilə Yərmuk döyüşündə bizanslıların ordusu darmadağın edilmişdir. Bu qələbələrdən sonra bütün Suriya müsəlmanların əlinə keçmişdir. Xalid ibn Valid Suriyanın Xoms şəhərində xəstələnərək vəfat etmişdir.

**XARİCİLƏR** – ***İslamdan ayrılmış ilk məzhəblərdən birinin ardıcıllarıdırlar.*** Onların çoxu əsrlər boyu aşırı, barışmaz yol tutaraq başqa müsəlmanlarla mübarizə aparmışdırlar. Buna görə xaricilik silahlı müqavimətin, aşırılığın, barışmazlığın simvoluna çevrilmişdir. Bu *məzhəb* dördüncü Raşidi xəlifə *Əli ibn Əbu Talibin* hakimiyyəti dövründə ortaya çıxmışdır.

Suriya valisi Müaviyə ibn Əbu Süfyan *xəlifə* Əlinin hakimiyyətini tanımamışdır. O, xəlifə *Osmanı* qətlə yetirənlərə qarşı tezliklə ölçü götürülməsini tələb edirdi. Ancaq, hakimiyyətdə hələ bərkiməmiş Əli bunu tezliklə edə bilməzdi. Osmanı öldürənlərə qarşı ölçü götürmək üçün o hakimiyyətini möhkəmləndirməli idi. O, onlara qarşı tədbirləri o zaman görsəydi Xilafətdə durum daha da gərginləşə bilərdi.

Müaviyənin müqavimətini qırmaq üçün xəlifə Əli 35/657-ci ildə Suriyaya yürüş etdi. Süffeyn döyüşündə onun xəlifə Əlinin qoşunu Müaviyənin güclərini sıxışdıra bilmiş, hətta üstünlük əldə etmişdir. Ancaq döyüşün qızğın çağında məğlub olacaqlarını duyan suriyalılar nizələrinə *Quran ayələrini* taxaraq Əlini döyüşü saxlamağa qarşıdurmanı, danışıqlarla (Allahın hökmü ilə) həll etməyə çağırmışdırlar. Bunun üçün hakimlərin seçilməsi təklifi də irəli sürülmüşdür.

Müaviyə ilə sülhə getmək istəməyən Əli onun qoşununun darmadağın edilməsində maraqlı idi. Ancaq, onun tərəfdarlarının çoxu, eləcə də ordu sərkərdələri sülhün bağlanmasını istəmiş, xəlifə Əli də onlarla razılaşmalı olmuşdur.

Ancaq, təşkil edilən məhkəmə problemi həll etməmişdir. Orada Əli ilə Müaviyənin nümayəndələri onların hakimiyyətdən uzaqlaşmalarını dilə gətirib, yeni xəlifənin seçilməsi prosesinin başlanmasını bildirməli idilər. Əlinin nümayəndəsi olan *Əbu Musa Əşəri* bunu etdi, ancaq Müaviyənin nümayəndəsi olan *Əmir ibn As* anlaşmanı pozaraq Müaviyəyə qarşı çıxış etməmişdir. Beləliklə, suriyalılar vaxt qazanaraq Əlinin tərəfdarları arasında təfriqə salmışdırlar.

Beləliklə, onlar məğlubiyyətdən qurtula bilmişdirlər.

Məhkəmənin nəticəsindən məyus olan Əlinin bir çox tərəfdarları, öncə bu məhkəmənin keçirilməsini tələb etdiklərinə baxmayaraq onun qanuna uyğun olmamasını iddia etmiş, onun baş tutduğuna görə isə Əlini günahlandırmışdırlar. Bununla da, onlar hər kəsin böyük *günaha* batdığını elan etmişdirlər. Çünki, onların fikirlərinə görə "məhkəməni yalnız *Allah* qurmalıdır". Buna görə də, bu günahdan qurtulmaq üçün hamı Allah qarşısında *tövbə* etməlidir. Əlidən də bunu tələb etmişdirlər. O isə bunu etməkdən imtina etmiş, özünü günahkar saymadığını bildirmişdir. Çünki, o özü öncədən bu məhkəmənin keçirilməsinə qarşı olmuşdur. Bundan başqa o, məhkəmənin insanlar tərəfindən qurulmasının mümkün olmasını iddia etmişdir. Əliyə görə belə olmazsa insanlar arasında qarışıqlıq yaranar. Bununla belə o iddia edirdi ki, məhkəmə Allahın qanunu ilə aparılmalıdır. Bundan başqa Əlinin kimsənin basqısı altında nədənsə imtina etməsi onun xəlifə kimi xalq qarşısında hörmətinin itirilməsinə də səbəb olardı. Buna görə Əli özünün bu məsələdə günahsız olduğunu bildirərək, tövbə etməkdən imtina etmişdir.

Ancaq Əlinin qoşununda ona qarşı çıxışlar güclənməkdə idi. Döyüşçülərin bəziləri Əlinin dəlillərini rədd etmişdir. Onların sayı 12000-ə yaxın idi. "Məhkəməni yalnız Allah qurmalıdır" şüarı ilə çıxış edərək onlar Əlini tərk edib, Hərurə adlı bir yerdə toplaşdılar. Buna görə də, onları "hərurilər" adlandırırdılar. Onlar ilk xaricilər olmuşdurlar. Beləliklə, Əlinin ordusu zəifləmişdir. Sonra xaricilik güclü dini və siyasi məzhəbə çevrilmişdir. Sonrakı illərdə onlar Xilafətdə silahlı üsyanlar təşkil etmiş, uzun illər cəmiyyətdə asayışı pozan gücə çevrilmişdirlər. Belə ki, xaricilər siyasi məqsədlərinə çatmaq üçün istənilən vasitələrə əl atmış, hətta terrordan belə çəkinməmişdirlər.

Xaricilər Əli və Müaviyəni özlərinə düşmən elan edərək onlara qarşı üsyana qalxdılar. 36/658-ci ildə xəlifə Əli xaricilərə qarşı yürüş etmiş, Nəhrəvan döyüşündə onları darmadağın etmişdir. Bundan sonra xaricilər onu, Müaviyəni və *Əmir ibn Ası* ölumə məhkum etmişdilər. 39/661-ci ildə Əlini İbn Mülcəm adlı bir xarici sui-qəsd nəticəsində qətl etmişdir. Müaviyə və Əmir ibn Asa qarşı qəsdlər isə nəticəsiz olmuşdur.

Əlinin vəfatından sonra xaricilər Müaviyə və onun sülaləsinə qarşı müharibələr aparmışdırlar. Müharibələrdə onlar çoxlu qurbanlar vermişdirlər. Buna görə də, xaricilərin arasında döyüşlərdə ölmüş igidləri yad etmə *adəti* yaranmışdır. Bu adətə görə onların *qisasları* alınmalı idi. Savaşlarda onlar partizanlıq metodlarından istifadə edərək yaşayış yerlərinə basqınlar edib, Xilafət qoşunu yaxınlaşanda isə yaxşı müdafiə olunan yerlərə çəkilirdilər. Onlar daha çox İraqın şimalında yerləşən Bətaih adlanan yerdə məskunlaşırdılar. O yerlər bataqlıq və çətin keçilən ərazilər olduğuna görə, Xilafət qoşunu ora girə bilmirdi. Bətaihdən xaricilər başqa yerlərə basqınlar edib, insanları öldürüb evlərini yağmalayırdılar.

Ancaq xaricilərin arasında birlik olmamışdır. Hələ hicrətin I əsrində (miladi VII əsrdə) onlar *ibadilər, süfrilər, nəcdilər, əzraqilər* adlı qollara ayrılmışdırlar. Müsəlman tarixçiləri xariciliyin ilk qolu kimi "mühəkkimi"lərin adlarını qeyd edirlər. Sonrakı illərdə onların arasında parçalanmalar daha da artmışdır. III/X əsrdə müsəlman tarixçiləri artıq onlarla xarici məzhəbinin qollarının olduğunu qeyd etmişdirlər.

Sonrakı onilliklərdə xaricilik İraqda, İranda, Yəməndə, Şimali Afrikada geniş yayılmışdır. VI/XI əsrdən sonra isə onlar gücdən düşmüş, artıq siyasətdən çəkilmişdilər. Günümüzdə *ibadi* xaricilərin az

saylı icmaları Əlcəzairdə, Liviyada, Mərakeşdə və Ümmanda yaşayırlar.

Xaricilərin bütünü Raşidi xəlifələrdən olan Osman və Əlini, eləcə də sonrakı xəlifələri qəbul etmirlər. Müsəlmanların çoxu xəlifə kimi *Qureyş* qəbiləsindən olan hömkmdarları tanıyırlar. *Peyğəmbərin* özü də bu qəbilədən olmuşdur. Belə ki, *Əməvi* və *Abbasi* xəlifələrinin soyları qureyşli idi. Xaricilər isə bununla razı deyildilər. Onlar qureyşli olmayanların da xəlifəliklərini tanıyırdılar. Xaricilər öz aralarından xəlifə seçərək onların ədalətli olması *şərtini* irəli sürürlər. Onlara görə ədalətli xəlifəyə qarşı çıxanlarla mübarizə aparmaq lazımdır. Əgər xəlifə ədalətdən uzaq düşərsə o zaman o vəzifəsindən getməli ya da öldürülməlidir. Xaricilərə görə bu dünyada xəlifə olmaya da bilər, ancaq xəlifəyə ehtiyac yaranarsa hər bir azad və ya kölə qureyşli xəlifə ola bilər. Xaricilərin birinci xəlifəsi Abdullah ibn Vəhb Rasibi olmuşdur.

Xaricilər *"kafir"* saydıqları hakimiyyətə qarşı üsyanların vacib olduğunu vurğulayırdılar. Onlar yalnız özlərini mömin hesab edirdilər. Onların dünyagörüşlərini bölüşməyənlər isə "kafir" adlandırırdılar. Əgər bir yerdə onların sayı 40-a çatmışdırsa, onda onlarla silahlı mübarizə aparmaq vacib buyurulmuşdur. Bu saydan az olanda isə xaricilər yetərsay yığana qədər *təqiyyə* etməli idilər. Din yolunda ölmək xariciliyin ən başlıca məqsədlərindən biri olmuşdur. Öz inanclarının doğru olduğuna inanan xaricilər "ədalətin" qurulması üçün həyatlarını qurban verirdilər. Bu yolla onlar *cənnətə* girəcəklərinə inanırdılar. Özlərini qurban vermək istəyi xariciləri aramsız silahlı üsyanlara və xilafət qoşunları ilə üzləşməyə vadar edirdi. Bu toqquşmalarda xaricilər çoxlu sayda itkilər verirdilər. Ona görə onların ölmüş igidlərinin sayı getdikcə artırdı.

Xaricilər "kafirlərlə" savaşlar aparmaqla kifayətlənmirdilər. Onlar ətraflarında yaşayan insanlarla bütün əlaqələrini kəsirdilər, insanlardan ayrılıb başqa yerlərə köçüb orada yaşayırdılar. *Məhəmməd* peyğəmbərin hicrət etməsinə dayanaraq onlar da özlərini din uğrunda hicrət edənlər adlandırmış və yaşadıqları yerləri "Darül-Hicrət" (Hicrət edənlər ölkəsi), yollarını azmış saydıqları müsəlmanların yaşadıqları yerləri isə "Darül-Harb" (Müharibə ölkəsi) adlandırmışdırlar.

Xaricilərin öz mübarizələrinin nəticəsində hicrətin II – III əsrlərində Şimali Afrikada Midrarilər və Rüstəmilər, Ərəbistan yarımadasında isə Ümman dövlətlərini yarada bilmişdirlər. Ancaq, hakimiyyətə gəldikdən sonra onların öndərləri xariciliyin ilkin məqsədlərindən uzaqlaşıb, sülalə hakimiyyətlərini qurmuşdurlar. Ən tanınmış xarici məzhəbləri *əzraqilər, nəcdilər, süfrilər,* əcradilər, *ibadilərdir*. *İslamdan* çıxmış xarici qolları isə *məymunilər* və *yəzdilər* hesab olunurlar.

**XATİB** – ***məscidlərdə xütbə oxuyan din xadimidir.*** *Xütbədən* əvvəl o, *minbərin* yanında durur və minbərə çıxdıqdan sonra isə üzünü insanlara çevirir. Bundan sonra *müəzzin* müsəlmanları ibadətə çağırmaq üçün *azanı* oxuyur. Xatib də insanlarla birlikdə azana qulaq asır, sonra ayaq üstə hər hansı bir məsələ üzrə iki hissədən ibarət olan xütbə oxuyur. Xütbənin birinci hissəsini oxuyandan sonra yerə oturur. Sonra yenidən qalxaraq ikinci hissəsinə davam edir. Xatib xütbəni uzatmamalı, bacardıqca tez oxuyub qurtarmalıdır. İbadətə toplanmış müsəlmanlara gəldikdə isə onlar xatibi diqqətlə dinləməlidirlər. Xütbə zamanı danışmaq, səs salmaq olmaz. Bütün diqqət xatibə yönəlməlidir. Xütbə oxunanda *namaz* qılmaq da məsləhət görülmür.

**XƏDİCƏ BİNT XÜVEYLİD** – ***Məhəmməd peyğəmbərin birinci xanımı olmuşdur.*** Qüreyşlilərdən olan Xədicə *Məhəmməd* peyğəmbərin həyatında müstəsna rol oynamışdır. Xədicə Məhəmmədlə evlənməzdən əvvəl iki dəfə evlənmişdir. Onun birinci əri olmuş Atiq ibn Əyizdən Xədicənin bir qızı olmuşdur. Əri dünyasını dəyişdikdən sonra o, Təmim qəbiləsindən olmuş Əbu Haləyə ərə getmişdir. İkinci evlilikdən onun bir oğlu və iki qızı dünyaya gəlmişdir. Əbu Halənin ölümündən sonra Xədicə, hələ *peyğəmbər* olmamış Məhəmmədə ərə getmişdir.

Rəvayətlərə görə, Xədicə ticarət işlərini ilə məşğul olan varlı bir qadın olmuşdur. Bu məqsədlə o, Suriyaya öz muzdlu adamlarını göndərirdi. Məhəmməd də onlardan biri olmuşdur. O, Suriyaya Xədicənin qulluqçusu Məysərə ilə birlikdə getmişdir. Orada özünü ən yaxşı tərəfdən göstərə bilmiş Məhəmməd qarşısında olan tapşırığı uğurla yerinə yetirmiş, Xədicəyə böyük gəlir qazandıra bilmişdir. Məysərə Məhəmmədin dəyərli, yüksək əxlaqlı və sağlam düşüncəli bir insan olduğunu Xədicəyə xəbər vermişdir. Bundan sonra Xədicə təmsilçinin vasitəsi ilə Məhəmmədə onunla evlənmək təklifini çatdırmışdır. Məhəmməd də bu təklifi qəbul etmişdir. Məhəmmədin əmisi Əbu Talib, Xədicə üçün elçi getmiş, onların toyunu öz evində etmişdir. Bir çox qaynaqlara görə o zaman Xədicənin 40, Məhəmmədin isə 25 yaşı olmuşdur. Onların bu evlilikdən *Fatimə*, Ümm Gülsüm, *Zeynəb* və *Ruqiyyə* adlı qızları, eləcə də Qasım və Abdullah adlı oğulları doğulmuşdur.

*İslam* ənənəsinə görə Xədicə Məhəmmədin peyğəmbərliyini tanımış ilk insan olmuşdur. O, hər şeydə ərini dəstəkləyərək onun mənəvi dayağına çevrilmişdir. Məhəmməd Xədicəni sevmiş, onu ən yaxşı qadın adlandıraraq həyatının sonuna qədər yad etmişdir. Xədicənin ölümünə qədər onun başqa xanımlarla evliliyi olmamışdır. Xədicə Məhəmmədin peyğəmbərliyinin onuncu ilində *Məkkədə* vəfat etmişdir.

**XƏLİFƏ** – ***Məhəmməd peyğəmbərdən sonra İslam dövlətinin dünyəvi və dini başçısı, həm də idarəçisidir.*** *Xəlifə* Məhəmməd *peyğəmbərin* təmsilçisi, *Allahın* yer üzündəki qanunlarının qoruyucusu, eləcə də bütün müsəlmanların öndəridir. Xəlifələr bütün ölkənin *şəriət* qanunları ilə idarə edilməsini və onun qorunmasını təmin etməlidir. Müsəlmanların əksəriyyətinə görə soyu *Qureyş* qəbiləsindən olan sağlam düşüncəli, dini yaxşı bilən ədalətli müsəlman xəlifə ola bilər. O, müsəlmanları işğalçılardan qorumağı bacarmalı və yüksək şəxsi keyfiyyətləri ilə fərqlənməlidir. Bu tələblərə cavab verən qureyşli olmasa, onda bu kimi keyfiyyətləri olan hər bir müsəlman xəlifə ola bilər. Xalq bütün bu özəllikləri olan xəlifəni tanımalıdır. Yalnız istisna durumlarda (məsələn, *İslamdan* dönsə) ona qarşı üsyan etmək mümkündür. Müsəlmanların eyni vaxtda yalnız bir xəlifəsi olmalıdır. İki və daha çox adam xəlifəliyə iddia etsə, onda daha öncə seçilmiş insan qanuna uyğun olan xəlifə hesab edilməlidir. *Məhəmməd* peyğəmbərdən sonra Xilafəti Raşidi xəlifələr idarə etmişdirlər. Bundan sonra Xilafət imperatorluğa çevrilmişdir. Şiələr qanuni xəlifələr kimi yalnız Əlini və onun soyundan olan imamları tanıyırlar.

**XƏLVƏT** – ***sufilikdə təriqət şeyxinin göstərişi ilə müridin təkkədə müəyyən vaxt təklikdə qalmasıdır.*** Bu *adət* təriqətə yeni gəlmiş *müridlər* üçün bir qədər sonra tətbiq olunur. Təklikdə *mürid* nəfsini çirkabdan təmizləyir və durmadan Allahı zikr edir. Burada o demək olar ki, vaxtını aramsız ibadətlərlə keçirir. Sufi *təriqətlərində* təklikdə qalmanın vaxtı 3, 40 ya da 1001 gün olur. Ən çox yayılmış təkliyə çəkilmə 40

günlük xəlvətdir. Ona ərəbcə “ərbəin”, farsca “çilə” deyirlər. Bu rəqəmi *sufilər Quranın* 7-ci surəsinin 142-ci ayəsinə istinad edərək qeyd edirlər. *Qəzali* kimi sufi alimləri də təkliyə çəkilməyə böyük əhəmiyyət vermişdir.

**XƏLVƏTİLƏR** – ***sufi təriqətlərindən birinin davamçılarıdırlar.*** Bu *təriqətin* adı Əbu Abdullah Siracəddin Ömər ibn Əqmələddin Xəlvətiyə (800/1397-ci ildə vəfat etmişdir) ilə bağlıdır. Onun müəllimi əmisi Kəriməddin Xəlvəti olmuşdur. Ömər Xəlvəti *xəlvətə* çəkilmək ayininə böyük əhəmiyyət verdiyindən bu yol xəlvətilik adlandırılmışdır. Bu yolun mənəvi varislik *silsiləsi Əli ibn Əbu Talibə* gedib çıxır. İranın Şimal və Qərbində, eləcə də Azərbaycanda geniş yayılmışdır. Xəlvətiliyin ikinci müəllimi Azərbaycanın görkəmli sufisi Cəlaləddin Yəhya Şirvani Bakuvi (868/1464-cü ildə vəfat etmişdir) olmuşdur. O, Şamaxıda doğulmuş, Bakıda vəfat etmişdir. Onun, eləcə də davamçısı olmuş Nəsirəddin Dədə Ömər Aydınının xəlvətilik ideyaları Azərbaycan və İranda geniş yayılmışdır. Türk Qaraqoyunlu və Ağqoyunlu sultanları onları dəstəkləmişdirlər. Sonra xəlvətilik Osmanlı imperiyasında da yayılmışdır. Onları I Süleyman və I Səlim kimi türk sultanları xüsusi dəstəkləmişdirlər. Buna görə xəlvətiliyin davamçıları imperiyanın müxtəlif yerlərində, eləcə də Balkanlarda da geniş yayılmışdır.

Ancaq, X/XVI əsrlərdə İranda və Azərbaycanda güclənmiş Səfəvilər xəlvətiliyi sıxışdırıb ortadan çıxarmışdırlar. Türkiyədə xəlvətilik 1925-ci ilə qədər fəaliyyət göstərmiş, sonra isə onların *təkkələri* bağlanmışdır. İndi xəlvəti təriqətinin mənsubları *Misir*, Şimali Afrika, Sudan, Yaxın Şərq, Balkanlar, Avropa və Amerikada vardırlar.

Bu təriqətin yalnız ilk dövrlərində Təbrizdə yerləşən bir mərkəzi olmuşdur. Sonra isə xəlvətilik müxtəlif *şeyxlərin* başçılıq etdiyi kiçik icmalara bölünmüşdür. Onların *adətləri* və mərasimləri bir-birlərindən fərqlənirlər. Xəlvətiliyin 30 yaxın qolu vardır.

Xəlvətilik təlimində *İbn Ərəbinin vəhdəti-vücud* anlayışı önəmli yer tutur. Təriqətdə üç gündən qırx günə qədər xəlvətə çəkilmə adəti vardır. Xəlvətilərin mənəvi yolunda *zikrlər, rabitə*, sükut, aclıq təcrübələri də nəzər çarpır. Xəlvətilikdə yuxuların yozumuna da böyük əhəmiyyət verilir.

**XƏMR** – ***Quranda qeyd edilən şərab növüdür.*** Tərkibində alkol olan sərxoşedici maddədir. Müsəlman *fəqihlərinin* əksəriyyətinə görə içkilərin içilməsi və ya daxilə qəbul edilməsi müsəlmanlar üçün qadağandır. Bu ayədə sözü keçən “xəmr” sözünü müsəlman alimləri bütün spirtli içkilərə aid edirlər. Spirtli içkilərin içilməsi Əhdi-Ətiq (Lev, 10: 8) və Əhdi-Cədiddə (Matta, 26: 29) bəyənilməmiş, ancaq qadağan da olunmamışdır. *Məhəmməd* peyğəmbərin həyatının *Məkkə* dövründə sərxoşedici içkilərin içilməsi qadağan edilməsə də, sonrakı dövrlərdə spirtli içkilərin istifadəsi müsəlmanlara *haram* qılınmışdır. Bir ayədə deyilir ki, içkidə müəyyən qədər xeyir vardır, ancaq onun zərəri xeyrindən çoxdur (*Quran*, 2: 219). Daha birində isə *namaza* sərxoş halda yaxınlaşmamaq əmri edilmişdir (Quran, 4: 43). *Fiqhdə* insanı az olsa belə normal durumdan çıxardan hər bir maddə sərxoşedici hesab edilir. Beləliklə, *İslamda* insanı sərxoş edən təkcə spirtli içkilər deyil, həm narkotiklər, eləcə də başqa bu qəbildən olan maddələr yasaqlanmışdır. Spirtli içkilərin (sərxoşedici maddələrin) ticarəti də müsəlman üçün haramdır.

**XƏNDƏK** – ***xarici basqınlarından qorunmaq üçün şəhərin, kəndin və qalaların ətrafında qazılan uzun və dərin çuxurlardır.*** Hicrətin 5-ci ilində *Mədinəyə* doğru irəliləmiş *müşriklərlə* müsəlmanların

arasında baş verən döyüş də belə adlanır. Müsəlmanlar şəhəri məkkəlilərin çoxsaylı ordusundan qorumaq üçün onun ətrafında dərin çuxur qazmışdırlar. Onların tətbiq etdikləri bu yeni savaş taktikası şəhərin qorunmasında həlledici rol oynamışdır. Bu döyüş Quran *ayələrində* (33: 9-12) də anılmışdır.

**XƏRAC** – ***torpağın istifadə edilməsinə görə ödənilən vergi növüdür.*** *İslam* tarixinin ilk dövrlərində müsəlmanlar apardıqları savaşlar nəticəsində yeni əraziləri ələ keçirdikdən sonra o yerlərin qeyri-müsəlman sakinləri də bu vergini onlara ödəyirdilər. Beləliklə, müsəlman olmayan sakinlər həm *cizyəni*, həm də xəracı ödəməli idilər. Onlar İslamı qəbul etdikdən sonra cizyəni verməmiş, ancaq xəracı verməyə davam etmişdirlər.

*Fəqihlərin* hökmlərinə görə müsəlman olmayanlar xəracı, müsəlmanlar isə *üşrü* ödəməlidirlər. Ancaq bəzi *məzhəblərə* görə müsəlman başqa inancda olanın torpağını satın almışdırsa, onun xəracını ödəməkdə davam etməli idi. Bunu edərkən bu torpaqdan üşrü vermirdilər. Çünki, bir torpaqdan iki növ vergi verməzlər. Ancaq, digər məzhəblərə görə hər iki vergi növü ödənməli idi. Bundan başqa, bu torpaqları *icarəyə* də vermək olardı. *Üşr* yoxsul müsəlmanlar arasında paylanılırdısa, xərac ölkə xəzinəsinə gedirdi. Xəracın iki növü olmuşdur. Birincisi becərilmə üçün yararlı torpaqlardan, ikincisi isə yığılmış məhsuldan alınırdı. Bu növ verginin alınmasını Məhəmməd *peyğəmbə*r müsəlmanlara Xeybər və Fədək vadilərini ələ keçirdikdən sonra əmr etmişdir. O hadisələrdə məğlub olan *yəhudilər* yığdıqları məhsulun yarısını ödəməyə məcbur edilmişdirlər.

**XƏZRƏC** – ***Mədinə qəbilələrindən biri olmuşdur***. *İslamdan* öncə onlar Mənata (büt) tapınırdılar. Onlar İslamı qəbul etdikdən sonra *ənsarlardan* olmuşdurlar. Bu qəbilə öncə Yəməndə onlara yaxın olan *evs* qəbiləsi ilə birlikdə yaşamış, sonra onların hər ikisi Yəsribə (*Mədinəyə*) köçmüşdürlər. Sonra bu qəbilələr arasında qarşıdurma başlamış, onilliklər boyu davam etmişdir. Bu qarşıdurmada yəhudi qəbiləsi olmuş Kaynuka xəzrəcliləri dəstəkləmişdir.

Evslilərlə xəzrəclilərin sonuncu qanlı toqquşması Buas döyüşündə olmuşdur. Qüreyzə ilə Nadir adlı yəhudi və bəzi ərəb qəbilələrindən dəstək almış evslilər xəzrəclilərə qalib gələ bilmişdirlər. Ancaq, uzun illər boyu sürən qarşıdurmaların sonunda evslilər özləri də zəifləmişdirlər. Buna görə də, onlar bu qələbədən faydalana bilməmişdirlər.

Xəzrəclilər isə artıq barış yollarını axtarmağa başlamışdılar. Onlar *Məkkəyə* elçilərini göndərib evslilərlə sülhə gəlmək üçün qüreyşlilərin vasitəçi olmalarını istəmişdirlər. Ancaq, onlardan yardım ala bilməmişdirlər.

Elə o zaman onlar Məkkədə *Məhəmməd* peyğəmbərlə görüşmüşdürlər. Bu görüşdən sonra xəzrəclilər onun evslilərlə qarşıdurmalarına son qoyması yolunda vasitəçi ola biləcəyini anladılar. Bunu evslilər də istəyirdilər. *Əqəbədəki* ilk *beyətə* on xəzrəcli ilə birlikdə, Məhəmməd *peyğəmbərin* yanına iki evsli də gəlmişdir. İkinci Əqəbə beyətində də xəzrəclilərin təmsilçiləri daha çox olmuşdurlar. Onlar böyük *günahlar* etməməyə, Məhəmməd peyğəmbəri qorumağa, Məkkədən qovulmuş bütün müsəlmanlara sığınacaq verəcəklərinə söz vermişdilər. Məkkəli müsəlmanlar *Mədinəyə hicrət* etdikdən sonra xəzrəclilərlə evslilər "ənsarlar" adlanmışlar.

Bu hadisədən sonra evslilərlə xəzrəclilər arasındakı qarşıdurmalara son qoyulmuşdur. Hər iki qəbilə İslamın qələbə çalması üçün çalışmışdırlar. Məhəmməd peyğəmbər dünyasını dəyişdikdən sonra xəzrəclilər xəlifəliyə *Səd ibn Übeydənin* namizədliyini irəli sürmüşdürlər. Ancaq sonra onlar evslilər və *mühacirlərlə* birlikdə *Əbu Bəkrin* xəlifəliyini tanımışdırlar.

**XİBƏ** – bax: **HƏDİYYƏ.**

**XİLAFƏT** – ***Allahın qanunları ilə idarə olunan İslam dövlətidir.*** Xilafətin başçısı *xəlifə* və ya imam adlanır. *İslam* alimlərinin əksəriyyəti Xilafəti *Məhəmməd* peyğəmbərdən sonra ölkə hakimiyyətinin yeni idarə forması kimi dəyərləndirmişdirlər. Buna görə də xəlifə, İslam dövlətinin başçısı olaraq həm də Məhəmməd *peyğəmbərin* təmsilçisi hesab edilirdi. *Quranın* 6: 165 ayəsini dəlil gətirən bəzi alimlərə görə xəlifələr Allahın yerdəki təmsilçiləridirlər. Ancaq alimlərin çoxu bununla razılaşmamış, xəlifəni yalnız peyğəmbərin təmsilçisi hesab etmişlər. İslam tarixində *Raşidi, Əməvi, Abbasi, Fatimi, Kordova* və *Osmanlı* xilafətləri olmuşdur.

**XİRQƏ** – ***sufilərin üst geyimidir.*** Onu *sufilikdə* olan hər bir kəs *təriqətin* bütün qaydalarına tabe olmağın göstəricisi kimi geyinir. Xirqələr sufi libasları kimi müxtəlif formalarda olurlar.

**XİTAN** – ***kişilərin cinsi orqanlarının üst dərisinin kəsilib çıxarılmasıdır.*** Bu hər bir müsəlman üçün müstəhəb əməllərdən hesab edilir. Kəsdirmənin hər hansı bir müddəti göstərilməmişdir. Ancaq xitanı uşaq yaşlarında yerinə yetirmək tövsiyə edilir. Yaşlı kişilər xitan etməyə də bilərlər.

**XIZIR** – ***İbrahim peyğəmbərdən sonra yaşamış peyğəmbər və ya mömin bir insan olmuşdur.*** Rəvayətlərə görə o, Yəmənin Ad qəbiləsinə göndərilmiş *peyğəmbərdən* biri idi. Onun soyu *Nuh* peyğəmbərin oğlu Sama gedib çıxırdı. Ancaq, başqa rəvayətlərə görə Xızır *Bəni İsrailin* peyğəmbəri olmuşdur. Rəvayətlərə görə *Allah* Xızıra *möcüzə* göstərmək bacarığı da vermişdir. Məsələn, o qızmar çölün hər-hansı bir yerində oturardısa onun çevrəsində yaşıl otlar bitərdi. *Təfsirçilərə* görə *Quranın* 18-ci surəsinin 60-82-ci *ayələrində Musa* peyğəmbərlə qarşılaşmış inanclı və müdrik insan Xızır olmuşdur. Xızırın kimliyi haqqında fərqli fikirlər vardır. Belə ki, müxtəlif alimlər onu sadəcə bir müdrik insan hesab etmişlər. Onun peyğəmbər olduğunu deyənlər də vardır. Bəziləri onun *İlyas* peyğəmbər olduğunu iddia edirdilər. Xızırın ölməzliyi haqqında rəvayətlər də mövcuddur.

**XOF NAMAZI** – d***öyüşün gedişi, yırtıcıların hücumu, vulkan püskürməsi, zəlzələ, daşqınlar kimi fövqəladə hallar baş verən zaman qılınan namazdır (Quran 4: 101-102).***

**XOMEYNİ RUHULLAH** (1320/1902 – 1409/1989) – ***ilahiyyatçı alim, görkəmli siyasətçi və İran İslam inqilabının rəhbəri olmuşdur.*** Tam adı Ruhullah Musəvi Xomeyni olmuşdur. O, Xomeyn şəhərində doğulmuşdur. Onun atası və babası da ilahiyyatçı alimlər olmuşdurlar. Gənc Ruhullah da onların yolu ilə getmişdir. Artıq o, 27 yaşında *ayətullah* adını qazanmışdır.

İlahiyyatdan başqa o siyasətlə də məşğul olmuş, *İslamı* siyasiləşdirmək yolunda çoxlu işlər görmüşdür. Uzun illər boyu o, İranda monarxiya quruluşuna qarşı mübarizə aparmış, iranlıları hakimiyyətə qarşı üsyanlara dəvət etmişdir. Xomeyni şah rejiminə qarşı üsyanın İslam ideyaları ilə aparılmasının nəzəriyyəsini işləyib hazırlamışdır.

1381/1962-ci ildə şah Məhəmməd Rıza İranda yaşayan müsəlman olmayan vətəndaşlara seçilmək hüququnu vermişdir. Seçiləndən sonra onlar *Qurana* deyil, öz müqəddəs kitablarına əl basaraq and içə bilərdilər. Xomeyni və onun tərəfdarları bu qanuna qarşı çıxış etdilər. İranı etirazlar bürümüş və bunun sonunda şah o qərarın icrasını dayandırmışdır. Bundan sonra Xomeyni açıq olaraq monarxiyanın de-

vrilməsinə çağırışlar etməyə başlamışdır. Buna görə də, 1383/1964-cü ildə həbs edilib, sonra isə öz ölkəsindən Turkiyəyə, sonra isə İraqa sürgün edilmişdir. Orada o, Nəcəf şəhərində yaşamış, şaha qarşı fəaliyyətini davam etdirmişdir. Bu səbəbdən də o, yenidən 14 il sonra oradan da Fransaya sürgün edilmişdir. Xomeyni İranda 1399/1979-cu ildə inqilaba başçılıq etmişdir. İnqlab şah hakimiyyətinin süqutu ilə nəticələnmişdir. Beləliklə, Xomeyni yeni yaranmış İran İslam respublikasının mənəvi rəhbəri olmuşdur. Xomeyni yeni dövrdə İslam qanunlarına əsaslanan ölkə quruluşunun əsaslarını qoymuşdur. Onun nəzəriyyəsinə görə müsəlman cəmiyyəti yalnız *Allahın* qanunları ilə idarə olunmalı idi. Bu durum isə *Mehdinin* gəlişinə qədər davam etməlidir. Ölkənin İslama uyğun olan həyatını vilayəti-fəqih təmin edir. O ən üstün xüsusiyyətlərə, bilikli və geniş dünyagörüşünə sahib olmalı, cəmiyyəti xeyirli işlər görməyə çağırmalı və pis işlərdən çəkindirməlidir. Xomeyniyə görə vilayəti-fəqihin hakimiyyəti imam Mehdinin gəlişi üçün bir keçid və hazırlıq mərhələsidir.

**XÜMS** – ***malın 5\1-dən verilən vergidir.*** *İslamda* tətbiq edilən vergi növüdür. Onu ildə bir dəfə vergisi verilməyən mallardan və ya puldan verirlər. Xümsun verilməsi barədə *Quranda* (8: 41) ayə vardır. Bu ayəyə istinad edən *Cəfəri məzhəbində* xüms *peyğəmbərin* soyundan olan şiə imamlarına, *müctəhidlərlə* və onların davamçılarına verilməlidir. Onlar da yığılan gəlirləri *məscidlərin* tikilməsi, tələbələrin oxuması kimi dində bəyənilən işlərə xərcləməlidirlər. Eləcə də, xüms yoxsullara, xüsusən yoxsul *seyidlərə* də verilir.

Cəfəri məzhəbinə görə xümsu işlə və ya alış-verişlə əldə olunan gəlirdən; mədənlərdə yerdən çıxarılan qızıl və gümüş kimi dəyərli metallardan; xəzinələrdən; savaşda əldə edilən *qənimətdən;* sularda olan mirvari kimi dəyərli əşyalardan verilməlidir. Digər məzhəblərdə xüms verilmir. Ancaq onlara görə peyğəmbərin soyundan olan insanlara *nəkiblər (I)* qurumu tərəfindən yardımlar edilməlidir.

**XÜTBƏ** – ***din xadiminin (xatibin) dini mövzularda müsəlmanların qarşısında oxuduğu dini maarifləndirici vasitədir.*** *Cümə* və bayram *namazlarından* öncə xütbə oxumaq vacibdir. Xütbələrin oxunması tarixi *Məhəmməd* peyğəmbərdən başlayır. Xütbələr iki hissədən ibarətdir. Birinci hissədə hər hansı bir məsələ haqqında məlumat verilir, ikincidə isə bütün müsəlmanlar üçün *dualar* oxunur. Hər iki hissədə *Allahın* birliyi və Məhəmmədin peyğəmbərliyinə *şəhadət* edən ifadələr söylənilir, eləcə də *peyğəmbərlərə* salam göndərilir. Bunlar xütbənin əsaslarından hesab edilir. Xütbələr öz vaxtında oxunmalıdır. Öncə xütbəyə *niyyət* edilməli, namazdan öncə oxunmalıdır. Xütbələr çoxlu sayda insanların toplaşdığı yerlərində oxunur. *Cümə namazında* xütbə oxumaq vacibdir. O zaman xütbələr iki *rükətli* namazın qılınmasından öncə müsəlmanların nəzərinə çatdırılır. Bayramlarda isə xütbələr bayram namazlarının qılınmasından sonra oxunur. Orta əsrlərdə xütbələrə *İslamın* ilk dövrlərində olmayan yeniliklər əlavə edilmişdir. O zaman xütbələrdə ölkə başçısı olan xəlifələrin, eləcə də başqa hökmdarların adları çəkilirdi, onlara təriflər oxunurdu. Bu din alimlərinin, eləcə də xalqın ölkə başçılarına bağlı və sadiq olduqlarının göstəricisi idi. Bu ənənə *Abbasilər* dövründən başlamışdır.

# İ

**İBADƏT** – ***Allaha inanmaq və Onun göstərdiyi yolla gedərək dini vəzifələri yerinə yetirməkdir.*** Geniş mənada tanrılara, eləcə də təbiət güclərinə tapınmaqdır. Quran *ayələrində* ibadətin yalnız *Allaha* edilməsinin vacibliyi vurğulanır (1: 5, 2: 21). Bir olan Allahdan başqa heç kəsə və ya heç bir şeyə ibadət etmək olmaz. Digər anlamda "ibadət" sözü *namaz, oruc, zəkat, həcc* və digər bu kimi *vacib* olan dini vəzifələrin icra edilməsidir. Geniş mənada ibadət, hər bir inanclı insanın və cəmiyyətin həyatını əhatə edir (*Quran*, 51: 56). Allah daxildən gələn ibadətin qarşılığında, müsəlmanların bu *dünya* və *axirətdə* xoşbəxt edəcəyinə söz vermişdir. Allaha ibadət etmənin üç forması vardır:

1. Namaz və oruc kimi bədənlə edilən ibadət;
2. Zəkatın verilməsi kimi var-dövlətlə yerinə yetirilən ibadət;
3. Həcc ibadəti kimi həm bədən, həm də var-dövlətlə edilən ibadət.

**İBADİLƏR** – ***xaricilərin ən mötədil qolunun davamçılarıdırlar.*** İbadiliyin adı 65/684-cü ildə *Əməvilərə* qarşı üsyan etməkdən çəkinmiş Abdullah ibn İbadla bağlıdır. Onların dünyagörüşü digər müsəlman *məzhəblərinin* dünyagörüşlərinə bənzərdir. Buna görə də ibadilər məzhəb olaraq formalaşmış və bu gün də onun mənsubları Afrikanın və Ərəbistan yarımadasının ayrı-ayrı yerlərində yaşayırlar. Başqa xarici qollarından fərqli olaraq ibadilər öz təlimlərinin nəzəri əsaslarını yarada bilmişdirlər. Onların hüquqi metodları, etiqadi inancları, yazılı ədəbiyyatı vardır. İbadilərə görə onlara qarşı çıxan müsəlmanlar nə inanclı, nə də inancsızdırlar. Onların baxışları ilə bölüşməyən müsəlmanlar öldürülməməlidirlər. Bundan başqa ibadilərə qarşı olanların yaşadıqları yerlər də müsəlman torpaqları hesab olunur. Ancaq onlara qarşı silah qaldıranları onlar müsəlman saymır; onların yerləşdikləri yerlər də *İslam* torpaqları hesab edilmir. Döyüşlərin gedişində onlar başqa müsəlmanlardan *qənimət* kimi yalnız atları, silahları, ordu sursatları alırdılar, başqa şeylərə toxunmurdular. İbadilər başqa müsəlmanlarla ailə də qura bilərlər, onların məhkəmələrinə *şahid* kimi gəlməsinə də yol verirlər. İbadilər İslam tarixi boyu bir necə dövlət də qurmuşdurlar. II/VIII əsrdə Şimali Afrikada (Məğribdə) olmuş Rüstəmilər əmirliyi, günümüzdə isə Ərəbistan yarımadasının Qərbində yerləşən Ümman sultanlığı ibadilərin yaratdıqları ölkələrdir.

**İBLİS** – ***şeytanın adlarından biridir.*** Yunanların "diabolos" sözünün ərəbləşmiş forması olduğu ehtimal edilir. Məcazi mənada bu adla yollarını azmış yalançı insanları da adlandırırlar. *Quranda* göstərilir ki, İblis cindir. Onu *Allah* insandan əvvəl oddan, səmum alovundan yaratmışdır (15: 27).

**İBN ABİDİN** (1198/1784 – 1252/1836) – ***Osmanlı imperiyasının son dövrlərində yaşamış ən görkəmli müsəlman fəqihlərindən biri olmuşdur.*** O, *hənəfi məzhəbinin* mənsublarından olmuş, Suriyada doğulub orada yaşamışdır. Tam adı Səid Məhəmməd Əmin ibn Ömər ibn Əbdül-Əzizdir.

Səid Məhəmməd atası ilə birlikdə ticarətlə məşğul olmuşdur. Erkən yaşlarından elmə maraq göstərmiş, *Quranı* və onun *təfsirini* öyrənmişdir. İbn Abidin *İslam* dininin müxtəlif istiqamətləri ilə bağlı ilk əsərlərini on yeddi yaşından sonra yazmağa başlamışdır. Yazıları ilə o, hələ müəllimlərinin sağlığında tanınmışdır. Hənəfi

məzhəbində o, məzhəbin yeddinci soyunun ən nüfuzlu alimlərdən biri hesab edilmişdir. Onun “Rəddül-Muhtar alə Durrül-Muxtar” adlı *fiqh* kitabı bu məzhəbdə yüksək dəyərləndirilir. Bu kitabda o, müxtəlif dövrlərdə yaşayan İslam *fəqihlərinin* ayrı-ayrı məsələlər üzrə verdiyi hökmlərini toplamışdır. Bundan başqa İbn Abidin, müsəlman hüququ ilə digər əsərlərin, eləcə də Quranın təfsirçisi olmuşdur. O, İslamdakı müxtəlif *təriqətlərin* baxışlarını ənənəvi İslam baxımından araşdıraraq təhlil etmişdir.

**İBN CÖVZİ** (598/1201-ci ildə vəfat etmişdir) – ***tanınmış İslam mühəddisi, fəqih və tarixçisi olmuşdur.*** Bağdadda doğulmuş, *hənbəli məzhəbinə* bağlı olan İbn Cövzi bu məzhəbin ən tanınmış alimlərindən biri olmuşdur. Onun birinci müəllimi Bağdad mədrəsəsinin başçısı Əbül-Fədl ibn Nəsir olmuşdur. Onun yanında İbn Cövzi *Quran* və *hədis* elmlərini öyrənmişdir. Bundan başqa o, hakim Əbu Yəla, İbn Zəquni, Əbu Bəkr Dinəvəri, Əbu Mənsur Cəvaliqi kimi məşhur hənbəli alimlərindən dərs almışdır.

Əbül-Fəzl ibn Nəsir öldükdən sonra 556/1161 ildə İbn Cövzi mədrəsəyə başçılıq etmişdir. O, artıq hənbəli məzhəbinin görkəmli alimi kimi tanınmışdır. Onun dərslərinə minlərlə dinləyici toplaşırdı. İbn Cövzinin əsərləri ilə maraqlanmış *Abbasi xəlifəsi* Mustəncid (555/1160 – 566/1170) onu saray *məscidində* dərslər verməyə dəvət etmişdir. Onun fəaliyyətinin sonunda xəlifə Müstədi (566/1170-575/1180) hakimiyyətə gəldikdən sonra hənbəli məzhəbi Xilafətdə dövlət tərəfindən dəstəklənən məzhəbə çevrilmişdir. Ancaq, Müstədidən sonra gələn xəlifə Nəsir (575/1180 – 622/1225) hənbəlilikdən imtina etmişdir. O zaman İbn Cövzi də təqib olunmuşdur. İbn Cövzi *İslam* dininin müxtəlif aspektlərini əhatə edən çoxlu (200 qədər) əsərlərin müəllifi olmuşdur. Onun tarix, *fiqh, kəlam (I)* ilə bağlı əsaslı əsərləri günümüzə gəlib çatmışdır. O, İslam dininin ilkin təmizliyinin qorunub saxlanması tərəfdarı kimi çıxış etmiş, müxtəlif mistik cərəyanların dinə gətirdiyi *bidətlərə*, bundan başqa *Məhəmməd peyğəmbərin* səhabələrinin əhəmiyyətini şübhə altına qoyanlara qarşı polemik və apologetik əsərlərin müəllifi olmuşdur.

**İBN ƏRƏBİ** (560/1165 – 638/1240) – ***İslamda mistik ənənələrin yaradıcılarından biri olmuşdur.*** Tam adı Mühiddin Əbu Abdullah Məhəmməd ibn Əli Hatimi Tai olmuşdur. O, İspaniyanın Mursiya şəhərində ərəb ailəsində doğulmuşdur. Öncə dini elmləri öyrənmiş, sonralar isə *sufizmə* maraq göstərmişdir. Sufi alim İbn Ərəbi İspanya və Şimali Afrikanı gəzib-dolaşmışdır. İbn Ərəbi dərin biliyi, geniş dünyagörüşü ilə sufilərin arasında tanınmış və hörmət qazanmışdır. O, 598/1200-cü ildən *Məkkəyə* gələrək orada yaşamış, burada bir çox əsərlərini yazmışdır. Əsərlərinın arasında şeirlər toplusu olan “Tərcumanül-Əşvəq” (Güclü istəklərin izahı) kitabı da olmuşdur. Elə burada ən böyük əsəri olan “Fütuhatül-Məkkiyə” (Məkkənin fəthi) əsərini yazmış, ancaq onu tamamlaya bilməmişdir. Həyatının bir neçə ilini Konya və Malatyada keçirmiş İbn Ərəbinin çoxlu *müridləri* olmuşudur. Bunlardan ən tanınmışı öz müəlliminin ideyalarını Kiçik Asiya və İranda yayan Sədrəddin Konyəvi olmuşdur. 621/1223-cü ildə İbn Ərəbi Dəməşqə köçmüş və həyatının sonuna qədər orada yaşamışdır. Bu şəhərdə daha bir tanınmış “Fususul-Hikəm” (Müdrikliyin cavahiratı) əsərini yazmış və “Fütuhatül-Məkkiyəni” tamamlamışdır.

İbn Ərəbi təcrübələrə sığmayan mənəvi biliklər və metodlara üstünlük verirdi. Onun *Quran* və *hədislərə* alleqorik izahlar verdiyi də bilinməkdədir. İbn Ərəbinin dünyagörüşünün ayrı-ayrı məqamlarında antik mistika və bir çox başqa təlimlər özünü

göstərir. O, “kamil insan” və “vəhdəti-vücud” (varlığın birliyi) kimi təlimləri inkişaf etdirmiş, eləcə də məqamlar, müqəddəs insanların *silsiləsində qütblər* haqqında sufi nəzəriyyəsini zənginləşdirmişdir.

İbn Ərəbi 300-ə yaxın əsərlərin müəllifidir. O, sufiliyin nəzəri əsaslarının yaranmasında böyük işlər görmüşdür. Onun bir çox ideyalarını və mənəvi nəzəriyyələrini bir çox müsəlman alimləri tənqid etmişdirlər. Onlar İbn Ərəbinin irəli sürdüyü fikirlərin ənənəvi dindən fərqləndiyini, mistik xarakter daşıdığını iddia edirdilər. Ölümündən sonra da onun əsərləri birmənalı qarşılanmamışdır.

**İBN HƏCƏR ƏSGƏLANİ** (773 – 852) – ***görkəmli fəqih və tanınmış mühəddis olmuşdur.*** Əsl adı Əbül-Fəzl Əhməd ibn Əli ibn Məhəmməd Kinani Şafiidir. O, *Misirdə* doğulmuşdur. Erkən yaşlarında *Quran hafizi* olmuş, sonra *Məkkəyə* getmiş və orada nüfuzlu alimlərdən dərs almışdır. Orada o, *hədis* elminə böyük maraq göstərib Hicaz, Şam və Misirin görkəmli alimlərindən hədis elminin sirlərini öyrənmişdir. Sonra İbn Həcər müəllimlik etmiş, *İslam* elminin müxtəlif sahələrinə aid kitablar yazmışdır. Sonralar isə o, *qazi (II)* vəzifəsini də icra etmişdir. İbn Həcər 150-ə qədər əsərin müəllifi olmuşdur. Bu əsərlər hələ onun sağlığında ona şöhrət qazandırmışdır. İbn Həcərin ən görkəmli əsəri “Fathül-Bari fi Şərhis- Sahihül-Buxari” əsəri olmuşdur. Bu əsər Məhəmməd *Buxarinin* “Səhihi Buxari” əsərinin şərhidir. İbn Həcərin digər məşhur əsəri isə *fiqhi* məsələlərə həsr edilmiş “Bülüğul-Məram min Ədillətül-Əhkam” (Dini ehkamların anlaşılmasında məqsədə çatma) adlanan hədis kitabıdır.

**İBN HƏZM ƏNDƏLÜSİ** (384/994 – 456/1064) – ***görkəmli müsəlman fəqihi və mütəfəkkiri olmuşdur.*** *İslam* dünyasının yetişdirdiyi böyük alimlərdən biri də İbn Həzmdir. Onun adı Əbu Məhəmməd Əli İbn Əhməd İbn Səid İbn Həzm İbn Qalib İbn Saleh İbn Xələf İbn Midan İbn Süfyan İbn Yezid Mövla Yezid İbn Əbi Süfyan İbn Harb İbn Ümeyyə əl-Farisi İbn Abdul-Şəms İbn Abd-i Mənaf əl-Kureşidir. Künyəsi Əbu Məhəmməd olmuş İbn Həzm kimi tanınmışdır. O, miladi X əsrin sonları XI əsrin əvvəllərində yaşamış görkəmli alim, tarixçi, *kəlamçı (I)* və şair olmuşdur. Atası əhəmiyyətli dövlət vəzifələrində işləmişdir. İbn Həzm hicri 384-cü Avropanın *elm* mərkəzi sayılan, bünyəsində elm, *mərifət* və mədəniyyət xəzinələrinə sahib və İslamın mədəniyyət mərkəzlərindən biri olan Kurtubanın (Kordovanın) şərqində yerləşən Manta Liçamda *Ramazan* ayının son günü səhərə yaxın dünyaya gəlmişdir. Daha sonra atası ilə birlikdə Kurtubaya köçmüşdür. İbn Həzmin soyu haqqında müxtəlif rəvayətlər olsa da, adından da aydın olduğu kimi əcdadı *Əbu Süfyanın* azad qulu Yezidə qədər uzanmaqdadır. Ailəsi, Əməvi xanədanına xidmət etmiş, *Əməvilər* Əndəlüsdə (İspaniyada) dövlət qurduqları zaman, İbn Həzmin ailəsi də onlarla birlikdə buraya getmişdir. İbn Həzm dövlət tərkibində böyük mövqeyi olan zəngin bir ailə ətrafında böyümüşdür. Atasının köşkündə məhrumiyyət bilməyən firavan bir həyat keçirmişdir. Atası böyük vəzirlərdən olduğu üçün oğlunun tərbiyəsinə son dərəcə diqqət göstərmişdir. İbn Həzm təhsilli qadınların və alimlərin nəzarətində yetişmişdir.

İbn Həzm müxtəlif elmlərlə məşğul olmuş bir alimdir. *Quran* ehkamını öyrəndiyinə və bunlardan mənalar çıxardığına görə ona ehkam ayələrinin *təfsirçisi* də deyilə bilər. O, Quranda etiqadi mövzulardakı ayələri təfsir və şərh etmişdir. O, təkcə təfsirlə məşğul olmamış, eyni zamanda *fəqih* olması səbəbi ilə ehkam ayələrindən öz metoduna görə hökm çıxarmışdır. O, *fiqhi məzhəblərindən* biri olmuş zahiri məzhəbinin

ikinci tanınmış alimi hesab olunur.

İbn Həzm həm də *hədis* alimi olmuşdur. O, “Müsənnəf” və “Müsnəd” olaraq bilinən hədis kitablarının müəllifidir. İbn Həzm, eyni zamanda bir-birindən ayrılmayan təfsir, hədis və fiqh sahəsinə aid əsərlər də yazmışdır. Ümumiyyətlə o, kəlamçı, məntiqçi və filosof kimi tanınmışdır.

**İBN XƏLDUN** (732/1334 – 808/1410) – ***tanınmış İslam mütəfəkkiri və tarixçisi olmuşdur.*** Əsl adı Əbdurəhman ibn Məhəmməd ibn Əbu Bəkr ibn Məhəmməd ibn Həsən idi. O, Tunisdə doğulmuşdur. Atası *fiqh* alimi olduğundan bu elmi oğluna da öyrətmişdir. Eyniliklə İbn Xəldun, *Quran* və ərəb dilinin incəliklərini öyrənmiş, sonralar isə o, elmini artırmaq üçün böyük alimlərdən dərs almışdır. Yüksək savada malik olmuş İbn Xəldun uzun illər boyu müxtəlif vəzifələrində çalışmışdır. O, Əlcəzair və Mərakeşdə olarkən biliklərini bu ölkələrin kitabxanalarında daha da zənginləşdirmişdir. Orada İbn Xəldun İspaniyanın tanınmış alimləri ilə görüşmüşdür. O, müəyyən müddət İspaniyada yaşamış, sonra Əlcəzairə qayıtmışdır. Orada öncə *məscidin* xatibi olmuş, sonra isə dövlət vəzifələrində çalışmış, eyni zamanda müəllimlik fəaliyyəti ilə də məşğul olmuşdur. 784-cü ildə İbn Xəldun Qahirəyə köçmüş və həyatının sonuna qədər burada yaşamışdır. O, Qahirədə Əl-Əzhər universitetində müəllimlik etmişdir. Daha sonra Misir sultanının dəstəyini qazanan İbn Xəldun *qazi* vəzifəsinə təyin olunmuşdur. Ailəsi dənizdə gəminin batması nəticəsində həlak olduqdan sonra bu vəzifəni tərk etmiş, özünü elmə həsr etmişdir. O, tarix və ictimai elmlər üzrə əsərlər yazmış, tələbələr yetişdirmişdir. Onun ən məşhur kitabları bunlardır: “Əl-İbər” (İbrətli örnəklər), “Xəbər fi Əyyamül-Ərab” (Ərəblərin həyatında olan hadisələr), “Əl-Əcəm vəl-Bərbər” (Ərəb olmayanlar və bərbərlər). “Müqəddimə” əsərlərində isə o, ölkə idarə etmə ilə bağlı problemlərə toxunmuşdur. Bu əsərlər onu bütün dünyada tanıtmışdır.

**İBN KƏSİR** (701/1301 – 774/1373) – ***görkəmli müsəlman müfəssiri və fəqihi olmuşdur.*** O, Suriyanın Busra şəhərinin yaxınlığındakı bir kənddə doğulmuşdur. İbn Kəsir atasını erkən yaşlarında itirdikdən sonra Dəməşqdə tanınmış ilahiyyatçılardan dərs almışdır. O, təhsilini bitirdikdən sonra *təfsir* və *hədis* sahəsində alim kimi tanınmışdır. O, Dəməşqin ən məşhur mədrəsələrində dərs demişdir. *İbn Həcər Əcgəlani*, Şihabəddin Hici kimi alimlər onun öyrənciləri olmuşdurlar. O, 74 yaşında vəfat etmişdir.

İbn Kəsir bizim günümüzə qədər çatan və müsəlman dünyasında yüksək dəyərləndirilən çoxlu sayda kitabların müəllifi olmuşdur. Onun ən məşhur əsərlərindən biri “Əl-Bidəyə vən-Nihayə” (Başlanğıc və son) adlı çoxcildli tarix kitabıdır. Burada dünyanın yaradılışından müsəlman tarixinin 767/1366-cı ilinə qədər olan bütün hadisələr öz əksini tapmışdır. İbn Kəsirin ikinci məşhur əsəri “Təfsirül-Quranul-Əzim” adlı çoxcildli Quran *təfsiri* olmuşdur. Burada Quranın bütün *ayələri* başqa ayələr, hədislər və səhabə sözləri ilə təfsir edilmişdir. Burada İbn Kəsir öz yanaşmasını da qeyd etmişdir.

**İBN QƏYYİM CÖVZİYYƏ** (751/1350 ildə vəfat etmişdir) – ***sələfiliyin yaradıcılarından biri olmuşdur.*** Dəməşqdə doğulmuşdur. *Fiqhi, kəlamı (I)* və ərəb dilinin qrammatikasını məşhur müəllimlərdən öyrənmişdir. Onun müəllimlərindən biri *İbn Teymiyyə* olmuşdur. İbn Qəyyim onunla ölümünə qədər dostluq etmiş, sonra isə onun təlimini yaymış və inkişaf etdirmişdir. O, 726/1325 – 728/1328-ci illərdə *Misirin* məmlük hakimiyyəti tərəfindən təqib olunub həbsxanaya atılmışdır. İbn Qəyyim *təfsir* və *hədislərin*, eləcə də onların

metodologiyasının, fiqh, kəlam, ərəb dilinin mahir bilicisi kimi tanınmışdır. Bu sahələrdə əsərlər ərsəyə gətirmişdir. O, *təqlidə* qarşı çıxış etmiş, istənilən məsələdə yalnız birbaşa *İslamın* ilk qaynaqlarına müraciət edilməsinin tərəfdarı olmuşdur. O, həmçinin dinə sonradan gətirilmiş müxtəlif *bidətlərə* qarşı çıxış etmişdir.

**İBN QÜTEYBƏ** (213/828-276/889) – ***tanınmış müfəssir, mühəddis, fəqih, kəlamçı və İslam tarixçisi olmuşdur.*** Bəzi mənbələrə görə o, *hənbəli məzhəbinin* ardıcılı olmuş, Kufədə doğulsa da, həyatının böyük bir hissəsini Bağdadda keçirmiş, 63 yaşında vəfat etmişdir.

Bağdadda müxtəlif dinlərin və məzhəblərin mənsubları yaşayırdılar. Onlarının arasında ilahiyyat mövzuları haqqında qızğın mübahisələr baş verirdi. Bütün bu amillər İbn Qüteybənun dünyagörüşünün formalaşmasında, onun *elm* yolunu seçməsində həlledici rol oynamışdır. Təhsilini dövrünün tanınmış alimlərindən almışdır. İbn Qüteybə yüksək vəzifələrdə çalışmışdır. Onun hakim olduğu da bilinməkdədir. Bundan başqa o müdərrislik etmiş, çoxlu kitablar yazmışdır. Buna görə də onun çoxlu tələbələri olmuşdur. İbn Qüteybə "Təvil əl Muşkilül-Quran" (*Quranın* çətin yerlərinin *təfsiri*), "Muşkilül-Hadis" (Hədislərdəki çətinliklər) kimi *kəlam (I)*, *fiqh* və başqa elmlər sahəsində 40-dan çox kitabın müəllifi olmuşdur. O, *ayələrin* və *hədislərin* qrammatik quruluşuna dair əsərlər də qələmə almışdır.

**İBN MACƏ** (209/824 – 273/886) – ***dövrünün məşhur mühəddisi və fəqihi olmuşdur.*** İranın Qəzvin şəhərində doğulmuşdur. Çox erkən yaşlarından *hədislərə* maraq göstərmiş, müsəlman aləminin müxtəlif mədəni mərkəzlərinə – Xorasana, Bəsrəyə, Kufəyə, *Məkkəyə*, Suriyaya, Misirə səfərlər etmişdir. Orada o, hədisləri toplayaraq sistemləşdirmiş və beləliklə o, məşhur əsəri "Sünən" adlanan hədis kitabını yazmışdır. Orada 4000-dən çox hədis toplanmışdır.

**İBN TEYMİYYƏ** (661/1263 – 728/1328) – ***müsəlman mütəfəkkiri və hüquqçusu, müasir sələfiliyin yaradıcılarından biri olmuşdur***. Tam adı Əbülabbas Təkiəddin Əhməd ibn Əbdulhəlim Məcdiddin ibn Əbdüssəlam ibn Teymiyyə idi.

İbn Teymiyyə 661/1263-cü ildə Hərranda (Suriyanın şimalında) anadan olmuşdur. O zaman monqolların Hərranı ələ keçirəcəkləri təhlükəsi yaranmışdır. Ona görə onun ailəsi Dəməşqə köçmüşdür. Atası ona *fiqh* və *təfsir* elmlərini öyrətmişdir.

İbn Teymiyyənin dünyagörüşünün inkişafında monqol hücumlarından Dəməşqdə sığnacaq tapmış o dövrün bir çox alimləri böyük rol oynamışdırlar. Burada müxtəlif ilahiyyat məktəbləri inkişaf etmiş, onların arasında çəkişmələr gedirdi. O zaman aparıcı əqidə məktəbi *əşərilik* olmuşdur. Ancaq başqa məktəblərin ardıcılları əşəri *kəlamına (I)* qarşı çıxış edirdilər.

İbn Teymiyyə də əşəri təliminin əsaslarını tənqid etmişdir. Daha sonra o, çeşidli məktəblərin, cərəyanların, *təriqətlərin* ardıcılları ilə mübahisələrə cəlb olunmuş, onların bir çoxlarını İslama *bidətlərin* gətirilməsində suçlamışdır. Bundan başqa, onun verdiyi hüquq hökmləri bir çox başqa alimlərin hökmlərindən fərqlənirdi. İbn Teymiyyənin ardıcılları isə İbn Teymiyyənin verdiyi hökmlərinin *İslamın* ilkin ruhuna və peyğəmbərin *səhabələrinin* yoluna daha uyğun olduğuna inanırdılar.

Suriyada qarşıdurmaların yaranmasını istəməyən *Məmlük* sultanları İbn Teymiyyəni və onun ardıcıllarını təqib etmişdirlər.

İbn Teymiyyə təfsir, fiqh və *hədis* elmləri üzrə çoxlu kitablar yazmışdır. Onların bir çoxu günümüzə gəlib çatmamışdır. Onun təlimi *sələfiliyin* əsasını təşkil edir.

**İBN ŞİHAB ZÜHRİ** (125/742-ci ildə vəfat etmişdir) – ***tabiundan ən tanınmış hədis ravilərindən biri olmuşdur.*** Hicaz və Suriya arasında yerləşən Ayla məntəqəsində

yaşamışdır. Öz dövrünün ən bilikli insanlarından biri olmuşdur. İbn Şihab *hədis* elmi üzrə Əməvi xəlifələrinin sarayında dərs demişdir. O, *təfsir* və hədis elminin incəliklərinə sahiblənmişdir. O, səhabələrlə görüşməsə də, onların rəvayət etdikləri hədislərin ötürücüsü olmuşdur. Ancaq, bu hədislərin kimlər tərəfindən rəvayət edildiyi bilinmədiyi üçün *mühəddislərin* çoxu bu hədisləri *səhih* hesab etmirlər.

**İBRAHİM** – ***Allahın ən böyük peyğəmbərlərindən biri olmuşdur.*** *Quranda* o, "Xəlilullah" (Allahın dostu) adlandırılmışdır (Quran 4: 125). Rəvayətlərə görə *İbrahim* peyğəmbərin böyük oğlu *İsmail* ərəblərin əcdadı, *Məhəmməd* peyğəmbərin isə birbaşa ulu babasıdır. İbrahim *peyğəmbərin* kiçik oğlu *İshaq* isə *Bəni İsrailin* ulu babası hesab olunur. Rəvayətlərə görə İbrahim peyğəmbər Mesopotamiyanın Ur şəhərində (indiki Türkiyənin Urfa şəhəridir) doğulmuşdur. Orada sami qəbilələri olan kəldanilər yaşayırdılar. İbrahim onların peyğəmbəri olmuşdur. Bəzi Quran *təfsirçilərinə* görə Quranın 6-cı surəsinin 74-cü ayəsində adı İbrahim peyğəmbərin atası kimi çəkilmiş, bütlər düzəldib satmış *Azər*, əslində onun əmisi və ya atalığı olmuşdur. Birinci əri *Taruhdan* hamilə olan İbrahimin anası Əminə isə onun ölümündən sonra Azərə ərə getmişdir. O zaman *Babilin* çarı Nəmrud olmuşdur. O və onun xalqı bütlərə tapınırdılar. Günlərin birində bir falçı Nəmruda ölkəsində doğulacaq bir oğlan uşağının onun çarlığına son qoyacağı və yeni dinin yaradıcısı olacağı xəbərini vermişdir. Bunu eşidən Nəmrud bütün yeni doğulmuş körpələrin öldürülməsi, hamilə qadınların isə zindanlara atılması əmrini vermişdir. O zaman İbrahimin anası hamiləliyin ilk aylarında idi və onun halı zahirdən müşahidə edilmirdi. Buna görə də, o təqiblərdən canını qurtara bilmişdir. Əminə əri Azərə onun hamilə olmasını heç kimə deməməyini xahiş etmişdir. Doğum vaxtı gəldikdə isə Əminə şəhər kənarına gedib oradakı bir mağarada İbrahimi doğmuşdur. Uşağı orada qoyub geri qayıdan Əminə, Azərə körpənin doğum zamanı öldüyü xəbərini vermişdir. Bundan sonra o, bir neçə il gizli olaraq mağaraya getmiş, İbrahimi bəsləyərək geriyə qayıtmışdır. Azər İbrahimin sağ olması haqqında çox gec xəbər tutmuşdur. Yetkinlik yaşına çatmış İbrahim dünya, onun yaradılışı haqqında çox düşünüb, Yaradıcının var olması qərarına gəlmişdir. Beləliklə, o, *Allaha* iman gətirmişdir (Quran, 6: 76-79).

Daha sonra gənc İbrahim xalqının yanına gəlib *bütpərəstliyə* qarşı açıq çıxışlar etməyə başlamışdır (Quran, 21: 52-56). Bunu görən bütpərəstlər onun əməllərinə görə Azərə şikayət etmişdilər. Ancaq, Azər İbrahimi tutduğu yoldan çəkindirə bilməmişdir. Beləliklə, İbrahim Allahın elçisi olmuş kəldaniləri doğru yola və imana dəvət etmişdir. Onları bütpərəstliyi buraxmağa və bir olan Tanrıya inanmağa səsləmişdir. Allah *vəhylərini* İbrahimə "*sühufda*" nazil etmişdir.

Daha sonra İbrahim peyğəmbər xalqa tapındıqları bütlərin gücsüz və mənasız olduqlarını göstərmək istəmiş, bu istəyini də kəldanilərin keçirdikləri bir böyük bayramlarında həyata keçirmişdir. Azər İbrahimin şəhər ətrafında keçirilən bu bayrama getməməsini istəmişdir. O isə xəstə olduğunu bəhanə edərək şəhərdə qalmış, insanlar gedəndən sonra *məbədə* girib bütün bütləri darmadağın etmişdir. Yalnız baş tanrının bütünə toxunmamışdır. Geri qayıdan şəhərlilər tapındıqları bütlərin dağıdıldığını görüb, İbrahimdən bunu kimin etdiyini soruşmuşdurlar. İbrahim də təklif etmişdir ki, bu sualı baş tanrı hesab etdikləri bütdən soruşsunlar (Quran, 21: 63-67). Bu hadisə haqqında Nəmrud bildikdən sonra o, İbrahimi öz yanına çağırmışdır. İbrahim peyğəmbər sarayına gedərək onu Allahı tanı-

mağa çağırmışdır. Ancaq özünü tanrı hesab edən Nəmrud İbrahim peyğəmbərin çağırışına səs verməmişdir (Quran, 2: 258). Bundan sonra azğınlaşmış Nəmrud İbrahimi tutub diri-diri tonqalda yandırılmasını əmr etmiş, ancaq Allah onu qorumuş, atəşdə onun yerini sərin etmiş və onu hamının gözü önündə xilas etmişdir (Quran, 21: 69). Bundan sonra Allah bu azmış xalqa böyük əzablar vermişdir. Onlar həşəratların basqınlarına uğramışdırlar. Bu həşəratlardan biri Nəmrudun burnundan beyninə keçərək ona dözülməz əzablar vermişdir. Daha sonra İbrahim kəldanilərin yurdundan uzaqlaşaraq cənubda yerləşən *Hərrana* getmişdir. Onunla birlikdə həyat yoldaşı Sara, eləcə də qardaşı oğlu *Lut* da getmişdir. Onlar bir müddət Hərranda qaldıqdan sonra Şama (Suriyaya), daha sonra oradan *Misirə* getmişdirlər. Yolda olarkən İbrahim peyğəmbərin qardaşı oğlu Luta peyğəmbərlik verilmiş, o da Sədum şəhərində qalmışdır.

O dövrdə Misiri olduqca azğın və dinsiz bir *Firon* idarə edirdi. O İbrahim və Saraya qarşı əxlaqsız davranmışdır. Ancaq bir möcüzə baş verdikdən sonra onlara toxunmamışdır. Üstəlik o, Saraya *Həcər* adlı bir qadını qulluqçu verərək onları sərbəst buraxmışdır. Sara Həcərlə birlikdə İbrahimin yanına qayıtdıqdan sonra onlar *Fələstinə* gedib orada yaşamışdırlar. Burada maldarlıqla məşğul olan İbrahim varlanmışdır. Vaxt keçdikcə başqa adamlar da buraya köçmüş, bu yeri abadlaşdırmışlar. Daha sonra İbrahim və onun ailəsi Suriyaya köçmüşdürlər.

İbrahim peyğəmbərin uşaqları olmadığına görə Saranın razılığı ilə o qulluqçusu Həcərlə evlənmiş, bu evlilikdən İsmail adlı bir oğlan doğulmuşdur. Bundan sonra Saranın qısqanclığına görə Allah İbrahim peyğəmbərə Həcərlə İsmaili indiki *Məkkə* torpaqlarında yerləşən susuz bir qızmar çöllüyə aparmasını buyurmuşdur. O da, Tanrının əmrini yerinə yetirmiş onları Hicaza apararaq orda tərk edərək geri qayıtmışdır.

Susuz çöllükdə körpəsi ilə tək qalan Həcər təlaşlı bir vəziyyətdə Məkkədəki Səfa və Mərvə təpələri arasında su axtarmağa başlamışdır. Bu an *Cəbrayıl* yerə enmiş və ayaqları (ya da qanadı) ilə yerə vurmuş və vurduğu yerdən su fışqırmışdır. Bu bulaq *Zəmzəm* adlandırılmışdır. Beləliklə, Həcər və oğlu İsmail Məkkədə qalmış və zaman keçdikcə o yerlərə başqa qəbilələr də gəlmişdir.

İsmail dünyaya gəlməmişdən öncə İbrahim peyğəmbər onun oğlu doğularsa, onu yetkinlik yaşına çatdıqdan sonra Allaha qurban verəcəyinə söz vermişdir. İsmail yetkinlik yaşına çatdıqda atası Məkkəyə gəlmiş, onu qurban vermək istəmişdir. Ancaq bu an möcüzə baş vermiş, Allah İbrahimə qurban kimi bir qoçu kəsməyi əmr etmişdir. Bu hadisələrdən sonra İbrahim peyğəmbərin onun birinci xanımı Saradan da *İshaq* adlı oğlu doğulmuşdur.

Daha sonra rəvayətlərdə İbrahim peyğəmbərin tez-tez Həcər və oğlu İsmailin yanına Məkkəyə getdiyi haqqında məlumat verilir. Orada o, İsmaillə birlikdə *Kəbəni* inşa etmişdirlər. Tikinti işləri başa çatdıqdan sonra, İbrahim İsmail ilə birlikdə həcc mərasiminin qaydalarını təsis etmiş və bu ibadəti yerinə yetirmişdirlər. Rəvayətlərə görə İbrahim *Qüdsdə* 175 yaşında vəfat etmişdir.

**İBRƏT** – ***hər hansı bir hərəkət və davranışlardan, eləcə də hadisələrdən çıxarılan doğru nəticədir.*** *Quran* və *hədislər* bizdən əvvəlki nəsillərdən, *peyğəmbərlərin* həyatından və müxtəlif hadisələrdən ibrət almağımızı istəyir. Belə ki, biz pis əməllərdən uzaq olmağa, xeyir əməllərə isə can atmalıyıq.

**İCAB** – ***fiqhdə insanların hər hansı bir məsələ haqqında razılığa gəlmələri üçün edilən təklifin qəbul edilməsidir.*** Məsələn; ticarətdə satıcının təklif etdiyi malı alıcı qəbul etməlidir. Belə olarsa anlaşma real-

laşmış olur. Buna görə də "icab etmək" və "qəbul etmək" anlayışları birlikdə istifadə edilir.

**İCARƏ** – ***fiqhdə gəlir əldə etmək məqsədi ilə müəyyən vasitənin və ya yerin müvəqqəti olaraq başqasına verilməsidir (Quran, 65: 6, 28: 26-27).*** İcarəyə verən ilə icarəyə götürən arasında müqavilə bağlanmalı və ya anlaşma olmalıdır. Gəlinən nəticələr hər iki tərəfi qani etməli, burada hiyləyə yol verilməməlidir.

**İCAZ** – ***hər hansı bir əsərin gözəl, möcüzəvi ədəbi quruluşudur.*** Quranın forma ilə anlamının möcüzəliyi və bənzərsizliyi Quranın icazı adlanır.

**İCMA** – ***hər hansı bir problem haqqında hökm verildikdə birliyə gəlmək, eyni mövqedən çıxış etməkdir.*** *Fiqhdə* icma, *fəqihlərin* müxtəlif problemlərin həlli yolunda birliyə gəlməsidir. Alimlər icmanın tətbiq edilməsini *Quran* (4: 115, 3: 110) *ayələri* ilə əsaslandırırlar. İcma *İslamda ictihadın* qaynaqlarından biri hesab edilir. Fiqhi *məzhəblərdə* hökmlər daha çox dörd mənbə əsasında (Quran, *hədislər*, icma, *qiyas*) verilir. Eyni zamanda, icma Quran və hədislərə zidd olmamalıdır. İcmanın tarixi *tabiun* dövründən başlayır. *Peyğəmbərin* vəfatından sonra onlar ortaya çıxan müxtəlif problemləri icma metodu vasitəsi ilə həll etmişdirlər. İcma ilə hökm vermək tək bir səhabənin verdiyi hökmdən daha üstün hesab edilirdi. Elə o dövrdən də, bu termin yaranmışdır.

Əqidə ilə bağlı məsələlərdə icma tətbiq edilməməlidir. Müxtəlif fəqihlərin hər hansı bir problem üzrə baxışları, çoxluğun mövqeyi ilə üst-üstə gəlməsə belə icma pozulmur. Alimlərin icması ilə yanaşı səhabələrin də icması vardır. Bir çox fəqihlər alimlərin deyil, yalnız səhabələrin icmasına üstünlük verirlər. Məsələn, *zahiri məzhəbində* fəqihlərin icması inkar olunur. Çünki, buna dair Quranda yetərli qədər dəlil yoxdur. Daha bir qrup alim bir adamın rəvayət etdiyi hədisindən çıxarılmış icmanı düzgün hesab etməmişdirlər. *Cəfəri məzhəbində* imamların da icması vardır.

**İCTİHAD** – ***şəriətdə hüquqi hökmlərin irəli sürülməsi, eləcə də müxtəlif dini problemlərin Quran, hədis, qiyas və icmaya istinad edilərək həll edilməsidir.*** İctihad edənə *müctəhid* deyilir. Müctəhid dərin biliyə və yüksək əxlaqa sahib olmalıdır. "İctihad" termini *Quranda* olmasa da, *Məhəmməd* peyğəmbərin *hədislərində* vardır. Rəvayətlərə görə Məhəmməd peyğəmbər öz səhabələrini müxtəlif yerlərə göndərir və onlara ictihad etmək səlahiyyətini verirdi. İctihad edən müctəhid *İslamın* başlıca qaynaqları olan Quran və hədislərdən birbaşa hökmlər çıxarır və ya keçmiş alimlərin artıq həll etdiyi məsələləri araşdıraraq onları mövcud şəraitə tətbiq edir. Məhəmməd *peyğəmbərin* səhabələri onların *fiqhi* əsaslarını sistemləşdirmiş, onların tələbələri və davamçıları, eləcə də imamlar ilkin qaynaqlardan müstəqil hökmlər vermişdirlər. Hicrətin III əsrindən sonra demək olar ki, bütün başlıca hüquqi problemlər sistemləşdirilib həll edilmişdir. Buna görə bir çox *məzhəblərdə* artıq həll edilmiş məsələlər ətrafında yeni ictihadların verilməsi bəyənilməmişdir. Beləliklə, bu məzhəblərdə uzun müddət "ictihad qapıları" yalnız yeni yaranmış məsələlər üçün açılırdı. Hər bir yeni problemin hökmü fiqhi məzhəbinin ənənələri və metodlarına uyğun olaraq verilməlidir. *Cəfəri, zahiri* və *hənbəlilər* ictihadın qapılarının bağlanması fikri ilə razılaşmamış, istənilən məsələ haqqında ictihadın verilməsini məqbul hesab etmişdirlər.

Dərk olunmasında heç bir problem olmayan Quran *ayələri* və hədislər olan yerdə heç bir ictihadın verilməsinə ehtiyac yoxdur.

Yalnız anlaşılmayan və çoxmənalı ayə və hədislər haqqında ictihad verilir. Ehtiyac olanda *qiyasa, rəyə, icmaya, istihsana* və *örfə* müraciət edilməlidir.

**İDDƏ** – ***qadının boşanandan və ya ərinin ölümündən sonra yenidən ərə getməsi üçün gözləmə müddətidir (2: 228).*** Boşanmış qadınlar yenidən evlənə bilmə üçün 3 iddə müddəti gözləməlidirlər. Müxtəlif səbəblərdən aybaşı olmayan qadının gözləmə vaxtı 3 aydır.

**İDƏYN** – ***İslamda qeyd edilən qurban və oruc bayramlarıdır.*** Bu bayramların qeyd edilmə *adəti* Məhəmməd *peyğəmbərin* dövründən başlamış, bu günə qədər davam etməkdədir. Hər iki bayramların birinci günlərində *sübh namazından* sonra bayram namazları qılınır. *Hədislərə* görə *Məhəmməd* peyğəmbər, *Mədinəyə hicrət* etdikdə orada mədinəlilər iki *bütpərəst* bayramlarını qeyd edirdilər. O da bu bayramları qurban və *oruc* bayramları ilə əvəz etmişdir.

*Qurban* bayramı hər il *Zülhiccə* ayının 10-dan başlayaraq üç gün qeyd edilir. Bu bayram *İbrahim* peyğəmbərin verdiyi əhdə görə oğlu *İsmaili Allaha* qurban vermə istəyi ilə bağlıdır. Ancaq son anda Allah onun yerinə mələklə göndərdiyi qoçun qurban kəsilməsini buyurmuşdur. Bayram günləri varlı müsəlmanlar qurbanlar kəsərək yoxsullarla paylaşırlar.

Oruc bayramı isə *Şəvval* ayının 1-də, *Ramazan* ayında orucluğun bitməsi münasibəti ilə üç gün ərzində qeyd edilir. Bu bayramlara müsəlmanlar böyük həvəslə hazırlaşırlar. Bayram günləri müsəlmanlar sevinərək *sədəqə* və *ehsanlar* verir, bir-birlərini bayramla əlaqədar təbrik edirlər. *İslam* ölkələrində bayram günləri iş günləri hesab edilmir. Bayramların birinci günündə sübh namazından sonra müsəlmanlar *məscidlərdə* bayram namazlarını qılırlar. Bayram namazları iki *rükət* olur. *Cümə xütbələrindən* fərqli olaraq bayram xütbələri namazlardan öncə deyil, sonra oxunur. Bayram namazlarına qatılmaq müsəlmanlar üçün *vacib* olmasa da, çox *savab* əməl hesab edilir.

**İDRİS** – ***Qurana görə Allahın peyğəmbərlərindən biri olmuşdur.*** Onun *Adəmin* oğlu *Şitin* soyundan gəldiyi rəvayət edilir. *Allah* ona *peyğəmbərlik* və yaşadığı cəmiyyəti hikmət ilə idarə etmə qabiliyyəti vermişdir. Buna görə də onu, “üç fəzilətin sahibi” adlandırırlar. Onun çoxlu övladları olmuşdur. Rəvayətlərə görə İdris *Babildə* və ya *Misirdə* doğulmuşdur. Onun atasının adı Yərd, anasının adı isə Bəra və ya Əşvat olmuşdur. Adəmdən sonra insanlar yollarını azmışdır. Ona görə də, Allah İdrisi peyğəmbər olaraq seçmiş, o da onları doğru yola dəvət etmişdir. Ancaq onların çoxu inancsızlıq, *bütpərəstlik* və əxlaqsızlıqdan çəkinməmişdirlər. Sonra İdris Allaha iman gətirmiş ardıcılları ilə birlikdə Babilə köçmüşdür. Rəvayətlərə görə Allah İdrisə elmləri də öyrətmişdir. O, 72 dil bilmiş, riyaziyyatçı və münəccim olmuşdur. Bəlkə də, ilk yazı yazan, eləcə də iynə-sapla tikiş tikən də o olmuşdur. Allah İdrisə *möcüzələr* göstərmək bacarığını da vermişdir. O, ağaclarda neçə yarpağın olduğunu, özündən sonra gələcək peyğəmbərlərin adlarını bilirdi. *Nuh* peyğəmbərin dövründə tufanın olacağı barəsində xəbər vermişdir. Allah ona *sühuf* endirmişdir. Rəvayətlərə görə İdris peyğəmbər ölməmiş, sağ ikən göylərə qaldırılmışdır (*Quran,* 19: 56-57). Məhəmməd peyğəmbər *İsra* və *merac* zamanı onunla görüşmüşdür.

**İFRİT** – ***insanlara pislik edə bilən cinin adıdır.*** Çox güclü cinləri də ifritlər adlandırırlar. İfritlərdən birinin *Süleyman peyğəmbərə* tabe olduğu rəvayətlərdə qeyd edilməkdədir. O, Süleymanın göstərişi ilə

Səba ölkəsinin kraliçası *Bilqeysin* taxtını onun yanına gətirmişdir (*Quran*, 27: 38-39).

**İFTAR** – ***gün boyu tutulmuş orucun qidanın qəbul edilməsi ilə sonuclandırılmasıdır (Quran 2: 187).*** *Məhəmməd* peyğəmbərin göstərdiyi yola uyğun olaraq müsəlmanların *oruclarını* açması *savabdır*. Rəvayətlərə görə Məhəmməd *peyğəmbər* orucunu xurma və yaxud bu meyvə olmayanda su ilə açardı. Bunu edərkən o, *dualar* oxuyardı. Məhəmməd peyğəmbər müsəlmanlara iki və ya daha çox gün boyu orucu fasiləsiz tutmağı qadağan etmişdir. Peyğəmbərin özü isə bir neçə gün ərzində fasiləsiz oruc tutmuşdur. Bu oruca "visəl" deyilir.

**İFTİRA** – ***hər hansı bir insanı törətmədiyi hər hansı əməllə görə günahlandırmaqdır***. *İslamda* iftira ən böyük *günahlardan* biri hesab edilir. Eyni zamanda, iftira edən insanın günahı sübut edilərsə o zaman o, İslam dövlətində *şəriət* qanunları ilə cəzalandırılır.

**İFTİTAH** – ***namazın əvvəlində niyyət etmək, sonra "Allahu əkbər" deyərək ibadətə başlamaqdır.*** Bunu etmək *fiqh məzhəblərinin* əksəriyyətinə görə vacibdir. İftitah deyildikdən sonra bəzi şeylər etmək müsəlman üçün qadağandır. Tanrının adının uca tutulması haqqında *Quranda* (74: 1-3) *ayələr* vardır.

**İHSAR** – ***həcc prosesində ihrama girdikdən sonra hər hansı bir obyektiv səbəblər üzündən hər hansı bir ayini yerinə yetirməmək və ya bu ayinləri əksik yerinə yetirməkdir.*** Bu xəstəlik və ya zəvvarın həyatının təhlükə altında olduğunda ola bilər. Belə adamları "mühsar" adlandırırlar. Zəvvar mühsar olsa, *Allaha* qurban kəsməlidirlər.

**İHTİKAR** – bax: **MÖHTƏKİRLİK.**

**İHVANÜL-MÜSLİMUN** – bax: **MÜSƏLMAN QARDAŞLARI.**

**İHYA** – ***dirçəlmə, oyanma mənalarını ifadə etmədir.*** *Quran* və *hədislərdə* bu söz müxtəlif mənalarda işlədilsə də, ən çox ölümdən sonra yenidən dirilmə mənasında istifadə edilmişdir. *Fiqhdə* ölkənin boş, sahibsiz torpaqlarını *icarəyə* vermək də "ihya" (onun dirçəldilməsi) adlanır.

**İXLAS** – ***Allaha sevgi ilə ibadət etməkdir.*** Bu söz *tövhidlə* bağlı bir ifadədir. Ruhun *şirkdən* və *günahlardan* təmizlənərək *Allaha* sevgi duyğusu ilə ibadət etmək anlamını daşıyır. İxlas hər kəsin ən yaxşı xüsusiyyətlərini üzə çıxarır və əxlaqını daha da dolğunlaşdırır. Quranın 112-ci surəsi "İxlas" adlanır. Bu surədə *İslamın* tövhid təlimi ən qısa və konkret ifadə olunmuşdur.

**İXTİLAF** – ***qarşıdurma, anlaşılmazlıq, hər hansı bir problemlə bağlı fərqli yanaşma və baxışların ortaya çıxmasıdır.*** İlahiyyatçılara görə *Quran* və *hədislərdə* əks olunan dinin əsasları barəsində *ixtilaf* etmək olmaz. Etiqadla əlaqədar məsələlərdə *Allahın* açıq-aydın əmrləri yoxdursa və *ayələr* müxtəlif mənalarda başa düşülürsə, o zaman onlar barəsində müxtəlif fikirlər irəli sürülə bilər.

**İKİNDİ** – bax: **ƏSR**.

**İQALƏ** – ***fiqhdə nəyinsə barəsində anlaşan insanların o anlaşmanı öz istəkləri ilə pozmasıdır.*** Məsələn, xarab olmuş *mal* geriyə qaytarılmalıdır. Ancaq malda heç bir əskiklik olmasa, satıcını onu geri almağa məcbur etmək olmaz. Belə mal satıcının razılığı ilə geri alına bilər. Boşanma və kölələrin azadlığa buraxılması anlaşması

iqalə hesab edilmir. Bunun üçün *fiqhdə* başqa hökmlər vardır.

**İQAMƏ** – ***azandan sonra vacib namazın qılınması üçün möminləri namaza ikinci çağırışdır.*** Onun deyilməsindən dərhal sonra müsəlmanlar *namaz* qılmağa başlayırlar. İqamə ilə *azanın* sözləri eynidir, onların arasında fərq azdır. İqamənin verilməsi *savabdır.* Azandan fərqli olaraq aramla deyil, iqamə tez oxunur. İqamə *nafilə* namazlarının qılınmasından əvvəl oxunmur. Qadınların iqamə oxuması vacib deyildir.

**İQAN** – ***Sufilikdə mənəviyyat yolçusunu kamilləşdirən bilikdir.*** Bu bilik təcrübə yolları ilə deyil, mənəvi yüksəlişlə əldə edilir.

**İQBAL MƏHƏMMƏD** (1289/1873 – 1357/1938) ***filosof-şair, maarifçi, reformist və ictimai xadim olmuşdur.*** O, Pəncabın Siyalkot şəhərində doğulmuş, erkən yaşlarından elmə maraq göstərmiş, *Quranı* öyrənmiş, mədrəsədə dini elmlər üzrə təhsil almışdır. Sonra Lahorda təhsilini davam etdirmişdir. Burada o, müxtəlif elmləri öyrənmiş, poeziyaya meyl göstərmişdir. Məktəbi bitirdikdən sonra isə ingilis dilini və *fəlsəfəni* öyrətməyə başlamışdır. 1322/1905-ci ildə Məhəmməd İqbal İngiltərənin Kembric universitetinin fəlsəfə və iqtisadiyyat fakültələrində təhsilini davam etdirmişdir. Londonda ərəb ədəbiyyatından dərs demişdir. Sonra 1325/1908-ci ildə Almaniyaya gedib, orada artıq istedadlı şair kimi tanınaraq vətəni olan Hindistana qayıtmış, burada qısa bir müddət Lahorun dövlət məktəblərinin birində ərəb ədəbiyyatından dərs demişdir. Sonra ingilislərin müstəmləkəçi siyasətinə qarşı çıxaraq vəzifəsindən istefa etmiş, özəl məktəblərdə müəllimlik işini davam etdirmişdir. Bundan sonra o, ingilis müstəmləkəçiliyinə qarşı mübarizəyə qoşulmuşdur. O, müsəlmanların daha çox yaşadığı şimal vilayətlərinin Hindistandan ayrılması, orada Pakistan dövlətinin qurulması ideyası ilə çıxış edənlərdən biri olmuşdur. O, 1351/1932-ci ildə Londonda bu məsələ ilə bağlı konfransda çıxış etmişdir. 357/1938-ci ildə uzun sürən xəstəlikdən sonra vəfat etmişdir. Pakistan dövləti isə onun ölümündən sonra qurulmuşdur.

Məhəmməd İqbalın fəlsəfi baxışları daha çox onun poeziyası və bəzi başqa əsərlərində əks olunmuşdur. O hesab edirdi ki, bütün insanlara xoşbəxtlik gətirə bilən ideya yalnız *İslam* dinidir. Bu din möhkəm ideoloji, eləcə də əxlaqi dayaqlar üzərində durduğundan məhv edilə bilməz. Əsərlərində müsəlmanları İslam irsini öyrənməyə, *Məhəmməd* peyğəmbərin göstərdiyi yolu getməyə çağırmışdır.

Məhəmməd İqbala görə hər bir cəmiyyət və fərd *Allahı* düşünərək yaşamalıdır. Bu yolda *günahlardan* çəkinmək və *cihad* etmək lazımdır. Onun fikrincə böyük nailiyyətlər əldə etmələrinə baxmayaraq avropalıların həyat tərzi mənəviyyatsızdır, çünki onların mədəniyyətləri yalnız maddi dəyərlər üzərində qurulmuşdur.

Məhəmməd İqbal başqa müsəlman mütəfəkkirləri kimi hesab edirdi ki, müsəlman xalqlarının geriliyi bəzi müsəlman *təriqətlərinin* fəaliyyəti ilə bağlıdır. O, onları ilkin İslam dəyərlərindən uzaqlaşmaqda, *peyğəmbər* və onun səhabələrinin göstərdiyi yoldan yayınmaqda, dinə *bidətlər* gətirməkdə ittiham etmişdir. Bununla yanaşı o, din xadimlərinin ehkamçılığına qarşı çıxış edərək, müsəlmanları müasir həyata uyğunlaşmağa, elmi və texniki biliklərə yiyələnməyə çağırmışdır.

**İQTƏ** – ***varislik hüququnun saxlanması şərti ilə torpağın, eləcə də ondan gələn gəlirin hər hansı bir şəxsə verilməsidir.*** Bu sistem Osmanlı imperiyası dövründə geniş tətbiq edilmiş və timar adlanmışdır. O dövr-

lərdə timar olaraq ölkənin münbit torpaqları verilirdi. Timarı süvarilər hesab olunan "sipahi" qoşununa verirdilər. Beləliklə, torpaq verilən şəxsin mülkiyyətinə çevrilir və ya ondan gələn gəlir ona verilirdi. İqtəyə verilmiş ərazilərdə yaşayan kəndlilər də torpaqları ilə birlikdə mülkədara aid olurdular. Torpaqdan ayrılmaq istəyən kəndli sipahiyə təzminat ödəməli idi. İqtə sistemi 1839-cu ildə ləğv edilmişdir.

**İLAH** – ***ərəb dilində tanrı mənasını verir.*** Bu söz həm bir olan *Allah,* həm də tanrılar üçün istifadə edilə bilər. Ümumiyyətlə, ilah sözü sami dillərində tanrı və tanrılar üçün istifadə edilən sözdür.

**İLƏ** – ***fiqhdə hər hansı bir kişinin öz arvadına müəyyən müddətdə yaxınlaşmayacağı barəsində verdiyi sözdür.*** Bu müddət dörd ay olur. Əgər bu müddət bitənə kimi kişi arvadı ilə yaxınlıq etməzsə, onda onlar boşanmış hesab edilirlər. Əgər kişi verdiyi sözü pozaraq ilə müddətindən tez həyat yoldaşı ilə yaxınlıq etsə, onda *kəffarə* verməlidir.

**İLHAM** – ***sufilikdə birbaşa və ya nəyinsə vasitəsi ilə Allahın insana verdiyi bilikdir.*** İlhamın qaynağı Allah və ya Onun mələyidir. *İbn Ərəbiyə* görə müqəddəslərin və *peyğəmbərlərin* bilik qaynağı birdir. Ümumiyyətlə, ilham geniş mənada yaradıcı – şair, filosof, ədib və s. kimi insanların bilik mənbəyi kimi də istifadə edilir.

**İLYAS** – ***Musa peyğəmbərin şəriəti ilə hökm vermiş, İsrail oğullarına göndərilmiş peyğəmbərlərindən biri olmuşdur (Quran, 37: 123-130).*** *Musa* peyğəmbərdən sonra *İsrail oğulları Allahın* yolundan, *Tövratın* qanunlarından yayınaraq bütlərə tapınmağa başlamışdırlar. Buna görə də, Allah onları doğru yola dəvət etmək üçün çoxlu sayda elçilər göndərmişdir. Bu elçilərdən biri də, İlyas *peyğəmbər* olmuşdur.

O, *Bəl* tanrısına tapınan, onun heykəlini ucaldan bir qəbiləni doğru yola gətirmək istəmiş, ancaq onlar onu dinləməmiş və oradan qovmuşdurlar. Buna görə Allah onları cəzalandırmışdır. Onların yurduna quraqlıq düşmüş, mal-qara tələf olmuş, aclıq başlamışdır. Bu hadisədən sonra o qəbilə İlyası axtarıb tapmış ondan üzr istəyərək onların bağışlanmasını istəmişdirlər. Allah isə onları bağışlayıb hidayət yolunu İlyas peyğəmbərin vasitəsi ilə onlara göstərmişdir. Bundan sonra yenidən yağışlar yağmış, torpaqları məhsul vermiş, həyat normal axarına qayıtmışdır. Ancaq, bir müddət sonra bu xalq yenidən yollarını azaraq bütlərə tapınaraq pozğunçuluq etmişdirlər. Bundan sonra İlyas onlardan uzaqlaşmış bir başqa İsrail qəbiləsinin peyğəmbəri olmuşdur. Onlardan olan *Əlyəsə* adlı xəstə bir gənci sağaltmış, onu öz tələbəsi etmişdir. O da, İlyasın vəfatından sonra peyğəmbərliklə müjdələnmişdir.

**İMAM** – ***müsəlmanlara yol göstərən insan və ya dini rəhbərdir.*** Camaat *namazının* önündə duranı, görkəmli İslam *alimini*, şiə liderlərini, hətta xəlifəni bu adla adlandırırlar. Sünni məzhəbində məscidlərdə din işlərindən məsul olan şəxsə də imam deyilir. Şiəlikdə isə imam sözünün daha dərin mənaları vardır. Məsələn, *əhli-beytdən* sayılan 12 imam daha müqəddəs hesab edilir. Bu səbəbdən də, hər din adamı şiəlikdə imam sayılmaz.

**İMAMƏT** – ***dini və dünyəvi hakimiyyəti birləşdirən dövlət quruluşudur.*** İmamət sözü məna baxımından xilafət anlayışına yaxındır. İmamətin şiəlikdə siyasi mənasından başqa, mənəvi mahiyyəti də vardır. Dövlət olsa və ya olmasa, *şiələr imam* kimi tanıdıqları *əhli-beyt* nümayəndələrini özlərinin öndərləri hesab edirlər.

**İMAMİLƏR** – ***müsəlman icmasının mənəvi və ya siyasi öndərliyinin bir imamdan başqasına keçdiyinə inanan müxtəlif şiə qruplarının ümumi adıdır.*** İmamilərə görə *Əli ibn Əbu Talib* Məhəmməd *peyğəmbərin* varisi olmuşdur. O və onun soyundan olan imamlar öz açıq-aydın göstərişləri ilə varislərini təyin edirdilər. İmamilərə görə imamlar Əli və *Fatimənin* izdivacından dünyaya gələn kişi cinsinə məxsus müqəddəslər və onların övladları olmalıdırlar. İmamilər Əlidən öncəki ilk üç *Raşidi xəlifələrini,* eləcə də başqa xəlifələrin hakimiyyətlərinin qanuniliyini tanımır və ya bu barədə şübhə içindədirlər. Bütün imamilər Əli və onun Fatimədən olan iki oğlu Həsən və Hüseyni, daha sonra isə Zeynül-Abidini, *Məhəmməd Bagiri*, *Cəfər Sadiqi* imam hesab edirlər. Ancaq rəvayətlərə görə, Cəfər Sadiqdən sonra *şiələr* arasında fikir ayrılığı baş vermişdir. Bundan sonra müxtəlif *şiə təriqətləri* imamlar kimi müxtəlif adamları tanıyırdılar. Onlardan ən çox mənsubu olanlar *isna-əşərilərdir*. Zamanımızda imamilər daha çox İranda, Azərbaycanda, Bəhreyndə, İraqda yaşayırlar. Pakistan, Tacikistan, Türkiyə, Suriya, eləcə də bir sıra başqa müsəlman ölkələrində onlar azlıq təşkil etməkdədirlər.

**İMAN** – ***insanın hər hansı bir şeyə sübutsuz və ya dəlilsiz inanmasıdır.*** İman hər bir kəsin qəlbində olmalı, sözlə ifadə və əməllə təsdiq edilməlidir. *İslamda* iman *Allahdan* başqa tanrının olmadığına və *Məhəmmədin* onun elçisi olduğunu bəyan etməklə təsdiqlənir. Buna İslam ənənəsində kəlimeyi-şəhadət deyilir. *Quran* və *peyğəmbərin* həyat yolunun haqq olduğuna inanmaq imanın əsaslarındandır. Bu *namazın* qılınması, *Ramazan* ayının *orucunun* tutulması, *zəkatın* verilməsi, *həcc* getmə kimi ibadətlərin yerinə yetirilməsi ilə təsdiqlənir. Bundan başqa müsəlmanlar bütün dini buyruq və vəzifələri yerinə yetirməli, *halal* və *haramı* bir-birindən fərqləndirməlidirlər. *Şiələrdə* imamların haqq olduğuna və Allahın ədalətli olmasına inanmaq imanın *şərtlərindən* hesab edilir. Bundan başqa hər bir müsəlman həyatının sonuna qədər İslama bağlı qalmalı, etiqadının doğru olduğuna şübhə etməməlidir. Buna görə o, onun imanını şübhə altına alacaq işlər görməməlidir. Bunu edənlər isə *münafiq* hesab edilirlər.

**İMRAN** – ***Məryəmin (I) atası, İsa peyğəmbərin babası olmuşdur.*** *Quranın* “Ali İmran” surəsində o və onun ailəsi anılmışdır.

**İMSAK** – ***gecənin bitdiyi, səhərin açılması ilə başlayan və günəşin çıxmasına qədər davam edən vaxtdır (Quran, 2: 187).*** Bu vaxtdan başlayaraq günəşin çıxmasına qədər *sübh namazının* qılınması müsəlmanlar üçün vacibdir. İmsak vaxtının girməsi ilə oruc vaxtı başlayır, günəşin batmasına qədər davam edir. Başqa sözlə *oruc* tutmaq istəyən müsəlman imsak vaxtının bitməsinə qədər yeməyini və içməyini tamamlayıb oruca başlamalıdır.

**İNCİL** – ***İslamda Allahın İsa peyğəmbərə nazil etdiyi müqəddəs kitabın adıdır.*** *Qurana* görə bu kitab *Tövratı* təsdiq etmək üçün endirilmişdir. İncil Quranın bir neçə ayəsində (5: 46-47, 5: 68 57: 27) qeyd olunmaqdadır. Başlanğıcda İncil şifahi ənənə ilə yayılsa da, sonralar kitab halında yayılmağa başlamışdır. Müsəlman alimlərinin çoxu hesab edirlər ki, günümüzə gəlib çatan İncilin yazılı nüsxələri xristianlar tərəfindən təhrif edilmişdir.

**İNKAR** – ***dinin əsaslarından hesab edilən Allah, peyğəmbərlər, müqəddəs kitablar, axirət, qəza və qədər, mələklər və s. inancları qəbul etməməkdir.*** İman sözünün əksi, yəni onun antonimidir. Müsəlman icmasında inkar yolunu tutanlar *fəsad* törədənlər kimi qiymətləndirilir.

**İNNİN** – ***fiqhdə cinsi zəiflikdən əziyyət çəkən insandır.*** *İslam* hüququna görə evləndikdən sonra qadın ərində cinsi zəifliyin əlamətlərini görsə, ondan boşana bilər. Boşanma işi məhkəməyə çatdıqda hakim onlara daha bir il vaxt verməlidir. Əgər bu vaxt ərzində ər cinsi yaxınlıq üçün özündə güc taparsa, onların evliliyi davam etdirilir. Belə olmasa onda onlar boşanmış hesab edilirlər.

**İNSANİ-KAMİL** – ***sufilikdə mənəvi yolçuluğun son dayanacağına gəlmiş, mənəvi yüksələrək saflaşan insandır.*** Bu termini ilk dəfə 309/921-ci ildə fərqli baxışlarına görə edam edilmiş Mənsur Həllac irəli sürmüşdür. Ondan sonra insani-kamil ideyasının inkişafını *İbn Ərəbi* davam etdirmişdir. "İnsani kamil" təlimi ilk olaraq ontoloji bir problem olaraq varlıq problemi ilə bağlıdır. İbn Ərəbiyə görə öncə aləm ruhsuz yaradılmış, *Adəmin* yaradılması isə *dünyanı* ruhlandırmışdır. Öz gücsüzlüyünə baxmayaraq insan kainatın bütün maddi və mənəvi mərtəbələrini əhatə edərək ədalətin qaynağı olmuşdur.

*İslama* görə *Məhəmməd peyğəmbər* ən yüksək məqamın ifadəsi və tam anlamda kamil insan olmuşdur. Ona üstünlük dərəcəsi hələ *Adəm* yaradılmamışdan öncə verilmişdir. İnsani-kamil dünyanın məqsədi və məntiqi nəticəsidir. O, olmasaydı *Allah* dünyaya özünü göstərməzdi.

Mənsur Həllacın və İbn Ərəbinin bu kimi ideyalarını Əziz Nəsəfi (700/1300-cü ildə vəfat etmişdir) "İnsani-kamil" adlı farsca yazılmış kitabında inkişaf etdirmişdir. Bu əsərdə Əziz Nəsəfi insani-kamilin ideal və yüksək mənəvi özəlliklərinin olması fikrini irəli sürmüşdür. Bu kimi insanlar xalq arasında *şeyx,* hadi, *mehdi,* imam və *xəlifə* kimi müxtəlif adlarla tanınırlar. Bu ideallar heyvanların və quşların dilini bilmiş *Süleyman* peyğəmbərdə, ölüləri dirildən İsa peyğəmbərdə, "ölməzlik" suyunu içib ölümsüzlük qazanmış Xızır peyğəmbərdə özünü göstərmişdir. Kamil insanlar bütün zamanlarda olmuşdurlar.

Başqa bir sufi müəllifi Əbdül-Kərim Cili (820/1417-ci ildə vəfat etmişdir) də Məhəmməd peyğəmbərin "insani-kamil" olduğu iddiasını irəli sürmüşdür. Sufi *təriqətlərinə* görə "kamil insanın" özəllikləri hər bir insanda özünü göstərə bilər. Ancaq, onların inkişafı yalnız sufilərin mənəvi təcrübəsi çərçivəsində məntiqi nəticə ilə tamamlanır.

**İNŞİQAQÜL-QƏMƏR** – ***rəvayətlərə görə Məhəmməd peyğəmbərin göstərdiyi ən böyük möcüzələrdən biridir.*** O, bu möcüzəni *Mədinəyə hicrət* etməmişdən beş il öncə bütpərəst məkkəlilərə göstərmişdir. *Məkkə* bütpərəstləri *Məhəmməddən* onun *peyğəmbər* olduğuna inanmaq üçün bir möcüzə göstərməsini tələb etmişlər. Onda *Allahın* istəyi ilə Məhəmməd peyğəmbər aya işarə edərək onu ikiyə bölmüş, ikinci işarə ilə onu yenidən birləşdirmişdir. Möcüzəni öz gözləri ilə görən bütpərəstlər, onu dana bilməsələr də, Məhəmməd peyğəmbəri sehrbazlıqla günahlandırmışlar.

Bəzi *təfsirçilərə* görə *Quranın* 54: 1-2 ayəsi iki məna daşıyır: həm peyğəmbərin möcüzəsinə, həm də *qiyamətdə* baş verəcək hadisələrə işarə edir. Bəzi alimlərə görə Allah bu möcüzəni bütün insanlar üçün deyil, yalnız məkkəli *müşriklər* üçün göstərmişdir. Onun mahiyyəti haqqında heç nə demək mümkün deyildir, o yalnız inanc məsələsidir.

**İNTİHAR** – ***insanın özünü qəsd edərək öldürməsidir.*** Bu əməl *İslam* dinində qadağan edilmiş ən böyük *günahlardan* hesab edilir. Bir çox *fəqihlərə* görə insanın öz həyatına qəsd etməsinin günahı başqa adamın öldürməsindən daha ağırdır. Ağırlığına görə intiharın günah dərəcəsi ən böyük

günah olan *şirkə* yaxındır. Ancaq bütün bunlara baxmayaraq intihar edən müsəlmandırsa, onun üçün *cənazə* namazı qılınmalıdır.

**İNZƏL** – bax: **VƏHY.**

**İRADƏ** – ***kəlam elmində insanın seçim azadlığı bu terminlər ifadə edilir***. İradə anlayışı qəza və qədərin ən əsas mövzusudur. Mütləq iradə *Allaha* məxsusdur. Belə ki, Allahın istəyi olmadan yaradılmış *dünyada* heç bir hadisə baş verə bilməz. Başqa tərəfdən insanın azad iradəsi də vardır. Buna görə onlar əməllərinə görə *axirətdə* cavab verməli olacaqlar. İnsanın öz iradəsi ilə gördüyü əməllər *kəlamda "kəsb"* adlanır. İnsan azad iradəyə sahib olduğuna görə istənilən hər bir işi edə bilər. Eyni zamanda, Allahın istəyi olmadan heç bir şey baş verə bilməz.

**İRƏM** – ***Quranda qeyd edilən bir qəbilənin və ya bir yaşayış məntəqəsinin adıdır.*** "Fəcr" (89) surəsinin 7-8-ci *ayələrində* İrəmin hündür sütunlarının olduğu vurğulanır. *Quran* ayəsinə görə İrəmin sütunlu binalarını *günaha* batmış *Ad* qəbiləsi ucaltmışdır. *Tövratda* bu yer "Aram" kimi qeyd edilir. İrəm – *təsəvvüf* ədəbiyyatında isə "insanın qəlbi, yəni Tanrının təcəlli etdiyi yer" mənasını daşıyır.

**İRFAN** – bax: **MƏRİFƏT.**

**İRTİDAD** – ***İslamdan çıxaraq dinsizliyi və ya başqa dinləri qəbul etməkdir.*** Belə adamlara *mürtəd* deyilir. İslam ilahiyyatına görə dindən çıxmışlar *tövbə* edib İslama qayıtmasalar, öldükdən sonra *cəhənnəmin* ən dərin qatlarında əbədi olaraq odda yanacaqlar.

*Şəriət* qanunlarına görə İslamdan çıxmaq *küfrün* ən ağır dərəcələrindəndir. *Fiqhi* məzhəblərə görə insan İslamdan çıxan andan həyatı boyu etdiyi bütün yaxşı əməlləri dəyərsizləşir və onların savabı *axirətdə* nəzərə alınmır (*Quran,* 2: 217).

Dindən çıxma bilərəkdən dinsizliyə gətirən hər hansı bir əməlin görülməsi və ya sözün deyilməsi ilə baş verir. *Allaha*, dinə və *peyğəmbərlərə* atılan böhtanlar, eləcə də dində *vacib* olan əməllərin və İslam əqidəsinin əsaslarının inkar edilməsi də irtidad sayılır.

*Fəqihlərə* görə İslamdan çıxdığını bəyan edən insan düşüncəli, ağlı başında olmalıdır. Sərxoşluq halında edilən irtidad insanı dindən birbaşa çıxartmır. Ancaq o ayılan kimi tövbə etməlidir. Etməzsə mürtəd hesab edilir. Yetkinlik yaşına çatmayan uşaqların dindən çıxması haqqında verilən hökmlərdə *ixtilaflar* vardır. Bəzi fəqihlər onları mürtəd sayaraq onlara ağır cəzaların verilməsinin əleyhinədirlər. Bəziləri isə onları mürtəd hesab etmirlər. İrtidadın gerçəkləşməsi üçün mürtəd İslamdan çıxmasını bəyan və ya məhkəmədə irtidad etdiyini təsdiq etməlidir. İslamdan çıxmağa məcbur edilmiş insan dindən çıxmış hesab olunmur. Fiqh alimlərinin icmasına görə dindən çıxana ən ağır cəzalar verilməməlidir. Mürtəd tövbə etməsə məhkəmənin qərarı ilə bir çox hallarda edam edilməlidir. Dindən çıxmış qadınların isə hökmü ayrıdır.

Müasir dövrdə bəzi fəqihlərin bu barədə fərqli hökmləri vardır. Onların fikrincə keçmişdə İslam dünyası *darül-hərblə* müharibələr aparırdı. Buna görə, irtidad etmiş insanın düşmən tərəfinə keçmək ehtimalı vardır. Buna görə də, o zamanın fəqihləri *mürtədlərin* cəzalandırılması haqqında *icma* etmişdirlər. Ancaq müasir dövrdə, İslam dünyasının başqa sivilizasiyalarla qarşıdurması olmadığına görə mürtədin cəzalandırılmasına ehtiyacı yoxdur. Buna görə də, dində olub-olmamaq hər bir insanın *vicdan* azadlığına aid məsələdir. Sadəcə hamı bilməlidir ki, irtidada görə cəza axirətdə veriləcəkdir.

**İSA İBN MƏRYƏM** – ***Allahın İsrail oğullarına Tövratı təsdiq etmək üçün göndərdiyi ən böyük peyğəmbərlərdən biri olmuşdur (Quran, 3: 48).*** İsa həm *peyğəmbər* olmaqla yanaşı, həm də *Məsih* kimi tanınmışdır. Yeni qanun, eləcə də müqəddəs kitab olan *İncil* ona nazil olmuşdur (Quran, 5: 46). Rəvayətlərə görə anası *Məryəm (I)* onu Allahın *möcüzəsi* ilə atasız dünyaya gətirmişdir. Ancaq *İsrail oğulları* bu hadisənin möcüzə olduğuna inanmamış, Məryəmi *günah* etməkdə günahlandırmışlar. Buna görə də o, oğlu ilə birlikdə təqib edildiyindən yurdlarından uzaqlaşmağa məcbur olmuşdurlar. İsanın yaşı təxminən otuza çatdıqda Allah onu peyğəmbər kimi vəzifələndirmişdir. Bundan sonra o, yolunu azmış *yəhudiləri* doğru yola dəvət etməyə başlamışdır. *Qurana* görə İsa onlara çoxlu möcüzələr göstərmişdir (5: 110).

*Təfsirçilər* Quranın (61: 6) ayəsinə istinad edərək bildirirlər ki, İsa həm də Məhəmmədin peyğəmbərliyi haqqında xəbər vermişdir. Müsəlman ilahiyyatçılarına görə İsanın *şəriəti* Musa peyğəmbərin gətirdiyi qanunların ruhunu dəyişmiş, onları nisbətən yumşaltmışdır. Bununla belə, İncil *Tövrata* zidd olmamış, onun məntiqi davamı idi. Bundan sonra qədim Musa şəriəti ortadan qaldırmış, Məhəmməd peyğəmbərin gəlişinə qədər doğru yol İsanın gətirdiyi şəriət olmuşdur. *İslamın* gəlişindən sonra isə İsanın gətirdiyi din qaldırılmış, həqiqət İslamda tamamlanmışdır.

İsanın şagirdləri olmuş *həvarilər* onun yardımçıları və davamçıları olmuşdurlar. Ancaq, onların cəhdlərinə baxmayaraq İsrail oğullarının çoxu İsanın peyğəmbərliyini qəbul etməmiş, ona qarşı çıxmışdırlar. Rəvayətlərə görə, onlar İsanı öldürmək fikrinə düşmüşlər. Yəhudiyyə ölkəsi o zaman Roma imperiyasının bir vilayəti idi. Onlar Roma valisinə İsanın üsyan hazırladığı xəbərini vermiş və onun çarmıxa çəkilərək edam edilməsini tələb etmişdirlər. Ancaq, Allah o zaman İsanı *qeybə* çəkmişdir (Quran, 3: 55). Təfsirçilər iddia edir ki, onun yerinə başqa adam çarmıxda edam edilmişdir (Quran, 4: 157).

Daha sonra rəvayətlərə görə *qiyamət* günüdən əvvəl İsanın yer üzünə ikinci zühuru reallaşacaqdır. Bunu iddia edən ilahiyyatçılar Quranın 43: 61 ayəsinə istinad edirlər. Ancaq o zaman İsa peyğəmbər kimi deyil, İslamı təsdiq edən adam kimi fəaliyyət göstərəcək, yalançı və dinsiz Dəccalla vuruşub onu öldürəcəkdir. Sonra onun duası ilə Allah çox təhlükəli olan *Yəcuc* və *Məcuc* qəbilələrini məhv edəcəkdir. İsa yer üzünü ədalətlə idarə edib vəfat edəcəkdir. Bu kimi rəvayətlərin olduğuna baxmayaraq bəzi ilahiyyatçılar İsanın zühuruna şübhə ilə yanaşırlar.

**İSBAT** – bax: **MƏHV VƏ İSBAT.**

**İSHAQ** – ***Quranda adı keçən peyğəmbərlərdən biri olmuşdur.*** O, *İbrahim peyğəmbərin* ikinci oğlu idi. Rəvayətlərə görə uzun illər boyu onun anası Saranın övladı olmamışdır. Buna görə də, İbrahim Saranın qulluqçusu *Həcərlə* evlənmiş, onların İsmail adında oğlu dünyaya gəlmişdir. Ancaq sonra, Saranın qısqanclığına görə İbrahim Həcərlə İsmaili Ərəbistan səhrasına aparıb orada yerləşdirmişdir. Bundan sonra Saranın da İshaq adlı bir oğlu doğulmuşdur (Quran, 11: 71-73).

Atası İbrahim vəfat etdikdən sonra İshaq peyğəmbər olmuşdur. O, Suriya və *Fələstində* yaşayan xalqları *Allaha* iman etməyə dəvət etmişdir, o atasından qalan qanunlarla hökm verirdi. Rəvayətlərə görə Allah İshaqa *möcüzə* göstərmək bacarığını vermişdir. İshaqın İys və *Yaqub* adlı iki oğlu doğulmuşdur. İys İsmailin qızı ilə evlənmişdir. O, varlı insan olmuşdur. Yaqub isə adı

*Quranda* keçən peyğəmbərlərdən biridir. *İsrail oğullarının* peyğəmbərlərinin çoxu onun soyundan davam etmişdir. Yaqubun ikinci adı İsrail olduğundan onu İsrail oğullarının ulu babası hesab edirlər.

**İSLAM** – ***Allaha tabe olmaq mənasını ifadə edir.*** Kökləri çox qədim ənənəyə bağlı olan monoteistik (ibrahimi) din bu adla adlanır. İslamın yaranması *Məhəmməd* peyğəmbərin adı və fəaliyyəti ilə bağlıdır. Ondan sonrakı dövrlərdə bu din bir çox tarixi mərhələlər keçmiş və inkişaf etmişdir. Onun din kimi formalaşmasında tarixi proseslər, dini və siyasi xadimlərin hökm və yanaşmaları, zaman və məkan amilləri böyük rol oynamışdır. Müsəlmanlar İslamı *Allahın* bütün *peyğəmbərlərinin*, eləcə də o dinlərin mənsublarının dini hesab edirlər (Quran, 2: 131-132; 2: 135). Ancaq onların qoyduğu yoldan sapmış bir çox xalqlar isə özlərini başqa dinlərin mənsubları kimi görmüşlər. Bir çox İslam alimlərinə görə zaman keçdikcə Allahın kitabları təhriflərə uğramış və dəyişdirilmişdir. Buna görə həqiqəti müxtəlif xalqlara yenidən çatdırmaq üçün Allah onlara peyğəmbərləri göndərmişdir. Məhəmməd peyğəmbərin vasitəsi ilə formalaşan İslam bütün dünya xalqları üçün göndərilmiş dindir. Sadəcə xalqların çoxu onu hələ də qəbul etməmişdirlər. Müsəlmanların inanclarına görə İslam *qiyamət* gününə qədər olacaq və Məhəmməddən sonra yeni peyğəmbər gəlməyəcəkdir.

Beləliklə, müsəlman ənənəsində İslam həm Allaha təslim olmaq, həm də bütün əvvəlki peyğəmbərlərin təbliğ etdikləri dindir (Quran, 3: 19; 5: 3; 6: 125). Məhəmməd peyğəmbərdən sonra onun irsinin sistemləşməsi zərurəti yaranmışdır. Eyni zamanda, Xilafət genişlənərək onun tərkibinə yeni millətlər daxil edilmişdir. Bu səbəbdən çoxlu sayda həll edilməmiş məsələlər ortaya çıxmışdır. Ona görə də, müsəlman alimləri *ictihad* etmiş və yeni hökmlər çıxarmışdırlar.

Müsəlmanlar inanırlar ki, İslamın yaranması bir başa Allahın iradəsi ilə bağlıdır. Ancaq bununla belə, burada obyektiv amillər də olmuşdur. Bu da ərəb cəmiyyətinin öyrəncəli həyat tərzinin və tayfa münasibətlərinin böhranı, sosial ədalətsizlik, Ərəbistandakı etno-mədəni birləşmə prosesləri, dövlətçiliyin yaranması ilə bağlı idi. Bundan başqa İslamın gələcək inkişafında tarixi proseslərin, milli *adətlər* və *örfün*, yəhudi-xristian rəvayətləri olan *israiliyyatın*, müxtəlif *fəlsəfələrin*, yeni dövrdə elmi-texniki tərəqqinin də müəyyən rolu olmuşdur.

İslam dini Məhəmməd peyğəmbərdən sonra dünyanın bir çox yerlərində yayılmağa başlamışdır. Bunun səbəbi Xilafətin müharibələr nəticəsində genişlənməsi olmuşdur. Hələ ilk dövrlərdən başlayaraq İslamda bir-biri ilə çəkişən bir çox *təriqətlər* və cərəyanlar yaranmışdır. Bunlar da *fiqhi* və etiqadi *məzhəblərin* yaranmasına gətirib çıxarmışdır.

Daha sonra *ixtilaflar* ilahiyyat məsələləri səbəbindən ortaya çıxmış və təriqətlərin sayı çoxalmışdır. Mübahisələr Allahın sifətləri, insanın azad *iradəsi*, *günahların* inanca təsir dərəcəsi, *Quranın* mahiyyəti, insan məntiqi ilə *vəhyin* dərki, Quran *təfsirinin* və *hədis* elminin metodları kimi məsələləri əhatə edirdi. Bütün bu problemlərlə bağlı bütün məzhəblər öz təlimlərini irəli sürmüşdürlər. Fiqhdə olan fərqli baxışlar və metodlar *cəfəri, zeydi, hənəfi, maliki, şafii, hənbəli, zahiri* və s. məzhəblərin yaranmasına səbəb olmuşdur. İslamda bir-biri ilə rəqabətdə olan müxtəlif etiqadi və fiqhi məzhəblərlə yanaşı mistik ənənəyə bağlı *təsəvvüfi* təriqətlərdə də mövcuddur.

**İSM** – bax: **GÜNAH.**

**İSMAİL** – ***İbrahim peyğəmbərin Həcərdən olan oğlu və Quranda adı keçən peyğəmbərlərdən biri olmuşdur (Quran, 37: 101).*** *İslam* ənənəsində o, ərəblərin ulu babası hesab edilir. Rəvayətlərə görə *İbrahim* və oğlu *İsmail Kəbə* evini ilk inşa edənlərdən olmuşdurlar. İbrahim İsmaili qurban vermək istəyəndə möcüzə baş vermiş, bir mələk ona bunu etməyə imkan verməmiş və onun yerinə bir qoçun kəsilməsini əmr etmişdir (Quran, 37: 102-107). Günümüzdə müsəlmanlar o hadisəni bayram kimi qeyd edirlər.

Daha sonra *Məkkəyə* Yəməndən Curhum qəbiləsi gəlmişdir. İsmail onların ən nüfuzlu adamlarından birinin qızı ilə evlənmiş və ondan onun 12 oğlu olmuşdur. Onlardan isə müxtəlif soylar yaranmışdır. Rəvayətlərə görə *Məhəmməd* peyğəmbər İsmailin Kidar adlı oğlunun soyundan dünyaya gəlmişdir.

Bütün *peyğəmbərlər* kimi İsmail də insanları *Allaha* inanmağa, Onun qanununa tabe olmağa dəvət etmişdir. Ancaq, insanların çoxu onun dəvətini qəbul etməmişdirlər. O, atası İbrahimin *şəriəti* ilə hökmlər vermişdir. Rəvayətlərə görə İbrahim vəfat etdikdə İsmail onun dəfnində iştirak etmək üçün *Fələstinə* getmişdir. Burada o kiçik qardaşı *İshaqla* görüşmüşdür. Sonralar İsmailin Fələstində atasının *məzarını ziyarət* etdiyi də rəvayət edilir. Bəzi rəvayətlərə görə o, təxminən 130 yaşında *Məkkədə* vəfat etmişdir. Kəbənin yaxınlığında anası *Həcərin* məzarının yanında dəfn olunmuşdur.

**İSMAİLİLƏR** – ***şiə təriqətlərindən birinin ardıcıllarıdırlar***. Onlar *Cəfər Sadiqə* qədər bütün imamları qəbul edirlər. Ancaq Cəfər Sadiqdən sonra, *isna-əşərilərdən* fərqli olaraq imam kimi onun oğlu *Musa ibn Cəfəri* (Kazımı) deyil, digər oğlu İsmaili qəbul etmişlər. Onların inanclarına görə Cəfər Sadiq *imaməti* İsmailə öz istəyi ilə vermişdir. Ancaq İsmail atasından öncə öldüyünə görə imamət onların ilk *qeybdə* olan imam saydıqları oğlu Məhəmməd Məqtuma keçmişdir. İsmaililərə görə imamlar qeybdə olsalar da, onlara tabe olmaq vacibdir.

Məhəmməd Məqtumdan sonra imamlıq onun oğlu Cəfər Müsaddiqə, sonra Cəfərin oğlu Məhəmməd Həbibə, daha sonra isə Məhəmmədin oğlu Übeydullah əl-Mehdiyə keçmişdir. O da, üsyan nəticəsində Şimali Afrikada (Məğribdə) hakimiyyəti ələ keçirmiş və bundan sonra ismaililər *Misirdə* yaratdıqları *Fatimilər* xilafətinin bütün xəlifələrini imam hesab etmişdirlər.

İsmaililik İraqda yaranmış, İranda və Xorasanda yayılmışdır. Ancaq bu bölgələrdə ismaililik hind dinləri və zərdüştiliyin təsiri altına düşmüş, onlarla qarışaraq sinkretik bir təlimə çevrilmişdir. Buna görə də, onların bir çoxu *İslamın* başlıca prinsiplərindən o qədər ayrılmışdılar ki, artıq İslam alimləri onları müsəlman hesab etməmişdirlər.

İsmaililərin inancına görə *şəriətdə* həm *zahiri*, həm də *batini* mənalar vardır. Ancaq, batinə daha çox önəm verdiklərinə görə onları "batinilər"də adlandırırdılar. Bəzi hallarda onlar məqsədlərinə çatmaq üçün gizli *təriqətlər* yaradıb, siyasi terrora da əl atırdılar. İsmaililərə görə şəriətin batini tərəflərini yalnız ismaili imamları bilir. Batiniliyə üstünlük verən ismaililər, *Quran* ayələrini *məcazi* mənada *təfsir* etməyə çalışırdılar və bu ənənəni də öz inancları ilə əlaqələndirilər.

İsmaililərə görə *Allah* imamları digər insanlardan daha üstün yaratmış, onlara insanların bilmədiyi bilikləri vermişdir. İmamların xalqın qarşısına çıxması *vacib* deyildir. Onlar qeybdə olduqlarına görə özlərini açıq-aydın göstərməyə də bilərlər. Buna görə də, imamlar xalqla əlaqəni ən seçilmiş davamçıları vasitəsi ilə saxlayırlar. İstənilən halda imam müsəlmanlara doğru yolu göstərən bir dini rəhbərdir. Onların inancına görə qeybdə olan imamlar zaman gəldikdə zühur edir, xalqı ilahi qanunlarla idarə etməyə çalışırlar.

İmamlar günahsızdırlar, heç kimin qarşısında məsuliyyət daşımır, istədiklərini edə bilərlər. Onlar bu hüquqa batini bilikləri bilmələrinə görə malikdirlər. Hamı da onlara tabe olmalıdır.

İsmaililərin təlimində yeni platonçuların, qnostiklərin, digər antik məktəblərin mistik baxışları da geniş yer almışdır. Onlar antik pifaqorçuluq, eləcə də *yəhudilərin* Kabbala adlı mistik təlimində olan rəqəmlərin mistikasına önəm vermişdilər. Xüsusən də ismaililər "yeddi" rəqəmini müqəddəs hesab edirdilər. Platon *fəlsəfəsində* olduğu kimi ismaililər bizim dünyamıza ideal aləmin əks olunması (yansıması) kimi baxırdılar. Başqa sözlə desək əsl varlıq ideal aləmdədir, bizim dünyada olan hadisələr və şeylər isə ideal aləmin əks təzahürüdür. İdeal aləmdən olan biliklər "gizli" biliklərdir, onları da onun təmsilçiləri olan imamlar bilirlər.

İsmaililər Şimali Afrika və Misirdə hakimiyyətə gəlməmişdən öncə inanclarını uzun müddət gizli şəraitdə yayırdılar. Bunu da "ismaili dəvəti" adlandırırlar. Onun düşünülmüş strukturu və metodları olmuşdur. Dəvətin başında qeybdə olan imamlar durmuşdular. Onlar öz tapşırıqlarını onlara bağlı olan xüsusi seçilmiş adamlara verirdilər. Onlar isə bu tapşırıqları öz yaxın adamları olan dəvətçilərinin vasitəsi ilə xalqa çatdırırdılar. Beləliklə, onların çox güclü siyasi qurumları olmuşdur.

İsmaililərin gizli dəvətçiləri müsəlmanların yığıncaqlarına qatılıb, ənənə tərəfdarları olan alimlərlə mübahisələr aparmış, onların müddəalarını xalq qarşısında təkzib etməyə çalışmışdırlar. Abbasi xilafətinin zəifləməsindən istifadə edərək ismaililər İfriqiyyədə (Tunisdə) hakimiyyəti ələ aldılar. Sonra onlar, bütün Şimali Afrika və Siciliyanı ələ keçirmişdirlər. Hicrətin 347-ci ilində (969 ildə) isə Misiri tutmuşdurlar. Yaratdıqları Fatimi xilafətinin paytaxtı Qahirə şəhəri olmuşdur. Daha sonra Yəmən, Hicaz və Suriya da bu xilafətin tərkibinə qatılmışdır. Birinci Fatimi *xəlifəsi* olmuş Übeydullah özünü qeybdən zühur edən *Mehdi* adlandırmışdır.

Ancaq VI/XII əsrin sonunda Fatimi xilafəti gücdən düşərək, torpaqlarını itirməyə başlamışdır. Ölkənin gücdən düşməsi ismaililərin *Müstəli* və *Nizari* kimi müxtəlif təriqətlərə parçalanmaları ilə nəticələnmişdir.

Fatimilər xilafətinin varlığına isə 549/1171-ci ildə sultan Səlahəddin Əyyubi son qoymuşdur. O, sonuncu Fatimi xəlifəsi olmuş Ədidi taxtdan salaraq Misiri və başqa əraziləri Abbasi xilafətinə tabe etdirmişdir. Hal-hazırda ismaili icmaları Avropada, Amerikada, Hindistanda, Pakistanda, Suriyada, Tacikistanda, Mərkəzi və Cənubi Afrikada, eləcə də başqa ölkələrdə də vardır. İsmaili *fiqhi* daha çox *Cəfəri məzhəbinin* müddəaları üzərində qurulmuşdur.

**İSNA-ƏŞƏRİLƏR** – ***oniki-imamçılar; mənsublarının sayına görə ən çox yayılmış şiə məzhəbidir.*** Oniki-imamçıların baxışlarına görə Məhəmməd peyğəmbərin vəfatından sonra *Allahın* nazil etdiyi *vəhylər* kəsilmişdir. Ancaq bundan sonra cəmiyyətdə Tanrı qanunlarının tətbiq edilməsinin vacibliyi ortaya çıxmışdır. Bu vəzifəni də *Əli ibn Əbu Talibin* soyundan olan imamlar öz üzərinə götürmüşdürlər. *İmamət* peyğəmbərlik kimi Allahın müsəlmanlara verdiyi böyük bir üstünlükdür. İsna-əşərilikdə Allahın buyruğunu yerinə yetirən imam eyni zamanda müsəlmanlara *İslamı* öyrədən müəllimdir. Onların inancına görə imamlar da *peyğəmbərlər* kimi məsumdurlar. İsna-əşərilikdə imam kimi qəbul edilən imamlar bunlardır:

1. Əli ibn Əbu Talib;
2. Həsən ibn Əli Zəki;
3. Hüseyn ibn Əli Şəhid;
4. Əli ibn Hüseyn Səccad;
5. Məhəmməd ibn Əli Bagir;

6. *Cəfər* Məhəmməd ibn Sadiq;
7. Musa Cəfər ibn Kazim;
8. Əli ibn Musa Rıza;
9. Məhəmməd ibn Əli Cavad;
10. Əli ibn Məhəmməd Hadi;
11. Həsən ibn Əli Əsgəri;
12. Məhəmməd ibn Həsən.

Bu imamlardan başqa Məhəmməd peyğəmbərin qızı *Fatimə* də yüksək məqamda dəyərləndirilir. Onların hər biri günahsızdırlar (məsum). *Şiələr* imamların hər bir sözünü, eləcə də göstərişlərini həqiqət hesab edirlər. Onların göstərişlərini yerinə yetirmək Allahın hökmlərini icra etməkdir. Onlara qarşı üsyan isə Allaha qarşı üsyandır. Şiəliyin başqa qollarında olduğu kimi isna-əşərilikdə də *qeybdə* olan imama etiqad etmək vacibdir. Bu da onikinci imam Məhəmməd ibn Həsəndir. Onlar onu *Mehdi* adlandırırlar. O, şiələrə qeybdən imamlıq edir. Şiələrin vəzifəsi öz zamanının imamına bağlanmaqdır.

Mehdi Allahın buyurduğu zamanda qeybdən zühur edərək şiələr üzərində imamlığını davam və ədaləti və doğru yolu bərpa edəcəkdir. Şiə mənbələrinə görə Mehdi təxminən hicrətin 255-ci ilində dünyaya gəlmişdir. Həyatı təhlükə altında olduğu üçün o, açıq olaraq xalqın qarşısına çıxmamış, göstərişlərini yalnız xüsusi nümayəndələrinin vasitəsi ilə camaata çatdırmışdır.

İmamın qeyb dövrü də ikiyə bölünür. 70 il (260 – 329) davam edən "Kiçik qeyb" dövründə imam Mehdi nümayəndələri vasitəsi ilə xalqla əlaqə saxlamışdır. 329-cu ildən sonra "Böyük qeyb" dövrü başlamış və bu günə kimi davam etməkdədir.

Digər şiələr kimi Oniki-imamçılar da *Raşidi xəlifələr* olmuş *Əbu Bəkr, Ömər* və *Osmanı* qəbul etmir, yalnız peyğəmbərin seçilmiş *əhli-beytini* müsəlmanların imamı və başçısı kimi qəbul edirlər. Onlar hesab edir ki, Əli ibn Əbu Talib peyğəmbərin bütün səhabələrinin arasında ən yüksək, ən seçilmiş bir kəs olmuşdur.

İsna-əşərilikdə hamı üçün *vacib* olan inancın əsasları vardır. Onlar "Üsulid-Din" (Dinin əsasları) adlanır. Üsuliddin beşdir:

1. Allahın birliyinə inanc (Tövhid);
2. Allahın ədalətli olmasına inanc (Ədl);
3. Bütün peygəmbərlərə inanc (Nübuvvət);
4. *Qiyamət* gününə inanc (Məad).
5. İmamlara inanc (İmamət).

Dinin praktik icrası baxımından da isna-əşəriliyin "Füruid-Din" (Dinin şərtləri) adlanan vacib müddəaları vardır:

1. Gundə beş dəfə qılınan *namaz*;
2. *Ramazan* ayında tutulan *oruc*;
3. *Zəkatın* verilməsi;
4. *Xümsun* verilməsi;
5. Həyatda heç olmasa bir kərə edilən *həcc* səfəri;
6. *Allah* yolunda edilən *cihad*;
7. İnsanları yaxşı işlərə çağırmaq (Əmri bil-Məruf);
8. İnsanları pis əməllərdən çəkindirmək (Nəhy ənil-Münkər);
9. Allahın səhabələri ilə dostluq etmək (Təvəlla);
10. Allahın düşmənləri ilə düşmən olmaq (Təbərra).

*Fiqhdə isna-əşərilər Cəfəri məzhəbinin* davamçılarıdırlar. Onlar müsəlman dünyasının bütün bölgələrində yaşayırlar. Ancaq isna-əşərilər sayca Livanda, İranda, İraqda və Azərbaycanda daha çoxdurlar.

**İSRA VƏ MERAC** – ***Məhəmməd peyğəmbərin gecələrin birində Məkkədən Qüdsə möcüzəli gedişi, oradan isə göylərə yüksəlişidir.*** Hətta, *Quranda* "İsra" (17) adlı surə də vardır. Bu hadisə hicrətdən təxminən üç il öncə baş vermişdir. Rəvayətlərə görə gecələrin birində *Cəbrayıl* peyğəmbərin yanına gəlmişdir. Onlar *Buraq* adlı bir heyvanın belinə minərək *Məkkə* məscidindən

Qüdsə getmişdir. Onlar *Qüdsdəki* qədim *Süleyman* məscidinə daxil olmuş, orada *Məhəmməd* peyğəmbər keçmişdə yaşamış *peyğəmbərlə* görüşmüş, onlarla birlikdə *namaz* qılmışdır. Sonra Məhəmməd peyğəmbər o məscidin xarabalığından göylərə yüksəlmişdir. Göyün birinci qatında *Adəmlə*, ikincisində Yəhya və *İsa* ilə, üçüncüsündə *Yusiflə*, dördüncüsündə *İdrislə*, beşincisində *Harunla*, altıncısında *Musa* ilə, yeddincisində isə *İbrahimlə* görüşmüşdür. Onların hamısı onu salamlayaraq peyğəmbərliyini təsdiq etmişdirlər. Bundan sonra Cəbrayıl Məhəmməd peyğəmbəri *sidrətül-mütəhaya* aparmışdır. Orada o, *Allahdan* Quranın "Bəqərə" surəsinin son *ayələrini*, Allahın birliyini tanıyan bütün müsəlmanların *cənnətə* girəcəkləri müjdəsini və gündə beş kərə namaz qılmaq buyruğunu almışdır.

*İslam* qaynaqlarında Məhəmməd peyğəmbərin merac zamanı Allahla görüşməsi haqqında birmənalı məlumat yoxdur. Bəzi rəvayətlərə görə Meracda peyğəmbərə cənnət və *cəhənnəm* göstərilmişdir. Məkkəyə dönəndən sonra Məhəmməd peyğəmbər bu hadisələri sahəbələrinə danışmışdır. Müsəlmanlar onun dediklərinə inanmış, *qureyşlilərin* çoxu isə inanmamışdırlar. Müsəlmanlar İsra və Merac hadisəsini peyğəmbərin ən böyük möcüzələrindən biri kimi dəyərləndirirlər.

**İSRAFİL** – ***ən böyük dörd mələkdən birinin adıdır***. *Qiyamət* gününə yaxın zamanda o "sur"a üfürəcəkdir. Bundan sonra dünyada qiyamət başlayacaqdır. Sonra bütün həlak olmuş insanlar yenidən dirilib *Allahın* hüzuruna gələcəklər. *Qurana* (39: 68) görə Allah *İsrafilə* iki kərə boruya üfürmək imkanı verəcəkdir. Birincidən sonra bütün canlılar məhv ediləcək və yer üzü yenisi ilə əvəz olunacaqdır. İkinci üfürmədən sonra isə bütün insanlar *məzarlardan* qalxacaq və onların həyatda etdikləri əməllər tərəziyə qoyulacaqdır.

**İSRAİL OĞULLARI** – bax: **BƏNİ İSRAİL.**

**İSRAİLİYYAT** – ***Quran ayələrini təsdiq etmək üçün Tövrat, İncil, Zəbur kimi Yəhudi və Xristian kitablarından gətirilən dəlillərdir.*** İsraillilər ilk *İslam* qaynaqlarında *İsrail oğulları* adlanırlar. İsrail adı isə İsrail oğullarının 12 qolunun ulu babası olmuş *Yaqub peyğəmbərin* adlarından biridir (*Quran*, 3: 93).

İslam ilahiyyatçıları israillilərin rəvayətlərini birmənalı qarşılamamışdırlar. Onları tam inkar etməmiş, müəyyən *şərtlərlə* bu rəvayətlərdən istifadə etmişdilər. İslam ilahiyyatında israiliyyətin istifadə edilməsinin başlıca şərti onun İslamın ilk qaynaqlarına (Qurana və *hədislərə*) zidd olmamasıdır. Hicrətin birinci əsrində İslamı qəbul etmiş xristianlar və *yəhudilər* Quran *ayələrini Tövrat, Zəbur, İncillərlə təfsir* etmə metodundan geniş istifadə edirdilər. Ancaq sonra israiliyyətdən gələn çoxlu şübhəli rəvayətlər ortaya çıxmışdır. Buna görə də, İslam ilahiyyatçıları bu kimi rəvayətlərə ehtiyatla yanaşmışdırlar. Onları əsas deyil, ikinci dərəcəli dəlil kimi istifadə edilməsinə yol vermişdirlər.

**İSTİBRA** – ***kişilərin sidik yolundan sidik qalığının çıxarılmasıdır.*** Bu da kişi bədəninin *nəcasətdən* təmizlənməsi üçün vacibdir. Sidik axıb qurtarandan sonra kişi sol əli ilə sidik yolunda qalan sidiyin qalığını sıxıb çıxarmalıdır. Sidik ifraz olunduqdan sonra isə oranı su ilə yuyub təmizləmək lazımdır. Sidiyin qalığının bədənə və ya paltara düşməməsi üçün kişilərə məsləhət görülür ki, sidiyə oturaq vəziyyətdə getsinlər. Ancaq kişi geyiminin bulanmayacağı üçün tədbir görərsə, onda sidiyə ayaqüstü də gedə bilər. Qadınlar üçün isə istibra *vacib* deyildir. Onlar yalnız sidiyin ifraz olunduğu yeri yuyub təmizləməlidirlər.

Kölə qadınla cinsi əlaqəyə girməzdən öncə *iddə* müddətinə də istibra deyilir. Bu müddət onun öncəki kişidən hamilə olub-olmamağını müəyyən etmək üçün vacibdir. Bu müddət qadının birinci *heyzi* ilə tamamlanır.

**İSTİHAZƏ** – ***qadınlarda üç gündən az və ya on gündən çox müddətdə axan qan bu adla ifadə edilir***. Bir çox hallarda istihazə qanının axması qadında hər hansı bir xəstəliyin olmasını göstərir. Doqquz yaşdan kiçik qızlardan axan qan istihazə hesab edilir. 50 yaşdan yuxarı olan qadından axan qan da bu qəbildəndir. Ancaq, bu məsələ barəsində İslam *məzhəblərində* fərqli hökmlər vardır. Bəzi alimlərə görə hamilə qadından axan qan da *istihazə* hesab edilir. Digərləri isə onu *heyz* qanı hesab edirlər. İstihazə qanı digər orqanlardan axan qandan fərqlənmir. İstihazə halında olan qadınla cinsi əlaqəyə girmək mümkündür. Ancaq, istihazə *dəstəmazı* pozur.

**İSTİHSAN** – ***lüğətdə "gözəl saymaq və ya hər hansı bir şeyi gözəl görmək" mənalarına gəlir.*** İstihsan *fiqh* üsulunda *müctəhidin* daha qüvvətli qəbul etdiyi bir dəlildir. Fiqhdə hər hansı bir hüquqi problem *qiyasla* həll edilmədikdə, bəzi *məzhəblər* bu metoda müraciət edir və bunu *Quranın* 2: 185 ayəsi ilə əsaslandırırdılar. Bilindiyi kimi Quran və *hədislərdən* hər hansı bir problem üzrə hüquqi hökm çıxarmaq mümkün olmayanda qiyasdan istifadə edilir. Açıq qiyasla həll edilən problem Quran və hədislərin açıq-aydın dəlilləri ilə əsaslandırılmalıdır. Ancaq, bəzi hallarda bu kimi problemlərin həlli qiyasla mümkün olmur. Buna görə də, bu zaman nisbi qiyasa müraciət edilir ki, onunla məsələ həll olunur. Bu metod isə istihsan adlanır. Bu baxımdan istihsan müctəhidin açıq qiyasa nisbətən, üstünlük verdiyi nisbi qiyasa üz tutmasıdır. Bu metoda isə ehtiyac halında müraciət edilir. Xüsusi bir termin kimi istihsanı ilk dəfə *İslam* fiqhində *Əbu Hənifə* və onun tələbəsi *Əbu Yusif,* Məhəmməd ibn Həsən, eləcə də bir çox digər alimlər istifadə etmişdirlər. Ancaq, bu metodun onlardan əvvəl mövcud olduğu haqqında fikirlər vardır. Günümüzdə istihsan *Hənəfi* məzhəbində istifadə edilir. Başqa məzhəblərdə isə bu metod ümumiyyətlə istifadə edilməməkdədir. Bildiyimiz kimi yırtıcı heyvanların, eləcə də qartal kimi yırtıcı quşların əti yeyilmir. Qiyasa əsasən bu heyvanların içdikləri qabdan su içmək də olmaz. Çünki, onların ağzının suyu o suya qarışır. Bununla belə burada istihsan da istifadə edilə bilər. Bu metoda görə isə yırtıcı quşların dimdikləri qabdakı suyu korlamır. Çünki, onlar o suyu yalnız öz dimdiklərinə yığır, sonra isə dimdiklərindəki suyu daxilə qəbul edirlər. Buna baxmayaraq yenə də belə suyun içilməsindən çəkinmək lazımdır.

**İSTİXARƏ** – ***müsəlmanın hər hansı bir işi görməzdən əvvəl, bu işin onun üçün xeyirli olub-olmamağını öyrənmək məqsədi ilə iki rükətli istixarə namazını qılıb, dualar oxuyub, Allahın ona yuxuda ən doğru yolu göstərməsi niyyəti ilə yatmasıdır.*** *İslam fiqhində* istixarəyə icazə verilir. *Şərt* yalnız ondan ibarətdir ki, istək obyekti *şəriətə* uyğun olmalıdır. *Haram* şeylərə istixarə edilə bilməz.

**İSTİNCA** – ***bədəndən sidik və nəcis ayrıldıqdan sonra bulaşmış yerlərin təmizlənməsidir.*** Təmizlik üçün ən üstün vasitə su hesab edilir. Kişi sidiyi ifraz etdikdən sonra istibra etməli və o yeri su ilə yumalıdır. Su sağ əllə su tökülür, sol əllə isə bədən üzvü təmizlənir.

Su olmayanda başqa təmizləyici vasitələr istifadə olunmalıdır (kağız və ya daş). Ancaq, su əldə edildikdən sonra ifrazat yerlərini su

ilə yumaq lazımdır. Daşla da təmizlənmək mümkündür. Belə olanda ya üç daş, ya da bir daşın üç tərəfini istifadə etmək olar. Təmizlənmə zamanı istifadə olunan kağızın üzərində yazılar olmamalıdır. İnsan təbii ehtiyacını bunun üçün ayrılmış yerlərdə (tualetlərdə) etməlidir. Bunu ictimai yerlərdə, bağlarda və ya meyvə ağacının dibində etmək olmaz.

**İSTİSLAH** – ***hər hansı bir məsələ üzrə Quran ayələri, hədislər, qiyas və alimlərin icmasından birbaşa hüquqi hökm vermək mümkün olmazsa, müctədidin cəmiyyət üçün xeyirli və məqsədəuyğun hesab etdiyi hökmün verilməsidir.*** İstihsandan fərqli olaraq istislah *Quran* və *hədislərin* konkret hərfi mənalarına əsaslanmır. Ancaq hökm onların ümumi mənalarına uyğun olmalıdır. *Fiqhi* termin kimi istislahı ilk dəfə *Malik ibn Ənəs* tətbiq etmişdir. Onun iddiasına görə bu metod şəriətin etibarlı hesab etdiyi metodlarla uyğunluq təşkil etməlidir. Eyni zamanda, bu metod məntiqə də uyğun olmalıdır. Ancaq istislahın tətbiq edilməsi məsələsində *İslam* alimləri fərqli fikirlər irəli sürmüşdürlər. Bəziləri onun əslində istihsan olduğunu iddia etmiş, bəziləri isə bu metoddan ümumiyyətlə istifadə etməmişdirlər.

**İŞA** – ***gecə namazının qılındığı vaxtdır***. O vaxt *vacib* olan işa *namazı* qılınır. Bu vaxt gün batandan bir qədər sonra başlayıb gecənin yarısına qədər davam edir. Günəşin batmasından sübhün açılmasına qədərki müddət gecə hesab edilir. Bu vaxtın bitməsi ilə işa *namazının* qılınması üçün ayrılmış vaxt da bitmiş olur.

**İŞMOİL** – ***İslam ənənəsində Allahın Musadan sonra İsrail oğullarına göndərdiyi peyğəmbərlərdən biri olmuşdur.*** O, *Harun* peyğəmbərin soyundan olmuş, *Tövratın* qanunları ilə hökm vermiş, xalqını Allaha inanmağa dəvət etmişdir. Onun *peyğəmbərliyi* dövründə *İsrail oğulları* ilə *Fələstində* yaşayan Amalika qəbiləsi arasında qarşıdurma daha da qızışmışdır. Amalikalılar israillilərə qarşı hücuma keçərək onlardan çoxlu adamları öldürmüş, bəzilərini isə əsir götürmüşdürlər. Onlar *Musa* peyğəmbərdən sonra israillilərə miras qalmış müqəddəs *Tabut əs-Səkinə'ni* ələ keçirib aparmışdırlar. Orada Tövratın mətni və bəzi başqa müqəddəs şeylər də olmuşdur.

Bu uğursuzluqlar İsrail oğullarına böyük mənəvi zərbə vurmuşdur. Onlar düşdükləri vəziyyətdən çıxmaq üçün Allahdan onlara yeni peyğəmbərin göndərilməsini diləmişdilər. Onların *dualarını* qəbul edən Allah, İşmoil'i onlar üçün peyğəmbər göndərmişdir. Öncə İsrail oğulları onu peyğəmbər kimi qəbul etməsələr də, sonra ona tabe olmuşdurlar. İşmoil isə onların kralı kimi *Talutu* seçmişdir. İsraillilər başlanğıcda onu qəbul etməsələr də, sonra ona *beyət* etmişdilər (*Quran,* 2: 246-248). Talut da İşmoil'in dediyi kimi amalikalılara qalib gələ bilmişdir. Rəvayətlərə görə İşmoil 11 il ərzində İsrail oğullarının peyğəmbəri olmuş, əlli iki yaşında vəfat etmişdir.

**İTMİNAN** – ***sufilikdə sıxıntıdan sonra rahatlıq tapma halıdır.*** İtminan *Quranda* (13: 28, 89: 27) hər hansı bir şeyə bağlanma və bunun nəticəsi olaraq rahatlıq tapma anlamında işlədilmişdir. Başqa sözlə itminan ruhun nəfsin cilovundan qurtulmasından sonrakı rahatlıq halıdır. Sifi alimlərinə görə itminan nəfsdən qurtulma və *Allaha* doğru yönəlmədir.

**İZDİVAC** – bax: **NİKAH.**

# K

**KAFİRLƏR** – ***Allahın varlığı və birliyinə inanmayan insanlardır.*** *Quranın* 109-cu surəsi "Kafirun" (kafirlər) adlanır. Müsəlmanlar Allahın varlığına, birliyinə və Onun sifətlərinə, göndərdiyi *peyğəmbərlərə, cənnət və cəhənnəmə, axirətə* inanmayanları kafir adlandırarlar. Hesab olunur ki, kafirlər həyatın mənasını yalnız bu *dünya* ilə əlaqələndirirlər. Bunlardan başqa, bəzi *fəqihlər* insanların bəzi qruplarını da kafir hesab edirlər. Məsələn, *Əbu Hənifə* Allahın sifətlərinin əbədiliyini inkar, onların zaman içində yarandığını iddia edənləri də kafir hesab etmişdir. Bəzi ilahiyyatçılar Allahdan ümidini üzən, pessimizmə qapananları da kafir sayırdılar. Buna bu Quran (12: 87) ayəsini dəlil kimi gətirirlər. *İcmaya* görə Quranın hər hansı bir ayəsini və ya hökmünü inkar edənlər, Qurandan hər hansı bir ayəni *vəhy* hesab etməyən insanlar da kafir hesab edilirlər (Quran, 2: 85).

**KALİB İBN YUKNA** – ***rəvayətlərə görə Musa peyğəmbərin davamçılarından biri, sonra isə İsrail oğullarının peyğəmbəri olmuşdur.*** Kalib *Yuşa ibn Nundan* sonra *İsrail oğullarına* başçılıq etmişdir. *Müfəssirlərə* görə Maidə surənin 23-cü ayəsində anılmış iki mömin şəxslərdən biri Kalib ibn Yukna, ikincisi isə Yuşa ibn Nun olmuşdur.

**KƏBƏ** – ***müsəlmanlar tərəfindən müqəddəs yer kimi qəbul edilən Məscidül-Həramın tam ortasında yerləşən, qara parça ilə örtülmüş kiçik tikilidir.*** Kəbə bu *məscid* kompleksin içində inşa edilmiş ən qədim tikili hesab edilir. Rəvayətlərə görə kəbəni *İbrahim peyğəmbər* və onun oğlu *İsmail* inşa etmişdirlər. *İslam* ənənəsinə görə Kəbə yer üzərində inşa edilmiş ilk *məbəd* hesab edilir (*Quran*, 3: 96-97). İslam dinin rituallarının yerinə yetirilməsində Kəbə olduqca böyük əhəmiyyətə malikdir. Müsəlmanlar Kəbəni *qiblə* kimi qəbul edib, ona tərəf istiqamətlənərək ibadət edirlər. Eyni zamanda, *həcc* zamanı zəvvarlar onu *təvaf* edərək dini vəzifələrini yerinə yetirirlər. Qeyd etmək lazımdır ki, *Məkkə* şəhərinin yaşı Kəbənin inşa edilmə tarixi ilə dəyərləndirilir.

**KƏBİRƏ** – bax: **GÜNAH**.

**KƏFFARƏ** – ***İslamda şəriət qanunlarına görə işlənilmiş günah qarşılığında günahı yüngülləşdirmək məqsədi ilə edilən hər hansı bir əməldir.*** Məsələn, müsəlmanlar üçün *vacib* olan *Ramazan orucunu* hər hansı bir müsəlman səbəbsiz pozulmuşdursa *məzhəblərin* hökmlərinə görə onun kəffarəsi 60 gün oruc tutmaqdır. Pozulmuş əhdin kəffarəsi isə yoxsulları yedizdirmək, bir köləni azadlığa buraxmaq və ya 3 gün oruc tutmaqdır (*Quran,* 5: 89).

**KƏLAM (I)** – ***Allahın varlığı və birliyi, sifətləri, peyğəmbərliyin mahiyyəti, vəhy və möcüzə kimi problemləri öyrənən elm sahəsidir.*** Kəlamın məqsədi *vəhyə* istinad edən *İslamın* əsaslarını insan düşüncəsi ilə uyğunlaşdırıb anlatmaq, din barəsində bütün şübhələri ortadan qaldırmaq, müxaliflərin dəlillərinə cavab verməkdir. Kəlamı İslam *fəlsəfəsi* də adlandırırlar. Ancaq antik və digər fəlsəfələrdən fərqli olaraq kəlamda düşüncənin dəlilləri vəhyə əsaslandırılır və bu dəlilər ona zidd olmamalıdır. Kəlam alimlərini kəlamçı (mütəkəllim) adlandırırlar.

Kəlam elminin formalaşma tarixi İslam alimlərinin Antik Yunan fəlsəfəsi ilə tanış olması ilə bağlıdır. İslam tarixinin ilk dövründə kəlamçılar Allahın varlığı və sifətlərinin dərk olunmasında ortaya çıxan problemləri həll etməyə çalışırdılar. Sonra isə onlar Antik

Yunan fəlsəfənin təsiri altında varlıq problemi üzrə öz fikirlərini açıqlamışdırlar. Ancaq, Antik Yunan filosoflardan fərqli olaraq kəlamda yaradılmış varlığın başlanğıcı və sonu vardır. Mütləq varlıq isə əbədi olan Allahdır.

*Qəzalidən* sonra kəlam elmi dini dəlillərə əsaslanan bir elmə çevrilmişdir. İlahiyyatçılar kəlam elmindən insanların dinlə bağlı şübhələrinin ortadan qaldırması və insanların İslamı qəbul etməsi üçün istifadə edirdilər. Burada məntiqi metodlara böyük önəm verilirdi.

Orta əsrlər boyu dini ehkamlarla məntiqi dəlilləri barışdırmaq vəzifəsini üzərinə götürən kəlam elmi, bir tərəfdən müsəlmanları düşüncəyə önəm verməyə və onları *təqliddən* çəkinməyə çalışmışdır. Ancaq, digər tərəfdən bütün bunlar müxtəlif İslam *təriqətlərinin* yaranmasına da səbəb olmuşdurlar. Bəzən isə kəlamçılar metafizik kateqoriyalardan çıxış edərək aralarında uzun müddət davam edən, səngimək bilməyən sxolastik çəkişmələr aparmışdırlar. Bu da *məzhəblər* arasında olan *ixtilafları* daha da qızışdırmışdır. Kəlamçıların ən əsas məqsədi ondan ibarət olmuşdur ki, *vəhy* ilə insan düşüncəsi arasında tarazlığa nail olaraq onların arasındakı ziddiyyətləri ortadan qaldırsınlar. Digər önəmli vəzifə İslamın inanc prinsiplərini sistemləşdirərək, İslam elmləri arasında əlaqələri daha da möhkəmləndirməkdir.

Kəlam elminin yaranma səbəblərindən biri sonuncu *Raşidi xəlifələri* dövründə müsəlman icmasında baş vermiş daxili çəkişmələr, digər tərəfdən isə İslam dünyasının surətlə genişlənməsi və inkişafı olmuşdur. Xilafət qədim zamanlardan bəri dünya sivilizasiyalarının mərkəzləri olan ərazilərin və orada yaşayan xalqların üzərində öz hakimiyyətini qurduqdan sonra, müsəlmanlar başqa mədəniyyətlərlə qarşılaşmış, onlarla birbaşa əlaqələrə girmişdirlər. Onlarla qarşılaşan müsəlmanlar öz dinlərinin əsaslarını anlatmağa, müxaliflər üzərində üstünlük əldə etmək üçün məntiqi metodlara müraciət edirdilər. Bununla yanaşı, İslamın ilk mənbələrində olmayan yeni məsələlər və reallıqlar ortaya çıxmışdır. Bütün bu yeni yaranan problemlərin həlli üçün İslamın metodları yetərli olmamışdır. Bunun üçün İslamın ümumi prinsiplərinə uyğun olan yeni ideyalar və orijinal metodlar fikirləşmək lazım idi.

Xilafətdə daxili müharibələr getdiyinə görə kəlamın ilk problemi hakimiyyət məsələsi ilə bağlı olmuşdur. Sonra isə Allahın varlığı və sifətləri, *qəza* və *qədər, iradə* azadlığı, günahkarların vəziyyəti, *Quranın* məxluq olub-olmaması və başqa məsələlər üzrə fikirlər ortaya çıxmışdır. Bunun da nəticəsində müxtəlif problemlərlə bağlı *sünnilər, şiələr, xaricilər, cəbrilər, qədərilər, mürciilər* kimi təriqətlər və dini cərəyanlar yaranmışdır.

Bütün bu problemlərə cavablar axtaran ilahiyyatçıların səyi nəticəsində müxtəlif kəlam məzhəbləri yaranmışdır. *Mütəzililik* ilk kəlam məzhəbi olmuşdur. Onu *Vəsil ibn Əta* (131/748-ci ildə vəfat etmişdir) və Əmir ibn Übeyd (144/761-ci ildə vəfat etmişdir) yaratmışdırlar. Mütəzililər kəlam elminin formalaşması və inkişaf etməsində böyük işlər görmüşdülər. Mütəzililərin bir çox iddialarını tənqid edən İslam alimləri onların metodlarını və bəzi ideyalarını mənimsəmişdirlər. Çünki, o zaman ənənəvi İslamın müddəalarının düşüncə ilə uyğunlaşdırılması, eləcə də onların arasındakı ziddiyyətlərin ortadan qaldırılmasının zərurəti yaranmışdır. Xilafətin genişlənməsi, müxtəlif xalqlar arasında İslamın yayılması, müsəlman cəmiyyətlərinin inkişafı, zamanın irəliləməsi də bu prosesdə mühüm rol oynamışdır. Buna görə də, İslam alimləri mütəzililəri tənqid etsələr də, onların metodlarından faydalanmaq məcburiyyətində qalmışdırlar.

Bununla belə, ənənə tərəfdarları kəlam elmini öz təlimlərini əsaslandırmaq üçün istifadə edirdilər. Öncə mütəzili olmuş, sonra isə ənənəçilərin sırasına keçmiş *Əbülhəsən Əşəri* və *əşərilər* bu prosesə təkan vermişdirlər. O, İslam dinin əsaslarını əqli dəlillərlə əsaslandırmağa cəhdlər etmiş, onları sistemləşdirərək kəlam elminin metodları ilə bir-çox mübahisəli məsələləri həll etməyə çalışmışdır. Kəlam elminin inkişafı yolunda *Əbu Mənsur Maturidi* və *maturidilər* də böyük işlər görmüşdürlər. Əşəri və Matüridi *sünni* kəlamının əsaslarını qoymuşdular.

*İbn Teymiyyə* və onun davamçıları olan *sələfilər* isə həm mütəzililəri, həm də əşəri və maturidiləri tənqid etmələrinə baxmayaraq müxtəlif məsələlərin həllində kəlamın metodlarından istifadə etmişdirlər.

VIII/XIV əsrdən başlayaraq XIV/XIX əsrə qədər kəlam elmi tənəzzül dövrünü yaşamışdır. Yalnız keçmişdə yaşayan kəlamçıların əsərləri şərh edilmişdir. XIV/XIX əsrdən başlayaraq kəlam elmi üzrə çalışmalarda müəyyən canlanma müşahidə edilməkdədir.

**KƏLAM (II)** – ***ərəb dilində söz mənasını ifadə edən kəlam termini Tanrı sözü, İlahi qanun kimi də istifadə edilir.*** İsa peyğəmbərin adlarından biri məhz "Kəlamullah"dır (Tanrının Sözü). *Musa* peyğəmbər də "Allahla danışan" (Quran 4: 164) insan adlandırılmışdır. Ümumiyyətlə, "söz" (Loqos) anlayışı hələ Antik Yunan *fəlsəfəsində* qanuna uyğunluq mənasında işlədilmişdir. Beləliklə, antik dövrdə "Loqos" sözü tale mənasını daşıyırdı. Tale anlayışına isə bütün varlıq tabe edilirdi. Daha sonra Xristianlıqda "Loqos" İsa ilə əlaqələndirilmişdir. O, Tanrı ilə dünya arasında bir vasitəçi olaraq tanrının dünyadakı təcəssümü kimi başa düşülmüşdür.

*İslamda* isə kəlam anlayışı başqa mənada dərk edilir. Quran *təfsirlərinə* istinadən bildirmək istərdik ki, "Allahın sözü" dedikdə onun əmrlərini yerinə yetirən *Cəbrail*, eləcə də İsa *peyğəmbər* nəzərdə tutulur. Belə ki, Cəbrail *Məryəmin (I)* yanına gəlmiş, onu *İsanın* doğulması ilə müjdələmişdir. Ancaq, bu adla adlandırılmasına baxmayaraq o Xristianlıqdakı kimi Allahla yaradılmış varlıq arasında vasitəçi deyildir. Çünki, ilahiyyatçılara görə Allahla dünya arasındakı vasitəçilər insanlar deyil, onun əmrlərini yerinə yetirən, azad *iradələri* olmayan *mələklərdir*. Onların (daha çox Cəbrailin) vasitəsi ilə İslamda Allahın əbədi sözü kimi dəyərləndirilən *Quran* yer üzərinə nazil olmuşdur.

**KƏLMEYİ-ŞƏHADƏT** – ***İslamı qəbul etmənin sözlü ifadəsi və təsdiqidir.*** Kəlimeyi-şəhadət "Əşhədü ən lə ilahə illəllah və əşhədü ənnə Muhamməpən əbduhu və rasuluh" kimi ifadələrdən ibarət olmaqla *Allahın* varlığını və birliyini, Məhəmmədin Onun bəndəsi və göndərdiyi *peyğəmbər* olduğuna *şahidlik* etmədir. Gördüyümüz kimi kəlmeyi-şəhadət *tövhid* inancını və Məhəmmədin peyğəmbərliyini ifadə etməklə iki hissədən ibarətdir. Birinci hissədə Allahdan başqa tanrının olmadığına, ikinci hissədə isə Məhəmmədin Allahın bəndəsi və Rəsulu olduğuna şahidlik edilir. Bu şahidlik qətilik qazanan bir təsdiq olmaqla yanaşı, eyni zamanda inancın sözlü ifadəsidir. Ənənəyə görə kəlmeyi-şəhadəti söyləyən insan müsəlman olur. Bundan sonra o, *İslam* hüququnun müsəlmanlar üçün müəyyən etdiyi bütün haqq və hüquqlara malik olmaqla yanaşı dinin buyurduğu əmr və qadağaları yerinə yetirməklə öhdəçilik daşıyır. Fiqhdə heç kim kəlmeyi-şəhadəti söyləməyə məcbur edilə bilməz, məcbur edilən şəxsin şahidliyi etibarlı hesab olunmur.

**KƏRAMƏT** – ***mənəvi cəhətdən yüksələn mömin şəxsin fövqəltəbii bacarığa və istedada sahib olmasıdır.*** İlahiyyatçılara görə kəramət sahibi insanlar, ancaq möhkəm inanca və sağlam etiqada sahib olmalıdır. Kəramət *peyğəmbərlərə* verilən möcüzədən fərqlənməkdədir. *İslam* alimlərinə görə peyğəmbərlər *Allahın* varlıq və birliyini, peyğəmbərlərin Allah tərəfindən göndərilən elçi olduğunu sübut etmək üçün Allahın iradəsi daxilində göstərdikləri fövqəltəbii hadisə və əməllərdir. Kəramət sahibləri isə insan ağlı və məntiqi ilə dərk edilməyən hər hansı qabiliyyət və bacarığı insanların gözü önündə nümayiş etdirməkdən çəkinməlidirlər. Çünki, kəramət sahibi insanların missiyaları Allahın varlığını və birliyini sübuta yetirmək deyildir. Onlar *təriqət*, həqiqət və *mərifət* yolçuluğunda qazandıqları ən yüksək məqamın nəticəsi olaraq kəramət sahibi olmuşlardır. İslam *məzhəblərinin* əksəriyyəti kəraməti qəbul edir və buna dair *Quranın* 3: 37 ayəsini dəlil göstərirlər. *Mütəzililər* isə kəraməti qəbul etməmişdirlər.

**KƏSB** – ***lüğətdə "qazanma, iş, toplama, ruzi axtarma, istəmə, əldə etmə, səy göstərmə və qazanc yolu" kimi mənaları ifadə edir***. Kəsb *Quranda* keçən bir anlayış olaraq bəzən qəlbin bir kəsbi və əzmi (Quran, 2: 225), bəzən ticarətdə *mal* qazanmaq (Quran, 2: 267), bəzən də səy və əməl mənasında (Quran, 2: 286; 7: 39) istifadə edilmişdir. *Kəlamda (I)* isə kəsb daha çox qulun hərəkət və əməlinin yaradılışı mövzusunda fərqli görüşlərin ortaya çıxması ilə gündəmə gəlmişdir. Bəzi *məzhəb* mənsubları qulların hərəkətlərinin *Allaha* nisbət edilməsini rədd etmişdir. *Maturidilərə* görə kəsb insanın sifətidir. Onun *iradə* və qüdrətinə bağlıdır. Allahın yaratdığı hərəkət insan iradəsi ilə reallaşar. Bu səbəbdən insanın hərəkəti yaratma deyil, kəsb olaraq adlandırılır. Allahın hərəkəti isə bir yaratma hadisəsidir. Yaratma yalnız Allaha məxsus özəllikdir. Kəsb isə insana aid olmaqla hərəkətlə ortaya çıxır. Əşarilərə görə iqtisab (qazanılan və ya əldə edilən) hərəkəti insanda meydana gələn zəruri hərəkət kimidir. Allah hərəkəti yaratdığı kimi iqtisabi da yaradır. İnsanın vəzifəsi yalnız iqtisab etməkdir. Eyni zamanda, *günahlardan* çəkinərək hər hansı bir faydalı bir işin görülməsi və ya mənimsənilməsidir. Ümumiyyətlə, kəsb Allahın iradəsi ilə insanın azad seçiminin birləşməsidir.

**KİBR** – ***hər hansı bir insanın üstün keyfiyyətləri səbəbi ilə digər insanlara yuxarıdan aşağı baxmasıdır.*** Əxlaqi bir problem kimi kibr *İslamda* pis əməllərdən hesab edilir və *küfrün* əlaməti kimi qiymətləndirilir (Quran, 7: 146). *İslama* görə kibr yalnız *Allaha* məxsusdur. Bu səbəbdən də, təkəbbürlü insanları *axirətdə* əzab gözləyir. *Quranda* təkəbbür sahibi kimi *Firon, Nəmrud, Qarun* və s. göstərilmişdir.

**KORDOVA XİLAFƏTİ** – ***İspaniya və şimali Afrikanın bir hissəsini əhatə edən İslam dövləti olmuşdur.*** İspaniyanı müsəlmanlar miladi 712-ci ildə fəth etmişdirlər. *Abbasilər Əməviləri* devirdikdən sonra onlar bütün Xilafət boyu təqib edilib öldürülürdülər. Onlardan yalnız bəziləri qaçıb xilas ola bilmişdirlər. Qaçanlardan biri də *xəlifə* Hişamın oğlu Əbdürəhman əd-Daxil olmuşdur. O, İspaniyada sığınacaq tapmış və orada öz hakimiyyətini qura bilmişdir. İlk başlarda o, Abbasilər xilafətini tanısa da onlara heç vaxt etibar göstərməmişdir. O bilirdi ki, Abbasilər gec-tez onun qurduğu dövlətə də əl uzadacaqdır. Doğrudan da, bir müddət sonra Əməvilərin İspaniyada möhkəmlənməsini istəməyən Abbasilər öz hakimiyyətlərini buraya gətirmək üçün hərəkətə keçdilər. Buna görə də İspaniyada Əməvilərlə Abbasilər arasında döyüşlər

başlamışdır. Bu döyüşlərdə Əməvilər üstünlük qazana bilmişdirlər. Bundan sonra orada Abbasiləri tanımayan Kordova əmirliyi adlanan bir dövlət yaranmışdır. Onun paytaxtı Kordova olmuşdur. Əbdürrəhman miladi 756 – 788-ci illərdə bu dövlətin başçısı olmuş, ondan sonra hakimiyyətə I Hişam (788 – 796) gəlmişdir. Sonra dövlətə başçılığı I Həkəm (796 – 822) etmişdir. II Əbdürrəhmanın hakimiyyəti dövründə isə Kordova əmirliyi bütün sahələrdə inkişaf etmişdir. Bu dövrlərdə Kordova mədəniyyət və *elm* mərkəzinə çevrilmişdir.

Miladi 913-cü ildə hakimiyyətə III Əbdürrəhman gəlmişdir. Onun hakimiyyəti dövründə Kordova əmirliyi Avropanın güclü ölkəsinə çevrilmişdir. 929-cu ildə III Əbdürəhman özünü xəlifə elan etmişdir. Bu tarixdən başlayaraq bu dövlət Kordova xilafəti adlanmağa başlamışdır. O zaman xilafətin sərhədləri genişlənmişdir. III Əbdürrəhmanın 50 illik hakimiyyətindən sonra Kordova xilafəti bir müddət gücünü saxlasa da, az sonra ölkəni daxili çəkişmələr və böhran bürümüşdür. Miladi 1031-ci ildə bu böhranlardan çıxa bilməyən Kordova xilafəti dağılmış, onun yerində isə çoxlu əmirliklər yaranmışdır. Sonra parçalanmış ölkəni xristian kralları ələ keçirməyə başlamışdırlar. O zaman müsəlmanlar İspaniyadan qovulmuş və ya xristianlığı qəbul etmək məcburiyyətində qalmışdırlar. 1492-ci ildə sonuncu müsəlman əmirliyi olan Qranada xristianların əlinə keçdikdən sonra isə İspaniyada müsəlmanlığa son qoyulmuşdur.

**KÜBRAVİLƏR** – ***süfi təriqətlərindən birinin davamçılarıdırlar.*** *Təriqətin* adı Nəcməddin Kübra (540/1145 – 618/1221) ilə bağlıdır. O, Xarəzmdə doğulmuş, erkən yaşlarından dini elmləri öyrənmişdir. Mənəviyyat yolçuluğuna *Misirdə* Əbu Nəcib Sührəvərdinin tələbəsi olmuş şeyx Ruzbihan Misrinin rəhbərliyi altında başlamışdır. Təbrizə köçdükdən sonra onun müəllimi tanınmış sufi Baba Fərəc Təbrizi olmuşdur. Sonra isə Nəcməddin Kübra öz təriqətini yaratmış, Gürgəncdə sufi *təkkəsi* qurmuşdur. O, çoxlu sayda tanınmış sufilər yetişdirmişdir. Monqollar Gürgənci ələ keçirdəndə Nəcməddin qətlə yetirilmişdir. O, ərəb və fars dillərində yazmış olduğu bir çox əsərlərin müəllifidir.

Nəcməddin Kübra digər sufi şeyxləri kimi *Allaha* yaxınlaşma yollarını göstərmişdir. Bu yol *mürşidinin* göstərişlərinə tabe olmaqdan, ibadətləri yerinə yetirmək və *zikr* etməkdən keçir. O, həmçinin abidliyi, tərkidünyalığı, inzivaya çəkilməyi təbliğ edirdi. Onun davamçıları olan kübravilər özlərinin mənəvi təcrübələrində rənglərin müxtəlif çalarlarına və onların ahəngdarlığına böyük önəm vermişdişlər. Kubraviliyin mənəvi varislik *silsiləsi Əli ibn Əbu Talibə* qədər yüksəlir. Bu təriqətdən ələvi təriqəti olan nurbəxşilər və zəhəbilər ayrılmışdılar. Kübravilik Orta Asiyada geniş yayılmışdır. Kübraviliyin davamçıları günümüzdə Özbəkistanda yaşamaqdadırlar. Kübraviliyin vahid bir mərkəzi yoxdur.

**KÜFR** – ***Allahın varlığı və birliyini inkar etməkdir.*** İslam *məzhəblərinin* əksəriyyətinə görə *İslamdan* başqa bütün inanclar *küfr* hesab edilir. *Əhli-sünnənin* qəbul etdiyi iki böyük etiqadi məzhəbi *Əşərilik* və *Maturidilik* imanı qəlbin təsdiqi olaraq tərif edərlər. Tanınmış *kəlamcı (I) Qəzali* də bu fikri təsdiq etmişdir. Küfr isə qəlbin təsdiq etməməsi və ya qəlbin təsdiqinin inkar edilməsidir.

**KÜLEYNİ MƏHƏMMƏD** (329/941 ildə vəfat etmişdir) – ***görkəmli İslam alimi, mühəddis və fəqih olmuşdur.*** *Cəfəri məzhəbinin* inkişaf etməsində böyük səylər göstərmişdir. Onun tam adı Əbu Cəfər Məhəmməd ibn Yaqub Küleynidir. O, Rey

yaxınlığındakı Küleyn kəndində doğulmuş, həyatının çox hissəsini Rey və Qumda yaşamışdır, sonra Bağdada köçüb orada vəfat etmişdir.

Küleyni zamanının tanınmış alimlərindən dərs almışdır. *Kəlam (I)* və *fiqhə* aid çoxlu əsərlər yazmışdır. Onun ən tanınmış kitabı "Əl-Kafi fi Üsulid-Din" (Dinin əsasları barəsində yetərli kitab) adlı *hədislər* toplusudur. Bu kitabda 16 minə yaxın hədis toplanmış, onlar fiqhi məsələlər üzrə bölünərək sistemləşdirilmişdir. Bu Cəfəri məzhəbinin ilk hədis toplusu hesab olunur.

"Əl-Kafi fi Üsulid-Din" əsəri cəfəri məzhəbi ilahiyyatının inkişaf etməsində böyük rol oynamışdır. Bu əsərə çoxlu alimlər müraciət etmişdirlər. *İsna-əşərilər* Küleynini çox yüksək dəyərləndirirlər. Çünki o, *şiələrin* inandığı "gizli" imamın sonuncu təmsilçisi olmuş Əbülhəsən Əli ibn Məhəmməd Səmərinin dövründə yaşamış, ondan göstərişlər almışdır. Ancaq onun kitabında *zəif hədislərin* yer aldığını deyənlər də vardır.

**KÜRSİ** – bax: **ƏRŞ.**

**KÜTUBİ-SİTTƏ** – ***İslam alimləri tərəfindən səhihlilik dərəcəsinə görə qəbul edilmiş altı hədis toplusudur.*** Bunlar *Buxari* və *Müslimin* "Əs-Səhih", *Əbu Davud* və Nəsainin "Əs-Sünənül-Kübra", *Tirmizinin* "Əl-Camiül-Kəbir" və *İbn Macənin* "Kitabüs-Sünən" əsərləridirlər.

# Q

**QABİL VƏ HABİL** – ***dini rəvayətlərə görə Adəmin oğulları olmuşdurlar.*** Qabil kiçik qardaşı Habili həsəd üzündən öldürmüşdür. Beləliklə, dini ənənədə ilk *qətl* hadisəsi o zaman baş vermişdir. Qabilin həsədinin səbəbi *Allahın* Habilin qurbanını qəbul etməsi olmuşdur. Allah qardaşlara qurban kəsmək əmrini vermiş, bu əmri isə Habil daha səmimi yerinə yetirmişdir. Buna görə də, onun qurbanı Allah tərəfindən qəbul edilmişdir. Bunu görən Qabil qısqanclıq zəminində onu öldürmüşdür. Qabil həmin vaxt yeri eşən bir quş görmüş, o da, qardaşı Habili torpağı qazaraq orada gizlətmişdir (Qabil və Habil qissəsi *Quranın* 5: 27-31 *ayələrində* keçməkdədir).

**QADİYANİLİK** – ***İslamla Hind inanclarını, mistika və xristian qnostisizmini özündə birləşdirən sinkretik xüsusiyyətə malik məzhəbdir.*** Onları "əhmədilər" də adlandırırlar. *İslam* alimlərinin əksəriyyətinə görə qadiyanilər müsəlman hesab edilmirlər. Onlar İslam mədəniyyətinin nümayəndələri olmalarına baxmayaraq İslamın dini inanc əsaslarından kənara çıxdıqlarına görə İslamdan çıxmış sayılırlar.

Qadiyani *məzhəbinin* yaradıcısı Mirzə Qulam Əhməd Qadyani (1245/1835 – 1318/1908) olmuşdur. O, 1308/1889-cu ildə Hindistanın Pəncab vilayətinin kiçik kəndi olan Qadiyanda doğulmuşdur. İlk dövrlərdə Mirzə Qulam *İslamın* əsaslarına inansa da, ancaq sonra, *İsa peyğəmbərin* məzarının Kəşmirdə tapdığını qeyd etmişdir. Onun sözlərinə görə İsa *Fələstində* çarmıxa çəkilməmiş, Kəşmirə getmiş, orada vəfat etmişdir. Mirzə Qulam *İsanın* ruhunun ona keçdiyini iddia etmişdir.

Daha sonra Mirzə Qulam özünü *mücəddid və mehdi* elan etmişdir. O eyni zamanda, Tanrıdan *vəhylər* aldığını da iddia edərək özünü Tanrının yer üzündəki təcəllisi adlandırmışdır. Mirzə Qulam Tanrı təcəllisi və İsanın varisliyi ideyalarını Xristianlıqdan, eləcə də Hind inanclarından götürmüşdür. O, özünü Hind tanrısı olan Krişnanın təcəssümü də adlandırmışdır. İsanın sözlərini özünə

məxsus şəkildə *təfsir* edən Mirzə Qulam, artıq İslamda *cihadın* ləğv olunmasına dair bəyanatlar vermişdir.

Bundan başqa Mirzə Qulam özünü *Məhəmməd* peyğəmbərin təcəssümü kimi bütün xalqların yeni elçisi elan etmişdir. Ancaq İslama görə Məhəmməd *peyğəmbərdən* sonra peyğəmbər gəlməyəcək, çünki O, *Quranda* "Hatəmul-Ənbiya" (peyğəmbərlərin sonuncusu) adlandırılmışdır. Ancaq, Mirzə Qulam bu kimi *ayələrin* mənalarını başqa cür izah edirdi. Onun dediklərinə görə müxtəlif xalqlar üçün gələn hər bir yeni peyğəmbər Məhəmmədi tanıyıb onun *şəriətini* qəbul etməli, ona yeni həyat verməlidir. Onunun iddiasına görə Məhəmməd peyğəmbərin "Hatəmul-Ənbiya" adlandırılması heç də Tanrının digər insanlara peyğəmbərlik verməyəcəyi demək deyildir. Tanrı onlarda özünü həm göstərə, həm də onlara vəhylər göndərə bilər.

Qadiyanilər Mirzə Qulamın peyğəmbərliyini tanıyaraq onu başqa peyğəmbərlərdən daha üstün hesab edirlər. Mirzə Qulam *möcüzələr* göstərə bildiyini elan etmişdir. 1312/1894-cü ildə baş vermiş günəşin və ayın tutulmasını öz möcüzəsi kimi qələmə vermişdir.

Mirzə Qulama görə üç növ insan vardır: Onun gəlişinə inanıb ona uyanlar, onun peyğəmbər olması haqqında xəbəri olmayanlar və onun peyğəmbərliyini tanımayıb ona qarşı çıxış edənlər.

Qadiyanilər Mirzə Qulamın peyğəmbərliyini tanımayan müsəlmanları xristianlar və *yəhudilər* kimi *"əhli-kitab"* sayırlar. Onlar Məkkəyə *həcc ziyarətinə* getmirlər. Bunun əvəzində Mirzə Qulamın doğulduğu Qadiyan kəndinə gedərək orada ibadət edirlər.

Mirzə Qulam 1326/1908-ci ildə ölmüşdür. O bir çox əsərlərin müəllifi olmuşdur. Ölümündən əvvəl o, davamçılarına öz aralarından birin *xəlifə* seçilməsini tapşırmışdır. Qadiyənilərin ilk "xəlifələri" Mövla Nürəddin olmuşdur. Günümüzdə, Qadiyani mənsubları Pakistan, Hindistan, ABŞ, İngiltərə və başqa ölkələrdə yaşayırlar.

**QARUN** – ***Musa peyğəmbərin dövründə çoxlu var-dövlətə və böyük istedada sahib olmuş insandır (Quran, 28: 76-82).*** *Allah* ona çoxlu var-dövlət və böyük istedad vermişdir. Ancaq bunların qarşılığında o, Allaha şükürlər etməmiş, təkəbbür sahibi olmuşdur. Qarun iddia edirdi ki, o var-dövlətini yalnız öz bacarığının nəticəsində əldə etmişdir. O, *Musa peyğəmbərin* nəsihətlərinə də əhəmiyyət verməmişdir. Buna görə də Allah, onu var-dövləti ilə birlikdə yox etmişdir.

**QAZİ (I)** – ***din və müqəddəs amallar uğrunda düşmənlə döyüşən müsəlmandır.*** *İslam* tarixinin ilk dövrlərindən başlayaraq din uğrunda müqəddəs müharibələr aparılmışdır. İslama görə *Məhəmməd peyğəmbərlə* eyni cəbhədə İslam idealları uğrunda döyüşən səhabələr, eləcə də sonrakı dövrlərdə din uğrunda mübarizə aparan müsəlmanlar qazi hesab olunurdular.

Qazilər türk xalqlarının tarixində də çox böyük rol oynamışdırlar. Türklər qaziləri "alplar" adlandırırdılar. III/IX əsrin sonlarında Xorasanda, eləcə də müsəlman dünyasının digər yerlərində qazilər dəstələri yaranmışdır. Onlar ölkə ordusunun tərkibində ən döyüşkən qruplar idilər. Qazilər Bizans imperatorluğuna qarşı döyüşlərdə, Anadolunun alınmasında olduqca böyük səylər göstərmişdirlər.

VI/XIII-VII/XIV əsrlərdə Səlcuqlu imperiyası dağıldıqdan sonra Anadoluda qazilər hərəkatının nəticəsində bir-neçə bəyliklər yaranmışdır. Bunlardan biri olan Osmanlı bəyliyi sonralar güclənərək güclü *Osmanlı* imperiyasına çevrilmişdir. Səlcuqluların hakimiyyəti dövründə qazilər "Qaziyani-Rum" (Alp-Ərənlər) adlanırdılar. Alp (Qazi) sözü döyüşçünün adından öncə söylənilirdi

(Alp Arslan, Qazi Məhmət kimi). Qazilər hərəkatı İslam dünyasının digər yerlərində də olmuşdur. Məsələn, İspaniyada rekonkista zamanı xristianlara qarşı vuruşmuş Şimali Afrikadan gəlmiş müsəlman döyüşçüləri də qazilər adlandırılırdılar.

**QAZİ (II)** – ***şəriət qanunu ilə məhkəmə işlərini icra edən şəxsdir.*** Ənənəyə görə qazi hökmləri *fiqhə* əsaslanaraq verməlidir (Buna dair *Quranın* 38: 26, 5: 49, 5: 42, 4: 105 kimi ayələrini dəlil kimi gətirirlər). Rəvayətlərdə *İslam* tarixinin erkən dövrlərində qazi vəzifəsini yalnız *Məhəmməd* peyğəmbər icra edirdi. Müsəlman *icması* çoxaldıqca mübahisəli məsələləri həll etmək vəzifəsini o, həm də *Əli ibn Əbu Talib, Əbu Bəkr, Ömər ibn Xəttab, Muaz ibn Cəbəl* kimi yaxın səhabələrə də həvalə etmişdir. Ömərin xəlifəliyi dövründə hakimlərin əksəriyyətini o özü təyin edərək *Xilafətin* müxtəlif bölgələrinə göndərilmişdir.

İlk dövrlərdə qazilər xalqın mübahisəli məsələlərini *məscidlərdə* həll edirdilər. Sonra isə bu məhkəmələr xüsusi yerlərdə keçirilirdi. *Əməvilərin* hakimiyyəti dövründə qaziləri xəlifələr ya da onların bölgələrdəki canişinləri təyin edirdilər. Abbasi xəlifələrinin dövründə isə ilk dəfə olaraq baş qazilik vəzifəsi yaradılmışdır. Bundan sonra məhkəmə işləri, eləcə də hakimlərin seçilib yerlərə göndərilməsinə xüsusi dövlət qurumu baxırdı. Xilafətin ilk baş qazisi *Hənəfi məzhəbinin* təmsilçisi *Əbu Yusif* olmuşdur. *Kordova xilafətində* də buna bənzər ölkə qurumları yaradılmışdır.

Fiqhə görə azad, yetkinlik yaşına çatmış, bilikli, fiziki problemləri olmayan, sağlam düşüncəli hər bir müsəlman qazi ola bilər. Bundan başqa fiqhi məzhəblərin əksəriyyətinin *şərtlərinə* görə yalnız inanclı və ədalətli adam qazi vəzifəsini icra edə bilər. Fasiqlər hakim ola bilməzlər. Eyni zamanda, o məzhəblərin şərtlərinə görə qazi kişi olmalıdır. Buna dəlil kimi onlar bu Quranın 4: 34 *ayəsini* gətirirlər. Ancaq, Hənəfi məzhəbində və bəzi *fəqihlərin* fikirlərinə görə, bu şərtlərə əməl etmək *vacib* deyildir. Buna dair Məhəmməd *peyğəmbərin* həyat yoldaşı *Aişənin* hüquqi hökmlər verdiyini dəlil gətirirlər. Qazilərin *ictihad* etməsi barəsində fərqli yanaşmalar olmuşdur. Bəzi ilahiyyatçılar hesab edir ki, qazi yalnız *müctəhid* olmalıdır. Ancaq digərlərinə görə bu vacib deyildir. Qazilər hər hansı bir başqa müctəhidin hökmlərinə istinad edərək hökm verə bilərlər.

**QEYB** – ***duyğu orqanları ilə duyulmayan, insan əqli ilə dərk edilməyən, yalnız Allah tərəfindən bilinən gizli şey və ya anlayışdır.*** İlahiyyatçılara görə hər şeyi mütləq bilən Allahdır. Qeyb anlayışı yalnız insanlar üçündür. Sufizmdə qeyb ikiyə ayrılmışdır. Birinci “qeyb-i vücudi” (aləm-i mələkut) adlanır, hansı ki, insanlardan bəziləri bu aləm haqqında məlumata sahib ola bilərlər. İkinci qeybə “qeyb-i adəm” deyilir ki, bunu da yalnız Allah bilir. “Qeyb-i məknun”a gəlincə isə bu qorunmuş qeyb olub, mahiyyətini Allahdan başqası bilməz. Bəzi İslam *məzhəb* və cərəyanlarında qeybə böyük əhəmiyyət verilir. Onların təliminə görə Allah qeybi *təriqət şeyxləri* və seçilmiş insanlara bildirir. *Şiəlikdə* imam Mehdinin qeybdə olduğuna inanılır.

**QEYB VƏ HÜZUR** – ***sufi ənənəsində mənəviyyat yolçusunun özünü itirməsi, sonra isə həqiqəti özündə tapmasıdır.*** *Allahın* çoxsaylı təzahürlərini duyan və dərk edən sufi öz “*mən*”ini itirir, sonra isə Allahda əriyərək Onda yox olur. Beləliklə, mənəviyyat yolçusu hüzura qovuşur.

**QEYBƏT** – ***hər hansı bir şəxsin arxasın-ca onun xoşuna gəlməyəcək şəxsi həyatına aid hər hansı bir hadisəni və ya şeyi başqalarına danışmasıdır.*** *İslam* əxlaqında kiminsə arxasınca danışmaq *günah* əməllərdən hesab edilir. *Quranın* “Hücirat”

surəsinin 12-ci ayəsində deyilir: "Bəziniz bəzinizin qeybətini etməsin (bir-birinizin arxasınca pisliyinizi söyləməyin!). Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı? Siz buna nifrət edərsiniz". Bir *hədisdə* deyilir: "Qeybəti dinləyən şəxs, qeybət edənlə şərikdir." Bütün bunlardan görünür ki, İslam qeybəti pisləmiş, hətta böyük günahlardan biri kimi dəyərləndirmişdir.

**QEYSANİLƏR** – ***Əli ibn Əbu Talibin oğlu Məhəmməd ibn Hənəfiyyənin imamətini qəbul edən dini cərəyanın ardıcılları olmuşdurlar.*** Bir çox mənbələrdə ifrat şiə *təriqəti* kimi qeyd edilir. Təriqətin yaranması Muxtar ibn Əbu Übeyd Səqəfinin fəaliyyəti ilə bağlıdır. Onun ləqəblərindən biri "Qeysan" olmuşdur. Digər məlumata görə bu adı Məhəmməd ibn Hənəfiyyənin oğlunun tələbələrindən biri daşıyırdı. Qeysanilər müsəlman ənənəsində ifrat təriqətin mənsubları hesab olunsalar da, onları digər dini cərəyanlardan fərqləndirən xüsusiyyətlər vardır. Belə ki, onlar *Əli ibn Əbu Talib* və onun soyundan olan imamları tanrılaşdırmamış, onları günahsız və müqəddəs insanlar hesab etmişdirlər. Bu səbəblə də, onlara tabe olmağın vacibliyini iddia etmişlər. Onların inanclarına görə imamlar Tanrının dünyadakı təcəllisidirlər. Onlar imamları *peyğəmbərlərlə* bir tuturdular.

Şiə *məzhəblərinin* əksəriyyətində olduğu kimi qeysanilər də gizli imamın zühurunu gözləyirdilər. Zühurunu gözlədikləri imam isə Məhəmməd ibn Hənəfiyyə idi. Qeysanilərin bir hissəsi hesab edirdi ki, o ölmüşdür, ancaq yenidən dirilib *dünyaya* təkrar xilaskar kimi qayıdacaqdır. Başqa bir qrup qeysanilər isə onun ölməsi xəbərini inkar etmiş, *qeybə* çəkildiyini iddia etmişdirlər. Onların inanclarına görə Allah imamlara verdiyi ilahi əmrləri başqaları ilə əvəz edə bilər. Bəzi tarixçilərə görə onlar insanın ölümündən sonra onun ruhunun başqa bir bədənə köçməsinə inandıqlarını qeyd edirlər.

Qeysanilər sonralar bir neçə təriqətlərə parçalanmışdırlar. *İslam* tarixçilərinə görə onların arasında iki əsas qol olmuşdur: Muxtarilər (Muxtar Səqəfinin tərəfdarları) və *Haşimilər* (Məhəmməd Hənəfiyyənin oğlu Əbu Haşimin tərəfdarları). Həşimilər də öz aralarında bir neçə qola parçalanmışdırlar. Bəyanilər Əbu Haşimdən sonra *imamətin* Bəyan ibn Siman Nəhdiyə keçdiyinə inanırdılar. Rizamilər isə Əbu Haşimdən sonra imamətin *Abbasilər* soyuna keçdiyini iddia etmişdirlər. Onlara Abbasi *şiələri* də deyirlər. Günümüzdə, Qeysani dini cərəyanına mənsub insanlar mövcud deyildir.

**QƏBİR** – bax: **MƏZAR.**

**QƏBZ VƏ BAST** – ***sufilikdə ruhun cəzalanma qorxusu ilə sıxılması, sonra mükafat alma ümidi ilə genişlənməsi hallarıdır.*** Qəlbin *günahlar* səbəbi ilə cəzalanması qorxusu ilə sıxılması sufi ənənəsində qəbz adlanır. Bu hal sufinin mənəviyyat yolçuluğunda ilk vaxtlarda baş verdiyi *haldır.* Mənəviyyat yolçuluğunda irəliləyən sufi müəyyən yol qət etdikdən sonra rahatlığa qovuşur. Sufinin bu halına sufi ənənəsində "bast" deyilir. Ancaq, sonrakı irəliləmiş məqamlarda sufidə hər iki hal müşahidə edilə bilməz. Məsələn, İbn Arabi bastı sufinin hər şeyə təsir edə bilmə, əşyaların isə sufiyə təsir edə bilmədiyi hal kimi dəyərləndirir.

**QƏDƏR** – bax: **QƏZA VƏ QƏDƏR.**

**QƏDƏRİLƏR** – i***nsanın iradə azadlığına üstünlük verən dini cərəyanın mənsubları olmuşdurlar.*** Taleyi mütləqləşdirən *cəbrilərə* qarşı çıxış edirdilər. Qədərilərə görə insan etdikləri əməllərdə mütləq azadlığa malikdir və burada *Allahın*

iştirakı yoxdur. Allah hər hansı törədilən iş haqqında yalnız sonra bilik əldə edir. Bu kimi baxışlarına görə qədərilər insanın mütləq azadlığı tərəfdarları kimi tanınmışdırlar.

*Qəza* və *qədər* haqqında fəlsəfi fikirlər *İslamdan* öncəki dövrlərdə də mövcud olmuşdur. Çünki, insanlar hər zaman şərin Tanrı tərəfindən yaradılması haqqında düşünmüşlər. Bu istiqamətdə insanlar özlərinə dünyada mövcud olan şərin olmasına görə Tanrının məsuliyyət daşıyıb-daşımamağı haqqında sual verilmişdirlər. Güman edilir ki, qədəriliyin İslam ənənəsində ortaya çıxması İslamı qəbul etmiş xristianların fəaliyyəti ilə bağlıdır. Buna görə də, qədəriliyə qarşı çıxanlar onun xristianlığın təsiri ilə formalaşan dini cərəyan olduğunu qeyd edirdilər. Sonra bu təlimin ideyalarını Məbəd Cuhani və Qeylan Dəməşqi adlı ilahiyyatçılar inkişaf etdirmişdirlər. Ancaq, hakimiyyətə yaxın olan dini dairələr qədəriliyi rədd edirdilər. Buna görə də, Məbəd Cuhanini *Əməvilərin* İraqdakı valisi Həccac edam etdirmişdir. Təqiblərə baxmayaraq Əməvilər dövründə qədərilik Xilafətin bir çox yerlərində yayılmışdır. Çünki, xeyir və şər qarşıdurması İslamdan əvvəlki dövrlərdən bu yerlərdə, xüsusən də Ön Asiyada geniş yayılmışdır. Sonra bu ideyalar Antik Yunan düşüncəsi və inancları ilə qovuşaraq "qnostik" (gizli bilik) adlanan doktrinalara çevrilmişdir. Bu səbəbdən də, bu təlimləri bilən və İslamı qəbul etmiş insanlar arasında qədərilik böyük rəğbətlə qarşılanmışdır.

**QƏDİRİLƏR** – ***tanınmış sufi təriqətlərindən birinin davamçılarıdırlar.*** Onlar *Cüneyd Bağdadinin* "ayıq halda" mənəvi yolu keçmək ideyasına üstünlük verirdilər. *Təriqətin* adı Əbdülqədir Gilani (562/1166-cı ildə vəfat etmişdir) ilə bağlıdır. O, Xəzər dənizinin güneyində yerləşən Gilanda doğulmuşdur. Rəvayətlərə görə Əbdülqədir Gilaninin soyu *xəlifə* Əli Əbu Talibə qədər uzanır. Əbdülqədir dini elmlər üzrə təhsilini Bağdadda almışdır. O, *fəqih*, *mühəddis* və *təfsirçi* kimi bütün *İslam* dünyasında tanınmışdır. Əbdülqədir Gilani *zahidliyə* meyl edərək günlərini *Allaha* ibadət etməklə keçirirdi. Ancaq, sonra mövqeyini dəyişərək yenidən elmlə məşğul olmağa başlamışdır. Əbdülqədir *fiqhdə hənbəli məzhəbinə* bağlı olduğundan, hənbəli fiqhinə dair bir çox əsərlər ərsəyə gətirmişdir. Qələmə aldığı bu əsərlər ona nüfuz qazandırmışdır. O, 50-yə qədər kitabın müəllifi hesab olunur.

Tarixi qaynaqlarda Əbdülqədir Gilaninin sufi olub-olmamağı haqqında dəqiq məlumat yoxdur. Ancaq ondan sonra formalaşan və onun adı ilə bağlı olan sufi təriqəti sonra müsəlman dünyasında ən geniş yayılan təriqətlərdən biri olmuşdur. Onun adı ilə bağlı olan Qədirilik Yaxın və Uzaq Şərqdə, Afrikada, İspaniyada və başqa yerlərdə geniş yayılmışdır. Osmanlı imperiyasında isə qədiriliyi "Pir əs-Sani" (ikinci müəllim) adlandırılan İbn Əşrəf Rumi (874/1470-ci ildə vəfat etmişdir) yaymışdır. Bu təriqətə girmək üçün *beyət* mərasimindən keçmək lazımdır. Burada sufilər səsli *zikrlər* edirlər. Təriqətin mənəvi *silsiləsi* isə *Əli ibn Əbu Talibə* yüksəlir. Qədiriliyin bir necə qolu vardır.

**QƏDR** – ***Ramazan ayının son gecələrindən biri belə adlanmaqdadır.*** Bu gecə Allahdan Məhəmməd *peyğəmbərə* ilk *vəhy* nazil olunmuşdur. *Quranın* 97-ci surəsi "Qədr" adlanır. Qədr gecəsi ən müqəddəs gecə hesab edilir. Rəvayətlərə görə bu gecədə *mələklər* yer üzünə enərək Allahın əmri ilə hər bir insanın duasını qəbul edir. Buna görə də müsəlmanlara bu gecə çoxlu *dualar* etmək məsləhət görülür. Bu gecə müsəlmanların etdikləri bütün ibadətlərin Allah tərəfindən qəbul edilməsi haqqında da rəvayətlər vardır. Hesab olunur ki, bu gecə edilmiş ibadətlər aylar boyu edilən ibadətlərdən daha fəzilətlidir.

Bununla belə, müsəlman ənənəsində Qədr gecəsinin *Ramazan* ayının hansı tarixinə düşməsi məlum deyildir. Ancaq bəzi rəvayətlərə əsaslanaraq qeyd edirlər ki, Qədr gecəsi Ramazan ayının son on günlərinin tək günlərinə düşür. Bəzi rəvayətlərdə onun Ramazan ayının iyirmi yeddinci gecəsinə düşdüyü iddia edilir. Buna görə müsəlmanların çoxu Ramazan ayının iyirmi yeddinci gecəsini Gədr gecəsi kimi qeyd edirlər. Ancaq, başqa rəvayətlərdə isə Qədr gecəsinin Ramazan ayının 19, 21 və 23-cü gecələrindən birinə təsadüf etdiyi (ənənədə bunlara Əhya gecələri deyilir) haqqında məlumatlar vardır. Buna görə də, müsəlmanlar Ramazan ayının hər gecəsini, xüsusən də son on gününü Qədr gecəsi günü kimi qeyd etməyin vacibliyini vurğulayırlar.

**QƏLƏNDƏRİLƏR** – ***yoxsulluq içində yaşayan, dilənçiliklə məşğul olan, şəriət qanunlarına əməl etməyi özlərinə vacib bilməyən sufi təriqətlərindən birinin mənsublarıdırlar.*** Onlar özlərini müsəlman hesab etsələr də, dini ayin və ibadətləri yerinə yetirmirdilər. Heç bir əmək fəaliyyəti ilə məşğul olmayan qələndərilər dilənçiliklə məşğul olurdular. Qələndərilərin öz şəxsi mülkiyyətləri də olmamışdır. Onlar qeyri-adi görkəmləri ilə insanlardan seçilirdilər. Onlar saçlarını, qaşlarını, kirpiklərini qırxmış, qısa *xirqə*, eləcə də iri tüklü papaqlar geyinirdilər. Onlar boyunlarından ağır bəzək əşyaları asıb, barmaqlarına iri üzüklər taxırdılar. Bu *təriqətin* mənsubları yalnız öz *təkkələrində* yaşayırdılar.

Qələndərilərin dünyagörüşü, eləcə də həyat tərzinə hinduizm və buddizmin təsiri olmuşdur. Bu təriqətin yaradıcısı monqol yürüşləri dövründə Səvadan Dəməşqə gəlmiş, fars əsilli Cəmaləddin Məhəmməd Yunus Səvaci (630/1232-ci ildə vəfat etmişdir) olmuşdur. Qələndərilik *İslam* dünyasının bir çox yerlərində yayılmışdır.

**QƏNİMƏT** – ***müharibə zamanı ələ keçirilmiş və beş yerə bölünən sərvətdir.*** Qənimətin götürülməsi haqqında *Quranda* (8: 1) ayə vardır. Qənimətin dörd hissəsi birbaşa müharibədə iştirak edən döyüşçülərə, bir hissəsi isə *Məhəmməd* peyğəmbərə, onun *əhli-beytinə*, yoxsullara və yetimlərə verilirdi. *Peyğəmbərdən* sonra bu hissə *beytülmala* verilib dövlətin ehtiyacları üçün xərclənirdi. Quranın "Həşr" surəsinin 6 və 7-ci *ayələrində* qənimət mənasında "*fey*" sözü istifadə edilmişdir.

**QƏRMƏTİLƏR** – ***ismaililərə yaxın olan dini cərəyanın mənsubları olmuşdurlar.*** III/IX əsrdə qərmətilər Abbasi xilafətini sarsıdan böyük üsyan qaldırmışdırlar. Qərmətilər hərəkatının başçısı daha çox Qərmət kimi tanınmış Həmdan ibn Əşəs olmuşdur. Bu dini cərəyanın adı məhz onun adı ilə bağlıdır. Qərmətilərin dini təlimi və dəvət metodları bütövlükdə *ismaililikdə* olduğu kimi idi. Qərməti dini cərəyanın yaranma tarixi Abbasi xilafətində ismaili dəvətinin fəallaşması dövründən başlamışdır. Tanınmış ismaili dəvətçisi Hüseyn Əhvazi İraqa gedərək orada ismaili olmuş Həmdan ibn Əşəslə (Qərmətlə) tanış olmuşdur. Hüseyn Əhvazi öləndən sonra Həmdan Qərmət onun yerini tutmuşdur. O, Kufə şəhəri və onun yaxınlığında yaşayan tərəfdarları üçün hərəkatın mərkəzini yarada bilmişdir. Eləcə də o, Xilafətin müxtəlif bölgələrinə dəvətçilərini göndərmişdir. Onlardan ən tanınmışlarından biri qərmətiliyin ideoloqu Əbdan olmuşdur. Qərmətilərin digər tanınmış dəvətçiləri isə hicrətin 289-cu ilində qərmətilərin üsyanına başçılıq etmiş Zikrəveyh ibn Mihrəveyh və Əbül-Fəvariz olmuşdurlar.

Öncə qərmətilər ismaililələrin sırasında fəaliyyət göstərirdilər. Ancaq, sonra onlarla münasibətlərini kəsmişdilər. Bəzi müsəlman tarixçilərə görə onlar *ismaililəri* əslində dəvətin Əli ibn Abu Talibin soyunun xeyrinə

deyil, Abdullah ibn Məymun Qaddah adlı başqa bir şəxsin xeyrinə aparılmasında günahlandırmışlar.

Qərmətilər hərəkatının tərəfdarları onların mübarizəsi üçün böyük məbləğdə vəsaitlər ayırırdılar. Bunun sayəsində onlar silahlanaraq xalqın yoxsul təbəqəsini öz tərəflərinə çəkə bilmişdirlər. Ancaq, qərmətilərin arasında birliyin olmaması səbəbindən, onlar bir neçə bir-biri ilə mübarizə aparan cərəyanlara parçalanmışdırlar.

Qərmətilər bir zamanlar güclənərək Yaxın Şərqdə bir neçə dövlət də qura bilmişdirlər. Onlar *Abbasilərə* və başqa müsəlman hökmdarlarına qarşı savaşırdılar. Hicrətin 316-cı ilində qərmətilər *xəlifə* Müqtədinin ordusunu məğlub etmiş, bir il sonra isə *Məkkəni* ələ keçirə bilmişdilər. *İslam* tarixçiləri qeyd edirlər ki, onlar orada çoxlu zəvvarı qətlə yetirmişdirlər. Daha sonra onlar *həcərül-əsvəd* daşını *Kəbənin* divarından çıxararaq özləri ilə aparmışdırlar. Beləliklə, Qara daş hicrətin 339-cu ilinə qədər 22 il qərmətilərdə qalmışdır. Sonra qərmətilər onu bölünmüş halda geri qaytarmışlar. Bundan başqa onlar hicrətin 337-ci ilinə qədər zəvvarların *həccə* getməsinə əngəllər törətmişdirlər. Ancaq, bu qarşıdurmalarda uğur qazanmaqlarına baxmayaraq qərmətilər müəyyən vaxtdan sonra zəifləmişdirlər. Onlar hakimiyyətlərini yalnız Bəhreyn və Yəmmamənin bir hissəsində saxlaya bilmişdirlər. Hicrətin 462-ci ilində o bölgələrdə də onların hakimiyyətinə Səlcuqlular son qoymuşdur. Bu hadisələrdən sonra qərmətilər dini cərəyanı tarixdən silinmişdir.

**QƏSB** – ***başqasının əmlakını, malını və mülkünü zorla ələ keçirmək və ya mənimsəməkdir.*** *İslam* hüququna görə qəsb *haram* əməllərdən hesab edilmişdir. Zorla əldə edilmiş hər bir şey sahibinə qaytarılmalı və ya onun əvəzi ödənilməlidir.

**QƏTL** – ***hər hansı bir şəxsin həyatına qəsd edərək öldürməkdir.*** *İslam* hüququnda qəsdən insanı öldürmək ən böyük *günahlardan* hesab olunur (Quran, 5: 32; 4: 93). Qətlə yetirilmiş insanın ən yaxın qohumları qatilin öldürülməsini və ya bunun əvəzində *diyətin* ödənilməsini tələb edə bilərlər (Quran 2: 178-179). İslam *şəriətinə* görə qatil yalnız məhkəmənin qərarı ilə cəzalandırıla bilər.

**QƏYYƏ** – ***Quran təfsirlərinə görə cəhənnəmin dibində irinlə dolu dərin quyudur.*** Burada *namazı* tərk edərək gününü əyləncələrdə, eyş-işrətdə keçirən *fasiq* müsəlmanlar cəzalandırılacaqlar. Rəvayətlərə görə *mürtəd* və *münafiqlər (II)* də qəyyədə olacaqdırlar.

**QƏZA (I)** – ***namazların ikinci və sonuncu rükətlərində oturaraq təşəhhüd duasının oxunmasıdır.*** Bəzi ilahiyyatçıların fikrincə dörd rükətli *namazların* ikinci *rükətində* oturmaq vacibdir. Əgər, namaz qılan müsəlman bunu etməyibsə, o zaman namazın sonunda *səcdeyi-səhvi* yerinə yetirməlidir. Bəzi ilahiyyatçılar qəzanı *müstəhəb* əməl hesab etmişdirlər. Namazın axırıncı rükətindəki qəza isə bütün *məzhəblərdə* vacib və ya *fərz* hesab olunur. Cəfərilərə görə qəza namazın *rüknü* deyildir. *Sübh* və digər iki rükətli namazların sonuncu rükətlərindəki qəza sonuncu oturuş hesab edilir.

**QƏZA (II)** – ***hər hansı bir ibadətin yerinə yetirilmə müddəti bitdikdən sonra həmin ibadətin başqa bir vaxtda yerinə yetirilməsidir.*** Bu mənada "qəza" anlayışı müxtəlif dini ibadətlərin yerinə yetirilməsində mühüm rol oynayır. Məsələn, gündəlik *namazlar* və ya *Ramazan* ayının *orucu* öz vaxtında icra edilməyibsə, onlar *şəriətdə* müəyyən edilmiş başqa bir vaxtda yerinə yetirilə bilər.

**QƏZA VƏ QƏDƏR** – ***insanın yaradılmasından öncə onun Allah tərəfindən taleyinin müəyyənləşdirilməsi və təyin edilməsidir.*** *Kəlam (I)* məktəblərində insanın alın yazısı "qəza" və "qədər" anlayışları ilə ifadə edilir. "Qədər" sözü ölçü, həcm mənalarını ifadə edir (Bu söz *Quranın* 25: 2 və 54: 49 *ayələrində* keçməkdədir). "Qəza" sözü isə "həll etmək", "əmr", "qanun" mənalarında işlədilsə də, qəza insanın müəyyən vaxtda həyatında baş verəcək hadisələrdir (Bu söz Quranın 41: 12 ayəsində keçməkdədir).

Bir çox *İslam* aliminə görə qədər qəzadan daha geniş məna ifadə edir. Belə ki, qədər Tanrı qanunauyğunluğu və onun ölçüsü anlayışlarını əhatə edir. Qəza isə bu qanunauyğunluğa tabe olmağın təzahürü kimi dərk edilir. Bəziləri isə hesab edir ki, əksinə qəza daha geniş məna kəsb etməkdədir. *Allahın* dünyada baş verən bütün hadisələrdən xəbərdar olması, Onun sonsuz biliyinin göstəricisidir. Çünki, hər şey *dünyada* Allahın istəyinə uyğun baş verir. Qədər isə Allahın öncədən müəyyən etdiyi hər hansı bir hadisənin konkret bir zaman çərçivəsində reallaşmasıdır. O zaman qəza daha geniş məna kəsb edir.

*Sünnilər* üçün qəza və qədərə iman İslam dinin əsaslarından biri hesab edilir. Digər məzhəblərdə qəza və qədərə iman əqidənin əsasını təşkil etməsə də, əhəmiyyətli problemlərdən biri kimi qəbul edilir.

Bütün müsəlman ilahiyyatçılarına görə tale ilə bağlı məsələlər yalnız Allaha məlumdur və insan düşüncəsi onu dərk edə bilməz. Buna görə də, onlar bu məsələdə mübahisələrin aparılmasının əleyhinə çıxırdılar. Buna baxmayaraq orta əsrlər boyu bu problemlə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Belə ki, alın yazısı problemi *kəlamın (I)* ən çətin problemlərindən birinə çevrilmişdir. Bu məsələdə *Mütəzili* məktəbi çox əhəmiyyətli işlər görmüşdür. Onlardan başqa müxtəlif fəlsəfi məktəblər də qəza və qədər problemi ilə bağlı öz fəlsəfi düşüncələrini irəli sürmüşldürər.

Ancaq, ənənə tərəfdarları olan müsəlman çoxluğu bütün bu məktəblərin təlimlərini birmənalı qarşılamamışdırlar. Onların təsiri altında bu məsələ üzrə hər bir etiqadi məzhəb öz baxışlarını irəli sürməyə məcbur olmuşdur. *Maturidi* və Əşəri *kəlamçıları* da qəza və qədərə münasibət bildirmişlər. Quranın 57: 22, 9: 51 ayələrini təfsir edən bir çox İslam alimləri hesab edirlər ki, insan və digər varlıqların qəza və qədəri *ləvhull-məhfuzda* onların mövcud olmalarından çox əvvəllər yazılmışdır.

Kəlam tarixində qəza və qədərin insanın *iradə* azadlığı ilə yaxından əlaqəsinin olub-olmamağı haqqında qızğın mübahisələrin aparılması qeyd edilir. Bəzi kəlamçılar qəza və qədəri, digərləri isə insan azadlığını mütləqləşdirmişdirlər. Orta mövqeyi olanlar da olmuşdur. Bunun nəticəsində *cəbrilər* və *qədərilər* kimi müxtəlif dini cərəyanlar yaranmışdır. Cəbrilər insanda azad iradəni inkar edirdilərsə, qədərilər bunun əksi olaraq iradə azadlığına böyük əhəmiyyət verirdilər. Bu baxımdan müəyyən məqamlarda *mütəzililərin* baxışları qədərilərlə üst-üstə düşürdü.

Bunların arasında orta və barışdırıcı mövqedə tutmağa cəhd edən, ancaq tənqidçilərin fikrincə buna nail ola bilməyən *maturidi* və *əşəri* ideyaları da inkişaf edərək müsəlmanlar arasında geniş yayılmışdır.

**QƏZALİ MƏHƏMMƏD** (450/1058 – 505/1111) – ***tanınmış orta əsr müsəlman ilahiyyatçılarından biri olmuşdur.*** O, İranın Tus şəhərinin yaxınlığında yerləşən Qəzal kəndində doğulmuşdur. Məhəmməd Qəzali *Şafii* hüquq *məzhəbinin* mənsubu olmuş, hüccətül-islam adını qazanmışdır. Məhəmməd Qəzali ilk təhsilinə Tusda başlamış, sonra Nişapura gedərək Əşəri kəlamçısı

imam Hərameyn Əbu Məali Cüveyninin tələbəsi olmuşdur. Qəzali ondan *hədis, təfsir, kəlam (I),* məntiq və *fiqh* elmlərini öyrənmişdir. Cüveynidən başqa Qəzali öz dövrünün məşhur ilahiyyatçıları olmuş Əbu Hamid Rəzəqanidən, Əbu Hüseyn Məvardidən, Əbu Nəsr İsmailidən, Əbu Yusif Nəssacdan dərs almışdır.

Səlcuqlular dövlətinin vəziri olmuş Nizamülmülk çox bilikli insan olmuşdur. O, elmə və irfana böyük önəm vermiş, alimləri himayə etmişdir. Nizamülmülk Qəzalinin istedadı haqqında eşidib, onu Bağdada dəvət etmişdir. Təhsilini bitirən Qəzali Bağdada gedərək burada fəaliyyətini davam etdirmiş, müxtəlif *elm* məclislərində biliyini və bacarığını nümayiş etdirmişdir. *İslam* alimləri arasında böyük nüfuza sahib olmuşdur.

Nizamülmülk Məhəmməd Qəzalinin istedadını yüksək dəyərləndirərək "Nizamiyyə" mədrəsəsinin idarəçiliyini ona tapşırmışdır. Burada Qəzali çoxsaylı tələbələr yetişdirmiş və elmi yaradıcılıqla məşğul olmuşdur. Məhəmməd Qəzali müxtəlif dini *təriqətlərin* təlimlərinin tənqid edilməsinə böyük yer vermiş və bu mövzuda bir neçə kitab da yazmışdır.

Məhəmməd Qəzali Antik Yunan və Roma *fəlsəfəsini* dərindən öyrənərək İslam dinin əsaslarını tənqid edən və ya öz fəlsəfi metodları ilə onları izah edən filosoflarla elmi polemikalar aparmışdır. Bu məqsədlə Qəzali bir neçə əsərdə qələmə almışdır. Bu əsərlərdən ən məşhuru "Təhəfutul-Fəlasifə" (Filosofların təkzib edilməsi) kitabı olmuşdur.

489/1095-ci ildə Qəzali mədrəsədə işlərini qardaşı Əhmədə tapşıraraq səfərə çıxmış və sonra elmi fəaliyyətini davam etdirmişdir. Dəməşqdə olarkən iki il ərzində ən tanınmış əsərlərindən biri olan "İhya Ülum əd-Din" (Dini elmlərin dirçəldilməsi) kitabını yazmışdır. Bu kitabda Qəzali sufilərin mənəvi təcrübələri ilə mühafizəkar İslam arasındakı ziddiyyətləri ortadan qaldırmaq istəmişdir. Bundan başqa Qəzali *Qüdsdə* müxtəlif təriqətlərə qarşı "Mafsəlül-Xilaf" (Qarşıdurmanın aradan qaldırılması), "Cavabül-Məsail" (Problemlərə cavablar) kimi əsərlərini yazmışdır. Məhəmməd Qəzali oradan *həccə* getmiş, sonra isə 1106-cı ildə Bağdada qayıdıb "Nizamiyyə" mədrəsəsində fəaliyyətini davam etdirmişdir. Sonra isə doğulduğu Tus şəhərinə gedərək burada batinilər təriqətinə qarşı "Dərcül-Mərkum" (Təkzib kitabı), eləcə də siyasətə aid "Nəsihətül-Mülük" (Dövlət başçılarının nəsihət edilməsi) əsərini yazmışdır.

Daha sonra Məhəmməd Qəzali Səlcuq vəziri Fəxrülmülkün dəvəti ilə Bağdada qayıdaraq, yenə də "Nizamiyyə" mədrəsəsində müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. Burada o, *sufilik* haqqında "Mişkətül-Ənvər" (İşıq yeri) kitabını yazmış və burada da öz sufi *təkkəsini* yaratmışdır. Daha sonra o, fiqhə aid "Əl-Müstəsfə" (Seçilmişlər) adlı kitabını yazmışdır. Qeyd etmək lazımdır ki, burada *şəriətlə* bağlı məsələlər açıqlanmışdır. O dövrdə yazdığı "İlcəmül-Əvam ən İlmül-Kəlam" (Rəiyyəti kəlamdan çəkindirmək) adlı kitabında Qəzali "Doğru yolda olan ulu *sələflərin* yolu" ilə gedərək doğru inanca yiyələnmənin vacibliyini vurğulamışdır.

Rəvayətlərə görə Məhəmməd Qəzali müxtəlif elmlər üzrə 1000-ə qədər kitabların müəllifi olmuşdur. Əbu İshaq Şirazinin "Xəzain" (Xəzinələr) əsərində onun 400-ə qədər kitabının adı çəkilmişdir. Bu kimi zəngin fəaliyyətinə görə Qəzalini *mücəddid* adlandıranlar da olmuşdur.

**QƏZAVAT** – ***xarici təcavüzə qarşı silahlı müqavimət və ya din uğrunda aparılan savaşdır.*** *Quranda* zərurət olduğu zaman din uğrunda savaşmaq əmr edilir (2: 216). *İslamın* ilk dövrlərində *Məhəmməd* peyğəmbərin də iştirak etdiyi böyük və ya kiçik müharibələrə qəzavat deyilirdi. İslam

tarixçilərinə görə Məhəmməd *peyğəmbər* 27 döyüşdə iştirak etmişdir. Onun iştirak etmədiyi hər bir döyüş isə alimlər tərəfindən "səriyə" adlandırılmışdır.

Sonralar isə müsəlmanların düşmənlərinə qarşı apardıqları bütün müharibələrə "qəza" və ya "qəzavat" deyirdi. İslamda müharibə etmənin qayda və *şərtləri* vardır.

**QƏZF** – ***hər hansı bir şəxsin digər bir qadına yad kişi ilə cinsi əlaqəyə girməsi haqqında böhtan atmasıdır.*** *Qurana* (24: 23) görə bu çox ağır *günahdır*. Böhtan ilə qəzf eyni mənadadır. Lüğətdə "yalan söyləmək", "uydurmaq" kimi mənalara gələn böhtan (*iftira* etmək), əxlaqi termin olaraq hər hansı bir şəxsə işləmədiyi bir günahı ona aid etməkdir. Hüquq və əxlaqda böhtan yerinə daha çox ifq və böhtan terminləri, *zina* iftirası üçün də qəzf sözü istifadə edilir. Hər hansı bir qadının yad kişi ilə cinsi yaxınlıq etməsini iddia edən şəxs bunu görən dörd *şahidi* gətirə bilməzsə 80 şallaq vurulmaqla cəzalandırılır (Quran, 24: 4).

**QIZILBAŞLAR** – ***Səfəvi sülaləsinin başçılığı altında Anadolu və Azərbaycanın köçəri türk qəbilələrinin arasında formalaşan ittifaq olmuşdur.*** Onlar *şiə* imamlarının rəmzi olan 12 qırmızı sarğılı papaqlar geyindiklərinə görə belə adlanmışdırlar. Səfəvilər sufi *təriqətinin* başçıları idilər. Bu təriqətin adı 650/1252-ci ildə Ərdəbil şəhərində doğulmuş Səfiəddinlə bağlıdır. O, Azərbaycan türkü olmuşdur. Səfiəddin dini elmləri doğma şəhərində almış, sonra isə 20 yaşında Şiraza getmiş, orada dövrünün tanınmış ilahiyyatçılarından dərs almışdır. *Sufiliyi* isə Gilanda Sührəvərdi təriqətinin tanınmış *şeyxi* Hacəddin Zahididən öyrənmiş, sonra onun qızı ilə evlənmişdir. Hacəddinin çoxlu davamçıları olmuşdur. 693/1294-cü ildə onun ölümündən sonra Səfiəddin onun yerini tutaraq Səfəvilər təriqətini yaratmışdır. Ardıcıllarının arasında daha çox türklərin olduğu bu təriqət Anadolu və Azərbaycanda geniş yayılmışdır.

Şeyx Səfiəddin 734/1334-cü ildə vəfat etmişdir. Onun ölümündən sonra Səfəvi təriqətinə onun soyundan olmuş Sədrəddin Musa (734/1334 – 793/1392) və Xoca Əli (793/1392 – 832/1429) başçılıq etmişdirlər. İbrahim Şeyx-şahdan (832/1429 – 850/1447) başlayaraq Səfəvilər siyasətə qatılmışdırlar. Səfəvilərin şiə təriqətinə çevrilməsi İbrahim Şeyx-şahın oğlu Cüneyddən başlamışdır. O, öz ətrafına bu ərazilərdə yaşayan şiə türkləri yığmışdır. Ancaq onun Cənubi Qafqaza yürüşləri uğursuzluqla nəticələnmişdir. 863/1460-cı ildə şeyx Cüneyd Şirvanşah I Xəlilullaha məğlub olaraq həlak olmuşdur. Onun oğlu Heydər isə 893/1488-ci ildə Ağqoyunlu dövlətinin dəstəklədiyi şirvanşah Fərrux Yəssar tərəfindən məğlub edilərək öldürülmüşdür. Şeyx Heydərin böyük oğlu Ağqoyunlu ordusu ilə döyüşdə ölmüşdür. Heydərin İsmail adlı daha bir oğlunu Səfəvi tərəfdarları Gilanda gizlətmiş və yeni yürüşlər üçün güc toplamağa başlamışdırlar. 904/1499-cu ildə Ağqoyunlu dövlətinin zəifməsi, sonra isə parçalanmasından yararlanan qızılbaşlar, İsmailin başçılığı altında Azərbaycandan Anadoluya doğru yürüş etdilər. Burada onlara Anadolu *şiələri* də qatılmışdır. Bundan sonra 905/1500-cü ildə qızılbaşlar Şamaxıda yerləşən Gülüstan qalasının yaxınlığında Şirvanşah Fərrux Yəssarın qoşunlarını məğlub edə bilmişdirlər. Fərrux Yəssar isə o döyüşdə həlak olmuşdur. 906/1501-ci ildə isə qızılbaşlar Bakını ələ keçirdilər. Elə həmin ildə onlar Naxçıvanda sonuncu Ağqoyunlu valisi olmuş Əlvənd Mirzənin qoşunlarını da darmadağın etdilər. Təbrizə girən İsmail özünü şah elan etmişdir. Beləliklə o, İranın, Əfqanıstanın, cənubi Qafqazın böyük bir hissəsində Səfəvilər dövlətini yaratmışdır. Onun sülaləsi 1148/1736-cı ilə qədər hakimiyyətdə olmuş-

dur. Qızılbaşların güclənməsi onların regionda başqa dövlətlərlə qarşıdurmasına səbəb olmuşdur. Şərqdə Səfəvilərə qarşı Özbək xanları savaşırdılar. Ancaq səfəvilərə qarşı savaşan ən güclü dövlət *Osmanlı* imperiyası idi. Beləliklə, Səfəvilərin *Osmanlılarla* uzun müddətli qanlı savaşları başlanmışdır. Savaşın əsl səbəbi siyasi-iqtisadi maraqlar olsa da, hər iki tərəf maraqlarını ideoloji baxımdan əsaslandırmaq üçün dindən istifadə edirdilər. Səfəvilər şiə, Osmanlılar isə *sünnilərin* maraqlarını təmin edən tərəflər kimi çıxış edirdilər.

Osmanlı Sultanı I Səlim Səfəvilərin Anadoluda olan tərəfdarlarına çox ağır zərbə endirmiş, onları zərərləşdirə bilmişdir. Sonra isə 930/1524-cü ildə Osmanlıların böyük ordusu Azərbaycana doğru yürüş edərək Çaldıran döyüşündə Şah İsmayılin qoşununu çox ağır məğlubiyyətə uğratmışdır. Ancaq, Osmanlı imperiyasının üstünlüyünə baxmayaraq onlar Səfəviləri məhv edib ortadan çıxara bilməmişdirlər. Sonralar Səfəvi şahı I Abbas (995/1587 – 1038/1629) Osmanlılara qarşı uğurlu savaş aparmış, öncə itirilmiş bütün torpaqları qaytara bilmişdir. Ancaq, onun şahlığından sonra Səfəvilər zəifləmiş, 1148/1736-cı ildə isə taxtdan salınmışdırlar.

Qızılbaşların dini baxışları bir çox dini və mistik təlimlər üzərində qurulmuşdur. Belə inanclar Azərbaycan və Anadoluda yaşayan köçəri türklər arasında yayılmışdır. Onların arasında müxtəlif mövhumatlar, əski türk inanclarının elementləri də qalmaqda idi. Bütün bunlar klassik şiə baxışları ilə birlikdə qızılbaş ideologiyasının əsasını təşkil etmişdir.

Tədqiqatçılara görə qızılbaşlar arasında "ifrat" şiə təriqətlərinin ideyaları da yayılmışdır. Onların bir çoxu Əlini tanrılaşdırmışdırlar. Şah İsmaili isə göylərdən yerə enmiş Tanrının təcəllisi kimi tanıyırdılar. Digərləri isə İsmaili gözlədikləri qurtarıcı imam *Mehdi* hesab edirdilər. Bu kimi baxışlar şah İsmayılın Xətai adı ilə yazdığı "Divanında" keçməkdədir. Günümüzdə Türkiyədə müsəlman çoxluğu tərəfindən "ifrat" şiə təriqəti kimi tanınan *ələvilər (II)* "qızılbaş" adlanırlar.

Qızılbaşların dini təcrübələri başqa şiələrdən çox da fərqlənmirdi. Bununla belə, onların özlərinə məxsus xüsusi özəllikləri də olmuşdur. Məsələn, qızılbaşlar *Məhərrəm* ayında *oruc* tutardırlar, o ay ərzində ət yeməzdirlər. Qış aylarının birində, onlar üç günlük oruc tuturdular. Hər bir qızılbaş şeyxinin göstərişlərinə sözsüz tabe olmalı, təriqətin sirrini qoruyub saxlamalı idi. Onların inanclarında ən yüksək yeri *Əli ibn Əbu Talib* tuturdu. O, *Allah* və Məhəmmədlə birlikdə *zikr* edilirdi. İnanclarını sübuta yetirmək üçün Səfəvi ideoloqları *Quran ayələri* və *hədisləri* başqa *məzhəblər* kimi özlərinə uyğun formada təfsir edirdilər.

**QİBLƏ** – İ***slam dünyasında müqəddəs məkanlardan hesab edilən Məkkə şəhərində yerləşən Kəbəyə yönəlməkdir.*** Bütün müsəlmanlar *namazları* və başqa ibadətləri yerinə yetirdikdə üzlərini bu istiqamətə çevirməlidirlər. *İslamda* ilk qiblə *Qüds* (Yerusəlim) şəhərində indiki *Məscidül-Əqsanın* yerində yerləşən əski *Süleyman* məbədinin xarabalıqları olmuşdur. Qiblə Qüdsdən *Məkkəyə* hicrətdən on yeddi ay sonra, hicrətin 2-ci ilinin Şəban ayında dəyişdirilmişdir. Qiblənin dəyişməsini əmr edən *Quran* (2: 144) ayəsi də vardır. Bəzi alimlərin fikrincə buna səbəb *yəhudilərin* İslamı qəbul etməməkləri və müsəlmanlarla anlaşmalarının pozulması olmuşdur. Bu ayə *Mədinədə* yəhudilərin *peyğəmbər* və müsəlmanlara qarşı yaydıqları yalanlara görə nazil olmuşdur. Onlar peyğəmbərin qiblənin harada yerləşdiyini bilmədiyini, onun yerini ona onların göstərdiyini deyirdilər. Bunu eşidən *Məhəmməd* peyğəmbər, *Allaha dua* edib müsəlmanlar üçün yeni qiblənin müəyyən edilməsini istəmişdir. Yuxarıdakı

ayə də məhz buna görə nazil olunmuşdur. Beləliklə, o zamandan günümüzə qədər qiblə Məkkədəki *Məscidul-Haram* olmaqdadır.

**QİRAƏT** – ***ənənəvi olaraq qəbul olunmuş qaydaya uyğun Quranın oxunmasıdır.*** *Quranın* tarix boyu formalaşmış bir neçə oxunuş qaydaları vardır. Rəvayətlərə görə onların sayı yeddidir və onların tarixi *Məhəmməd peyğəmbərin* dövrünə gedib çıxır. Ancaq, əslində isə tarixdə qiraətlərin sayı daha çox olmuşdur. Dövrümüzdə isə Quranı əsasən üç qiraətdə oxuyurlar. Onlardan ən geniş yayılanı Asimin qiraətidir. Müasir müsəlmanların çoxu Quranı bu qiraətlə oxumağa çalışırlar. Quranlar da buna uyğun dərc olunmaqdadır. Şimali Afrikada Nafinin, Sudanda isə Əbu Əmrin qiraətlərindən müəyyən qədər istifadə edilir.

**QİSAS** – ***şəriət məhkəməsinin hökmü ilə qatildən intiqam almaq hüququdur.*** *Quranın* 2: 178-179, 5: 45, 17: 33 *ayələrində* qisas haqqında məlumat verilmişdir. Ancaq, *qətlə* yetirilən şəxsin qisası pulun və ya başqa maddi vəsaitin ödənilməsi ilə də əvəz edilə bilər (Quran 5: 45).

*İslam* alimləri qisasın tətbiq edilməsinin *vacib* olduğunu israr etmişdirlər. Belə ki, qətlə yetirilmiş insanın yaxınları qatili bağışlayıb ondan *şəriətlə* müəyyən edilmiş məbləğdə maddi təzminat ala bilərlər. Bu anlaşma alınsa o zaman qisas tətbiq edilmir. Qətlə yetirilmiş insanın əvəzində müəyyən qədər maddi təzminatın ödənilməsinə isə *diyət* deyilir. Bu məbləğ bəzi *məzhəblərə* görə 100 dəvə və ya 200 öküz, ya da 2000 qoyunun dəyəri qədərdir. Dəymiş zərərə görə diyətin məbləği konkret hadisədən asılı olaraq dəyişir. Bir çox hallarda bu məbləğ qətlə yetirilmiş insanın diyətinin yarısı qədərdir.

Qisas yalnız adam qəsdən qətlə yetirildikdə tətbiq edilir. Qəsd olmadan hadisə baş veribsə, onda qisas tətbiq olunmur. Bu halda sadəcə diyət ödənilir. Qisas yetkinlik yaşına çatmamış uşaqlara və ya dəlilərə qarşı tətbiq olunmur.

**QİYAM** – ***ayaq üstündə durmaq və ya namazı ayaq üstündə duraraq qılmaqdır.*** Bu namazın *rüknlərindən* biridir. Qiyam gündə beş dəfə qılınan namazlarda ayaq üstündə dura bilən müsəlmanlar üçün vacibdir. Qiyamdan sonra *namaz* qılan müsəlman *rüku*, sonra isə *səcdə* hallarında olur. Qiyamın *vacibliyi* Quranda (2: 238) təsbit edilmişdir. Namazda qiyam halında təkbir, sonra “Fatihə” və daha bir neçə Quran *ayəsi* oxunur. Hənəfilər, şafiilər və hənbəlilər qiyamda olarkən əllərini köbəklərinin üstündə bağlayaraq saxlayırlar. Ancaq, *maliki, zeydi və cəfəri məzhəblərində* namaz əllər açıq vəziyyətdə qılınır.

**QİYAMƏT** – bax: **AXİRƏT.**

**QİYAMÜL-LEYL** – ***vacib olan gecə namazından sonra sübh açılana qədər qılınan müstəhəb namazıdır.*** Rəvayətlərə görə bu *namazın* böyük *savabı* olsa da, onun qılınması *vacib* deyildir. Bu namaza “*təhəccüd*” namazı da deyirlər. Təhəccüd namazı da digər müstəhəb namazlar kimi qılınır. Hədislərin birində “Təhəccüd” namazının fəziləti haqqında *Məhəmməd peyğəmbər* demişdir: “Vacib namazdan sonra ən fəzilətli namaz gecə namazıdır”. Bu namazı qılan müsəlman *qiraət* məsələsində azaddır. Ayrıca, bu namaz iki *rükətdən* artıq qılınarsa, ikinci rükətdən sonra bir salam vermək məsləhət görülür. Əgər dörd rükət qılınarsa, o zaman ikinci rükətdən sonra sadəcə “təhiyyat” oxunur, “salli-barik” duası isə oxunmur.

**QİYAS** – ***müctəhid və ya fiqh aliminin fiqhdə hər hansı bir problem barəsində Quran və hədislərin əsasında həll olunmuş məsələlərə bənzər hökmün verməsidir.*** Bu analogiya metodu adlanır. Bir çox hüquqi

problemlər barəsində *Quran və hədislərin* əsasında birbaşa hökm vermək mümkün olmadığına görə *müctəhidlər* qiyas üsulunu istifadə edirlər. Qiyası istifadə edən ilahiyyatçılar Quranın 47: 10, 45: 21, 38: 28 kimi *ayələrini* buna dəlil göstərirlər.

Qiyas *Hənəfi, Şafii, Maliki və Hənbəli məzhəblərində* Quran, hədis, *icmadan* sonra *ictihadın* dördüncü mənbəyidir. Bu metod yalnız hüquqi problemin *Quran* və *hədislərdə*, eləcə də müsəlman ilahiyyatçılarının hökmlərində olmadığı hallarda istifadə edilir. Birinci üç qaynaq əsasında çıxarılmış hökmdən fərqli olaraq qiyasla verilmiş hökmün icrası *vacib* deyil, yalnız tövsiyə xarakteri daşıyır.

Müsəlman ilahiyyatçıları arasında qiyasla verilmiş hökmlərin dini baxımdan dəlil sayılması və ya sayılmamağı haqqında birmənalı fikir yoxdur. *Əbu Hənifə*, Məhəmməd ibn İdris *Şafii* və *Malik ibn Ənəs* onu hökmlərin verilməsində dini dəlil saymışdırlar. Əhməd ibn Hənbəl qiyasa müəyyən qədər şübhə ilə yanaşsa da, onu tanımışdır. *Zahirilər, cəfərilər və zeydilər* isə qiyasa qarşı çıxaraq onu dini dəlil kimi qəbul etmir, onu insan düşüncəsinin məhsulu sayır və buna dair Quranın 49: 1, 6: 38, 17: 36 ayələrini dəlil gətirirlər. Qiyası dəlil kimi tanımayan bu məzhəblər onu müctəhidin *rəyi* ilə əvəz edirlər.

**QUBA** – ***Məhəmməd peyğəmbərin hicrətdən sonra ilk məscidin tikildiyi Mədinə şəhərinin yaxınlığındakı kiçik bir məntəqənin adıdır.*** Bu *məscid* ilk müsəlman icmasının tarixində müəyyən vaxt böyük rol oynamışdır. Rəvayətlərə görə *peyğəmbər* şənbə günlərinin sübh *namazlarını* bu məsciddə qılmışdır. Buna görə də bu məsciddə sübh namazın qılınması indi də müsəlmanlar üçün *savab* sayılır.

**QUBBƏTÜS-SAHRA** – ***Qüdsdə Əməvi xəlifəsi Əbdül-Malik ibn Mərvanın 66/684-72/691-ci illərdə tikdiyi məsciddir.*** Bu *məscid* qaya üzərində inşa edildiyinə görə bu adı (qayanın günbəzi) daşımaqdadır. Bu məscid *Məhəmməd* peyğəmbərin *meraca* yüksəldiyi yerdə inşa edilmişdir. Buna görə də İslamda müqəddəs yerlərdən biri hesab edilir.

**QUNUT** – ***namazda oxunan duadır.*** Bu duanı *hənəfilər* vitr namazının üçüncü *rükətində*, *cəfərilər* bütün namazların ikinci rükətlərində *rükudan* əvvəl, şafiilər və malikilər isə sübh namazının ikinci rükətində rükudan əvvəl oxuyurlar. Qunut yalnız *qiyam* halında oxunur.

**QURABİLƏR** – ***ifrat şiə təriqətlərində birinin adıdır.*** *Səbailər* kimi onlar da *Əli ibn Əbu Talibi* tanrılaşdıraraq *Məhəmməd peyğəmbərdən* daha üstün insan hesab edirdilər. Qürabilərə görə *Allahdan vəhy* gətirmiş mələk səhv edib onu Əliyə deyil, Məhəmmədə çatdırmışdır.

**QURAN** – ***İslamın müqəddəs kitabıdır.*** İlahiyyatçılara görə Quran vəhy yolu ilə *Məhəmməd* peyğəmbərə *Allah* tərəfindən nazil edilmiş, sonra isə kitab halına salınmışdır. Quran sözü ərəb dilində "*qiraət*" (oxumaq, əzbərdən demək) mənasını verməkdədir. Quranın 114 surəsi vardır. *Surələr* isə *ayələrdən* ibarətdirlər. Rəvayətlərə görə *Məkkədə* nazil olmuş ayələr Məkkə, *Mədinədə* nasil olmuş ayələr isə Mədinə ayələri adlanırlar. *İslamda* etiqadi *məzhəblər* arasında Quranın əzəli və əbədi olması haqqında fikir ayrılığı vardır.

Rəvayətlərə görə Məhəmməd *peyğəmbərə* nazil edilən Quran ayələri ilkin dövrlərdə səhabələr tərəfindən əzbər öyrənilirdi. Peyğəmbərin vəfatından sonra isə Quranın bir kitabda toplanılması ehtiyacı ortaya çıxmışdır. Rəvayətlərə görə xəlifə *Əbu Bəkr* bu işi *Zeyd ibn Sabitə* tapşırmışdır. Bununla yanaşı Quran katibləri arasında *Əli ibn Əbu Talib, Abdullah ibn Məsud* kimi səhabələr də

olmuşdur. Buna görə də müsəlmanlar müxtəlif nüsxələrdən və şifahi ənənədən istifadə edərək Quranın qiraəti ilə məşğul olurdular. Buna görə də, xəlifə *Osmanın* hakimiyyəti dövründə bütün müsəlmanlar üçün tək nüsxənin hazırlanması işinə başlanmışdır. Bu məqsədlə Zeyd ibn Sabitin rəhbərliyi altında heyət təyin olunmuşdur. O heyət mövcud olan yazılardan və şifahi ənənədən istifadə edərək Quranın indiki variantını ərsəyə gətirmişdirlər. İlk yazılan Quran nüsxəsi peyğəmbərin həyat yoldaşı *Həfsə bint Ömərin* evində saxlanılmışdır. Bundan sonra xəlifə Osmanın əmri ilə Quranın bütün digər nüsxələri məhv edilmişdir.

Müsəlmanlar illər boyu xəlifə Osman dövründə bir araya gətirilmiş Quran surələrini olduğu kimi yazıb oxumuşdurlar. Quranın oxunmasını asanlaşdırmaq üçün hərf altı və hərf üstü nöqtələr, sait hərfləri əvəz edən hərəkələr əlavə edilmişdir. Bu işi ilk dəfə Əbül-Əsvəd Düali (681-ci ildə vəfat etmişdir) icra etmişdir. Bilindiyi kimi ərəb yazısında yalnız samit hərflər yazılır, saitlər (ə, i, u kimi hərflər) isə ehtiyac yarananda "hərəkə" deyilən işarələrlə göstərilir. Əbül-Əsvəd Düali hərəkələri nöqtələrlə göstərirdi. Nöqtələrin hərflər üzərində qoyuluşundan asılı olaraq samit hərflərdən sonra saitlər də oxunurdu. Bu metod o dövrdə geniş yayılmışdır. Ancaq nöqtələr şəklindəki işarələr problemlər də yaradırdı. Çünki, ərəb əlifbasında ayrı-ayrı samit hərflər də nöqtələrlə bir-birindən fərqləndirilirdi. Bu da oxunuşda anlaşılmazlıqlar yaradırdı. Buna görə də, Nasir ibn Asim adlı Quran *hafizi*, sait hərfi ifadə edən daha bir nöqtəni əlavə etmişdir. Daha sonra başqa bir Quran hafizi Xəlil ibn Əhməd sait hərfləri xətlərlə (hərəkələrlə) əvəz etməyə başlamışdır. Onlar bir qədər çəpinə samit hərflərin üzərində və altlarında qoyulurdu. Bunlardan başqa qiraəti asanlaşdırmaq üçün daha bir neçə işarə də daxil edilmişdir. Həmən işarələr və hərəkələr bu gün də Quran mətnlərində yer almaqdadır.

Məkkə dövründə ayələrin nüzul səbəbi daha çox *tövhid*, peyğəmbərlik, *axirət*, əxlaq və mənəviyyat ilə əlaqədar məsələlərə aid olmuşdur. Məhəmməd peyğəmbər *Mədinəyə hicrət* etdikdən sonra isə ayələrinin məzmunu daha çox *fiqhi* və iqtisadi, sülh və müharibə problemlərinə, ailə münasibətlərinə, eləcə də digər ictimai problemlərə həsr edilmişdir.

İslam inancına görə məna və üslubuna görə Qurana bənzər heç bir kitab yoxdur (Quran, 10: 38). Buna görə də, o Allahın möcüzəsi kimi dəyərləndirilir. Bundan başqa İslama görə Quran təkcə Ərəblər üçün deyil, bütün bəşəriyyətə göndərilmiş ilahi kitabdır (Quran, 21: 107).

**QURBAN** – ***Allah rizası üçün müəyyən olunmuş günlərdə heyvanlardan bəzilərinin (qoyun, keçi, dana, dəvə olmaqla) kəsilməsi adətidir.*** Bu *adətə* müsəlman ənənəsində böyük əhəmiyyət verilir. Qurbanın kəsilməsi *Allaha* ibadət və ona hədsiz bağlılığın əlaməti sayılır. *Quranda* Allaha qurbanın kəsilməsi haqqında (108: 2, 6: 162, 22: 34) bir neçə ayədə vardır. Qurbanlıq olan dəvə, inək, ya da qoyun kimi iki dırnaqlı heyvanlar hər il *Zülhiccə* ayının 10-da keçirilən Qurban bayramında kəsilir. Qurban kəsmək istəyənlər *həcc* mərasimində Zülhiccənin 1-dən 10-a qədər ehtiyac olmadan dırnaqları və saçlarını kəsməməlidirlər.

*İslam* alimlərinin çoxu qurbanın kəsilməsini *savab*, başqaları isə *vacib* əməl sayırlar. Hər bir kəs özü, ya da ailəsi üçün qurban kəsə bilər. Qurbanın kəsilməsini *vəsiyyət* etmiş, bunun üçün pul ayırmış ölən adamın yerinə də qurban kəsilə bilər. Bir nəfər bir qoyun, yeddi nəfər bir dəvəni və ya inəyi qurban kəsə bilərlər. Adətə görə qurbanı *niyyət* edən insan heyvanı özü kəssə daha yaxşıdır. Hər-hansı bir səbəblər üzündən bunu edə bilməsə, onda onun yerinə qurbanı başqa adam da kəsə bilər. Belə olarsa, qurbanı niyyət edənin özünün hey-

vanın kəsilməsində iştirak etməsi məsləhət görülür. Onun həmin gün qurban kəsilənə qədər heç nə yeməməli, ilk olaraq qurbanlıq ətini dadmalıdır. Qurbanlıq heyvanın əti üç yerə bölünür. Bir hissəsi kəsənin ailəsinə, ikincisi yoxsullara paylanılır, üçüncüsü isə hədiyyə kimi verilir. Qurbanlıq ətini əsasən müsəlmanlara verirlər. Qohum və ya qonşu olan qeyri-müsəlmanlara da verilə bilər. Qurbanlıq heyvanının ətini satışa çıxartmaq olmaz. Heyvan kəsilərkən onu sol yanına yıxmaq lazımdır. Heyvanın boğazı qarşısında qanının axıdılması üçün yarım metrə qədər çuxur qazılmalıdır. Heyvanın hər iki ön və bir arxa ayaqları birlikdə bağlanmalıdır. Yalnız arxa ayağı açıq qalmalıdır. Müsəlman qurban kəsdikdə ilk olaraq niyyət edərək Allahın adını çəkir, sonra iti bıçaqla heyvanın boğazındakı iki əsas qan damarlarını kəsilməlidir. Bu zaman heyvanı bərk saxlamaq lazımdır ki, onun qanı tam axsın. Bundan sonra onun başı üzülməlidir. Müsəlman adətinə görə başqa vaxtlarda da heyvanlar belə kəsilməlidir. *Şəriət* qaydası ilə kəsilməmiş heyvanın ətinin yeyilməsi müsəlmanlar üçün *haram* edilmişdir.

**QURBAN BAYRAMI** – bax: **İDƏYN.**

**QUREYŞ** – ***qədim Məkkənin ictimai və siyasi həyatında böyük rol oynamış tanınmış ərəb qəbiləsidir.*** O, başqa ərəb qəbilələri arasında çox nüfuzlu olmuşdur. Onların güclənməsində başçıları olmuş Qüseyb ibn Kilabın (hicrətdən öncə II yüzillikdə yaşamışdır) rolu böyük olmuşdur. *Məhəmməd peyğəmbər* də Qureyş qəbiləsinə mənsub idi. İslama gələn *qüreyşlilər* Xilafətə başçılıq etmişdirlər. Bütün Raşidi xəlifələri, Əməvilər və Abbasilər bu qəbilədən olmuşdurlar.

**QURTUBİ MƏHƏMMƏD** (671/1273-cü ildə vəfat etmişdir) – ***görkəmli din alimi, təfsirçi və mühəddis olmuşdur.*** O, *maliki məzhəbinin* və əşəri *kəlamının (I)* ardıcılı kimi tanınmışdır. Kordovada əkinçi ailəsində anadan olmuşdur. Kiçik yaşlarından müxtəlif elmlərə, ərəb dilinə, ərəb poeziyasına maraq göstərmiş, daha sonra isə ilahiyyat elmlərini zamanının tanınmış alimlərindən öyrənmişdir. Kordovanı, eləcə də İspaniyanın başqa müsəlman şəhərləri xristianlar tərəfindən alındıqdan sonra Qurtubi *Misirin* İsgəndəriyyə şəhərinə, sonra isə Qahirəyə köçmüşdür. Daha sonra Əsyüt şəhərinin şimalında yerləşən bir kənddə yaşamış, orada da 671/1273-cü ildə vəfat etmişdir.

Qurtubi çoxlu sayda əsərlərin müəllifi olmuşdur. Onlardan ən tanınmışı "Ət-Təzkirətü fil-Əhvalül - Məvt val- Ümürul - Axirə" (Axirətdəki hadisələr və oradakı həyatın təfərrüatları) idi. Bu kitabda ölümlə bağlı problemlərdən, insanın ölümündən sonrakı durumundan, *Qiyamət* günü ilə bağlı hadisələrdən, *cənnət* və *cəhənnəmdən* söz açılmışdır. Daha bir tanınmış əsəri "Əl-Cami li Əhkamil-Quran vəl-Mübəyyin Limə Tədəmmənəhu minəs-Sünnə va Ayil Fürqan" (Hədisləri ilə *ayələri* göstərməklə *Quranın* qaydaları) kitabıdır.

**QUŞEYRİ ƏBDÜL-KƏRİM** (375/986 – 464/1072) – ***görkəmli sufi alimlərindən biri, şafii fəqihi və əşəri kəlamçısı (I) olmuşdur.*** Nişapur yaxınlığında doğulmuşdur. Erkən yaşlarından müxtəlif dini elmləri öyrənmişdir. Tanınmış alimlərdən dərs almış, sonra isə müəllimlik etmişdir.

439/1048-ci ildə Nişapurda dini mübahisələrin sonunda əşəri-şafii və maturidi-hənəfi *məzhəblərinin* mənsubları arasında qarşıdurma baş vermişdir. *Maturidilər* Səlcuqlu hakimiyyəti tərəfindən dəstəkləndiyi üçün *əşərilərin* narazılığına səbəb olmuşdur. Quşeyri də əşərilərin fəallarından olduğu üçün təqiblərə məruz qalmışdır. Ancaq sonra *xəlifə* Qaimin sarayında çalışmışdır.

O, 455/1063-cü ildə Nişapura qayıtmış, burada pedaqoji və elmi fəaliyyətini hәy-

atının sonuna qədər davam etdirmişdir. Quşeyri *İslam* ilahiyyatı və *fiqh* sahələrində çoxsaylı əsərlərin müəllifi idi. Onlardan ən tanınmışlarından biri *təsəvvüfün* tarixi, dünyagörüşü və mərasimlərinə həsr edilmiş "Risalətül- fil-İlmi əs-Sufi" kitabıdır. Bu əsərdə sufilərin terminologiyasını açıqlanmış, tanınmış sufilərin bioqrafiyalarını vermişdir. Quşeyri ənənəvi İslamı *sufiliklə* uyğunlaşdırmaq, onların arasındakı qarşıdurmanı aradan qaldırmaq yolunu tutmuşdur.

**QÜDS** – ***həm yəhudi, həm xristian, həm də müsəlmanlar üçün müqəddəs hesab edilən bir şəhərdir.*** Qüds müsəlmanların ilk *qibləsi* olmuşdur. *Məhəmməd* peyğəmbər buradakı *Süleyman* məbədinin xarabalıqlarından merac etmişdir. Xəlifə *Ömər* və *Əməvi* xəlifələrinin inşa etdirdikləri Əl-Əqsa məscidi də Qüdsdə yerləşir. Onun yaxınlığında Məhəmməd *peyğəmbərin* meraca yüksəldiyi *Qübbətüs-Sahra* adlanan yer və o yerdə ucaldılmış *məscid* də vardır. Məscidlər kompleksində müsəlmanların dini məktəbləri və kitabxanaları da fəaliyyət göstərirdi.

Qüdsdə ən qədim dövrlərdə müxtəlif Kənan qəbilələri yaşamışdırlar. Rəvayətlərə görə bu yerləri israillilərin kralı olmuş *Davud* istila etmiş, onu dövlətinin paytaxtı etmişdir. *Miladi* təqvimlə eramızdan öncə 965 – 928 illərdə bu dövlətə Süleyman başçılıq etmişdir. Rəvayətlərə görə o zaman ölkə çox güclənmişdir. Yenə rəvayətlərə görə Süleyman şəhərdə bərpa işləri aparmış, orada çoxlu yeni binalar inşa etdirmişdir. Onun göstərişi ilə atasının dövründə ucaldılmağa başlanmış *məbədin* tikintisi tamamlanmışdır.

Süleymanın ölümündən sonra ölkə parçalanmış, onun yerində İsrail və Yəhudiyyə çarlıqları yaranmışdır. Miladi təqvimlə eramızdan əvvəl 928 – 586-ci illərdə Qüds Yəhudiyyənin paytaxtı olmuşdur. 586-cı ildə isə *Babil* çarı *Buhtunnəsr* Yerusəlimi ələ keçirərək onun bütün sakinlərini əsir götürmüşdür. Rəvayətlərə görə "Babil əsarəti" adlanan bu dövr 70 il sürmüşdür.

Daha sonra Babili iranlılar darmadağın etmiş, sonra isə İran şahı *yəhudilərə* Kənana qayıtmağa icazə vermişdir. O dövrdə Qüds faktiki olaraq özünü idarə edən şəhər olmuşdur. Şəhərə qayıtmış yəhudilər, Buhtunnəsrin dağıtdığı məbədin yerində yenisini inşa etmişdirlər. Onu "İkinci məbəd" adlandırırlar.

Müəyyən vaxtdan sonra iranlıları makedoniyalı İsgəndər məğlub etmişdir. Onun ölümündən sonra isə Yaxın və Orta Şərqdə bir neçə yunanlar tərəfindən idarə olunan ölkələr yaranmışdır. Yəhudi dövləti də, öncə *Misir*, sonra isə Suriya hökmdarlarına tabe olmağa məcbur olmuşdur. Sonda, miladi təqvimlə eramızdan əvvəl 197-ci ildə Yəhudiyyə Suriyanın tərkibinə qatılaraq müstəqilliyini itirmişdir. O zaman yəhudilər ağır bir dövr keçirmişdirlər. Suriya kralları Yəhudiyyəni talamış, yəhudiləri zorla yunanlaşdırırdılar. Çoxlu sayda yəhudi Suriyaya, Misirə, eləcə də başqa bölgələrə sürgün edilmişdirlər. Bu siyasət Suriya kralı IV Antioxus Epifanın dövründə daha da qızışmış və dözülməz həddə çatmışdır. O yəhudi dinini qadağan etmiş, hamını yunan tanrılarına etiqad etməyə məcbur etmişdir.

Bu şəraitdə yəhudilər üsyana qalxmışdırlar. Üsyançılara Yəhuda Makkabi adlı tanınmış bir yəhudi və onun qardaşları başçılıq etmişdirlər. Tarixdə bu hadisələrə "Makkabi savaşları" deyilir. Miladi təqvimlə eramızdan əvvəl 142-ci ildə Simon Makkabinin başçılığı altında yəhudilər Yəhuduyyəni suriyalılardan təmizləmiş, öz müstəqilliklərini elan etmişdirlər. Ancaq çox keçmədən daxili qarşıdurmalar bu ölkəni yenə də zəiflətmişdir. Yəhudi cəmiyyəti bir-birinə qarşı duran "feruşim", "sadok" və "essen" adlanan üç *təriqətə* bölünmüşdür. Bu qarşıdurmalardan istifadə edən Roma imperatorları Yəhudiyyəni özlərinə tabe etdilər. Miladi tar-

ixlə bizim eramızın 66 – 73-cü illərində yəhudilər Romaya qarşı üsyana qalxdılar. Ancaq, igidcəsinə vuruşduqlarına baxmayaraq sonda ağır məğlubiyyətə uğradılar. Qüdsə girən romalılar şəhəri tutmuş və talamışdırlar.

Miladi tarixlə 132 – 135-ci illərdə yəhudilər yenidən Roma imperiyasına qarşı üsyana qalxdılar. Bu dəfə onlara özünü *Məsih* elan etmiş Bar Kohba adlı bir kəs liderlik edirdi. Ancaq onlar yenə də ağır məğlubiyyətə uğradılar. Romalılar Qüdsə girərək yəhudilərin "İkinci məbədini" dağıtmış, onun yerində Roma tanrılarının şərəfinə bir məbəd ucaltmışdırlar. Onlar Qüdsün adını da dəyişmiş, sakinləri isə şəhərdən sürgün etmişdirlər. Bundan sonra şəhər İliya adlandırılmışdır. Xristianlıq dövründə də şəhər belə adlanırdı.

Miladi təqvimlə 614-cü ildə İran və Bizans (Şərqi Romanın) müharibəsi nəticəsində İliyanı (Qüdsü) iranlılar işğal etdilər, on üç ildən sonra isə Bizans imperatoru Herakleus onu geri qaytara bilmişdir.

Hicrətin 15-ci ilində (miladi 636-ci ildə) müsəlmanlar Bizansı ağır məğlubiyyətə uğratmış və nəticədə Bizanslılar Qüdsü müharibəsiz müsəlmanlara təslim etdilər. Bundan sonra şəhər 429/1099-cü ilə qədər müxtəlif müsəlman hökmdarları tərəfindən idarə olunurdu. Sonra isə Avropadan gələn xaçlılar Qüdsü ələ keçirdilər. 583-cü (miladi tarixlə 1187-ci) ildə sultan Səlahəddin Qüdsü xaçlılardan təmizləmişdir. Bundan sonra şəhəri yenə də müxtəlif müsəlmanların idarəsi altında olmuşdur. Sonra isə Qüds Osmanlı imperiyasının tərkibinə qatılmışdır.

Miladi tarixlə 1917-ci ildə Qüdsü ingilislər işğal etmişdirlər. 1920 – 1947-ci illərdə şəhər ingilislərin qurduğu *Fələstin* vilayətinin inzibati mərkəzi olmuşdur. 1947-ci ildə Birləşmiş Millətlər Təşkilatının qərarı ilə Qüdsə müstəqil şəhər statusu verilmişdir. Ancaq, 1948 – 1949-cu illərdə baş vermiş Fələstin-İsrail müharibəsindən sonra şəhər İordaniya və İsrailin arasında ikiyə bölünmüşdür. 1967-ci ildə Fələstin-İsrail müharibəsindən sonra Qüds İsrail dövlətinin tərkibinə keçmişdir.

**QÜDSİ HƏDİSLƏR** – ***Allah tərəfindən Məhəmməd peyğəmbərə vəhy edilmiş, ancaq Quranda yer almayan kəlamlarıdır.*** Müsəlman ənənəsinə görə bu *hədisləri* Allah *Məhəmməd* peyğəmbərə yuxuda və ya *Cəbrailin* vasitəsi ilə bildirmişdir. *Qüdsi* hədisləri Quran *ayələrindən* ayıran xüsusiyyətlər vardır. Məsələn, bütün qüdsi hədislər "Ey mənim qullarım..." sözləri ilə başlayır. Bundan başqa onlarda *peyğəmbərin* söylədiyinə görə "Allah belə demişdir..." sözlərinə də rast gəlmək mümkündür. Qüdsi hədislərin üslubu və quruluşu *Quran* ayələri kimi deyildir. Onlar sayca azdır və *əhəd* hədislər vasitəsi ilə günümüzə gəlib çatmışdır. Quran ayələri *namazda* oxunur, qüdsi hədislər isə oxunmur.

**QÜSUL** – ***dinin müəyyən etdiyi qaydalara əsasən bütün bədənin su ilə təmizlənməsidir.*** Qüsulun alınması haqqında Quranda ayə (5: 6) mövcuddur. Qüsulu cinsi əlaqədən, məninin ifraz olmasından, *heyz* və doğumdan sonra almaq vacibdir. Qüsul - təmiz su ilə bədənin hər bir yerinin yuyulması ya da təmiz axar suya girmək yolu ilə reallaşır. *Adətə* görə qüsul alarkən *niyyət* edilməli, ağız və burun yaxalanmalı, sonra baş və bütün bədən yuyulmalıdır. *Müctəhidlər* qüsulu təklikdə almağın üstün olmasını iddia edirlər. Ancaq buna imkan olmasa *hamamlarda* övrət yerlərini örtmək *şərti* ilə başqa adamların olduğu yerlərdə qüsul alına bilər. Qüsul aldıqdan öncə bütün bədən kisələnir, sabun və başqa bu kimi təmizləyici vasitələrlə təmizlənməlidir. Yuyunduqdan sonra bədəni qurulamaq lazımdır. Bəzi ilahiyyatçılar hesab edirlər ki,

qüsul alanda üzü *qibləyə* durmaq olmaz. *Fiqhə* görə *vacib* qüsuldan başqa *müstəhəb* qüsul da vardır. Onu *cümə* günlərinin, *Ramazan* və *Qurban* bayramlarının *namazlarını* qılmaq üçün alırlar. *Həccdə* də müstəhəb qusl alınır. *İslamı* qəbul etdikdə, *Məkkə* və *Mədinə* şəhərlərinə getdikdə, uzaq səfərlərdən qayıtdıqda da qüsul almaq tövsiyə edilir.

Adətə görə qüsulu gərəkdirən hallarda *Quran* oxumaq, onun səhifələrinə toxunmaq, *məscidə* girmək olmaz. Doğumdan sonra namaz qılınmır. Heyz halında olan qadınlar da namaz qılmamalı, *oruc* tutmamalıdırlar. Bu hallarda olan qadınların qıla bilmədikləri namazları bağışlanır. Ancaq Ramazan ayında buraxılan oruc günlərinin *qəzasını (II)* yerinə yetirməlidirlər.

**QÜTB** – ***sufilikdə ən yüksək məqamına çatmaqdır.*** Qütb Tanrı ilə insanlar arasında vasitəçi kimi “kamil insan”ın bariz nümunəsidir. Qütblər sufi *təriqətlərinin* başçılarıdırlar. Sufilər hesab edirlər ki, qütblərin gizli biliklərə sahibdirlər. Hər bir *mürşid* qütb olmaya bilər, ancaq hər bir qütb həm də mürşiddir. Sufilərin iddialarına görə *dünyada* sayılı qütblər vardır ki, onlar dünyanın düzənini tənzimləyən *Allaha* yaxın insanlardır.

**QÜTB SƏİD** (1324/1906 – 1386/1967) – ***islahatçı, ictimai xadim və siyasətçi olmuşdur***. O, *Misirin* Əsyüt şəhəri yaxınlığındakı bir kənddə doğulmuşdur. Uşaq yaşlarından *hafiz* olmuşdur. 1338/1920 – 1357/1939-cu illərdə ilkin təhsilini aldıqdan sonra Qahirəyə köçmüş, orada liseyi bitirmiş və universitetə daxil olmuşdur. O, orada müxtəlif elmləri və xarici dilləri öyrənmişdir. Təhsilini bitirdikdən sonra müəllimlik etmiş, özünü yazıçı kimi də tanıtmışdır. Onun məqalələri Misirin qəzet və jurnallarında yayımlanırdı. Sonra o, *İslam* irsinin müxtəlif sahələrinə aid müxtəlif mövzularda çoxlu sayda kitablar yazmışdır.

Səid Qütb Qərb həyat tərzini tənqid etmiş, ancaq İslam üzərində qurulmuş cəmiyyəti ideal saymışdır. Bu məsələyə 1367/1948-ci ildə dərc edilmiş “İslamda sosial ədalət” kitabında toxunmuşdur. 1368/1949-cu ildə Qütb Amerikaya köçmüş, orada 2 ilə yaxın yaşamışdır. Oradan qayıtdıqdan sonra *Müsəlman qardaşları* təşkilatına daxil olmuş, onun ideoloqlarından birinə çevrilmişdir. O həm də, bu təşkilatın buraxdığı qəzetin redaktoru olmuşdur. Qəzetin səhifələrində dünyəvi həyat və dünyagörüşü, eləcə də dinin dövlətdən ayrılması prinsiplərini rədd edirdi. Səid Qütbə görə bu ideyalar İslam dininin ruhuna ziddir. Eyni zamanda Qütb “Əl-Əzhar” universitetinin bir çox müsəlman ilahiyyatçılarının da mühafizəkarlığını, müasir həyata uyğunlaşmamaqlarını və köhnə üsullarda qaldıqlarını qeyd edərək onları tənqid etmişdir. “Quranın kölgəsi altında” iri həcmli kitabında o, Qurana müasir baxışı ortaya qoymuşdur. Buna görə də, onun bu əsəri təfsir kimi dəyərləndirməmişdir.

1373/1954-cü ildə Misir prezidenti C. Ə. Nasirə qarşı sui-qəsd təşkil olunmuşdur. Sonra bu iş üzrə *Müsəlman qardaşlarını* məsuliyyətə cəlb etmişdirlər. Bundan sonra təşkilat şiddətli təqiblərə məruz qalmışdır. O zaman Səid Qütb də, təşkilatın başqa liderləri ilə birlikdə tutulmuş, məhkəmənin qərarı ilə 15 il müddətinə azadlıqdan məhrum edilmişdir. Lakin 10 ildən sonra 1384/1964-cü ildə azadlığa buraxılmışdır. Onun sonuncu kitabı “Gedilən yoldakı nişanələr” olmuşdur. Sonra o, 1386/1966-cı ildə dövlətə qarşı cinayətlərdə günahlandırılaraq yenə də həbs olunmuş və edam edilmişdir.

# L

**LAT** – ***İslamdan öncə ərəblərin tapındığı tanrılardan biri olmuşdur.*** Latın *bütü* Taifdə yerləşirdi. Latı Səqif qəbiləsi mühafizə edirdi. Örtüklə örtülmüş büt ağ qayanın üstündə yerləşdirilmiş, ətrafında isə tapınma yeri qurulmuşdur. Bu bütün xidmətçiləri də vardı. *Məhəmməd peyğəmbərin* əmri ilə Lat və onun tapınma yeri darmadağın edilmişdir.

**LƏHƏB** – ***şölələnən atəş mənasını verən bir sözdür.*** *Quranın* 5 ayədən ibarət olan 111-ci surəsi bu adla adlanır. Bu *Məkkədə* nazil olmuş surədə *İslamın* və *Məhəmməd peyğəmbərin* ən azğın düşmənlərindən biri olmuş Əbdül-Üzzənin *cəhənnəm* odunda yanacağı bildirilmişdir. Buna görə Əbdül-Üzzə burada *Əbu Ləhəb* (od atası) adlandırılmışdır.

**LƏQƏB** – ***müəyyən xüsusiyyətlərinə və ya əməllərinə görə insana verilən ikinci ad və ya ayamadır.*** *İslam* əxlaqına görə ləqəb insanın hər hansı bir üstün xüsusiyyətini qabartmaq üçün verilir. İslam əxlaqına görə insanı alçaltmaq və ya lağa qoymaq üçün ləqəb vermək olmaz. İslam öndərlərinin çoxunun ləqəbləri olmuşdur.

**LƏVAT** – ***fiqhə görə qadağan olunmuş eyni cinsdən iki insanın seksual yaxınlığıdır.*** *Müctəhidlərin* fikrincə *Quranda* buna dəlalət edən *ayələr* (7: 80-81) vardır. *Maliki, hənbəli və cəfəri məzhəblərində* homoseksuallar *günahları* sübuta yetirilsə subay ya evli olmasından asılı olmayaraq rəcm olunurlar. *Şafiilərdə* isə homoseksuallığı yasaqlanmış cinsi yaxınlıq kimi dəyərləndirirlər. Ancaq, bu məzhəbdə cinsi əlaqədə olan homoseksualların evli olub-olmamaqları araşdırılır. Homoseksual insan evli olarsa onda o, daşqalaq edilərək öldürülməlidir. Subay olarsa şallaqlanaraq sürgün edilməlidir. Hənəfilərdə isə homoseksuallıq yasaqlanmış cinsi yaxınlıq kimi deyil, ağır cəza ilə cəzalandırılan bir cinayət kimi dəyərləndirilir.

**LOĞMAN** – ***Quranda adı anılan iman və ehsan sahibi müdrik və ya peyğəmbərdir.*** Ancaq, ilahiyyatçıların əksəriyyətinə görə Loğman *peyğəmbər* olmamışdır. *Məkkədə* enmiş və 34 ayədən ibarət olan *Quranın* otuz birinci surəsi "Loğman" adlanır.

Loğman *Davud* peyğəmbərin dövründə yaşamışdır. O, Davudla görüşərək onun tələbəsi olmuş və onun yolunu izləmişdir. Loğman ağıllı, bilikli və inanclı bir insan olmuşdur (Quran, 31: 12). *Allah* Loğmana digər insanlar üçün gizli olan elmindən *ehsan* etmişdir. Buna görə də, Davud Loğmanı hakim kimi vəzifələndirmişdir. Loğmanın hansı millətdən olduğu bilinməməkdədir. Bəzi rəvayətlərə görə o, həbəşistanlı kölə olmuş, sonra onu *İsrail oğullarından* olan biri azadlığa buraxmışdır. Başqa rəvayətlərə görə isə Loğman Sudandan bir dülgərin soyundan olmuşdur. Loğmanın dərzi olduğu haqqında da fikirlər vardır. Quranda (31: 13, 16-19) Loğmanın oğluna verdiyi nəsihətlər yer almaqdadır.

**LÖVHÜL-MƏHFUZ** – ***üzərində Allahın sonsuz elmi həkk olunmuş bir lövhədir.*** *Quranın* əsli də Löhvül-Məfhuzdadır. *Allahın* elmi yaradılışdan öncə Löhvül-Məfhuzda yazılmışdır. İlahiyyatçılara görə bu lövhənin mahiyyətini insan əqli ilə qavramaq mümkün deyildir. Lövhül-Məhfuz haqqında *Quranın* 85: 21-22 *ayələrində* məlumat verilir. Rəvayətlərə görə Löhvül-Məfhuzdan *Musa* peyğəmbərə *Tövratın* lövhələri nazil olunmuşdur. Orada Allahın qanunları yazılmışdır. Bu barədə Quranın "Əraf" surəsinin 145-ci ayəsində məlumat verilir.

Ayrıca, hər biri insanın alın yazısı Löhvül-Məfhuzda əvvəlcədən hək olunmuşdur. Belə ki, *İslamda* insanın alın yazısı *qəza* və *qədər* anlayışı çərçivəsində öyrənilir.

**LUKAT** – ***İslam hüququnda itirilmiş əşya və malın satın alınmasıdır.*** *İslam* əxlaqına görə itirilən şeyi tapan hər bir insan onu yiyəsinə qaytarmalıdır. Bunu etməzsə *günah* əməl işləmiş olar. İtirilmiş şeyin sahibi tapılmazsa, o zaman tapılan əşya *beytül-mala* verilməlidir.

**LUT** – ***Quranda anılan peyğəmbərlərindən biri olmuşdur.*** O, *İbrahim* peyğəmbərin qardaşı oğlu idi. Kral Nəmrudun təqiblərindən qurtulmaq üçün İbrahim *peyğəmbərlə* birlikdə vətəni tərk etməli olmuşdur. Daha sonra *Allah* onu peyğəmbər seçmiş, Sədum şəhərinə getməsini buyurmuşdur. Burada homoseksuallıqla məşğul olan pozğun xalq yaşayırdı. *Qurana* görə Lut onları doğru yola dəvət etmək istəmişdir (26: 161-166). Ancaq sədumlular onun sözlərinə fikir verməmiş, *günah* etməkdə davam etmişdirlər. Lut onları Allahın cəzalandırması ilə qorxutsa da, onlar buna heç bir məhəl qoymamışdırlar (Quran, 54: 36).

Allah da bu xalqı cəzalandırmaq üçün insan görkəminə girmiş *mələklərini* Səduma yollamışdır. Onlar Lutun evində qonaq kimi qalmış, şəhərlilər də bu barədə bilib Lutun evinə hücum çəkmişdirlər. Lut peyğəmbərdən qonaqları onlara əylənmək üçün verilməsini tələb etmişdirlər. O mələklər Luta qapını açıb o adamları içəri buraxmağı əmr etdilər. Hücum çəkənlər evə girən kimi mələklər onları kor etmişdilər (Quran, 54: 37). Elə o gecə Lut peyğəmbər ona inanmış kiçik bir qrupla Sədumdan çıxmışdırlar. Allah isə bu şəhəri, əhalisi ilə birlikdə yer üzündən silmişdir (Quran, 11: 82-83). Sədum şəhəri məhv edildikdən sonra, onun yerində böyük bir göl yaranmışdır. Onu “Lut gölü” adlandırırlar. Rəvayətlərə görə bu göl indiki İsraildəki Ölü dənizidir. Rəvayətlərdə bundan sonra Lut İbrahim peyğəmbərin yanına gedib bir il onun yanında qalmışdır. Daha sonra isə Hicazda məskunlaşmış və orada səksən yaşında vəfat etmişdir.

# M

**MAL** – ***daşınan və daşınmaz əmlak, pul və ya sərvətdir.*** *Fiqhdə* mal insan həyatını qarşılamaq üçün əldə edilmiş və ya toplanmış maddi dəyərlərdir. *İslama* görə bütün maddi dəyərlər *haram* və *halal* olmaq üzrə iki yerə bölünürlər. İslam *şəriətinə* görə halal mal dində qadağan edilməyən və düz yollarla qazanılanlardır. Haram mal isə dində qadağan olunan, əyri yollarla qazanılmış şeylərdir. İslam şəriətində müsəlmanların əmlak problemlərinə, bununla bağlı hüquqi məsələlərə böyük əhəmiyyət verilir.

**MALİK İBN ƏNƏS** (93/712 – 179/796) – ***İslam dünyasında ən çox yayılmış fiqhi məzhəblərindən biri olan maliki məzhəbinin qurucusu olmuşdur.*** *Mədinədə* tacir ailəsində doğulmuşdur. Zəmanəsinin görkəmli din alimlərindən dərs almışdır. Gənc yaşlarından *hədis* elminə böyük maraq göstərmiş və bu istiqamətdə özünü inkişaf etdirmişdir. Bununla bərabər o, digər ilahiyyat elmlərini mənimsəmiş, xüsusən də *fiqh* elmi sahəsində də böyük nailiyyətlər əldə etmişdir. Digər *məzhəblərin* təlimi ilə tanış olmuş, onların metodlarını yaxşı mənimsəmişdir. Malik İbn Ənəs bir çox əsərlərin müəllifi olmuşdur. Ən tanınmış əsəri hədislər toplusu olan “Müvətta” adlı kitabıdır. Bu əsər ilk hədis külliyyatından biri olmuşdur. Orada müəllif bu hədisləri mövzular üzrə sistemləşdirmişdir.

**MALİKİ MƏZHƏBİ** – ***ən geniş yayılmış fiqhi məzhəblərdən biridir***. *Məzhəbin* adı Malik ibn Ənəsin (93/712-179/796) adı ilə bağlıdır. Maliki məzhəbinə görə ilk olaraq bütün hökmlər *Quranın* açıq və anlaşıqlı *ayələrinin* əsasında verilməlidir. Hökmlərin çıxarılmasında ikinci qaynaq *Məhəmməd* peyğəmbərin *hədisləri* və onun səhabələrinin *fətvalarıdır*. Burada üstünlük *mütəvatir* hədislərə verilir. *Əhəd* hədislərə gəldikdə isə onlar qəbul edilir, ancaq Malik ibn Ənəs *Mədinə* şəhərində yayılmış rəvayətləri onlardan daha etibarlı saymışdır. Buna da "mədinəlilərin icması" deyilir. Bundan başqa maliki məzhəbində *qiyas* və *rəydən* də istifadə edilir.

Hökmlərin verilməsində daha bir qaynaq səhabələrinin hökmləridir. Malik ibn Ənəs bəzi hallarda onları da *əhəd* hədislərdən daha etibarlı sayırdı. Malik ibn Ənəsə görə hərhansı bir problemin hökmü Quran ayələrində yoxdursa, onda qiyasın tətbiq edilməsi imkanlarından asılı olmayaraq bu durum üçün daha uyğun olan hökmü vermək lazımdır. Bu metod *istihsan* adlanmışdır. Məsələ burasındadır ki, bəzi durumlarda *qiyas* yolu ilə verilmiş hökmlər şübhəli nəticələrə gətirib çıxara bilər. Buna görə də, Malik ibn Ənəs daha çox istihsana üstünlük verirdi. Malik ibn Ənəsdan sonra onun irsini tələbələri və onların davamçıları inkişaf etdirmişdirlər. Zaman keçdikcə maliki məzhəbi ən çox yayılmış *fiqhi* məzhəblərdən birinə çevrilmişdir. Maliki məzhəbi Hicazda, Şimali Afrika, İspaniya və *Misirdə* nüfuz qazana bilmişdirlər. Günümüzdə bu məzhəb daha çox Şimali Afrikada yayılmışdır.

**MARUT** – bax: **HARUT VƏ MARUT.**

**MATURİDİLƏR – *ən nüfuzlu kəlam (I) məktəblərindən biridir.*** Bu *məzhəbin* yaranması *Əbu Mənsur Maturidinin* adı ilə bağlıdır. Maturidilər etiqadi məsələlərin doğru anlaşılması üçün Quranı əsas götürsələr də, onların insan düşüncəsi ilə anlaşılmasının mümkünlüyünü də inkar etmirdilər. Məsələn, insan nəyinsə yaxşı, ya da pis olmasını təkcə müqəddəs mətnlərdən deyil, həm də öz ağlı ilə anlaya bilər. Ancaq ağlı *vəhydən* üstün tutmaq olmaz. Hər şeydən öncə insan iman gətirməli, sonra isə inancını ağılla təsdiq edib görməlidir ki, vəhylə onun düşüncəsi arasında ziddiyyət varmı. Beləliklə, maturidilər insan ağlının önəmini vurğulayır, ancaq daha çox vəhyə üstünlük verirdilər.

*Qəza* və *qədərə* gəlincə məturidilər hesab edir ki, kainatda bütün hadisələri *Allah* yaradır və hər şeyin taleyini həll edir. O, heç kəsin qarşısında məsul deyil, varlığı öz mütləq planı ilə yaradıb idarə edir. Bununla belə insanın *iradə* azadlığı da vardır. Allah insanın düşdüyü hər bir vəziyyəti onun özünün əməllərinə və istəklərinə əsasən yaradır. Buna görə də, əslində insan əməllərindən özü məsuldur.

Maturidilər Allahın zatını onun sifətləri ilə qarışdırmır, onların arasında fərq qoyur. Sadəcə sifətlər onun zatından kənarda düşünülməz, buna görə də onların arasında bağlılıq vardır. Allahın zatına aid olan (sifətül-zatiyyə) və onun varlığına dəlalət edən sifətləri (sifətis-sübutiyyə) vardır.

Belə ki, Sifətül-zatiyyəyə altıdır: Vəhdəniyyə (Bir olmaq), Qıdəm (Əvvəli olmamaq), Bəqa (Sonu olmamaq), Müxalifatün-Lilhəvadis (Heç nəyə bənzəməmək), Qiyam binəfsihi (Möhtac olmamaq) və Vücud (Var olma).

Sifətis-sübutiyyə isə səkkizdir: Həyat (Diri olmaq), Elm (Bilikli olmaq), Səmi (Eşitmək), Bəsar (Görmək), İradət (Diləmək), Qüdrət (Hər şeyə gücü çatmaq), Kəlam (Danışmaq) və Təqvin (Yoxdan var etmək).

Quranın mahiyyətinə gəldikdə isə maturidilər hesab edirlər ki, o Allahın yaradılmamış sözüdür. Quranda Allahın əlləri, gözləri, eşitmə bacarığı, eləcə də başqa bu

kimi keyfiyyətlərinin olduğundan bəhs edilir. Bu kimi *ayələrlə* bağlı ilahiyyatçılar arasında gərgin mübahisələr baş vermişdir. Bu məsələdə maturidilər *alleqoriyaların* tətbiq edilməsinə yol verirlər.

*Günahlar* törətmiş insanlar barəsində maturidilər hesab edirlər ki, Allah qarşısında *tövbə* etməmiş günahkar müsəlmanlar sonsuz olaraq *cəhənnəmdə* qalmayacaqlar. Buna Quranın 6: 160 ayəsi dəlil gətirirlər. Bu ayəyə görə hər bir insan günahına görə cəzalanacaqdır. Əgər Allah günahkar müsəlmanı *kafirlər* kimi cəzalandırsa, o zaman müsəlmanlarla kafirlər arasında heç bir fərq olmazdır. Buna görə də Allah, müsəlmanları kafirlər kimi deyil, yüngül cəzalandıracaqdır. Beləliklə Maturidi, müsəlmanların sonsuz olaraq cəhənnəmdə qalacağını düşünmürdü. Onlara görə Allah günahkarları cəzalandıra bildiyi kimi, onları bağışlaya da bilər. Belə olduğu halda, müsəlmanın işlədiyi ən ağır günah belə onu *İslamdan* çıxarmaz.

**MEHDİ** – ***İslamda qiyamətdən öncə zühuruna inanılan insandır.*** Mehdinin şəxsiyyəti haqqında müsəlmanlar arasında fərqli inanc vardır. Müsəlmanların çoxu onu öz dövrünün adamı kimi qəbul edib hər an hüzur edəcəyinə inanırlar. *İsna-əşərilərin* inancına görə Mehdi erkən yaşlarında *qeybə* çəkilmiş *Məhəmməd ibn Həsəndir.* Onlar onu onikinci imam kimi qəbul edirlər. İsna-əşərilər inanırlar ki, Mehdinin qeybə çəkilməsinə baxmayaraq o diridir, *qiyamətdən* öncə müsəlmanları dünyanı bürüyən fəlakətdən qurtarmaq üçün *dünyaya* zühur edəcəkdir. Rəvayətlərə görə Mehdi onunla zühur edən *İsa Məsihlə* birlikdə yer üzündə *Allahın* qanunlarını yenidən bərqərar edəcəklər. Onlar haqsızlığı aradan qaldıracaq, ədaləti bərpa edəcəklər. Mehdi *Məhəmməd* peyğəmbərin soyundan olacaqdır. *İslamı* məhv etmək istəyən *Dəccalı* Mehdi İsa ilə birlikdə məğlub edib ona qalib gələcəklər. Bəzi ilahiyyatçılar Mehdinin İsa olduğunu qeyd edirlər. Bəziləri isə Mehdi inancının İslama *israiliyyatdan* gəldiyini iddia edib, Mehdi inancına inanmırlar.

Bundan başqa "Mehdi" anlayışının daha geniş mənası da vardır. Məhəmməd *peyğəmbərdən* rəvayət olunmuş bir *hədisdə* hər bir əsrin sonunda imanı yeniləşdirən bir *mücəddidin* gəlməsindən bəhs edilir. İslamda bəzən "Mücəddid" anlayışı ilə "Mehdi" anlayışı eyniləşdirilir. Ancaq, bu mənada işlənməsinə baxmayaraq "Mehdi" həm də gələcəkdə yer üzünə zühur edəcək konkret bir şəxsdir.

**MEHR** – ***evlənmə zamanı kişinin evləndiyi qadına verdiyi maddi sərvətdir. Bu*** pul, dəyərli daş-qaşlar və ya hər hansı bir qiymətli əşya ola bilər. Mehrin verilməsi haqqında *Quranın* 4: 4 ayəsində məlumat verilir. Rəvayətlərdə qeyd edilir ki, *Məhəmməd* peyğəmbər onun *əhli-beyti* və *səhabələri* mehri evləndikləri zaman vermişdirlər. Buna görə də, malikilərdən başqa bütün *İslam* alimləri çoxu mehri evlənmənin şərti hesab edirlər. Ancaq, hər hansı bir üzrlü səbəbdən mehr verilməsə evlilik pozulmaz. Bu halda mehr sonra da verilə bilər. Mehr *şəriətin* yasaq etdiyi şeylərdən (Məsələn, spirtli içkilərin satışından əldə edilmiş gəlirdən) verilməməlidir. Mehrin minimal məbləği haqqında *məzhəblər* arasında fikir ayrılığı vardır.

**MEHRAB** – ***məsciddə qiblə istiqamətində divarda qurulan yerdir.*** Bu söz *Quranda* (3: 37) keçməkdədir. Mehrablar çox vaxt gözəl bəzəklər, naxışlar, daş oymalarla bəzədilir. Buna görə də, onların çoxu dəyərli sənət inciləridir. Onların yuxarı tərəfində çox vaxt *Quran ayələri* yazılır. Rəvayətlərə görə Məhəmməd *peyğəmbərin* dövründə *qiblənin* istiqamətinin müəyyənləşdirmək üçün *məscidlərin* divarına daşlar

qoyulurdu və ya o yerə hər hansı bir nişan vurulurdu. Bəzəkli və naxışlı mehrablar *Əməvilərin* hakimiyyəti dövründə ortaya çıxmışdır. Bu *adəti* sonrakı dövrlərdə də davam etdirmişdirlər. *Səlcuqlu, Osmanlı* və *Səfəvi* dövrlərində isə mehrablar xüsusi keramik kaşılarla bəzədilirdi.

**MERAC** – bax: **İSRA VƏ MERAC.**

**MƏBƏD** – ***ibadət məqsədi ilə inşa edilən dini məkanlarıdır***. Bu *məscid*, kilsə, sinaqoq və ya *bütpərəstlərin* tanrılarına tapındıqları yerlər də ola bilər. Müsəlmanlar *Allaha* ibadət etmək üçün tikilən binaları "məscid" və ya "cami" adlandırırlar. Məbəd sözü isə daha çox bütpərəstlərin tapındıqları yerlər mənasında işlədilir.

**MƏBUD** – ***tapınılan və ya ibadət edilən hər hansı bir tanrılaşdırılmış varlıqdır.*** *İslam* inancına görə həqiqi məbud yalnız *Allahdır*. Digər məbudlar isə insanlar tərəfindən uydurulmuş yanlış inancların nəticəsidir.

**MƏCAZ** – ***hər hansı bir fikri başqa sözlərlə və mənalarla ifadə etmək, metafora və ya analogiyadır.*** *İslamın* ilk qaynaqları olan *Quran* və *hədislərdə* məcazların olub-olmamağı haqqında müxtəlif fikir ayrılığı olmuşdur. Bəzi ilahiyyatçılar məcazı qəbul etməmiş, müqəddəs mətnlərin hərfi mənalarına üstünlük vermişdirlər. Onlara görə məcazlar insan düşüncəsinə aid bir xüsusiyyətdir və *Allahın* məcazlardan istifadə etməsi imkansızdır, çünki ilahi əmrlər birmənalı və aydın olmalıdır. *Davud Zahiri* (270/883-cü ildə vəfat etmişdir), *mütəzili* Əbu Müslim Məhəmməd ibn Bəhr İsfahani (322/934-cü ildə vəfat etmişdir), şafii Əhməd ibn Əhməd Təbəri (355/946-cı ildə vəfat etmişdir), maliki İbn Hüveyzmənzəz (400/1009-cu ildə vəfat etmişdir) kimi ilahiyyatçılar bu mövqedən çıxış etmişdirlər.

Ancaq İslam alimlərinin çoxu Quran və hədislərdə məcazların olduğunu qeyd etmiş və onların inkar edilməsini isə yolverilməz hesab etmişlər. Onlar məcazın varlığına dair Quranın 40: 36-37 *ayələrini* dəlil gətirirdilər. Bu İslam alimlərinə görə məcazlar Quranı zənginləşdirir, onlar olmasa müqəddəs mətnlər öz gözəlliyini itirərlər. Ancaq, məcazları Quranın açıq və aydın olan ayələrinə tətbiq etmək olmaz. Bu ilahiyyatçıların bir hissəsi hesab edirdilər ki, eyni ayədə həm hərfi, həm də məcazi mənalar ola bilməz. Digərləri isə hər bir ayənin həm *zahiri*, həm də məcazi mənasının olduğunu iddia etmişdirlər. Quranın məcazları haqqında çoxlu kitablar yazılmışdır. Buna misal kimi Əbu Übeyd Məmərə ibn Musənnənin (210/825-ci ildə vəfat etmişdir) "Məcazil-Quran" (Quranın məcazı) kitabı, Şərif Razinin (406/1015-ci ildə vəfat etmişdir) "Təfsirül-Bəyan fi Məcazil-Quran" (Quran məcazının aydın *təfsiri*) kitablarını göstərmək mümkündür.

**MƏCUC** – bax: **YƏCUC VƏ MƏCUC.**

**MƏCUSİLƏR** – ***İranda İslamdan öncə Zərdüştlük dininə etiqad edən insanlar olmuşdurlar.*** Bu din xeyir və şər qüvvələrinin mübarizəsi üzərində qurulmuşdur. Buna görə də, məcusilik dualistik xarakter daşıyırdı. Məcusilər dini ayinlərinin bir çoxunu od üzərində həyata keçirdikləri üçün onlara atəşpərəst deyilirdi. Ərəb istilası məcusilərə ağır zərbə endirmiş və onların mövqelərini zəiflətmişdir. Buna görə də onlar, Hindistana köçməli olmuşdurlar. Hazırda məcusilərin az bir qismi İranın Kirman bölgəsində yaşayırlar. Hindistanda da məcusi icmaları mövcuddur. "Məcus" sözü *Quranın* 22-ci surəsinin 17-ci ayəsində keçməkdədir.

**MƏDİNƏ** – ***Ərəbistan yarımadasının Şimal-Şərqində, Hicaz bölgəsində yerləşmiş şəhərdir.*** Şəhərdə yerləşən *Məscidün-Nəbəvi* müsəlmanların müqəddəs hesab etdikləri yerlərdən biridir və bura çoxlu sayda zəvvarlar *peyğəmbərin* qəbrini *ziyarətə* gəlirlər.

*İslamdan* öncə bu şəhər Yəsrib adlanırdı və bu ad *Quranda* (33: 13) bir dəfə çəkilmişdir. Şəhərə Mədinə adını (ərəb dilində "şəhər" deməkdir) *Məhəmməd* peyğəmbər vermişdir. Şəhərin bu adı bir necə dəfə Quranda (9: 101; 9: 120, 33: 60; 63: 8) anılmışdır.

Mədinənin yerləşdiyi yer qədim dövrlərdən başlayaraq yaşayış yeri olmuşdur. Rəvayətlərə görə burada oturaq həyata köçəri Curhum və Amalika qəbilələri başlamışdırlar. Sonralar bu yerlərə *yəhudilər* də köç etmişdirlər. Onlar Məhəmməd peyğəmbərin Mədinəyə köçməsinə qədər burada yaşamışdırlar. Ehtimallara görə bu yəhudilər m. ö.VI əsrdə babillilərin darmadağın etdiyi *Qüdsdən* qaçmışdırlar. Onlar Ərəbistana gələrək Yəsribdə, Vadiül-Qürrədə, Teymədə, Xeybərdə, eləcə də Ərəbistanın digər bölgələrində məskunlaşmışdırlar. Başqa mənbələrə görə, yəhudilərin Ərəbistana köçməsi daha sonrakı dövrlərdə, miladi I əsrdə romalıların yəhudi üsyanlarını yatırmalarından sonra baş vermişdir. O zaman qırğınlardan canlarını qurtarmış yəhudilərin bir çoxu Yəsribə və başqa Ərəbistan şəhərlərinə köçmüşdülər. Ərəbistanda onlar ərəbləşmiş, ancaq öz dinlərində qalmışdırlar.

Bəzi şərqşünaslar isə hesab edirlər ki, Yəsrib yəhudiləri yəhudi dinini qəbul etmiş etnik ərəblər idilər. Zaman keçdikcə yəhudilər güclənərək curhumlularla amalikalıları şəhərdən qova bilmişdirlər. Qədimdə yəhudilərin ən güclü qəbiləsi Kaynuka olmuşdur, ancaq sonra daha iki yəhudi qəbiləsi olan Nadir və Qüreyzə güclənmiş və şəhərdə daha çox nüfuz qazanmışdırlar. O zaman onların istehkamları və qalaları da olmuşdur.

Yəsrib şəhərinin tarixində yeni dövr bu yerlərə gəlmiş iki yəmənli ərəb qəbiləsi olan *Xəzrəc* və *Evsin* məskunlaşmasından sonra başlanmışdır. Sonralar bu iki qəbilə güclənmiş və Yəsribdə nüfuz qazana bilmişdirlər. Onlarla birlikdə yəhudilər də şəhərdə yaşamağa davam etmişdirlər.

Zaman keçdikcə Xəzrəc və Evs qəbilələri arasında qarşıdurmalar baş vermişdir. Bu vəziyyət Məhəmməd peyğəmbərin və məkkəli müsəlmanların Yəsribə köçməsinə qədər davam etmişdir. Bu qarşıdurma onların arasında qanlı toqquşmalara gətirib çıxardırdı, bu da hər ikisini zəifləməsinə səbəb olmuşdur. Yəhudilər isə bu qarşıdurmalardan öz xeyirlərinə istifadə etmək məqsədi ilə hər iki ərəb qəbiləsinə yardım edirdilər. Onların arasında baş verən sonuncu Buas döyüşündən sonra şəhərdə yəhudilər yenidən güclənməyə başladılar. *İxtilaflara* son qoymaq məqsədi ilə evslilər və xəzrəclilər Məkkənin nüfuzlu *Qureyş* qəbiləsinə müraciət etmək qərarına gəldilər. Bunun üçün də onlar Məkkəyə yollandılar. O dövrdə artıq Məhəmməd peyğəmbər Məkkədə İslamı təbliğ edirdi. Ərəb qəbilələri arasında özünə tərəfdar toplaya bilmişdir. Məkkə başçıları ilə anlaşa bilməyən yəsriblilər Məhəmməd peyğəmbərlə bir neçə dəfə görüşmüş və nəticədə ona *beyət* etmişdirlər. Məhəmməd peyğəmbərin onların problemlərini çözmək iqtidarında olduğuna inanırdılar. Daha sonra Məhəmməd peyğəmbər *Müsab ibn Ümeyr* və digər bir neçə səhabəsini Yəsribdə İslamı yaymaq üçün göndərmişdir. Onlar peyğəmbərin bütün tapşırıqlarını uğurla yerinə yetirmiş, bunun nəticəsi olaraq Yəsribdə İslam dini surətlə yayılmağa başlamış, oradakı ərəblər İslamı qəbul etmişdirlər. Bundan sonra müsəlmanların *Mədinəyə hicrəti* başlamışdır.

Məhəmməd peyğəmbər Mədinəyə hicrət etdikdən sonra oradakı ərəb qəbilələrinin

arasında olan ixtilaflara son qoyuldu. Şəhər qanunlarla idarə olunmuşdur. Evslilər və xəzrəclilər *ənsar*, Məkkədən hicrət edən müsəlmanlar isə *mühacirlər* adlanmağa başlamışdırlar. Bundan sonra onlar güclü müsəlman icmasının əsasını təşkil etdilər. Yəhudilər isə Məhəmməd peyğəmbəri *Allahın* elçisi kimi tanımadılar. Buna görə də, onlarla ayrıca anlaşma bağlanıldı. Bu anlaşmaya görə onlar şəhərin bərabər hüquqlu sakinləri olaraq bütün öncəki imtiyazlarını qoruyub saxlayırdılar. Buna baxmayaraq yəhudilər ərəblərin güclənməsinə maraqlı deyildirlər. Müsəlmanlar onları Məhəmməd peyğəmbərə qarşı qəsd təşkil etməsində, *bütpərəstlərlə* onlara qarşı anlaşmalar bağlamaqda günahlandırırdılar. Sonda yəhudilərlə müsəlmanların arasında qarşıdurmalar baş vermişdir. Ancaq, bunun nəticəsi olaraq yəhudilər şəhərdən qovulmuşdurlar.

Məhəmməd peyğəmbər Mədinəyə hicrət etdikdən sonra bu şəhər müsəlmanların dini-siyasi mərkəzinə çevrilmişdir. Orada bütün ictimai məsələlərin həll edildiyi *məscid* tikilmişdir.

*Peyğəmbərin* vəfatından sonra Mədinə şəhəri ilk *Raşidi* xəlifələr *Əbu Bəkr, Ömər* və *Osmanın* (11/632-35/656) xəlifəlikləri dövründə Xilafətin paytaxtı olmuşdur. Xəlifə Əlinin (35/656-40/661) hakimiyyəti dövründə Xilafətin Kufəyə, *Əməvilərin* dövründə isə Dəməşqə köçürülmüşdür.

Xilafət paytaxtının başqa şəhərlərə köçməsi ilə Mədinənin siyasi əhəmiyyəti kiçilmişdir. Ancaq buna baxmayaraq o dövrlərdə şəhər İslam dünyasının böyük mədəni və dini mərkəzinə çevrilmişdir. Çünki mədinəlilər Məhəmməd peyğəmbərin və onun səhabələrinin mirasını qoruyub saxlamışdılar. Buna görə də, Xilafətin hər yerindən *elm* adamları Mədinəyə gələrək burada İslam elmlərini və *adətlərini* öyrənirdilər. Beləliklə, müsəlman ənənəsinin formalaşmasında bu şəhər böyük rol oynamışdır.

Əməvi xəlifəsi Müaviyənin ölümündən sonra Xilafətdə daxili vəziyyət gərginləşmiş, vətəndaş qarşıdurması başlamışdır. Mədinəlilər yeni xəlifə Yəzidə beyət etməkdən imtina etdiklərinə görə onlara qarşı ordu yeridilmişdir. O hadisələr zamanı şəhərdə zorakılıq və talanlar baş vermişdir. Əməvi hakimiyyətinin son illərində şəhəri *xaricilər* ələ keçirmişdilər. O hadisələr zamanı da şəhərə zərər yetirilmişdir. Sonrakı illərdə Mədinəni hücumlardan qorumaq üçün Ədudəd-Dövlə şəhərin həndəvərlərində qala divarları inşa etdirmişdir. Ancaq, divarlar bütün şəhəri əhatə etmirdi. Buna görə Suriya atabəyi Nurəddin Zəngi 557/1162-ci ildə bütün şəhəri əhatə edən ikinci qala divarını tikdirmişdir. 654/1256-cı ildə isə Mədinənin yaxınlığında püskürən vulkan şəhər üçün böyük təhlükə yaratmışdır. Ancaq vulkanın tullantıları şəhərdən yan keçərək şimala doğru axmışdır. Şəhərdə baş vermiş ikinci ağır hadisə *Məscidün-Nəbəvidə* baş vermiş yanğın olmuşdur. O zaman Məhəmməd peyğəmbərin üstündə *xütbələr* dediyi *minbər*, eləcə də onun və səhabələrinin əşyaları məhv olmuşdur.

Osmanlı sultanları Mədinəni ələ keçirdikdən sonra şəhərdə yenidənqurma və tikinti işləri aparılmışdır. Türk sultanı I Süleyman Qanuninin dövründə şəhəri əhatə edən 25 metr hündürlükdə divar tikilmişdir. Divarın önündə isə dərə qazılmış, su ilə doldurulmuşdur. O dövrədə yeni mənbələrdən şəhərə su çəkilmiş, Mədinənin su təminatı yaxşılaşdırılmışdır. Türk sultanları "İki müqəddəs yerin qulluqçusu" (Xadim-i Harameyn) adını daşıyaraq Məscidün-Nəbəvi'də 16 dəfə yenidənqurma işləri aparmışdılar.

1804-cü ildə isə Mədinə şəhərini *vəhhabilər* ələ keçirmişdirlər. Onlar oradan yalnız 1814-cü ildə çıxarılmışdırlar. Vəhhabilərə qarşı döyüşlərə *Misir* sultanı Məhəmməd Əli başçılıq etmişdir.

1901-ci ildə türk sultanı II Əbdülhəmid strateji əhəmiyyət kəsb edən İstanbul-Mədinə dəmir yolunu tikdirmişdir. Dəmir yolunun tikintisi 1908-ci ildə başa çatdırılmışdır. Ancaq, birinci dünya müharibəsi başlandıqdan sonra, Mədinənin şərifi Hüseyn ingilislərin tərəfinə keçərək özünü Hicazın kralı elan etmiş və türklərə qarşı müharibəyə başlamışdırlar. Osmanlı imperiyası birinci dünya müharibəsində məğlub olduqdan sonra, türk qoşunları Hicazdan çıxmalı olmuşdurlar. 1342/1924-cü ildə Nəcdin Əl-Səud sülaləsindən olan məliklər Hicaz üzərində hakimiyyəti öz əllərinə ala bilmişdirlər. Onlar şəhərdə çoxlu tikinti işləri aparmış, ictimaiyyət üçün önəmli obyektləri tikmiş, qonaq evlərini ucaltmış, yollar və müasir infrastrukturu yaratmışdırlar. Məscidün-Nəbəvi və başqa dini obyektlər mütəmadi olaraq yeniləşdirilmişdir.

**MƏDİNƏYƏ HİCRƏT** – ***müsəlmanların təqib olunmaları səbəbi ilə miladi 622-ci ildə Məkkədən Mədinəyə köçmüşdürlər.*** Hələ *Məkkədə* olarkən Məhəmməd *peyğəmbər* Ərəbistanın müxtəlif bölgələrində yaşayan insanları *İslama* dəvət edirdi. Onların arasında *Mədinədən* gələn zəvvarlar da olmuşdur. Onlar peyğəmbərlə görüşdükdən sonra İslamı qəbul etmişdirlər. Bundan sonra iki *həcc* mövsümündə mədinəlilər *Əqəbədə* ona sadiq olacaqlarına and içmişdirlər. Bundan sonra *Məhəmməd* peyğəmbər Mədinə müsəlmanları ilə yaxın münasibətdə olmuşdur və ilk əvvəl İslam dininin əsaslarını onlara öyrətmək üçün öz səhabələrini Mədinəyə göndərmişdir. Müsəlmanların Mədinəyə köçməsinə qədər mədinəlilərin çoxu artıq İslamı qəbul etmiş, Məkkə müsəlmanlarına sığınacaq verməyə hazır olmuşdurlar.

Bu arada Məkkədə müsəlmanlara qarşı təqiblər dözülməz hala gəlib çatmışdır. Buna görə də, Məhəmməd peyğəmbər bütün müsəlmanlara Mədinəyə hicrət etmələrini əmr etmişdir. *Qureyşlilər* isə o zaman peyğəmbərə qarşı uğursuz sui-qəsd təşkil etmişdirlər. Ancaq, o zaman o evindən uzaqlaşıb Mədinəyə doğru yola düşmüşdür. Şəhərə daxil olan Məhəmməd peyğəmbəri şəhər sakinləri böyük coşqu ilə qarşılamış və salamlamışdırlar. O zaman müsəlmanların əksəriyyəti artıq Məkkəni tərk edib Mədinəyə hicrət etmişdirlər. Köç prosesi bundan sonra da müəyyən müddət davam etmiş və müsəlmanların çoxu Mədinədə məskunlaşmışdırlar. Mədinəyə hicrət İslam tarixinin ən önəmli hadisələrindən biridir. Məhz, Mədinəyə hicrətdən sonra müsəlman icması möhkəmlənmiş və *müşriklər* üzərində qələbə çalmışdır. Sonralar yaranacaq İslam dövlətinin əsasları da məhz burada qoyulmuşdur.

**MƏDYƏN** – ***Quranda Allahın cəzalandırdığı günahkar xalqlardan biridir.*** Onları düz yola dəvət etmək üçün Allah o bölgəyə *Şüeyb peyğəmbəri* göndərmişdir. Ancaq onun səylərinə baxmayaraq mədyanlıların çoxu onu rədd etmiş, fitnə və *fəsad* törətməkdə davam etdirmişdirlər. Buna görə də, Allah onları yer üzündən silmişdir.

**MƏFKUF** – f***iqhdə hər hansı bir işin görülməsində başqa adamların hüquqlarının nəzərə alınmasıdır.*** Məsələn, əgər hər hansı bir şəxs başqa bir şəxslə birlikdə əldə etdikləri bir malı başqasına satmaq istəsə, bunu yalnız onun razılığını aldıqdan sonra edə bilər.

**MƏĞRİB** – ***günəşin batdığı yer və ya vaxtdır.*** O zaman *vacib* olan məğrib *namazı* qılınır. Onun müddəti günəşin batmasından başlayıb, vacib gecə namazının vaxtına qədər davam edir.

**MƏHƏMMƏD** – ***İslam əqidəsinə görə Allahın göndərdiyi sonuncu peyğəmbər (Xatəmül-Ənbiya), müsəlman ümmətinin dini lideri, Ərəbistanın ictimai-siyasi xadimi olmuşdur.*** Məhəmməd *peyğəmbər* Ərəbistanın *Məkkə* şəhərində miladi təqvimlə təxminən 570-ci ildə anadan olmuşdur. Onun soyu Qüreyş qəbiləsinin nüfuzlu *Haşimilər* soyundan idi. Atası Abdullah səfərdə olarkən Məhəmmədin dünyaya gəlməsindən az əvvəl *Mədinə* yaxınlığında vəfat etmişdir. Anası *Əminə* Məhəmmədi Həlimə adlı süd anasına vermiş və o onun yanında bir neçə il qalmışdır. *Məhəmmədin* altı yaşı olanda anası Əminə də vəfat etmişdir. Yetim qalmış Məhəmmədi babası *Əbdülmüttəlib* himayəsinə götürmüşdür. Əbdülmüttəlibin ölümündən sonra isə əmisi Əbu Talib Məhəmmədi öz oğlu kimi böyütmüş, onu tərbiyə etmişdir. O, Əbu Talibin evində qalmış, onun qoyunlarını otarmış, ticarət işlərinə cəlb olunmuşdur. Rəvayətlərə görə Əbu Talib Suriyaya ticarət məqsədi ilə getdikdə Məhəmmədi də özü ilə aparmışdır. Bəsrədə onlar Bəhirə adlı bir xristian rahibinə rast gəlmişlər və o, Məhəmmədin peyğəmbər olacağı müjdəsini vermişdir. Məhəmməd 15 yaşında olarkən qüreyşlilərin Qeys Əylan qəbiləsinə qarşı Ficar savaşında iştirak etmişdir. Döyüş zamanı o, öz əmilərinə ox verdiyi rəvayət olunur. Daha sonra gənc Məhəmməd ticarətlə məşğul olmuşdur. *Xədicə* adlı orta yaşlı varlı və nüfuzlu bir xanım ona mallarını Suriyaya aparıb satmağı həvalə etmişdir. Məhəmməd bu işi uğurla yerinə yetirdikdən sonra, Xədicənin etibar və etimadını qazanmışdır. Sonralar isə O, Xədicə ilə evlənmişdir. Bu izdivacdan onların dörd qız, bir oğlan övladları dünyaya gəlmişdir.

Həyatının müəyyən dövründə Məhəmməd Məkkə yaxınlığındakı mağaralarda inzivaya çəkilib *Allaha* ibadət edirdi. Rəvayətlərə görə miladi 610-cu ilin *Ramazan* ayında 40 yaşlı Məhəmməd Hira dağında ibadətlə məşğul olarkən onun yanına Allahın ən böyük *mələklərindən* biri olan Cəbrayıl gəlmiş, *Quranın* (96: 1-3) ilk *ayələrini* ona oxumağı əmr etmişdir. Rəvayətlərə görə bu hadisədən sonra *vəhyin* arası kəsilmiş və o zaman Məhəmməd mənəvi sıxıntılar keçirmişdir. Ancaq sonra ayələrin nüzulu sürəkli davam etmişdir. İlk dövrlər Məhəmməd peyğəmbər dini yalnız qohumları və dostları arasında yaymış, açıq olaraq xalqa müraciət etməmişdir. Bir neçə il sonra isə o açıq dəvətə başlamışdır (Quran, 15: 94).

Bu ayələr nazil olduqdan sonra Məhəmməd peyğəmbər, Haşim soyundan olan qohumlarını evinə toplamış, onları *İslam* dini ilə tanış etmişdir. Ancaq onlar onun peyğəmbərliyini tanımamışdırlar. Bundan sonra Məhəmməd Məkkədəki Səfa adlanan təpəyə qalxaraq məkkəlilər qarşısında çıxış etmiş, onları Allaha inanmağa, onun peyğəmbərlərini tanımağa, *bütpərəstlikdən* çəkinməyə çağırmışdır. Ancaq bu cəhd heç bir nəticə verməmişdir. Buna baxmayaraq Məhəmməd İslamı təbliğ etməkdə davam etmiş və bunun nəticəsi olaraq məkkəlilərin bir hissəsi onun peyğəmbərliyini qəbul etmişdirlər. Bundan narahat olan Məkkə başçıları onları təqib etmişdirlər. Buna görə də, müsəlmanların bir hissəsi *Həbəşistana* hicrət etmişdirlər. Daha sonra Məhəmməd başqa ərəb qəbilələri arasında İslamı təbliğ etməyə başlamışdır. Bu işdə onun ən böyük uğuru Mədinənin ərəb əhalisinin onun peyğəmbərliyini tanımağı olmuşdur.

Miladi 622-ci ildə Məhəmməd peyğəmbər Məkkə müsəlmanları ilə birlikdə *Mədinəyə hicrət* etmiş və burada güclü müsəlman icmasını yarada bilmişdir. Bu icmanın əsasını Məkkədən köçən *mühacirlərlə*, Mədinənin *Evs* və *Xəzrəc* qəbilələrinin nümayəndələri olan Ənsarlar təşkil etmişdirlər. Bu şəhər dövlətdə qanunlara əsaslanan ictimai həyat təşkil edildi. Beləliklə, bütün ərəb qəbilələrinin qardaşlığı elan olundu. İslamı

qəbul etməyən *yəhudilərlə* onların hüquqlarını qoruyan xüsusi anlaşma əldə edildi. Ancaq, sonra baş vermiş bir neçə *ixtilaflar* nəticəsində onlar şəhəri tərk etməli olmuşdurlar.

Hicrətdən sonra müsəlmanlarla məkkəlilərin arasında döyüşlər başlamışdır. Bu döyüşlərdə Məhəmməd peyğəmbərin başçılığı ilə müsəlmanlar qalib gəlmişdirlər. Məkkənin fəth olunmasından sonra İslam bütün Ərəbistanda yayılmışdır. Məkkəyə daxil olan Məhəmməd peyğəmbər ərəblərin sitayiş etdikləri bütlərin darmadağın edilməsini əmr etmişdir. Məhəmməd peyğəmbər hicrətin 11-ci ilində Mədinədə vəfat etmişdir.

**MƏHƏMMƏD BAQİR** (57/676 – 114/732) – ***isna-əşəri şiələrinin beşinci imamıdır.*** Adı Məhəmməd ibn Əli, ləqəbi isə Baqirdir. "Baqir" elmləri açan deməkdir. O, dördüncü imam Əli Zeynülabidinin oğludur. Hicrətin 57-ci ilində dünyaya gəlmişdir. Kərbəla hadisəsində dörd yaşında idi. Atasından sonra *Allahın* əmri və imamların *vəsiyyəti* üzərinə *imamət* məqamına ucalmışdır. 104 və ya 107-ci ildə (Şiə rəvayətlərinə görə Əməvi *xəlifəsi* Hişamın qardaşı oğlu İbrahim ibn Vəlid ibn Abdülməlikin vasitəsilə zəhərləndirilmişdir) *şəhid* olmuşdur.

Beşinci imamın dövründə Üməyyə oğullarının zülmləri daha da artmışdır. Ancaq sonralar, *İslam* coğrafiyasının hər bir tərəfində müxtəlif üsyanlar və müharibələr, digər tərəfdən öz aralarında baş vermiş anlaşılmazlıqlar Üməyyə oğullarını əhli-beytlə uğraşmaqdan bir qədər çəkindirmişdir. Məhəmməd Baqir İslami elmlər üzrə böyük alim olmuşdur. O, əsasən hədis və rical elmlərində irəliləmişdir.

**MƏHƏMMƏD İBN ƏBDÜLVƏHHAB** (1116/1703 – 1206/1792) – ***XII/XVIII əsrdə Ərəbistan yarımadasında yaşamış din islahatçısı və siyasi xadim olmuşdur***. İbn Teymiyyə irsinin davamçısı olan Əbdülvəhhab *Vəhhabi* hərəkatının qurucusu kimi tanınmışdır. Bu hərəkatının ideoloqu olaraq o, müsəlmanları dinin sonradan gətirilmiş *bidətlərdən* təmizlənməsinə çağırırdı. Müqəddəslərin *məzarları* üstündə tikililərin ucaldılmasını, onların məscidlərə *çevrilməsini* və orada ibadət etməyin yolverilməz olduğunu hesab etmişdir.

Məhəmməd ibn Əbdülvəhhab Ərəbistanın mərkəzində yerləşən Nəcd vilayətində 1116/1703-cü ildə doğulmuşdur. Riyadın yaxınlığında yerləşən Üyəynada qazi (II) ailəsində dünyaya göz açmışdır. Sonra o, Ərəbistan və Osmanlı imperiyasının müxtəlif bölgələrinə səyahət etmişdir. Onun haqqında qeyd edilir ki, o səfərlərdə yerli xalqların *adət-ənənələri* və inancları ilə tanış olmuşdur. Onların müqəddəslərin qəbirləri üzərində ucaltdıqları məqbərələr və orada onların ibadət etmələri, eləcə də mövhumatlara inandıqlarını *İslama* zidd davranış kimi dəyərləndirmişdir. Bəsrədə olanda o ilk bidətlərə qarşı çıxış etmiş, insanları *Məhəmməd peyğəmbərin* və onun səhabələrinin tutduğu yola qayıtmağa dəvət etmişdir. Ancaq onun dində bidət saydıqları şeylər haqqında yürütdüyü fikirləri hamı qəbul etməmişdir. Bu barədə digər ilahiyyatçılar fərqli fikirlər irəli sürmüşdürlər. Buna baxmayaraq Məhəmməd ibn Əbdülvəhhabın çoxlu aktiv davamçıları olmuşdur. Sonralar onlar "vəhhabilik" adlanan dini-siyasi hərəkata çevrilmişdirlər. Nəticədə bu təlim Nəcddə geniş yayılmışdır.

Öz doğma şəhəri Üyəynaya qayıdandan sonra Məhəmməd ibn Əbdülvəhhab buranın valisi olan Osman ibn Həmmad ibn Muəmmarın dəstəyini qazana bilmişdir. Onun köməyi ilə o, tərəfdarları ilə birlikdə yerli əhalinin ibadət etdikləri müqəddəs yerləri dağıtmağa başlamışdır. Bu barədə xəbərlər bütün Ərəbistanda yayılmışdır. 1157/1744-cü ildə Dəriyəyə köçmüş, buranın valisi Məhəmməd ibn Səudla əlaqələr qura

bilmişdir. Bundan sonra o, daha da çox tanınmışdır. Ərəbistanın başqa yerlərindən gəlmiş davamçıları Dəriyədə onun ətrafında birləşməyə başlamışdırlar. Buradan onlar yaxınlıqda olan bölgələrə yürüşlər etməyə başladılar. Beləliklə, Nəcddə Səud sülaləsinin başçılıq etdiyi Dəriyə əmirliyi güclənməyə başladı. Sonralar bu sülalə Məhəmməd ibn Əbdülvəhhabın təliminin davamçıları olmuşdurlar. Onun ölümündən sonra vəhhabilik hərəkatı daha da genişlənmişdir. Məhəmməd ibn Əbdülvəhhabın təliminin ortaya çıxması və güclənməsi Osmanlı imperiyasının zəifləməsi və dərin böhran keçirməsi ilə bağlı idi.

**MƏHƏMMƏD İBN ƏLİ** (195/816 – 220/835) – ***şiələrin doqquzuncu imamıdır.*** Onu Təqi və ya Cavad da adlandırmışdırlar. O, *Mədinədə* yaşayırdı. *Əli ibn Musanın* (Rızanın) oğlu olmuşdur. Məhəmməd ibn Əli *Quran, hədis* və *İslam* hüququnun mahir bilicisi olmuşdur. *Xəlifə* Məmun (198/813 – 218/833) Məhəmməd ibn Əlini Bağdada dəvət etmiş, ona böyük hörmət və izzət göstərmiş, öz qızını ona vermişdir. Bundan sonra Məhəmməd ibn Əli yenidən Mədinəyə qayıtmışdır. Xəlifə Mötəsimin (218/833 – 227/842) hakimiyyəti zamanı Məhəmməd ibn Əli yenidən Bağdada dəvət edilmişdir. O, ömrünün sonuna qədər orada yaşamış və orada da vəfat etmişdir. Həyat yoldaşı tərəfindən zəhərləndiyi ehtimalı da vardır.

**MƏHƏMMƏD İBN HƏSƏN** (255/868-ci ildə doğulmuşdur) – ***isna-əşəri şiələrinin zühurunu gözlədikləri Mehdidir.*** Rəvayətlərə görə hicri 260-cı ildən 329-cu ilə qədər atasının ölümündən sonra Məhəmməd ibn Həsən *şiələrlə* yalnız ona yaxın olan adamları vasitəsi ilə əlaqə saxlamışdır. Bu dövr imamın “kiçik qeybi” adlanır. Hicrətin 329-cu ildən sonra “böyük qeyb” dövrü başlamışdır. Bu dövr şiə inancına görə günümüzə qədər davam etməkdədir.

İsna-əşəri şiələrinin inancına görə gələcəkdə gəlişi gözlənilən *Mehdi* Allahın buyuruğu ilə Məkkədə zühur edəcəkdir. Onun gəlişinə inananlar orada toplaşacaqlar. Bu zaman onun zühuruna inanan bütün ölmüş insanlar diriləcəkdir. Onlar *Dəccalla* vuruşacaq və yer üzündə ədalət bərpa ediləcəkdir.

**MƏHƏMMƏD İBN SİRİN** (110/729-cu ildə vəfat etmişdir) – ***məşhur hədis rəvayətçilərindən biri olmuşdur.*** Xəlifə *Osmanın* dövründə kölə kimi doğulmuş, sonra isə azadlığını qazanmışdır. *Zeyd ibn Sabit, Ənəs ibn Malik, Əbu Hüreyrə, Hüzeyfə ibn Yəmən* kimi *peyğəmbərin* otuza qədər səhabələri ilə görüşmüş onlardan eşitdiyi *hədisləri* rəvayət etmişdir. Onlar bir çox tanınmış hədis məcmuələrində yer almışdır.

**MƏHƏRRƏM** – ***hicri-qəməri təqviminin birinci ayıdır.*** *İslamdan* əvvəl Ərəbistanda bu aya *Rəcəb, Zülqədə* və *Zülhiccə* ayları kimi xüsusi ehtiram edilmişdir. Bu aylarda ərəb adətinə görə müharibə etmək və qan tökmək *haram* idi. Ona görə də, bu aylar “haram” aylar adlanırdı. Məhərrəm ayının onuncu günü olan *Aşurada* İslam üçün əhəmiyyət kəsb edən hadisələr baş vermişdir.

**MƏHRƏM** – ***fiqhdə kişi üçün evlənməsi qadağan olunmuş qadınlardır.*** Müsəlman üçün öz anası və nənəsi, qızı və nəvələri, bacısı və bacısı qızı, qardaşı qızı, gəlini, xalası və bibisi, ərli və kafir qadınlarla evlənmək *haramdır*.

**MƏHŞƏR** – ***qiyamət günü insanların dirildikdən sonra mühakimə edilmək üçün bir yerə yığışacağı yerdir***. O gün yer üzündə yaşamış hər bir insan dirilərək *Allah* qarşısında əməllərinə görə cavab verəcəkdir (*Quran*, 45: 22). Hər bir kəsin etdiyi əməllər *mizanda* dartılacaq (Quran, 42: 17), tərəzinin

bir gözünə yaxşı, digər gözünə isə pis əməllər qoyulacaqdır. Bundan sonra *möminlər cənnətə, kafirlər* isə *cəhənnəmə* girəcəklər.

**MƏKKƏ** – ***Ərəbistan yarımadasının Hicaz bölgəsində yerləşən qədim bir şəhərdir.*** Burada müsəlmanların ən müqəddəs *məscidi* olan *Məscidül-Haram* və *Kəbə* evi yerləşir (*Quran* 3: 96). Rəvayətlərə görə Məkkə şəhərinin tarixi *cənnətdən* yer üzünə qovulmuş və bu yerlərdə yaşamış ilk insan *Adəmdən* başlayır. O, Kəbənin yerində ev tikmişdir. Ancaq Nuhun dövründə baş vermiş tufan onu dağıtmışdır.

Yenə rəvayətlərə görə bu yerlərin sonrakı tarixi *İbrahim* peyğəmbərlə bağlıdır. O, həyat yoldaşı *Həcəri* və oğlu *İsmaili* bu yerlərə gətirmişdir. Ana və oğul orada susuz qalmış, sonra isə möcüzə baş vermiş, qızmar çöldə Zəmzəm bulağı qaynamağa başlamışdır. Zəmzəmin möcüzəvi qaynamasından sonra bu yerlər yaşayış üçün yararlı olmuşdur. Bir qədər sonra isə o yerlərə Yəməndən Curhum qəbiləsi köçmüşdür. Bundan sonra müasir Məkkənin yerləşdiyi yerlərdə həyat canlanmışdır. Həcərin ölümündən sonra yetkinlik yaşına çatmış İsmail curhumlu bir qızla evlənmişdir. Ancaq, sonra bu qadınla boşanaraq, Curhum qəbiləsinin başçısının qızı ilə evlənmişdir. Bu evlilikdən onun 12 oğlu olmuşdur. Onlar ərəblərin əcdadları hesab edilirlər. Sonra Ərəblər bütün Ərəbistana yayılmışdırlar. Məkkədə isə İsmailin Kidar adlı oğlunun nəsli qalmışdır. Qüreyş qəbiləsi də onlardan gəlir.

Rəvayətlərə görə İbrahim *peyğəmbər* tez-tez Həcər ilə oğlu İsmailin yanına Məkkəyə gəlirdi. Gəlişlərinin birində o, İsmaillə birlikdə Kəbə evini inşa etmişdir. İsmailin soyu bu torpaqlarda uzun müddət yaşamış, sonra isə o yerlərə Yəməndən Hüzəə qəbiləsi gəlmişdir. Curhumlular onların orada yerləşməsinə icazə verməmişdirlər. Hicrətdən öncə 415-ci ildə (miladi 207-ci ildə) bu qəbilələrin arasında baş vermiş döyüşdə hüzəəlilər qalib gəlmiş, Məkkəni ələ keçirmişdirlər. Hüzəəlilər 300 il boyu şəhərə başçılıq etmişdir. Rəvayətlərə görə onların dövründə İbrahim və İsmaildən gələn *adətlər* unudulmuş, Məkkədə *bütpərəstlik* geniş yayılmışdır. Hüzəəlilər çoxlu tanrılara tapınırdılar. Onların baş tanrısı Hubəl o zaman Məkkənin baş tanrısı sayılmış, onun *bütü* Kəbədə yerləşdirilmişdir.

Hicrətdən 182 il öncə (miladi 440-cı ildə) Qüreyş qəbiləsinin başçısı Qüsay hüzəəliləri məğlub edə bilmişdir. Bu uğurdan sonra qüreşlilər şəhərdə nüfuz qazanmışdırlar. Qüsay Məkkədə bərpa işlərini aparmış, şəhərin özünü idarəetmə sistemini yaratmışdır. O zaman *həcc*, eləcə də başqa dini ayinlərin yerinə yetirilməsi ilə bağlı problemlər həll edilmişdir. Qüsaydan sonra Məkkənin hər hansı bir başçısı olmamışdır. Şəhərin idarə edilməsində bütün nüfuzlu ailələrin nümayəndələri iştirak edirdilər. *İslamın* ilk dövrlərində şəhəri *Darun-Nədva* adlanan bir qurum idarə edirdi. Onun işinə 40 yaşına çatmış bütün azad kişilər qatıla bilərdilər.

Qüreyşlilər də Hüzəəlilər kimi bütlərə tapınırdılar. O zaman hər il Məkkəyə həccə zəvvarlar gəlirdilər. Kəbədə isə ərəblərin bütləri yerləşdirilmişdir. Qədim məkkəlilərin hər hansı bir hüquq sistemi olmamışdır. Bütün mübahisəli məsələlər müxtəlif qəbilələrin başçılarının hökmləri ilə çözülürdü. Əgər bu yolla məsələ həll edilmirdisə, onda ən nüfuzlu və tanınmış şəhər sakinlərinə müraciət edilirdi. Çıxarılmış hökmlərin icrası mexanizmi də olmamışdır. Çox vaxt sakinlər çıxarılmış hökmlərin tətbiq edilməsi üçün gücə əl atırdılar. Bununla yanaşı, problemlərin çoxunun həll edilməsində falçılara və kahinlərə müraciət edilirdi.

İsti və quru iqlim, eləcə də təbii sərvətlərin yoxluğu məkkəliləri ticarətlə məşğul olmağa vadar edirdi. Məkkəyə xü-

susən həcc vaxtı çoxlu zəvvarların gəlməsi ticarət üçün əlverişli şərait yaradırdı. Rəvayətlərə görə bir kərə Məkkəni Həbəşistan kralı Əbrəhə işğal etmək istəmiş, ancaq bir möcüzə nəticəsində onun ordusu məhv olmuşdur. Məkkənin tarixində ən önəmli hadisə bu şəhərdə İslamın yaranması və Məhəmməd peyğəmbərin fəaliyyəti olmuşdur. Bundan sonra şəhərin ictimai-siyasi durumu dəyişmişdir. O zamanlar əsrlər boyu öz adətləri ilə yaşayan ərəblərin öyrəncəli həyat tərzi dərin böhranda idi. Buna görə də, müsəlmanlarla öyrəncəli həyat tərzinin saxlanılmasını istəyən mühafizəkar məkkəlilər arasında qarşıdurmalar baş vermişdir. Məhəmməd peyğəmbər və onun ilk davamçıları ağır təqiblərə uğramışdırlar. Bu təqiblərdən qurtarmaq üçün onların bir qismi *Həbəşistana hicrət* edərək orada sığınacaq tapmışdırlar. Bundan 13 ilə yaxın müddət keçdikdən sonra müsəlmanların çoxu Məkkədən *Mədinəyə hicrət* etmiş, orada yerli əhali ilə birlikdə ilk müsəlman cəmiyyətini yaratmışdırlar. Bundan sonra məkkəli bütpərəstlərlə mədinəli müsəlmanlar arasında müharibə baş vermişdir. Müsəlmanlar bu savaşda qalib gəlib hicrətin 8-ci ilində Məkkəni ala bilmişdirlər. Məhəmməd peyğəmbər Kəbə evinə girərək oradakı bütün *bütləri* dağıtmışdır.

Məkkə islamlaşdıqdan sonra onun siyasi əhəmiyyəti kiçilmişdir. Məhəmməd peyğəmbərin ölümü, müsəlman torpaqlarının genişlənməsindən sonra Məkkə Xilafətin başqa mərkəzlərindən uzaqda yerləşdiyinə görə vilayət şəhərinə çevrilmişdir. Ancaq bununla belə şəhərin dini önəmi artmışdır. Kəbə evinin yerləşdiyi bu şəhər təkcə ərəblərin deyil, bütün dünya müsəlmanlarının dini mərkəzinə çevrilmişdir. Müsəlmanlar ibadətlərin çoxunu üzlərini *qiblə* olan Kəbəyə çevirərək yerinə yetirirlər.

Raşidi və ilk Əməvi xəlifələrinin dövründə Kəbə və onun ətrafında yenidənqurma işləri aparılmışdır. Ancaq ən iri miqyaslı dəyişikliklər Əməvi *xəlifəsi* Əl-Validin vaxtında edilmişdir. O zaman Kəbənin çevrəsində məscid kompleksi tikilmişdir. Tikintinin gedişi zamanı Məkkəyə Xilafətin müxtəlif bölgələrindən ən yaxşı memarlar və bənnalar gətirilmişdir.

*Əməvilər* dövründə Məkkə Hicazın valilərinə tabe etdirilmişdir. O dövrdə orada müxtəlif hadisələr, silahlı qarşıdurmalar baş verirdi. 64/684-cü ildə Məkkəni xəlifə Yəzid ibn Müaviyənin xəlifəliyinin tanımayan *Abdullah ibn Zübeyr* öz paytaxtına çevirmişdir. O, Əməvi ordusuna müqavimət göstərə bilmişdir. Döyüşlərin getdiyi vaxt xəlifə Yəzidin öldüyü xəbəri gəlmişdi. Buna görə Əməvi ordusu geri çəkilmişdir. Bundan sonra Abdullah ibn Zübeyr öz hakimiyyətini Xilafətin böyük bir hissəsinə yaya bilmişdir. Buna görə o, xəlifə kimi tanınmış, 10 ildən çox Məkkədən ona *beyət* etmiş bölgələri idarə etmişdir.

Ancaq Dəməşqdə Əbdül-Məlik ibn Mərvan hakimiyyətə gəldikdən sonra *Əməvilər* yenə güclənmişdirlər. 73/692-ci ildə Həccacın başçılığı altında Əməvi ordusu Məkkəyə doğru irəliləyərək şəhəri ala bilmişdir. Abdullah ibn Zübeyr bu döyüşdə həlak olmuşdur.

129/747-ci ildə isə Məkkəni Yəməndən gəlmiş *xaricilər* ələ keçirmişdirlər. Ancaq həmin ildə Əməviləri devirmiş *Abbasilərin* qoşunu şəhəri azad edə bilmişdirlər. Bundan sonra 132/750-ci ildən 349/961-ci ilə qədər Məkkəni Abbasi xəlifələrinin təyin etdiyi başçılar idarə etmişdirlər.

303/916-cı ildən başlayaraq Ərəbistan yarımadasında Məkkəyə gedən bütün yolları *qərmətilər* kəsmişdirlər. Onlar bura zəvvarları buraxmırdılar. 317/930-cu ildə qərmətilər Məkkəni ələ keçirərək Kəbədəki *Həcərül-Əsvəd* daşını şəhərdən çıxarıb özləri ilə aparmışdılar. Bir müddət keçdikdən sonra onlar daşı parçalanmış halda geri qaytarmışdırlar.

357/968-ci ildə Məkkə Fatimi xəlifələrinin nəzarəti altına keçmişdir. O zamandan başlayaraq şəhər Həsən ibn Əlinin soyundan olan "*şəriflər*" idarə edirdilər. Şəriflər müstəqilliyə can atdığı üçün onların *Fatimilərlə* qarşıdurmaları olmuşdur.

922/1517-ci ildə Hicazı türk sultanı I Səlim Yavuz ələ keçirib Osmanlı imperiyasının tərkibinə qatmışdır. Türk sultanları Məkkə şəriflərinin nüfuzunu saxlamış, onları özlərinə tabe etdirmişdirlər. Osmanlıların dövründə şəhərdə və *Məscidül-Haramda* tikinti və təmir işləri aparılmışdır.

1218/1803-cü ildə Məkkəni *vəhhabilər* ələ keçirmişdirlər. Ərəbistanda hakimiyyətini bərpa üçün türk sultanı II Mahmud Misir valisi Məhəmməd Əliyə müraciət etmişdir. O da 1228/1813-cü ildə Məkkəni geri qaytara bilmişdir.

Birinci dünya müharibəsi zamanı ingilislərdən dəstək alan Məkkə şərifi Hüseyn Osmanlı sultanına tabe olmaqdan imtina etmişdir. 1344/1926-cı ildə Əl-Səud sülaləsinin məliki Əbdül-Əziz Məkkəni ələ keçirmişdir. Səudiyyəlilər Məkkədə təmir-tikinti işləri aparmış, burada yeni binaları ucaltmış, qonaq evlərini tikmiş, yollar salmış, müasir infrastrukturu qurmuşdurlar. Məscidül-Haramda, eləcə də başqa dini obyektlərdə də yenidənqurma işləri aparılmışdır.

**MƏKRUH** – ***fiqhə görə haram olmayan, ancaq edilməsi də xoş qarşılanmayan əməldir.*** Məkruh anlayışına İslam *məzhəblərində* fərqli yanaşmalar vardır. Hənəfi məzhəbinə görə *haram* olan bir şey *Quranda* və ya *mütəvatir hədislərdə* açıq və aydın göstərilməlidir. Bu *şərt* ortada olmazsa, heç bir şeyi haram hesab etmək olmaz. *Əhəd* hədislərlə nəyinsə haram və ya məkruh olması hökmü verilmir. Buna görə də, hənəfilərdə məkruh iki növdür: təhrimən məkruh və tənzihən məkrun.

Təhrimən məkruh əhəd hədislərdə *Məhəmməd* peyğəmbərin haram etdiyi şeylərdir. Onların dərəcəsi harama çox yaxın olduğuna görə edilməsi *günah* sayılır. Tənzihən məkruh isə Məhəmməd *peyğəmbərin* açıq-aydın qadağan etmədiyi, ancaq buna işarə etdiyi şeylərdir. Onların günah dərəcəsi nisbətən yüngül olsa da, görülməsi məsləhət deyildir.

Başqa məzhəblərdə isə belə bir bölgü yoxdur. Onlarda hənəfilərin "təhrimən məkruh" kimi adlandırdıqları şeylər haram sayılır. Məkruh isə yalnız hənəfilərin "tənzihən məkruh" adlandırdığı şeylərə aid edilir.

**MƏQAMÜL-İBRAHİM** – ***Kəbə inşa edilən zaman İbrahim peyğəmbərin durduğu yerdir.*** Günümüzdə *Məscidül-Haramda* həmən yerdə kiçik bir günbəzli tikili ucaldılmışdır. Rəvayətlərə görə Allah *İbrahim* peyğəmbərə *Kəbə* evini tikməyi buyurmuş, o da həmən işi icra etməyə başlamışdır. *İsmail* onun üçün daş gətirmiş, o isə tikintini aparmışdır. Bir daşı da o ayaqları altına qoymuş, onun üzərinə çıxmışdır. Onun üzərində də İbrahim *peyğəmbərin* ayaq izi qalmışdır. Məqamül İbrahim *Quranın* 3: 97 ayəsində anılır.

**MƏLAMƏTİLƏR** – ***Xorasanda yaranmış sufi təriqətlərindən biridir***. *Təriqətin* yaranması sufi Həmdun Kəssarın (271/884-cü ildə vəfat etmişdir) adı ilə bağlı olmuşdur. Məlamətilərin təliminə görə, insanın özü-özünü ən böyük günahkar saymalı, nə baş versə onun səbəbini özündə görməlidir. Buna "məlamət" deyilir. Bunun üçün *Allaha* içdən gələn sevgi ilə ibadət etmək, onun mərhəmətinə inanmaq lazımdır. Məlamətilər hesab edirdilər ki, insanların çoxu yalnız *zahirdən* özlərini dindar kimi göstərirlər. Bunu başqaları görsün deyə edirlər. Buna görə də, bu kimi insanlardan fərqli olaraq onlar öz səmimi inanclarını gündəlik həyatlarında

göstərməlidirlər. Bu barədə onlar danışmaq deyil, əməldə göstərməyin tərəfdarı kimi çıxış edirdilər. Onlar uğurlarından və ya uğursuzluqlarından danışmaqdan, başqalarının sirlərini açmaqdan da çəkinməlidirlər. Məlamətilər cəmiyyətdə yaşayaraq mənəvi *abidlik* ideyasını qəbul etmiş, tərkidünyalığın tərəfdarı olmuşdurlar. Onlara görə hər bir kəs istənilən gündəlik işlərində Allahı *zikr* etməlidir. Allaha hər an yaxın olmaq, onun adı ilə bütün işləri görmək ideyası məlamətilərin ən yüksək məqsədləri olmuşdur.

**MƏLƏKLƏR** – ***Qurana görə Allahın nurdan yaratdığı varlıqlardır.*** İnsanlardan fərqli olaraq onlar heç bir cinsə sahib deyildirlər (Quran 43: 19), onlar doğmur və doğulmurlar, heç bir şeyə ehtiyacları yoxdur. İlahiyyatçıların bir çoxu hesab edir ki, *mələklərin* iradə azadlığı yoxdur və onlar yalnız *Allahın* buyuruqlarını yerinə yetirirlər. Buna görə də, *günah* əməllər törədə bilməzlər. İnsanlar mələkləri gerçək görkəmlərində görə bilməzlər. Ancaq bəzi hallarda onlar insan görkəminə girib gözə görünə bilərlər (Quran 11: 69-71). *Peyğəmbərlər* onları görmüşdürlər. Mələklərin qanadları vardır (Quran, 35: 1). Onlar böyük məsafələri asanlıqla və böyük surətlə qət edə bilirlər (Quran, 70: 4).

Bəzi mələklərin adları *Quranda* və *hədislərdə* qeyd edilmişdir. Məsələn, *Məhəmmədə* və başqa peyğəmbərlərə *vəhy* gətirmiş mələyin adı *Cəbraildir*. Bununla bərabər digər ən böyük mələklər *Əzrayıl, Mikail və İsrafildir.* Bunlardan başqa *İslamın* ilk mənbələrində *Münkər* və *Nəkir, Harut* və *Marut* mələklərinin adları da çəkilməkdədir. İslama görə Allahın əmri ilə mələklər təbiətdə baş verən bütün prosesləri idarə edilər. Onlar insanların həyatında da iştirak edirlər. Onların vasitəsi ilə ana bətnində uşaqlara *ruh* verilir. Mələklər insanları doğulandan ölənə qədər müşayiət edir, insanların etdikləri xeyir və şər əməllərini yazırlar (Quran, 82: 10-11). İnsan öləndə də onun canını ölüm mələyi alır (Quran, 32: 11, 6: 61). İslamda mələklərin varlığına inanmaq İslam dinin əsaslarından hesab edilir.

**MƏLƏKÜL-MÖVT** – bax: **ƏZRAİL.**

**MƏMLÜKLƏR (I)** – ***kimlərinsə mülkiyyətində olan insanlar və kölələrdir.*** Bu qulların çoxu qara dərili afrikalılar ibarət idi. Bundan başqa qəbilələrarası döyüşlərdə əsir götürülənlər də kölə kimi satılırdılar. Bəzən yoxsulluq və aclıqla üzləşmiş insanlar da könüllü olaraq kölə olurdular. Bu səbəblər üzündən öz uşaqlarını köləliyə verənlər də olmuşdur.

*Məhəmmədin* peyğəmbərliyi başlayanda köləlik bütün dünyada yayılmışdır. Bununla belə, o dövrün ictimai münasibətləri, sosial həyatı və iqtisadiyyatı kölələrsiz düşünülməzdir, onu ləğv etmək də mümkün deyildir. Buna görə də *Quranda* və *hədislərdə*, eləcə də İslam *fiqhində* kölələr haqqında çoxlu hökmlər vardır. Bu baxımdan, onlarla münasibətlər hüquqi cəhətdən tənzimlənmişdir. İslamda köləlik yalnız müsəlman olmayan hərbi əsirlərə aid idi. Könüllü köləlik və ya uşaqların kölə kimi satılması qadağan olunmuşdur. Kölə sahibinə müəyyən qədər pul ödəyəndən sonra azad ola bilərdi. Kölələr öz sahiblərinin mülkiyyəti olduqlarına baxmayaraq İslamda onlar üçün də hüquqi qaydalar təyin olunmuşdur. Sahibləri kölələrlə ədalətli davranmalı idilər (Quran, 4: 36). *Şəriətə* görə kölənin azadlığa buraxılması da dində bəyənilən bir əməldir. Belə ki, fiqhdə işlənilmiş bir *günah* qarşılığında kölənin azad edilməsi *kəffarə* sayılır və tövsiyə edilir.

Kölələr öz dinlərində qala və ya öz istəkləri ilə müsəlman ola bilərdilər. Onların zorla müsəlmanlaşdırılmalarına yol verilmirdi. İslamı qəbul etmiş kölə *zəkat* və *həcc* kimi bəzi

dini vəzifələrin icrasından azad edilirdi. Kölələr satıla və ya dəyişdirilə bilərdilər. Ancaq, uşağı olan kölə qadınla bunları etmək olmazdı.

Kölələrin özlərinə məxsus heç bir şeyləri olmamışdır. Buna görə də onlar, qazandıqlarını öz sahiblərinə verməli idilər. Eyni zamanda onlar, sahibləri ilə anlaşıb, onlar üçün müəyyən qədər pul qazandıqdan sonra, bunun qarşılığı olaraq azadlıqlarına da qovuşa bilərdilər.

Kölələr öz sahiblərinin razılığı ilə yalnız kölələrlə evlənə bilərdilər. Onların uşaqları isə azad olurdular. Sahiblər öz ərsiz kölə qadınları ilə kəbin kəsmədən münasibətlərə girə bilərdilər. Bu münasibətlərdən olan uşaqlar da azad olurdular. Onları satmaq və ya kiməsə hədiyyə etmək olmazdı. Sahibindən uşaq doğmuş kölə qadınlar sahibinin ölümündən sonra varislik hüququndan məhrum edilsələr də, ancaq azadlığa buraxılırdılar. Fiqhə görə kişi öz arvadı ilə birlikdə əsir düşmüşdürlərsə, kölelikdə də ər-arvad olaraq qalırdılar. Qadın tək olaraq əsir düşmüşdürsə, onda onun önceki evliliyi pozulmuş sayılırdı.

**MƏMLÜKLƏR (II)** – ***Misirdə Əyyubilər sülaləsi (564/1171 – 648/1250) hakimiyyəti dövründə orduda qulluq etmək üçün Türküstan və Qafqazdan gətirilmiş, sonra isə hakimiyyətə gəlmiş kölələr olmuşdurlar.*** 648/1250-ci ildə türk əsilli məmlüklər Əyyubiləri hakimiyyətdən kənarlaşdıraraq *Misirdə* hakimiyyəti öz əllərinə almışdırlar. On ildən sonra onlar Sultan Bəybarsın başçılığı altında Suriyanın Əyn-Cəlut bölgəsi yaxınlığında monqol ordusuna qalib gəlmiş, onların irəliləməsinin qarşısını almışdırlar. Bundan sonra 666/1268-ci ildə onlar xaçlıları ağır məğlubiyyətə uğrada bilmişdirlər. Beş ildən sonra məmlüklər bu bölgələrdə çoxlu sayda qətllər törətmiş *ismaililərin Nizari* təriqətinin mənsublarını darmadağın etmişdilər.

Bu uğurların nəticəsində onlar Suriya və *Fələstini* öz dövlətlərinə qatmışdırlar. Daha sonra Məmlüklər Kiçik Asiya yarımadasının cənubunda yerləşən Kilikiya dövlətinin də varlığına son qoymuşdurlar.

Monqollar *Abbasi* xilafətini darmadağın etdikdən sonra məmlüklər onların varislərini Misirə köçürmüş və Xilafəti formal olaraq bərpa etmişdirlər. Müsəlmanların müqəddəs mərkəzləri olan *Məkkə* və *Mədinə* şəhərləri də məmlüklərin nəzarəti altına keçmişdir.

921/1516-cı ildə Suriyanın Hələb şəhərinin yaxınlığında Osmanlı Sultanı I Səlim Məmlük ordusuna qalib gəlmiş, bununla da onların hakimiyyətinə son qoya bilmişdir. Ancaq məmlüklər *Osmanlılara* tabe olsalar belə, bir zümrə kimi Misirdə nüfuzlarını saxlamışdırlar. 1226/1811-ci ildə Misir Sultanı Məhəmməd Əli Məmlükləri məhv edə bilmişdir.

Məmlük tarixində Bəhri (648/1250 – 791/1390) ilə Bürci (791/1390 – 921/1516) Sultan sülalələri olmuşdur. Bəhrilər türk, Bürcilər isə qafqazlı idilər. Məmlük dövləti çox hərbiləşmiş ölkə olmuşdur. Onların hakimiyyəti boyu ölkə strukturlarında hərbi sistemə bənzər bir sistem qurulmuşdur. Bütün hakimiyyətin qolları yuxarıdan aşağılara kimi biri-birinə tabe edilmişdir. Yalnız belə bir hərbiləşmiş ölkə olduqlarına görə Məmlüklər monqollar kimi yenilməz bir düşməni məğlub etmiş, hakimiyyətlərini *İslam* dünyasının digər yerlərində də yaya bilmişdirlər.

**MƏNAT** – ***cahiliyyə dövründə ərəblərin tapındıqları ən böyük bütlərdən biri olmuşdur.*** Bu büt *Məkkə* və *Mədinə* arasında olan Qudeydə bölgəsində yerləşirdi. Ona daha çox *Evs* və *Xəzrəc* qəbilələri tapınırdılar. Məkkənin fəthindən sonra *Əli ibn Əbu Talib* Məhəmməd *peyğəmbərin* buyuruğu ilə bu *bütü* məhv etmişdir.

**MƏNN VƏ SƏLVA** – ***Misirdən çıxıb və***

***Fələstinə doğru səhra ilə irəliləyən İsrail oğullarına Allahın Musa peyğəmbərin duasından sonra göndərdiyi halva və bildirçinlərdir.*** Bu möcüzə *Quranda* (2: 57) işıqlandırılmışdır. Rəvayətlərə görə *İsrail oğulları* Tih səhrasında olanda ac qalmışdırlar. Buna görə *Musa peyğəmbər Allaha dua* edərək ondan xalqı üçün azuqə istəmişdir. Allah da onlara göydən halva yağdırmışdır. Ancaq, israillilər halvanı yedikdən sonra, yenə də Musa peyğəmbərdən ətli yemək üçün Allaha bir daha yalvarmasını istəmişdirlər. O da bunu etmiş, Allah da onlara bildirçinləri ikram etmişdir.

**MƏNSUX** – bax: **NƏSX VƏ MƏNSUX**.

**MƏRİFƏT** – ***sufilikdə uzun müddət mənəvi təcrübə vasitəsi ilə sübyektiv duyğuların nəticəsi olaraq əldə edilmiş bilikdir.*** Mənəvi yüksəlişlə əldə edilən biliklərə "irfan" da deyilir. Mərifətin qaynağı ruh, vəcd (qəlbin səsi) və başqa bu kimi mənəvi anlayışlardır. Sufilər mərifəti ekzoterik (açıq) deyil, ezoterik (gizli) bilik kimi dəyərləndirirlər. Təcrübi biliklərə yiyələnmiş insanları "alim", mərifətə sahib olanları isə "arif" adlandırırlar. *Ariflər* vəcd yolu ilə *Allah* və Onun sifətləri haqqında gizli biliklər əldə edirlər. Buna görə onları "Arifül-Billah" (Allahdan bilik alanlar) adlandırırlar. *Sufilikdə* mərifət Allaha bağlılıqla əldə edilir. Əgər mənəviyyat yolçusu ruhi təcrübənin ən yüksək məqamlarına çata bilsə, onda Allah da gizli biliyi onun üçün açır.

**MƏRVA** – bax: **SƏFA VƏ MƏRVA**.

**MƏRYƏM (I)** – İsa peyğəmbərlərin anasıdır. Quranda *surələrdən* biri onun adını daşıyır. Əri *İmranın* ölümündən sonra anası onu *məbədə* gətirmiş və orada onu *Zəkəriyyə peyğəmbər* öz himayəsinə götürmüşdür. Beləliklə, erkən yaşlarından başlayaraq Məryəm günlərini *Allaha* ibadət etməkdə keçirirdi. Elə o vaxtdan başlayaraq onun ətrafında möcüzələr baş verməyə başlamışdır (*Quran* 3: 35-37). Daha sonra *mələklər* Məryəmə Allahın buyuruğu ilə *İsanı* doğacağı müjdəsini gətirdilər (Quran, 3: 45-47). Bundan sonra Məryəm cəmiyyətdən uzaqlaşmış, vaxtı yetişəndə isə xurma ağacının altında İsanı dünyaya gətirmişdir. Bir müddət keçdikdən sonra Məryəm körpəsi ilə geriyə dönmüşdür. Onun uşaqla döndüyünü görən soydaşları ona *iftiralar* yağdırmışdırlar (Quran, 19: 27-28). O zaman beləkdə olan *İsa* onlarla danışıb anasını müdafiə etmişdir (Quran, 19: 30-33). Müqəddəs mətnlərdə Məryəmin sonrakı həyatı ilə bağlı heç bir məlumat yoxdur.

**MƏRYƏM (II)** – ***Məhəmməd peyğəmbərin kənizi olmuşdur.*** Rəvayətlərə görə *Məhəmməd* peyğəmbər *Misir* valisinə *İslama* dəvət etmək məqsədi ilə məktub göndərmişdir. Vali onu gətirən elçini saygı ilə qarşılamış, sonra onunla bir yerdə Məhəmməd *peyğəmbər* üçün Məryəmi kəniz kimi göndərmişdir. Məhəmməd peyğəmbərin Məryəmdən İbrahim adlı oğlu olmuş, ancaq o körpə hicrətin 10-cu ilində dünyasını dəyişmişdir.

**MƏSCİD** – ***camaatla namazların qılınması, dini mərasimlərin və ictimai yığıncaqların keçirilməsi üçün ayrılmış bir yerdir.*** Müsəlmanlar məscidlərdə gündəlik, eləcədə də bayram *namazlarını* qılmaq üçün toplaşırlar. Bundan başqa, orada cəmiyyəti narahat edən ictimai məsələlər həll edilə bilər. Məscidlər təhsil ocaqları kimi də fəaliyyət göstərə bilər. Belə ki, tarixdə məscidlərin nəzdində fəaliyyət göstərən mədrəsələrin mövcudluğunu da bilirik.

Məscidlərin əksəriyyəti geniş zalı olan kümbəzli binalardır. Böyük məscidlərin isə *minarələri* olur. Məscidlərin içində *minbər*

və *mehrab* qurulur. Orada namazları qıldıran *imamlar* və *müəzzinlər* üçün ayrılmış xüsusi yerlər də vardır. Məscidlərdən bir qədər uzaqda tualetlər, *dəstəmaz* almaq üçün xüsusi yerlər yerləşir.

Rəvayətlərə görə ən qədim məscidlərdən biri Qüdsdəki *Məscidül-Əqsa* məscididir. Bu məscidlərə, eləcə də Mədinədəki *Məscidün-Nəbəviyə* ziyarətlər edilir. *Şiələr* və sufilər öz imamlarının və *şeyxlərinin* dəfn olunduğu yerlərdə tikilmiş məscidləri də *ziyarət* edirlər.

*Mədinəyə hicrət* etdikdən sonra müsəlmanlar məscidlər tikməyə başlamışdırlar. İlk məscidlərdən biri *Mədinə* yaxınlığındakı *Quba* qəsəbəsində tikilmişdir. *Təfsirçilərə* görə bu məscid haqqında *Quranın* 9: 108 ayəsi nazil olmuşdur. Sonra ən böyük məscid Mədinədə inşa edilmişdir. İndi onun yerində Məscidün-Nəbəvi kompleksi yerləşir. Sonralar dünyanın müxtəlif yerlərində çox sayda məscidlər tikilmiş və onların tikilməsi bu gün də davam etməkdədir.

**MƏSCİDÜD-DİRAR** – ***münafiqlərin Mədinə yaxınlığında yerləşən Qubada tikdikləri məscid olmuşdur.*** *Münafiqlər (I)* ilk *İslam* icmasının içində olan bir müxalif qüvvə olduqlarına görə bu məscidi təfriqə və fitnə yeri kimi seçmişdirlər. Təbuk yürüşündən sonra bu məscid *Məhəmməd peyğəmbərin* göstərişi ilə dağıdılmışdır. Bu barədə *Quranda* ayə vardır (9: 107).

**MƏSCİDÜL-ƏQSA** – ***Qüdsdə yerləşən Süleyman məbədinin xarabalıqlarıdır.*** Bəzi *hədislərdə* qeyd edilir ki, bu məbəd *Kəbədən* sonra inşa edilmişdir. "Uzaqda yerləşən *məscid*" kimi tərcümə edilir və bu yer haqqında *Quranın* 17: 1 ayəsində məlumat verilir. Rəvayətlərə görə buradan *Məhəmməd* peyğəmbər isra və *merac* zamanı göylərə yüksəlmişdir.

15/636-cı ildə *Qüdsü* müsəlmanlar fəth etdikdən sonra ikinci *Raşidi* xəlifə *Ömərin* göstərişi ilə burada *məscidin* inşasına başlanılmışdır. Ancaq bu tikili o qədər də dayanaqlı və görkəmli olmamışdır. Buna görə də 90/709 – 96/714-cü illərdə Əməvi xəlifəsi Əl-Valid ibn Əbdül-Məlik o yerdə yeni tikinti işləri aparmış və bu günə qədər Qüdsdə olan yeni *məscidi* inşa etmişdir. Həmin məscid müsəlmanların müqəddəs yerlərindən biridir və oraya ziyarıtlar edilir.

**MƏSCİDÜL-HARAM** – ***müsəlmanların həcc zamanı ziyarət etdikləri müqəddəs məsciddir.*** Bura *İslam* dünyasının birinci müqəddəs yeri hesab edilir. Bu *məscid Quranın* 2: 217, 5: 2 kimi bir çox *ayələrində* anılmışdır. Rəvayətlərə görə hicrətin 16-cı ilində bu məscid müsəlmanların *qibləsi* olmuşdur. Müsəlmanlar *Məscidül-Haramı* yer üzərində ilk *məbəd* sayırdılar. Bu məscidin sahəsində *Kəbə, Məqamül-İbrahim* və Zəmzəm bulağı yerləşir. Məscidin yeddi *minarəsi* vardır. Məscidül-Haramın tarixi *Məkkə* şəhərinin tarixi ilə eynidir.

**MƏSCİDÜL-QİBLƏTEYN** – ***Mədinədə "iki qibləsi olan" məsciddir.*** Rəvayətlərə görə bu *məsciddə* ibadət edən *Məhəmməd peyğəmbərə* Allahdan *qibləni* Qüdsdən *Məkkə* istiqamətinə dəyişməsi buyruğu gəlmişdir. Hazırda bu məscidin yerində yeni məscid inşa edilmişdir.

**MƏSCİDÜN-NƏBƏVİ** – ***peyğəmbər məscidi, Mədinə şəhərində yerləşən məscid kompleksidir.*** Müsəlmanlar onu məkkədəki *Məscidül-Haram* və qüdsdəki *Məscidül-Əqsa* məscidlərindən sonra üçüncü müqəddəs *məscid* hesab edirlər.

Bilindiyi kimi *Məhəmməd* peyğəmbər *Mədinəyə hicrət* etdikdə bir müddət onun yaxınlığında yerləşən *Quba* məntəqəsində qalmış, orada bir məscid də tikilmişdir. Bundan sonra O, *Mədinəyə* gəlmişdir. Rəvayətlərə görə orada hamı *peyğəmbəri* öz

evində qonaq etmək istəmişdir. Buna görə də, heç kəs ondan inciməsin deyə onun sərbəst buraxılmış dəvəsi kimin evinin qabağında ayaqlarını büküb yerə oturacaqmışdırsa onun da evində qalacaqmış. Dəvə də *Əbu Əyyub Ənsarinin* evinin yanında yerə oturmuşdur. Beləliklə, peyğəmbər onun evində bir müddət qonaq kimi qalmışdır. Sonra o ərazini peyğəmbər və onun səhabələri almış və burada məscidin tikintisinə başlayıb onu tamamlamışdırlar. Məscidin inşası başa çatdıqdan sonra Məhəmməd peyğəmbər oraya köçmüşdür. Məsciddə öncə bir neçə otaq ona məxsus olmuşdur. Bundan başqa orada onun həyat yoldaşlarının da ayrıca otaqları olmuşdur. Həmçinin məscidin yaxınlığında yoxsullar, *fəqirlər* və yolçular üçün Süffə adlanan bir yer də qurulmuşdur. Burada bu insanlara dinin əsasları və necə ibadət etmələri öyrədilmişdir.

Mədinə məscidinin ilk müsəlman icması üçün olduqca böyük ictimai əhəmiyyəti olmuşdur. Orada müsəlmanlar müxtəlif problemlərini həll edirdilər. Oradan Məhəmməd peyğəmbər şəhər-dövləti idarə, yanına gələn digər ərəb qəbilələrinin elçilərini qəbul, səhabələri ilə birlikdə müharibələrlə bağlı problemləri müzakirə, müsəlman icmasının qanunlarını tərtib, nazil olan yeni *Quran ayələrini* izah etmişdir. O məscid həm də tədris mərkəzi kimi fəaliyyət göstərmişdir. 11/632-ci ildə vəfat edən Məhəmməd peyğəmbər, eləcə də *Raşidi* xəlifələr *Əbu Bəkr* və *Ömər* bu məsciddə dəfn edilmişdirlər.

İkinci *Raşidi* xəlifə *Ömərin* dövründə məscid genişləndirilmişdir. Binanın ilk əsaslı təmiri 29/650-ci ildə üçüncü Raşidi xəlifə *Osmanın* dövründə aparılmışdır. Zəif kərpic divarlar bərk daş divarla əvəz edilmişdir. Kümbəz tikildiyindən onu saxlamaq üçün sütunlar da əlavə edilmişdir. Daha da əsaslı tikinti işləri 88/707 – 91/711-ci illərdə *Əməvilər* tərəfindən aparılmışdır. Məscidin divarları və sütunları daşdan və kərpicdən hörülərək mərmərlə üzlənmişdir. Elə o zaman Peyğəmbər məscidinin ilk dörd *minarəsi* də inşa edilmişdir.

Məscid ərazisinin genişlənməsi və yenidənqurma işləri Abbasi xəlifələri *Mehdi* və Məmunun zamanında da aparılmışdır. 654/1256-cı ildə Abbasi xəlifəsi Mötəsimin zamanında məsciddə böyük bir yanğın baş vermişdir. Od bütün binanı məhv etmişdir. Buna görə xəlifə dərhal məscidin yenidən tikilməsini əmr etmişdir. Bunun üçün Mədinəyə o zamanın ən yaxşı ustaları və memarları gətirilmişdir. Ancaq təmir işləri Bağdadın monqollar tərəfindən alınması və Abbasi Xilafətinin süqut etməsinə görə dayandırılmışdır. Tikinti yalnız *Misirin* məmlük sultanı Bəybarsın təşəbbüsü ilə 685/1295-ci ildə davam etdirilmişdir.

886/1481-ci ildə məsciddə ikinci böyük yanğın baş vermişdir. O zaman minarələrdən birini ildırım vurmuş və od bütün binanı yandırmışdır. Bundan sonra məscidin yenidən tikilməsi üçün Mədinəyə yenə ən yaxşı ustalar gətirilmişdir. Bu işlər Misrin məmlük sultanı Əşrəf Qaytabəyin təşəbbüsü ilə görülmüşdür. Elə o vaxtlar məscidin yanında Mahmudiyyə mədrəsəsi də tikilmişdir.

Osmanlı sultanların hakimiyyəti dövründə Peyğəmbər məscidi dəfələrlə təmir edilmişdir. Ancaq, ən əsaslı təmir və inşa işləri miladi 1849-1861-ci illərdə Sultan Əbdül-Məcidin dövründə görülmüşdür. O zaman məscid demək olar ki, yenidən inşa edilmişdir. Belə ki, köhnə zəifləmiş divarlar yenisi ilə əvəz olunmuşdur.

1953-cü və sonrakı illərdə Səudiyyə Ərəbistanının kralları da məsciddə əsaslı tikinti işləri aparmışdırlar. Məscid kompleksi modernləşdirilmiş, çoxlu sayda zəvvarların qəbul edilməsi üçün şərait yaradılmışdır.

**MƏSH** – ***bədənin müəyyən yerlərini paklaşdırmaq niyyəti ilə yaş əlin həmin yerlərə sığal çəkilməsidir.*** Bütün məzhəblərdə *dəstəmaz* alarkən baş yaş əllə məsh edilir. Bədənin hər hansı bir yeri yaralandığına görə sarılıbsa, onda dəstəmaz ya da *qüsul* alarkən o yer məsh edilməlidir. *Cəfəri məzhəbində* kiçik yuyunmada sağ əllə sağ ayaq, sol əllə isə sol ayaq baş barmağından topuqlara qədər məsh edilir. Bunu edərkən ayaq yalın olmamalıdır. Başqa məzhəblərdə dəstəmaz alarkən topuğa qədər ayağa geyinilmiş xüsusi asanlaşdırıcı vasitə (məst) üzərinə məsh edilir.

**MƏSİH** – ***müxtəlif dinlərdə gəlişi qeybdən gözlənilən xilaskar və ya qurtarıcıdır.*** Avropa dillərində bu sözü ifadə etmək üçün "maşiah" kəlməsinin yunanca qarşılığı olan "christos" işlədilir. Bu söz "yağ sürtülmüş", "*məsh* edilmiş", "təmizlənmiş", "padşah", "kahin", "Allah tərəfindən xüsusi bir missiya ilə gələn şəxs" mənalarını ifadə edir.

Məsihin gəlişindən sonra ədalət bərpa olunacaq, insanlar xoşbəxt həyat sürəcəklər. Zərdüştilərin Sayoşant adlı bir qurtarıcısı olmuşdur. Tədqiqatçıların bəziləri hesab edirlər ki, qurtarıcı ideyası Zərdüştilikdən Yəhudi dininə keçmişdir. *Yəhudilərin* çoxu Məsihin kim olması haqqında dəqiq biliyə malik deyillər. Onların bəziləri isə tarix boyu bəzi insanları Məsih kimi tanımışdırlar. Xristianlar üçün Məsih İsadır.

*İslamda* da Məsih İsadır. *Quran ayələrində* (5: 72, 75; 4,157) İsa peyğəmbərin adlarından biri məhz Məsihdir. Ancaq ondan başqa *Mehdi* adlandıran qurtarıcının da gələcəyi gözlənilir. Müsəlmanların arasında Məsihin gəlişinə inanmayanlar da vardır.

**MƏST** – ***ayağı topuğa qədər örtən dəridən hazırlanmış xüsusi ayaq geyimidir.*** *Məzhəblərin* əksəriyyətinə görə *dəstəmaz* alarkən ayaqların yuyulmasının əvəzinə məstlər üzərinə *məsh* çəkmək olar. Məst əsasən soyuq aylarda asanlaşdırıcı vasitə kimi istifadə edilir.

**MƏSUM** – ***günahsız adamdır.*** *İslam* inancına görə *Allahın* bütün *peyğəmbərləri* məsumdurlar. Onları *günahlardan Allah* qorumuşdur. *Şiələr* imamları və *Məhəmməd* peyğəmbərin qızı *Fatiməni* də məsum hesab edirlər.

**MƏVDUDİ ƏBÜL-ƏLA** (1321/1903 – 1399/1979) – ***görkəmli İslam mütəfəkkiri, maarifçisi, dövlət xadimi olmuşdur.*** Hindistanın Heydərəbad bölgəsində doğulmuşdur. Məvdudi, klassik *İslam* irsini dərindən bilmiş, bu irsin ictimai həyatda tətbiq edilməsi yollarını axtarmışdır. O, Hindistanın "Müslim" və "Tac" qəzetlərində jurnalist kimi fəaliyyət göstərmişdir. Daha sonra Dehlidə nəşr edilən müsəlman dəyərlərini aşılayan qəzetin redaktoru olmuşdur. 1341/1923-cü ildə isə Hindistanda ingilis müstəmləkəçiliyinə qarşı başlamış hərəkat zamanı aylıq "Tərcümanil-Quran" jurnalını çap etdirmişdir.

Məvdudi həm ingilislərin, həm də hindlilərin müstəqillik hərəkatına başçılıq edən Qandinin və onun tərəfdarlarının siyasətlərinə də etiraz etmiş və Hindistan müsəlmanlarının birliyini təmin etmək üçün səylər göstərmişdir. O, həmçinin müsəlmanların içindən çıxmış *qadiyanilər* təriqəti kimi yeni cərəyanlara qarşı da çıxış edirdi.

Daha sonra Məvdudi müsəlmanların yaşadığı Hindistanın şimal bölgələrinin ayrılması və orada müstəqil dövlətin qurulmasının tərəfdarı idi. O, "Camaatül-İslam" partiyasını yaratmışdır. Pakistan müstəqillik qazandıqdan sonra ölkənin *şəriət* qanunları ilə idarə edilməsinin və ölkə konstitusiyasının onun əsasında yazılmasını təkid edirdi. O zaman siyasi baxışlarına görə bir neçə dəfə həbs olunmuşdur. Daha sonra

ölkənin siyasətində fəal iştirak etmişdir. Miladi 1965-ci ildə onun tərəfdarları Hind-Pakistan müharibəsində cəbhələrdə vuruşmuşdurlar.

Siyasi fəaliyyətindən başqa Məvdudi tarix, iqtisadiyyat, müasir İslam dini-siyasi hərəkatlarının nəzəriyyəsi, İslama müasir yanaşmalar, Qərb həyat tərzinin tənqidi kimi mövzuları əhatə edən çoxlu kitablar yazmışdır. Ən tanınmış əsəri isə *Quranın təfsiri* olan "Təvhimül-Quran" kitabı olmuşdur.

**MƏVƏRDİ ƏBÜLHƏSƏN** (364/974 – 450/1058) – ***görkəmli İslam mütəfəkkiri olmuşdur.*** Məvərdi İraqın Bəsrə şəhərində doğulmuşdur. Erkən yaşlarından o *hədis, təfsir, fiqh* kimi elmləri öyrənmiş, ərəb dilinin mükəmməl bilicisi olmuşdur. O, zamanının tanınmış müəllimlərindən dərs almışdır. Bəsrə və Bağdadda təhsilini başa vurduqdan sonra Məvərdi müəllimlik etməyə başlamışdır. Bir müddət keçdikdən sonra o, Nişapurun yaxınlığındakı Ustuva şəhərinə *qazi* təyin edilmiş, sonra isə Bağdada köçmüşdür. Məvərdi hüquq, *Quran* təfsiri, siyasət, dövlət idarəçiliyi, *kəlam (I)* və başqa elmlər üzrə kitablar yazmışdır. Bu əsərlərin çoxu onun sağlığında geniş yayılsa da, bu kitablar tələbələrinin səyləri nəticəsində onun vəfatından sonra işıq üzü görmüşdürlər.

**MƏYMUNƏ BİNT HARİS** (51/671-ci ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin həyat yoldaşlarından biri olmuşdur.*** O, *Abbas ibn Əbdülmüttəlibin* həyat yoldaşı Ummül-Fəzlin bacısı idi. *Məhəmməd peyğəmbər* onu Məymunə adlandırmışdır. Ona qədər isə onun adı Bərra olmuşdur. Məhəmməd peyğəmbər Məymunə ilə hic-rətin 7-ci ilində evlənmişdir. O, onun sonuncu həyat yoldaşı olmuşdur. Ondan sonra peyğəmbər heç kimlə evlənməmişdir. Onun adından rəvayət edilən 70-ə yaxın *hədis mühəddislər* tərəfindən müxtəlif hədis toplularına daxil edilmişdir.

**MƏYMUNİLƏR** – ***xarici məzhəblərindən birinin davamçıları olmuşdurlar.*** Onların təlimində digər *xaricilərlə* oxşar cəhətlər olsa da, fərqlər də vardır. Onlar bəzi Quran *ayələrini* inkar edirdilər. Məsələn, *Quranın* "Yusif" surəsinin yalnız eşq hekayəsi olduğunu iddia etmişdirlər. Buna görə də, müsəlman ilahiyyatçıları onları müsəlman saymırdılar.

**MƏZAR** – ***ölünün dəfn edildiyi yerdir.*** İslam adətinə görə məzarın uzunluğu ölənin boyu, eni və dərinliyi isə ölənin boyunun yarısı qədər olmalıdır. Məzarda ölünü yanı üstə uzadıb, üzünü *qibləyə* çevirirlər. Ölmüş insanı torpağa tapşırdıqdan sonra *şəriətdə* göstərilən bəzi istisna hallar olmadan, məzarın açılması yasaqdır. Ehtiyac halında bir məzarda bir neçə ölünü torpağa tapşırmaq da mümkündür.

İlahiyyatçıların əksəriyyətinə görə *İslamda* qəbirlərin *ziyarət* edilməsinə icazə verilir. Onlar tövsiyə edirlər ki, o zaman hər bir kəs bu *dünyanın* keçici olduğu haqqında düşünməli, *günahlarının* bağışlanmasını diləməlidir.

*Fiqh* məktəblərinin əksəriyyətinə görə ölünü torpağa tapşırdıqdan sonra məzarı gözə çarpacaq qədər qaldırmaq, uca təpəyə çevirmək olmaz. Baş daşı isə yalnız məzarın itməməsi üçün qoyulmalıdır.

Məzarların üstündə heykəllər qoymaq, rəsm çəkmək yol verilməzdir. Eləcə də, oraya hər hansı bir əşyanı ya da üzərində Quran *ayələrinin* yazısı olan vərəqləri qoymaq olmaz. İslam *məzhəblərinin* çoxunun hökmlərinə görə məzarların üstündə *məscidlərin*, türbələrin, evlərin tikilməsi *məkruhdur*. Bu kimi tikililərin şöhrətpərəstlik məqsədi ilə tikilməsi isə *haramdır*. Bəzi məzhəb və *təriqətlər* müqəddəslərin qəbirlərin üstündə türbələrin tikilməsinə icazə verirlər.

Bir çox ilahiyyatçılar hesab edir ki,

məzarları cümə axşamları ziyarət etmək daha yaxşıdır. Məzarların ziyarəti zamanı onların üstündə oturmaq və uzanmaq, onları tapdalamaq olmaz. Bəzi məzhəblərdə qadınlar məzarları ziyarət edə bilməzlər. Qadınların məzarları ziyarət etməsinə icazə verən ilahiyyatçılar və məzhəblər də vardır. Məzarı ziyarət edən insan ölmüş insanın bağışlanması üçün *dualar* etməlidir. Məzar üstündə *Quran* ayələrinin oxunub-oxunması məsələsində fərqli hökmlər vardır. Bəzi ilahiyyatçılar bunu qadağan, digərləri isə icazə verirlər.

**MƏZHƏB** – ***İslamda şərii və etiqadi məsələlərlə əlaqədar yaranan fikir ayrılığından ortaya çıxan müxtəlif cərəyan və ya məktəblərdir.*** Rəvayətlərə görə dini məsələlər üzrə fikir ayrılıqları hələ *Məhəmməd* peyğəmbərin dövründən başlamışdır. Ancaq bu fikir ayrılıqlarına *peyğəmbər* tərəfindən aydınlıq gətirildiyində görə dərinləşməmişdir. Peyğəmbərin vəfatından sonra ilk *Raşidi* xəlifələr *Əbu Bəkr,* Ömər və Osmanın hakimiyyətləri dövründə müsəlmanlar arasında dini və siyasi problemlər üzrə fikir ayrılıqları gözə çarpacaq qədər artmış, sonda isə *ixtilaflara* və siyasi qarşıdurmalara gətirib çıxarmışdır. Üçüncü xəlifə *Osmanın* öldürülməsindən sonra bu proses daha da dərinləşmiş və ilk dini-siyasi qruplaşmalar yaranmağa başlamışdır.

Dördüncü xəlifə Əlinin xilafəti dövründə baş vermiş daxili savaşda, onun tərəfdarları özlərini şiə adlandırmış, bununla da öz rəqiblərindən seçilməyə başlamışdırlar. Sonralar onlara qarşı çıxış edən *xaricilər* də ortaya çıxmışdırlar. Üçüncü siyasi cərəyanın davamçıları "Nəsibilər" adlandırılmışdırlar. Onlar xəlifə Osmanın *qisasının* alınmasını tələb edərək daxili savaşda Müaviyəni dəstəkləmiş, Əliyə qarşı çıxış etmişdirlər. Bunların heç birinə qoşulmayanlar isə özlərini *sünni* adlandırmışdırlar.

Daha sonra Xilafət möhkəmlənmiş, daxili savaşlara son qoyulmuşdur. Buna görə də, ixtilaflar siyasi müstəvidən ideoloji müstəvi keçməyə başlamışdır. O dövrdən başlayaraq *İslam kəlamının (I)* və *fəlsəfəsinin* əsası qoyulmuşdur. Buna görə də, çoxlu yeni problemlər ortaya çıxmışdır. O zaman tale və *iradə* azadlığının bir-biri ilə necə və hansı nisbətdə olması problemi ortaya çıxmış və bu məsələdə *cəbrilər və qədərilər* cərəyanları yaranmışdır.

Daha sonra düşüncəyə və ya *vəhyə* üstünlük verilməsi, *Quranın* yaradılmış ya da əbədi olması, günahkarların durumu, şərin mənşəyi və başqa bu kimi problemlər barəsində qızğın mübahisələr getmişdir. Bunun nəticəsində *mütəzililər, batinilər, zahirilər* kimi cərəyanlar yaranmışdır. Eyni zamanda o zaman *fiqhi* məsələlər üzrə fikir müxtəlifliyi də olmuşdur. Sünni, şiə, xarici, zahiri və başqa cərəyanlarının *fəqihləri* öz metodlarına əsaslanaraq *məzhəblərinin* hüquqi əsaslarını yaratmışdırlar. Eyni zamanda o dövrdə, məzhəblərarası qovuşma prosesi də gedirdi. Burada müəyyən prinsiplər qəbul edilib, digərləri isə inkar edilmişdir. Bütün bu məzhəblərin ideyaları bu və ya digər formada zamanımıza qədər gəlib çatmışdır. Bütövlükdə isə İslam məzhəblərini üç qrupa bölmək mümkündür:

1. Nəsibilər, *şiələr* və xaricilər kimi siyasi məzhəblər;

2. *Sünnilik, mötəzilələlik, imamilik, isnaəşərilik, zeydilik, qədərilik, cəbrilik* kimi etiqadi məzhəbləri;

3. *Hənəfilik, malikilik, şafiilik, hənbəlilik, cəfərilik, zeydilik və zahirilik* kimi fiqhi məzhəblər.

Sünniliyin içində də üç etiqadi məzhəb vardır: *maturidilik, əşərilik və sələfilik. Babilik, bəhailik, qadiyanilik* kimi bəzi etiqadi məzhəblər isə İslamdan çıxmış hesab olunurlar.

**MİKAİL** – ***Allaha ən yaxın olan, müxtəlif təbiət hadisələrini hərəkətə gətirən və nizamlayan mələkdir.*** Rəvayətlərə görə Mikail buludları, planetləri, başqa bu kimi cisimləri hərəkətə gətirir. Mikail *Quranda* (2: 98) anılmışdır.

**MİQAT** – ***dünyanın müxtəlif yerlərindən Məkkəyə gəlmiş zəvvarlar üçün xüsusi bir geyim olan "ehrama (I)" girmək üçün ayrılmış yerlərdir.*** Hazırda *Məkkəyə* çatmamış bir neçə miqat yerləri vardır.

**MİLAD** – ***əsasən İsa Məsihin doğum gününü ifadə edən sözdür.*** Xristianlar bu günü hər ilin dekabr ayının sonunda və ya yanvar ayının ilk günlərində bayram kimi qeyd edirlər.

**MİNA** – ***Ərəfat çölü üzərində Məkkədən səkkiz kilometr aralıqda yerləşən yerdir.*** *Həcc* zamanı buraya gələn zəvvarlar burada qurbanlar kəsirlər. Çünki rəvayətlərə görə bu yerdə *İbrahim* peyğəmbər *Allaha* verdiyi sözün üzərində duraraq öz oğlunu qurban vermək istəmişdir. Ancaq Allah bu qurbanı qəbul etməmiş, onun yerinə bir qurbanlıq qoçu mələk vasitəsi ilə İbrahimə göndərmişdir.

**MİNARƏ** – ***məscidin yanında tikilmiş qüllədir.*** Minarələr vasitəsi ilə müsəlmanları ibadətə və ya başqa dini və ictimai tədbirlərə çağırmaq üçün tikilirdi. *Vacib namazların* qılınmasından bir qədər öncə *müəzzinlər* minarələrə qalxıb xalqı *azanla* ibadətə dəvət edirdilər. Ancaq müasir zamanımızda buna ehtiyac qalmamışdır. Namazlara camaatı səs gücləndiricilərin vasitəsi ilə dəvət edirlər. Buna görə də günümüzdə minarələr memarlıq nümunəsi və *İslamın* rəmzinə çevrilmiş simvol kimi inşa edilir. İlk minarəni birinci Əməvi *xəlifəsi* Müaviyənin hakimiyyəti dövründə Misir *valisi* hicrətin I əsrində inşa etdirmişdir.

**MİNBƏR** – ***məsciddə imamın xütbə oxuması üçün qurulan hamı tərəfindən görülə bilən hündür bir yerdir.*** Rəvayətlərə görə *minbərin* yaranma tarixi *Məhəmməd peyğəmbərlə* bağlıdır. O, *xütbə* oxumaq üçün xurma ağacından kəsilmiş kötüyün üzərinə çıxıb xütbə oxumuşdur. Hicrətin 7-ci ilində *Mədinə* məscidində onun istəyi ilə ağacdan düzəldilmiş minbər qurulmuşdur. Onun iki pilləsi və oturmaq üçün yeri olmuşdur. Bu minbər əsrlər boyu *Mədinə məscidində* qorunmuşdur. Ancaq, 654/1256-cı ildə məsciddə yanğın baş vermiş və bu yanğın zamanı minbər tamamən yanmışdır. Bundan sonra orada başqa minbərlər qurulmuşdur. Hazırda bu məsciddəki minbər türk Sultanı III Muradın göstərişi ilə düzəldilmişdir. Mədinə məscidindən başqa, ilk minbərlər *Misir* məscidlərində qurulmuşdur. Daha sonra minbərlər dünyadakı bütün məscidlərinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Çox vaxt minbərlər ağac və daşdan düzəldilmiş sənət inciləri hesab edilirdi. Minbərlərin beş, yeddi, doqquz və daha çox pillələri olur.

**MİSİR** – ***Şimal-Şərqi Afrikada, Nil çayı boyunca uzanan qədim dövlətdir.*** Bu ölkədə dünyanın ən qədim mədəniyyətlərindən biri yaranmışdır. Qədim *Misirin* tarixi ən qədim, orta və yeni dövrlərə bölünür. Ən qədim dövrlərdə Misir bir ölkə kimi formalaşmış, orta dövrdə güclənmiş, yeni tarixdə isə zəifləmişdir. Misir kralları *Firon* adlanırdılar. Onların bir çoxu özlərini tanrılaşdırmışdırlar. Misirin yerli əhalisi isə "qiptilər" adlanırdı.

Bir çox *peyğəmbərlər* Misirin tarixi ilə yaxından əlaqəlidir. Misirlə daha çox bağlı *Musa* peyğəmbər olmuşdur. Onun zamanında qiptilər *bütpərəst* olmuş, *İsrail oğullarına* əzab vermişdirlər. Onları ən ağır işlərdə işlədirdilər. Bütün bunlardan təngə gələn İsrail oğulları Musanın yanına gedərək Fironun zülmündən və qiptilərin əzabından qurtarmaq istədiklərini bildirirlər. Musa da

Fironun yanına gəlib möcüzələr göstərmiş, onu və xalqını doğru yola dəvət etmiş, İsrail oğullarının əzablarına son *qoyulmasını* istəmişdir. Bundan başqa, *İbrahim* və İsa peyğəmbərin də Misirə səfər etdikləri rəvayət edilir.

Ancaq Firon bütün bu istəkləri yerinə yetirməkdən imtina etmişdir. Onda *Allah* qiptiləri cəzalandırmışdır. Ölkənin suları qana çevrilmiş, göydən qurbağalar yağmış, dəri xəstəlikləri yayılmış və üç gün qaranlıq olmuşdur. Firon bu möcüzələri görəndə qorxuya düşmüş, İsrail oğullarının Misirdən çıxıb getməsinə icazə vermişdir. Musa İsrail oğulları ilə Misirdən çıxıb *Qüdsə* doğru gedərkən Firon verdiyi sözdən dönmüş, onları izləyib geri qaytarmaq üçün qoşunu ilə yola çıxmışdır. Ancaq bir möcüzə sonu onlar hamısı dənizdə boğularaq məhv olmuşdurlar.

Misir dövləti minilliklər boyu çox güclü bir dövlət olmasına baxmayaraq sonralar zəifləmişdir. Bundan sonra Misiri assurlular, iranlılar, daha sonra isə Makedoniyalı İsgəndərin başçılığı altında yunanlar ələ keçilə bilmişdirlər. İsgəndərdən sonra ölkəni onun varisləri olan Ptolemeuslar idarə edirdilər. Onlar da özlərini Firon adlandırmışdırlar.

Misirin müstəqilliyinə romalılar son qoymuşdurlar. O dövrdə Misir artıq Romanın ərazilərindən birinə çevrilmişdir. Romada Xristianlıq yayıldıqdan sonra qiptilər də xristian olmuşdurlar. *İslam* zühurundan sonra isə Misir Xilafətin tərkibinə qatılmış, sonra isə müxtəlif türk sultanları tərəfindən idarə olunmuşdur. Osmanlı imperiyası dağıldıqdan sonra ingilislərin əlinə keçən Misir 1922-ci ildə müstəqilliyini elan etmişdir.

**MİSVAQ** – ***Ərəbistan yarımadasında, Afrika və Asiyanın bəzi bölgələrində bitən ərak ağacını budağından kəsilmiş kiçik qələmlərdən ibarət dişlərin təmizlənməsində istifadə olunan çubuqdur.*** Bu ağac bir-biri ilə dolaşan yoğun borucuq və telli elementlərdən ibarət olan ağacdır. Buna görə o yumşaq və elastik olur. Misvaqda bütün insan bədəni üçün faydalı olan bioloji aktiv mineral maddələr vardır. Bundan başqa onun tərkibində diş ətini bərkidən və dişlərin çürüməsinin qarşısını alan maddələr də mövcuddur. Rəvayətlərə görə *Məhəmməd peyğəmbər* də misvaqla dişlərini təmizləmişdir. Buna görə də, bir çox müsəlmanlar məhz misvaqla dişlərini təmizləməyə üstünlük verirlər.

**MİZAN** – ***axirətdə insanların işlədikləri günah və xeyir əməllərini çəkmək üçün qurulacaq tərəzidir.*** Bu barədə *Quranda* ayə vardır (7: 8). *Günah* əməlləri xeyir əməllərindən ağır olan insanlar *cəhənnəmə*, xeyir işləri ağır gələnlər isə cənnətə girəcəklər. Bundan başqa Quranda insanları məişət həyatlarında istifadə etdikləri tərəzilərdən də doğru istifadə edilməsinə çağırışlar vardır. Quranın (7: 85) ayəsinə görə *Şüeyb* peyğəmbər *Mədyən* xalqını doğru yola yönəltmək istəyəndə, onları alış-verişdə ölçüyə doğru rəiyyət etmək, başqalarını çəkidə aldatmamağa çağırmışdır. *Fiqhdə* çəkidə aldatmaq cinayətkar əməl kimi qiymətləndirilir.

**MÖCÜZƏ** – ***obyektiv qanunauyğunluq, məntiq və təbii qanunlarla izah edilə bilməyən fenomenləşmiş hadisələrdir.*** İlahiyyatçıların bir çoxu hesab edir ki, möcüzələri ancaq peyğəmbərlər göstərə bilərlər. Buna misal olaraq müqəddəs mətnlərdə *Musa* peyğəmbərin əsasının ilana çevrilməsini göstərmək mümkündür. Yenə, *İsa* peyğəmbərin ölüləri diriltməsi, korların gözlərini açması da ən çox bilinən möcüzələrdən hesab edilir. *İslam* ənənəsində Məhəmməd peyğəmbərin *isra* və *merac*, *inşiqaqül-qəmər* kimi möcüzələri də rəvayət edilməkdədir.

**MÖHKƏM AYƏLƏR** – ***anlamları açıq-aydın olan Quran ayələridir.*** Onlar haqqında *Quranda* ayə vardır (3: 7). Həmin

ayədə deyilir ki, bəzi ayələrin mənaları çətin anlaşılır və onların həqiqi anlamlarını yalnız *Allah* bilir. Onlara *mütəşabih* ayələr deyilir. *İslamın* əsasları və dinin təməlləri möhkəm ayələrin əsasında qurulmuşdur. Məsələn, hansı əməlin *haram*, hansının *halal* olması, *namazın* qılınması, *orucun* tutulması kimi dinin əsas ehkamları möhkəm ayələrdə açıqlanmışdır.

**MÖHTƏKİRLİK** – ***əhali üçün həyati əhəmiyyətli malların hamısını alaraq bazarda onun çatışmamazlığı üçün şərait yaratmaq, sonra onları çox baha qiymətə satmaqdır.*** Fəqihlərin çoxuna görə möhtəkirlik *harama* yaxın olan məkruh əməldir. Bu işlə məşğul olan adamları "möhtəkir" adlandırırlar.

**MÖMİNLƏR** – ***Allahın endirdiyi vəhyin hökmlərini qəbul edib, onlara əməl edən insanlardır.*** İslam *məzhəblərinin* çoxunda mömin inancını sözlə ifadə etməli, özünün müsəlman olduğunu *kəlimeyi-şəhadət* deməklə dilə təsdiq etməlidir. *Batiniliyə* üstünlük verən *təriqətlərdə* müsəlman olmağın dillə təsdiq olunmasına ehtiyac yoxdur. *Mürciilər* hesab edir ki, müsəlman olmaq üçün dil ilə təsdiqləmək kifayətdir. Çünki, onların təlimində əməllər inancı pozmur. Başqa məzhəblərdə isə möminlik təkcə sözlə deyil, həm də əməllərdə özünü göstərməlidir. Yəni, sözlə əməlin vəhdəti müşahidə edilməlidir.

**MÖVLƏVİLƏR** – ***sufi təriqətlərindən birinin ardıcıllarıdırlar.*** Bu *təriqətin* adı Mövlanə Cəlaləddin Rumi (604/1207 – 672/1273) ilə bağlıdır. O, Bəlxdə doğulmuşdur. 610/1213-cü ildə onun ilk müəllimi olmuş atası Bəhaəddin Vələd, ailəsi ilə birlikdə Bəlxdən Hicaza, daha sonra isə Səlcuqluların hakimiyyəti altında olmuş Konyaya köçmüşdürlər. 642/1244–cü ildə təhsilini başa vuraraq məktəbdə müəllimlik etməyə başlamışdır. Elə o vaxtlardan mənəvi yolçuluğuna başlamış, onu inkişaf etdirmişdir. Öncə o *kübraviliyə* üstünlük verirdi. Ancaq 642/1244-cü ildə gəzən *dərviş* Şəms Təbrizi ilə görüşdükdən sonra o, sufiliyin "eşq" yolunun yolçusu olmuşdur. Bu səbəbdən də onun adlarından biri də Mövlanə olmuşdur.

Daha sonra Mövlanə öz mənəvi təriqətini yaratmışdır. Onun vəfatından sonra isə irsini davam etdirən davamçıları onun adını daşıyan sufi təriqətində birləşmişdirlər. Mövləvilərin xüsusi təriqətləri vardır. Onun əsasında Mövlanənın "Məsnəvi" adlı poetik kitabı durur. "Məsnəvidə" həm Mövlanənin lirikası poetik bir tərzdə verilmiş, həm də onun əsasında mövləvilərin təriqəti inkişaf etdirilmişdir. Bu kitabdan başqa Mövlanənın başqa əsərləri də vardır.

Mövləvilik Osmanlı imperiyasının yüksək dairələri tərəfindən dəstəklənərək elitar bir təlimə çevrilmişdir. Buna görə də mövləvilik Anadoluda, Suriyada, *Misirdə*, Balkanlarda, Krımda geniş yayılmışdır. Mövləvilər həm də türk mədəniyyətinin daşıyıcısı hesab edilirdilər. Mövləvi təriqətinin *şeyxləri* Mövlanəyə yüksələn mənəvi varislik yolu ilə təyin olunurlar. Təriqətin mərkəzi Türkiyənin Konya şəhərində yerləşir. Mövləvilərin *təkkələri* başqa sufi təriqətlərinin təkkələrindən daha böyük olmuşdur. Bu da mövləvilərin mənəvi ayinlərinin özəlliyi ilə bağlıdır. Çünki, Mövləvilərin *zikrləri* özlərinə məxsus formada yerinə yetirilir. Bunun üçün onlar "səma" adlanan ayin təşkil edirlər.

Mövləvilərin mənəvi həyatında 1001 gün sürən təkliyə (çilə çəkmə) çəkilmək təcrübəsinə böyük önəm verilir. İnzivaya çəkilən dərvişə "çiləkeş" deyirlər. Çiləni bitirmiş dərvişə "dədə" adı verilir. Başqa təriqətlərdən fərqli olaraq mövləvilikdə parçalanma olmamışdır. Günümüzdə mövləvilik təriqəti yalnız Türkiyədə fəaliyyət göstərir.

**MÖVLUD** – ***hər il Rəbiül-Əvvəl ayının onikisində müsəlmanların Məhəmməd peyğəmbərin anadan olmasının il dönümünün qeyd edildiyi gündür.*** Məhəmməd *peyğəmbər Məkkə* şəhərində doğulmuşdur. Onun dəqiq doğum tarixi bilinməməkdədir. Güman edilir ki O, təxminən miladi 570-ci ildə anadan olmuşdur. Rəvayətlərə görə Məhəmmədin dünyaya gəlməsindən yeddi gün sonra babası Əbdülmüttəlib anadan olmuş nəvəsi üçün verdiyi ziyafətdə ona *Məhəmməd* adını qoymuşdur.

İlk dəfə mövlud bayramı Misirdə *Fatimilərin* (297/909-567/1171) dövründə qeyd edilmişdir. Daha sonra bu bayram müsəlman dünyasında yayılaraq daha da təntənəli şəkildə xalq arasında qeyd edilməyə başlamışdır. Osmanlı imperiyasında mövlud artıq dövlətin rəsmi bayramı kimi təsdiq olunmuşdur. Bu ənənə Sultan III Muradın dövründən başlayaraq İstanbulun Aya-Sofiya və Sultan Əhməd *məscidlərində* şənliklər keçirilirdi. Bununla belə mövludun qeyd edilməsinə dair ilahiyyatçıların fərqli fikirləri vardır. Onlardan bəziləri bu bayramı dinə gətirilmiş *bidət* sayır və onun keçirilməsinə etiraz edirlər. Ancaq digər ilahiyyatçılar isə mövludun keçirilməsinin *şəriətə* uyğun olduğunu israr edirlər. İlahiyyatçılar arasındakı mübahisələrə baxmayaraq mövlud bayramı bir çox yerlərdə sadə xalq tərəfindən sevilən bayramdır. Həmin gün müsəlmanlar Allaha dualar, məclislər təşkil edirlər.

**MÖVT** – ***ruhun bədəndən ayrılması və insanın fiziki olaraq ölməsidir.*** Dini inanca görə insan öləndə öz varlığını itirmir. Çünki o, *ruh* və bədəndən ibarətdir. Ölüm yalnız cismani olaraq ruhun bədəndən ayrılmasıdır. Bununla da, bədəndən ayrılan ruh əbədiyyət qazanmış olur. *İslam* təliminə görə *qiyamət* olanda bütün ruhlar bədənlərə geri qayıdacaq və mühakimə olunacaqlar. Buna görə də, hər bir insan ölümünü xatırlamalı, *Allaha* ibadət etməli, yaxşı işlər görməli, pis işlərdən çəkinməlidirlər (*Quran* 3: 185).

**MUHSƏN** – ***İslam şəriətinə uyğun olaraq kəbin qaydaları ilə evlənmiş müsəlman kişi və qadındır***. Bu sözə Quranda (5: 5) rast gəlinir. Fiqhə görə muhsənlər başqa adamlarla sevişməməlidirlər. Onlar zina etsə, camaat qarşısında daşqalaq edilməlidirlər. Muhsən olmayan zinakara qarşı isə yüngül cəzalar tətbiq edilir.

**MUXTAR SƏQƏFİ** – **qeysanilər təriqətinin qurucusu, ictimai və dini-siyasi xadim olmuşdur**. O*, Abdullah ibn Zübeyrin* (64/684 – 73/692) hakimiyyəti dövründə Xilafətdə baş vermiş siyasi çəkişmələr və daxili savaşlardan yararlanaraq Kufəyə gəlmiş, orada sakinləri *Əli ibn Əbu Talibin* oğlu Məhəmmədin *imamətini* tanımağa dəvət etmişdir. Orta əsr müsəlman tarixçiləri Müxtarı mənfi bir şəxsiyyət kimi təqdim etmişdirlər. Onların iddialarına görə, Muxtar müsəlmanların *əhli-beytə* sevgisindən öz məqsədləri üçün istifadə edirdi. Onlar iddia edirdilər ki, Məhəmməd ibn Hənəfiyyənin Müxtarın fəaliyyətinə heç bir aidiyatı olmamış və o, ondan icazə almadan onun adından çıxış edirdi. *Xəlifə* Əlinin hakimiyyəti dövründə isə o, İraqda yaşamış, onun ölümündən sonra isə Bəsrəyə köçmüşdür. *Hüseyn ibn Əli* Kərbəlada *şəhid* edildikdən sonra *Əməvilərin* Kufədəki valisi Übeydullah ibn Ziyad onu Xilafətdə qarışıqlıq salmaq ittihamı ilə həbs etmişdir. Bir müddətdən sonra Muxtar azadlığa çıxmış və Əməvilərə qarşı üsyana qalxmış *Abdullah ibn Zübeyrin* tərəfinə keçmiş, onun tapşırığı ilə Kufəyə getmiş və orada yenidən tutulmuşdur. Azadlığa çıxandan sonra öz tərəfdarlarını gizli olaraq ətrafına toplayıb, onların *beyətini* almışdır. Bu dəstə getdikcə güclənmiş və onlar xəlifə Abdullah ibn Zübeyrin vali göndərdiyi Ab-

dullah ibn Mütinə qarşı üsyana qalxmışdırlar. Xəlifə bu üsyanı yatırtmaq üçün onlara qarşı sərkərdə Şibs ibn Ribinin başçılığı altında qoşun göndərmişdir. Ancaq, Muxtarın tərəfdarları o qoşuna qalib gələ bilmişdirlər. Bu hadisədən sonra Küfə valisi Bəsrəyə qaçmağa məcbur olmuş, şəhər üzərində hakimiyyət isə Muxtarın əlinə keçmişdir. Bu uğurdan sonra Muxtar və tərəfdarları Əməvilərə qarşı uğurla vuruşsalar da, sonda onları Abdullah ibn Zübeyrin qoşunu məğlub edə bilmişdir. Muxtar isə hicrətin 68-ci ilində öldürülmüşdür. Onun ardıcılları isə *qeysanilər* adlanaraq uzun zaman fəaliyyət göstərmişdirlər.

**MUSA** – ***Quranda İsrail oğullarına və Misir xalqına göndərilmiş peyğəmbərlərdən biridir.*** O, İmranın oğlu *Yaqubun* soyundan olmuşdur. Qardaşı *Harunla* birlikdə *peyğəmbərliklə* vəzifələndirilmişdirlər. Onun haqqında *Quranda, hədislərdə* və *israiliyyatda* məlumat vardır. Bu mənbələrə görə *Yusif* peyğəmbərin dövründə *Misirə* köçmüş israillilərin sayı çoxalmışdır. Zaman keçdikcə onların yerli qiptilərlə qarşıdurmaları baş vermişdir. Bir gün Misir *Fironu* yuxuda *Qüdsdən* qalxan odun israillilərə toxunmayaraq bütün qiptiləri yandırdığını görmüşdür. Bu yuxunu yozmuş kahinlər Firona israillilərin arasında dünyaya bir uşağın gələcəyini, böyüyəndən sonra onu məhv edəcəyi xəbərini vermişdirlər. Bunu eşidən Firon, israillilərin bütün yeni doğulmuş oğlan uşaqlarının öldürülməsini əmr etmişdir (Quran, 2: 49). Elə o zaman Musa doğulmuşdur. Yeni doğulmuş körpənin anası onu gizli olaraq beşiyə qoyub Nil çayına buraxmışdır. Suyun axarı bu körpəni Fironun sarayına doğru gətirmiş, orada Fironun həyat yoldaşı Asiya onu ölümdən qurtarmışdır (Quran, 20: 36-39). Sonra onu saraya gətirmiş, onun üçün süd anası axtarmağa başlamışdır. Bu xəbəri eşidən Musanın anası saraya gəlib süd analığı üçün özünün xidmətini təklif etmişdir (Quran, 20: 40). Musa uzun müddət Fironun sarayında qalmışdır. Daha sonra o, qiptilərin *İsrail oğullarına* verdiyi əzabların şahidi olmuşdur. Onlardan birini müdafiə edərək bir qiptini öldürmüşdür. Buna görə də Misirdən qaçıb *Mədyənə* üz tutmuşdur. Orada bir neçə il Şüeyb peyğəmbərin qulluğunda olmuş, onun qızı ilə evlənmişdir (Quran, 20: 40). Uzun müddət keçəndən sonra Musa Misirə qayıtmaq fikrinə düşmüşdür. Yolda olarkən *Tur dağında* Allah ona və onun qardaşı Haruna peyğəmbərlik verdi. Sonra Allah onlara Fironun sarayına getməyi və onu doğru yola dəvət etməyi əmr etdi (Quran, 28: 29-35). Bundan sonra qardaşlar birbaşa Fironun sarayına getdilər. Musa peyğəmbər orada möcüzələr göstərsə də, Firon və digər qiptilər ona inanmamışdılar (Quran, 26: 18-51).

Sonra Musa Firondan israillilərin Misirdən buraxılmasını istəmişdir. Firon buna etiraz etdiyinə görə Allah qiptilərə əzablar göndərmişdir. Onların suları qana çevrilmiş, üç gün hər yeri qaranlıq bürümüş, bütün ölkəyə göydən qurbağalar yağmış, xəstəliklər yayılmışdır. Firon bunları gördükdə qorxmuş, İsrail oğullarının Müsirdən çıxmasına icazə vermişdir. Musa peyğəmbərin rəhbərliyi ilə onlar Misirdən *Fələstinə* doğru yola çıxmışdırlar. Ancaq sonra Fironun fikri dəyişmişdir. O, israillilərin köçməsinin qarşısını almaq üçün qoşunu ilə onları izləməyə başlamışdır. İsrail oğulları Qırmızı dənizə yaxınlaşanda möcüzə baş vermiş dəniz ikiyə ayrılmış və onlar üzbəüz sahilə keçə bilmişdirlər. O zaman Fironun qoşunu da o yerə vararaq həmən yolla dənizi keçmək istəyən zaman sular yenidən birləşmiş və Firon qoşunu ilə birlikdə suda boğulub həlak olmuşdurlar (Quran, 28: 40).

Bundan sonra israillilər səhralarla irəliləməli olmuşdurlar. Günlərin birində Musa xalqı qardaşı Haruna tapşıraraq

yenidən Tur dağına yollanmışdır. Orada Allah ona *Tövratı* nazil etmişdir. Ancaq o zaman İsrail oğulları *günah* əməl işləyərək *əhdlərinə* vəfasız çıxmışdırlar. Onlar bir qızıl *buzov* bütünü düzəldib ona tapınmışdırlar. Musa geri qayıtdıqdan sonra o *bütü* düzəldənləri cəzalandırmış, xalq isə *tövbə* etməyə dəvət etmişdir (Quran, 2: 51-52). Bundan sonra Musa onları Tövratın qanunları ilə idarə etmişdir. O, onlara çoxlu möcüzələr göstərmiş, xalq aç olduqda onlara göydən *mənn* və *səlva* yağmışdır. Daha sonra İsrail oğulları Fələstinə daxil olmuşdurlar. O zaman orada bütlərə tapınan Amalika xalqı yaşayırdı. Musa israilliləri onlarla vuruşmağa dəvət etmişdir. Ancaq onlar vuruşmaqdan çəkinmiş və Müsaya qarşı çıxmışdırlar (Quran, 5: 24). Buna görə də, Allah İsrail oğullarını cəzalandırmışdır. Beləliklə, onlar 40 il öz torpaqlarına qayıda bilməmişdirlər (Quran, 5: 26). İsrail oğulları 40 il səhralarda köçəri həyat sürməli olmuşdurlar. Bu müddət ərzində dəyişən nəsil artıq amalikalılara qarşı vuruşmağa hazır idilər. Bundan sonra Musa peyğəmbər onlarla birlikdə Lut gölünün (Ölü dənizin) cənubunu və bəzi başqa yerləri ələ keçirmişdirlər. Daha sonra Musa peyğımbər Yerihonun yaxınlığındakı dağa qalxaraq uzaqdan Kənan torpaqlarını görmüşdür. O, 120 yaşında vəfat etmişdir. Ölümündən öncə o, öz yerinə İsrail oğullarına rəhbərlik etmək üçün *Yuşa ibn Nunu* təyin etmişdir. Onun zamanında israillilər Fələstini fəth edə bilmişdirlər.

**MUSA İBN CƏFƏR** (128/745 – 183/799) – ***əhli-beytdən olan tanınmış fiqih alimi və şiələrin yeddinci imamı olmuşdur.*** Musa İbn Cəfər *Mədinədə* doğulmuş və orada fəaliyyət göstərmişdir. Onu Musa Kazım da adlandırırdılar. Həyatını ilahiyyat elmlərini öyrənməyə həsr etmişdir. Ancaq o dövrdə *Abbasi* xəlifələri *əhli-beyti* təqib edirdi. Bu təqiblər zamanı Musa ibn Cəfər tutularaq Bəsrəyə, sonra isə Bağdada aparılmışdır. Orada həbsxanada vəfat etmiş və ya öldürülmüşdür.

**MUSİQİ** – bax: **ĞİNA**.

**MUSTAFA SƏBRİ ƏFƏNDİ** (1285/1869 – 1373/1954) – ***görkəmli Türk-İslam alimi, hənəfi hüquq məzhəbinin təmsilçisi, Osmanlı imperiyasının sonuncu şeyxülislamı olmuşdur.*** O, Türkiyənin Tokat şəhərində doğulmuşdur. O, Kayseridə təhsilə başlamış, sonra təhsilini İstambulda davam etdirmişdir. 22 yaşından müədərrislik etməyə başlamışdır. Gənc türklər hərəkatı hakimiyyətə gəldikdən sonra Mustafa Səbri Əfəndi onlara, eləcə də onların partiyaları olmuş "İttihad və tərəqqiyə" müxalifətdə olmuşdur. Buna görə təqiblərə uğramış və nəticədə Rumıniyaya hicrət etmişdir. Daha sonra yenidən İstambula qayıdaraq pedaqoji fəaliyyətini davam etdirmişdir. O, 1337/1919-cu ildə Osmanlı imperiyasının sonuncu şeyxülislamı olmuşdur. 1340/1922-ci isə ildə İstanbuldan Qahirəyə köçmüş, son günlərinə qədər orada yaşamış, "Əl-Əzhar" universitetinin müəllimi olmuşdur. Mustafa Səbri Əfəndi *Cəmaləddin Əfqani, Məhəmməd Abduh,* eləcə də başqa *Misir* islahatçılarının fəaliyyətinə qarşı çıxış etmiş, onları İslama *bidətlər* gətirdiklərinə görə günahlandırmışdırlar. Mühafizəkar bir dindar olaraq onları təkzib etmək üçün əsərlər yazmışdır.

**MÜAMİLƏ** – ***insanların bir-biri ilə hüquqi, iqtisadi, siyasi, əxlaqi və başqa ictimai münasibətlərini əks etdirən anlayışdır.*** *İslam* təlimində insanların düzgün qurulmuş ictimai əlaqələri və davranışları *Allaha* edilən ibadətin növlərindən biridir. *Şəriətə* uyğun olan münasibətlər savab, olmayanlar isə *günah* hesab edilir.

**MÜAZ İBN CƏBƏL** (19/640-cı ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuşdur.*** O, Məkkədə *Xəzrəc* qəbiləsindən olan ailədə doğulmuşdur. 18 yaşında *İslamı* qəbul edərək *Əqəbədə* Məhəmməd peyğəmbərə *beyət* edənlərdən biri olmuşdur. Daha sonra digər müsəlmanlarla birlikdə döyüşlərdə iştirak etmişdir. Bundan başqa *Quran hafizi* olmuş, hüquqi hökmlər vermişdir. Suriyada 38 yaşında taun xəstəliyindən vəfat etmişdir. Onun adından rəvayət edilmiş 150-dən artıq *hədis* dövrümüzə gəlib çatmışdır.

**MÜBAH** – ***Əfal-i mükəlləfindəndir, edilməsində və ya tərkində dini cəhətdən heç bir zərəri olmayan, yəni mükəlləfin edib etməməkdə tamamilə sərbəst olduğu işlərdir.*** Oturmaq, yemək, içmək, yatmaq kimi əməllər mübah əməllər hesab edilirlər. Mübah olan bu kimi işlərin edilməsində nə *savab*, nə də tərkində *günah* vardır. Mübah əməllər yaxşı *niyyətlə* edilərsə savab, pis niyyətlə edilərsə günah qazanılır.

**MÜCƏDDİD** – ***inandığı dinin ehkamları haqqında yeni mütərəqqi fikirlər irəli sürən islahatçı insanlardır.*** Tarixin inkişafında cəmiyyətlərdə dini inancın zəifləməsi baş verir. *İslam* təliminə görə *Məhəmməd* sonuncu *peyğəmbərdir*. Buna görə də yeni peyğəmbərin gəlişi imkansızdır. Beləliklə, İslam zəiflədiyi təqdirdə peyğəmbər deyil, *mücəddid* gələ bilər. Bu barədə bəzi *hədislər* də vardır. Mücəddidlərin peyğəmbərlərdən fərqi ondan ibarətdir ki, onlar yeni din gətirmir, mövcud olan dinin çərçivəsində peyğəmbərlərin unudulmuş irsini yenidən dirçəldirlər. İlahiyyatçılara görə mücəddidin məqsədi müsəlmanların İslamın müddəalarını dəyişdirmək deyil, dini *bidətlərdən* təmizləmək, mövcud olan inanca yeni *ruh* verməkdir. İlahiyyatçıların bəziləri hesab edir ki, mücəddidlər peyğəmbərin *əhli-beytindən* olmalıdır. Digərləri isə hesab edirlər ki, İslamın mücəddidi hər bir müsəlman ola bilər.

**MÜCƏSSİMİLƏR** – ***Tanrını insan və ya digər varlıqlar kimi təsəvvür edənlərdir.*** *İslamda* mücəssimiliyi cərəyan kimi yaradan Cəhm ibn Səfvan (128/746-ci ildə vəfat etmişdir) adlı bir şəxs olmuşdur. O, *Allahı* insana bənzər sifətlərdə görürdü. Orta əsrlərdə bir neçə mücəssimi *təriqətləri* olmuşdur. Onlardan ən tanınmışları *Haşimilər* idilər. Bu təriqəti Haşim ibn Həkəm adlı biri yaratmışdır. İslam tarixçilərinə görə mücəssimilərin çoxu Tanrı təcəllisinə inanan aşırı təriqətlərin davamçıları olmuşdurlar. Onlardan biri xəlifə *Əli ibn Əbu Talibi* tanrılaşdıran *Abdullah ibn Səba* idi. Bəzi Bəsrə *mütəzililəri* də müəyyən qədər öz baxışlarında mücəssimiliyə meyl etmişdirlər. Məsələn, onlardan bəziləri *Allahın* iradəsini insan iradəsinə bənzədirdilər. Ancaq, mücəssimilik bir təlim kimi formalaşmamışdır. Onun əlamətləri müxtəlif təriqətlərin və cərəyanların nümayəndələrinin dünyagörüşündə yer almışdır. Bir çox hallarda rəqabət aparan təriqətlər başqalarını təkzib etmək üçün onları mücəssimilikdə ittiham etmişdirlər. Məsələn, mütəzililər ənənə tərəfdarlarını Allahın sifətlərinin olmasına və Allahın taxtda (*ərşdə*) oturmasına inandıqlarına, *cənnətdə* Allahı görəcəklərini iddia etmələrinə görə onları mücəssimi adlandırmışdırlar.

**MÜCTƏHİD** – ***dini məsələlərdə müstəqil hökmlər vermək hüququna sahib olan müsəlman ilahiyyatçısıdır.*** Ən yüksək rütbəli müctəhidlər hökmləri digər ilahiyyatçıların fikirlərinə istinad etmədən birbaşa Quran *ayələri* və *hədislərin* əsasında, digərləri isə öz hökmlərini onlara istinad edərək verirlər. Müctəhidlər ərəb dilini, *Quranı*, *təf-*

*siri*, hədisləri və *fiqhi* yaxşı bilməlidir. Onlar əxlaqlı, ədalətli və inanclı insanlar olmalıdırlar.

**MÜFƏSSİR** – ***Quran təfsirçisidir.*** *İslam* ənənəsində *Quranı* doğru *təfsir* etmək ən şərəfli və məsuliyyətli işlərdən biri hesab edilir. Buna görə də, *müfəssirin* qarşısına yüksək tələblər qoyulur. O, ərəb dilini, hər bir ayənin nüzul səbəblərini, *hədisləri* mükəmməl bilməli, mövcud ictimai durumu doğru qiymətləndirməli, analitik düşüncəyə sahib olmalıdır.

**MÜFTİ** – ***fiqhi hökmlər verən ilahiyyatçıdır***. Müftilər *şəriətin* müxtəlif məsələlərinin həlli yollarını bilməli və istənilən problem haqqında *fətva* verə bilmə qabiliyyətinə malik olmalıdır. Ancaq müftilərin çoxu birbaşa *Quran ayələri* və *hədislərdən* hökmlər vermirlər. Onlar bunu edə bilən *müctəhidlərin* hökmlərinə istinad edirlər. Verilən hökmlər ictimai duruma uyğun olmalıdır. Müfti vəzifəsini inanclı və bilikli müsəlman daşıya bilər. İnancı zəif olan, şəriətin qanunlarını yerinə yetirməyən müsəlman, dərin elmi biliklərə sahib olsa belə, müfti ola bilməz.

**MÜƏLLƏFƏİL-QÜLUB** – ***İslamı yeni qəbul edən, ancaq imanı hələ möhkəmlənməyən müsəlmanlardır.*** *Peyğəmbərin* dövründə onlara *zəkat* verilirdi. Ancaq, xəlifə *Əbu Bəkrin* hakimiyyəti dövründə zəkatın verilməsi ləğv edildi. Ancaq buna baxmayaraq bu müsəlmanlara hər hansı bir yardımın göstərilməsi *haram* deyildir. *Cəfəri məzhəbində* isə *İslamı* yeni qəbul edən müsəlmanlara zəkatın verilməsi *adəti* qalmaqdadır.

**MÜƏZZİN** – ***azanı uca səslə oxuyan müsəlmandır.*** Rəvayətlərə görə *azanın* qaydasını *Məhəmməd peyğəmbər* müsəlmanlara öyrətmişdir. *İslam* tarixində ilk *müəzzin Bilal Həbəşi* olmuşdur. Ondan başqa *Abdullah ibn Ümm Məqtum* da ilk müəzzinlərdən biri hesab edilir.

**MÜHACİRLƏR** – ***hicrətin səkkizinci ilindən başlayaraq müsəlmanların Məkkəni fəth etmələrinə qədər, bütpərəstlərin ağır təqiblərindən qurtulmaq üçün Həbəşistana, sonra isə Mədinəyə hicrət etmiş müsəlmanlardırlar.*** Mühacirlər *Məkkədə* olarkən ağır təhqir və özbaşınalıqlara məruz qalmışdırlar. Bu səbəbdən onlar öz ev-eşiklərini, ata-baba yurdlarını tərk etməyə məcbur olmuşdurlar. *Mədinəyə hicrət* etdikdən sonra mühacirlərin ağır günlərində onlara *Mədinə* müsəlmanlarından olan ənsarlar kömək etmişdirlər (Quran, 59: 9). Mühacirlərlə ənsarlar ilk güclü müsəlman icmasını yaratmış, sonra yaranacaq Xilafətin əsaslarını qoymuşdurlar. Onlar *Bədr, Uhud*, Hüneyn və başqa döyüşlərdə *bütpərəstlərlə* döyüşmüşdürlər. *Məhəmməd peyğəmbərin* vəfatından sonra *Əbu Bəkrin* xəlifəliyi dövründə mühacirlər Ərəbistanda ərəb qəbilələrinin üsyanlarının yatırılmasında da iştirak etmişdirlər. Bundan başqa onlar *İslam* ordusunun tərkibində Bizans və İran ordularına da qalib gəlmişdirlər. Mühacirlərin müsəlman icmasında xüsusi yeri olmuşdur. Məsələn, yalnız onlardan olanlar *xəlifə* seçilə bilərdi. Raşidi xəlifələrin hamısı onlardan olmuşdular. Əməvi və Abbasi xəlifələri də mühacirlərin soyundan idilər. *Quranın* bir neçə ayəsində mühacirlər anılmışdır (16: 41, 16: 110, 8: 74). Ümumiyyətlə, dini etiqadlarına görə təqiblərdən qurtulmaq məqsədi ilə başqa yerlərə və ölkələrə köçən bütün müsəlmanlar da mühacir adlanırlar.

**MÜHƏDDİS** – ***peyğəmbərdən və onun əhli-beytindən rəvayət olunmuş hədisləri mənimsəyən və onların metodologiyasını quran İslam alimləridirlər.*** Mühəddislər

*Məhəmməd peyğəmbərdən* və ya onun *əhli-beytindən* rəvayət edilmiş *hədisləri* toplamış, onların ravi *silsiləsini* və etibarlılığını müəyyən etmişdirlər. Hədisləri araşdıran mühəddislər eyni zamanda özləri də ravi hesab edilirlər. Minlərlə hədisləri əzbərdən bilənlərə "hədis *hafizi*" deyilir.

**MÜHƏDRƏMLƏR** – ***Məhəmməd peyğəmbərin sağlığında yaşamış, ancaq onu görməmiş müsəlmanlardır.*** Mühədrəmlər səhabə hesab olunmurlar. Ərəbistanda bütpərəstlərlə savaşların aparıldığı dövrlərdə bəzi müsəlmanlar özlərini bütpərəstlərdən ayırmaq üçün öz dəvələrinin qulağının bir parçasını kəsirdilər. Buna görə də, onları mühədrəmlər adlandırmışdırlar.

**MÜHƏKKİMİLƏR** – bax: **XARİCİLƏR.**

**MÜHƏRRƏF** – ***dəyişdirilmiş, orijinalı olmayan deməkdir.*** İnsanlar tərəfindən təhrif edilmiş müqəddəs kitablar belə adlanır. *İslam* ilahiyyatçılarına görə *Allah* yer üzünə 100 *sühuf* və 4 kitab nazil etmişdir. Ancaq bunların çoxunun orijinal mətnləri qalmamışdır, zaman keçdikcə insanlar onları təhrif etmişdirlər. İlahiyyatçıların bir çoxu *Tövrat* və *İncili* də təhrif edilmiş kitablar hesab edirlər. Onlar həm də qeyd edirlər ki, İslamdan başqa bütün dinlər təhrif edilmişdir. Onların iddialarına görə təhrif edilməyən kitab yalnız *Qurandır*. Bu iddialarla razılaşmayan ilahiyyatçılar da vardır.

**MÜHTƏSİBLƏR** – ***müsəlman cəmiyyətində İslamın əxlaq qaydalarına müsəlmanların riayət edib-etməmələrinə nəzarət edən şəxslər olmuşdurlar.*** Onlar spirtli içkilər qəbul edənlərə, *Ramazan* ayında *orucu* tutmayanlara, əxlaqsız hərəkətlər edənlər və başqa bu kimi əməlləri törədənlərə qarşı tədbirlər görüb, onları cəzalandırmaq hüququna malik idilər. Bundan başqa, mühtəsiblər ictimai asayışı qoruyur və qanun pozuntularının qarşısını alırdılar. Bəzən mühtəsiblər qanun pozuntularının qarşısını öncədən almaq üçün profilaktik işləri də görürdülər. *Şəriət* qanunlarının və cəzaların qaçınılmaz olduğunu əhalinin nəzərinə çatdırırdılar. Yalnız yetkinlik yaşına çatmış, yüksək əxlaqı keyfiyyətlərə malik olan, fiziki gücü və möhkəmliyi ilə seçilən insanlar mühtəsib ola bilərdi.

**MÜQƏDDƏS GECƏLƏR** – ***müsəlmanlar tərəfindən qeyd edilən beş gecədir.*** Müsəlmanlar tərəfindən aşağıdakı bu gecələr qeyd edirlir:

1. Qədr (*Ramazan* ayının 27-ci gecəsidir);
2. Merac (*Rəcəb* ayının 27-ci gecəsidir);
3. Bəraət (Şəban ayının 15-ci gecəsidir);
4. *Rəqaib* (Rəcəb ayının ilk *cümə* gününün gecəsidir);
5. *Mövlud* (Rəbiəl-Əvvəl yının 12-ci gecəsidir).

İlk dəfə hicrətin 300-cü illərində *Misirdə* Mövlud gecəsi keçirilmişdir. Bundan sonra *Qüdsdə* Merac, Rəqaib, Bəraət gecələri də qeyd edilmişdir. Daha sonra bu mərasimlər bütün *İslam* dünyasında yayılmışdır. İslam ilahiyyatçılarına görə Qədr gecəsi *Quranda, Bəraət gecəsi isə hədislərdə* anılmışdır. Ancaq bir çox müsəlman icmaları müqəddəs gecələrin qeyd edilməsinə qarşı çıxmışdırlar. Onlar bu mərasimi bidət elan etmişdirlər.

**MÜQƏLLİD** – ***dərin dini bilikləri olmayan müsəlmandır.*** *İslam* ilahiyyatına görə yüksək dini biliklər almadan, elmlərlə məşğul olmadan heç bir şəxs dini hökmlər çıxara bilməz. Buna görə də, müsəlmanların çoxu *müctəhidləri təqlid* etməlidirlər. Bütün problemləri onların hökmləri ilə həll etməlidirlər. Alimlər isə hökmləri *fiqhi* metod və *adətlərə* uyğun olaraq müqəllidlərə çatdırırlar.

**MÜNAFİQLƏR (I)** – ***Mədinədə Məhəmməd peyğəmbərə və onun apardığı siyasətə qarşı gizli müxalifət yaratmış qrupun nümayəndələri idilər.*** Bu dəstə *Məhəmməd* peyğəmbərin *Mədinəyə hicrət* etməsindən sonra yaranmışdır. *İslam* qaynaqlarına görə onlar *zahirən* özlərini müsəlman kimi aparmış, ancaq əslində isə İslam düşmənləri idilər. Onlar müsəlman icmasının içində dağıdıcı fəaliyyətlə məşğul olmuşdurlar. İlk münafiq kimi *Abdullah ibn Übeyin* adı qeyd edilir. Münafiqlərin məqsədi Məhəmməd *peyğəmbər* və onun yaxınlarını *Mədinədən* qovub, şəhərdə hakimiyyəti öz əllərinə almaq idi. Onlar müsəlmanların arxasında onların düşmənləri ilə anlaşmış, müsəlmanların müxtəlif işlərinin görülməsinin qarşısını almaq istəmiş, İslam dini və Məhəmməd peyğəmbər haqqında *iftiralar* yaymışdırlar. Onlar müsəlmanlara böyük zərbələr vurmuşdurlar. Daha sonra münafiqlər müsəlmanlardan ayrılmış və *Quba* məntəqəsində tikdikləri Dirar adlı bir *məsciddə* yığışmağa başlamışdırlar. Bu məscid haqqında *Quran ayələri* də vardır (9: 107-108). Sonralar isə müsəlmanlar Təbuk yürüşündən qayıdanda o məscidi dağıtmışdırlar. Münafiqlərin fəaliyyəti onlar üçün heç bir müsbət nəticə verməmiş, çünki müsəlman icması getdikcə güclənmiş və bütün düşmənlərinə qalib gələ bilmişdirlər.

**MÜNAFİQLƏR (II)** – ***üzdə özlərini müsəlman kimi göstərən, əslində isə dinsiz və ya ikiüzlü olan insanlardır.*** Münafiqlərin bir neçə xüsusiyyətləri Quran *ayələrində* açıqlanmışdır. Belə ki, onlar sabahları ibadətə həvəssiz qalxar (4: 142-143), başqa adamları dindən uzaqlaşdırmaq üçün yalandan *şahidlik* edər (58: 14); yalnız özlərinə sərf edən işləri görər, başqalarını düşünməz (4: 141, 29: 10-11); ayələri gülümsəməklə qarşılayar (4: 140), yalan danışırlar (33: 60-61). Ancaq müsəlmanlar onlara qalib gəldiyini gördükdə onlar bu qalibiyyətə şərik çıxarlar (Quran, 4: 141). *Quranın* 4: 145 ayəsinə əsasən deyə bilərik ki, münafiqlər *cəhənnəmin* ən aşağı qızmar təbəqəsində cəzalandırılacaqlar.

**MÜNKƏR (I)** – ***Quranın ayələri, Məhəmməd peyğəmbərin hədisləri, müctəhidlərin icması tərəfindən yasaqlanmış şeylər və əməllərdir.*** Onlardan çəkinməyən insan günah əməl işlətmiş olur. Münkərlər insanın düşüncəsində də ola və pis *niyyətlərdə* özünü göstərə bilərlər.

**MÜNKƏR (II)** – bax: **NAKİR VƏ MÜNKƏR.**

**MÜRCİİLƏR** – ***inancı insan əməllərindən ayıran dini təlimin ardıcıllarıdırlar.*** Mürciilərə görə insanın gördüyü əməllər və qazandığı *günahlar*, onun inancı ilə bağlı deyildir. Onlara görə pis əməllərin görülməsi heç kəsin inancını əskiltmədiyi kimi, yaxşı işlərin görülməsi də imanı artırmır. İnanc varsa var, yoxdursa yoxdur. Görülən işlərlə onun heç bir əlaqəsinin olmadığını müdafiə edirdilər. Buna görə də, *fiqh* elmi onlar üçün heç bir əhəmiyyət kəsb etmirdi.

**MÜRİD** – ***sufilikdə şeyxin rəhbərliyi ilə mənəvi yolçuluğa çıxan insandır.*** Bəzi sufi alimlərinə görə mənəviyyat yolçuluğunda mürid öz *iradəsini* itirir. Mürid *şeyxinin* vasitəsi ilə özünü *Allahda* tapmaq üçün bu uzun və çiləli yolçuluğa başlayır. Müridin öz iradəsini Allahın iradəsinə tabe etməsi prosesi mütləq şeyxin rəhbərliyi altında getməlidir. Mənəviyyat yolçusunun yolu ağılla dərk edilməz, çünki bu bir dini təcrübədir, bu halı dərk etmək üçün onu yalnız yaşamaq lazımdır.

**MÜRTƏDLƏR** – ***İslamı tərk edib, başqa din və ya inancları qəbul edənlərdir.*** Bunu edən insanın müsəlman olarkən etdiyi bütün yaxşı əməllərin savabı silinir. Bəzi

*məzhəblərin* hökmünə görə mürtədlər ölüm cəzasına məhkum olunmalıdırlar. Ancaq bəzi ilahiyyatçılar buna qarşı çıxış etmişdirlər.

**MÜRŞİD** – bax: **ŞEYX.**

**MÜSAB İBN ÜMEYR** (3/625-ci ildə həlak olmuşdur) – ***Məhəmməd peyğəmbərin ən tanınmış səhabələrindən biri idi.*** Onun *Mədinədə* İslamın yayılmasında böyük rolu olmuşdur. O, *Məkkənin* varlı ailəsində doğulub böyümüşdür. *İslamı* qəbul etdikdən sonra bir müddət inancını gizli saxlamışdır. Yaxınları onun İslama gəldiyini biləndən sonra onun dindən çıxması üçün ona basqılar etmiş, ev dustağına çevirmişdirlər. Təqiblərdən qurtulmaq üçün Musab *Həbəşistana hicrət* etmişdir. Oradan qayıtdıqdan sonra ailəsi onun seçimi ilə barışmalı olmuşdur.

Birinci *Əqəbə beyətindən* sonra Mədinədən gələn müsəlmanlar *Məhəmməd* peyğəmbərdən onların şəhərinə *Quranı* və İslamın əsaslarını öyrədəcək bir səhabəsini göndərməyi xahiş etmişdirlər. Bu işi Məhəmməd *peyğəmbər* Müsab ibn Ümeyrə tapşırmışdır. Beləliklə o, *Mədinəyə hicrət* etmiş ilk məkkəli müsəlman olmuşdur. Müsab öz vəzifəsini uğurla icra edə bilmişdir. Onun fəaliyyətinin nəticəsində Mədinənin ərəb əhalisinin böyük bir hissəsi İslamı qəbul etmişdir. Bu da müsəlmanların Məkkədən Mədinəyə hicrət etməsi üçün yol açmışdır. Müsəlmanlar Mədinəyə hicrət etdikdən sonra Müsab *Bədr və Uhud* döyüşlərində vuruşmuş, müsəlmanların bayraqdarı olmuşdur. Uhud döyüşündə təxminən 40 yaşında həlak olmuşdur.

**MÜSAFİR** – ***yolçu, yolda olan adamdır***. Üç gün sürəsində piyada addımlarla öz yaşayış yerindən aralanan adam *müsafir* adlanır. Yolçular dörd *rükətlik* vacib *namazları* qısaldaraq onları iki rükətli qıla bilərlər. Həm də onlar *Ramazan* ayında *oruc* tutmaya bilərlər. Ancaq mənzillərinə çatandan sonra onlar buraxılmış oruclarını tutmalıdırlar. Yolçularla yaxşı davranmaq gərəkdir. Onlara qonaqpərvərlik göstərmək və kömək etmək Allahın bəyəndiyi işlərdəndir.

**MÜSEYLİMƏ** (13/634-cü ildə həlak olmuşdur) – ***Ərəbistanın yalançı peyğəmbərlərindən biri olmudur.*** Yəmmamədə yaşayan Hənifə qəbiləsindən idi. *Məhəmməd* peyğəmbərə qısqanclıq edərək özünü peyğəmbər elan etmiş, ərəb qəbilələrini onu tanımağa dəvət etmişdir. Fəaliyyətinə Məhəmməd *peyğəmbərin* sağlığında başlamış, beləliklə yəmmaməlilərin arasında nüfuz qazanmışdır. Rəvayətlərə görə o, Məhəmməd peyğəmbərə bir məktub yazmış, orada onun peyğəmbərliyini tanımasını, Ərəbistanda hakimiyyəti onunla bölüşməyi tələb etmişdir. Məhəmməd peyğəmbər isə onu yalançı adlandıraraq *tövbə* etməyə dəvət etmişdir. Məhəmməd peyğəmbər vəfat etdikdən sonra isə Müseylimə güclənmiş və müsəlman icması üçün çox böyük təhlükəyə çevrilmişdir. 13/634-cü ildə *Xalid ibn Vəlidin* komandanlığı altında *İslam* ordusu ona qarşı yürüşə çıxmışdır. Ağır döyüşdən sonra Müseylimənin ordusu darmadağın edilmiş, özü isə öldürülmüşdür.

**MÜSƏLMAN QARDAŞLARI** – ***Misirdə müsəlman islahatçısı Həsən Bənna tərəfindən yaradılmış ictimai-siyasi hərəkatdır.*** Həsən Bənna Universiteti bitirdikdən sonra *Misirin* İsmailiyyə şəhərində müəllimlik etmişdir. O dövrdə orada çoxlu sayda ingilislər yaşayırdı. Şəhərlilər isə onların müəssisələrində çox kiçik maaşla işləməyə məcbur idilər. Bununla yanaşı ictimai həyatda *İslam* dəyərlərinin Avropa dəyərləri tərəfindən sıxışdırılması prosesi gedirdi, yəni avropalaşdırma siyasəti aparılırdı. Həsən Bənna bütün bu proseslərə etiraz səsini qaldırmağa

başlamışdır. O, dinin cəmiyyətdə təsirinin azalmasına və dünyəviliyə qarşı çıxış edirdi. Həsən Bənnanın dünyagörüşü İslamın əsaslarına, eləcə də C*amaləddin Əfqani, Məhəmməd Əbduh*, Rəşid Rıza kimi Misir islahatçılarının irsi üzərində qurulmuşdur. Bu ideyaların təsiri altında olan Həsən Bənna bir neçə kitab da yazmışdır.

Daha sonra o, həmfikirləri ilə birlikdə İsmailiyyə şəhərində "Müsəlman qardaşları" adlı İslam təşkilatı yaratmışdır. Onlar İslam dəyərlərini təbliğ etmiş və bu hərəkata çoxlu insanları cəlb edə bilmişdirlər. İlk vaxtlar təşkilatın mərkəzi İsmailiyyə şəhərində olsa da, sonra mərkəz Qahirəyə köçürülmüşdür.

Bu birliyə daxil olunanlar Misirin bütün şəhər və kəndlərində fəallıq göstərmişdilər. Tezliklə "Müsəlman qardaşları" xalq arasında tanınaraq nüfuz qazana bilmişdir. Onlar xeyriyyəçilik fəaliyyəti ilə də məşğul olurdular. Daha sonra "Müsəlman qardaşları" güclü dini-siyasi təşkilata çevrilmişdir. Onlar artıq Misirin sərhədlərini aşaraq, digər ölkələrdə də təbliğat aparmağa başlamışdılar, Məsələn, 1366/1947 – 1367/1948-ci illərdə *Fələstində* döyüşmüşdürlər.

"Müsəlman qardaşlarının" artan nüfuzu və siyasətə qatılmaları Misir hakimiyyətini narahat etmişdir. Beləliklə, ölkədə onlara qarşı təqiblər başlanmışdır. 1368/1949-cu ildə Həsən Bənna qəsd nəticəsində öldürülmüşdür. "Müsəlman qardaşları" hərəkatının silahlı dəstələrinin üstünə isə ordu yeridilmişdir. Misir hakimiyyəti Fələstindəki döyüşçülərinə qarşı ordu göndərmişdir. Bu hadisələrdə onların çoxu öldürülmüş və ya tutulmuşdurlar.

"Müsəlman qardaşlarına" qarşı keçirilmiş təqiblər təşkilata güclü zərbə vurmuşdur. 1372/1952-ci ildə "Müsəlman qardaşlarının" yeni liderlərindən biri *Səid Qütb* olmuşdur. Bundan sonra bu təşkilat Misirdə yenə də öz nüfuzunu bərpa edə bilərdi. Ancaq "Müsəlman qardaşlarının" radikal qolu, prezident Camal Əbdül-Nasirə qarşı uğursuzluqla nəticələnən qəsd təşkil etmişdir. Bundan sonra ölkə hakimiyyəti yenə də bu qurumun bütün üzvlərinə qarşı kütləvi təqiblərə başlamışdır. Səid Qütb də tutulub edam edilmişdir. Bundan sonra "Müsəlman qardaşları" yenə də zəifləmişdir. Onlardan ayrılmış müxtəlif dini-siyasi qruplar bu günə kimi Yaxın Şərqdə, Mərkəzi Asiyada, Avropada, Afrikada, dünyanın başqa yerlərində fəaliyyət göstərməkdədirlər. Həsən Bənnadan sonra bu hərəkatın ideoloqları Səid Qütb, Məhəmməd *Qəzali*, Mustafa Sibai kimi islahatçılar olmuşdurlar. "Müsəlman qardaşları" müsəlman cəmiyyətində ədalətin və bərabərliyin qurulması şüarları altında fəaliyyət göstərirdilər. Onların son məqsədi isə İslam qanunları ilə idarə olunan dövlətin yaradılması olmuşdır. Buna görə də, onların "İslam sosializmi" adlanan ideyaları xalq arasında geniş yayılmışdır.

**MÜSLİM İBN HƏCAC** (204/821 – 261/875) – ***görkəmli İslam hədis alimi və fəqihi olmuşdur.*** O, Nişapurda doğulmuş və orada da vəfat etmişdir. Müslim ibn Həccacın atası *hədis* ravisi olmuşdur. Onun təsiri altında Müslim erkən yaşlarından hədisləri öyrənmiş, sonra isə o Hicazda, Suriyada, *Misirdə* təhsil almışdır. Müslim Bağdada köçdükdən sonra da hədisləri öyrənməyə davam etmişdir. *Buxari, Şafii* və digər *mühəddislər* onun müəllimləri olmuşdurlar. Sonra Müslim özü də hədis rəvayətçisi kimi tanınmışdır. *Tirmizi, Əhməd ibn Hənbəl* kimi tanınmış adamlar ondan hədis rəvayət etmişdirlər.

Müslim *İslam* dininin müxtəlif sahələrini əhatə edən mövzular üzrə kitablar yazmışdır. Bu kitablardan ən tanınmışı İslam dünyasında böyük nüfuza malik olan "Səhih" adlı hədislər toplusudur. "Səhih" adlanan hədis toplusunda 7000-dən çox hədis vardır.

Onları Müslim öz metodu ilə 300 000 hədisin içindən seçmişdir. Bütün hədislər konkret mövzular üzrə sistemləşdirilmişdir. Müslim hədis *ravilərinin* ardıcıllığına (isnada) böyük əhəmiyyət vermişdir.

**MÜSTƏHƏB** – ***lüğətdə "sevilən şey" mənasını verən bu söz Məhəmməd peyğəmbərin hərdənbir etmiş olduğu əməlləri ifadə edir.*** Quşluq *namazı* kimi ibadətlər müstəhəb əməllərdən hesab edilir. *Peyğəmbər* müstəhəb deyilən əməlləri sevərək zaman-zaman etmiş, sələfi-salehin də bu əməlləri təkrarlamışdırlar. *İslam* böyükləri digər müsəlmanları bunu etməyə təşviq etmişdirlər. Müstəhəbə "sünnət-i qeyri-müəkkədə" hökmünü verənlər olduğu kimi, *məndub, nafilə*, tatavvu və ədəb adını verənlər də olmuşdur. Xüsusilə gözəl və mədhə layiq bir xislət və davranış olması səbəbi ilə *fiqh* kitablarında müstəhəb yerinə ədəb təbiri çox istifadə edilmişdir.

**MÜSTƏLİLƏR**– ***ismaili təriqətlərindən birinin ardıcıllarıdırlar.*** Fatimi *xəlifəsi* Müstənsirin oğlü Müstəlini imam saymış ismaili *təriqətidir*. İsmaililiyin digər qolu olan *nizarilərlə* rəqabət aparmışdırlar. Dini təlimləri *ismaililiyin* ümumi müddəalarının əsasında qurulmuşdur. *İslam* dünyasının şərqində (*Misir* və Şimali Afrikada) daha çox yayılmışdırlar. Ancaq, Fatimi xəlifəliyi məhv olduqdan sonra onlar Yəmənə, daha sonra isə Hindistana köçmüşdürlər. Hal-hazırda mustəli icmaları Hindistan, Pakistan, İran, Yəmən, Keniya və Tanzaniyada mövcuddur. Onların dini mərkəzi Hindistanın Surat şəhərində yerləşir.

**MÜSTƏMİN** – ***müsəlmanlardan sığınacaq istəyən insanlardır.*** Cinayət törətməyən, zülmdən qaçan müsəlmanlara sığınacağın verilməsi və onların qorunması *savab* əməllərdən hesab edilir. Qeyri-müsəlmanlar da müsəlmanlardan sığınacaq istəyə bilər. Onlara sığınacaq verilərsə, onda onlar *İslam* qanunu ilə qorunur və İslam dövlətinin hüdudları daxilində azad yaşaya bilərlər.

**MÜŞƏBBİHİLƏR** – bax: **MÜCƏSSİMİLƏR.**

**MÜŞRİKLƏR**–bax: **BÜTPƏRƏSTƏR.**

**MÜTƏ**– ***müəyyən bir müddətdə tərəflərin razılığı ilə bağlanılmış evlilik anlaşması və ya müvəqqəti kəbindir.*** Tərəflər arasında qeyd edilən müddət bitdikdə kəbin sona çatmış olur. Mütə bağlananda qadına müəyyən olunmuş qədər *mehr* verilir. Evliliyin belə bir növü *İslamdan* əvvəl Ərəbistanda geniş yayılmışdır. *Hədislərə* görə *Məhəmməd* peyğəmbərin sağlığında da müsəlmanlar belə evliliklərlə izdivaca girirdilər.

Mütə barəsində ilahiyyatçıların arasında ümumi bir birlik yoxdur. Onların çoxu hesab edirlər ki, mütə *peyğəmbərin* dövründə olmuş, sonra isə onun tərəfindən qadağan edilmişdir. Digərləri isə mahiyyətcə mütəyə bənzəyən, ancaq formaca bir qədər ondan fərqlənən bəzi kəbin növlərinə icazə verirlər. Digər ilahiyyatçılar isə hesab edirlər ki, mütə qadağan olunmamışdır və Quranın 4: 24 ayəsində bu kəbinə icazə verilmişdir.

**MÜTƏŞABİH AYƏLƏR** – ***təfsirçilər üçün mənaları aydın olmayan və suallar doğuran batini mənalı Quran ayələridir.*** Mütəşabih *ayələr* haqqında *Quranda* (3: 7) məlumat verilir. Bu kimi ayələrə müsəlmanlar suallar vermədən iman gətirməlidirlər və inanmalıdırlar ki, onların əsl mənalarını yalnız *Allah* bilir. *Təfsirçilər* ehtimal edirlər ki, bu ayələrdə insan düşüncəsinə sığmayan simvolik və ezoterik anlayışlar vardır. Mütəşabih ayələrə misal olaraq "Əlif, Ləm, Mim", "Hə, Mim" və s. kimi hərf bir-

ləşmələrindən ibarət olan ayələri göstərmək olar. Başqa bir nümunədə "(Allah) buyurdu: "Ey İblis! Sənə mənim Öz əlimlə yaratdığıma *səcdə* etməyə nə mane oldu?" (Quran, 38: 75) ayəsidir. Burada Allahın əlinin olması iddiası suallar doğurur. Ona görə də ilahiyyatçıların çoxu bu ayəni məcaz ayələrdən hesab edirlər. Ancaq bu kimi ayələri hərfi mənada qəbul edən müsəlman *məzhəbləri* də olmuşdur.

**MÜTƏVATİR HƏDİSLƏR** – ***bir-biri ilə tanış olmayan çox saylı ravilərin eşitdikləri, gördükləri və ötürdükləri xəbərləridir.*** Onlar *İslam* ilahiyyatında ən etibarlı *hədislər* hesab edilirlər. Çünki ilahiyyatçılara görə çox saylı bir biri ilə bağlı olmayan insanlar öz aralarında anlaşaraq saxta bilgiləri ötürə bilməzdilər. Bəzi ilahiyyatçılara görə *mütəvatir* hədislərin mövzusu da mücərrəd deyil, insan duyğuları ilə duyulan şeylərdən olmalıdır. Hədislər xəbər olaraq bu yolla rəvayət edilirlərsə, onda onlara mütəvatir hədislər deyirlər. Onların sayı azdır. Hədislərin çoxu *əhəd* yollarla rəvayət edilmişdir.

Xəbərin mütəvatir sayılması üçün onların neçə *ravi* tərəfindən rəvayət edilməsi problemi üzrə *mühəddislər* birliyə gələ bilməmişdirlər. Bəziləri onlarla, bəziləri isə yüzlərlə *ravilərin* xəbər verdiyi hədisləri mütəvatir saymışdırlar. Deməli, eyni *hədis* bir mühəddisə görə mütəvatir, digərinə görə isə mütəvatir olmaya bilər.

Çoxlu sayda ravilərin söylədiyi hədislərin sözləri üst-üstə düşərsə onlara hərfi mütəvatir hədislər deyilir. Hərfi deyil, yalnız mənaları bir olan hədislərə isə məna üzrə mütəvatir hədislər adı verilmişdir. Məsələn, *Məhəmməd peyğəmbərin* gündə beş dəfə *namaz* qılması, *oruc* tutması, *həccə* getməsi, *zəkat* verməsi haqqında çoxlu sayda hədislər vardır. Bunlar məna üzrə mütəvatir hədislərdir. İslam ilahiyyatında mütəvatir hədislərin hökmlərinin icra edilməsi hər bir müsəlman üçün *vacibdir.* Onları inkar etmək olmaz.

**MÜTƏZİLİLƏR** – ***dini məsələlərə yanaşmada əqli dəlillərə xüsusi əhəmiyyət verən kəlam məktəbinin mənsubları olmuşdurlar.*** Bu məktəb *Əməvilər* hakimiyyəti dövrünün sonunda yaranmış, *Abbasilər* dövründə isə inkişaf etmişdir. *İslam* tarixçilərinə görə mütəziliiliyin yaradıcısı *Vasil ibn Əta* olmuşdur. O, *Həsən Bəsrinin* tələbəsi olmuş, onun yığıncaqlarında fəal iştirak edib ən mübahisəli məsələlərə toxunmuşdur. Bir dəfə böyük *günahlar* törətmiş müsəlmanın durumu haqqında mübahisə düşmüşdür. Bu məsələdə Vasil ibn Əta Həsən Bəsriyə qarşı çıxış edib böyük günahlar etmiş müsəlmanları mömin saymamış, onların inancla inancsızlığın arasında olmasını iddia etmişdir. Bundan sonra o, Həsən Bəsridən ayrılmış, öz məktəbini yaratmışdır. Buna görə də, onun məktəbi "mütəzili" (ayrılmışlar) adlandırılmışdır.

Mütəziliiliyin yaranması Xilafıtin inkişafı və İslamın dünya dininə çevrilməsi ilə bağlı olmuşdur. Müsəlmanlar dünyaya açıldıqda başqa mədəniyyətlər, dinlər və fəlsəfi düşüncələrlə qarşılaşmışdılar. Buna görə də öz dini baxışlarını sistemləşdirmək, onları məntiq və ağılın dəlilləri ilə izah etmək məcburiyyətində qalmışdılar. Bu istiqamətdə məhz mütəzililər böyük işlər görmüşdürlər. Onlar özəl bir təlim yaratmış və İslamın müddəalarını müdafiə etmək üçün filosoflar, xristianlar, *yəhudilər*, *zərdüştilər* və bəzi İslam məzhəblərinin nümayəndələri ilə mübahisələr apara bilmişdirlər.

Əməvi xilafətinin ilk onilliklərində mütəzililər siyasi aktivlik göstərməmiş, yalnız fəlsəfi və ilahiyyat problemləri ilə məşğul olmuşdurlar. 121/739-cu ildə mütəzililər siyasətə qarışaraq *Zeyd ibn Əlinin* Əməvilərə qarşı üsyanını dəstəkləmiş və buna görə də, *Xəlifə* Hişam tərəfindən təqib olunmuşdurlar. Ancaq bu təqiblər mütəzililərin siyasi nüfuzunu daha da artırmışdır. Onlar 126/744-cü ildə saray çevrilişi edib, xəlifə Yəzid ibn

Validi hakimiyyətə gətirə bilmişdirlər. Ancaq o, tezliklə taxtdan düşürülmüşdür.

Abbasilər dövründə isə mütəzililərin nüfuzu daha da artmışdır. Abbasilər ilk zamanlar onları dəstəkləmişdirlər. Xəlifə Məmunun dövründə isə mütəzililik Xilafətin rəsmi təliminə çevrilmişdir. Ancaq, mütəzililərin güclənməsi ənənə tərəfdarlarının etirazlarına gətirib çıxartmışdır. Ağıla çox önəm verən mütəzili təlimi çox vaxt ənənəvi İslam tərəfdarlarının dini təsəvvürlərinə uyğun gəlmirdi. Buna görə də, onların arasında *ixtilaf* qızışmış və getdikcə dərinləşmişdir. Ənənəçilər və mütəzililər mübahisələr aparmış, bir-dirlərini təkzib və tənqid etmişdirlər. Mütəzililik Xilafətin rəsmi təliminə çevrildikdən sonra ənənəvi İslam tərəfdarlarına qarşı "mihnət" adlandırılan təqiblər başlamışdır. Ancaq o təqiblər geniş miqyaslı olmamışdır. Ənənə tərəfdarları olan ilahiyyatçılardan yalnız bir neçəsi tutulmuş, onlardan mütəzili təlimini qəbul etmək tələb edilmişdir. Onlardan biri *Əhməd ibn Hənbəl* idi.

Mütəzililik xəlifə Mütəsimin (218/833 – 227/842) və Vasiqin (227/842 – 232/847) hakimiyyətləri dövründə də Xilafətin rəsmi təlimi olmuşdur. Ancaq ənənə tərəfdarlarının etirazları daha da genişlənirdi. Buna görə də, Xilafətdə siyasi sabitliyin pozula biləcəyindən ehtiyat edən xəlifə Mütəvəkkil (232/847 – 247/861) mütəzili təlimindən imtina etmiş, ənənəçilərin mövqeyini dəstəkləmişdir. Bundan sonra mütəzililər zəifləmiş, tədricən öz siyasi və ictimai nüfuzlarını itirərək ortadan çıxmışdırlar. Yalnız müasir dövrümüzdə mütəzililiyi dirçəltməyə cəhd edən qruplar yaranmışdır.

Mütəzililiyin məğlub olmasının səbəbi onun elitar təlim olduğunda idi. Sadə xalq kütlələri üçün ənənəvi İslam daha da anlaşıqlı olmuşdur. Ona görə də, xalq kütlələri ənənəçiləri dəstəkləmişdir. Xəlifələr də siyasi sabitliyi qorumaq üçün mütəzililikdən imtina etmişdirlər. Mütəzililərin arasında birlik olmamış, onlar bir çox qruplara və *təriqətlərə* parçalanmışdırlar.

Mütəzililərə görə İslam inancının beş təməli vardır və bunlar dinin əsasıdır:

1. Tövhid (Allahın birliyinə inanc);
2. Ədl (Allahın ədalətli olduğuna inanc);
3. Əl-vəd va əl-vəid (Allahın vəd etdiyini icra edəcəyinə inanc);
4. Əl-Mənzilətü Bəynəl-Mənziləteyn (İnancla dinsizlik arasındakı aralıq durumunun olmasına inanc);
5. Əmri bil-Məruf və Nəhy ənil-Münkər (İnsanların yaxşı işlər görməyə və pis işlərdən çəkinməyə çağırmağın vacibliyinə inanc).

Mütəzililərin ilahiyyatda özlərinə məxsus metodu olmuşdur. Onlar ilk olaraq *Quranın* açıq-aydın *ayələri* ilə (*nasslarla*) hökm verirdilər. Ancaq ayələri ağılın dəlilləri və məntiqlə uyğunlaşdırırdılar. Onlar sağlam düşüncəyə uyğun olmayan hər şeyi inkar edirdilər. Ağıla uyuşmayan *vəhyi* isə onlar alleqorik məna da izah edirdilər. Onlara görə nəyinsə pis və ya yaxşı olmasını təkcə vəhylə deyil, sağlam düşüncə ilə də ayırd etmək mümkündür. Onlardan sonra onlara qarşı çıxış edən sünni ənənəçiləri də inanclarını ağıl baxımdan doğrulamaq üçün öz *kəlamlarını (I)* yaratmışdırlar. *Şiələrin* də öz kəlamları mövcuddur.

Mütəzili təliminin ənənəvi məktəblərdən bir çox fərqləri olmuşdur. Onlar Allahın çoxlu sifətlərə (atributlara) malik olmasını inkar etmiş, bunu *tövhidin* pozulması kimi qiymətləndirmişdirlər. Onlar sifətlərin Allahın zatından fərqli olmadığını iddia edirdilər.

Daha bir fərq Qurana münasibətdə özünü göstərirdi. Ənənəçilər iddia edirdilər ki, Quran Allahın əbədi və əzəli sözüdür, ondan ayrılmazdır. Mütəzililər bu iddianı rədd etmiş, bunu da tövhidin pozulması, Quranın tanrılaşdırılması kimi dəyərləndirmişlər. On-

lara görə Quran zaman və məkanda daxilində Allah tərəfindən yaradılmışdır.

Ağılın dəlillərinə üstünlük verdikləri üçün mütəzililər ənənəçilərin bir çox inancını inkar edirdilər. Ənənəçilərdən fərqli olaraq mütəzililər *qəbir əzabına,* möminlərin *cənnətdə* Allahı görəcəklərinə, *Musa* peyğəmbərin birbaşa Allahla danışmasına inanmamışdırlar.

*Axirət* inancına münasibətlərində də mütəzililərin ənənəçilərdən fərqləri var idi. Belə ki, onlar günahkar müsəlmanların *cəhənnəmdə* xüsusi yerdə olacağına və nisbətən az əzablar görəcəyinə inanırdılar.

# N

**NAFİ İBN HÜRMÜZ** (117/736-cı ildə vəfat etmişdir) – ***tabiundan olan ən tanınmış hədis ravilərindən biri olmuşdur.*** Onun soyu Nişapurdan, Deyləm və ya Kabildən olmuşdur. Döyüşlərin birində əsir düşmüş, 30 il *Abdullah ibn Ömərin* köləsi olmuş, sonra isə sərbəst buraxılmışdır. O illər boyu *hədislərə* maraq göstərmişdir. *Xəlifə II Ömər ibn Əbdül-Əziz* hədis toplamaq üçün onu *Misirin* müxtəlif bölgələrinə göndərmişdir. Nafi ibn Hürmüz bir çox səhabələrlə görüşmüşdür. Buna görə də, onun adından rəvayət edilən hədislər bir çox nüfuzlu hədis toplularında yer almışdır.

**NAFİLƏ NAMAZLARI** – ***vacib olmayan, ancaq qılındığı təqdirdə savab qazandıran namazlardır.*** Müsəlmanlar inanırlar ki, vacib *namazlardan* öncə və ya sonra *nafilə* namazlar qılmağın böyük *savabı* vardır. Çünki rəvayətlərə görə *Məhəmməd* peyğəmbər onları davamlı olaraq qılmışdır. Buna görə də, ilahiyyatçılar *vacib* namazları müşayiət edən nafilə namazları qılmağı təkidlə tövsiyə edirlər. Bunlardan başqa bəzi nafilə namazları da var ki, onların qılınması ilahiyyatçılar tərəfindən o qədər də təkidlə tövsiyə edilmir. Çünki rəvayətlərə görə Məhəmməd *peyğəmbər* onları bəzən qılmış, bəzən isə qılmamışdır. Bu kimi namazların qılınması da savab qazandırır. Bunlar *təhəccud, istiharə və duha* kimi namazlardır.

**NAFİLƏLƏR** – ***vacib olmayan, ancaq icra edildikdə savab qazandıran ibadətlərdir.*** Bu ibadətlər zamanı *möminlər* Allah rizasını qazandıqlarına inanırlar. İlahiyyatçıların əksəriyyətinə görə öncə *vacib* ibadətlər, sonra isə nafilə ibadətlər yerinə yetirilməlidir. Məsələn, vacib olan *zəkatı* vermədən, nafilə olan *sədəqə* verilməz; ya da vacib olan *namazlar* qılınmayıbsa, o zaman nafilə namazlar da qılınmaz.

**NAİB** – ***müəyyən səbəblərdən həccə gedə bilməyən mal varlığı yerində olan müsəlmanın yerinə Məkkəyə göndərilən şəxsdir.*** Naib *həccə* ticarət məqsədi ilə getməməlidir. O, özü ilə yalnız günlük minimal xərclərini qarşılamaq üçün maddi vəsait və pul götürməlidir. Naibin həcc üçün *vacib* olan bütün xərclərini onu oraya öz yerinə göndərən şəxs ödəməlidir. Naibin *niyyəti* həccin bütün vacibatlarını onu həccə göndərən şəxsin əvəzinə yerinə yetirmək olmalıdır.

**NAKİR VƏ MÜNKƏR** – ***qəbirdə həyatda etdiyi əməllərə görə insanı ilk sorğuya çəkən mələklərdir.*** Rəvayətlərə görə qəbirdə ilk *axirət* sınaqları başlayır. Buna *qəbir əzabı* deyirlər. Orada ölənin yanına Nəkir və Münkər adlı iki mələk gələrək ona din və inancı barəsində suallar verirlər. Bu sınaqdan uğurla çıxan möminlər üçün *məzarlar* genişlənərək kiçik bir *cənnət* bağçasına, günahkarlar üçün isə qəbirlər daralaraq *cəhən-*

*nəmdən* bir çuxura çevrilirlər. Bununla belə, “Qəbir əzabları” heç də bütün müsəlmanlar tərəfindən qəbul edilməmişdir. *Mütəzililər* kimi bəzi etiqadi *məzhəblər* onu inkar edirdilər.

**NAMAZ** – ***müəyyən olunmuş qaydalarla icra edilən günlük ibadətdir.*** *İslam* dininin *şərtlərindən* biridir. Namazların qılınmasının haqqında *Quranda* bir neçə ayə vardır (2: 238, 4: 103, 98: 5) Bu barədə *hədislər* daha çoxdur. Bu mənbələrdə namaz qılmanın qaydaları haqqında məlumat verilmişdir.

Namazlar *vacib* və *nafilə* olmaqla iki yerə ayrılır. Müsəlmanlar vacib namazları gündə beş dəfə öz xüsusi vaxtlarında qılmalıdırlar. Bunlar *sübh, zöhr, əsr, məğrib* və *işa* namazlarıdır. Rəvayətlərə görə, gündə beş dəfə namazın qılınması əmrini *Allah* Məhəmməd *peyğəmbərə* hicrətdən bir qədər əvvəl baş vermiş *isra* və *merac* zamanı vermişdir. Ayrıca, *cənazə* namazı da vacib namazlardan hesab edilir. Bu namaz camaatla qılınmalıdır. Bir çox ilahiyyatçıların fikrincə, camaatla qılınan *Ramazan* və *Qurban* bayramının namazları da vacibdir.

İlahiyyatçıların əksəriyyətinə görə vacib namazların qılınması insana böyük *savablar* qazandırır. Onların iddialarına görə namaz qılmayan insanlar böyük *günah* işləmiş olur və onlar bunu təsdiq etmək üçün Quranın 19: 59, 74: 40-43 *ayələrini* dəlil kimi gətirirlər.

Yuxarıda adları qeyd edilən namazlardan başqa digər namazlar nafilə namazlardır. Nafilə namazların qılınması savab olsa da, vacib deyildir. Nafilə namazlarının sayı çoxdur. Rəvayətlərə görə *Məhəmməd* peyğəmbər və ilk müsəlmanlar hələ Məkkədə yaşadıqları dövrlərdə namaz qılmışdırlar. Hələ o zaman namazlar müsəlmanlar üçün vacib olmamışdır. Müsəlmanlar Allah qarşısında savab qazanmaq üçün könüllü olaraq ibadətlər edirdilər.

Bütün namazlar *rükətlərdən* ibarətdir. Hər rükətdə ayaq üstündə *qiyam* halında dayanaraq Quran ayələri oxunur, sonra *rükuya*, daha sonra isə iki dəfə *səcdəyə* gedilir. *Sübh namazı* iki, *zöhr, əsr* və işa namazları dörd, məğrib namazı isə üç rükətdən ibarətdir. Nafilə namazları isə iki və ya daha çox rükət ola bilərlər.

Namaz qılarkən müsəlmanlar üzü *qibləyə* durmalı, təmiz olmalıdırlar. İbadətdən öncə *qüsul* və ya *dəstəmaz* almaq lazımdır. Bütün vacib namazları tək və ya camaatla birlikdə qılmaq olar. Kişilər üçün namazın camaatla məscidlərdə qılınması daha əhəmiyyətlidir. Qadınlar üçün isə namazları evdə qılmaq məsləhət görülür. Camaat namazları *məscidlərdə*, evlərdə və açıq havada qılına bilər. Onlarında öz qaydaları vardır. Məsciddə camaat namazını imam və ya camaatdan biri qıldıra bilər.

**NASİ** – ***ilin aylarının yerlərini dəyişməkdir.*** *Bütpərəst* ərəblərin *adətinə* görə “*haram*” aylarda savaşların aparılması qadağan edilmişdir. Ancaq bəzən savaşın qarşısının alınması mümkün olmayanda, onlar ayların yerlərini dəyişərək bir-birləri ilə vuruşurdular. Bu adət *Quran* ayəsində (9: 37) pislənmişdir.

**NASSLAR** – ***aydın olan, təfsir edilməyə və heç bir şərhə ehtiyacı olmayan Quran ayələridir.*** İlahiyyatçılar *İslamda* bu kimi ayələrin hökmlərini qanun sayır və onlara inanmağı vacib bilirlər. Nassları inkar edən, onlara başqa mənalar verənlər isə ağır *günah* işləmiş olur və İslamdan çıxırlar. Çünki, İslam inancının əsasları elə nassların üzərində qurulmuşdur. Onlara başqa mənalar verilsə, o zaman dinin əsası pozula bilər.

**NEYMƏTULLAHİLİK** – ***İranda XIII/XIV əsrdə yaranmış sufi təriqətlərindən birinin adıdır.*** Öncə sünni, sonra isə şiə yönlü olmuş təriqətdir. Bu *təriqət* öz mənəviyyat yolunu *Əli ibn Əbu Talibl*ə bağlayır. Təriqətin adı *Şah Neymətullah Vəli* ilə bağlıdır. Onun ölümündən sonra bu təlim İranda və başqa yerlərdə yayılmışdır. Onun oğlu Bürhanəddin Xəlilullah bu təriqəti Hindistanda yaymışdır. Təriqətin mərkəzi İranın Kirman vilayətindəki Məhan kəndində yerləşir. Sonra neymətullahilər İran ərazisində yaranmış dövlətlərin ictimai və siyasi həyatlarında fəal iştirak etmişdirlər.

Səfəvi şahı I Şah Abbasın (995/1587 – 1038/1629) hakimiyyəti dövründə neymətullahilər ona qarşı çıxış etmiş, ölkədə çevriliş etməyə çalışmışdırlar. Bundan sonra I Şah Abbas onlara qarşı amansız olmuş və təriqətin İranda fəaliyyətinə son qoyulmuşdur. XII/XVIII əsrə qədər neymətullahilər yalnız Hindistanda fəaliyyət göstərə bilmişdirlər.

1189/1775-ci ildə şeyx Rıza Əli Şah, Hindistandan İrana Məsum Əli Şah Dəqqanini göndərmiş, o da orada təriqətin fəaliyyətini bərpa etmişdir. Qacarlar sülaləsinin (1210/1796 – 1344/1925) dəstəyini aldıqdan sonra, neymətullahilər İranın ictimai-siyasi həyatında yenə nüfuz qazana bilmişdirlər. Ancaq həmin dövrdə neymətullahilər Səadət Əli-Şahi (Günəbadi), Səfi Əli-Şahi, Münəvvər Əli-Şahi (Zur-Rəyasəteyn) adlanan üç təriqətə bölünmüşdürlər.

Neymətullahilərin mənəvi yolu Neymətullah Vəli Şahın irsinin əsasında qurulmuşdur. Sonrakı dövrlərdə onun təlimi inkişaf etdirilmişdir. Neymətullahilərin mənəvi yolunun əsasında səssiz (xəfi) zikr durur. Onlar zikrlərdə Əli ibn Əbu Talibi və qeybdə olan *Mehdini* anırlar. Onlar *səmalar* da keçirirlər. Bundan başqa təriqətin *müridləri* özünü dərk etmə təcrübələrindən də keçirlər. Neymətullahilərdə tərki-dünyalıq bəyənilmir. Onlar *dünya* işləri ilə məşğul olsalar da, qəlblərində *abid* olurlar. Neymətullahilərin keçə geyimləri olur. Başlarına şiə imamlarının rəmzi olan 12 zolaqlı hündür papaqlar qoyurlar. Onların şeyxi (*qütbü*) seçki yolu ilə seçilir. Təriqətə daxil olma mərasimi və qaydaları (*beyət*) başqa sufi təriqətlərində olduğu kimidir.

**NƏBİ** – ***yaşadıqları cəmiyyətə yeni şəriət gətirməyən, ancaq özlərindən əvvəlki rəsulların gətirdiyi dini təbliğ edən peyğəmbərlər olmuşdurlar.*** Peyqəmbərlərin əksəriyyəti nəbi olmuşdurlar. Yalnız *Adəm, Nuh, İbrahim, Musa, İsa və Məhəmməd rəsul* hesab olunurlar. Dini təbliğ fəaliyyəti baxımından nəbilər rəsullardan fərqlənmirlər.

**NƏCASƏT** – ***insan və ya heyvan ifrazatıdır.*** Nəcasətə nəyin aid olması məsələsində *məzhəblərin* fərqli görüşləri vardır. Onlardan bəziləri alkoqollu içkiləri, qan və donuz ətini də nəcasətə aid edirlər. Başqaları nəcasəti ağır və yüngül olmaqla iki yerə bölürlər. Məsələn, onlara görə insan ifrazatı ağır nəcasət sayılırsa, ev heyvanlarının, atların, eşşəklərin ifrazatı yüngül nəcasətdir. Müsəlmanlar nəcasətdən qorunmalı, bədən və geyimlərini təmiz saxlamalıdırlar. *Namaza* təmiz durmaq lazımdır. Bədəndə nəcisin əlamətləri olsa namaz pozulmuş hesab edilir. Bəzi məzhəblərə görə isə ibadət zamanı insanın geyimində az miqdarda nəcasətin olduğu hiss edilərsə namaz pozulmaz.

**NƏCAŞİ** – ***Məhəmməd peyğəmbərin dövründə yaşamış Həbəşistan kralı idi.*** Rəvayətlərə görə o, öncə xristian olmuş, sonra isə *İslam* mənbələrinə görə İslamı qəbul etmişdir. O, vəfat etdikdə *Məhəmməd* peyğəmbər onun üçün *Mədinədə cənazə namazı* qıldırmışdır. Onun əsl adı Əshamə olmuşdur.

Nəcaşi *bütpərəstlərin* ağır təqibləri ilə üzləşən müsəlmanlara öz ölkəsində sığınacaq vermişdir. O, müsəlmanlarla görüşüb, Məhəmmədin *peyğəmbərliyi* və İslamın mahiyyəti barəsində onlara suallar vermişdir. Onların cavabları Əshaməni qane etmiş və o, *qureyşlilərin* tələblərinə baxmayaraq hicrət edən müsəlmanları *Məkkəyə* geri qaytarmamışdır.

**NƏCDİLƏR** – ***xarici təriqətinin ifrat qollarından birinin davamçıları olmuşdurlar.*** *Təriqətin* yaranması Nəcd ibn Üveymir adlı bir adamla bağlıdır. *Nəcdilər* də *əzraqilər* kimi xristian, yəhudi, eləcə də digər inanclarda olanların öldürülməsinə *fətva* vermişdirlər. Ancaq, nəcdilərdən fərqli olaraq onlara tabe olanlara toxunmurdular. Nəcdilərə görə xəlifənin ölkəni idarə etməsi *vacib* şərt deyil. İnsanlar öz aralarında dini qanunlar əsasında yaşaya bilsələr onda onlara dövlət başçısı lazım deyildir. Onların sayı az olduqda, onlar inanclarını gizlədərək *təqiyyə* də edirdilər.

Nəcd ibn Üveymir başqa *xaricilərdən* fərqli olaraq bütün günahkar müsəlmanları kafir saymamışdır. O iddia edirdi ki, *Allah* onları da bağışlayacaqdır. O, yalnız *günah* edən və buna israr edənləri kafir saymışdır. Ancaq həmin adam günahında israrlı olmasa onda kafir olmaz.

Zaman keçdikcə Nəcdin bir qrup tərəfdarları arasında *ixtilaf* baş vermişdir. Nəticədə, Nəcd öldürülmüş, təriqətə Əbu Füdeyk adlı bir kəs başçılıq etmişdir. Ancaq, sonra Əməvi *xəlifəsi* Əbdül-Malik ibn Mərvan onları darmadağın etmişdir. Nəcd ibn Üveymirə sadiq olan başqa qrup bir müddət daha fəaliyyət göstərmişdir.

**NƏCMƏDDİN KÜBRA** – bax. **KÜBRAVİLƏR.**

**NƏCRAN** – ***Ərəbistan yarımadasının cənubunda yerləşən şəhərdir.*** *Məhəmməd* peyğəmbərin zamanında oranın əhalisi xristian olmuşdur. Onların elçiləri Məhəmməd *peyğəmbərin* yanına gəlmiş, onunla anlaşa bilmiş, öz dinlərində qalmaları qarşılığında cizyə ödəməyə hazır olduqlarını bildirmişdirlər.

**NƏFXƏ** – ***İsrafilin sur borusuna üfürməsidir.*** Müqəddəs kitablara görə *İsrafil sur'a* iki dəfə üfürəcəkdir. Birinci üfürməsində dünyada bütün müsəlmanlar məhv olacaq və sonda *qiyamət* qeyri-müsəlmanların üzünə qopacaqdır. Bundan sonra İsrafil ikinci dəfə sur'a yenidən üfürəcəkdir, bu zaman isə bütün ölülər yenidən dirilib *Allahın* hüzurunda yığışacaqlar. Bu hadisə *Quran* (78: 18) ayəsində anılmışdır.

**NƏFS** – ***insanın mahiyyəti, onun "Mən"idir.*** Bu sözlə insanların ruhundan gələn istək və *niyyətləri* ifadə edilir. Nəfs insanın şəriətə zidd olan bütün istəklərinin qaynağıdır. Hər bir müsəlmana tövsiyə edilir ki, o öz nəfsi ilə mübarizə aparıb, ona qalib gələ bilsin.

**NƏKİB (I)** – ***Məhəmməd peyğəmbərin varislərinin işləri ilə məşğul olan müsəlmanlar idilər.*** *Məhəmməd* peyğəmbərin soyu onun qızı *Fatimə* və *Əli ibn Əbu Talibin* evliliyindən törəmişdir. Bu evlilikdən onların iki oğlu Həsən və Hüseyn doğulmuşdur. Həsəndən törəyənlər *şəriflər*, Hüseyndən olanlar isə *seyidlər* adlandırırlar. Onların müsəlman cəmiyyətində böyük nüfuzu və sayğısı vardır.

Abbasi və Osmanlı xilafətlərində Məhəmməd *peyğəmbərin* varislərinin işləri ilə məşğul olan xüsusi qurumlar da olmuşdur. Bu qurumlarda işləyən nəkiblər onların problemlərini çözmüş, nəsil şəcərəsini öyrənmiş, doğum illərini kitablara salmışdırlar. Bu

insanlara *sədəqə* və *zəkatlardan* pay ayrılır və dövlət onlara xüsusi maaş da kəsirdi.

Abbasi *xəlifələri* Harun ər-Rəşid və Məmunun hakimiyyəti dövründə şəriflər və seyidlər yaşıl sarğılı geyimdə gəzirdilər. Bu geyim onları digər müsəlmanlardan ayırırdı. Sonra bu *adət* ortadan qaldırılmışdır. Ancaq, bir müddət keçdikdən sonra onu *Misirin* məmlük başçıları dirçəltmiş, daha sonra isə Osmanlı Sultanları davam etdirmişdirlər.

**NƏKİB (II)** – s***ufilikdə təriqət şeyxinin təkkədəki yardımçısı, onun işlərini aparan insandır.*** Ən bacarıqlı, mənəvi inkişaf etmiş *müridlər* nəkib ola bilərlər.

**NƏQŞİBƏND BƏHAƏDDİN** (791/1389-ci ildə vəfat etmişdir) – ***ən tanınmış təriqət şeyxlərindən biri olmuşdur.*** Tam adı Məhəmməd Bəhaəddin Nəqşibənd Buxari olmuşdur. Ona Şah-i Nəqşibənd də deyirdilər. Onun soyu Buxaranın yaxınlığındakı Kəsr-i Arifən kəndindən olduğu qeyd edilir.

Demək olar ki, Şah-i Nəqşibənd bütün həyatını Buxarada keçirmişdir. Erkən yaşlarından o, *sufilik* ruhunda tərbiyə almışdır. Onun ilk müəllimi Hocağan sufi təriqətinin *şeyxi* Hoca Məhəmməd Baba Səmmasi (740/1339-cu ildə vəfat etmişdir) olmuşdur. Əfsanələrə görə Bəhaəddinin mənəvi müəllimi çoxdan ölmüş *Əbdülxaliq Gijduvan*i (595/1199-ci ildə vəfat etmişdir) olmuşdur. O, onunla mənəvi *rabitə* yarada bilmişdir. Bəhaəddin Nəqşibənd *Yəsəvi təriqətinin* şeyxləri olmuş Xəlil Ata və Qasım Şeyxdən də *elm* öyrənmişdir. Beləliklə o, öz mənəvi yolunda Gijduvaninin təlimini *yəsəviliklə* birləşdirmişdir.

Şahi-Nəqşibənd *müridlərini* ucadan deyilən cəhri *zikrlər* deməkdən, xəlvətə çəkilməkdən, dilənçi *dərvişlikdən*, musiqili *səmalardan* çəkindirmişdir. O, pıçıltı ilə deyilən xafi zikrləri tövsiyə edirdi. Bu zikrləri həm təklikdə, həm də camaatla etmək olar. O, müridlərlə şeyxin arasındakı mənəvi bağlantıya (rabitəyə) da böyük əhəmiyyət verirdi. Eyni zamanda o, təriqəti *şəriətdən* ayırmırdı.

**NƏQŞİBƏNDİLƏR** – ***ən çox yayılmış sufi təriqətlərindən birinin davamçılarıdırlar.*** *Təriqətin* adı Məhəmməd Bəhaəddin *Nəqşibənd* Buxari ilə bağlıdır. Nəqşibəndilər öz mənəviyyat yollarını *Əbu Bəkr Siddiq* və *Əli ibn Əbu Taliblə* bağlayırlar. Təriqətin hər hansı bir mərkəzi yoxdur. Nəqşibəndilər daha çox ağ rəngli baş örtükləri geyinirlər. Nəqşibəndi təriqətinin 11 əsas müddəası vardır:

1. Vuquf-i zəmani. Hər bir anı faydalı keçirilməli, ona şükür edilməlidir. Boş keçən vaxt üçün insan üzülməlidir. Mənəvi “yolçu” hər bir yaşadığı dəqiqənin dəyərini bilməlidir;

2. Vuquf-i ədədi. *Zikr* deyiləndə insanın bütün varlığı yalnız Allaha yönəlməli, diqqət yalnız ona yetirilməlidir. Çünki, mənəvi təcrübənin faydası zikrlərin sayında deyil, onların mahiyyətindədir;

3. Vuquf-i qəlbi. Zikr edəndə bütün düşüncələr *Allaha* yönəlməli, başqa heç bir şey insanın ürəyində olmamalıdır. İnsan Allahı bütün varlığı ilə yad etməlidir;

4. Xoş dar-dəm. Allahın yaxınlığını duymaq. Bunu duymadan nəfəs də almaq olmaz;

5. Nəzər bər-qədəm. Yeriyərkən ayaq barmaqlarının ucuna baxmaq. Çünki, insanın ətrafına baxdıqca *günah* qazana bilər;

6. Səfər bər-vətən. İnsanlardan ayrılıb Allaha yaxınlaşmaq. Çünki, insanın həqiqi vətəni budur. Bunu edərkən o əskikliklərdən qurtarıb yüksək əxlaq sahibi olur;

7. Xəlvət dər-əncumən. Cəmiyyətdə yaşayarkən *dünyadan* ayrılmaq. Bu zaman insanın bədəni gündəlik dünya işləri ilə məşğul olsa da, onun ruhu Allahladır.

İstənilən yerdə Allahı yad etmək olar, kimsə bunun qarşısını almaz;

8. Yad kərd. Ürəklə yanaşı dillə də Allahı yad etmək;

9. Baz-gəşt. Zikr zamanı Allahı anmaqdan yayındıran bütün yad düşüncələrdən və hərəkətlərdən uzaqlaşmaq;

10. Nigah-dəşt. Allaha yönəlmək hissinin qarşısını ala biləcək başqa duyğulardan qorunmaq;

11. Yad-dəşt. Mənəvi təcrübə zamanı duyğuların dərinliyini hiss etmək və bu halı qorumaq.

Nəqşibəndi təriqəti Türküstan, Hindistan, Anadolu, Balkan yarımadası, Ərəbistan, İtil (Volqa) çayı boyu bölgələr, Şimali Qafqazda geniş yayılmışdır. Şah-i Nəqşibəndin ardıcılları olmuş Məhəmməd Pars (822/1419-cu ildə vəfat etmişdir), Ələddin Əttar (896/1400-cü ildə vəfat etmişdir) və Übeydullah Əhrar (986/1490-cı ildə vəfat etmişdir) nəqşibəndiliyi Məvarrənəhrdə də yaymışdırlar. Onlar Məvarrənəhr və Şərqi Türküstanın islamlaşdırılmasını başa çatdırmışdırlar.

Nəqşibəndi təriqətinin sonrakı inkişafda *Əhməd Fəruqi Sirhindinin* (İmam Rəbbaninin) böyük rolu olmuşdur. O, *İbn Ərəbinin vəhdəti-vücud* ideyalarını tənqid etmiş, əvəzində ənənəvi *İslama* daha yaxın olan *vəhdəti-şühud* təlimini irəli sürmüşdür. Eləcə də, sufiliyə gətirilmiş *bidətləri* rədd etmişdir. Təriqətlə *şəriəti* fərqləndirməməyə dəvət etmişdir. Əhməd Fəruqinin islahatçı fəaliyyətinin nəticəsində Hindistan müsəlmanları arasında yeni nəqşibəndilik (nəqşibəndiyyə-mücəddidiyə) cərəyanı yayılmışdır.

Anadoluya isə nəqşibəndiliyi Molla Abdullah Simavi (896/1491-ci ildə vəfat etmişdir) gətirmişdir. Sonra Osmanlı imperiyasında da nəqşibənyyə-mücəddidiyələrin baxışları yayılmağa başlamışdır. Daha sonra görkəmli Hindistan sufisi Abdullah Dəhləvinin, eləcə də onun tələbəsi Mövlanə Xalid Bağdadinin (1242/1826-cı ildə vəfat etmişdir) fəaliyyətlərinin nəticəsində nəqşibəndilik İslam dünyasında ən çox yayılmış sufi təriqətinə çevrilmişdir. Xalid Bağdadi Osmanlı imperiyasında nəqşibəndiliyin "xalidiyyə" adlanan daha bir cərəyanını yaratmışdır. XIII/XIX əsrdə Nəqşibəndi təriqəti Osmanlı Sultanlarının dəstəyini qazanmışdır. Yeniçərilər qoşunu darmadağın edildikdən sonra, nəqşibəndilər *bəktaşilərin* yerini tutmuşdurlar.

**NƏSAİ ƏHMƏD** (215/830 – 303/915) – ***görkəmli mühəddis və fəqih olmuşdur.*** Nəsai *hədis* elminin sirlərini Xorasan, İraq, Hicaz, *Misir* və Suriyada mənimsəmişdir. Onun ən məşhur əsəri hədislər toplusu olan "Müctəbi minəs-Sünən" (Seçilmiş hədislər) kitabıdır. Bu kitab *İslam* dünyasında tanınan ən nüfuzlu hədis toplularından hesab edilir. Bununla belə orada "zəif" adlandırılar hədislər də vardır. *Əbu Davud* kimi Əhməd Nəsai də onların hökmlərinin tətbiq edilməsini *qiyasdan* daha etibarlı hesab edirdi. Digər görkəmli *mühəddislərin* toplularında olduğu kimi "Sünən"-də hədislər *fiqhi* məsələlərə uyğun olaraq fəsillərə bölünmüşdür.

Həyatının sonlarında Nəsai yaşadığı Misirdən Suriyaya köçmüşdür. Orada o, *Əməvi* xəlifəsi Müaviyə ibn Əbu Süfyanı dəstəkləmiş nəsibilərin etirazları ilə qarşılaşmışdır. Nəsibilər *Əbu ibn Talibə* qarşı vuruşmuş Müaviyəni haqlı sayırdılar. Nəsai isə Əlinin fəziləti haqqında hədislər rəvayət edirdi. Müaviyə haqqında söylədiyi hədislərin məzmunundan isə nəsibilər razı qalmamışdırlar. Bu səbəbdən də, onlar Nəsaini möhkəm döymüşdürlər. O da aldığı zədələrdən dünyasını dəyişmişdir.

**NƏSƏFİ HAFİZƏDDİN** (710/1310-cu ildə vəfat etmişdir) – ***dövrünün tanınmış ilahiyyatçısı olmuşdur.*** O, Mavərənnəhrdə doğulmuş və orada dövrünün tanınmış alimlərindən dərs almışdır. Təhsilini tamamladıqdan sonra Kirmanda və başqa şəhərlərdə müəllimlik etmişdir. *Elm* arxasınca bir çox yerlərə səyahətə çıxmışdır. Nəsəfi *İslam* dünyasında ən məşhur kitabların müəllifidir. Daha çox hənəfi *fiqhinə* həsr edilmiş əsərləri ilə tanınmışdır. Onu, bu *məzhəbin* sonuncu alimi kimi sayanlar da vardır. Onun "Kənzüd-Dəqaiq" (İncəliklərin xəzinəsi) adlı kitabı hənəfi məzhəbinin ən nüfuzlu kitablarından biridir. Onun həmçinin *təfsirə* aid kitabı da mövcuddur. Bütövlükdə Nəsəfinin 20-yə qədər kitabı işıq üzü görmüşdür. Nəsəfi kəlam (I) alimi kimi də tanınmışdır. O, məturidiliyi inkişaf etdirmiş, kəlamın metodları ilə *qərmətilər*, *mütəzililər* və başqa dini-fəlsəfi cərəyanlarla elmi mübahisələrə girişmiş, ənənəvi İslamı müdafiə etmişdir.

**NƏSX VƏ MƏNSUX** – ***bəzi Quran ayələri və hədislərin hökmlərinin qaldırılması, onların başqaları ilə əvəz edilməsidir.*** İlahiyyatçıların bir çoxuna görə *Məhəmməd* peyğəmbərə *Allah* tərəfindən nazil edilmiş *vəhylərin* sayı çox olmuş, ancaq onların heç də hamısı *Qurana* daxil edilməmişdir. Onların bir çoxu ancaq *peyğəmbərin* özü üçün və ya ilk müsəlman icmasının problemlərinin həll edilməsi üçün nazil edilmişdir. Müvəqqəti xarakter daşıyan vəhylərin hökmləri və mətni daha sonra yeniləri ilə əvəz olunurdu. Bu da Məhəmməd peyğəmbərin həyatının sonuna qədər davam etmişdir. Bu kimi vəhylərin bəziləri səhabələr tərəfindən rəvayət olunmuş və *hədislərə* daxil edilmişdir. Yalnız müasir Quran nəşrlərində olan *ayələr* müqəddəs kitaba daxil olunmalı idi. Orada bir ayənin başqa ayə ilə dəyişdirilməsi haqqında ayələr vardır (Quran, 16: 101-102, 2: 106).

Bir çox *müfəssirlər* hesab edirlər ki, nəsx və mənsux mövcud Quran ayələrində də vardır. Onların fikrincə Quranda bəzi ayələrin hüquqi hökmləri başqa daha da gec nazil olmuş digər ayələrlə qaldırılmışdır. Məsələn, məşhur müfəssir Cəlaləddin Süyutiyə görə Quranda 20-ə qədər hökmü başqa ayələrlə qaldırılmış ayələr mövcuddur.

Nəsx və mənsuxun daha da geniş mənası vardır. İlahiyyatçıların çoxu iddia edirlər ki, *Tövrat* və *İncil* kimi qədim müqəddəs kitabların da hökmü aktuallığını itirmişdir, çünki bu müqəddəs kitablar missiyalarını tamamlamış və nəticədə Quranla əvəz edilmişdirlər. Bu baxımdan *İslam* dini də başqa səmavi dinlərin hökmlərini aradan qaldırmış və *qiyamətə* qədər davam edəcək yeganə haqq dini olduğuna inanılmışdır. *Təfsir* elmində nəsx və mənsux haqqında biliklərə malik olmaq müfəssirin qarşısına qoyulduğu *şərtlərdən* biridir. Bir çox müsəlman ilahiyyatçıları bu problemə dair "Ən-Nəsx vəl-Mənsux" adlanan kitablar qələmə almışdırlar.

**NƏSRANİLƏR** – ***İsa peyğəmbərə və onun gətirdiyi kitaba inanmış dini icmanın ardıcıllarıdırlar.*** Belə ki, İsa peyğəmbərin dini nəsranilik adlanmışdır. Bu söz *Quranın* 2-ci surəsinin 62-ci ayəsində qeyd edilmişdir. Müsəlman ilahiyyatçılarının çoxuna görə bu din *Məhəmməd peyğəmbərin* gəlişinə qədər həqiqət dini olmuş, *İslamın* gəlişindən sonra isə ortadan qalxmışdır. Ancaq, nəsranilikdə birlik olmamış, onlar İsa peyğəmbərin *qeybindən* sonra bir neçə yerə parçalanmışdırlar. Bir neçə əsrdən sonra Roma imperiyasında yayılmış nəsraniliyin bir qolu Xristianlıq adlandırılmış və imperiyanın rəsmi dininə çevrilmişdir. Bundan sonra başqa nəsrani *təriqətləri* təqib edilib ortadan qaldırılmışdır.

**NƏVAVİ YƏHYA** (631/1233 – 676/1277) – ***tanınmış fəqih, mühəddis və müfəssir olmuşdur.*** O, Suriyada doğulmuş, mədrəsədə təhsil almış, erkən yaşlarından *Quran hafizi* olmuşdur. Sonra təhsilini davam etmək üçün Dəməşqə getmiş, orada Şafii *fiqhini* öyrənmiş və bu sahədə əsərlər yazmışdır. *Hədis* elmindəki fəaliyyəti ilə daha da çox tanınmışdır. Onun "Riyadus-Salihin" (İnanclıların bağı) adlı hədis kitabı *İslam* dünyasında tanınan ən böyük əsərlərdən biri hesab edilir.

**NƏZİR** – ***Allaha edilən duanın yerinə yetirilməsi qarşılığında hər hansı bir xeyirli əməlin yerinə yetirilməsi üçün edilən əhddir.*** *Quranın* 22-ci surəsinin 29-cu ayəsinə görə bu kimi *əhdlər* yerinə yetirilməlidir. Nəzir kimi *həccə* getmək, qurban kəsmək kimi əməllər *əhd* edilə bilər.

**NİFAS** – ***qadınlarda doğuşdan sonra qan axmanın kəsilməsi ilə nəticələnən zahılıq halıdır.*** Zahılığın müddəti məsələsində *məzhəblər* arasında *ixtilaf* vardır. Bəziləri onun 40, başqaları isə 60 və 70 gün davam etdiyini iddia edirlər. Bu müddətdən sonra qadından axan qan zahılıq qanı sayılmır. Nifas halında qadınlara *namaz* qılmaq və *oruc* tutmaq, *Kəbəni* təvaf etmək, *məscidlərə* girmək, *Quran* oxumaq və Qurana toxunmaq olmaz. Qılınmayan namazlar nifas halında olan qadınlara bağışlanılır. Orucun isə *qəzası (II)* sonra tutulmalıdır. Kişilər nifasda olan qadınlarla cinsi əlaqəyə girməməlidirlər. Zahılıq dövrü bitən kimi qadın *qüsul* almalıdır.

**NİKAH** – ***şəriət qanunlarına uyğun olaraq kişi ilə qadınının birgə yaşamasıdır.*** Bunun üçün kəbin kəsilməlidir (*Quran*, 4: 3). Rəvayətlərə görə bu *savab* gətirən əməllərdən hesab edilir. *Adətə* görə qadınla evlənməzdən öncə onun atasından ya da himayəçisindən razılıq alınmalıdır. Qadının özü də buna razı olmalıdır. Nikah bağlanan zaman evliliyə *şahid* olan iki müsəlmanın olması vacibdir. *Məzhəblərin* çoxunda şahidlər kişi olmalıdır. Bəzilərinə görə isə onlara bir qadın da əlavə oluna bilər. Bundan başqa bəyin gəlinə ödəməli olduğu *mehrin* də miqdarı təyin edilməlidir. Nikahı *məsciddə* bağlamaq və imkan daxilində toy etmək məsləhət görülür.

Müsəlman kişiyə *məhrəm* və *bütpərəst* qadınlarla evlənmək *haramdır*. Xristian və yəhudi qadınları ilə isə müəyyən *şərtlərlə* evlənməyə yol verilir. Müsəlman qadın isə qeyri-müsəlmanlarla evlənə bilməz. Onlar yalnız müsəlman kişilərlə ailə qura bilərlər.

Əgər müsəlman kişinin azad qadınlardan olan həyat yoldaşı vardırsa, o kölə qadınla evlənə bilməz. Qadın hər-hansı bir səbəblər üzündən ərini itirsə, *iddə* müddətini gözlədikdən sonra başqa kişiyə ərə gedə bilər. Bir kişinin eyni vaxtda müəyyən şərtlər qarşılığında ən çoxu 4 həyat yoldaşı ola bilər. Qadının isə yalnız bir əri olmalıdır.

**NİYYƏT** – ***hər-hansı bir işin görülməsi üçün insanın əvvəlcədən o işin reallaşmasını istəməsi və qərarlaşdırmasıdır.*** *İslama* görə bütün işlərin görülməsi üçün öncə niyyət edilməli, sonra *niyyət* edilən iş yerinə yetirilməlidir. İslamda niyyət bir anlayış kimi çox böyük əhəmiyyət kəsb edir. Hesab olunur ki, *Allah* bütün işləri niyyətlərə görə dəyərləndir. Məsələn, hər hansı bir şəxs yaxşı bir iş görmək istəmiş, ancaq obyektiv səbəblər üzündən bunu edə bilməyibsə onun bu niyyətini Allah *savaba* yazır. *Məzhəblərin* çoxuna görə ibadətlərə başlamazdan öncə niyyətin edilməsi vacibdir. Məsələn, *namaz* qılarkən öncə niyyətin edilməsi *vacib* hesab edilir. Bu müsəlmanın konkret olaraq hansı namazı qıldığını yəqin edir. Niyyətin qəlbdə edilməsi vacibdir, sözlə deyilməsi məsələsində ilahiyyatçılar arasında fikir ayrılığı vardır. *Oruc* tutmaqdan öncə də

niyyətin edilməsi vacibdir. Bunu edərkən konkret olaraq *Ramazan* ayının və ya *nafilə* orucun tutulması dəqiqləşdirilir. Niyyət həmçinin *həcc*, qurban kəsmə, *zəkat*, *cənazə* namazı, eləcə də başqa ibadətlərin vacib elementlərindən biri hesab edilir. Müxtəlif anlaşmalarda, evlilik, alış-veriş, başqa bu kimi gündəlik həyatda olan bütün işlərdə də niyyətin edilməsi vacibdir.

**NİZARİLƏR** – ***İsmaili təriqətlərindən birinin mənsubları olmuşdurlar.*** Dini təlimləri *ismaililiyin* ümumi müddəalarının əsasında qurulmuşdur. 487/1094-cü ildə *Fatimi xəlifəsi* Müstənsirin ölümündən sonra onun oğlu Nizar xəlifəlik iddiasında olmuşdur. Ancaq, hakimiyyəti onun kiçik qardaşı Müstəli ələ keçirmişdir. Nizar İsgəndəriyyəyə qaçıb orada ona qarşı üsyan qaldırmaq istəsə də, məğlub olmuş və həbsxanada öldürülmüşdür. Bundan sonra Nizarın tərəfdarları onun soyundan olanları imam kimi tanımış, xəlifə Müstəlinin soyunu isə tanımamışdırlar. Onları *nizarilər* və ya "Şərqi *ismaililər*", Xəlifə Mustəlinin soyundan olanları imam sayanlar isə "müstəlilər" adlandırılmışdırlar.

Sonra nizarilər *Fatimilərin* hakimiyyəti altında olmayan bölgələrdə daha çox yayılmışdırlar. Onlar İranın şimalında dağlarda yerləşən Ələmutu alınmaz qalaya çevirərək orada bir dövlət qurmuşdurlar. Bu ölkənin yaradıcısı "yeni ismaililik" ideyalarını irəli sürmüş Həsən ibn Səbbah olmuşdur. Siyasi *təriqət* olmuş nizarilər, uzun illər boyu başqa ölkələrə qarşı sabotajlar törətmiş, məqsədlərinə çatmaq üçün kütləvi terrora əl almışdırlar. Nizari qatilləri müsəlman dünyasının bir çox görkəmli elm, siyasət və din adamlarını öldürülmüşdülər. Dağlıq yerlərdə yerləşdiklərinə görə ətraflarda olan müsəlman ölkələri onlara qarşı savaşların aparılmasında çətinliklər çəkmiş, onlara sarsıdıcı zərbə endirə bilməmişdirlər. Bunu yalnız monqollar edə bilmişdilər. 653/1256-cı ildə Hülaki xan Ələmutu darmadağın etmişdir.

Nizari qatilləri həşişdən sərxoş halında olduqları zaman qətlləri törədirdilər. Buna görə onları "həşşaşi"lər də adlandırmışdırlar. Bu söz Avropa dillərində "assassin" kimi səslənir, "siyasi qatil" anlamında işlədilir. Avropanın kralları və başqa siyasətçilər bir zamanlar həşşaşilərdən öz rəqiblərini qətlə yetirmək üçün istifadə edirdilər.

Monqollar Ələmut qalasını ələ keçirdikdən sonra onu dağıtmış, bu dövlətin varlığına son qoymuşdular. Bundan sonra nizarilər zərərli təriqətin mənsubları kimi hər yerdə təqib olunub məhv edilirdilər. Onların sağ qalmış azsaylı dəstəsi Hindistana qaçmışdır. Daha sonra nizarilər terrordan imtina etmişdirlər. Onlar öz inanclarını dünyanın müxtəlif yerlərində bu günə kimi yaymaqdadırlar. İndi onların öndərləri Ağaxan adını daşıyır, nizarilər onu Tanrının təcəllisi kimi qəbul edirlər. Ağaxanın Hindistanda və Keniyada iqamətgahları vardır. Tacikistanın bəzi bölgələrində də nizariliyin davamçıları mövcuddur.

**NUH** – ***Quranda adı keçən peyğəmbərlərdən biri olmuşdur.*** Rəvayətlərə görə *İdris* peyğəmbərdən sonra insanlar onun əllə çəkilmiş rəsmlərinə və düzəldilmiş heykəllərinə tapınmağa başlamışdırlar. Orada *bütpərəstliklə* yanaşı əxlaqsızlıq, ədalətsizlik və cəhalət geniş yayılmışdır. Bu xalqın arasında doğulub boya başa çatan Nuh kiçik yaşlarından *Allaha* ibadət etmiş, tərki-dünya olmuşdur. O, əkinçilik və maldarlıqla məşğul olmuş, müxtəlif sənətlərə yiyələnmişdir. Nuhun əlli yaşı olanda Allah onu *peyğəmbər* seçmiş, yolunu azmış tayfaları hidayətə dəvət etmək üçün vəzifələndirmişdir. Ona kitab verilməmiş, öncəki peyğəmbərlərin *şəriəti* ilə hökm vermişdir.

Nuh uzun müddət xalqını Allaha ibadət

etməyə və bütlərə tapınmaqdan çəkinməyə çağırmışdır. Ancaq onlar onu eşitmək istəməmiş, ona qarşı sərt tədbir görmüşdürlər (*Quran* 7: 59-64). Azğınlaşmış insanlar Nuhu daşa basaraq şəhərlərindən qovmuşdurlar (Quran, 54: 9). Bundan sonra Allah, azğın insanlara fəlakət göndərmişdir. Uzun illər boyu o yerlərə yayış yağmamışdır. Hər yeri quraqlıq və aclıq bürümüşdür. Onda Nuh xalqını *tövbə* etməyə çağırmışdır (Quran, 71: 10-13). Ancaq, onların çoxu bundan imtina etmişdirlər. Bundan sonra Nuh, Allahdan bu xalqın cəzalandırılmasını istəmişdir (Quran, 11: 33-34). Allah da Nuha böyük bir gəmi düzəltmək əmrini vermişdir (Quran, 11: 36-37). Bundan sonra Nuh birbaşa gəminin inşasına başlamışdır. Onunla bərabər iman gətirən insanlar da gəminin inşasında iştirak etmişdirlər. *Cəbrail* mələk isə onları ruhlandırırdı. Bütpərəstlər isə onlara gülürdülər. Gəmi tikilən kimi Allah Nuha hər bir heyvandan erkək-dişi olmaqla bir cüt, ailəsini və iman gətirmiş insanları gəmiyə yığmağı buyurmuşdur (Quran, 11: 40). Nuh Allahın bütün buyruqlarını yerinə yetirdikdən sonra Tufan qopmuş, yer üzünü su basmış və bütün canlılar məhv olmuşdur. Altı aydan sonra leysan yağışlar kəsilmiş, su yavaş-yavaş geriyə çəkilməyə başlamışdır. Sonra Nuh peyğəmbərin gəmisi sudan azad olmuş *Cudi dağına* yaxınlaşıb lövbər salmışdır. Bu dağın İraqın şimalında yerləşən dağlardan biri olduğu rəvayət edilir. Ham və Yafəs adlı oğulları və Allaha iman gətirmiş insanlar ölümdən qurtulmuşlar. Onlardan yeni insan nəsilləri törəmiş və dünyanın müxtəlif tərəflərinə yayılmışdırlar. Sam ərəblərin, farsların, avropalıların; Ham qara dərili hindlilərin və afrikalıların, Yasəf isə türklər və başqa asiyalı xalqların ulu babaları hesab edilir. Buna görə Nuhu “ikinci *Adəm*” də adlandırırlar.

**NURSİ SƏİD** (1293/1876 – 1379/1960) – ***yeni dövrün müsəlman maarifçisi və ictimai-siyasi xadimi olmuşdur.*** O, Bitlisin yaxınlığındakı Nurs kəndində doğulmuşdur. Erkən yaşlarından başlayaraq ilahiyyat elmlərinə maraq göstərmiş, yaxşı yaddaşı ilə seçilmişdir. O, rəsmi məktəblərdə oxumamış, bilikləri müxtəlif müəllimlərindən almışdır. Daha sonra özü üzərində işləyərək *İslam* təliminin müxtəlif sahələri üzrə çoxlu sayda əsərlər oxumuşdur. 1325/1907-ci ildə Səid Nursi İstanbula getmiş, orada qonaq evlərinin birində yaşamış, müxtəlif adamlarla görüşmüş, onların problemləri ilə tanış olmuş, dini-fəlsəfi və siyasi düşüncələrini ortaya qoymuşdur. O həm də qəzet və jurnallarda dərc olunmuş, siyasi proseslərə də qoşulmuşdur. Onu hətta bütün bunlara görə “Bədiüz-zaman” (zamanını möcüzəsi) da adlandırırdılar.

Birinci dünya müharibəsi başlayanda Səid Nursi Vanda yaşayırdı. Orada o, müəllimlik fəaliyyəti ilə məşğul olur, həm də müharibəyə insanların göndərilməsini təşkil edirdi. O özü də vuruşmuş, Bitlis uğrunda gedən döyüşlərdə ruslara əsir düşmüşdür. Üç ildən sonra əsirlikdən buraxılmış və İstanbula qayıtmışdır.

Osmanlı imperiyası birinci dünya müharibəsində məğlub olandan sonra İstanbulu ingilis qoşunu işğal etmişdir. Səid Nursi başqa yurddaşları ilə onlara qarşı mübarizəyə qalxmış, onlara qarşı ideoloji təbliğat aparmışdır. O dövrlərdə Anadoluda artıq istiqlal uğrunda mübarizə başlamışdır. Ancaq ingilislərin basqısı altında olan Osmanlı Sultanı və din xadimləri bu azadlıq uğrunda mübarizəyə qalxmış insanları qiyamçı adlandırmış, bu barədə *fətva* da vermişdirlər. Bu zaman Səid Nursi Osmanlı Sultanı və dini xadimlərinə qarşı çıxış etmişdir. O, türk xalqının mübarizəsinin *şəriətə* uyğun olması haqqında öz fətvasını vermişdir. Səid Nursinin addımını Türkiyə Böyük Millət

Məclisi (TBMM) yüksək dəyərləndirilmiş, Mustafa Kamal Səid Nursini Ankaraya dəvət etmişdir. 1340/1922-ci ildə Ankaraya gəlmiş Səid Nursi Türkiyənin yeni hakimiyyəti ilə anlaşa bilməmiş, dünyəvilik siyasətinə qarşı çıxmışdır. O, Türkiyədə şəriət ilə ölkənin idarə olunmasının tərəfdarı olmuş, bu barədə o bəzi əsərlər də yazmışdır. Sonra Səid Nursi Vana getmiş, orada siyasi ittihamla İsparta vilayətinə sürgün edilmişdir. Burada o, İslam ilahiyyatına aid olan çoxlu sayda kitablar yazmış, dünyəviliyi pisləmişdir. Türkiyənin dünyəvi hakimiyyətinə qarşı apardığı fəaliyyətinə görə məhkəmələrə cəlb edilmiş və sürgün edilmişdir. Sürgün həyatını yaşayan zaman Səid Nursi ən böyük əsəri olan "Risaleyi-Nur" kitabını tamamlamışdır. Bu kitabda o, *Quran ayələrini* və klassik İslam irsinin müasir zamanın tələblərinə uyğun təfsir etmişdir.

Səid Nursi 1379/1960-cı ildə Urfada vəfat etmişdir. Onun vəfatından sonra davamçıları onun irsini davam etdirərək "Nurçuluq" adlanan dini-ictimai hərəkatı formalaşdırmışdırlar. Hazırda, bu hərəkat dünyanın bir çox ölkələrində fəaliyyət göstərir. "Risaleyi-Nur" əsəri nurçuluq hərəkatının maarifçi fəaliyyətinin əsas mənbəyidir.

**NURÜL-MƏHƏMMƏDİ** – ***nurun peyğəmbərdən başqasına keçməsi inancıdır.*** Sonda bu nur Əbu ibn Əbu Talibin soyundan olan imamlara keçmişdir. Onlar "Məhəmməd nurunun" olmasına dair *Quranın* 24-cü surəsinin 35-ci ayəsini dəlil kimi gətirirlər. Daha sonra "Məhəmmədin nuru" ideyası müxtəlif sufi qollarının təlimlərinə də keçmişdir.

**NÜMAN İBN MÜQƏRRİN** (21/642-ci ildə vəfat etmişdir) – ***görkəmli müsəlman sərkərdəsi, Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuşdur.*** *Mədinə* yaxınlığında yaşamış Müzeynə qəbiləsinin başçısı olmuşdur. Hicrətdən sonra Nüman öz qəbiləsinin 400 nəfərlik atlı dəstə ilə Mədinəyə *Məhəmməd* peyğəmbərin yanına gəlmiş, *İslamı* qəbul etmişdir. Bundan sonra Nüman müsəlmanların apardığı savaşlarda vuruşmuşdur. Məhəmməd *peyğəmbərin* vəfatından sonra Nüman xəlifə *Əbu Bəkrə* tabe olmayan ərəb qəbilələri ilə döyüşmüşdür. Xəlifə *Ömərin* dövründə isə o, İrana qarşı savaşlarda fəallıq göstərmiş, Xilafət qoşununa başçılıq etmişdir. İranlılara qarşı Nəhavənd döyüşündə həlak olmuşdur.

**NÜSEYRİLƏR** –bax: **ƏLƏVİLƏR (II).**

**NÜSUB** – ***ərəb bütpərəstlərinin məzarlarda və başqa yerlərdə qurduqları qurbanlıq yerləri idi.*** Burada onlar bütlərə, ölmüş əcdadlarına, müqəddəslərə və mələklərə qurbanlar kəsərək onlardan yardım diləyirdilər.

# O

**ORUC** – ***günəşin doğuşundan batmasına qədər yeməkdən, içməkdən və cinsi yaxınlıqdan uzaq duraraq Allaha edilən ibadətdir.*** *Ramazan* ayında oruc tutmaq *İslam* dininin əsas *şərtlərindən* biridir. *Quranın* 2-ci surəsinin 183-cü ayəsində orucun *vacib* olduğu qeyd edilmişdir. İslam alimlərinə görə Ramazan ayında orucun tutulması *Məhəmməd* peyğəmbərin *Mədinəyə hicrət* etməsindən sonra hicrətin 2-ci ilində baş verən *Bədr* döyüşündən öncə vacib qılınmışdır. Ona qədər Məhəmməd *peyğəmbərlə* onun davamçıları *Məhərrəm* ayında oruc tutmuşdurlar. Başqa bir xəbərə görə isə İslamın ilk dövrlərində hər ayda iki gün oruc tutulmuşdur. Müsəlmanlar oruc tutarkən *Al-*

*lahın* onlara mərhəmətli olmasını, eləcə də *günahlarının* bağışlanmasını diləyirlər. Ramazan ayında müsəlmanlara başqa aylara nisbətən daha çox ibadətlər və xeyirli işlər görmək tövsiyə edilir. Onlar inanır ki, Allah oruc tutanın günahlarını bağışlayıb *cənnətə* yaxınlaşdırır.

Yetkinlik yaşına çatmış sağlam düşüncəli müsəlmanlar oruc tutmalıdırlar. Səfərdə olanlar, uşaqlar, xəstələr oruc tutmaya bilərlər. *Heyz* və ya *nifas* halında olan qadınlar oruc tutmamalıdırlar. Onlar buraxılan günlərin yerinə orucu Ramazan ayı bitdikdən sonra *qəza* etməlidirlər.

Orucu tutmağa *imsak* vaxtından başlamaq lazımdır. Orucu tutarkən isə buna *niyyət* edilməlidir. Gün ərzində yemək, içmək, siqaret çəkmək, cinsi yaxınlığa girmək olmaz. Özünü bilərəkdən qusdurmaq da orucu pozar. Ancaq, müsəlman bunları bilmədən, unudaraq edərsə, onda oruc pozulmaz. Ağız suyu udula bilər. Əgər insan bilərəkdən orucunu pozarsa, günah əməl işləmiş olur. Belə olarsa o, tutmadığı günlərin yerinə başqa vaxt daha da çox *qəza* orucunu tutmalı, üstəlik *kəffarə* də verməlidir.

Oruca başlamazdan öncə tezdən yuxudan durub səhər yeməyi yeyilməlidir. Ona "obaşdanlıq" və ya *sühur* deyilir. Günəş batan kimi də oruc *iftarla* açılmalıdır. İftar gecikdirilməməli, vaxtında açılmalıdır. Oruc tutan kəs dində *haram* və *məkruh* işlərin görülməsindən çəkinməlidir. Bilərəkdən kiməsə pislik etmək, yalan danışmaq və s. əməllər olmaz.

İslamda vacib və *nafilə* orucları vardır. Vacib oruc Ramazan ayında tutulandır (Quran, 2: 185). Ramazan ərzində müsəlmanlar *Qədr gecəsinin* axtarışında olur, müxtəlif *dualar* edir, *təravih* namazlarını qılırlar. Ramazan ayının sonunda isə yoxsullara fitrə zəkatı verilir.

Əgər müsəlman üzrlü səbəblərdən Ramazan ayındakı orucun hamısını və ya bir neçə gününü tuta bilməsə, onda həmin günlərin qəzasını başqa aylar ərzində tutmalıdırlar (Quran, 2: 185). Nafilə orucları isə sayca çoxdur. Onlardan bəziləri Şəvval ayının altı günündə, *Zülhiccə* ayının ilk on günündə, *Şəban* ayının isə bəzi günlərində tutulan oruclardır.

**ORUCLUQ BAYRAMI** – bax: **İDƏYN**.

**OSMAN İBN ƏFFAN** (35/656-cı ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin yaxın səhabəsi, görkəmli ictimai-siyasi xadim və üçüncü Raşidi xəlifəsi olmuşdur.*** 575-ci ildə *Məkkədə* doğulmuş, *İslamı* qəbul edən ilk müsəlmanlardan biri olmuşdur. Onun əmisi Həkəmə ibn Əbül-As onun seçiminə qarşı çıxmış, qardaşı oğlunu inancından çəkindirib ulu babalarının inancına döndərmək istəmişdir. Ancaq bu heç bir nəticə verməmişdir. Bir müddət keçdikdən sonra Osman *Məhəmməd* peyğəmbərin qızı *Ruqiyyə* ilə evlənmişdir.

Müsəlmanlar Məkkədə təqiblərə uğrayan zaman Məhəmməd *peyğəmbər* onların bir çoxlarını *Həbəşistana hicrət* etmələrini əmr etmişdir. Osman da öz həyat yoldaşı ilə birlikdə hicrət edənlərdən olmuşdur.

Bir müddət keçdikdən sonra Osman Məkkəyə qayıtmış və sonra müsəlmanlarla birlikdə *Mədinəyə hicrət* etmişdir. Osman müsəlmanların *bütpərəstlərlə* apardıqları bir çox savaşlarında iştirak etmişdir. *Bədr* döyüşü zamanı isə həyat yoldaşı Ruqiyyənin ağır xəstə olmasına, sonra isə vəfat etməsinə görə *Mədinədə* qalmışdır. Ruqiyyənin vəfatından sonra Osman Məhəmməd peyğəmbərin digər qızı *Ümmü-Külsümlə* evlənmişdir. O, Məhəmməd peyğəmbərin iki qızı ilə evləndiyinə görə onu "Zun-Nureyn" (İki nurun sahibi) adlandırırdılar.

Hicrətin 6-cı ilində Məhəmməd peyğəmbər başda olmaqla müsəlmanlar *həcc* etmək üçün Məkkəyə doğru yola düşmüşdürlər.

Ancaq bütpərəstlər onları şəhərə buraxmamışdırlar. Buna görə Məhəmməd peyğəmbər və onun səhabələri Məkkədən 17 km aralıqda yerləşən *Hüdeybiyyə* adlanan yerə getmişdirlər. Oradan onlar məqsədlərini açıqlamaq üçün *Osman ibn Əffanı qureyşlilərin* yanına göndərmişdirlər. Osman Məkkəyə gəlib şəhərin başçıları ilə görüşmüş, müsəlmanların onlarla savaşmaq üçün deyil, yalnız *Kəbəni* ziyarət etmək üçün gəldiklərini bildirmişdir. Ancaq məkkəlilər müsəlmanların şəhərə girməsinə yol verməmişdirlər. Osman özündən asılı olmayan səbəblər üzündən geriyə gec qayıtdığına görə müsəlmanlar arasında onun öldürüldüyü xəbəri yayılmışdır. Onlar Məhəmməd peyğəmbərin yanına gəlib bütpərəstlərlə vuruşmağa hazır olduqlarını bildirmişdirlər. Elə oradaca müsəlmanlar ona *beyət* etmişdirlər. Bunu eşidən Məkkə bütpərəstləri müsəlmanlarla *ixtilafa* girməmək üçün Hüdeybiyyədə onlarla sülh anlaşmasını bağlamalı oldular. Sonra isə Osman geriyə qayıtmışdır.

Osman ibn Əffan zəngin bir şəxs olmuşdur. O, hələ Məkkə dövründə müsəlmanlara maddi yardım göstərirdi. Bu işi Mədinədə də davam etdirmişdir. Məsələn, Təbuk yürüşündə müsəlman qoşununun xərclərinin böyük bir hissəsini o öz öhdəsinə götürmüşdür.

*Əbu Bəkr* və Ömərin xilafəti zamanı onları dəstəkləmiş, onlara yardımçı olmuşdur. 23/644-cü ildə Ömərə sui-qəsd edildikdən sonra ağır yaralanmış *xəlifə*, Məhəmməd peyğəmbərin səhabələrindən ibarət olan bir heyətin yaradılmasına və onların arasından bir nəfərin yeni xəlifə seçilməsi əmrini vermişdir. Osman ibn Əffan da o heyətin tərkibində olmuş və üçüncü Raşidi xəlifəsi seçilmişdir.

Xəlifə olduqdan sonra Osman ilk iki xəlifələrin siyasətini davam etdirmişdir. Onun hakimiyyəti dövründə *Quran* yenidən işlənilmiş və nüsxələri çoxaldılıb bütün ölkəyə yayılmışdır.

Xəlifə *Osmanın* xilafəti dövründə xarici düşmənlərə qarşı uğurlu savaşlar aparılmış, müsəlmanlar yeni əraziləri ələ keçirə bilmişdirlər. Şimali Afrikanın, Suriyanın fəthi davam etmiş, Kipr adası ələ keçirilmişdir. Bizans imperiyası ağır məğlubiyyətlərlə üzləşmişdir. Asiyada da müsəlman orduları uğurlar əldə edirdilər. O zaman İran imperatorluğu tamamilə darmadağın edilmiş, Xilafətin tərkibinə qatılmışdır. Ancaq xəlifə Osmanın hakimiyyətinin sonlarına yaxın dövrlərdə Xilafətin içində siyasi durum gərginləşmişdir. Müxtəlif yerlərdə xəlifənin siyasətinə qarşı etirazlar baş qaldırmışdır. Onlar Osman tərəfindən təyin edilmiş və onun qohumları olan vilayət valilərinin özbaşınalığına etiraz etmişdirlər.

35/656-cı ildə *Misirdən*, Kufədən, Bəsrədən olan etirazçılar *ziyarət* səbəbi ilə Hicaza gəlmişdirlər. Onlar Mədinəyə daxil olaraq xəlifə Osman qarşısında tələblər qoymuşdurlar. Ancaq xəlifə onları yerinə yetirməmişdir. Bundan sonra üsyançılar 82 yaşlı Osmanın evini bir müddət müasirdə saxladıqdan sonra ora daxil olmuş və onu qətl etmişdirlər. Bundan sonra Xilafətdəki siyasi durum gərginləşmiş və beləliklə, qarşıdurma yaşanmışdır.

**OSMANLILAR** – ***İslam dünyasının xəlifələri olmuş türk sultanları olmuşdurlar.*** Osmanlılar tarixdə formalaşma (1299 – 1453), güclü imperiya (1453 – 1579), durğunluq (1579 – 1699), zəifləmə (1699 – 1792) və parçalanma (1792 – 1922) kimi dövrlərini yaşamışdır. Osmanlı sultanlığının yaradıcısı Osman bəy Ərtoğrul oğlu olmuşdur. O, Anadoluda Konya sultanlığına tabe olan bir türk bəyliyinə başçılıq edirdi. Bizansa qarşı uğurlu savaşlar aparırdı. 1299-cu ildə öz bəyliyini müstəqil ölkəyə çevirmişdir. Elə bu ildən də Osmanlı dövlətinin

əsası qoyulmuşdur. Sonrakı yüz il ərzində Osmanlılar Bizansla savaşlarda yeni ərazilər qazanaraq daha da genişlənmişdir. Bursa şəhəri ölkənin paytaxtı olmuş, Osmanlı sülaləsi isə "Sultan" adını daşımağa başlamışdırlar.

Osmanlılar təkcə bizanslılarla deyil, onlara tabe olmayan digər türk bəylikləri ilə də savaşlara girmiş, onları məğlub edib öz ölkələrinə qata bilmişdirlər. Daha sonra Osmanlılar Dardanel boğazını ələ keçirərək Avropaya doğru irəliləməyə başlamışdırlar. Balkan yarımadasında bir çox bölgələri ələ keçirmişdirlər. Orada onlar bir necə dəfə birləşmiş Avropa krallarının qoşununa qalib gələ bilmişdilər. O dövrdə çoxlu yunanlar, slavyanlar, albanlar və başqa millətlərin nümayəndələri *İslamı* qəbul etmişdirlər.

O zaman "yeniçərilər" adlanan döyüşçü birləşmələri də yaradılmışdır. Bu birləşmələrə soyları xristian ailələrindən olan uşaqlar alınmış, döyüşçü ruhunda tərbiyə edilmişdirlər. Yeniçərilər Sultanın ən nizamlı döyüşkən ordusu olmuşdur. Ancaq sonra 1402-ci ildə Osmanlı Sultanı Bəyazid Əmir Teymura məğlub oldu. Bundan sonra təxminən 20 il boyu Osmanlılar gücdən düşmüşdürlər. Osmanlı sultanlığını yenidən dirçəldən Sultan II Murad olmuşdur. Ondan sonra Türklər Avropada və Yaxın Şərqdə yeni ərazilər fəth edə bildilər. 1444-cü və 1448-ci illərdə II Murad Varna və Kosovada avropalıların birləşmiş güclərini məğlubiyyətə uğrada bilmişdir. Ondan sonra hakimiyyətə gələn Sultan II Məhmət özünü Roma imperiyasının qeysəri (Qeysəri-Rum) adlandırmışdır. Sonrakı türk Sultanları da bu adı daşıyırdılar. 1453-cü ildə İstanbulun və Trabzonun alınmasından sonra Osmanlı dövləti artıq imperiya adlandırılmağa başlamışdır. Anadoluda isə bütün türk bəylikləri Osmanlı dövlətinə daxil edilmişdir. Qara dəniz kənarları və Krım da türklərə tabe olmuşdur. Türk Sultanları özlərini müsəlmanların və xristianların imperatoru hesab edirdilər. Bütün bu uğurlar sonrakı illərdə də davam etdirilmişdir. Miladi XVI əsrdə türk qoşunları *qızılbaşlara* qalib gəlmiş, sonra Suriyanı və *Misiri* ələ keçirmişdirlər. 1516-cı ildə Osmanlı Sultanı I Səlim Qahirəyə gəlmiş, orada sonuncu Abbasi *xəlifəsi* sayılan Mütəvəkkillə görüşmüş, o da ona xəlifə adlanmaq hüququnu vermişdir. Bu tarixdən etibarən Osmanlı Sultanları artıq bütün müsəlmanların xəlifəsi adını daşımağa başlamışdırlar. Bundan sonra onlar Hicazın müqəddəs şəhərlərini və bütün Ərəbistanı da imperiyaya qatmışdırlar.

1529-cu ildə Sultan Süleymanın dövründə türk ordusu Avropada daha da irəliləyərək Avstriyaya girmiş, Vyananı mühasirəyə almışdır. O zaman artıq Şimali Afrika, İranın və Qafqazın qərb bölgələri də imperiyanın tərkibində idi. Türk donanması Aralıq dənizindən bütün rəqiblərini sıxışdırıb aradan çıxara bilmişdir. 1571-ci ildə avropalılar Lepantoda türk donanmasını ağır məğlubiyyətə uğratsalarda Osmanlılar bundan sonra da uzun müddət Aralıq dənizində üstünlüklərini saxlaya bilmişdirlər.

XVII əsrdə Osmanlı imperiyasında geriləmənin ilk təzahürləri üzə çıxmağa başlamışdır. Anadolunu "Cəlali" adlanan üsyanlar və Osmanlı Sultanlarına qarşı etirazlar hər yeri bürümüşdür. Qızılbaşlar osmanlıları Azərbaycandan sıxışdırıb çıxara bilmişdirlər. Sultan IV Məhmətin (1648 – 1687) sultanlığı dövründə Osmanlı imperiyası dərin böhran keçirmişdir. Avropa donanmaları türk dəniz qüvvələrini darmadağın edərək Dardanel yaxınlığında bir necə adanı ələ keçirərək İstanbula girmək istəmişlər. Onlar Türklərin müqaviməti ilə qarşılaşdıqdan sonra geri çəkilməyə məcbur olmuşlar. Avstriyada aparılan müharibədə isə türk ordusu darmadağın edilmiş, Avropada bir çox alınmış ərazilər itirilmişdir.

XVIII əsrdə qızılbaşlarla savaşda öncə

uğur əldə edilsə də, sonra Osmanlı qoşunu yenə geriyə çəkilməli oldu. Avropada da onların uğursuzluqları davam edirdi. O zaman Rusiyada Osmanlılarla savaşlara başlamışdır.

Osmanlı imperiyası artıq inkişaf etmiş Avropa ilə rəqabət apara bilmirdi. Buna görə də o dövrlərdən başlayaraq Osmanlılar Avropa ölkələrinin mədəniyyətləri, ölkə quruluşu, ordu quruculuğu ilə maraqlanmağa başlamışdırlar. Onların nailiyyətlərini ölkələrinə gətirmək, inkişaf etmək istəmişdirlər. Geriləməni aradan qaldırmaq üçün Sultanlar yenidənqurma işlərini aparmaq üçün cəhdlər etmişdirlər. Ancaq bu cəhdlər uğursuz nəticələnmişdir. Yeniçərilər, dövlət məmurları və dini xadimlər yenidənqurmanın aparılmasına qarşı idilər.

1799-cu ildə fransızlar Misirə girə bilmiş, Ərəbistanda da vəziyyət ağırlaşmış, orada Osmanlılara qarşı silahlı hərəkat başlamışdır. Ölkəsinin getdikcə gücdən düşməsini anlayan Sultan III Səlim yenə ölkədə islahatlar keçirmək istəmiş, fransızların yardımı ilə yeni ordu yaratmışdır. Ancaq buna etiraz edən yeniçərilər onu devirmişdilər.

Bu arada Osmanlı qoşununun uğursuzluqları davam edirdi. Ruslar Qafqazı tam ələ keçirmiş, Qara dənizdə onlar türk donanmasını darmadağın etmişdirlər. Osmanlılar Krımı da itirmişdirlər. Bu da ölkə içində durumun ağırlaşmasına səbəb olmuşdur.

Növbəti saray çevrilişindən sonra hakimiyyətə II Mahmud (1808 – 1839) gəlmiş və yenidənqurma işlərinə başlamışdır. 1826-cı ildə o yeniçərilər ordusunu dağıtmış, dünyəvi təhsil sistemini tətbiq etmiş, ölkədə kitab və qəzetlər buraxılmağa başlamışdır. Ancaq, buna baxmayaraq ölkənin durumu getdikcə ağırlaşmışdır. Savaşlarda məğlubiyyətlərin arası kəsilmirdi. İmperiyanın hər tərəfində hakimiyyətə qarşı üsyanlar baş qaldırmışdır. Ağır durumdan çıxmaq cəhdlərini yeni Sultan Əbdülməcid (1839 – 1861) davam etdirmişdir. Onun geniş yenidənqurma planları "Tənzimat" adlandırılmışdır. Onun dövründə ölkə qanunları Avropa qanunlarına uyğunlaşdırılmış, qeyri-müsəlmanların hüquqları müsəlmanlarla bərabərləşdirilmişdir. Korrupsiya və rüşvətxorluğun qarşısını almaq üçün yeni iqtisadi siyasət də tətbiq olunmuşdur.

1853 – 1856-cı illərin Türk-Rus müharibəsi Osmanlılar üçün nisbətən uğurlu olsa da ölkədə böhran davam etmiş və maliyyə problemləri kəskinləşmişdir. Osmanlı dövlətinin Avropa ölkələrinə böyük borcları yığılmışdır. Buna görə də, Osmanlı onların təsiri altına düşmüş, müstəqil daxili və xarici siyasət yeridə bilməmişdir. Avropa ölkələri imperiyanın daxili işlərinə qarışırdılar. Bu da iqtisadi böhranı daha da ağırlaşdırmış, dinlər və millətlərarası münasibətləri gərginləşdirmişdir. Ölkədə daxili qarşıdurmaların sayı getdikcə artırdı. 1875-ci ildən etibarən Osmanlı imperatorluğu tam müflisləşmiş, borclarını geri qaytara bilməmişdir.

Çox ağır durumda xilafətə Sultan II Əbdülhəmid (1876 – 1909) gəlmişdir. Onun dövründə ilk dəfə olaraq Osmanlı imperiyasında Konstitusiya qəbul olunmuş, parlament (məclis) çağırılmışdır. Ancaq o zaman, Balkanlarda siyasi böhran yaranmış, bu da yeni rus-türk savaşına gətirib çıxarmışdır. 1877 – 1878-ci illərdəki savaşda Osmanlılar yenə də ağır məğlubiyyətə uğramış, Balkanların əksər vilayətlərindən geri çəkilməli olmuşdurlar. O zaman ingilislər Kipr adasını və Misiri, Fransa isə Tunisi və Əlcəzairi ələ keçirmişdir. Osmanlıları yalnız başqa avropalıların rəqibi olan Almaniya dəstəkləmişdir. Almanlar türklərə yardım etmiş, bəzi islahatların keçirilməsində onlara dəstək olmuşdurlar. Parlamenti isə Sultan buraxmışdır.

XIX əsrin sonlarından başlayaraq imperiyada türkçülük ideyaları geniş yayılmağa başlamışdır. Onların siyasi qanadı "İttihad və

Tərəqqi" partiyasında təmsil olunmuşdur. Onlar konstitusiyanın və parlamentin bərpası uğrunda mübarizə aparırdılar. 1909-cu ildə onlar Sultan Əbdülhəmidi devirib hakimiyyətə gəlmişdilər. Yeni Sultan V Məhmət olmuşdur. Ancaq onlar da Osmanlı imperiyasını uğursuzluqlardan qurtara bilməmişdilər. 1911-ci ildə İtaliya Liviyanı ələ keçirmiş, 1912 – 1913-cü illərdə gedən Balkan savaşlarında türk orduları ağır məğlubiyyətlərə uğramışdırlar. Bu müharibədə Şərqi Trakiyada olan digər bütün ərazilər də itirilmişdir.

1914-cü ildə isə Osmanlılar I Dünya Müharibəsinə Almaniyanın müttəfiqi kimi girmişdirlər. Bu müharibədə ölkənin qalan gücləri və sərvətləri də darmadağın edilmişdir. Osmanlılara tabe olan ərəb əmirləri də Antantanın tərəfinə keçmişdirlər. 1918-ci ildə Müdrosda Osmanlı imperiyasının savaşda məğlub olması haqqında Antanta ilə anlaşma bağlanmışdır. Bundan sonra Avropa ölkələri Anadolunun işğalına başlamışdırlar. Orada bir neçə ölkənin yaradılması planlaşdırılmışdır. Türklərə yalnız Anadolunun ortasında kiçik bir ərazi verilməli, İstanbul isə ingilislərdə qalmalı idi.

Sonuncu Osmanlı Sultanı V Məhmət Antanta ölkələrinin təsiri altında olmuş, onların əmrlərini yerinə yetirirdi. Ancaq türk xalqı öz müstəqilliyinin itirilməsi, ölkənin parçalanması ilə razılaşmayaraq işğalçılara qarşı üsyana qalxdılar. Bu üsyanı türk ordusunun Antantaya tabe olmayan Mustafa Kamal paşanın başçılıq etdiyi ordu bölmələri də dəstəkləmişdir. Beləliklə, Türkiyənin müstəqilliyi uğrunda savaş başlamışdır. Bu müharibədə Türklər yunan, fransız, ingilis və başqa işğalçı ordularını darmadağın edib ölkədən qova bilmişdirlər. 1922-ci ildə türk ordusu İstanbula girmiş və bu tarixdən başlayaraq Osmanlı Sultanlarının hakimiyyətinə son qoyulmuş, Türkiyə respublikaya çevrilmişdir. 1924-cü ildə isə Xilafət ləğv edilmişdir.

# Ö

**ÖLÜM** – bax: **MÖVT.**

**ÖLÜM MƏLƏYİ** – ***Allaha ən yaxın olan mələklərdən biridir, vəzifəsi insanların həyatlarını sonlandırmaqdır.*** *İslama* görə Allahın əmri olmadan Azrail insanların canını ala bilməz. *Quranda* ölüm mələyi 32: 11 ayəsində anılmışdır. İlahiyyatçılara görə ölüm mələyinin vəzifəsinin yerinə yetirilməsində ona çoxlu digər *mələklər* də yardım edirlər və bu mələklər ona tabedirlər. Qeyd etmək lazımdır ki, *kafir* və *möminlərin* canlarını alan mələklər fərqlidirlər (Quran, 79: 1-2).

**ÖMƏR İBN XƏTTAB** (23/644-cü ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin yaxın səhabəsi, görkəmli ictimai-siyasi xadim, ikinci Raşidi xəlifə olmuşdur.*** O, təxminən 585-ci ildə *Məkkədə* doğulmuşdur. Onun *İslamı* qəbul edənə qədərki həyatı haqqında çox məlumat vardır. Onun çoban olması, sonra isə ticarətlə məşğul olduğu haqqında rəvayətlər mövcuddur. Daha sonra o, Məkkənin nüfuzlu adamlarından biri olmuşdur. Onu tez-tez qəbilələr və ailələr arasında baş vermiş ixtilafları həll etməyə dəvət edirdilər. Sərt xarakterə sahib olan Ömər ilk dövrlərdə müsəlmanlara qarşı olmuşdur. Rəvayətlərə görə ərəbləri öz ənənəvi inanclarından döndərmək istədiyi üçün o, *Məhəmməd* peyğəmbəri öldürmək istəmişdir. İstəyini yerinə yetirmək üçün yola da çıxmışdır. Ancaq, yolda o bir məkkəli ilə qarşılaşmış, ondan bacısının və kürəkənin müsəlman olduqları xəbərini eşitmişdir. Bunu eşidəndə Ömər daha da qəzəblənərək bacısı gilə gəlmiş və orada onun həyat yoldaşı ilə birlikdə *Quran* oxuduqlarının şahidi olmuşdur. Öncə Ömər onları döymüş,

ancaq qəzəbi soyuyanda Quran *ayələri* ilə maraqlanmışdır. Ayələrin mənaları ilə tanış olduqdan sonra müsəlman olmağa qərar vermişdir. Bundan sonra Ömər müsəlmanların toplaşdıqları *Ərqəmin* evinə yollanıb orada müsəlman olduğunu təsdiq etmişdir. Bu hadisə Məhəmməd *peyğəmbərin* peyğəmbərliyinin başlamasından altı il sonra baş vermişdir.

İslamı qəbul etdikdən sonra Ömər digər səhabələrlə birlikdə *bütpərəstlərin* müqavimətinə baxmayaraq *Kəbəyə* getmiş, orada camaat *namazı* qılmışdırlar. Daha sonra Ömər başqa müsəlmanlarla birlikdə *Mədinəyə hicrət* etmişdir. Orada bütün müsəlmanların ictimai həyatında fəal iştirak etmişdir. O, *Bədr, Uhud, Xəndək*, Xeybər, eləcə də başqa döyüşlərdə vuruşmuşdur. Elə o zaman o, müsəlmanlar arasında nüfuz qazanmışdır.

Məhəmməd peyğəmbərin vəfatından sonra Ömər *Əbu Bəkrin* xəlifə seçilməsində böyük rol oynamışdır. Onun xilafəti zamanı Ömər onun yardımçısı olmuşdur. Vəfatından öncə Əbu Bəkr onu öz varisi elan etmişdir. Beləliklə, 13/634-cü ildə Ömər ikinci *Raşidi xəlifə* olmuşdur.

Ömər xəlifə olduqdan sonra, Əbu Bəkrin siyasətini davam etdirmişdir. Onun zamanında Xilafət böyük uğurlar əldə etmişdir. İslam ordusu Bizans və İran kimi güclü imperiyaları məğlub edə bilmişdir. Xilafətin hakimiyyəti Yaxın Şərqə, İrana, *Misirə*, Şimali Afrikanın bəzi bölgələrinə yayılmışdır. 23/644-cü ilin *Zülhiccə* ayında xəlifə *Ömərin* həyatına qəsd edilmişdir. Nəticədə o, ağır yaralanmış, az sonra isə vəfat etmişdir. Onun qatili Əbu Lulu adlı bir iranlı kölə olmuşdur. Ölümündən öncə xəlifə Ömər yeni xəlifənin seçilməsi üçün bir heyət təyin etmişdir. Bu heyətin tərkibində Osman ibn Əffan, Əli ibn Əbu Talib, Təlhə ibn Übeydullah, Zübeyr ibn Əvvam, Əbdürrəhman ibn Əvf, Səd ibn Əbu Vəqqaz olmuşdurlar. Onlar üç günün içində öz aralarından bir nəfəri xəlifə seçməli idilər. Bu seçim nəticəsində Osman ibn Əffan üçüncü xəlifə seçilmişdir.

**ÖRF** – ***müxtəlif xalqların əsrlər boyu oturuşmuş adət və ənənələridir.*** Örfün yaranma səbəbi cəmiyyətdə münasibətlərin tənzimlənməsi ehtiyacından ortaya çıxmışdır. İslam *fəqihləri Quran* və *hədislər* əsasında həll edilməyən məsələlərdə bəzən örfdən istifadə edirlər. Örfün ictimai münasibətlərin tənzimlənməsində istifadəsi onun *şəriətə* zidd olmamağı ilə bağlıdır. Şəriətə uyğun olmayan örflər isə İslam hüququnda qəbul edilmir (Quran, 7: 28).

**ÖVLİYALAR** – ***günlərini ibadətdə keçirən, mömin həyatı yaşayan, günahlardan çəkinən, mənəviyyata üstünlük verən müqəddəs şəxslərdir.*** Onlar haqqında *Quran ayəsi* də mövcuddur (10: 62-64). Xalq arasında övliyalara böyük ehtiram göstərilir. Hətta, bəzən onların qəbirləri *ziyarət* yerlərinə belə çevrilir. Övliyalardan kömək diləmək haqqında fikir ayrılıqları olsa da, insanlar onların vasitəsi ilə *Allaha dualar* edirlər. İnanan insanlar hesab edirlər ki, onların *bərəkəti* hər zaman və hər yerdə vardır və onları ziyarət etmək lazımdır.

# P

**PEYĞƏMBƏR** – f***ars dilindən götürülmüş Allahın göndərdiyi və ya seçdiyi elçi, rəsul və nəbilər bu adla adlandırılır.*** "Xəbərçi və ya xəbər verən" mənasında işlədilir. Bir termin kimi "peyğəmbər" *Allahın* bəndələrinə əmr və buyruqlarını bildirmək və onlara haqq və həqiqəti, *halal* və *haramı*, xeyr və şəri açıqlamaq üçün seçdiyi və vəzifələndirdiyi insanı ifadə edir. Peyğəmbərlərə inam *İslam* dininin əsasların-

dan hesab edilir. Yeni bir kitab və *şəriət* gətirmiş olan peyğəmbərə *rəsul*, yeni bir kitab gətirməyən özündən əvvəlki peyğəmbərin şəriətini davam etdirən peyğəmbərə isə nəbi deyilir.

Rəsullar yalnız *Adəm, Nuh, İbrahim, Musa, İsa və Məhəmməd* peyğəmbərlər olmuşdurlar. Allahın dininə çağırış baxımından nəbilər rəsullardan fərqlənmirlər. Müsəlmanlar, onların hamısına inanır, onlardan birini qəbul etməyən kimsə İslamdan çıxmış olur. İlk peyğəmbər Adəm, sonuncusu isə Məhəmməddir. *Quranda* adları çəkilən peyğəmbərlər bunlardır: Adəm, *İdris*, Nuh, *Hud, Saleh* (I), İbrahim, *Lut, İsmail, İshaq, Yəqub, Yusuf, Əyyub, Şueyb,* Musa, *Harun, Davud, Süleyman, İlyas, Əlyəsə, Zül-Kifl, Yunus, Zəkəriyya, Yəhya, İsa* və Məhəmməd.

# R

**RABİTƏ** – ***sufizmdə mənəvi yetkinliyə çatmış şeyxin vasitəsi ilə Allahla qurulan bağlantıdır.*** *Şeyx* keçmişdə ölmüş *övliyalarla* da mənəvi rabitə qurula bilər. Sufi *təriqətlərinin* təliminə görə mənəviyyat "yolçusu" *Allahla* yaxınlığa can atmalı, onu duymalı və ya öz "Mən"ini onda əritməlidir. Ancaq, bunu insan özbaşına edə bilməz. Buna görə də, *mürid* şeyxi ilə rabitə qurmalı, onun vasitəsi ilə Allaha yaxınlaşmalıdır. Bunu edə bilən müridlər kamil insan dərəcəsinə çata bilərlər.

**RAMAZAN** – ***hicri-qəməri təqviminin doqquzuncu və ən müqəddəs ayıdır.*** Bu ayda *Quran* nazil olmuşdur (Quran, 2: 185). *Ramazan* ayında müsəlmanlar *İslamın* əsaslarından biri olan *oruc* ibadətini yerinə yetirirlər. Ramazan ayının başqa bir üstünlüyü *qədr gecəsinin* onun gecələrinin birə düşməsidir. Bu ay boyu müsəlmanlar Quran oxuyub, gecələr *təravih* namazlarını qılırlar. Ramazan ayının son on gününü *etiqafa* çəkilməyin ayrıca *savabı* vardır. Ramazan ayının sonunda *fitrə zəkatı* da verilir.

**RAŞİDİ XƏLİFƏLƏR** – ***Məhəmməd peyğəmbərin vəfatından sonra Xilafəti idarə etmiş ilk dörd xəlifələrdir.*** Bunlar *Əbu Bəkr Siddiq* (hakimiyyət dövrü hicri 11 – 13-cü illər), *Ömər ibn Xəttab* Fəruq (hakimiyyət dövrü hicri 13 – 23-cü illər), *Osman ibn Əffan* Zun-Nureyn (hakimiyyət dövrü hicri 23 – 35-ci illər) və *Əli ibn Əbu Talib* Mürtəzadır (hakimiyyət dövrü hicri 35 – 40-cı illər).

**RAVİLƏR** – ***Məhəmməd peyğəmbərin sözlü və ya əməli davranışlarını başqalarına ötürən müsəlman din adamlarıdır.*** *Hədis* elmində isə ravi rəvayətləri söyləyən və onu digərlərinə ötürən şəxsdir. Onların rəvayət etdikləri hədislərin *ravi silsilələri* peyğəmbərdən eşitmiş *əhli-beytə* və ya *səhabələrə* qədər gedib çıxmalıdır. Hədis elmində hər bir rəvayətin mətni ilə tanış olmaqla yanaşı, onun ravilərinin kim olduğu bilinməlidir. Hədisin *səhih* sayılması üçün onun ravi silsiləsində yalnız ədalətləri və inancları ilə seçilən ravilər olmalıdır. Bu tələbə cavab verməyən hədislər səhih hesab edilmir. Hədislərin səhih hesab edilməsi üçün ravilərə qarşı qoyulan bəzi tələblər bunlardır: müsəlman və sağlam düşüncəyə sahib olmaq, yüksək əxlaqı, *vicdanı* və inancı ilə seçilmək, mükəmməl yaddaşa sahib olmaq.

**REYHANƏ** – ***Məhəmməd peyğəmbərin həyat yoldaşlarından biri olmuşdur.*** Bəzi rəvayətlərə görə Reyhanə Onun kənizlərindən biri olmuşdur. Reyhanənin soyu Qureyzə adlanan yəhudi qəbiləsindən idi. Reyhanə müsəlmanların 4/626-cı ildə Qureyzə qəbiləsi ilə döyüşü zaman əsir düşmüş və *qənimət* kimi *Məhəmməd peyğəmbərə*

verilmişdir. Bəzi rəvayətlərə görə *İslamı* qəbul edəndən sonra peyğəmbər onu azad etmiş və onunla evlənmişdir.

**RƏCƏB** – ***hicri təqviminin yeddinci ayıdır.*** İslamdan öncəki dövrlərdə Ərəblər bu ayda tanrılarına qurbanlar kəsirdilər. Eləcə də, onlar Rəcəb ayını müharibələrin aparılmasının *haram* edildiyi aylardan biri sayırdılar. İlk dövrlərdə müsəlmanlar da bu *adətə* tabe olsalar da, sonra bu adət ləğv edilmişdir. Bunun səbəbi isə hicrətin 2-ci ili Rəcəb ayının sonunda *peyğəmbərin* səhabəsi Abdullah ibn Cəxşin dəstəsinin məkkəlilərin karvanına hücum etməsi olmuşdur. Bundan sonra bu ayda savaşların aparılmaması adətinə son qoyulmuşdur. Ancaq buna baxmayaraq *İslamda* da Rəcəb ayı müqəddəs hesab edilir. Bəzi müsəlman hüquq *məzhəblərinə* görə bu ayda qurbanlar kəsilmir. Rəcəb ayında iki müqəddəs *rəqaib* və *merac* gecələri vardır.

**RƏCM** – ***kəbində olan kişi və ya qadının zina etdiklərinə görə ölümünə qədər daşqalaq edilməsidir.*** *Fiqhə* görə bunu məhkəmədə dörd şahid təsdiq və ya zina etmiş kəs etiraf etməlidir. Kəbində olmayan insanlar zina etsələr, o zaman onları şallaqlayır və ya sürgün edilirlər. Zina etməyə zorlanmış insanlar da rəcm edilmirlər. Rəcm haqqında *Quranda* deyil, Əhdi-Ətiqdə ayə vardır. Ancaq bəzi *hədislərdən* məlum olur ki, *Məhəmməd peyğəmbər* bir neçə dəfə rəcm hökmünü vermişdir.

**RƏQAİB** – ***müsəlmanların Rəcəb ayında qeyd etdikləri müqəddəs gecələrdən biridir.*** Bu gecə *Rəcəb* ayının ilk cümə axşamında qeyd edilir. Bəzi *təriqətlərin* inancına görə bu gecə *Məhəmməd* peyğəmbər zamanların əvvəllərində yaradılmış və ona *peyğəmbərlik* verilmişdir. Bəzi rəvayətlərə görə Rəcəb ayının birinci cümə axşamı günü Məhəmməd peyğəmbər orucunu tutmuş, gün batandan sonra isə 12 *rükətli namaz* qılmışdır. Müsəlmanlar VI/XII əsrdən başlayaraq Rəqaib gecələrini qeyd etməyə başlamışdırlar. XII/XVIII əsrdən başlayaraq bu *adət* kütləviləşmişdir. Rəqaib gecələrinin qeyd edilməsini sufilər çox sevirlər. Onlar bu gecələrə xüsusi sayğı bəsləyir, bunun üçün "rəqaibiyyə" adlı qoşmalar da yazıb oxuyurdular. Osmanlı imperiyasında bu gecələrdə məscidlərin *minarələrində qəndillər* yandırılırdı. Bundan sonra Rəqaib gecəsi xalq arasında da yayılmış və müasir dövrümüzdə də keçirilməkdədir. Rəqaib gecəsində müsəlmanlar etdikləri *günahlara* görə *Allah* qarşısında *tövbə* və çoxlu sayda *dualar* edirlər.

Ancaq bəzi ilahiyyatçılar bu gecənin keçirilməsinə, eləcə də o gecə xüsusi namazın qılınmasına qarşı çıxırlar. Onlar bu adətin *bidət* olduğunu iddia etmiş, bu barədə rəvayət edilən hədisləri isə uydurma *hədislər* hesab edirlər.

**RƏSUL** – ***yeni şəriət və kitabla gəlmiş böyük peyğəmbərdir.*** Rəsullar keçmiş peyğəmbərlərin *şəriətlərini* inkar etməmişdirlər. *Quranın* 59: 7 ayəsinə görə onlara tabe olmaq *vacib* idi. *İslama* görə yalnız altı rəsul olmuşdur: *Adəm, Nuh, İbrahim, Musa, İsa* və *Məhəmməd.*

**RƏY** – ***Quran və hədislərdə öz əksini tapmamış fiqhi məsələlər üzrə müctəhidin şəriətə uyğun olan öz fikrindən irəli gələn hökmdür.*** Qaydaya görə rəylə verilən hökmlər *İslamın* ümumi ruhunu əks etdirməli, dərin araşdırmaların nəticəsi olaraq verilməlidirlər. İslamın əsaslarına zidd olan və dərin araşdırmaların nəticəsi olmayan hökmlərin rəylə irəli sürülməsi bəyənilmir. İslam tarixinin ilk əsrlərində ənənəçilər rəyə şübhə ilə yanaşmışdırlar. Ancaq bəzi hallarda *fiqhi* məsələlərdə onu *qiyas* mənasında işlədirdilər.

İslamın ilk əsrlərindən etibarən rəyi daha çox İraq məktəbinin ilahiyyatçıları tətbiq edirdilər. Bu məktəb Kufədə yerləşmişdir. Hicaz məktəbinin ilahiyyatçıları isə iraqlıların metodlarına qarşı çıxmışdırlar.

İraq məktəbinin yaradıcısı *Məhəmməd peyğəmbərin* tanınmış səhabəsi *Abdullah ibn Məsud* sayılır. Xəlifə *Əli ibn Əbu Talib* Kufəni paytaxt elan etdikdən sonra bu şəhər Xilafətin böyük mədəniyyət mərkəzinə çevrilmişdir. *Əməvilər* hakimiyyətə gəldikdən sonra paytaxt Dəməşqə köçürülmüşdür. Kufənin əhəmiyyətinin azalmasına baxmayaraq İraq hüquq məktəbi yenə də fəaliyyət göstərmişdir. Müsəlman dünyasının bir çox böyük *fəqihləri* bu məktəbin ardıcılları olmuşdurlar. Onlar arasında *Əbu Hənifə* və onun müəllimi Həmmad ibn Əbu Süleyman olmuşdur. Onlar bir çox *hədislərə* şübhə ilə yanaşdığından rəyə üstünlük vermişdilər. Bu da onların bir çox hədislərin zəif olduğunu yaxşı bildiklərindən irəli gəlirdi. Buna görə *qiyas* və *istihsan* kimi başqa *ictihad* metodlarını bəzi hədislərdən üstün tuturdular. Sonralar isə rəyi Hicaz və başqa müsəlman məktəbləri tətbiq etmiş və bu gün də etməkdədirlər.

**RİBA** – ***hər hansı bir mala və ya pula qoyulmuş faiz ya da o maldan alınan və həqiqi dəyərinə uyğun olmayan gəlirdir.*** Bu elə bir gəlirdir ki, insan onu zəhmət çəkmədən qazanmış olur. Məsələn, 1 kiloqram gümüşdən 1,5 kiloqram gümüşün gəliri əldə edilirsə bu əməliyyat riba sayılır. Belə əməliyyatlar, eləcə də pulun artıma (faizə) verilməsi *şəriətdə* haram və çox ağır *günah* hesab edilir (Quran, 2: 275, 2: 278-279, 3: 130).

**RİBAT** – ***müsəlman ölkələrinin qeyri-müsəlman ölkələrlə sərhədlərində qurulmuş keşikçi məntəqələri idi.*** Bu kimi yerlərdə ilk sufi toplantıları keçirilirdi. Döyüşçülər isə burada mənəvi təcrübə qazanırdılar. İlk ribatı 150/767-ci ildə *Həsən Bəsrinin* tələbəsi olmuş Əbdül-Bir ibn Zeyd Əbədanda qurmuşdur. Başqa rəvayətlərə görə isə ilk ribat hicrətin ikinci əsrinin sonunda Dəməşqin yaxınlığında yerləşən Rəmlədə qurulmuşdur.

Sonralar ribatlarda həm hərbi, həm də mənəvi tərbiyə almaq üçün toplanmaq adəti İslam dünyasının başqa yerlərinə də yayılmışdır. Deyilənlərə görə təkcə İranda 65 ribat olmuşdur. Sərhəd qalalarında tərbiyyə edilmiş sufilər, günlərini təkcə *Allaha* ibadətlərdə keçirməmiş, həm də yaxşı döyüşçü olmuşdurlar. Onlar müsəlman torpaqlarını yabançıların basqınlarından qoruyurdular. *Fələstin*, Anadolu və İspaniyada ribat əhli xaçlılar, Hindistanda isə *bütpərəstlərlə* vuruşmuşdurlar. Əsrlər boyu bu ribatlar müsəlman cəmiyyətlərində əhəmiyyətli rol oynamışdırlar. Orada tədris mərkəzləri və kitabxanalar yerləşirdi. Bu məktəblərdən çoxlu sayda ilahiyyatçı alim və sufilər çıxmışdır. Ribatlarda ictimai və siyasi toplantılar keçirilirdi. Orada səfərdə olanlar üçün qonaq evləri, karvansaralar da yer almışdır. Ribatlarda xeyriyyəçilik işləri də görülürdü. Orada xəstəxanalar da fəaliyyət göstərirdi. Burada döyüşlərdə yaralananlar tibbi yardım alır, insanlar xəstəliklərdən müalicə olunurdular. Burada əqidələrinə görə təqib olunan adamlar da sığınacaq tapırdılar. Zaman keçdikcə ribatların əhəmiyyəti azalmış və sonra ortadan qalxmışdır.

**RİDDƏT (I)** – bax: **İRTİDAD.**

**RİDDƏT (II)** – ***ərəb qəbilələrinin Əbu Bəkrin başçılıq etdiyi Xilafətə qarşı üsyanlarıdır.*** Müsəlman tarixçi və ilahiyyatçılarının çoxu hesab edirlər ki, onlar *İslamdan* çıxmışdırlar. Digərlərinə görə isə onlar müsəlman idilər, ancaq *Əbu Bəkrin* xilafətini qəbul etmirdilər. Ərəb qəbilələrinin

üsyanı hələ *Məhəmməd* peyğəmbərin sağlığında başlamışdır. Yəməndə Əsvəd, Yəmmamədə *Müseylimə*, Nəcddə isə *Tüleyhə* özlərini *peyğəmbər* elan etmişdirlər. Ancaq müsəlmanlar onlara qalib gələ bilmişdirlər. Əbu Bəkr hakimiyyətə gəldikdə bir çox ərəb qəbilələri *zəkat* verməkdən imtina etmişdirlər. Bu məsələdə xəlifə öz prinsipiallığını ortaya qoymuş və onlara qarşı müharibəyə başlamışdır. Bu cür qətiyyətli addımı ilahiyyatçılar onun İslamın keşiyində durması ilə izah edirdilər. Çünki, zəkat İslam dinin əsaslarından biridir. Eyni zamanda, bu savaşların başlanması onunla əlaqəli idi ki, zəkat vergisinin ödənilməməsi Xilafətin büdcəsinə zərər vururdu. Beləliklə, xəlifə Əbu Bəkr zəkatı ödəməkdən boyun qaçıran qəbilələrə qarşı qoşun göndərdi. Onlar da qısa müddətdə ərəb qəbilələrini Xilafətə tabe etdirdilər. Bundan sonra Xilafət bütöv və güclü bir ölkəyə çevrilmişdir.

**RİFAİ ƏHMƏD İBN ƏLİ** – bax: **RİFAİLƏR.**

**RİFAİLƏR** – ***sufi təriqətlərindən birinin ardıcıllarıdırlar.*** *Təriqətin* adı Əhməd ibn Əli Rifai (578/1183-cü ildə vəfat etmişdir) ilə bağlıdır. O, İraqın cənubunda Bətaih bölgəsində yaşamış, *sufiliklə* əmisi Mənsur Bətaihinin vasitəsi ilə tanış olmuşdur. *Şeyxi* isə tanınmış sufi Əli Vasiti olmuşdur. Əhməd Rifai bir çox əsərlər yazmışdır. O,Vasitidə vəfat etmiş, orada da torpağa tapşırılmışdır.

Rifai təriqəti ən qədim sufi təriqətlərindən biridir. Onları əhmədilər və bətaihilər də adlandırırlar. Rifailik bir çox müsəlman ölkələrində geniş yayılmışdır. Onlar Yaxın Şərq, *Misir*, Anadolu və Balkanlarda fəaliyyət göstərirdilər.

Rifailərin mənəvi təcrübələrinin əsasında insanın öz qüsurları və *nəfsi* ilə mübarizə aparma ideyası durur. Rifailərdə qırx gün davam edən xəlvətə çəkilmə ənənəsi mövcud idi. Eləcə də, onların *Məhərrəm* ayında yeddi gün sürən "məhərrəmiyyə" adlanan xəlvətə çəkilmə *adəti* də vardır. Bu zaman rifailər qadınları ilə yaşamır, tərkibində ət olan yeməkləri yemir və *oruc* tuturdular. Onlar tərki-dünya olub təklikdə və səssizlikdə ibadətlərini yerinə yetirirdilər.

Rifailər qara çalmalarda gəzirdilər. Toplantılarında xalçaların üstündə əyləşib qavalların müşayiəti ilə ucadan *zikrlər* oxuyurdular. Tarixçilər yazırdılar ki, bunu edərkən onlara od toxunsa belə onun yanqısını duymurdular, hətta odu belə uda bilirdilər. Rifailər şüşə yeyib ilanlarla oynamağı bacarırdılar. Rifailikdə birlik olmamış, onlar bir çox təriqətlərə bölünmüşdürlər.

**RİZA MƏHƏMMƏD RƏŞİD** (1281/1865 – 1354/1935) – ***Məhəmməd Əbduhun davamçısı, müsəlman islahatçısı və Misrin ictimai-siyasi xadimi olmuşdur.*** Əsli Liviyadan olmuş Riza 1898-ci ildə *Misirə* gəlib Qahirədə tanınmış "Əl-Mənar" (Mayak) jurnalında çalışmışdır. Rəşid Rıza, *Cəmaləddin Əfqanini* və *Məhəmməd Əbdunun* fikirlərini inkişaf etdirmiş, Qərb müstəmləkəçiliyinə qarşı çıxmış, Xilafətin bərpa olunmasının tərəfdarı kimi tanınmışdır. 1340/1922-ci ildə Riza "Xilafət və ya böyük imamət" yazınını yayımlamışdır. Orada o, Xilafətin prinsiplərini açıqlamış, xəlifənin seçilməsi ideyasını irəli sürmüşdür. Rizaya görə *xəlifə* ölkəsini qorumalı, ölkədə şəriət qanunlarının işləməsini təmin etməlidir. Xilafətin krallığa çevrilməməsi üçün xəlifə özəl bir qurum qarşısında sorumlu olmalıdır. Ölkə başçısı şəriət qanunlarını pozarsa, bu qurum onu vəzifəsindən çıxara bilər.

1342/1924-cü ildə Türkiyədə respublikaçılar *Osmanlı* xilafətinə son qoyduqdan sonra M.R. Riza Xilafətin dirçəldilməsi istəklərinin reallaşmayacağını anlamışdır. Buna görə o, öz fikirlərinə dəyişikliklər et-

məli oldu. Xilafətin alternativi kimi "*İslam* ölkəsi" ideyasını səsləndirdi. Bu ideya müasir zamanımızda həyata keçmişdir. Pakistan, İran kimi ölkələrdə İslam dövlətləri yaranmışdır. Bundan başqa bu ideyalar müxtəlif müsəlman icmaları tərəfindən çox bəyənilmişdir. M.R. Riza bir çox kitabların müəllifi olmuşdur. O, *təfsirə* aid bir kitab yazmışdır. Onun əsərlərinin çoxu məqalələr kimi "Əl-Mənar" jurnalında çap olunmuşdur.

**RUH** – ***mahiyyəti insan üçün tam bilinməyən, bədənə həyat verən cöhvərdir.*** *Qurana* görə *Allah* insanlara ruh haqqında çox az bilgi vermişdir (17: 85). Buna görə də ruhun mahiyyətini dərk etmək cəhdləri şəriətdə bəyənilmir. *İslam* əqidəsinə görə insan öldükdə ruh bədəni tərk edir və o *bərzəxə* yüksəlir. *Qiyamət* günü isə ruhlar təkrar bədənlərinə qayıdacaqdır.

**RUHÜL-QÜDS** – ***Quranda (2: 87) anılmış Cəbrailin adlarından biridir.*** Bundan başqa Allahın *İsa* peyğəmbərə verdiyi qüvvə, onun gətirdiyi müqəddəs kitab, Xristian *təslisinin* üçüncü elementi də müqəddəs *ruh* adlandırılır.

**RUQİYYƏ BİNT MƏHƏMMƏD** (2/624-cü ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin Xədicə ilə evliliyindən doğulan qızlarından biridir.*** Rəvayətlərə görə *Məhəmmədin* peyğəmbərliyindən qabaq Ruqiyyə *İslam* düşməni *Əbu Ləhəbin* oğlu Ütbə ilə nişanlanmışdır. Ancaq, Məhəmmədin *peyğəmbərliyi* başladıqdan sonra nişan geri qaytarılmışdır. Bundan sonra Məhəmməd peyğəmbər Ruqiyyəni *Osman ibn Əffanla* evləndirmişdir. Ruqiyyə əri ilə birlikdə inanclarına görə təqib olunub *Həbəşistana hicrət* edənlərdən biri idi. Orada onun Abdullah adlı oğlu doğulmuşdur. Ancaq o, altı yaşında vəfat etmişdir. Sonra Ruqiyyə başqa müsəlmanlarla birlikdə *Məkkəyə* qayıtmış və *Mədinəyə hicrət* etmişdir. *Bədr* döyüşündən öncə o, ağır xəstələnmiş, az sonra isə vəfat etmişdir. Ruqiyyə Məscidün-Nəbəvinin yaxınlığında yerləşən Bəqi *məzarlığında* dəfn edilmişdir.

**RUMİ MÖVLANƏ CƏLALƏDDİN** – bax: **MÖVLƏVİLƏR.**

**RÜXSƏT** – ***fiqhdə dini vəzifələrin yüngülləşdirilmiş formada icra edilməsidir.*** İlahiyyatçılara görə dini vəzifələrin icra edilməsində yüngülləşdirici yollar ola bilər. Çətin yol dində olan bütün *vacib* və *müstəhəb* əməllərin yerinə yetirilməsidir. Ancaq müəyyən səbəblər üzündən çətin yolun yerinə yetirilməsi mümkün olmasa, onda yüngülləşdirici yola icazə verilir.

Rüxsətin nümunəsi kimi səfərdə olan adamın *oruc* tutmamasına və *namazları* qısaldılmış şəkildə qılmasına icazə verilməsini göstərmək olar. Başqa örnək donuz ətinə münasibətdədir. Ümumiyyətlə, donuz ətinin yeyilməsi müsəlmanlara *haramdır*. Ancaq acından ölmə təhlükəsi olarsa, onda sağ qalmaq üçün az miqdarda donuz ətini yemək mümkündür.

**RÜKƏT** – ***namazda qiyam, rüku və iki səcdəni əhatə edən ibadət halıdır.*** O zaman *Quran ayələri* və başqa *dualar* oxunur. Bütün *namazlar* rükətlərdən ibarətdir. *Vacib* olan *sübh namazında* iki, *zöhr* və *işa* namazlarında dörd, məğrib namazında isə üç rükət namaz qılınır. *Nafilə* namazlarında isə rükətlərin sayı fərqlidir.

**RÜKN** – ***ibadətlərin əsasları belə adlanır.*** Məsələn, *namazın* rüknləri *qiyamda* durmaq, *rükuya* getmək və iki dəfə *səcdə* etmək, sonuncu *rükətin* sonunda oturub *təşəhhüd* duasını oxumaqdır. Orucun rüknü səhər açılandan axşama qədər qidanın qəbul edilməməsindədir. Rüknlər icra edilməsə

istənilən ibadət pozulmuş olur. Rüknlərə daxil olmayan rituallar isə ibadəti pozmur. Məsələn, namazda təsadüfən *vacib* olmayan duanın oxunmamaması ibadəti pozmaz.

**RÜKU** – ***ayaq üstündə edilən təzimdir.*** Namazın *rüknlərindən* biridir (*Quran*, 2: 43). Qiyamdan sonra icra edilir. *Rükuda* əllər diz qapaqlarının üstünü qoyulmalı, bədən düz vəziyyətdə olmalıdır. *İslamda* rüku yalnız *Allaha* edilir.

**RÜŞVƏT** – ***müəyyən bir işin görülməsi üçün yüksək vəzifəli şəxsə verilən və onun tərəfindən qəbul edilən pul və ya hədiyyələrdir.*** Rüşvət *şəriətdə haram* əməl sayılır, belə ki rüşvəti verən də, alan da *günah* qazanır. Rüşvətin verilməsi ilə alınmasına vasitəçi olmaq da haramdır. Bunu da ilahiyyatçılar *Quranın* 2: 188 ayəsi ilə əlaqələndirirlər. Rüşvət vəzifə tutmaq, müəyyən işləri düzəltmək, məhkəmə və ya digər qurumların hökmlərini öz xeyrinə dəyişdirilmək üçün verilir. Ancaq, ədalətsiz cəmiyyətlərdə müsəlmanlar canını və malını qorumaq üçün bəzən rüşvət verməyə məcbur olurlar. İlahiyyatçıları görə bu hallarda onlar deyil, onları bu işə zorlayan kəslər günah qazanırlar.

# S

**SABİİLƏR** – ***mələk və ulduzlara tapınan Mesapatomiyada məskunlaşmış qədim xalq olmuşdurlar.*** Onlar haqqında *Quranda* məlumat yer almaqdadır (22: 17). *Sabiilərin* hansı inancda olduqları sualına ilahiyyatçılar birmənalı cavab vermirlər. Onlardan bəziləri hesab edirdilər ki, onların inancı Xristianlığın, Yəhudiliyin, Zərdüştiliyin, eləcə də başqa dinlərin sinkretik qarışığından ibarət olmuşdur. Digərlərinə görə sabiilər *mələklərə* və ulduzlara tapınırdılar. Sabiiləri *Allahın* bütün *peyğəmbərlərinə* iman gətirən və *Zəbur* kitabını oxuyan *əhli-kitab* hesab edənlər də olmuşdur. Ancaq başqa ilahiyyatçılar onları *bütpərəst* adlandırmışdırlar. İlahiyyatçıların fikrincə sabiiliyin əlamətləri *Misir*, Yaxın Şərq, İran və Hindistan dinlərində də olmuşdur. Qədim yunan və roman inanc və mədəniyyətinə sabiiliyin güclü təsiri olmuşdur. Sonralar sabiilərin inancına müxtəlif fəlsəfi, mistik, eləcə də qnostik elementlər daxil olmuşdur.

**SAHV** – ***sufilikdə mənəvi yolçuluğu ayıq olaraq, sağlam düşüncəni itirməyərək və vəcd halına düşmədən həyata keçirməkdir.*** Sahv *sukr* adlanan mənəvi yolu sərxoş halda gedilməsinə qarşı qoyulan təcrübədir. Onu ilk dəfə məşhur sufi Cüneyd Bağdadi təcrübədən keçirərək *təsəvvüf* ədəbiyyatına daxil etmişdir.

**SAİBƏ** – ***müəyyən bir məqsəd üçün bütlərə adanan, İslam öncəsi ərəblərin hörmət bəslədikləri dişi dəvədir.*** Həmin *niyyət* həyata keçən kimi o dəvəni bütün işlərdən azad edib sərbəst buraxar, ətini və südünü yeməzdilər. Bu dəvə biri-birinin ardınca on erkək doğardısa, onda *bütpərəstlər* onun belinə minməzdilər. Bundan başqa bu dəvənin üstündə yük daşınmaz, yunu qırxılmaz, südü isə yalnız qonaqlara verilərdi.

**SALEH (I)** – ***Allahın Səmud qəbiləsinə göndərdiyi peyğəmbər olmuşdur.*** O, *Nuh* peyğəmbərin oğlu Samın soyundan idi. *Qurana* görə *Allah* günahlara batmış *Ad* qəbiləsini məhv etmişdir. Onlardan bəzi inanclı insanlar xilas olaraq başqa yerlərə köçmüşdürlər. *Səmud* xalqı da onlardan törəmişdir. Rəvayətlərə görə səmudlular Hicr adlı bir yerdə yaşayırdılar. O yer ola bilsin ki, Suriya ilə Hicaz arasında olmuşdur. Burada onlar sayca artmış və güclənmişdirlər. Onlar

çox çalışmış, əkinçilik işlərini görərək gözəl bağlar salmışdırlar. Səmudlular dağlarda yaraşıqlı evlər də tikmişdilər. Ancaq zaman keçdikcə, bu xalq Allaha şərik qoşmuş, bütlərə tapınmağa başlamışdırlar (Quran, 7: 73-74).

Saleh də səmudlu idi, möminliyi ilə seçilirdi. Qırxa yaxın yaşı olduqda Allah onu *peyğəmbər* seçmişdir. Bundan sonra Saleh xalqını Allaha inanmağa, *bütpərəstlikdən* çəkinməyə çağırmışdır (Quran, 11: 61). Ancaq səmudlulardan az hissəsi ona inanmışdır. Onların çoxu Salehi cadugər və yalançı adlandırdılar (Quran, 11: 62). Buna baxmayaraq Saleh dinə dəvətini davam etdirmişdir. O, öz xalqını cəzalanacaqları ilə qorxudurdu. Ancaq, bu da bir nəticə verməmişdir. Onda Allah bu səmudluları quraqlıqla cəzalandırmışdır. Onların bütün məhsulu məhv olmuşdur.

Bunu görən səmudlular bu fəlakətin baş verməsində Salehi günahlandırıb, onu öldürəcəkləri ilə hədələmişdirlər. Sonra insanlar bir qayanı göstərərək onun dəvəyə çevrilməsini istədilər. Saleh onlara bu möcüzəni göstərmiş və qaya dəvəyə çevrilmişdir (Quran, 26: 154-155). Bunu görən bəzi səmudlular imana gəlmişdirlər. Ancaq onların çoxu sonra o dəvəni öldürüb, Salehdən isə vəd etdiyi fəlakətlərin reallaşmasını istəmişdirlər (Quran, 7: 77). O zaman Allah Salehə başqa *möminlərlə* birlikdə o məntəqədən çıxmaq əmrini vermişdir. Onlar məntəqədən çıxdıqdan sonra Allah səmudluları məhv etmişdir (Quran, 11: 66-68). Saleh imana gəlmiş samudlularla Suriyaya gedib, həyatının sonuna kimi orada yaşamışdır. Başqa bir rəvayətə görə o, Məkkədə və ya Hədrəməutda məskunlaşmışdır.

**SALEH (II)** – ***Allahın rizasını qazanmaq üçün dünya həyatının keçici dəyərlərinə əhəmiyyət verməyən, şəriət qaydalarına uyğun olaraq yaşayan, əməlləri ilə hamıya nümunə olan müsəlmandır.*** Belə insanlara xalq arasında "əməli saleh adam" deyirlər. Əməli-saheh olmaq müsəlmançılığın ən əsas tələblərindən biridir. Çünki, müsəlman hərəkət və davranışlarında doğru olmalıdır.

**SAMİRİ** – ***rəvayətlərə görə Musa peyğəmbərin zamanında İsrail oğullarını qızıl buzov bütünə ibadət etməyə təhrik edən bir adam olmuşdur.*** *Musa* Allahla ünsiyyət qurmaq üçün *Tur dağına* getdikdən sonra o, israilliləri zinət əşyalarından qızıl *buzov bütü* düzəltməyə və ona tapınmağa çağırmışdır. *Musa peyğəmbər* geri qayıtdıqdan sonra xalqına qəzəblənmiş, Samirini isə lənətləyərək qovmuşdur. Başqa rəvayətlərə görə Samiri bu əməlinə görə öldürülmüşdür.

**SAVAB** – bax: **MÜSTƏHƏB.**

**SEYİDLƏR** – ***Məhəmməd peyğəmbərin nəvəsi Hüseynin soyundan gələn əhli-beyt nümayəndələri belə adlanırlar.*** Onlara müsəlman dünyasının hər yerində hörmət və sayğı bəslənilir. Tarixdən isə bəzi *Əməvi* və *Abbasi* xəlifələrinin *seyidləri* siyasi zəmində təqib etmələri bilinməkdədir. *Fatimi* və *Osmanlı* xilafətində seyidlərə qayğı göstərilmiş, onların işlərini aparan dövlət qurumları yaradılmışdır. *Şiələrin* arasında seyidlərə daha da çox ehtiram və sayğı göstərilir.

**SƏBAİLƏR** – ***Əli ibn Əbu Talibi tanrılaşdırmış ilk firqələrdən birinin ardıcılları olmuşdurlar.*** Bu firqənin yaradıcısı Abdullah ibn Səba olmuşdur. Müsəlman tarixçilərinə görə o, *İslamı* qəbul etdiyini bəyan etsə də, əslində yəhudi idi. Müsəlmanlar onu Xilafətdəki ilk qarşıdurmaların səbəbkarı kimi təqdim etmişdirlər. Bu qarşıdurmaların nəticəsində xəlifə *Osman* öldürülmüşdür.

Rəvayətlərə görə Abdullah ibn Səba *Əli ibn Əbu Talibi* hamıdan üstün bir insan elan etmiş, onun xeyrinə təbliğat aparmışdır. O,

yalnız Əlini *Məhəmməd* peyğəmbərin qanuni varisi hesab edirdi. Abdullah ibn Səbaya görə, *Tövratda* peyğəmbərlərin yaxın yardımçıları olduğu kimi, Əli də Məhəmməd *peyğəmbərin* yardımçısı olmuşdur. Daha sonra, Abdullah ibn Səba daha da irəliləyərək Əlinin yer üzündə *Allahın* təcəllisi olduğunu elan etmişdir. Əlinin vəfatından sonra onun ölmədiyini, *İsa* kimi *qeybə* çəkildiyini iddia etmişdir. O, Əlinin yerinə başqa bir adamın öldürüldüyünü, onun özünün isə yer üzünə qayıdıb ədaləti yenidən bərpa edəcəyini də söyləmişdir.

**SƏBR** – ***dözümlülük, dini vəzifələrin icra edilməsində dayanıqlı olmaq, haram olan şeylərdən, eləcə də həyatda baş vermiş uğursuzluq və bədbəxtliklər üzündən inancını itirməməkdir.*** *Quranın* 46-cı surəsinin 35-ci ayəsinə uyğun olaraq müsəlmanlar dözümlü olub, həyatın bütün ağırlıqlarına sinə gəlməlidirlər. Yalnız dözümlü olanlar bu dünyada və *axirətdə* uğur əldə edib *Allahın* rəhmətini qazana bilərlər. *Hədislərdə* Məhəmməd *peyğəmbər* səbrin dinin yarısı olduğunu qeyd etmişdir. İlahiyyatçılara görə insandan asılı olan və olmayan bütün durumlarda səbri sərgiləmək lazımdır.

**SƏCCAH** – ***Ərəbistanda özünü peyğəmbər elan etmiş qadın olmuşdur.*** O, Təmim qəbiləsindən idi. Səccah uzun müddət Ərəbistanın şimalında Təqlib qəbiləsində yaşamışdır. Bu qadın özünü hələ *Məhəmməd* peyğəmbər sağ olarkən *peyğəmbər* elan etmişdir. Sonra o, öz qəbiləsinə qayıdaraq onların başçısı olmuşdur. Bundan sonra təmimlilərin yaraqlı dəstələri qonşu qəbilələrə hücum etməyə başlamışdırlar. Onlar 12/633-cü ildə Yəmmaməyə girmiş, orada olan başqa bir yalançı peyğəmbər *Müseylimə* ilə anlaşmışdırlar. Səccah ona ərə də getmişdir. Ancaq, onların cəmi üç gün birlikdə yaşamaları barəsində rəvayət vardır. Rəvayətlərə görə *İslam* ordusu yalançı peyğəmbərlərə qarşı savaşa başladıqdan sonra Səccah *tövbə* edərək İslamı qəbul etmişdir.

**SƏCDƏ** – ***Allaha ibadət edərkən Onun böyüklüyü qarşısında dizə çökərək alını yerə qoymaqdır.*** Namazın *rüknlərindən* biridir (*Quran*, 22: 77), hər *rükətdə rükudan* sonra iki dəfə icra edilir. Quranda bütün kainatın Allaha səcdə etdiyi göstərilir (Quran, 22: 18). Müsəlmanlar yalnız Allaha səcdə etməlidirlər. Başqa varlıqlara səcdə etmək *haramdır*.

Səcdə zamanı üzü *qibləyə* duran müsəlmanın alını, hər iki əlin içi, dizlər, ayağın baş barmaqları eləcə də, bəzi *məzhəblərə* görə burun və dirsəklər yerə toxunmalıdır. Bu zaman sinəni yerə qoymaq olmaz. Səcdə halında olarkən *dualar* oxunur. Səcdənin torpağa edilməsi tövsiyə edilir. Ancaq bir çox məzhəblərdə alının döşəməyə, xalçanın üstünə qoyulmasına da yol verilir. Əgər seçim yoxdursa, istənilən bir materialın üstünə alın qoyula bilər. *Şiələr* səcdədə alınlarını yalnız torpağın, daşın və ya bunlardan düzəldilmiş şeylərin üzərinə qoyurlar. Adətən bunun üçün möhür adlanan daşlar hazırlanır.

**SƏCDƏYİ-SƏHV** – ***namaz qılan müsəlmanın ibadət vaxtı yol verdiyi səhfə görə icra etdiyi əlavə səcdədir.*** Bu *səcdələri namazı* bitirdikdən sonra yerinə yetirirlər. Ancaq səhv namazın *rüknlərində* olubsa və ya namazda çoxlu yanlışlıq edilibsə o zaman namaz yenidən qılınır.

**SƏD İBN ƏBU VƏQQAS** (55/675-ci ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin ən yaxın səhabələrindən biri, ordu sərkərdəsi və Xilafətin yüksək məmurlarından biri olmuşdur.*** O, *İslamı* ilk qəbul edənlərdən hesab edilir. Bütün müsəlmanlar kimi o da, ağır təqiblərə uğramış, *Mədinəyə hicrət* etmişdir. Orada o, müsəlman icmasının qu-

ruculuq işlərinə qatılmış; *Bədr, Uhud, Xəndək və* başqa döyüşlərdə iştirak etmişdir.

*Əbu Bəkr* və *Ömərin* xəlifəlikləri zamanı Səd ibn Əbu Vəqqas Bizans və İrana qarşı vuruşan İslam ordusunun komandanı olmuşdur. Onun başçılığı altında iranlılar Qadisiyyə döyüşündə ağır məğlubiyyətə uğramışdırlar. Xəlifə *Ömərin* vəfatından sonra Səd Əbu ibn Vəqqas da xəlifəliyə namizədlərdən biri olmuşdur. Ancaq, *Osman ibn Əffan* xəlifə seçilmişdir. Osmanın hakimiyyəti zamanı Səd Kufə valisi olmuşdur.

**SƏD İBN ÜBƏDƏ** (14/635-ci ildə vəfat etmişdir) – ***Mədinənin Xəzrəc qəbiləsinin başçılarından biri, Məhəmməd peyğəmbərin səhabəsi və siyasət adamı olmuşdur.*** O, ikinci *Əqəbə beyəti* zamanı *İslamı* qəbul etmiş, Məhəmməd *peyğəmbərin* Məkkədən *Mədinəyə hicrət* etməsini istəyənlərdən biri olmuşdur. Bunu bilən qüreyşlilər onu izləyərək Məkkəyə gətirmiş, ona işgəncələr vermişdirlər. Bundan sonra o, azadlığa buraxılmışdır. Səd zəngin bir insan idi, bütün varını müsəlmanlar üçün xərcləmişdir. Müsəlmanlar Mədinəyə hicrət etdikdən sonra, Səd ibn Übədə *Bədr, Uhud, Xəndək* və Xeybər döyüşlərində iştirak etmişdir. Məkkənin fəth edilməsi zamanı ənsarların bayraqdarı olmuşdur.

*Məhəmməd* peyğəmbərin vəfatından sonra ənsarlar Səid oğullarının toplantı yerində Səd ibn Ubədəni *xəlifə* seçmişdirlər. Ancaq o, fikrini dəyişərək *Əbu Bəkri* xəlifə seçmişdir. Bundan sonra Səd ibn Übədə Suriyaya getmiş, hicrətin 14-cü ilində orada vəfat etmişdir.

**SƏDƏQƏ** – ***zəngin insanların Allah rızasını qazanmaq məqsədi ilə yoxsullara ayırdıqları paydır.*** Sədəqə *vacib* və *müstəhəb* ola bilər. *Zəkatın* bütün növləri və *xüms* vacibdir, bu barədə *Quranda ayələr* vardır (2: 43, 9: 103). *Ramazan* ayının sonunda verilən *fitrə zəkatı* da vacibdir. Bundan başqa hər bir insan öz malından və ya pulundan müəyyən miqdar yoxsullara verirsə, *Allah* qarşısında *savab* qazanmış olar. Bu barədə çoxlu *hədislər* vardır. Eyni zamanda, bu adət halını alırsa, o zaman insanlar arasında mehribançılıq artır, sosial problemlərin yaratdığı gərginlik ortadan qalxar. Qurana (2: 271) görə ən çox bəyənilən gizli sədəqədir. Sədəqənin gizli verilməsi daha da yaxşıdır. Belə olduğu təqdirdə sədəqəni verənin kimliyi bilinmir, bu isə Allah tərəfindən rəğbətlə qarşılanır.

**SƏFA VƏ MƏRVA** – *Məkkədə yerləşən iki təpənin adlarıdır.* Səfa və Mərva təpələri arasında yürümək böyük və kiçik *həccin* ayinlərindən biridir. Bu barədə *Quranda* (2: 158) ayədə vardır.

**SƏFƏVİLƏR** – bax: **QIZILBAŞLAR.**

**SƏFİYYƏ BİNT HÜYEY** (50/670-ci ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin həyat yoldaşlarından biri olmuşdur.*** Bəzi mənbələrdə onun kənizi olduğu qeyd edilir. Onun atası Mədinənin Nadir adlı yəhudi qəbiləsinin başçısı Hüyey ibn Əhtab olmuşdur. Müsəlman mənbələrinə görə o, *Uhud* döyüşündən sonra *bütpərəstlər* və *münafiqlərlə (I)* anlaşaraq müsəlmanlara qarşı təxribat hazırlamaq *niyyətində* olmuşdur. Bununla yanaşı nadirlilər *Məhəmməd* peyğəmbərə qarşı qəsd də hazırlamışdırlar.

Buna görə 4/625-ci ildə nadirlilərlə müsəlmanlar arasında müsəlmanların üstünlüyü ilə nəticələnən qarşıdurma baş vermişdir. Bundan sonra nadirlilər *Mədinədən* çıxmağa məcbur qalmışdırlar. Məhəmməd *peyğəmbər* də onlara apara biləcəkləri əmlakları özləri ilə birlikdə aparmalarına icazə vermişdir.

Bundan sonra *yəhudilərin* çoxu Hüyey

ibn Əhtabla Xeybər qalasına sığınmışdırlar. Orada yəhudilər Qətəfan qəbiləsi ilə anlaşmaya girərərək Mədinəyə basqın etmək qərarına gəlmişdirlər. Ancaq, Məhəmməd peyğəmbərin hicrətin 6-cı ilində *Hüdeybiyyədə* qüreyşlilərlə sülh anlaşmasını bağlaması müsəlmanlara qarşı yönələn bu basqının qarşısını almaq imkanını verdi.

Xeybərə yürüşə çıxmış müsəlman qoşunu yəhudilərin bütün qalalarını ələ keçirdilər. Döyüşlərdə Səfiyyənin atası, qardaşı və əri öldürülmüşdür. Onun özü isə əsir düşmüş, Məhəmməd peyğəmbərə kəniz olaraq verilmişdir. Bəzi mənbələrə görə Məhəmməd peyğəmbər Səfiyyəni azad etmiş və onunla evlənmişdir. Səfiyyənin adından rəvayət edilən bir çox *hədislər* hədis toplularında yer almışdır. O, Mədinədə vəfat etmişdir.

**SƏHABƏLƏR** – ***İslamı qəbul etmiş, Məhəmməd peyğəmbəri görmüş, onu dinləmiş ardıcılları, tərəfdarları və yaxınlarıdır.*** *İslamda* səhabə sayılmaq üçün onların həyatlarının sonuna kimi müsəlman qalmaları *şərti* vardır. Reyğəmbəri görmüş və İslamı qəbul etmiş, daha sonra dini etiqadından dönən, başqa inancları dini etiqad kimi seçən insanlar səhabə hesab edilmirlər. Ancaq onlardan kimsə inancından döndükdən sonra, yenə də təkrar İslama qayıtmışdırsa səhabə sayılmışdırlar. Peyğəmbərin *əhli-beyti*, eləcə də onunla görüşmüş uşaqlar da səhabələr hesab edilirlər. *Məhəmmədin* peyğəmbərliyindən öncə onunla görüşənlər, ancaq sonra onu görməyənlər səhabə sayılmırlar. *Peyğəmbərlə* görüşmüş, İslamı isə yalnız onun vəfatından sonra qəbul etmiş müsəlmanlar da səhabə deyildirlər.

Məhəmməd peyğəmbərin ilk səhabəsi onun həyat yoldaşı *Xədicə*, sonuncusu isə 100/729-cu ildə vəfat edən Əbu Tufeyl Əmir Vasil oğlu Leysi Kinani olmuşdur. Bəzi rəvayətlərə görə Məhəmməd peyğəmbərin vəfatına qədər onun səhabələrinin sayı 114000 nəfərə çatmışdır.

İslam dininin bütün sahələrinin düzgün anlaşılması üçün Məhəmməd peyğəmbərin, onun əhli-beytinin və səhabələrinin həyatlarını yaxşı bilmək vacibdir. Buna görə İslam tarixçiləri əsərlərində onların həyatlarının bütün tərəflərini işıqlandırmışdırlar. Onların kitablarında əlifba düzülüşü ilə peyğəmbərin 10000-ə yaxın səhabəsinin həyatları qələmə alınmışdır.

Səhabələrdən bəziləri peyğəmbərə daha yaxın olmuş, İslamın inkişaf etməsində böyük işlər görmüşdürlər. Digərlərinin isə o qədər də böyük fəaliyyəti olmamışdır. Bilik baxımından səhabələrin arasında böyük fərqlər olmuşdur. Məhəmməd peyğəmbərə ən yaxın olan səhabələr digərlərindən fərqləndirilir. Onları *Əshabül-Kiram* adlandırırlar. Onlar İslamın inkişafı üçün böyük işlər görmüş, Məhəmməd peyğəmbərə yardım edərək İslam idealları uğrunda varlarını, həyatlarını da qurban etmişdirlər. Müsəlmanlar onlara qarşı böyük sevgi bəsləyirdilər. Bir çox alimlərə görə peyğəmbərin səhabələri doğru və inanclı insanlar olmuşdurlar. Kitablarda onların hər birinin adları anılandan sonra, "Allah onlardan razı olsun" sözləri qeyd edilir. *Quran* (9: 100, 48: 18) və *hədislərdə* səhabələr haqqında fikirlər mövcuddur.

Məhəmməd peyğəmbərin səhabələri onun irsinin qoruyucuları, eləcə də davamçıları olmuşdurlar. Onların səyləri nəticəsində erkən İslam tarixi, peyğəmbərin həyatı, onun hədisləri günümüzə gəlib çatmışdır.

Xilafətin genişlənməsindən sonra səhabələr Ərəbistandan dörd bir tərəfə yayılaraq İslamın təbliğinə başlamışdırlar. Orada onlar yerli xalqları İslamın əsasları ilə tanış etmiş, Quranın təcvidi, eləcə də *təfsirini* öyrətmiş, peyğəmbərin həyatı haqqında onlara məlumatlar vermişdirlər. Aralarında ən bilikli olanlar isə Xilafətin müxtəlif mədəni

mərkəzlərində *fiqhi*, etiqadi *məzhəblərin* əsaslarını qoymuşdurlar. Bununla da, səhabələr İslamın dünya dininə çevrilməsində böyük rol oynamışdırlar.

**SƏHİH HƏDİSLƏR** – ***etibarlı və şübhə doğurmayan ravilərin vasitəsi ilə rəvayət edilmiş hədislərdir.*** Bu kimi hədislərin *raviləri* inanc və əxlaqları ilə seçilən ədalətli insanlar olmalıdırlar. Onlar dinə *bidət* gətirməməli, böyük *günahlara* yol verməməlidirlər. Bu *şərtlərdən* biri yerinə yetirilməzsə *hədis* etibarlı sayılmaz. Səhih hədisi rəvayət edən şəxsin yaxşı yaddaşı olmalıdır. Ravilər rəvayət etdikləri hər hansı bir hədisi müxtəlif vaxtlarda fərqli söyləmişdirlərsə onlar etibarlı şəxslər hesab edilmirlər.

Səhih hədislər üçün irəli sürülən bir başqa şərt də, onların ravilərinin eyni dövrdə yaşamalarının sübuta yetirilməsidir. Hər hansı bir ravinin söylədiyi hədis, digər ravilərin söylədikləri hədislərə zidd olmamalıdır. Hədisin yazısı və mənasında onun etibarlı olduğunu şübhə altına ala biləcək heç bir çatışmamazlıq olmamalıdır. Bu şərtlərə cavab verən hədislər *fiqhdə* və bəzi hallarda əqidə məsələlərində böyük əhəmiyyətə malikdirlər.

**SƏİD İBN CÜBEYR** (95/714-cü ildə vəfat etmişdir) – ***tabiundan olan hədis ravisi, tanınmış fiqh alimi və Quran təfsirçisi olmuşdur.*** Onun mömin insan olduğu haqqında məlumatlar vardır. Buna görə də o, *hədis* elmində etibarlı rəvayətçilərdən hesab edilir. Səid ibn Cübeyr öz dövrünün ən bilikli, eləcə də aydın adamlarından biri olmuşdur. O, Küfədə yaşamış, bir müddət şəhər başçısının yanında katiblik etmişdir. Hicrətin 95-ci ilində şəhər başçısı olmuş Həccaca qarşı üsyan edənlərlə birlikdə olduğuna görə öldürülmüşdür. Səid ibn Cübeyr *Məhəmməd peyğəmbərin* səhabələri ilə görüşmüş, onlardan hədislər rəvayət etmişdir. Ancaq onun adından söylənilmiş *zəif hədislər* də vardır. Buna baxmayaraq onun adı ilə bağlı hədislər məşhur hədis toplularında yer almışdır.

**SƏİD İBN MÜSEYYİB** (94/713-cü ildə vəfat etmişdir) – ***tabiundan olan ən tanınmış ravilərdən biri olmuşdur.*** Səidin əmisi və atası *Məhəmməd peyğəmbərin* səhabələri olmuşdurlar. O, *xəlifə* I Ömərin hakimiyyəti dövründə doğulmuşdur. Səid ibn Müseyyib erkən yaşlarından *hədislərə* böyük maraq göstərmiş və bütün həyatı boyu onları toplamış, bu məqsədlə Xilafətin müxtəlif bölgələrinə səfərlər etmişdir. O, dövrünün ən bilikli, savadlı insanlarından biri olmuşdur. O həm də, dövrünün *zahidlərindən* biri idi. Onun adından rəvayət edilmiş hədislər məşhur hədis toplularında yer almışdır.

**SƏİD İBN ZEYD** (51/671-ci ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuşdur.*** Onun atası Zeyd İbn Əmir *İslamdan* öncə *bütpərəstlikdən* dönərək yəhudi və xristianlıqla maraqlanmışdır. Buna baxmayaraq onların heç birini sona qədər bəyənmədiyinə görə həniflik adlanan ibrahimi təktanrıçılıq inancına üstünlük vermişdir. O, *bədəvi* ərəblərin basqısına uğrayaraq öldürülmüş, *Məhəmməd* peyğəmbərlə görüşə bilməmişdir.

Onun oğlu Səid ibn Zeyd isə İslam dini ilə tanış olmuş, onun atasından eşitdikləri hənifliyin prinsiplərinə uyğun olmasını təsdiq etmişdir. Buna görə də o, İslamı qəbul edərək müsəlmanların *Ərqəmin* evindəki yığıncaqlarına qatılmışdır.

Səid *Ömər ibn Xəttabın* bacısı ilə evlənmişdir. Ömər onları bir yerdə *Quran* oxuyarkən görmüş, buna görə bərk qəzəblənmişdir, ancaq az sonra özü də İslamı qəbul etmişdir.

Səid *Məkkədə* bütün müsəlmanlar kimi ağır təqiblərə məruz qalmış və bu səbəbdən də *Mədinəyə hicrət* etmişdir. Orada o, quruculuq işlərinə qatılmış, Bədr döyüşündən başqa bütün savaşlarda iştirak etmişdir. Məhəmməd *peyğəmbərin* vəfatından sonra isə Səid ibn Zeyd Xilafətin İran və Bizans imperiyalarına qarşı savaşlarında döyüşmüşdür. Onların hamısında xüsusən də, Yərmuk döyüşündə igidlik göstərmişdir. Müsəlmanlar Dəməşqi fəth etdikdən sonra bu şəhərin valisi olmuşdur.

**SƏLAT** – bax: **NAMAZ**.

**SƏLƏFİLİK** – ***Məhəmməd peyğəmbər və onun səhabələrinin, eləcə də onların davamçılarının yolu ilə getmək və bu insanları hər şeydə nümunə olaraq qəbul etməkdir***. Müsəlmanlar bir çox ölkələri ələ keçirdikdən sonra İslam dünya dininə çevrilməyə başlamışdır. Zaman keçdikcə dinə müxtəlif xalqların *adətləri*, eləcə də fəlsəfi məktəblər təsir edirdi. Bu da İslamda *təriqətçiliyin* artmasına yol açmışdır. Digər tərəfdən, sonrakı əsrlərdə ictimai həyat, ölkə quruculuğu, elmlər, *təfəkkür* getdikcə inkişaf edirdi. Zaman keçdikcə dinin bir çox müddəalarına yeni baxışlar formalaşmağa başlamışdır. Çünki, dəyişən dünyada ortaya çıxan yeni həqiqətlər dində də özünü göstərirdi. Bu şəraitdə Antik Yunan və Roma *fəlsəfəsinə* maraq artmış, Aristotel, Platon və digər filosofların əsərləri ərəb dilinə tərcümə edilmişdir. Onların metodoloji və fəlsəfi prinsipləri İslam metodologiyasına da daxil edilmişdir.

İlkin dini saflığın qorunmasını istəyənlər isə bütün bu proseslərə qarşı çıxmışdırlar. Onlara görə bu meyllər İslamın əsaslarının unudulmasına, dinə *bidətlərin* gətirilməsinə gətirib çıxarırdı. Beləliklə, hicrətin dördüncü əsrində *Məhəmməd* peyğəmbərin, eləcə də müsəlmanların ilkin dövrünə qayıtmaq və "sələfi-salihinin" (doğru yolda olan əcdadların) yolunu davam etmək şüarları ilə "sələfilik" adlanan bir ideya ortaya çıxmışdır.

İlk sələfilər *Əhməd ibn Hənbəlin fiqhi* məktəbinin ardıcılları olmuşdurlar. "Sələfi-salihinlərin" yoluna qayıtmaq, eləcə də *Quran* və *hədislərə* istinad etmək çağırışlarının arxasında heç bir nəzəriyyə olmamışdır. Buna görə də, o zaman ilkin sələfilik inkişaf etmədən ortadan çıxmışdır.

Sələfiliyi bir *məzhəb* kimi formalaşdıran *İbn Teymiyyə* və onun ardıcılları olmuşdurlar. Onlar dini məsələlərin izahında *kəlam (I)* metodlarına qarşı çıxmışdırlar. İbn Teymiyyəyə görə dinin bütün müddəaları *peyğəmbərin*, səhabələrinin, onların ilk ardıcıllarının adətinə uyğun olmalıdır. Sələfilər hesab edir ki, məntiqə və ağılın dəlillərinə istinad etmək *vəhyə* arxalanan peyğəmbərin və onun ardıcıllarının yolundan çəkilmək deməkdir. Bu isə dinin təhrif olumasına gətirib çıxarır. Beləliklə, məntiq və ağılın dəlilləri sələfilər tərəfindən yalnız vəhyə tabe edilmiş şəkildə qəbul olunmuşdur. Quran və hədislərdə insan tərəfindən çətin anlaşılan məqamlara münasibətdə sələfilər hesab edirlər ki, onlar barəsində müzakirə edilməz və belə mətnlər olduğu kimi qəbul edilməli və onlara iman gətirilməlidir.

Sələfilər dünyasını dəyişmiş müqəddəslərə, *övliyalara*, din adamlarına *dualar* edilməsini, onların *məzarlarının ziyarət* edilməsini, onların *Allahla* insanlar arasında vasitəçi kimi qəbul edilməsini *tövhidin* pozulması kimi qiymətləndirmişdirlər. Onlar bunu edən müsəlman təriqətlərini pisləmişdirlər. Allahın birliyinin təsdiq edilməsi ilə yanaşı sələfilər hesab edirlər ki, müsəlmanın bütün əməlləri Məhəmməd peyğəmbərin həyatına uyğun olmalıdır. Onlara görə dində heç bir bidətə yol verməmək olmaz. Dində hər bir yenilik *günahdır* və inkar edilməlidir. İbn Teymiyyə və digər sələfilərin təlimi bəzi İslam cərəyanları tərəfindən qəbul

edilmişdir. Onun prinsipləri miladi XVIII əsrdə Nəcddə başlanan *Məhəmməd ibn Əbdülvəhhabın* hərəkatının ideoloji əsasına çevrilmişdir. Ən yeni tarixdə isə sələfi ideyaları ilə çıxış edən bir çox müsəlman qrupları vardır.

**SƏLƏFLƏR** – ***Məhəmməd peyğəmbərin əhli-beyti və onun yaxın səhabələri, onların ardıcılları və ardıcılların ardıcılları olmuşdurlar.*** Onlar dini ənənəni bildiklərindən sonrakı nəsillər onlara hörmət və ehtiram bəsləmiş, onları özlərinə örnək qəbul etmişdirlər. Sələflərin irsləri müsəlmanlar tərəfindən yetərli dəlil hesab edilmişdir.

**SƏLMAN FARİSİ** (36/657-ci ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin ən tanınmış səhabələrindən biri olmuşdur.*** O, İranda İsfəhan şəhərinin yaxınlığındakı bir kənddə doğulmuşdur. İslamı qəbul edənə qədər onun adı Büzəxşənin oğlu Məbah olmuşdur. Onun atası zərdüşt dininə sitayiş etmiş, evində bu dində müqəddəs hesab edilən alovu yandırıb, onu qoruyurdu. Oğlunu da bu dinin qaydalarına uyğun böyütmüşdür. Ancaq sonra Məbah şübhələrə düşmüş və Suriyaya getmişdir. Orada o xristian olmuş və rəvayətlərə görə bir rahibin sonuncu *peyğəmbərin* gələcəyi haqqında söhbətini eşitmişdir. Bundan sonra Məbah Hicaza yollanmışdır. Ancaq ərəblər onun karvanına hücum etmiş və o əsir düşmüşdür. Sonra onu Vadi əl-Qurrədə bir yəhudiyə kölə kimi satmışdırlar. Daha sonra o yəhudi onu Mədinənin Qureyzə qəbiləsindən olmuş başqa bir yəhudiyə satmışdır.

*Məhəmməd* peyğəmbər *Mədinəyə hicrət* etdikdən sonra Məbah onunla görüşüb İslamı qəbul etmişdir. Bundan sonra o, Səlman Farisi adı ilə tanınıb Məhəmməd peyğəmbərə ən bağlı səhabələrindən biri olmuşdur. Hicrətin 5-ci ilinə qədər Səlman köləlikdə qalmışdır. Buna görə də o, *Xəndək* döyüşünə qədər *bütpərəstlərə* qarşı olan savaşlara qatıla bilməmişdir. Sonra müsəlmanlar sahibinə pul ödəyib, Səlmanı azad etmişdirlər. Hicrətin 5-ci ilində Xəndək döyüşü zamanı onun təklifi ilə şəhər ətrafında müdafiə məqsədi ilə böyük çuxurlar qazılmışdır. Onu da düşmənlər aşa bilməmişdirlər. Bu taktikanın işlənməsi müsəlmanlara qələbə qazandırmışdır. Sonrakı illərdə də Səlman Farisi Məhəmməd peyğəmbərin yanında olmuş, onun vəfatından sonra isə *Əbu Bəkrin* xilafəti dövründə *Mədinədə* yaşamışdır. Ömərin xilafəti zamanı Səlman İrana qarşı aparılan müharibələrdə iştirak etmiş, iranlıları İslamı qəbul etməyə dəvət etmişdir.

Daha sonra Səlman Fərat çayı sahilindəki Küfə şəhərinin (17/638) salınmasında iştirak etmişdir. Daha sonra o, İranın Mədainin şəhərinin valisi olmuşdur. Səlman Farisi hicrətin 36-cı ilində təxminən 80 yaşında vəfat etmişdir. Səlman Farisi tərki-dünyalığı ilə də seçilmişdir. Müsəlman ənənəsində ən inanclı səhabələrdən biri hesab edilir. Rəvayətlərə görə Məhəmməd peyğəmbər onu öz *əhli-beyti* elan etmişdir. Sufi *təriqətlərinin* bəzilərində və şiə ənənəsində ona böyük ehtiram bəslənilir. Bundan başqa Şəlman Farisinin adından çoxlu *hədis* də rəvayət edilmişdir.

**SƏMA** – ***sufi məclislərində səsləndirilən dini musiqi növüdür.*** Səma sufinin *vəcd* (ekstaz) halına girməsinə yardım edir. Bu halda olan sufi, öz üzərində kontrolunu itirərək musiqinin ritmi ilə ekstatik hərəkətlər edir. Bəzi sufi *təriqətlərində* səmalar rəqslərlə müşayiət edilir. Səma yığıncaqlarını sufizmin incəliklərini yaxşı bilən nüfuzlu zakirlər aparır. Sufi təriqətlərinin təlimlərinə görə səmalar *Allaha* sevgi ilə dolu qəlblə edilir, insanın nəfsi təmizlənir. İlk səmaların məşhur sufilər Zünnun Misri və Cüneyd Bağdadi tərəfindən keçirilmişdir. Ancaq onlar dərin mənəvi təcrübəyə malik olmayan adi

adamlara səmalarda iştirak etməyin əleyhinə idilər. Çünki, bu mənəvi cəhətdən yetkin olmayan adamları səmalar yanlış yola apara bilər. Səma yalnız tərkidünya həyatı keçirən yüksək mənəviyyatlı insanlar üçündür. Hesab olunur ki, sufi *təkkələrinin* yayılmasının ən başlıca səbəblərindən biri də ənənəçilərin *məscidlərdə* səmaların keçirilməsini qadağan etmələri olmuşdur. Ona görə də, sufilər təkkələrdə musiqi alətlərinin səsləri altında ayinlərini icra edirdilər.

**SƏMUD** – bax: **SALEH (I).**

**SƏNUSİLƏR** – ***Şimali Afrikada sufi qardaşlığı birliyinin ardıcıllarıdırlar.*** Onun yaranması Məhəmməd ibn Əli Sənusinin (1791 – 1859) adı ilə bağlıdır. O, Əlcəzairdə doğulmuş, uzun müddət müxtəlif dini elmləri öyrənmiş, özünü maliki hüquq *məzhəbinin* davamçısı saymışdır. Mənəvi yetkinləşmə yoluna o, Hidrilər adlı sufi qardaşlığının *şeyxi* Əhməd ibn İdrisin rəhbərliyi altında başlamışdır. *Ticani* adlı sufi qardaşlığının yaradıcısı Əhməd Ticaninin ideyaları ona böyük təsir göstərmişdir. Sonralar Sənusi öz sufi qardaşlığının əsaslarını qoymuşdur. O öləndən sonra onun oğulları *Mehdi* və Məhəmməd Şərif sufi qardaşlığına başçılıq etmişdirlər.

Sənusilər *İslamın* ilkin saflığına qayıtmağa çağırmış, dinə sonradan gətirilmiş *bidətlərdən* çəkinmək yolu ilə müsəlmanlar arasındakı qarşıdurmaları aradan qaldırmaq istəmişdirlər. Bu qardaşlıqda səssiz *zikrlər* oxunmuş, coşqu vasitəsi ilə trans durumlarına girmək, oynamaq qadağan edilmişdir. Onlar müqəddəslərin *məzarlarının ziyarət* edilməsini yasaq etməmiş, *Məhəmməd peyğəmbərə* özəl *dualar* oxumuşdurlar. Sənusilər ölkə hakimiyyətinin *şəriət* üzərində qurulmasının tərəfdarları idilər. Sənusi qardaşlığı Liviya, Əlcəzair, eləcə də Şimali Afrikanın digər bölgələrində, bundan başqa Hicaz və Sudanda yayılmışdır. Qardaşlığın ardıcılları bu bölgələrin siyasi həyatında aktiv iştirak etmişdirlər. XIX – XX əsrlərdə onlar Avropa müstəmləkəçilərinə, xüsusən də italyanlara qarşı mübarizə aparmışdırlar.

**SƏRİYYƏLƏR** – ***Məhəmməd peyğəmbərin iştirak etmədiyi müsəlmanların bütpərəstlərə qarşı apardıqları müharibələrdir.*** Onun iştirak etdiyi yürüş və döyüşlər *qəzavat* adlandırılır. *Məhəmməd peyğəmbərin* Muta döyüşü kimi bəzi tarixi əhəmiyyətli səriyyələri də olmuşdur.

**SƏUDƏ BİNT ZƏMA** – ***Məhəmməd peyğəmbərin həyat yoldaşlarından biri olmuşdur.*** O, *Xədicənin* vəfatından sonra hicrətin 10-cu ilində evləndiyi ilk qadındır. Buna qədər o, əmisi oğlu Səkran İbn Əmirin həyat yoldaşı olmuşdur. Onlar birlikdə *İslamı* qəbul edərək ilk müsəlmanlardan olmuşdurlar. Buna görə onları qüreyşlilər təqib etmiş, onlar da *Məkkədən Həbəşistana hicrət* etməyə məcbur olmuşdurlar. Sonra onlar Məkkəyə geri qayıtmış, orada Səkran ölmüş, Səudə isə dul qalmışdır. O zaman onun 50-yə yaxın yaşı olmuşdur. *Məhəmməd peyğəmbər* onunla evlənmək istədiyini bildirmiş və bu evlilik baş tutmuşdur. Səudə inanclı bir qadın idi. O, xəlifə *Ömərin* hakimiyyəti dövründə vəfat etmişdir.

**SƏUM** – bax: **ORUC.**

**SƏYY** – ***həcc və ümrə zamanı Səfa ilə Mərvə təpələri arasında qaçmaqdır və bu davranış həcc və ümrə ibadətlərinin vacib tərkib hissəsini təşkil edir.*** Dini rəvayətlərə görə səyyin tarixi *İbrahim* peyğəmbərin həyat yoldaşı *Həcərlə* bağlıdır. O, orada oğlu *İsmaillə* su axtarmaq məqsədi ilə Səfa ilə Mərva təpələri arasında qaçmış və bir

möcüzə nəticəsində *Zəmzəm* quyusu yer altından qaynayaraq o yerlərə həyat vermişdir.

**SİDRƏTÜL-MÜNTƏHA** – ***göyün yeddinci qatında, cənnətin son mərtəbəsində yerləşən Allahın zatı aləmidir.*** Onun varlığı haqqında *Quranda* ayə vardır (53: 13-14). Onun nə olduğunu insan şüuru dərk edə bilməz. Oraya heç kim, hətta *mələklər* olsa belə, girə bilməzlər. Merac hadisəsində *Məhəmməd peyğəmbərə* sidrətül-müntəhaya qədər Cəbrayıl ilə birlikdə yaxınlaşmağa icazə verilmişdir. Müsəlmanların qıldıqları gündə beş vaxt *namazın* vacib olması əmri də burada verilmişdir.

**SİLSİLƏ** – ***zəncirvari mənəvi bağlılıqdır.*** *Sufilikdə* silsilə *Məhəmməd* peyğəmbər, onun *əhli-beyti* və səhabələrindən başlayıb, *təriqətin adətlərinə* və onun *şeyxinə* qədər gedib çıxan mənəvi şəcərədir. Sufi təriqətlərinin silsilələrini *Əbu Bəkr Siddiq* və ya *Əli ibn Əbu Talibə*, onlardan isə *peyğəmbərə* yüksəldirlər.

*Hədis elmində* də hədisin *səhihliyini* təsdiq etmək üçün onun *ravilər* silsiləsi *peyğəmbərin əhli-beyti* və ya *səhabələrinə*, onlardan isə *peyğəmbərə* qədər çatmalıdır.

**SİRAT** – ***Qiyamət günü insanların keçməli olacaqları od üzərindən salınmış körpüdür.*** Rəvayətlərə görə bu körpü insan telindən incə, ülgücdən itidir. Onun üzərində günahkarları *cəhənnəmə* atan qarmaqlar vardır. Bütün insanlar dirildikdən sonra bu körpünün üzərindən keçəcəklər. İnanclı müsəlmanlar onun üzərindən rahatlıqla keçərək *cənnətə* daxil olacaqlar. Dinsiz və günahkarlar isə onun üzərindən keçə bilməyib, cəhənnəmə oduna düşəcəklər. Siratı *alleqoriya* hesab edən ilahiyyatçılar da olmuşdur.

**SUFİLİK** – bax: **TƏSƏVVÜF.**

**SUKR** – ***sufilikdə təriqət yolçusunun Allaha qarşı olan sevgisindən ortaya çıxan sərxoşluq halıdır.*** Sərxoşluq sufini özəl bir məqama yüksəldir. Bu halda o özünü hiss etmir, ilk baxışdan anlaşılmayan hərəkət və sözlər ifadə edə bilərlər. *Sufilik* tarixində sukru ilk dəfə məşhur sufi *Bəyazid Bistami* yaşamışdır. O, bu halı ayıq olaraq *Allahı* sevmək halından (*sahvdan*) daha üstün hesab etmişdirlər. Ənənəvi müsəlmanların çoxu sukra, eləcə də bütün başqa ekstatik *hallara* qarşı dözümlü olmamış, onlara qarşı çıxış etmişdirlər.

**SUR** – ***Allahın dörd böyük mələklərindən biri olan İsrafilin iki kərə üfürəcəyi borudur.*** Bundan sonra bütün canlılar öləcək, daha sonra isə *Allah* tərəfindən mühakimə edilmək üçün diriləcəklər. Sur haqqında istər *Quranda*, istər də *hədislərdə* məlumatlar vardır. Sur *qiyamətin* əsas atributlarından biri hesab edilir.

**SURAQA İBN MALİK** (23/645-ci ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuşdur***. Rəvayətlərə görə məkkəlilər *peyğəmbərin* hicrət etməsinin qarşısını almaq üçün onu *Mədinə* yolunda təqib etmişdirlər. Ancaq, bu bir nəticə verməmişdir. Buna görə də onlar, *Məhəmməd* peyğəmbərin dirisini və ya ölüsünü gətirəcək insana yüz dəvə hədiyyə verəcəklərini elan etmişdirlər.

Bu xəbəri eşidən Suraqa Məhəmməd peyğəmbərin axtarışına çıxmış, onun izinə düşmüşdür. Ancaq, o zaman onun atı büdrəməyə başlamış və o, Məhəmməd peyğəmbər və onun iki yol yoldaşını görmüşdür. Suraqa onu oxla vurmaq istəmiş, ancaq bunu etmək üçün onun əli qalxmamışdır. Həmin anda onun atının ayaqları quma batmağa başlamış və o yerindən tərpənə bilməmişdir. Onda Suraqa peyğəmbərdən yardım istəmiş, əvəzində onu izləməyəcəyinə söz vermişdir.

Peyğəmbər də *dua* etmiş və Suraqanın atı qumdan çıxmışdır.

Ancaq, Suraqa verdiyi sözdə durmamış və yenə də onu izləməyə başlamışdır. Nəticədə, onun atının ayaqları yenə də quma batmağa başlamışdır. Peyğəmbər isə yenə də onun köməyinə gəlib duası ilə atını azad etmişdir. Bundan sonra o, Suraqaya tapşırmışdır ki, geri qayıdıb hamıya onu görmədiyini desin. Əvəzində ona İran şahı Xosrovun dəyərli qolbaqlarını vəd etmişdir. Bu dəfə Suraqa sözünün üstündə durmuş, geri qayıdaraq digər təqibçilərə peyğəmbərin bu yerlərdə olmadığını söyləmişdir.

Müsəlmanlar *Məkkəni* fəth etdikdən sonra Suraqa *İslamı* qəbul etmişdir. Peyğəmbərin vəfatından sonra isə İranı məğlub etmiş müsəlmanlar şahların xəzinəsini Mədinəyə gətirmişdirlər. Dəyərli əşyalar arasında qolbaqlar da olmuşdur. Onları görən xəlifə *Ömər* Suraqanı öz yanına çağırmış, peyğəmbərin ona söz verdiyi bu qolbaqları ona bağışlamışdır.

**SURƏLƏR** – ***Quranın fəsilləridir.*** Surələr *ayələrdən* ibarətdir. Onlar şərti olaraq uzun, orta və qısa surələr olmaqla üç yerə bölünürlər. Surələrdə ayələrin sayı yüzdən çoxdursa, onları uzun surələr hesab edirlər. “Bəqərə”dən (2) “Tövbə”yə (9) qədər olan surələr uzun surələrdir. Ayələrin sayı yüzdən az olan surələr orta, bir neçə ayədən ibarət olan surələrə isə qısa surələrdir. Ən qısa surə “Kövsər” (108-ci surə) surəsidir.

Bütün surələr baş vermiş hadisələrin, insanların adı və ya ilk ayələrinin birinci sözü ilə adlandırılmışlar. Bəzi surələrin bir-neçə adı vardır. Məsələn, “Tövbə” surəsini “Bəraət” də adlandırırlar.

*Quranın* bütün surələri nazil olduğu yerdən asılı olaraq *Məkkə* və *Mədinə* surələrinə bölünürlər. Məkkə surələri hicrətdən öncə, Mədinə surələri isə hicrətdən sonra nazil olunmuşdur. Quranda surələrin düzülmə ardıcıllığı məsələsində ilahiyyatçıların fərqli fikirləri mövcuddur. Əksəriyyət ən uzun surələri Quranın əvvəlində, sonra isə orta və qısa surələrin gəldiyini qeyd edirlər. Bəziləri isə surələri mövzulara görə ardıcıl yerləşdirməyin tərəfdarıdırlar. Onlar hesab edir ki, *Məhəmməd peyğəmbərə* surələr elə bu ardıcıllıqla nazil olunmuşdur.

*İslam* alimlərinin bir çoxu hesab etmişdir ki, Quran surələrinin müəyyən olmuş ardıcıllığı yoxdur və bu *ictihadın* obyektidir. Digər ilahiyyatçılar isə bu məsələdə orta mövqedə olmuşdurlar. Onlara görə surələrin ardıcıllığını *Allah* müəyyən etmişdir.

**SURƏT** – ***təsvir və ya şəkildir.*** Bir çox ilahiyyatçılar insan və ya heyvanın əllə çəkilmiş şəkillərini *bütpərəstliyə* aparan yollardan biri kimi dəyərləndirərək bunu qadağan etmişdirlər. Ancaq, tədris məqsədi ilə bioloji elmlərdə insan bədəninin müxtəlif parçalarının çəkilməsinə yol vermişdir. Həmin ilahiyyatçılara görə yalnız bitkilər və cansız təbiəti çəkmək mümkündür. Ancaq, müasir dövrümüzdə bu kimi baxışlarla razılaşmayan alimlər də olmuşdur. Onlar istənilən şəkilin çəkilməsinə yol verirlər. Fotoşəkilin çəkilməsi haqqında da *ixtilaf* vardır. Bunu *haram* bilənlər olsa da, çoxluq buna icazə verir. Çünki, onlara görə fotoşəkil əllə çəkilmiş rəsm deyildir.

**SÜBH** – ***səhərin açılması çağlarıdır Quran (2: 187).*** Bu vaxtdan başlayaraq günəşin çıxmasına qədər müsəlmanlar *vacib* olan Sübh namazını qılmalıdırlar. Cünəş çıxandandan sonra bu namazın namazının vaxtı bitir. Oruc vaxtı da sübhdən başlayır və günəş batana qədər davam edir. Başqa sözlə, oruc tutan müsəlman sübhün açılmasına qədər yeməyini başa vurub, oruca başlamalıdır.

**SÜFRİLƏR** – ***ifratdan uzaqlaşaraq mötədilliyi əsas götürən xarici məzhəblərindən birinin ardıcıllarıdırlar.*** Onlar Əzraqilərdən ayrılaraq *günah* etmiş müsəlmanlara qarşı daha dözümlü olmuşdurlar. Süfrilər onların inancları ilə bölüşməyən müsəlmanların yaşadıqları yerləri *darül-hərb* hesab etmişdirlər. Başqa *xaricilər* kimi süfrilər də kafir hakimiyyətə qarşı üsyana qalxmağı *vacib* sayırdılar. Ancaq, onlar bunu edərkən savaşdıqları tərəfin qadınlarını və uşaqlarını əsir götürmür, yalnız ölkənin ordusuna qarşı vuruşurdular. II/VIII – IV/IX əsrlərdə süfrilər Şimali Afrikada Midrarilər dövləti qura bilmişdirlər.

**SÜHEYB RUMİ** (37/658-ci ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuşdur.*** Onun soyu Bəni Nümeyr adlı ərəb qəbiləsindən idi. Kiçik yaşlarında Süheyb İraqda yaşamışdır. O zaman İran-Bizans savaşı başlamış və Süheyb bizanslılara əsir düşüb kölə olmuşdur. Buna görə də o, yunan dilini ərəb dilindən yaxşı bilmişdir. Uzun müddətdən sonra köləlikdən azad olmuş və *Məkkəyə* qayıtmışdır.

Süheyb ilk müsəlmanlardan biri idi. *Məhəmmədin* peyğəmbərliyi haqqında eşidən kimi onun yanına *Ərqəmin* evinə gedərək orada *İslamı* qəbil etmişdir. Buna görə də qüreyşlilər tərəfindən təqiblərə uğramışdır. Süheyb məkkəli deyildi. Buna görə də onun durumu daha ağır olmuşdur. Çünki, təqiblər dövründə onu heç bir Məkkə ailəsi qorumamışdır.

*Mədinəyə hicrət* zamanı məkkəlilər Süheybi şəhərdən çıxmağa qoymamışdırlar. Buna görə də o, öz malını, var-dövlətini şəhərdə qoyaraq Məkkədən qaçmalı olmuşdur. Üstəlik yolda qüreyşlilər onu qarət də etmişdilər. Hicrət etdikdən sonra Süheyb müsəlman icmasının inkişaf etməsi üçün əlindən gələni etmiş, bir çox döyüşlərdə iştirak etmişdir. Məhəmməd *peyğəmbərin* vəfatından sonra Süheyb ilk *xəlifələri* dəstəkləmişdir. Xəlifə *Ömərin* vəfatından sonra isə onun *vəsiyyətinə* görə Süheyb üç gün *Mədinə* məscidində camaat *namazı* qıldırmışdır. Süheyb təxminən 70 yaşında Mədinədə vəfat etmişdir.

**SÜHEYL İBN ƏMİR** (18/639-cu ildə vəfat etmişdir) – ***tanınmış qüreyşlilərdən biri olmuşdur.*** Uzun müddət müsəlmanlara qarşı çıxış etmişdir. *Bədr* döyüşündə müsəlmanlara əsir düşmüş, sonra azad edilmişdir. *Hüdeybiyyə* sülh anlaşması bağlandıqda Süheyl məkkəlilərin rəsmi təmsilçisi olmuş, *Məhəmməd peyğəmbərlə* anlaşmaya qol çəkmişdir. Müsəlmanlar *Məkkəni* fəth etdikdən sonra başqa qüreyşlilər kimi Süheyl də bağışlanmışdır. Bundan sonra o, *İslamı* qəbul etmişdir. İlk *Raşidi xəlifələrin* hakimiyyəti dövründə Süheyl savaşlara qatılmış, Suriyanın alınması uğrunda gedən döyüşlərdə vuruşmuş və orada da vəfat etmişdir.

**SÜHRƏVƏRDİ ŞİHABƏDDİN** – bax: **SÜHRƏVƏRDİLƏR.**

**SÜHRƏVƏRDİLƏR** – ***sufi təriqətlərindən birinin ardıcıllarıdırlar.*** *Təriqətin* adı Şihabəddin Əbu Həfs Ömər Sührəvərdi (632/1234-cü ildə vəfat etmişdir) ilə bağlıdır. O, Cənubi Azərbaycanın Zəncan vilayətinin Sührəvərd kəndində doğulmuşdur. Sonra Bağdada köçərək orada *Quran təfsirini, hədisləri* və *fiqhin* əsaslarını öyrənmişdir. Əbu Həfs mənəviyyat yoluna əmisi Əbu Nəcibin başçılığı altında başlamışdır. Sonra o, Abbasi xəlifəsi Nasir Lidinillahın hörmətini qazanmış və buna görə də, xəlifə onun üçün bir mədrəsə tikdirmişdir.

Əbu Həfs dövründə çox tanınmışdır. Onun yanına dərs almaq üçün müsəlman dünyasının müxtəlif bölgələrindən tələbələr

gəlirdilər. Onlardan biri məşhur şair Sədi Şirazi olmuşdur. Bağdadda Əbu Həfs bütün sufi *təkkələrinə* və təriqətlərinə başçılıq edirdi. O, Əbdülqədir Gilani, *İbn Ərəbi,* İbnül-Farid kimi tanınmış sufi alimləri ilə görüşmüşdür. Əbu Həfs bir çox əsərlərin müəllifi olsa da, onun sufilərin mənəvi təcrübəsinə həsr edilmiş "Əvariful-Məarif" kitabı daha çox tanınmışdır.

Əbu Həfsin sağlığında onun təlimi İraq, Suriya və İranda geniş yayılmışdır. Sonra sührəvərdilik Türküstan, Hindistan və Anadoluda yayılmağa başlamışdır. Ancaq, onun qurduğu təriqətin ardıcılları Hindistanda daha çox yaşamışdır. Sührəvərdilər öz mənəvi varislik *silsiləsini Əli ibn Əbu Talibdən* başlayıb, Əhməd Qəzaliyə qədər yüksəltmişdirlər. Bu silsilədə Cüneyd Bağdadi və Əbu Nəcib Əbdülqahir Sührəvərdi (563/1166-cı ildə vəfat etmişdir) kimi tanınmış sufilər də vardır. Təriqətin məclislərində ucadan *zikrlər* deyilsə də, fərdi təcrübədə səssiz zikrlərə də yer verilir. Sührəvərdilikdə müxtəlif cərəyanlar da vardır.

**SÜHUFLAR** – ***Məhəmməd peyğəmbərdən öncə yaşayan bəzi peyğəmbərlərə Allah tərəfindən endirilmiş kiçik həcmli kitablardır.*** Rəvayətlərə görə *Adəm* və *İbrahimə* 10, Şitə 50, *İdrisə* 30 sühuf nazil edilmişdir. *Musa, Davud, İsa* və *Məhəmməd peyğəmbərə* isə Kitablar nazil olunmuşdur.

**SÜHUR** – ***oruca başlamadan öncə yeyilən səhər yeməyidir.*** *Orucluq* zamanı günəş çıxmamışdan öncə səhər yeməyini yemək tövsiyə edilir. Yeməyi *sübh namazına* az qalmış tamamlamaq lazımdır. Sühurun *savab* olması haqqında çoxlu *hədislər* də vardır.

**SÜLEYMAN** – ***Quranda adı keçən peyğəmbərlərdən biri olmuşdur.*** İsrailin krallarından biri olan Süleyman Musanın *şəriəti* ilə hökm verirdi. Rəvayətlərə görə Qəzzada doğulmuş, *Qüdsdə* vəfat etmişdir. Uşaq yaşlarından başlayaraq sağlam düşüncəsi ilə seçilib, ədalətli bir insan olmuşdur. Süleyman *Davud* peyğəmbərin oğlu idi. Oniki yaşı olanda atasını itirmiş və onun yerinə keçib ölkəyə başçılıq etməyə başlamışdır.

Bir gün Süleyman *Allaha* yalvarıb ona heç kəsdə olmayan güc və dövlətin verilməsini diləmişdir. Allah da ona cinlərin, heyvanların, küləklərin və insanların üzərində hökmranlığı bəxş etmişdir (Quran, 38: 36-38). Süleyman hətta heyvanların və quşların da dilini bilmişdir (*Quran*, 27: 16).

Rəvayətlərə görə Süleyman öz hakimiyyəti dövründə yeni şəhərlər və yollar salmış, qalalar, saraylar və yaşayış evləri tikdirmişdir. Bu işdə ona cinlərin kömək etdiyi rəvayət edilir (Quran, 34: 12-13). *Qüdsdə* Süleyman ən böyük və məşhur *məbəd* tikdirmişdir. Orada *Musaya* göndərilən *Tövratın* lövhələri saxlanılmışdır. Onun insanlar və cinlərdən ibarət böyük qoşunu da olmuşdur (Quran, 27: 17).

Süleymanın hakimiyyəti Yaxın Şərqin bir çox bölgələrinə yayılmış, o güçlu krala çevrilmişdir. O, gəmiçiliyi və ticarəti inkişaf etdirmişdir. Süleymanın hakimiyyəti dövründə ölkədə əminamanlıq hökm sürmüşdür. Beləliklə o, 40 il ədalətlə ölkəyə başçılıq etmişdir. Süleymanı başqa ölkələrdə də tanıyırdılar. O, bir çox başqa ölkələrin başçılarını imana gətirmişdir. Səbada Yəmən kraliçası *Bilqeysi* Allaha imana dəvət edərək ona bir məktub göndərmişdir. Sonra onun bir xadimi onu möcüzəvi olaraq bir anda onun yanına gətirmişdir (Quran, 27: 20-44).

Bir gün Süleyman tikilməkdə olan böyük bir saraya baxmağa getmiş və orada binanın eyvanına çıxdıqda ölüm mələyi gəlib onun canını almışdır.

**SÜNNƏ** – ***Məhəmməd peyğəmbərin söylədiyi sözlər, gördüyü işlər, buyurduğu hökmlər və əxlaqi özəllikləridir***. Onun şəxsiyyəti müsəlmanlar üçün bir həyat örnəyidir (Quran, 33: 21). Sünnə Quranın

*ayələrini* izah edir, onların mənalarına aydınlıq gətirir. Məhz, sünnədən *Quranda* olmayan bir çox məsələlər üzrə hökm verilir. Bəzi ilahiyyatçılar hesab edir ki, özəl hallarda sünnə hətta Quran ayələrinin hüquqi hökmlərini qaldırıb, onları əvəzləyə bilər.

**SÜNNİLƏR** – ***müsəlmanların çoxluq təşkil etdiyi etiqadi məzhəbin mənsublarıdırlar.*** Ərəbcə "əhli-sünnə vəl-camaa" kimi səslənir. Onlar Məhəmməd *peyğəmbərin* və onun ardıcıllarının göstərdiyi yolla getməyi özlərinə *vacib* bilirlər. Sünnilik tarixi şəraitdən və zərurətdən doğmuşdur. *Məhəmməd* peyğəmbərin sağlığında müsəlman icması, *münafiqlərin* müxalifəti kimi bəzi istisnaları nəzərə almadan bütövlüyünü qoruyub saxlamışdır. Bu bütövlük ilk dəfə *Məhəmməd* peyğəmbərin vəfatından sonra *Əbu Bəkrin* xəlifə seçilməsi ilə pozulmuşdur. O zaman *Əli ibn Əbu Talibi* xəlifə görmək istəyən güvvələr meydana çıxmışdır. 35/656-cı ildə xəlifə Osmanın öldürüldüyündən sonra parçalanma daha surətlə getməyə başlamışdır. Əli ibn Əbu Talibin zamanında isə Xilafətdə vətəndaş müharibəsi başlamışdır. *Şiələr*, nəsibilər və *xaricilər* siyasi mübarizə aparırdılar.

Elə bu dövrdə *yəhudilər*, xristianlar və zərdüştilər kütləvi şəkildə *İslamı* qəbul edirdilər. Onların vasitəsi ilə İslama o dinlərin müəyyən elementləri daxil olurdu, beləliklə, *israiliyyat* anlayışı formalaşmışdır. Bu şəraitdə müsəlmanların çox hissəsini təmsil edən və heç bir tərəfə aid olmayan İslam böyükləri İslam dininin əsaslarını qorumaq məqsədi ilə öz məktəblərini təşkil etmişdirlər. Onların arasında *Abdullah ibn Ömər, Həsən Bəsri, Əbu Hənifə, Malik ibn Ənəs* kimi şəxsiyyətlər də olmuşdur. Onların metodları və prinsipləri arasında fərqlər ortaya çıxmışdır. Sonra İraq ilahiyyatçıları *rəy* tərəfdarları, Hicaz ilahiyyatçıları *hədis* tərəfdarları kimi tanınmağa başlamışdırlar. Sünniliyin yaranmasında *qədərilərin, cəbrilərin, mürciilərin* və başqa *təriqətlərin* təsiri olmuşdur. Onlarla razılaşmayan və mübahisələr aparan ilahiyyatçılar bu *ixtilaflar* nəticəsində öz təlimlərini yaratmışdırlar.

Zaman keçdikcə Əməvi, sonra Abbasi xəlifələrinin hakimiyyəti möhkəmləndikcə şiələrə və xaricilərə qoşulmayan bu məktəblərin birləşdirilməsi prosesi başlamışdır. Məsələ burasında idi ki, hakimiyyətə xalqı idarə etmək üçün vahid və mərkəzləşdirilmiş din lazım idi. Bu proses uzun müddət davam etmişdir, onların arasında ixtilaflar da olurdu. Sonda isə bu məktəblərin birləşdirilməsi sünniliyin formalaşmasına gətirib çıxarmışdır. *Abbasilər* dövründə *mütəzililər* sünniliklə bir zamanlar rəqabət aparmışdırlar. Onları da *sünnilər* kimi hakimiyyət dairələri dəstəkləmişdir. Ancaq, mütəzililərlə mübarizədə sünnilər qalib gələ bilmişdirlər.

Buna baxmayaraq sünnilər həm əqidə, həm də *fiqhi* baxımından bir çox hallarda bir-birindən fərqlənirlər. Fiqhdə onların *hənəfi, şafii, maliki* və *hənbəli* məktəbləri vardır. Onlardan hənəfilər İraq rəy məktəbinin, qalan üçü isə Hicaz hədis məktəbinin ardıcılları idilər. Onların hamısının metod və hökmlərində fərqlər mövcuddur. Əqidə baxımından da sünnilərin ən azı üç məktəbi olmuşdur. Bunlar *əşəri, maturidi* və *sələfi* məktəbləridir ki, onların da arasında müəyyən fərqlər və ixtilaflar mövcuddur.

Sünniliyin ümumi əqidə prinsipləri birdir. Bunlar *sünni* əqidəsinin əsaslarını təşkil edir, bununla da mütəzili və şiə iman əsaslarından fərqlənir. Sünnilərdə iman əsasları altıdır: *tövhidə*, mələkələrə, müqəddəs kitablara, peyğəmbərlərə, *qiyamət* gününə, *qəza və qədərə* iman. Ayrıca, bütün sünnilər üçün İslamın beş *şərti* vardır: *kəlmeyi-şəhadəti* dillə söyləyib qəlblə təsdiq etmək, hər gün beş vaxt olmaqla *namaz* qılmaq, *zəkat* vermək, *Ramazan* ayında *oruc* tutmaq və *həccə* getmək.

# Ş

**ŞAFİİ MƏHƏMMƏD İBN İDRİS** (150/767 – 204/819) – ***İslamın dörd sünni hüquq məzhəblərindən biri olan Şafii məzhəbinin qurucusu olmuşdur.*** *Məhəmməd* ibn İdris hicri 150-ci ildə Qəzzada (*Fələstin*) doğulmuşdur. Onun soyu Qüreyş qəbiləsindən olmuş, erkən yaşlarında atasını itirdiyindən yoxsulluq içində böyümüşdür. O, bacarıqlı gənc kimi doğulduğu yerdə *Quran* və *peyğəmbərin* göstərdiyi yolu yaxşı öyrənmişdir. Sonra *Məkkəyə* köçmüş, tanınmış alimlərdən dərs almışdır. Şafiinin Məkkə camaatının *adətləri* ilə yaxından tanış olmuş, eləcə də *hədisləri* rəvayət edən peyğəmbər səhabələrinin nəvə-nəticələrini tanımış, onlardan rəvayətlər nəql etmişdir. Bundan başqa o, müxtəlif dini *təriqətlərin* təlimlərini də öyrənmişdir.

Təhsilini başa vurduqdan sonra Şafii dövlət işində çalışmışdır. O, bir zamanlar *Nəcran qazisi (II)* olmuşdur. Sonra siyasi baxışlarına görə o, təqiblərə məruz qalmışdır. Lakin sonra *xəlifə* Harun ər-Rəşid ona bəraət qazandırmışdır. Bundan sonra Şafii "Üsulül-Fiqh" də hökmlərin çıxarılması metodunu irəli sürmüşdür. Ondan öncə əsaslı *fiqh* metodu hələ hazırlanmamışdır. O, öz metodunda Quran və hədislərin açıq mənalarına istinad etmiş, *kəlamçıların (I)* metodlarından çəkinmişdir.

Şafii ölkə quruculuğunda Xilafət idarə sistemini dəstəkləyirdi. Müsəlmanların çoxu kimi Şafii də xəlifənin qureyşdən olmasını israr edirdi. Şafii üçün ən ideal dövlət quruluşu *Raşidi xəlifələr* dövrü olmuşdur.

Daha sonra Şafii müəllimliklə məşğul olmuş, bu işdə o böyük hörmət qazanaraq el arasında məşhurlaşmışdır. Onun fəaliyyətini Əbülhəsən Səbbah Zəfərani adlı tələbəsi "Kitabül-Ümm" kitabında işıqlandırmışdır. Şafiinin elmi irsi İraq və *Misirdə* geniş əks səda doğurmuşdur. O, İraqda olarkən çox əhəmiyyət kəsb edən hüquqi hökmlər çıxarmışdır. Sonra o, Misirə köçdükdən sonra onlara bir daha qayıtmış, başqa tərəfdən yanaşaraq onları yeniləmiş, onlara üstünlük verilməsini *vəsiyyət* etmişdir. Şafii hicri 204-cü ildə Misirdə 54 yaşında vəfat etmişdir.

**ŞAFİİ MƏZHƏBİ** – ***geniş yayılmış fiqhi məzhəblərdən biridir.*** Bu *məzhəbin* adı Məhəmməd ibn İdris *Şafii* ilə bağlıdır. O, Hicaz və İraq hüquq məktəblərinin metodlarını öyrəndikdən sonra öz *fiqh* metodunu irəli sürmüşdür. Məhəmməd ibn İdris Şafii vəfat etdikdən sonra onun irsini inkişaf etdirmişdirlər. Hicrətin 199-cu ilindən başlayaraq Şafii məzhəbi *Misirdə* yayılmağa başlamış və sonrakı dövrlərdə də mövqeyini qoruyub saxlaya bilmişdir. Şafiilər İranda da nüfuz qazana bilmişdirlər. Ancaq, sonra orada şiəlik rəsmi məzhəbə çevrilmiş və nəticədə *cəfəri məzhəbi* nüfuz qazanmışdır.

Müasir dövrdə şafiilik İndoneziyada, Malaziyada, Misirdə, Yaxın Şərqdə və müsəlman dünyasının başqa yerlərində yayılmışdır. Şafii metoduna görə hökmlər ilk olaraq *Quran* və *hədislərin* açıq mənalarının (*nassların*) əsasında verilməlidir. Onların ikili mənaları olmadığına görə onlar ən etibarlı mənbələr hesab edilir. Başqa mənbələrin əsasında verilən hökmlər isə nasslara uyğun olmalı, onlarla ziddiyət təşkil etməməlidirlər.

Şafii Quranın əsasında verilmiş hökmləri, *sünnə* əsasında verilmiş hökmlərlə bir tuturdu. O hesab edirdi ki, Quranı sünnəsiz anlamaq mümkün deyildir. Bununla da o, yalnız Quranı *vəhy* kimi qəbul edən hənəfilərdən fərqlənirdi. Quranın doğru başa düşülməsində isə Şafii səhabələrin fikirlərinə önəm verirdi. Çünki, onlar Quranı başqalarından daha yaxşı bilmişdirlər. Şafii *nəsx* və *mənsuxu* qəbul etməmişdir. O hesab edirdi ki, nə Quran sünnənin, nə də sünnə

Quranın hüquqi hökmlərini ləğv edib əvəzləyə bilər. Bu mövzuda o, nəsx və mənsuxu qəbul edən başqa *sünni* ilahiyyatçılarla *ixtilaf* etmişdir. Onun fikrincə Quran *ayələri* hədislərin hökmünü qaldıra bilirsə, onda hədislərə çox da əhəmiyyət verilməməlidir. Bu da fiqhdə problemlərə gətirib çıxara bilərdi. Şafii *mütəvatir* hədislərlə yanaşı *əhəd* hədislərə də böyük əhəmiyyət vermiş və onların əsasında hökmlərin çıxarılmasının tərəfdarı olmuşdur. Hökmlərin verilməsində Quran və Sünnədən sonra ikinci qaynaq *İslam* ilahiyyatçılarının *icmasıdır*. Əgər hər hansı bir məsələ üzrə şafii alimləri birliyə gəlmişdirlərsə onda hökm bunun əsasında verilirdi.

*Malikilərdən* fərqli olaraq şafiilər "*Mədinə* şəhər sakinlərinin icmasını" dəlil kimi qəbul etmirlər. Ona görə bir yerin *adətləri* heç nəyi həll etmir. Dəlil kimi bütün müsəlman bölgələrinin icması qəbul edilə bilər. Ancaq, bəzi istisna hallarda onlar bu metoddan istifadə edirlər.

Şafiilər səhabələrin hökmləri və onların icmasına da böyük əhəmiyyət verirlər. Ancaq, bəzən müəyyən məsələlər üzrə səhabələrin fərqli hökmləri də olmuşdur. Belə olduqda şafiilər onlardan heç birinə üstünlük vermir, başqa *ictihad* üsullarına üstünlük verirlər. Hökmlərin çıxarılmasında şafiilər *qiyasdan* da istifadə edirlər.

**ŞAH NEYMƏTULLAH VƏLİ** (731/1330 – 834/1431) – ***tanınmış sifi şeyxlərindən biri olmuşdur.*** *Neymətullahi təriqətinin* adı onunla bağlıdır. O, Suriyanın Hələb şəhərində doğulmuş, *şafii məzhəbinin* davamçısı olmuşdur. Onun atası Mir Abdullah sufi *şeyxi* olmuşdur. Yetkinlik yaşına çatdıqda Şah Neymətullah Vəli müxtəlif ölkələrə səfərlər etmiş, məşhur sufi Abdullah Yafiinin istəkli tələbəsi, sonra isə *xəlifəsi* olmuşdur. Yeddi il ərzində o, *İbn Ərəbinin* əsərlərini öyrənmiş, sonra isə onun bəzi kitablarına şərhlər yazmışdır.

Bundan sonra Şah Neymətullah yenidən səfərlərə çıxmış, İraq və *Misirdə* olmuş, sonra Mavərənnəhrə gedib türklərin arasında təbliğat aparmışdır. Ancaq, əmir Teymur onun fəaliyyətini dəstəkləməmiş, ona görə də Şah Neymətullah Vəli Herata, oradan Məşhədə, sonra isə Yəzdə getmişdir. Sonda o, Kirmandakı Məhan kəndinə gəlmiş, həyatının son 25 ilini orada keçirmişdir. Rəvayətlərə görə Şah Neymətullanın 500-dən artıq əsərləri olmuşdur.

Şah Neymətullah Vəli tərkidünyalığın tərəfdarları olmamış, *abidliyi* ictimai həyatda iştirak edərkən göstərməyi təbliğ edirdi. O zaman mənəviyyat yolçusu *dünya* işləri ilə məşğul olsalar belə, öz "Mən"ini *Allaha* yönəltməlidirlər. Eyni zamanda o, təriqəti *şəriətdən* ayırmamışdır.

Bununla yanaşı Şah Neymətullah Vəli görüntü üçün dindarlığı göstərməyin tərəfdarı da olmamışdır. Ona görə o, xüsusi dini geyimdə cəmiyyətə çıxıb özünü göstərməyə qarşı idi. O, *musiqi* ilə müşayiət olunan *səmaların* keçirilməsinə icazə vermişdir.

**ŞAHİKÜL-CƏBƏL** – ***müxtəlif səbəblərdən Allahın göndərdiyi dinlərdən heç biri ilə tanış olmayan insanlardır.*** İlahiyyatçıların bu insanların durumu haqqında müxtəlif fikirləri olmuşdur. Bəziləri şahikül-cəbəlin hamı ilə birlikdə *qiyamət* günü diriləcəklərini iddia etmişdirlər. Onlara görə mühakimədən sonra *Allah* onları heyvanlarla birlikdə məhv edəcəkdir. Onlar nə *cənnətlə* mükafatlanmayacaq, nə də *cəhənnəmdə* əzab görməyəcəklər.

**ŞAZİLİ ƏBÜLHƏSƏN** – bax: **ŞAZİLİLƏR**.

**ŞAZİLİLƏR** – ***sufi təriqətlərindən birinin ardıcıllarıdırlar.*** *Təriqətin* adı Əbülhəsən Əli ibn Abdullah Şazili (593/1196 – 657/1258) ilə bağlıdır. Onun soyu Tunisdə yerləşən Şazil kəndindən olmuşdur. Həyatı boyu o, uzaq səfərlərə çıxaraq oralardan zəngin biliklər əldə etmişdir. O, zamanının tanınmış *şeyxlərinin* vasitəsi ilə sufizmlə tanış

olmuş, sonra isə öz təriqətini təsis etmişdir.

Şeyx Əbülhəsən Şazili *müridlərini* hər zaman *Allahı* səssiz zikrlə anmağa çağırırdı. O, inzivaya çəkilməyi, bəzi sufilərin ucadan oxuduqları zikrləri, eləcə də *vəcd* (ekstaz) halına düşmələrini bəyənmirdi. Şaziliyə görə müridlər möminliyini sözdə deyil, öz həyatlarında göstərməlidirlər.

Şazililər insanları *şəriətin* yol verdiyi hər şeydən yararlanmağa çağırmış, aşırı *zahidliyə* qarşı olmuşdurlar. Onlara görə Allahın daim zikr edilməsi və mənəvi həyatı onu gündəlik işlərindən yayındırmamalıdır. Onlar üçün dünyəvi və mənəvi həyat birbirinin içində olmalıdır. Hər bir iş Allahı anmaqla, onun qarşısında *savab* qazanmaq istəyi ilə görülməlidir. Şazililərin başqalarından seçilmək üçün xüsusi geyimləri olmamışdır.

Allahdan qorxmaq, görülən işlərdə və sözlərdə *peyğəmbərin* göstərdiyi yola uymaq, xoşbəxtlikdə və çətinliklərdə yalnız Allaha sığınmaq, onun iradəsinə tabe olmaq və yalnız ondan yardım diləmək kimi müddəalar şazili təliminin əsasını təşkil edir.

Allaha yaxınlaşmaq yolunu şazililər "ayıq" (*sahv*) olaraq həyata keçirib, "sərxoşluqdan" (*sukr*) çəkinirlər. Bununla da, onlar Cüneyd Bağdadinin yolu ilə gedirdilər. Şazililərin şeyxləri varislik deyil, seçki yolu ilə təyin olunur.

Əbülhəsənin vəfatından sonra şazililərə Abbas Mursi, ondan sonra isə əsərləri ilə şazililiyi Məğribdə tanıdan Təcəddin ibn Ətaulla İsgəndərani başçılıq etmişdir. Ancaq, zaman keçdikcə şazililər müxtəlif təriqətlərə parçalanmışdırlar. Onlardan bəziləri mənəvi təcrübələrində vəcddən istifadə edirlər. Bir çox Afrika bölgələrində onların təlimi yerli əhalinin *adətləri* ilə qarışmışdır. Buna görə də, onları bəzi müsəlman ənənə tərəfdarları tənqid etmişdirlər.

Şazililər Afrikanın bir çox xalqlarını müsəlmanlaşdırmışdırlar. Onlar həmçinin Avropa müstəmləkəçiliyinə qarşı mübarizə aparmışdırlar. Şazililik daha çox *Misir*, Şimali və Mərkəzi Afrika ölkələrində yayılmışdır.

**ŞEYBANİ MƏHƏMMƏD İBN HƏSƏN** (132/749 – 189/805) – ***hənəfi məzhəbinin üç nüfuzlu fəqihlərindən biri olmuşdur.*** Suriyada doğulub boya başa çatmış, sonra Kufəyə köçmüşdür. Burada o, *fiqhi məzhəblərin* təlimləri və onların ardıcılları ilə tanış olmuşdur. O dövrlərdə bu şəhər Xilafətin mədəni mərkəzlərindən biri olmuşdur. Oradakı mühit Şeybaninin inkişafına böyük təsir göstərmişdir. Onun müəllimləri *Əbu Hənifə* və *Əbu Yusif* kimi zamanəsinin tanınmış alimləri olmuşdurlar.

Təhsilini başa vurduqdan sonra Şeybani mükəmməl *fəqih* kimi müstəqil hökmlər verməyə başlamışdır. Xilafətin bir çox yerlərindən ondan dərs almaq üçün tələbələr gəlirdilər. Onlardan biri də *Şafii* olmuşdur. Abbasi *xəlifəsi* Harun ər-Rəşidin dövründə siyasi baxışlarına görə Şeybani qısa müddət təqib olunmuş, ancaq sonra etibar qazandıqdan sonra Xorasanda *qazi* vəzifəsinə təyin olunmuş və orada da vəfat etmişdir.

**ŞEYX** – ***nüfuzlu dini xadim, müdrik insan və sufi təriqətinin başçısıdır.*** *Şeyxin* vəzifəsi *müridlərinə* mənəvi yolçuluqda yol göstərərək onların mənəvi inkişaflarına təkan verməkdir. Şeyx *təriqətlə* yanaşı, İslam şəriətini də bilməli, Quran və hədisləri təfsir etməyi bacarmalıdır. Bundan başqa o, yüksək əxlaqı və dərin mənəviyyatı ilə digərlərindən seçilməlidir. Şeyxi "*mürşid*" də adlandırırlar.

**ŞEYX SƏDUQ** (381/991-ci ildə vəfat etmişdir) – ***tanınmış şiə ilahiyyatçısı və fəqihi olmuşdur.*** Büveyhilər dövründə Bağdadda imami şiəliyinin təbliğatını aparmış, onun yayılmasında böyük işlər görmüşdür. Reydə (indiki Tehranda) vəfat etmişdir. Onun Əsl adı Məhəmməd ibn Əli ibn Babaveyh Qumi olmuşdur. Şiə ənənəsində o, *İslamın* ilk mənbələrinin ən böyük bilicilərindən biri hesab

edilir. Şeyx Səduq şiə əqidəsi və *fiqhi* üzrə 200-ə yaxın əsərlərin müəllifi olmuşdur. Onun *hədislər* toplusu *isna-əşərilərin* başlıca qaynaqlarından biridir. Şeyx Səduqun ən tanınmış əsəri fiqh kitabı olan "Mən lə Yəhzuruhül-Fəqih" əsridir. Orada altı minə yaxın hədis toplanmışdır.

**ŞEYTAN** – ***dünyada şəri təmsil edən bir varlıq və ya gücdür.*** Dini rəvayətlərə görə şeytanların sayı çoxdur, onlar hətta insanların da arasında mövcuddurlar. Onların başında isə *İblis* gəlir. O ilk insan *Adəmə səcdə* etmədiyinə görə *Allahın* qəzəbinə gəlmiş və *cəhənnəm* əhli olmuşdur (*Quran*, 15: 28-42, 18: 50). Ancaq, o Allahdan *qiyamətə* qədər möhlət istəyərək dünyada insanlar arasında fitnə-fəsad törətmək imkanı qazanmışdır. Sonra Allah Adəm və Həvvanı *cənnətdə* yerləşdirmiş, orada onlara alma ağacın meyvəsini yeməyi *haram* etmişdir. Ancaq, orada İblis onları yoldan çıxarmış və onlar o meyvəni yeyib *günaha* batmışdırlar (Quran, 7: 20). Ancaq, sonra onlar *tövbə* etdiklərinə görə (Quran, 7: 23) Allah onları bağışlayıb yerə endirməklə cəzalandırmışdır (Quran, 20: 123). Beləliklə, İblis bütün insanların düşməni olmuş və onları yoldan çıxarmaq cəhdlərini qiyamətə qədər davam edəcəkdir (Quran, 35: 6). Bu işi həyata keçirmək üçün onun şeytanlar ordusu vardır. Hətta, *hədislərə* görə hər insanın öz şeytanı vardır.

**ŞƏFA** – ***xəstəlikdən sonra sağlamlığa qovuşmadır.*** İlahiyyatçılara görə sağlamlığı yalnız *Allahdan* diləmək lazımdır. Çünki, dərman və digər vasitələr Allahın istəyi olmadan insanı sağaltmaz, çünki onlar yalnız Allahın istəyini gerçəkləşdirən vasitələrdir.

**ŞƏFAƏT** – ***qiyamət günü günahkar müsəlmanların bağışlanmasını diləmək üçün Allaha edilən duadır.*** İlahiyyatçılar bunu *hədislərə* və *Quran* ayəsinə (20: 109) istinad edərək iddia edirlər. Onların çoxu yalnız *Məhəmməd* peyğəmbəri şəfaətçi kimi tanıyırlar. Hədislərə görə *qiyamətdə* hamı mühakimə olunacaqdır. İnsanlar çıxılmaz vəziyyətdə olduqlarını duyan kimi öz zamanının peyğəmbərlərinə üz tutacaq, onlardan şəfaət duasının edilməsini diləyəcəklər. Sonda isə bu duanı Məhəmməd *peyğəmbər* edəcəkdir. Bunun da nəticəsində *Allah* bu insanları bağışlayıb, *cənnətin* qapılarını onların üzünə açacaqdır. Ancaq, başqa peyğəmbərlərin, şiə imamlarının, digər müqəddəslərin də şəfayətçi ola biləcəyinə inananlar vardır.

**ŞƏHİD** – ***din uğrunda düşmənə qarşı savaşda həlak olan müsəlmandır.*** O savaşda birbaşa düşmən tərəfindən öldürülən və ya orada xəstəlikdən, yaralardan və başqa səbəblərdən dünyalarını dəyişə bilərlər. Şəhidlərin fəziləti, *günahlarının* bağışlanacağı, *cənnətə* girəcəyi haqqında *Quranda ayələr* vardır (3: 169-172, 3: 195). Geniş mənada *Allahın* adı ilə ədalətin qurulması, zülmün ortadan qaldırılması uğrunda döyüşdə ölən hər bir kəsə şəhid deyirlər. Bütün *fiqhi məzhəblərə* görə şəhidlər yuyulmamalı, öz geyimində torpağa tapşırılmalıdırlar. Hədislərə görə *Uhud* döyüşündən sonra *Məhəmməd peyğəmbər* vəfat etmiş müsəlman döyüşçülərinə belə dəfn etmişdir. Fiqhi məzhəblərə görə Allah rizasını qazanmaq üçün deyil, *qənimət* əldə etmə, şöhrət qazanma və s. başqa məqsədlərlə vuruşub ölən müsəlmanlar isə şəhid hesab edilmirlər.

**ŞƏHRİSTANİ MƏHƏMMƏD** (548/1153-cü ildə vəfat etmişdir) – ***tanınmış İslam tarixçisi və fəqihi olmuşdur.*** O, Xorasanın şimalında yerləşən Şəhristan şəhərində doğulmuş və orada təhsil almışdır. 510/1116-cı ildə Bağdada köçərək orada Nizamiyyə mədrəsəsində müəllimlik etmişdir. Şəhristani bir çox məşhur əsərlərin müəllifi hesab edilir. Onun bütün dünyada tanınmış əsəri "Kitabül-Miləl vən-Nihəl" (Dinlər və təriqətlər kitabı) olmuşdur. Bu

kitabda o, müxtəlif *İslam təriqətləri*, eləcə də din və fəlsəfi məktəblərin tarixi və təlimi haqqında məlumat vermişdir.

**ŞƏMUN** – ***İsrail oğullarına mənsub mömin bir insan olmuşdur.*** Rəvayətlərə görə o, İsa peyğəmbərdən sonra, *Məhəmməd peyğəmbərdən* əvvəl yaşamış və din uğrunda uzun illər mübarizə aparmış bir şəxsdir. Onun igidliyi və qorxmazlığı haqqında möcüzələrlə dolu rəvayətlər vardır.

**ŞƏRİƏT** – ***müəyyən bir dinin hüquqi və əxlaqi normalarının ümumi məcmuəsidir***. Bu anlamda işlədilən "şəriət" sözü bir çox Quran ayələrində anılır (42: 13, 45: 18). *İslama* görə *peyğəmbərlərin* gətirdikləri hər bir yeni şəriət özündən əvvəlki şəriəti ortadan qaldırır və yeni şəriət qaydalarını formalaşdırır. Ancaq, yeni şəriətdə əvvəlki şəriətlərdən uyğun olan müddəalarda yer alır. Müsəlmanlar inanırlar ki, ən son şəriət İslamdır və bu şəriət *qiyamət* gününə qədər dəyişməz olaraq qalacaqdır. Müsəlmanların əqidələrinə görə şəriətin mənşəyi *Allahdır*. O, *vəhy* yolu ilə peyğəmbərlərə dini açıqlamış, peyğəmbərlərdə ilahi mesajı insanlara çatdırmışdırlar. İslam şəriətinin qaynaqları *Quran, hədis, icma* və *qiyasdır.* İslamda şəriət ibadət, etiqad, cəmiyyət münasibətləri, cinayət və cəza məsələlərini əhatə edir.

**ŞƏRİFLƏR** – ***Məhəmməd peyğəmbərin nəvəsi Həsənin soyundan olanlardır.*** Misirdə *Fatimilərin* xəlifəliyi dövründə (297/910 – 567/1171) *Məhəmməd peyğəmbərin* qızı *Fatimənin* hər iki oğlu *Həsən* və *Hüseynin* soyundan olanları *şəriflər* adlandırırdılar. Ancaq, sonra yalnız Həsənin soyundan olanları belə adlandırılmağa başlanmışdır.

Şəriflər də *seyidlər* kimi Xilafətin müxtəlif dövrlərində, siyasi səbəblər üzündən təqib olunmuşdurlar. Abbasi *xəlifəsi* Əbu Cəfər Mənsurun (139/754 – 158/775) xəlifəliyi dövründə şəriflər təqib olunmuş, Harun ər-Rəşidin dövründə isə onlara böyük sayğı və və ehtiram göstərilmişdir. O zaman şəriflər cübbə adlanan yaşıl rəngli uzun geyim və baş örtüyü geyinirdilər. *Məmlüklər (I)* dövrü və Osmanlı imperiyasında da onlar buna bənzər geyimlər geyinmişdirlər.

*Abbasilər* dövründən başlayaraq seyidlər və şəriflərin işlərinə nakiblər adlanan dövlət məmurları baxırdılar. Şəriflərdən dövlət başçıları və valilər təyin edilirdi. Onlardan hətta *Məkkə* valiləri də təyin olunurdu. Ayrıca, Şimali Afrikadakı İdrisilər dövlətinin kralları da şəriflər olmuşdur.

**ŞƏRT** – ***hər hansı bir dini ibadət, ayin və ya dini buyruğun şəriətə uyğun yerinə yetirilməsi üçün ondan qabaq yerinə yetirilməsi vacib olan hərəkət və ya davranışlardır.*** Məsələn, namazın *şəriət* qaydalarına uyğun qılınması üçün əvvəlcə *dəstəmaz* almaq, üzü *qibləyə* durmaq və s. şərtlər lazımdır. Bütün bu şərtlərin yerinə yetirilməsi *namaz* ibadətinin düzgün icra edilməsinə dəlalət etməkdədir. Əgər müsəlman dini vəzifələri icra edərkən şərtlərə əməl etməzsə, onda *məzhəblərin* çoxuna görə yerinə yetirilən ibadət *batil* (pozulmuş) hesab edilir. Bəzi ilahiyyatçılar isə onları *fasid* (korlanmış) hesab edirlər.

**ŞƏVVAL** – ***hicri təqviminin onuncu ayıdır.*** Şəvval *Ramazan* ayından sonra girdiyi üçün onun birinci günündə *oruc* bayramı qeyd edilir. Bu ayda altı gün oruc tutmaq *savab* hesab edilir. *Hədislərə* görə Ramazan ayında və Şəvvalın altı günündə oruc tutan müsəlman bütün il boyu oruc tutmuş kimi olur. Oruc bayramı günü oruc tutmaq isə *haramdır*.

**ŞƏYA** – ***Musa peyğəmbərin şəriətini yaymış İsrail peyğəmbərlərindən biri olmuşdur.*** Onlar doğru yoldan sapdıqlarına görə *Allah* onları doğru yola dəvət etmək üçün Şəyanı göndərmiş, ancaq onun dinə dəvəti bir nəticə verməmişdir. Sonra israillilərlər onu öldürmüşdürlər. Bundan sonra Allah onları cəzalandırmışdır. *Babil* krali *Buhtunnəsri* İsraili məğlub edərək darmadağın, xalqını isə sürgün etmişdir.

**ŞƏZZ** – ***hədis elmində etibarlı ravilərin rəvayət etdikləri hədislər ilə ixtilaf təşkil edən digər etibarlı ravilərin rəvayət etdikləri hədislərdir.*** Bu kimi *hədislər* istisna hallarda *fiqhdə* dəlil kimi göstərilir.

**ŞİƏLƏR** – ***Əli ibn Əbu Talibi və onun soyundan olan imamları xəlifə və dini rəhbər kimi qəbul edən müsəlmanlardır.*** Sayca *sünnilərdən* sonra ikinci ən böyük müsəlman *məzhəbidir*. İslam tarixinin ilk dövrlərində şiəlik siyasi bir cərəyan kimi ortaya çıxmışdır. Sonrakı dövrlərdə isə öz dini dünyagörüşlərini formalaşdıraraq məzhəbə çevrilmişdir. Tarixdə çoxlu şiə məzhəbləri olmuşdur. Onların bəzilərini *Əli ibn Əbu Talibi* və onun soyundan olan imamları tanrılaşdırdıqlarına görə "qulat" ya "əliilahi" adlandırılmışdırlar. Onlar druz, ələvi, nüseyrilər kimi dini cərəyanlarda təmsil olunurlar. Bu dini cərəyanların ardıcılları Türkiyədə, Suriyada və Livanda yaşayırlar. Şiələrin çoxluğunu *isna-əşərilər* təşkil edir. Onlar Azərbaycanda, İranda, İraqda, Bəhreyndə və Yəməndə yaşayırlar. *Zeydi* şiəliyi isə əsasən Yəməndə geniş yayılmışdır. Qeyd etmək lazımdır ki, şiə azınlığı bütün müsəlman ölkələrində mövcuddur.

Şiəliyin tarixi *İslamın* erkən dövrlərindən başlayır. 11/632-ci ildə *Məhəmməd peyğəmbərin* vəfatından sonra mədinəli *ənsarlar* təcili olaraq yığışıb *Səd ibn Übədə* adlı nüfuzlu bir səhabəni *xəlifə* elan etmişdirlər. Ancaq, o zaman *mühacirlərdən* olan *Əbu Bəkr, Ömər və Əbu Übeydə* onların toplantı yerinə gəlib xəlifənin soyunun mədinəli deyil, Məkkənin *Qureyş* qəbiləsindən olmasının daha məqsədəuyğun olmasını iddia etmişdirlər. Mədinəlilər bu iddia ilə razılaşmalı olmuşdurlar. Elə orada da Əbu Bəkr xəlifə elan olunmuş və sonra müsəlmanların çoxu ona beyət etmişdir. Ancaq, onun namizədliyi ilə razılaşmayan və xəlifəliyə Əli ibn Əbu Talibin daha çox layiq olduğunu iddia edənlərdə olmuşdur. Onların arasında *Əbu Zər Ğəffari, Səlman Farisi* kimi çox nüfuzlu səhabələr də yer alırdılar. Müəyyən vaxtdan sonra onlar çoxluğa tabe olaraq Əbu Bəkrin və onun varisi olacaq Ömərin xəlifəliklərini tanımışdırlar.

Xəlifə *Osmanın* vəfatından sonra 34/656-cı ildə Əli ibn Əbu Talib xəlifə seçilmişdir. Ancaq, onun dövründə Xilafətin müxtəlif bölgələrində mərkəzi hakimiyyət zəifləmiş, üsyanlar ölkəni bürümüş, hətta vətəndaş müharibəsi belə başlamışdır. Onun əsas rəqibləri Müaviyə ibn Əbu Süfyan, eləcə də *xaricilər* olmuşdurlar. Elə o dövrdə, şiələr bir siyasi güc kimi formalaşıb fəaliyyət göstərməyə başladılar.

39/661-ci ildə Əli qəsd nəticəsində *şəhid* edilmişdir. Onun oğlu Həsən isə mübarizəni davam etdirmək gücündə olmadığına görə o, hakimiyyəti Müaviyəyə təslim etmək məcburiyyətində qalmışdır.

Ancaq, şiələr bundan sonra da Müaviyə və digər Əməvi hökmdarlarına qarşı müqavimətlərini davam etdirmişdirlər. Onlar *Əməvilərin* sülalə hakimiyyətini tanımamış, yalnız Əlinin soyundan olan insanları *imamətə* və Xilafətə layiq görmüşdürlər.

Müaviyənin ölümündən sonra onun oğlu Yəzid xəlifə elan olunmuşdur. Ancaq, onun hakimiyyətini Xilafətin bir çox bölgələrində tanımamışdırlar. Həmin vaxt şiələr daha da aktivləşmiş və Əlinin oğlu Hüseynə beyət etmişdirlər. O da öz tərəfdarlarının çağırışına

səs verərək Kufəyə doğru yola çıxmış, ancaq yolda Kərbəlada Əməvi qoşunu ilə qarşıdurmada 58/680-ci ildə öldürülmüşdür.

Onun vəfatından sonra Xilafətdə vətəndaş qarşıdurması daha da çox qızışmışdır. Yəzid taxtdan salınmış, Əməvilərin nüfuzu yalnız Suriyada qalmışdır. Bu əlverişli şəraitdə şiələr hakimiyyəti ələ ala bilməmişdirlər. Nəticədə, Xilafətin cənubunda *Abdullah ibn Zübeyri* xəlifə kimi tanımışlar. Onun xəlifəliyi dövründə şiələrin *qeysanilər* adlanan bir qismi Əli ibn Əbu Talibin oğlu Məhəmməd ibn Hənəfiyyəyə beyət edib üsyan qaldırmışdırlar. Onlar həm Əməvilərə, həm də Abdullah ibn Zübeyrə qarşı vuruşmuş, sonra isə ona məğlub olmuşdurlar.

Bundan sonra Əməvilər güclənib bütün Xilafətdə hakimiyyətlərini bərpa etmişdirlər. Şiələr isə bundan sonra onlara müqavimət göstərmişdirlər. Onların daha bir üsyanına Əli nəslindən olan *Zeyd ibn Əli* rəhbərlik etmiş, ancaq o da öldürülmüşdür. Onun davamçıları isə *zeydi məzhəbinin* təməlini qoymuşdurlar.

Şiələr üçün ən əlverişli vəziyyət Əməvi hakimiyyətinin sonunda yaranmışdır. O zaman bütün Xilafəti üsyanlar bürümüşdür. Hakimiyyətə isə şiələr və Abbasilər iddia edirdilər. Ancaq, Abbasilər təşəbbüsü ələ alaraq Əməvilərə qarşı üsyanları təşkil edib onlara rəhbərlik etdilər. Bu səbəbdən də, şiələrin namizədi olan *Cəfər Sadiq* son məqamda ona təklif olunmuş hakimiyyətdən imtina etmişdir. Bundan sonra xilafətə Abbasilər gəlmişdirlər və siyasi rəqibləri olan Əli tərəfdarlarını təqib etməyə başlamışdırlar.

Şiələrin hakimiyyət mübarizəsindəki uğursuzluqları, verdikləri çoxsaylı qurbanlar və ardı kəsilməyən təqiblər nəticəsində onların arasında *qeybdə* olan və ədaləti bərpa etmək üçün gələcək *Mehdi* inancı formalaşmışdır. Ancaq, onun kim olacağı barəsində şiələr birliyə gələ bilməmişdir. Hər dini cərəyan öz imamlarından birini Mehdi hesab etmişdirlər.

Bundan başqa Əli ibn Əbu Talibin *Fatimədən* olan iki oğlu Həsən və Hüseyn var idi. Ona görə də, onun sülaləsi hüseyni və həsəni qollarına bölünmüş və onların hərəsinin öz tərəfdarları olmuşdur. Ancaq, həsənilər fundamental məzhəb yarada bilməmişdirlər, onların özlərinə məxsus dini dünyagörüşləri olmamışdır. Onların yalnız siyasi fəaliyyətləri olmuşdur. Hüseynilər isə *fiqh* sahəsində inkişaf edərək öz məzhəblərini formalaşdıra bilmişdirlər.

Bundan başqa Əli ibn Əbu Talibin digər zövcələrindən də övladları olmuşdur. Onlardan biri olan Məhəmməd ibn Hənəfiyyəni *qeysanilər* imam kimi tanımışdırlar. Elə o zaman da şiəlik siyasi cərəyandan dini məzhəbə çevrilməyə başlamışdır. Onların özlərinə məxsus dini dünyagörüşləri və fiqhi məktəbləri yaranmışdır. Əli nəslinin nümayəndələrindən ibarət olan və sülalə sistemi ilə qurulmuş *imamət* təkcə hakimiyyət vasitəsi kimi deyil, həm də mənəvi rəhbərlik, ali müqəddəslik kimi başa düşülməyə başlamışdır.

Abbasilər dövründə bir-biri ilə rəqabət aparan şiə məzhəblərinin çoxalması prosesi davam etmişdir. Onların arasında ən böyük *ixtilaf* II/VIII əsrin ortalarında baş vermişdir. O zaman şiələrin çoxu altıncı imam kimi Cəfər Sadiqi tanıyırdılar. Onun vəfatından sonra bir çoxları onun kiçik oğlu Musa Kazımı imam elan etmişdirlər. Digərləri isə Cəfərin ölmüş oğlu İsmaili və onun oğlu Məhəmmədi imam kimi tanımışdırlar. Buna görə də, onları *ismaili* və ya "yeddiimamçılar" adlandırmışdırlar. Məhəmmədin ölümündən sonra *ismaililər* onun varislərinin qeybə çəkildiklərini elan etmiş və onların tərəfdarları imamların zühurunu gözləməyə başlamışdırlar. İsmaililərin inancına görə qeybdə olan imamları diridir, sadəcə

hakimiyyətin təqiblərindən gizlənmiş və məqamı çatdıqda zühur edəcəkdir. Qeyb zamanı o, bəzi tərəfdarları vasitəsi ilə *ümmətlə rabitə* saxlamışdır.

*İsmaililər* Misir və Şimali Afrikada *Fatimilər* Xilafəti kimi böyük və güclü bir ölkə yaratdıqdan sonra onlar qeyb dövrünün bitdiyini elan etmişdirlər. Ancaq, Fatimi xilafəti dağıldıqdan sonra onların təlimi iflasa uğramış və yenidən qurulmağa başlamışdır. Onlardan *nizarilər* və *müstəlilər* kimi qollar ayrılmışdır.

Musa Kazımın imamətini tanıyanlar isə isna-əşəri şiəliyinin əsasının qoymuşdurlar. Ondan sonra onlar daha bir neçə nəfəri imam kimi tanımışdırlar. Onların tanıdıqları imamların sayı 12 olduğuna görə onları isna-əşəri (oniki-imamçı) adlandırırlar. Onlar sonuncu imamı Mehdi elan edərək onun diri olub zühür edəcəyinə inanmışdırlar.

Onikiimamçı şiəlik bir zaman Büveyhilər dövləti tərəfindən dəstəklənmişdir. Büveyhilər 334/946 – 467/1075-ci illərdə Abbasi xəlifələrini özlərinə tabe etdirmişdirlər. Elə o zaman oniki-imamçı şiələr öz ilahiyyatlarını və *cəfəri* adlanan fiqhlərini inkişaf etdirmiş, bu məzhəbi İslamın ən aparıcı məzhəblərindən birinə çevirə bilmişdirlər. Bundan sonra oniki-imamçı şiəlik X/XVI əsrdən sonra Səfəvilər və Qacarlar dövlətinin rəsmi məshəbi olmuşdur. Miladi 1979-cu ildə İranda baş vermiş inqilabdan sonra isna-əşərilik bu ölkənin rəsmi məzhəbinə çevrilmişdir.

Başqa siyasiləşmiş şiə *təriqətləri* də tarix boyu müxtəlif ölkələrdə hakimiyyəti ələ ala bilmişdirlər. Məsələn, III/IX əsrdə Təbəristan və Yəmənin şimal bölgələri zeydi imamları tərəfindən idarə olunurdu. Yəməndə onların hakimiyyəti XIV/XX əsrə qədər davam etmişdir. Zeydi məzhəbi bu gün də Yəməndə böyük nüfuza malikdir. Onların öz ilahiyyatı və fiqhi vardır. *Zeydiləri* başqa şiə təriqətlərindən fərqləndirən cəhətləri odur ki, onların arasında Mehdinin qeybdə olması və zühur etməsi ideyaları inkişaf etməmişdir. Həsənilər isə Şimali Afrika (Məğribdə), Məkkə və bəzi digər bölgələrdə çox böyük nüfuza malik olmuş və dövlətlər qura bilmişdirlər.

**ŞİRK** – ***kimi və ya nəyi isə Allaha ortaq qoşmaq və ona tapınmaqdır.*** *İslam* əqidəsinə görə şirk ən ağır *günahlardan* biri hesab edilir. Əgər şirk edən insan *tövbə* etməzsə, *Allah* onu əsla bağışlamaz (*Quran*, 4: 48). Bəzi İslam alimləri şirki böyük və kiçik olmaqla iki yerə ayırmışlar. Onlar böyük şirki Allahdan başqasına tapınmaq, kiçik şirki isə Allaha ortaq qoşmaq kimi dəyərləndirmişlər. Məsələn, pis gözdən qorunmaq üçün gözmuncuğunun boyundan asılması, xoşbəxtlik gətirsin deyə at nalının qapılara vurulmasını göstərmək mümkündür. Kiçik şirk müsəlmanı İslamdan çıxarmasa da, yenə də çox ağır günahlardan hesab edilir.

**ŞİT** – ***Adəmin oğlu olmuşdur.*** *Qurana* görə *Adəmin* oğlu *Qabil*, qısqanclıq səbəbi ilə qardaşı *Habili* öldürmüşdü. Rəvayətlərdə deyilir ki, *Allah* öldürülmüş *Habilin* yerinə Adəmə Şit adlı başqa bir oğlan uşağını verməklə onu müjdələmişdir. Şit atası Adəmin sevimli oğlu olmuşdur. Adəm ona Allahdan öyrəndiyi müxtəlif bilikləri və sirləri öyrədərək onu öz mənəvi varisi etmişdir. Adəmin vəfatından sonra Allah Şiti *peyğəmbər* kimi vəzifələndirmiş, ona 50 səhifəlik *sühuf* endirmişdir. Rəvayətlərə görə o, ardıcılları ilə birlikdə minə qədər şəhər salmışdır. Orada insanlar xoşbəxtlik içində yaşamışdır.Yenə rəvayətlərə görə, Şit ətraf bölgələrə səyahətlər etmişdir. Yəməndə olanda o, Qabilin soyundan olan yollarını azmış qəbilələri doğru yola dəvət etmişdir. Ancaq, onlar Şiti və onun tərəfdarlarını eşitmək istəməmiş, onlara qarşı gəlmişdirlər. Buna görə də, Şit bu qəbiləyə qarşı

savaşmışdır. Bu tarixdə din uğrunda aparılan ilk savaş olmuşdur və bu savaş Şitin tərəfdarlarının qələbəsi ilə nəticələnmişdir. Daha sonra rəvayətlərdə qeyd edilir ki, Şit Adəmlə birlikdə *Kəbə* evini inşa etmişdirlər. Rəvayətlərə görə Şit peyğəmbər iki yüz ildən artıq yaşamışdır. Atası Adəmin Minadakı *məzarının* yanında torpağa tapşırılmışdır. Onun ölümündən sonra insanlar doğru yoldan uzaqlaşmışdır. Buna görə də, Allah onları hidayətə dəvət etmək üçün İdris peyğəmbəri göndərmişdir.

**ŞÜEYB** – ***Qurana əsasən Mədyən və Əykə xalqlarına göndərilmiş peyğəmbər olmuşdur.*** O, *İbrahim* peyğəmbərin *şəriəti* ilə hökm vermişdir. Rəvayətlərə görə Şüeyb Ərəbistanda yaşamış *Mədyən* xalqından idi. Onun xalqı doğru yoldan uzaqlaşaraq *bütpərəst* olmuşdurlar. Onlar insanları ticarətdə aldatmış və başqa əxlaqsızlıq əməllər törətmişdirlər. Buna görə də, *Allah* Şüeybi insanları doğru yola dəvət etmək üçün *peyğəmbər* olaraq vəzifələndirmişdir (Quran, 7: 85-87). Mədyənlilər onun dəvətini rədd etmiş, özünü isə hədələmişdirlər (*Quran*, 7: 88). Buna baxmayaraq Şüeyb xalqını doğru yola gətirmək cəhdlərini davam etmişdir. Onun peyğəmbərliyi haqqında xəbərlər Şama qədər gedib çıxmışdır və onun yanına bu yerlərdən insanlar gəlib Allahın dinini qəbul etmişdirlər. Buna baxmayaraq Şüeybin öz xalqı onun peyğəmbərliyini tanımamış, yanına gələnlərə isə onun haqqında yalanlar söyləyərək *iftira* etmişdirlər. Onda Şüeyb yolundan azmış xalqını Allahın cəzası ilə hədələmişdir (Quran, 11: 93). Ancaq, bunun heç bir nəticəsi olmamışdır. Ona görə də, Allah bu xalqı cəzalandıraraq məhv etmişdir (Quran, 29: 37).

Şüeyb peyğəmbər isə öz az saylı davamçıları ilə birlikdə o yerlərdən uzaqlaşıb başqa bir bütpərəst *Əykə* xalqının yaşadığı ərazidə məskunlaşdılar (Quran, 15: 78). Şüeyb peyğəmbər onları doğru yola çağırmış, əykəlilər isə ondan möcüzələrin göstərilməsini tələb etmişdirlər. Şüeyb peyğəmbər bu möcüzələri göstərdikdən sonra bəzi əykəlilər imana gəlsələr də, onların çoxu onu peyğəmbər kimi tanımamışlar. Buna görə də, Allah onları quraqlıq və aclıqla sınağına çəkmişdir. Ancaq, əykəlilər öz yollarından əl çəkməmişdirlər. Sonda isə Allah bu xalqı da məhv etmişdir (26: 176-189). Şüeyb peyğəmbər isə doğru yola gəlmiş mədyənli və əykəlilərlə Mədyənə qayıtmışdır. Orada Şüeyb bir qızla evlənmiş və bu evlilikdən onun iki qızı olmuşdur. Sonra isə Şüeybin yanına *Musa* peyğəmbər gəlmiş, onun qızı ilə evlənmiş, daha sonra isə *Misirə* qayıtmışdır. Şüeyb də Musanın yanına Misirə getmiş, sonra isə *Məkkədə* məskunlaşmış, orada da vəfat etmişdir. Rəvayətlərə görə Zəmzəm quyusunun yanında torpağa tapşırılmışdır. Başqa rəvayətlərə görə isə o, Misirdə vəfat etmişdir.

# T

**TABİUNLAR** – ***səhabələri görmüş, onlardan dini biliklər əldə etmiş inanclı müsəlmanlardır.*** Bəzi *hədislərdə* Məhəmməd *peyğəmbər* onları səhabələrindən sonra ən yaxşı müsəlman nəsli adlandırmışdır. Bəzi ilahiyyatçılar hesab edir ki, *Quranın* 59: 10 ayəsində məhz onlardan bəhs edilir. Onların nəsli təxminən hicrətin 120-ci ilinə qədər davam etmişdir. Demək olar ki, bu dövr bütün *Əməvi* hakimiyyəti dövrünü əhatə etmişdir. Tabiunlar dini *adətlərin* və *İslamın* ilk mənbələrinin qorunub saxlanılmasında və gələcək nəsillərə ötürülməsində böyük işlər görmüşdürlər. Onlar *fiqh* elminin əsaslarını qoymuş, Quran *təfsiri* və hədis elmini inkişaf

etdirmişdirlər. Eləcə də onlar *hədislərin* rəvayət edilmə və seçilməsi metodologiyasını da yaratmışdırlar. Tabiunların dini problemlər üzrə fikirlərini, mülahizələrini və *rəylərini* sonrakı ilahiyyatçılar dəlil və sübut kimi qəbul etmişdirlər.

**TABUT ƏS-SƏKİNƏ** – ***içində İsrail xalqına məxsus müqəddəs əşyaların olduğu güman edilən bir sandıqdır.*** Rəvayətlərə görə orada *Musa peyğəmbərə* verilmiş *Tövratın* lövhələri, onun dəyənəyi və geyimi, *Harun* peyğəmbərin sarğısı və başqa əşyalar qorunub saxlanılırdı. Bu sandıq *İsrail oğulları* və onların başçıları tərəfindən qorunurdu. Ancaq, *Allah* onlara *İşmoil* peyğəmbəri göndərməzdən öncə israillilər amalikalılara məğlub olmuş, onlar da sandığı ələ keçirib özləri ilə aparmışdılar. Bundan sonra israillilərin çarı *Talut* olmuşdur. O, amalikalılarla vuruşub, tabut əs-səkinəni geri qaytarmışdır. *Süleyman* peyğəmbər *Qüdsdə* məbədi tikib qurtarandan sonra sandıq orada saxlanılırdı. *Babil* kralı *Buhtunnəsr* Qüdsü ələ keçirənə qədər sandıq o məbəddə saxlanılmışdır. Babillilər şəhəri ələ keçirdikdən sonra Tabut əs-Səkinə itmişdir. Bu gün də İsrail oğulları bu sirli sandığı axtarmaqdadırlar.

**TAĞUT** – bax: **CİBT.**

**TALAQ** – ***evliliyin pozulması və ya boşanma hadisəsidir.*** Ənənəyə görə boşanma qərarı yalnız kişi tərəfindən verilir. Bunu edərkən o sağlam düşüncəli olmalı, sərxoş olmamalı, boşanmaya məcbur edilməməlidir. Eləcə də, boşanarkən qadın heyz halında olmamalıdır. Boşanma baş tutduqdan sonra qadın yenidən ərə getmək üçün *iddə* müddətini gözləməlidir. Qadın boşandıqda isə qadının *mehri* onda qalmalıdır. Müəyyən səbəblərdən evlilik məhkəmənin hökmü ilə də pozula bilər.

**TALUT** – ***Bəni İsrailin kralı olmuşdur.*** Talut *İşmoil* peyğəmbərdən sonra onun tövsiyəsi ilə israilliləri idarə etmişdir. Rəvayətlərə görə *Misir* və *Fələstin* arasında yaşamış Amalika tayfası israilliləri bir çox döyüşlərdə məğlub edərək onlara işgəncələr vermişdirlər. Onda onlar İşmoil *peyğəmbərdən* onlara başçılıq edəcək və amalikalılar üzərində üstünlüyü qazandıracaq bir kəsi onlar üçün kral təyin etməsini istədilər. O da, soyu *Yaqub* peyğəmbərin oğlu *Binyaminə* yüksələn Talutu seçmişdir (*Quran*, 2: 247).

Talut kral olmaq üçün ən real namizəd idi. Rəvayətlərdə o igidliyi, qətiyyətli, iti düşüncəli, bilikli, ədalətli və fiziki cəhətdən güclü olması ilə seçilirdi. Ancaq, israillilər Talutu öncə bəyənməmiş, sonra kral kimi qəbul etmişdirlər. O da, xalqını amalikalılara və başqa Fələstin qəbilələrinə qarşı savaşa aparıb, onları məğlub edə bilmişdir. O zaman israillilərin qoşununda döyüşmüş *Davud*, amalikalıların başçısı olan *Calutu* öldürmüşdür. Bundan sonra Davud Talutun qızı ilə evlənmiş, onun ölümündən sonra isə İsrailin kralı olmuşdur. Talut qırx ilə yaxın *İsrail oğullarına* başçılıq etmişdir.

**TARUH** – ***bəzi rəvayətlərə görə İbrahim peyğəmbərin atası olmuşdur.*** *İbrahimin* yetkinlik yaşına çatmasından əvvəl vəfat etmişdir. Bu rəvayətlərə əsaslanan bəzi ilahiyyatçılar iddia etmişdirlər ki, *Quranın* 6-cı surəsinin 74-75-ci *ayələrində* İbrahimin atası kimi göstərilmiş bütpərəst *Azər* onun atası olmamış, onun atasının Taruh olduğu qeyd edilmişdir.

**TƏBƏƏT-TABİUN** – ***tabiunları görmüş, onlarla ünsiyyətdə olmuş, onlardan dərs almış inanclı müsəlmanların üçüncü nəslidir.*** Bir çox rəvayətlərdə onlar *peyğəmbər* səhabələrindən və *tabiunlardan* sonra ən inanclı nəsil adlandırılmışdır. Tabiunlar kimi təbəət-tabiunlar da *İslam* ənənəsini qorumuş,

inkişaf etdirmiş və gələcək nəsillərə ötürmüşdürlər. Onların arasından çoxlu ilahiyyatçı alimlər çıxmışdır.

**TƏBƏRANİ SÜLEYMAN** (260/873 – 360/970) – ***tanınmış təfsirçi, fəqih və mühəddis olmuşdur.*** O, *Fələstində* anadan olmuş, sonra İsfəhanda yaşamış, orada da vəfat etmişdir. Təbərani dövrünün tanınmış ilahiyyatçılarından dərs almışdır. O güclü yaddaşı ilə seçilmiş, 3000-dən artıq *ravi silsilələrini* əzbərdən bilmişdir. O, *hədis* və başqa dini elmləri öyrənmək üçün müsəlman dünyasının müxtəlif bölgələrinə səfərlər etmişdir. Onun "Mücəmül-Kəbir", "Mücəmül-Əvsat" və "Mücəmüs-Səqir" kimi əsərləri vardır.

**TƏBƏRİ MƏHƏMMƏD** (224/838 – 310/923) – ***görkəmli İslam tarixçisi, fəqihi, mühəddisi və təfsirçisi olmuşdur.*** Təbəristanda doğulmuş, Rey, Bəsrə, Küfə, *Mədinə*, Suriyada təhsil almışdır. Sonra o, Xilafətin paytaxtı Bağdada köçmüşdür. *İslam* dünyasının tanınmış alimləri onun müəllimləri olmuşdurlar. Təbərinin günümüzə gəlib çatmayan *məzhəbi* haqqında da məlumatlar vardır. Təbəri müxtəlif İslam elmləri üzrə böyük həcmli əsərlərin müəllifi olmuşdur. Bütün dünyada tananmış çoxcildli əsəri "Tarixur-Rusul vəl-Müluk" kitabıdır. Bu əsərdə İslam dininin və ölkələrinin ilk dövrlər tarixi qələmə alınmışdır. İslam tarixinin tədqiqatçıları üçün bu əsər çox əsaslı bir mənbədir. Buna görə də, Təbərini "İslam tarixinin atası" adlandırmışdırlar. Təbərinin tanınmış ikinci çoxcildli əsəri *Quranın təfsiri* olan "Cəmiül-bəyan fi Təvili Ayatül-Quran" adlı kitabıdır. Bundan başqa Təbərinin *fiqh* aid kitabları da olmuşdur. Ancaq, onun əsərlərinin bəziləri günümüzə gəlib çatmamışdır.

**TƏCDİDÜL-İMAN** – ***bilərəkdən və ya bilmədən insanı İslamdan çıxara bilən hər hansı bir əməl icra edildikdən sonra kəlimeyi-şəhadəti dilə gətirərək inancı yeniləməkdir.*** İlahiyyatçılara görə *İslamdan* çıxara biləcək söz və ya əməl təsadüfən işlədilmişdirsə onu deyən kəs İslamdan çıxmır. Ancaq təsadüf olsa belə, *tövbə* etməsi lazımdır. Dindən çıxaran söz və ya əməl bilərəkdən edilibsə, o zaman insan dindən çıxır. O, İslama yenidən qayıtmaq istəsə, o zaman inancını kəlimeyi-şəhadəti söyləməklə yeniləmədir.

**TƏCDİDÜN-NİKAH** – ***öncə İslamı tərk edib, sonra dinə yenidən qayıdan insanın öz həyat yoldaşı ilə yenidən nikahlarının bağlanmasıdır.*** *Fiqhə* görə ər və ya arvad *İslamı* tərk etsələr, onların evliliyi pozulmuş olur. Onlar yenidən İslama dönsələr yenidən *nikah* bağlamalıdırlar.

**TƏƏDDÜDÜZ-ZƏVCƏT** – ***bir neçə qadınla eyni zamanda nikahda olmaq, yəni poliqamiyadır.*** *İslam* dinində poliqamiyaya yol verilsə də, bu müəyyən *şərtlər* daxilində mümkündür. Kişinin eyni vaxtda dörd qadından artıq həyat yoldaşı ola bilməz. Qadın isə eyni vaxtda yalnız bir kişi ilə izdivacda ola bilər. Qadın başqası ilə yalnız boşandıqdan və *iddə* müddəti bitdikdən sonra evlənə bilər.

**TƏƏSSÜB** – ***hər hansı bir ideyaya aşırı bağlı olmaq, ona uyğun olmayan hər şeyi inkar etməkdir.*** Dini və ya *məzhəbi* təəsübkeşlik bir çox dindarlarda müşahidə edilməkdədir. Məhz, bir çox mənfi halların, hadisələrin və ictimai-siyasi gərginliklərin səbəbi də məhz budur.

**TƏFƏKKÜR** – ***hər hansı bir şey haqqında düşünməkdir***. Bir çox *Quran ayələri* (3: 191) insanları düşünməyə çağırır. Ancaq, ilahiyyatçılar *İslamın* ənənəvi dini dünyagörüşü ilə uzlaşmayan düşüncə və fikirləri rədd edirlər. Onlara görə düşüncə *Allahı* tanımaq, onun böyüklüyünü dərk etmək üçün lazımdır.

**TƏFSİR** – ***Quran ayələrinin şərh və izah edilməsidir.*** Təfsir *İslamda* əsas *elm* sahələrindən biridir. Rəvayətlərə görə *Məhəmməd* peyğəmbər *ayələrin* anlamlarını səhabələrinə açıqlamışdır. Bu izah və şərhlər *ravilər silsiləsi* ilə ötürülmüş, sonra təfsirçilər onları sistemləşdirmiş və kitablara salmışdırlar. Təfsir kitablarında qrammatik və linqvistik xüsusiyyətlərə də əhəmiyyət verilir.

*Quran* ayələrinin ən etibarlı təfsiri bir ayənin başqa ayələrlə şərh edilməsidir. Bu mümkün olmayanda başqa metodlara müraciət edilməlidir. Bunlardan birinci Quranın *hədislərlə* təfsiridir. Bu da mümkün olmayanda ayələr *müctəhidlərin rəyi* ilə təfsir edilir. Bunu etmək üçün onların dərin dini biliklərə malik olması tələb olunur. Təfsir elminin bir neçə sahəsi vardır. Quranın linqvistikası və fonetikasını öyrənən elm sahəsi "Qəribül-Quran" adlanır. Bu elmin tətbiq olunması ilə Quran ayələrinin düzgün anlaşılması mümkün olmuş, terminoloji və etimoloji mənaları açıqlanmışdır. Linqvistika və fonetika sahəsində ən fundamental əsərlər 132/750 – 300/912-ci illər boyu *Abbasilər* dövründə yazılmışdır. Quran ayələrin *nüzul* səbəblərini öyrənən elm "Əsbabül-Nüzul" adlanır. İslam ilahiyyatına görə hər bir ayə hər hansı bir səbəb üzündən nazil olmuşdur. Bu səbəblərin bilinməsi Quran ayələrinin düzgün başa düşülməsi üçün çox önəmlidir. Bundan başqa Quran ayələrində *fiqhi* və əqidə ilə bağlı məsələləri öyrənən "Əhkamül-Quran", ayələrin gizli anlamlarını öyrənən "Mütəşəbihül-Quran", Quranın fəziləti haqqında bəhs edən "Fədailil-Quran", onun forma və anlamını, möcüzələrini və bənzərsizliyini araşdıran "İcazil-Quran", Quranın çətin anlaşılan yerlərinə aydınlıq gətirən "Müşkülül-Quran" kimi təfsir sahələri də vardır.

Bundan başqa İslamı qəbul etmiş *yəhudilər* və xristianlar *israiliyyat* adlandırılan metod ilə Quranı təfsir etməyə başlamışdırlar. Bu metoddan sonralar müsəlman təfsirçiləri qismən istifadə etmişdirlər. Təfsir elmi inkişaf etdikcə müsəlman aləmində müxtəlif təfsir məktəbləri də ortaya çıxmışdır. Bundan sonra təfsir haqqında ilk əsərlər yazılmağa başlamış və bu ənənə sonralar da davam etmişdir.

**TƏFSİRÇİ** – bax: **MÜFƏSSİR.**

**TƏHARƏT** – ***bədəni nəcasətdən təmizləməkdir.*** *Fiqh* elminin böyük bir hissəsi "Təharət" məsələlərinə ayrılmışdır. Hesab olunur ki, təmizlik *Allaha* ibadət etmənin ən başlıca *şərtlərindən* biridir. Bədən və geyim *nəcasətdən* təmizlənməsə *namaz* qılmaq, Kəbəni *təvaf* etmək, *oruc* tutmaq olmaz. Bu barədə *Quranın* 9: 108 ayəsində məlumat verilir. Ayrıca, təharət haqqında *hədislərdə* də məlumat vardır. Nəcasətdən su, daş və ya torpaq, odda yandırma, qurutma, hal dəyişdirmə kimi yollarla təmizlənmək mümkündür. Su ilə təmizlənərkən yalnız təmiz sulardan istifadə edilməlidir. Bəzi ilahiyyatçılar meyvə və tərəvəz sularını da bu məqsəd üçün istifadə etməyə icazə verirlər. Ancaq, bəzi ilahiyyatçılar bunun doğru olmadığını qeyd edirlər.

**TƏHƏCCÜD** – ***gecənin ikinci yarısında kiçik yuxudan sonra qılınan nafilə namazıdır.*** Bu *namazı sübh* namazına kimi qılmaq lazımdır. Bu namazın *rükətlərinin* sayı ikidən səkkizə qədərdir. Bu namaz yalnız Məhəmməd *peyğəmbər* üçün vacib qılınmışdır (Quran, 17: 79).

**TƏHİYYƏTÜL-MƏSCİD** – ***məscidə daxil olarkən qılınan nafilə mamazıdır.*** İki *rükətdən* ibarətdir.

**TƏKBİR** – ***müsəlmanın "Allahu əkbər" (Allah böyükdür) deyərək Tanrını zikr etməsidir.*** Xüsusən bu sözlər *namaz* və *zikrlərdə* deyilir. Təkbir *azanın* tərkib hissəsidir. Onu istənilən yerdə və hallarda deməyin savabı böyükdür.

**TƏKFİR** – ***müəyyən əməllər qarşılığında kiminsə İslamdan çıxmasını elan etməkdir.*** İlahiyyatçılar arasında bu məsələ ən mübahisəli məsələlərdən biridir. Təkfir problemini ilk dəfə *xəlifə Əli ibn Əbu Talibin* xəlifəliyi dövründə *xaricilər* ortaya atmışlar. Bundan sonra digər İslam *məzhəbləri* də, təkfir məsələsi haqqında düşünməyə başlamışlar. İlk dəfə böyük *günahlar* törətmiş müsəlmanların halı haqqında mübahisələr baş vermişdir. *Mürciilər* hesab edirdilər ki, imanın əməllə heç bir əlaqəsi yoxdur. Onlara görə yalnız etiqadında problem olan adam təkfir olunmalı, günahlar üzündən bu ittihamı irəli sürmək olmaz. *Mütəzililər* isə böyük günahlar etmiş müsəlmanların inancla inancsızlıq arasında olmasını iddia etmişdirlər. Müsəlmanların çoxu isə *tövbə* etməmiş günahkar müsəlmanların aqibətini *Allahın* ümidinə bağlayaraq onları təkfir etməmişdirlər.

Buna baxmayaraq bütün *İslam* məzhəblərində təkfirçilik bu və ya digər dərəcədə vardır. Onların hamısında insanı dindən çıxardan amillər qeyd edilir. Onların təlimlərinə görə Allahın varlığı və ya birliyini inkar edən, Allahdan başqasına tapınan, *peyğəmbərlərin* heç olmasa birini tanımayan, onları tanrılaşdıran və ya pisləyən, *Quranı* inkar ya təhrif edən, onun hər hansı bir ayəsinə şübhə edən və s. əməllər insanları təkfirə aparan məsələlərdir. Bu məsələlər müxtəlif ilahiyyatçılar və məzhəblərdə fərqlidir. Fiqhdə təkfir olunmuş insana ən ağır cəza verilir. Bununla belə, insanların təkfir etmə hüququnun olub olmaması üzrə mübahisələr də olmuşdur. Bundan başqa İslam məzhəblərində müxtəlif əqidə və fiqh əsasları vardır. *Mütəzili, zahiri, şiə,* sünni, xarici məzhəblərinin öz din əsasları vardır ki, onlardan yayınanlar təkfir olunurlar. Buna görə hər bir məzbəb nümayəndəsi başqasını təkfir edə bilər. Buna görə də, müasir dövrdə təkfirçilik məsələləri üzrə məzhəblərin mövqeyi ilə razılaşmayan ilahiyyatçılar da vardır.

**TƏKKƏ** – ***sufilərin mənəvi təcrübə keçirmək, birlikdə zikrlər etmək, eləcə də dərs almaq üçün toplandığı yerdir.*** Təkkələrin ortaya çıxması sufizmin *təriqətləşmə* dövründən etibarən başlamışdır. Çünki, *İslam* ənənə tərəfdarları sufizmə tənqidi yanaşmış və onların İslama yanaşmalarını *bidət* adlandırmışdırlar. Bu səbəbdən də, sufilər təqiblərə məruz qalmışdırlar. Onlarda ibadət və *zikrlərini* rahat yerinə yetirmək üçün təkkələri özlərinə sığınacaq olaraq seçmişdirlər.

**TƏQDİS** – ***hər hansı bir şeyin müqəddəs məqsədlər və ya Tanrı üçün həsr edilməsidir.*** İbadət evlərinin tikilməsindən sonra Tanrıya həsr etmənin rəmzi olan özəl *duaların* oxunmasıdır. Bu ayinin çox qədim tarixi vardır. Rəvayətlərə görə *Süleyman* peyğəmbər *Quds* məbədini tikib qurtarandan sonra orada təqdis mərasimi keçirmişdir. *Quranda* təqdis sözü *Allahı* ucaltma, onu anma anlamında işlədilir (24: 41).

**TƏQİYYƏ** – ***müsəlmanın dini inancına görə həyatı üçün təhlükə yarandığı zaman öz inancının gizlətməsidir.*** *Quranda* bu barədə *ayələr* vardır (16: 106-109). İlahiyyatçılar müsəlmanların dini zəmində təqiblərə məruz qaldıqlarında inanclarını gizlətməyə icazə vermişdilər. Ancaq, bu halda *müsəlman* yalnız görünüşdə *İslamdan* çıxa bilər. Qəlbində isə müsəlman olaraq qalmalıdır. Müsəlman başqa dinin mənsubu olmağa

məcbur edilərək o dinin buyuruqlarını yerinə yetirsə belə, müsəlman olaraq qalır. Belə olarsa o, öz dininin əmrlərini imkan olduqda gizli yerinə yetirməlidir. Bu vəziyyətdə *Allah* onların qəlbindəki inanca görə *savablar* yazır. Ancaq, qəlblərində də dindən çıxanlar üçün *cəhənnəm* əzabı vardır. Bununla belə, müsəlman gizli inancda qalmaqdan çəkinib, ölümə də gedə bilər. Bu onun istəyindən asılıdır. Təqiyyə İslam *məzhəbləri* arasında da tətbiq olunur. Əgər, bir İslam məzhəbinin ardıcılları başqa məzhəbin ardıcıllarını hədələyirlərsə, onda onların ilahiyyatçıları onlara təqiyyə etməyə icazə verir.

**TƏQLİD** – ***dinin vəzifələrin icrasında və fiqhi məsələlərdə müctəhidin hökmlərinə bağlanmaq və onları həyata keçirməkdir.*** Təqlidin tarixi təxminən hicrətin ikinci əsrinin ortalarından başlayır. Elə o vaxtlardan bunun əleyhinə olanlar da olmuşdur. Onlar müsəlmanları *müctəhidlərin* göstərişlərinə əməl etməməyə, hər şey üçün dəlil axtarmağa çağırmışdırlar. Buna dair *Quranın* 5: 104, 31: 21 *ayələrini* dəlil kimi gətirirdilər.

Təqlid tərəfdarlarına görə dini yalnız bu işlə peşəkarcasına məşğul olanlar yaxşı bilirlər. Sadə insanların o qədər bilikləri yoxdur ki, hökm verə bilsinlər. Buna görə də, onlar müctəhidlərə bağlanmalıdırlar. Beləliklə, müsəlman ilahiyyatçılarının çoxu təqlidi bütün müsəlmanlar üçün *vacib* hesab edir və buna dəlil kimi Quranın 16: 43, 4: 59 ayələrini dəlil gətirirlər. İlahiyyatçıların çoxu isə bu məsələdə orta yolu tutmuşdurlar. Onlara görə müctəhidlər bütün dini göstərişləri birbaşa ilkin qaynaqlardan verməlidirlər. Savadlı insanlar onların göstərişlərini öyrənib, onları ilk qaynaqlarla tutuşdurmalı və özləri üçün yəqin etməlidirlər ki, *fətvalar vəhyə* və ya *hədislərə* uyğun verilmişdir. Savadları yetərli qədər olmayan müsəlman çoxluğu isə müctəhidlərə bağlanmalı, onların fətvalarına əməl etməlidirlər.

**TƏLHƏ İBN ABDULLAH** (36/656-cı ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuşdur.*** *İslamı* qəbul edən ilk müsəlmanlardan biri hesab edilir. Müsəlman olduqdan sonra Təlhənin doğmaları ilə *ixtilafları* olmuşdur. Onlar onu dinindən döndərməyə çalışmış, ancaq buna nail ola bilməmişdirlər. *Məkkədə* müsəlmanlar təqiblərə məruz qaldıqda Təlhə də digər müsəlmanlarla birlikdə buna bir müddət sinə gəlmiş, sonra isə *Mədinəyə hicrət* etmişdir. Orada o, quruculuq işlərinə qatılmış, *Bədr*, *Uhud* və digər döyüşlərdə müşrüklərlə döyüşmüşdür.

İlk *xəlifələr* dövründə Təlhə Xilafətin inkişafı üçün çalışmışdır. Xəlifə *Ömərin* vəfatından sonra o, xəlifəliyə altı namizəddən biri olmuşdur. Xəlifə *Osman* qətl edildikdən sonra isə Təlhə Əlini xəlifə kimi tanısa da, sonra Cəməl döyüşündə ona qarşı vuruşmuş və bu döyüşdə öldürülmüşdür.

**TƏNASÜH** – ***ruhun bir bədəndən başqasına köçməsidir.*** Bu inanc bəzi dinlərdə və dini-fəlsəfi təlimlərdə mövcuddur. Bəzi sufi *təriqətlərinin* təlimlərində də tənasüh inancı mövcud olmuşdur. Ənənəvi *İslam* tərəfdarları isə bu inancı inkar etmişdirlər.

**TƏRAVİH** – ***Ramazan ayı boyu hər gecə qılınan nafilə namazıdır.*** Bu *namazlar* vacib namazların qılınmasından sonra qılınır. Müsəlmanların inancına görə bu namazın böyük savabı vardır. Təravih namazının *rükətlərinin* sayı barəsində *ixtilaf* vardır: bəzi məzhəblərdə 20, bəzilərində 8-dir. *Hədislərdən* öyrənirik ki, müsəlmanlar təravihi *Məhəmməd peyğəmbərin* zamanında təklikdə qılmışlar. Xəlifə *Ömər* dövründə isə camaatla qılınmağa başlanılmışdır.

*Cəfəri məzhəbinə* görə *Ramazan* ayı 1000 rükət *nafilə* namazı qılmaq *Allah* qarşısında ən böyük savablardan biridir. Bu namaz 2 rükət aralıqla təklikdə qılınır.

**TƏRİQƏT** – ***mənəviyyat yolçuluğunda izlənilən yoldır.*** Bu söz əsasən termin kimi müxtəlif dini cərəyanlara aid edilir. Özəlliklə isə bu söz *sufilikdə* istifadə edilir. Sufizmdə müxtəlif *təriqətlər* mövcuddur. Onların sayı onlarladır. Belə ki, bu təriqətlərdən ən məşhurları bunlardır: *Mövləvilik, Bektaşilik, Nəqşibəndilik, Qədirilik, Hürufilik* və s.

**TƏSBİH** – ***namaz kimi ibadətlərdə Allahın ucalığını vurğulayan "Sübhanallah" sözünü zikr etməkdir.*** Bu barədə *Quran* ayəsi də mövcuddur (17: 44). Təsbih adlanan *nafilə* namazı da vardır. Bu namazı *günahların* bağışlanmasını diləmək üçün qılmaq tövsiyyə edilir.

**TƏSƏVVÜF** – ***İslamda mənəviyyatın inkişaf yollarını göstərən xüsusi təlimdir.*** Təsəvvüf alimlərinə görə *sufilik* müsəlmanın mənəvi axtarışlarının nəticəsidir. Sufilik yolu ilə gedən müsəlman maddi aləmdən azad olmağa və mənəvi cəhətdən yüksəlməyə can atır. Bunu edərkən *Allahı* sevərək ona ibadət edir, yüksək əxlaqi xüsusiyyətlərə yiyələnir. Mənəviyyatın təkmilləşdirilməsi dinin durğunlaşmasının, onun yalnız qanunlar toplusuna çevrilməsinin, ruhunun itirilməsinin də qarşısını alır. Sufilər hesab edir ki, mənəviyyat yolçuları dözümlülük, sülhsevərlilik, yüksək əxlaqi xüsusiyyətləri əldə edərək lovğalıq, xəsislik, kobudluq kimi mənfi xüsusiyyətlərdən qurtula bilərlər. Onlara görə mənəvi inkişaf yalnız *fiqhi* qadağalarla və *fətvalarla* əldə olunmaz. Buna görə problemlərin yalnız *zahiri* tərəflərini nizamlayan qanunlardan fərqli olaraq sufilik hər kəsin mənəvi aləminə təsir edir, ona Allaha içdən gələn sevgi duyğularını aşılayır.

Sufilərin mənəvi inkişaf yolu *Məhəmməd* peyğəmbər, onun *əhli-beyti* və ilk səhabələrinin örnəyinə uyğun olmalıdır. Buna görə də, digər *İslam* elmlərində olduğu kimi sufiliyin qaynağı da *Quran* və *hədislərdir*.

Mənəviyyat yolçusu gərək hansısa sufi təriqətində olsun və bu yolu *şeyxin* rəhbərliyi altında getsin. Təkbaşına bu yolu getmək mümkün deyildir. Bu da təsəvvüfün *şərtlərindən* biridir.

İslam tarixində ilk sufilər kimi *Əshabüs-Süffəni* göstərirlər. Onlar hələ *peyğəmbərin* zamanında onun örnəyindən ibrət alaraq *Mədinə* məscidində mənəvi yüksəlmə və *zahidlik* yolu ilə getməyə üstünlük vermişdirlər. Sufilik sözünün də "Süffədən" yaranması ehtimalı vardır. Onların arasında *Səlman Farisi, Əbu Zər, Süheyb Rumi, Əbu Musa Əşəri* kimi tanınmış səhabələr də olmuşdurlar.

Hicrətin ikinci əsrində Allaha sevgi duyğusunu bəsləyərək ona ibadət etmək kimi sufi ideyaları geniş yayılmağa başlamışdır. O zaman Mədinə, Bəsrə, Küfə və Xorasanda ilk sufi *məzhəbləri* yaranmış və inkişaf etmişdir. Daha sonra sufiliyin əsasları, anlayışları, terminologiyası formalaşmışdır.

Sufi şeyxləri insan mənəviyyatı, ruhun *halları*, onun yetkinləşməsi yolundakı mərhələlər haqqında mistik baxışlar irəli sürmüşdürlər. Həllac və Bistami "fəna" adlanan Tanrıda insan mənəviyyatının əriməsi yolu ilə onun əsl mənliyinin ortaya çıxması və "bəqa" adlanan Tanrıda mənliyi əritdikdən sonra onunla qovuşmaq ideyalarını irəli sürmüşdürlər.

Əsası Rəbiyyə əl-Ədəviyyənin qoyduğu Allaha münasibətdə sonsuz sevgi (eşq) ideyası da inkişaf edirdi. Hüzn və Tanrıdan qorxu ideyalarını aşılayan sufilər onlarla birləşmişdirlər.

Təsəvvüfün Nişapur məktəbinin görkəmli şeyxi *Bəyazid Bistami* (262/875-ci ildə edam edilmişdir) olmuşdur. O, insan "Mən"inin itirilməsi, Tanrıda əriməsi ideyası ilə çıxış etmişdir. O, bu halı "yoxluq" adlandırmışdır. Onun təlimində yoxluq halından sonra *vəcd* (ekstaz), eləcə də Tanrıya olan sevgidən sərx-

oşluq (*sukr*) halları gəlir. Tanrıya qovuşmuş, Onda ərimiş kəs Onun sifətlərinə yiyələnmiş olur. Bistami ilk dəfə "Sən mənsən, mən isə Sən" sözlərini istifadə etmişdir.

Nişapur məktəbinin başqa bir tanınmış şeyxi Allaha sonsuz sevgi ideyalarını aşılamış Yəhya Müəz oğlu Razi (258/871-ci ildə vəfat etmişdir) olmuşdur. O, Allaha münasibətdə "sərxoşedici sevgi" anlayışını ortaya çıxarmışdır. Onun fikrinə görə əsl *eşq* aşiqlə görüşdən sonra artmadığı kimi, Ondan ayrıldıqdan sonra da azalmır.

Nişapur məktəbinin daha bir sufi alimi Əbu Həfs Həddad (270/883-cü ildə vəfat etmişdir) öz təlimini inkişaf etdirmişdir. Onun fikrinə görə hər bir kəs yalnız özünü deyil, başqalarını da düşünməlidir. Yəni, insan başqalarının xeyrini və maraqlarını özününkündən daha üstün tutmalıdır.

Həmin məktəbin daha bir görkəmli şeyxi Həmdun Kəssar insanın *nəfsinə* qarşı çıxış edərək onunla savaş aparmağın vacibliyi vurğulamışdır. Buna sufilikdə "məlamət" deyilir. Onun fikrincə sufilər *namazlarla, oruclarla, zikrlərə* kifayətlənməməli, Allahın təqdir etdiyi işlər görməlidirlər.

Sufiliyin başqa bir tanınmış məktəbi *Misirdə* yerləşmişdir və onun ən görkəmli nümayəndəsi Zün-Nun Misri (245-859-cu ildə vəfat etmişdir) olmuşdur. O, öz təlimində vəcd yolu ilə əldə edilmiş biliyə (mərifətə) və Allaha sonsuz sevgi ideyalarına geniş yer ayırmışdır. Zün-Nun Misriyə görə *mərifət* yolu ilə əldə edilmiş biliyin üç pilləsi vardır. Birincisi bütün inanclı müsəlmanlara, ikincisi yalnız alimlər və *kəlamçılara (I)* məxsusdur. Üçüncüsü isə öz varlıqları ilə Tanrının yaxınlığını duyan və müqəddəsliyə yüksələn insanlarda olur. Bu da biliyin ən yüksək zirvəsidir. Bu durumda olanlar təcrübi bilikləri deyil, insan ruhunun dərinliyində olan bilikləri duyurlar. Allah bu bilikləri yalnız istədiyi inanclı müsəlmanlara verir. Zun-Nun Misri də Allaha sevgi və vahidlik ideyalarını yayırdı. O, Allaha doğru aparan mənəvi yolda olan məqamların və halların olması ideyası ilə çıxış etmişdir.

Daha bir tanınmış sufi məktəbi Suriyada olmuşdur. Burada gecə vaxtları ac qarnına ibadətlər edilirdi. Bu *təriqətin* tanınmış şeyxi Əbu Süleyman Dərani (215/830-cu ildə vəfat etmişdir) olmuşdur. Ona görə gecə ibadətləri və *zikrləri* insan ruhunu məmnun edir və bu duyğunu heç bir başqa əməldə hiss etmək olmur.

Bağdadda da sufi məktəbi mövcud olmuşdur. Bu məktəbin tanınmış şeyxi Məruf Kərhi olmuşdur. O, vəcd yolu ilə əldə edilmiş biliklə (mərifətlə) Tanrı ilə insan arasındakı qarşılıqlı sevgi duyğusunu birləşdirirdi. Onun fikrincə Allaha sevgi duyğusu təcrübə yolu ilə əldə edilə bilməz. Bu məktəbinin ən tanınan şeyxi Cüneyd Bağdadi (297/909-cu ildə vəfat etmişdir) olmuşdur. Tanrıya sevgi duyğusundan sərxoş (*sukr*) olmaq ideyasını aşılayan Bəyazid Bistamidən fərqli olaraq, o, bunu hissləri ayıq (*sahv*) olaraq yaşamağın tərəfdarı idi. Başqa bir məşhur bağdadlı Əbu Səid Hərrazın (277/890-cı ildə vəfat etmişdir) təcrübəsinə görə mənəvi həyatda ən önəmli olan gizli (*batini*) biliklərin əldə edilməsidir.

İlk dəfə "Ənəl Haqq" (Mən Tanrıyam) ifadəsini səsləndirən, buna görə də 305/917-ci ildə edam edilən Hüseyn ibn Mənsur Həllac da Bağdad məktəbinin nümayəndəsi olmuşdur. Həllaca görə Tanrıya qulluq edən insan onu çox yaxından duyduğundan onunla özü arasında bütün fərqləri itirir. Bu durumda olan sufi Tanrıda əriyərək onun sifətlərini mənimsəyir.

Bu kimi əsas təlimləri əsas götürən sufi təriqətlərinin sayı hicrətin III – VI əsrlərində daha da artmışdır. O dövrlərdə sufi ideyaları poeziyada geniş tətbiq olunaraq yayılırdı. Sufilərin bir çox təlimləri ənənəvi İslam təfəfdarları tərəfindən etirazlarla qarşılanırdı. Onlar sufiləri İslama *bidətlərin* gətir-

ilməsində günahlandırırdılar. Buna görə də, ənənəvi İslamı sufiliklə barışdıran və onların arasında orta yolu tutan ilahiyyatçılar bu mövzuda fəaliyyət göstərib çoxlu əsərlər yazmışdırlar. Onların arasında Əbu Həmid *Qəzali* də olmuşdur.

Daha sonra görkəmli sufi *İbn Ərəbi* (638/1240-cı ildə vəfat etmişdir) müsəlman ənənəçilərinin etirazları ilə qarşılaşan *vəhdətül-vücud* təlimini ortaya atmışdır. Bu təlim sonrakı əsrlərdə sufi təriqətlərinin ən əsas ideyalarından birinə çevrilmişdir. Məhz bu təlimə qarşı İmam Rəbbani (1034/1624-cü ildə vəfat etmişdir) ənənəvi İslamla uyuşan *vəhdətüş-şühud* ideyası ilə çıxış etmişdir.

Orta əsrlər boyu bütün müsəlman dünyasında sufi *təkkələri* də geniş yayılmışdır. Sufilər müxtəlif sultan və şahların dəstəyini əldə edərək fəaliyyətlərini genişləndirmişdirlər. VI/XII – IX/XV əsrlərdə ən tanınmış sufi təriqətləri *Qədiriər, Yəsəvilər, Rifailər, Sührəvərdilər, Çiştilər, Şazililər, Məvləvilər, Məlamətilər, Bədəvilər, Dəsukilər, Nəqşibəndilər, Xəlvətilər, Bayramilər, Bəktaşilər* və s. olmuşdurlar.

XI/XVII əsrdən başlayaraq sufliyin tənəzzül dövrü başlamışdır. Onların arasında yeni ideyalar olmamış, inkişafları dayanmışdır. Daha sonra onları müsəlman dünyasının tənəzzül etməsində, inkişafdan qalmasında ittiham etmişdirlər. Sufilik Osmanlı xilafətində laiklik ideyalarının yayılması və daha sonralar dünyəvi Türkiyə respublikasının yaranmasından sonra İslam dünyasında nüfuzunu xeyli itirmişdir. Buna baxmayaraq müsəlman dünyasının bir çox yerlərində sufi təriqətləri fəaliyyət göstərirlər. Bundan başqa qeyd etmək lazımdır ki, bu gün sufi ideyaları Avropa, Afrika və Amerikada rəğbətlə qarşılanmaqdadır.

**TƏSLİS** – ***Xristianlıqda Ata, Oğul və Müqəddəs ruh üçlüyünü ifadə edən dini anlayışdır.*** II əsrindən başlayaraq xristian din adamları Tanrının mahiyyəti haqqında mübahisələr edərək Tanrının Ata-Oğul cütlüyündən ibarət olması iddiasını ortaya atmışdırlar. Daha sonra bu uluhiyyət anlayışına üçüncü Müqəddəs Ruh da əlavə olunmuşdur. Beləliklə, Xristianlıqda təslis inancı formalaşmışdır. Təslisi təşkil edən Tanrı, Oğul və Müqəddəs ruh ayrılıqda yunanca “hipostasis” (ərəbcə “*uqnum*”) adlandırılmışdır. *İslama* görə təslis inancı *Allaha* şərik qoşmaqdır və bu səbəbdən təslisə inanmaq böyük *günahlardan* hesab edilir və təslisə inanan müsəlman dindən çıxmışdır. Yəni, təslis dini inanc kimi İslamda *batil* hesab edilir.

**TƏSVİR** – ***təbiətdə müşahidə edilən bütün varlıqların, o cümlədən insanların və heyvanların şəkillərinin kağız, divar, geyim və digər əşyaların üzərində çəkilməsidir.*** Müxtəlif əşyalar üzərinə çəkilən təsvir, şəkil və portretlər keçmişdə *şəriətə* əsasən qadağan olunsa da, müasir dövrdə bu barədə fərqli yanaşmalar vardır.

**TƏŞƏHHÜD** – ***namazın ikinci və sonuncu rükətlərində oturarkən xüsusi bir duanın oxunmasıdır.*** Bəzi alimlərə görə birinci təşəhhüdün oxunması vacib, digərlərinə görə isə müstəhəbdir.

**TƏVAF** – ***Kəbənin ətrafında fırlanmaqdır.*** Təvaf *həcc* və *ümrədə* olarkən yerinə yetirilir. Çünki təvaf bu ibadətlərin tərkib hissəsidir. Bundan başqa təvafı *Məkkədə* olarkən istənilən vaxt yerinə yetirmək mümkündür. İlahiyyatçıların əksəriyyətinə görə təvaf yalnız *Kəbə* ətrafında olur, başqa müqəddəs yerlərdə təvaf etmək olmaz.

**TƏYƏMMÜM** – ***dini ayin və ibadətləri yerinə yetirməzdən əvvəl dəstəmaz və qüsul almaq üçün su olmadıqda qum və ya torpaqla təmizlənməkdir.*** Həmçinin, sudan

müəyyən xəstəliyə yoluxma təhlükəsi olarsa və ya suyun az olması hallarında da təyəmmüm alınır. Təyəmmüm haqqında *Quranda* (5: 6) ayə vardır. Ayrıca, təyəmmüm alınarkən öncə *niyyət* edilir. Sonra əllər torpağa batırılır, sonra torpağa dəymiş əlləri üzə, sonra isə sağ əlin içi ilə sol qolu dirsəklərə qədər, sol əlin içi ilə isə sağ qolu dirsəklərə qədər təyəmmüm edilir.

**TƏZİR** – ***Quran və hədislərdə günah kimi dəyərləndirilən, ancaq orada onlara görə hansı cəzanın tətbiq olunacağı haqqında heç bir məlumatın verilmədiyi cəzalardır.*** *Fiqhi məzhəblərdə* bir çox *günahların* cəmiyyətdə pozğunçuluğa yol açdığına görə qarşısı alınmalıdır. *Ramazan* ayında *oruc* tutmamaq, *namaz* qılmamaq, pulu *ribaya* vermək kimi günahlar cəzalandırılır. Cəzalar isə müctəhidlərin *ictihadları* əsasında verilir. Bəzən burada *örf* də diqqətə alınır. Cəmiyyətdə törədilmiş günahların ictimai həyata zərər vermə dərəcəsindən asılı olaraq müxtəlif təzirlər tətbiq edilir. Bu da xəbərdarlıq, başa salmaqdan tutmuş; zindana atılma, şallaqlanmağa, sürgün edilməyə qədər cəza növlərindən ibarətdir. İstisna durumlarda ölüm cəzası da tətbiq edilə bilər. Təzir yalnız *İslam* qanununun işlədiyi ölkələrdə tətbiq edilə bilər. Günahın ağırlığı və cəzanın ölçüsü yalnız məhkəmələrdə müəyyən edilməlidir.

**TƏZİYYƏ** – d***ünyasını dəyişən insan üçün saxlanılan anım mərasimidir.*** Ölənin ailəsi və yaxınlarına ilk üç gün müddətində baş sağlığı verilməlidir. Müxtəlif səbəblərdən o adamın öldüyünü bilməyənlər xəbər tutan kimi başsağlığı verə bilərlər. Bəzi ilahiyyatçılar hesab edirlər ki, baş sağlığı bir dəfə verilir.

**TİCANİLƏR** – ***sufi qardaşlığıdır***. Onun yaranması Əhməd Ticaninin (1150/1737 – 1212/1815) fəaliyyəti ilə bağlıdır. Əlcəzairin cənubunda doğulmuş, dini elmləri öyrənmiş, bir-neçə sufi *təriqətləri* ilə, xüsusən də *xəlvətiliklə* maraqlanmışdır. Sonra ticanilərə görə o, *Məhəmməd* peyğəmbərdən *rabitə* vasitəsi ilə öz təriqətinin yaratması buyruğunu almışdır. Bundan sonra Əhməd Ticani Əlcəzairin bəzi bölgələrində öz təriqətini təbliğ etmişdir. Daha sonra dəvətini genişləndirmək üçün Mərakeşə gedib həyatının sonuna qədər orada yaşamışdır. Mərakeşdə onu sultan Mülay Süleyman dəstəkləmişdir. Əhməd Ticani ardıcıllarının mənəvi inkişafının həyata keçirilməsi üçün çox sadə rituallar tətbiq etmiş, onları tərkidünyalığa, xəlvətə çəkilməyə çağırmamış, səssiz deyilən *zikrlərə* üstünlük vermişdir. O, müqəddəs yerlərin və *məzarların ziyarət* edilməsini yolverilməz hesab edirdi.

Ticani, özünü "*qütblərin qütbü"* adlandıraraq, bu adı *Allahla* insan arasında bir vasitəçi mənasında başa düşürdü, özünün günahsız olduğunu bəyan etmişdir. Ardıcıllarına tövsiyə etdiyi buruqları birbaşa Məhəmməd *peyğəmbərin* özündən aldığını iddia etmişdir. Bu da müsəlmanların etirazlarına gətirib çıxarmışdır. Bundan başqa Əhməd Ticani ardıcıllarına başqa təriqətlərin *şeyxlərinin bərəkətlərinin* alınmasını, onlara bağlanmağı qadağan etmişdir. Bunun qarşılığında o, *qiyamət* gününü ardıcılları üçün *şəfaətçi* olacağını da vəd etmişdir. Ticanilər təlimlərini Əlcəzair, Tunis, Mavritaniya, Mərkəzi və Qərbi Afrikada yaymış, bu yerlərdə onlar fransız müstəmləkəçiliyinə qarşı mübarizə aparmışdırlar. Ticanilər birliklərini qoruyub saxlaya bilməmiş, çoxlu təriqətlərə bölünmüşdürlər.

**TİMAR** – bax: **İQTƏ.**

**TİRMİZİ MƏHƏMMƏD** (209/824 – 279/892) – ***görkəmli mühəddis, təfsirçi və fəqih olmuşdur.*** O, Mərkəzi Asiyanın Tirmiz şəhərində doğulmuşdur. Təhsilini Xorasan, Hicaz və İraq ilahiyyatçılarından almışdır. *Buxari* və *Müslimin* hədis topluları ilə yaxından tanış olmuş, yaxşı yaddaşı olduğundan minlərlə *hədisi* əzbərdən öyrənmişdir. *Hədis-*

*lərin* təsnif olunmasını təklif edərkən o "həsən" (yaxşı) və "qərib" (*peyğəmbər* səhabələrinin deyil, başqalarının söylədiyi xəbərlər) anlayışlarını tətbiq etmişdir. Tirmiziyə qədər *mühəddislər* hədisləri daha çox *səhih* və *zəiflərə* bölürdülər. Ancaq, "həsən" və "qərib" terminlərinin Tirmizidən öncə də işləndiyi haqqında xəbərlər vardır. Belə olsa da o, hədis elminin bu hissəsini inkişaf etdirmişdir.

Tirmizi *İslamın* müxtəlif sahələrinə aid əsərlər yazmışdır. Onun ən tanınmış əsəri hədislər toplusu olan və dörd minə yaxın hədisləri əhatə edən "Sünən" kitabıdır. Bu toplu müsəlmanların çoxu üçün ən nüfuzlu hədis kitablarından biri sayılır. Burada hədislər *fiqh* mövzularına uyğun olaraq təsnif olunmuşdur. Bu əsərdə səhih və *həsən hədislərin* olduğu kimi, ilahiyyatçılar tərəfindən zəif sayılanları da vardır. Buna görə də, Tirmizi onlardan hər biri üçün hüquqda tətbiq edilməsinin imkanlarını açıqlamış, eləcə də etibarlılığı haqqında bilgilər vermişdir. O həm də hədisləri səhih, həsən və ya zəif adlandırdığının səbəblərini də göstərmişdir. Tirmizi kitabında hədislərin *raviləri* haqqında da məlumat vermişdir. Onun kitabında Buxari və Müslimin "Səhih" kitablarında olmayan hədislər də vardır.

**TÖVBƏ** – ***günahların bağışlanmasını Allahdan istəmək və ya diləməkdir.*** Tövbənin əhəmiyyəti *İslamda* çox böyükdür. Hətta, *Quran ayələrinin* biri "Tövbə" adlanır. İlahiyyatçılara görə tövbəni gecikdirmək olmaz. Gecikdirilmiş tövbənin özü də *günah* sayılır və onun üçün ayrıca tövbə edilməlidir. Tövbə etməyin bütün *şərtlərini* yerinə yetirdikdən sonra hər bir müsəlman *Allahın* onu bağışlamasına inanmalı və buna şübhə etməməlidir. Tövbə törədilən hər bir kiçik günah üçün edildiyi kimi, böyük günahlar üçün də ayrıca edilir. Bağışlanmasını diləyən müsəlman bir daha bu günahı etməyəcəyinə də söz verməlidir.

**TÖVHİD** – ***İslamda Allahın vahid bir varlıq olaraq qəbul edilməsi ideyasıdır.*** Tövhidin prinsipləri *Quranın* 112-ci "İxlas" surəsində verilmişdir. Müsəlman *kəlam (I)* məktəblərinin əksəriyyətinə görə *Allahın* zatı ilə birlik təşkil edən və keyfiyyətlərini əks etdirən sifətləri vardır. Ancaq *mütəzililər* kimi bəzi müsəlman ilahiyyatçıları Allahın sifətlərini inkar etmiş, onun yalnız zatının olduğuna inanmışdırlar. *İslam* ilahiyyatına görə Allah təbiəti yaratdığı kimi, onları məhv də edə bilər. Heç kəs onun əmrindən kənara çıxa bilməz. Hətta, bir çox *müctəhidlərə* görə dünyada baş verən bütün hadisələr onun *qəza* və qədərinə uyğun olaraq cərəyan edir. İbadətlər də yalnız Allaha edilməlidir. Hamı Allahın bütün buyuruqlarını yerinə yetirməli, *halal* şeylərdən yararlanmalı, *haramlardan* isə çəkinməlidirlər.

**TÖVRAT** – ***Allahın Musa peyğəmbərə nazil etdiyi müqəddəs kitabdır.*** Tövrat *Quranın* 3: 48, 5: 43, 62: 5 kimi surə və *ayələrində* anılmışdır. Rəvayətlərə görə Tövratın 40 bölümü (cüzləri), bunların da hər birinin 1000 ayəsi olmuşdur. Tövratı yalnız *Musa, Harun, Yuşa, Üzeyir, İsa* əzbərdən bilmişdirlər. *Babil* kralı *Buhtunnəsr Qüdsü* ələ keçirdikdən sonra, Tövratın lövhələrini məhv etmişdir. Bundan sonra onun bəzi şifahi yolla rəvayət edilən söyləntiləri *İsrail oğullarının* arasında yayılmışdır. Müsəlman ilahiyyatçılarının çoxusuna görə bir neçə əsr keçdikdən sonra onlar bir kitabda toplansa da, bu Musa *peyğəmbərin* gətirdiyi Tövrat olmamışdır. Quran nazil olunduqdan sonra *Allah* Tövratın hökmünü ortadan qaldırmışdır. Ancaq, bəzi *İslam* alimləri Tövratın təhrif olunmadığını da qeyd etmişdirlər.

**TUR DAĞI** – ***Allahın Musa peyğəmbərə Tövratı endirdiyi Sinay yarımadasının cınubundakı dağdır.*** Bu dağ *Quranın* 19: 52; 28: 29-31-ci *ayələrində* anılmışdır. *Musa*

*peyğəmbər* bu dağda iki dəfə olmuşdur. Birinci dəfə orada ona peyğəmbərlik verilmiş, ikinci dəfə isə *Tövratın* lövhələri nazil olunmuşdur.

**TÜLEYHƏ** (21/642-ci ildə vəfat etmişdir) – ***Ərəbistanın yalançı peyğəmbərlərindən biri olmuşdur.*** Əsəd qəbiləsinin başçısı idi. Hələ *Məhəmməd* peyğəmbərin sağlığında özünü *peyğəmbər* elan etdiyinə görə ona qarşı *İslam* ordusu oraya yürüş etmişdir. Ancaq, Tüleyhə öz tərəfdarları ilə birlikdə qaça bilmişdir. Məhəmməd peyğəmbərin vəfatından sonra Tüleyhə Xilafətə qarşı üsyan etmişdir. Buna görə də, xəlifə *Əbu Bəkr* ona qarşı *Xalid ibn Validnun* başçılığı altında qoşun göndərmişdir. Müsəlmanlar Tüleyhənin ordusunu darmadağın etmələrinə baxmayaraq o yenə də qaça bilmişdir. Ancaq, daha sonra o müsəlmanlara tabe olmuş və İslamı qəbul etmişdir. Bundan sonra o, müsəlmanlarla birlikdə İraq və Suriyada döyüşmüşdür.

# U

**UHUD** – ***hicrətin 3-cü ilində müsəlmanlar və qureyşlilər arasında baş vermiş ikinci böyük döyüş olmuşdur.*** Bu döyüş Uhud dağının ətəyində baş verdiyi üçün belə adlanır. Döyüşün təşəbbüskarları *qureyşlilər* olmuşdurlar. Bir il öncə onlar *Bədr* döyüşündə məğlubiyyətlərinin *qisasını* almaq və ticarət yollarına nəzarəti ələ keçirmək üçün onlar güclü qoşun yığıb yürüşə çıxmışdırlar. Uhud döyüşü müsəlmanların üstünlüyü ilə başlamışdır. Ancaq, döyüş zamanı buraxılan taktiki səhvlərə görə və qureyşlilərin strateji gedişlərinin nəticəsində üstünlüyü əldən verərək məğlub olmuşdurlar. Buna baxmayaraq məğlubiyyətdən qureyşlilər lazımi qədər yararlana bilməmişdilər. Buna görə də, qısa bir zamanda müsəlmanlar güclərini bərpa edib savaşı davam etdirmişdirlər.

**UQNUM** – ***xristian əqidəsində bir Tanrıda olan üç şəxsiyyətin hər biridir.*** Yunanca "Hipostasisdir". Xristianlığın Romada yayılması dövründə *Allahın* zatı, onun mahiyyəti barəsində elmi mübahisələr baş vermişdir. Bu çəkişmələr zamanı onun üç şəxsin (Ata, Oğul və Müqəddəs ruh) birliyindən ibarət olması haqqında ehkam yaranmışdır. Bu inanc *İslamda* inkar olunmaqdadır.

# Ü

**ÜBEY İBN KƏB** (30/650-ci ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin səhabəsi və katibi olmuşdur.*** *Xəzrəc* qəbiləsindən olmuş, hicrətdən öncə *İslamı* qəbul etmiş, *Əqəbədə Məhəmməd* peyğəmbərə edilən ikinci *beyətdə* iştirak etmişdir. *Bədr, Uhud, Xəndək* və başqa döyüşlərdə vuruşmuşdur. Uhud döyüşündə ağır yaralanmış, ancaq sağ qalmışdır.

İslamdan öncə Übey ibn Kəb oxumağı və yazmağı bacaran adamlardan biri olmuşdur. Məhəmməd peyğəmbər *Mədinəyə hicrət* etdikdən sonra o, peyğəmbərin ilk mədinəli katiblərindən biri olmuş, nazil olan *vəhylərin* mətnlərini yazmışdır. Rəvayətlərə görə o həm də, *Quranın təfsirini* və *fiqhi* yaxşı bilmiş, hökmlər çıxarmışdır. Məhəmməd *peyğəmbərin* vəfatından sonra Übey ibn Kəb Xilafətdə quruculuq işlərinə qatılmış, *Əbu Bəkr* və *Ömərə* yaxın adam olmuşdur. Onun adından rəvayət edilən *hədislər* də vardır.

**ÜDHİYYƏ** – bax: **QURBAN.**

**ÜQUBƏT** – qanun pozuntularına görə cəzaların tətbiq edilməsidir. *Fiqhin* əsas sahələrindən biridir. Cəzalar *şəriət* qanun-

larını pozmuş insanlara qarşı tətbiq olunur. Cinayət üzrə təhqiqat aparılmalı, sonra işlər məhkəməyə çıxarılmalıdır. Orada verilən hökmlər şəriətə uyğun verilməlidir. Cəzanın ağırlığı törədilmiş cinayətə uyğun olmalıdır. Fiqhdə cəzaların üç növü var: *hədd, təzir* və *qisas*.

**ÜMM HƏBİBƏ BİNT ƏBU SÜFYAN** (44/665-ci ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin həyat yoldaşlarından biri olmuşdur.*** O, nüfuzlu *Qureyş* başçılarından biri olmuş *Əbu Süfyan* ibn Hərbin qızı idi. *İslamı* əri Übeydullah ibn Cəxşlə birlikdə qəbul etmişlər və onlar ilk müsəlmanlardan olmuşdurlar. Onlarda *Həbəşistana hicrət* etişdirlər. Ancaq, orada Übeydullah xristianlığı qəbul etmiş və İslamdan çıxmışdır. O, Ümm Həbibəni də xristian olmağa dəvət etmiş, ancaq o bunu etməmiş və ondan boşanmışdır. Bu boşanmadan sonra Ümm Həbibənin durumu çox ağırlaşmışdır. O, yad ölkədə tək qalmışdır. Onun atası Əbu Sufyan müsəlmanların barışmaz düşməni olduğundan, *Məkkəyə* də qayıda bilmirdi. Bu xəbəri eşidən *Məhəmməd peyğəmbər* onu öz yanına çağırmış və hicrətin 7-ci ilində onunla evlənmişdir. Ümm Həbibə qardaşı Müaviyə ibn Əbu Süfyanın hakimiyyəti dövründə 70 yaşında vəfat etmişdir. Onun adından bir çox *hədislər* rəvayət edilmişdir.

**ÜMM KÜLSÜM BİNT MƏHƏMMƏD** (9/630-cu ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin qızı olmuşdur.*** *Əbu Ləhəbin* ikinci oğlu Ütbə ilə nişanlanmışdır. Ancaq, sonra Əbu Ləhəbin *Məhəmməd* peyğəmbərə düşmən olmasından sonra onların evliliyi baş tutmamışdır. Ümm Külsüm başqa müsəlmanlarla birlikdə *Mədinəyə hicrət* etmişdir. Orada bacısı *Ruqiyyənin* vəfatından sonra Məhəmməd peyğəmbərin təklifi ilə 3/624-cü ildə *Osman ibn Əffana* ərə getmişdir. Ümm Külsüm Məhəmməd *peyğəmbərin* vəfatından az öncə, hicrətin 9-cu ilində vəfat etmişdir.

**ÜMM SƏLƏMƏ BİNT ƏBU ÜMEYYƏ** (59/679-cu ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin həyat yoldaşlarından biri olmuşdur.*** Birinci əri Əbu Sələmə ilə ilk müsəlmanlardan olmuşdurlar, sonra onlar Həbəşistana, daha sonra isə *Mədinəyə hicrət* etmişdirlər. *Uhud* döyüşündə Əbu Sələmə ağır yaralanaraq dünyasını dəyişmişdir. Bundan sonra, *Məhəmməd peyğəmbər* Ümm Sələmə ilə evlənmişdir. O, təxminən 84 yaşında *Mədinədə* vəfat etmişdir.

**ÜMMƏT** – ***İslam dinin əsaslarını qəbul edən və onun şərtlərini yerinə yetirən müsəlmanların təşkil etdiyi cəmiyyətidir.*** Bu söz *Quranın* bir çox *ayələrində* (məsələn 6: 38 ayəsində) anılmışdır. Ayrıca, rəngindən, irqindən, milliyyətindən və cinsindən asılı olmayaraq bütün müsəlmanlar ümmətdən hesab olunurlar (Quran, 49: 13).

**ÜMRƏ** – ***ilin istənilən vaxtı Kəbə evinin ziyarət edilməsidir***. Bununla belə *həcc* mövsümündə ümrə *ziyarəti* yerinə yetirilməz. Ümrə *Kəbənin* ətrafında yeddi dəfə təvaf etmək, Səfa və Mərva təpələri arasında qaçmaq kimi ayinləri əhatə edir. Ümrədə ayinlər *həccdə* olduğu kimi icra edilir. Həccdən fərqli olaraq ümrədə Müzdəlifədə qalmaq və ya Minədə *şeytanı* daşlamaq kimi ayinlər yerinə yetirilmir.

Ümrə etmək üçün miqatlara gəlib, orada *niyyət* etmək və *ehrama (II)* girmək lazımdır. Həcc zamanı *haram* olan əməllər ümrədə də haramdır. Bundan sonra zəvvarlar təlbiyyə duasını deməyə başlayırlar. Məkkədəki *Məscidül-Harama* gəldikdən sonra onlar Kəbəni yeddi dəfə təfaf edir, sonra iki *rükətli namaz* qılıb Səfa ilə Mərva təpələrinə doğru irəliləyirək onların arasında yeddi dəfə qaçır-

lar. Bu ayini bitirdikdən sonra zəvvarlar saçlarını qırxıb ehramdan çıxmalıdırlar. Bununla da ümrə tamamlanmış olur.

**ÜSAMƏ İBN ZEYD** (58/678-ci ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin səhabələrindən biri olmuşdur.*** Üsəmənin anası Ümm Ayman *Məhəmməd* peyğəmbərin atası Abdullahın köləsi olmuşdur. Atasının ölümündən sonra Məhəmməd onu azad etmişdir. Üsamənin atası Zeyd isə Məhəmmədin həyat yoldaşı *Xədicənin* köləsi idi. Məhəmməd evləndikdən sonra Xədicə onu ərinə bağışlamış, o da onu azadlığa buraxmışdır. Bundan sonra Ümm Ayman Zeydlə ailə qurmuş və bu evlilikdən Üsamə doğulmuşdur. Məhəmməd *peyğəmbər* dünyasını dəyişdikdə isə Üsamənin 18-20 yaşı olmuşdur.

Üsamə yetkinlik yaşına çatmadığına görə *Bədr* və *Uhud* kimi döyüşlərdə vuruşmamış, yalnız *Xəndək* döyüşündə iştirak etmişdir. Hicrətin 11-ci ilində Bizans qoşunu Ərəbistanın şimalında yerləşən yaşayış bölgələrinə basqın etmişdir. Buna görə də, Məhəmməd peyğəmbər bizanslılara qarşı ordusunu göndərmiş, sərkərdə kimi gənc Üsaməni təyin etmişdir. Yürüşə çıxmış *İslam* ordusu Məhəmməd peyğəmbərin səhhətinin pisləşməsini eşidən kimi geri dönmüşdürlər. Ancaq sonra xəlifə *Əbu Bəkrin* təkidi ilə onun başçılıq etdiyi qoşun yenə yürüşə çıxıb Suriyaya doğru irəliləmişdir. Bu yürüş çox uğurlu olmuş, müsəlmanlar çoxlu *qənimətlər* əldə edə bilmişdirlər.

Bundan sonra da xəlifə Əbu Bəkrin və Ömərin hakimiyyəti dövründə Üsamə ibn Zeyd bir çox döyüşlərdə vuruşmuşdur. Xəlifə *Osmanın* öldürülməsindən sonra Xilafətdə başlamış iç savaşda heç kimin tərəfini tutmamışdır. Xəlifə Əli və Müaviyə arasında müharibə olduqda o bitərəf qalmışdır. Müaviyənin hakimiyyəti dövründə o, *Mədinəyə* köçmüş, orada təxminən 60 yaşında dünyasını dəyişmişdir.

**ÜSEYD İBN HÜDEYR** – ***Məhəmməd peyğəmbərin səhabələrindən və Mədinənin Evs qəbiləsinin başçılarından biri olmuşdur.*** *Məhəmməd* peyğəmbərin *Mədinəyə* göndərdiyi *Müsab ibn Ümeyrlə* tanış olduqdan sonra *İslamı* qəbul etmişdir. *Evslilərin* çoxu da ondan örnək alaraq müsəlman olmuşdurlar. Üseyd savadlı adam idi, *Quranın* ən yaxşı bilicilərindən biri olmuşdur. Məkkəli müsəlmanlar *Mədinəyə hicrət* etdikdən sonra Üseyd müsəlmanların quruculuq işlərinə qatılmış, döyüşlərdə iştirak etmişdir. Xəlifə *Ömərin* hakimiyyəti dövründə vəfat etmişdir.

**ÜŞR** – ***müsəlmanların əkindən yığdıqları məhsulun onda biri həcmində verdikləri vergidir.*** Daha çox bu vergi dənli məhsullardan verilirdi. Onun vacibliyi *Quran ayələrində* (6: 141) və *hədislərdə* təsbit edilmişdir. Üşr müharibələrdə müsəlmanların ələ keçirdikləri torpaqlarda yetişdirilən məhsuldan da verilirdi.

**ÜZEYR** – ***Bəni İsraildən olmuş, Musa şəriətini yaymış imanlı bir insan olmuşdur.*** Bəzi ilahiyyatçılar onun *peyğəmbər* olduğunu iddia etmişdirlər. Rəvayətlərə görə Üzeyr kiçik yaşlarından *Tövratı* öyrənmişdir. *Babil* kralı *Buhtunnəsr Qüdsü* ələ keçirdikdən sonra başqaları kimi sürgün həyatı yaşamışdır. Əsarətdən azad olduqdan sonra Qüdsə qayıtmış, ancaq orada şəhərin xarabalıqlarını görmüş, şəhərin yenidən qurulmayacağını sanmışdır. O zaman *Allah* onu öldürmüş, yüz ildən sonra isə yenidən diriltmişdir (*Quran*, 2: 259). Rəvayətlərə görə yenidən dirilən Üzeyr Qüdsə daxil olur. Orada o, bir qadına rast gəlir və kim olduğunu açıqlayır. Qadın Üzeyrə xəstə olduğunu bildirdikdən sonra o, Allaha *dua* edərək onu sağalmasını diləyir. Sonra bu qadın israillilərə Üzeyrin möcüzəli şəkildə geri qayıtmasını bildirir. İsraillilər bunu

eşidib sevinərək onu *ziyarət* etməyə gəlmişdirlər. Ziyarət zamanı onun doğrudan da Üzeyr olması üçün sübutlar tələb etmişdirlər. Onların istəyini yerinə yetirərək o bütün Tövratı əzbərdən oxumuşdur. İsraillilər buna görə çox sevinmişdirlər. Çünki, Buhtunnəsr Tövratı məhv etdikdən sonra onların müqəddəs kitabları unudulmuşdur.

Daha sonra rəvayət edilir ki, Üzeyr israilliləri imana çağırsa da, onlar onu eşitməmiş, hələ Tövratı oxuduqda yanlışlıqlara yol verdiyini iddia etmişdirlər. Ancaq, onların arasından bir şəxs Tövratın kiçik bir hissəsini babillilərin hücumundan sonra qoruyub saxlamışdır. O, Tövratın bu parçasını gətirdikdə israillilər onun Üzeyrin oxuduqları ilə üst-üstə düşdüyünün görmüşdürlər. Onda israillilər "Üzeyr Allahın oğludur" (Quran, 9: 30) demişdirlər. Bundan sonra Üzeyr Qüdsdə yaşamışdır. Onun ölümündən sonra *İsrail oğulları* daha böyük *günahlar* işlədərək Allahın qəzəbinə gəlmişdirlər.

**ÜZZA** – ***ərəblərin ən tanınmış bütlərindən biri olmuşdur.*** Bu büt *Məkkə* ilə *Mədinə* arasındakı Nəhl adlanan bölgədə yerləşmişdir. Üzzaya daha çox Qatafan qəbiləsi tapınırdı. Bu bütün üstündə örtüklə örtülmüş bir tikili də olmuşdur. Burada müqəddəs daş və qurban qanlarının saxlandığı Gabğab mağarası da yerləşirdi. *Məbədi* Bənu-Şeyba qəbiləsi qoruyurdu. Bu büt *qureyşlilərdə Lat* və *Mənatla* birlikdə üçlük təşkil edib, "Allahın qızları" adlanırdı. Rəvayətlərə görə *Məhəmməd* peyğəmbərə Allahın qızlarının olmaması haqqında 16: 57 ayəsi nazil olmuşdur. Müsəlmanlar Məkkəni fəth etdikdən sonra *Xalid ibn Valid* Məhəmməd *peyğəmbərin* əmri ilə bu *bütü* dağıtmışdır.

# V

**VACİB** – ***müsəlmanlar üçün yerinə yetirilməsi qaçınılmaz olan əməllərdir.*** Vacib olan buyruqlar mütləq icra edilməlidir. Vacib əməllərin işlənildiyi zaman *savab*, tərk edildi zaman isə *günah* qazanılır. Onları inkar etmək olmaz. *Namaz* qılmaq, *oruc* tutmaq, *zəkat* vermək kimi əməllər müsəlmanlar üçün vacibdir.

**VAİZ** – ***dini maarifləndirmə məqsədi ilə məscidlərdə dini moizələr oxuyan dini xadimdir (bax: VƏZ).*** Vaiz dərin dini biliyə, yüksək əxlaqi xüsusiyyətlərə və natiqlik bacarığına sahib olmalıdır.

**VASİLƏ** – ***islamöncəsi Ərəbistanda biri-birinin ardınca beş cüt əkiz bala doğan dişi heyvanı belə adlandırırdılar.*** Onlara sayğı göstərilirdi. Bu ad *Quranın* "Maidə" surəsinin 103-cü ayəsində anılmaqdadır.

**VƏCD** – ***sufilikdə Tanrıya olan sevgidən "sərxoş" olaraq dini ekstaz durumuna girməkdir.*** Bu durumda insan həqiqəti duymur, özünü idarə edə bilmir. Vəcdə müxtəlif vasitələrlə, o cümlədən ekstaz halına gətirən maddələri içməklə də girmək mümkündür. Müsəlmanlar üçün sərxoşedici maddələr qadağan olduğundan sufilərin çoxu bu vasitələrə əl atmır. Onlarda vəcd Tanrı ilə insanın qarşılıqlı sevgisinin nəticəsidir. Bu hala girən "məşuq" özündə Tanrının ayrı-ayrı özəlliklərini hiss edir. Sufilərə görə Məhəmməd peyğəmbərin səhabələri də vəcdi yaşamışdırlar. Onların ardıcılları da Quran oxuyarkən vəcd halında olurdular. Bu durumda onlar ağlayır, özlərində olmurdular. Bunu iddia edərək sufilər vəcdə dair *İslamın* ilk qaynaqlarından dəlillər gətirirdilər. Vəcdin ən yüksək zirvəsi "vucud"dur. Bu du-

ruma çatmış "məşuq" insani mahiyyətini itirərək *Allahda* əriyir, onun xüsusiyyətlərini mənimsəyir. Beləliklə, vəcd halına girən sufilərin bu halı "dənizin kənarına yaxınlaşan", daha sonra "dənizə girən", sonda isə "dənizdə batan" insana bənzəyir.

**VƏD VƏ VƏİD** – ***Allahın vəd etdiyini icra edəcəyinə inancdır.*** *Kəlamda (I)* bu sözlər *Allahın* vəd etdiyi kimi *axirət* dünyasında *möminlərin* mükafatlandırılması, günahkarların isə cəzalandırılması mənasında işlədilir. Müsəlmanlar inanırlar ki, Allah müqəddəs kitabda verdiyi sözü mütləq yerinə yetirərək hər bir insanı əməllərinə görə məhkəməyə çəkəcəkdir. Vəd və vaid müsəlman əxlaqında da əhəmiyyətli yer tutmaqdadır. Hər bir müsəlman verdiyi sözün üstündə durmalı, onu icra etməlidir. Verilmiş sözün yerinə yetirilməməsi isə ikiüzlülüyün (*münafiqliyin*) əlaməti hesab edilir. *Hədislərə* görə, verilmiş söz bir borcdur, onun yerinə yetirilməsi vacibdir.

**VƏDD** – ***Nuh peyğəmbərin xalqının tapındığı büt olmuşdur.*** Bundan başqa, o xalq bir neçə bütlərə də tapınırdılar. Onların adları Vəddlə bir yerdə *Quran* ayəsində (71: 23) çəkilmişdir.

**VƏHDƏTİ-ŞÜHUD** – ***sufi təlimlərindən biridir.*** Bu təlimin müəllifi *Əhməd Fəruqi* olmuşdur. Onun dövründə mənsub olduğu *Nəqşibəndi* təriqətinin ardıcılları mənəvi yollarında *İbn Ərəbinin vəhdəti-vücud* təliminə üstünlük verirdilər. Ancaq bu təlim bəzi müəmmalı məqamlarına görə bir çox hallarda ənənəvi müsəlmanların etirazlarına gətirib çıxarmışdır. Buna görə Əhməd Fəruqi *kübravi* təriqətinin *şeyxi* Simnaninin (736/1336-cı ildə vəfat etmişdir) vəhdəti-şühud təlimini inkişaf etdirmişdir. Simnani yaradılmış varlıqda *Allahın* təcəlli etməsi ideyasını rədd etmişdir. Allahın yaratdığı varlıqların həqiqi və müstəqil mahiyyətləri vardır. Simnaniyə görə mənəviyyatın təkmilləşdirilməsini istəyən hər bir kəs vəhdəti-vücudda olduğu kimi Allahla qovuşmağa deyil, onunla görüşməyə və onun yaxınlığını duymağa can atmalıdır. Buna çatmaq üçün hər bir sufi, ilk olaraq *şəriətin* bütün qanunlarına tabe olmalıdır. Onun fikrincə yalnız şəriət yolu mənəvi yetkinliyə gətirib çıxara bilər. Mənəviyyatını təkmilləşdirən insanın əqidəsi müsəlman çoxluğunun inancına qarşı olmamalıdır.

İmam Rəbbani Simnaninin bu kimi fikirlərini davam etdirmişdir. Onun təlimində dində mənəvi yetkinləşmə yolu ilə gedən müsəlman mənəviyyatını inkişaf etdirmək üçün sufiliyin müxtəlif yollarından istidafə edə bilər. Ancaq, mənəvi yüksəliş zamanı o, Tanrıda əridiyini, onun sifətlərini mənimsədiyini, öz varlığını itirməsini zənn etməməlidir. Mənəviyyat yolçusu yalnız Tanrının varlığını duyaraq Onun birliyinə *şahid* olur. İmam Rəbbani bu halı ulduzların sönük işıqlarını örtən günəşin daha güclü işığına bənzədirdi. Ancaq, bu heç də sönük işıq qaynağı olan ulduzların, onlardan gələn işıqların yoxluğuna və ya onların günəş işığında əriməsinə gətirib çıxarmır. Belə bir halda insan Allahın yaxınlığını, onun ucalığını duyur. Beləliklə, insan bir varlıq kimi mahiyyətini itirmir, yoxluğa çevrilmir. İmam Rəbbaniyə görə mənəvi yüksəlişə çatmış sufi, Allahın sifətlərini mənimsəmir, Onun təcəllisinə çevrilmir. O vəhdəti-vücudçuların "Hər şey O-dur (Allahdır)" ifadəsini "Hər şey Ondandır (Allahdandır)" ifadəsi ilə əvəz etmişdir. Bununla yanaşı İmam Rəbbani düşüncədən irəli gələn dəlillərə önəm verərək bir-çox məsələlərdə yalnız duyğularına etibar edən sufilərin irrasionalizmini tənqid etmişdir. O, bəzi sufi *təriqətlərində* olan vəcdə düşmə *hallarına* qarşı da çıxmışdır.

İmam Rəbbaninin dünyagörüşü və

"vəhdəti-şühud" təlimi müsəlman çoxunluğunun inancına zidd olmamışdır. O, *sufiliklə* şəriətin uyuşması probleminin həllində yeni addımlar ata bilmişdir.

**VƏHDƏTİ-VÜCUD** – ***sufi təlimlərindən biridir.*** Bu təlimə görə yalnız bir varlıq vardır, o da *Allahdır*. Ondan başqa heç nə yoxdur. Maddi və mənəvi aləmdə olanlar isə onun təcəllisi və təzahürüdürlər. Onların varlıqları Tanrının varlığından asılıdır. Deməli maddi aləmin Allahla əlaqəsi bir şeyin onun kölgəsi ilə bağlılığı kimidir. O şey olmasa, onun kölgəsi də olmaz. Deməli bu *dünyanın* da varlığı Allahın varlığına bağlıdır.

"Vəhdəti-vücud" təliminə görə hər bir şeydə Tanrının təzahürləri vardır. Hər bir sufi Tanrıdan başqa heç bir şeyin olmadığını bilir. Bunu o, yalnız irrasional təcrübədən kənar yollarla, öz mənəvi potensialını *zahidlik* həyatı keçirməklə, çoxsaylı *zikrlər* etməklə duymağa başlayır. Sufinin mənəvi təcrübəsi, eləcə də Yaradıcıya olan sonsuz sevgisi onu varlığının birliyi duyğusuna gətirib çıxarır. Belə bir durumda o, Allahla birliyini duyaraq Onun içində əriyir. Bu durumda olan "sufi" öz dediklərinin, etdiklərinin, davranışlarının onun deyil, Allahın olduğunu iddia edir. *Səmalar* kimi müxtəlif ayinlər ona bu gizli biliyin açılmasına yardım edir. Bütün bunlar Allaha sonsuz sevgi duyğusundan irəli gələn sərxoşluq və *vəcd* durumlarında baş verir. Sonda sufi özünü Tanrının bir parçası kimi duyaraq "Ənəl-Həqq" deyir.

Ənənə və şəriət tərəfdarı olan müsəlman çoxluğu vəhdəti-vücudu heç də bir mənalı qarşılamamışdırlar. Sufiləri İslama *bidət* gətirməkdə ittiham etmişdirlər. Onlara qarşı təqiblər də olmuşdur. İlk dəfə "Ənəl-Həqq" deyən tanınmış sufi Həllac bu sözlərinə görə hətta edam edilmişdir.

"Vəhdəti-vücud" təliminin prinsipləri tanınmış *arif İbn Ərəbinin* (vəfat ili 638/1240) əsərlərində əks olunmuşdur. Ona görə də o, bu təlimin yaradıcısı hesab edilir. İbn Ərəbiyə görə Allahdan başqa hər bir varlıq əslində yoxdur. Onun fikrincə varlıq Allahdadır. Onun görünən təzahürləri isə Allahın təzahürləridir. Buna görə də, hər bir maddi şeydə Tanrını duymaq mümkündür.

İbn Ərəbidən sonra vəhdəti-vücud müsəlman dünyasının müxtəlif bölgələrində yayılmışdır. Anadoluda bu ideyaları onun görkəmli davamçısı Sədrəddin Konyəvi (vəfat ili 623/1224), *Fələstin* və *Misirdə* isə İbn Fərid (v. i. 632/1234) yaymışdırlar. Türk sufi təlimlərində bu ideyaları Yunus Əmrə səsləndirmişdir. Vəhdəti-vücudun motivləri *Cəlaləddin Ruminin* (v. i. 672/1273) "Məsnəvi"sində də yer almaqdadır.

**VƏHHABİLƏR** – ***XII\XVIII əsrin ortalarından başlayaraq Ərəbistan yarımadasında yaranmış sələfi dini-siyasi hərəkatının ardıcıllarına verilmiş addır.*** Hərəkatın adı *İslamı* bidətlərdən təmizləmək və ilkin dinə qayıtmaq şüarları ilə çıxış edən *Məhəmməd ibn Əbdülvəhhabla* bağlıdır. Onun dini fəaliyyətini Mərkəzi Ərəbistanda yerləşən və Səud sülaləsindən olan Dəriyə əmirləri siyasi hərəkata çevirmişdirlər.

1178/1765-ci ildə Dəriyə əmiri Məhəmməd ibn Səudun ölümündən sonra onun yerinə Əbdüləziz keçmişdir. O, hərəkatın təkcə siyasi deyil, həm də dini öndəri olmuşdur. O, Dəriyə əmirliyini xeyli gücləndirə bilmişdir. 1190/1773-cü ildə Riyyadı ələ keçirdikdən sonra Dəriyə əmirləri bütün mərkəzi Nəcdi idarə etməyə başlamışdırlar. Onların tutduğu bütün yerlərdə "*bidətlərdən* təmizlənmiş" İslam və "həqiqi" *tövhid* təbliğatı aparılırdı.

1206/1792-ci ildə Məhəmməd ibn Əbdülvəhhabın ölümündən sonra Səud xanədanı öz hakimiyyətini Şərqi Ərəbistanda yaymışdır. Burada, mərkəzi Nəcddə olduğu kimi müxtəlif (daha çox *şiələrin* olduğu) müqəddəs yerlər dağıdılmışdır. Eyni za-

manda, Qərbi Ərəbistanda Səud xanədanına müttəfiq olan güvvələrlə *Məkkə* şərifləri arasında qanlı toqquşmalar gedirdi. Bunun nəticəsində dəriyəlilər üstünlük qazanmışdılar.

Osmanlı sultanı imperatorluğun dərin böhran içində olduğuna baxmayaraq Səud sülaləsinin yeni uğurlarından ehtiyat edərək onlara garşı ordu göndərmiş, ancaq türk silahı birləşməsi üçün bu yürüş uğursuz olmuşdur. Onları izləyən dəriyəlilər Suriya və İraqa girmişdirlər. Gücdən düşən Osmanlı sultanları onların qarşısını ala bilməmiş və dəriyəlilər 1212/1802-ci ildə İraqın Kərbəla şəhərinə girmiş, şiələrin müqəddəs yerlərini dağıtmışdırlar. 1213/1803-cü ildə isə onlar Məkkəni ələ keçirirlər. Ancaq, Ciddə və *Mədinədə* türk qoşunu onları qeri çəkilməyə məcbur etmişdir. Elə həmin ildə qəsd nəticəsində əmir Əbdüləziz öldürülmüşdür. Onun yerinə keçən oğlu Səud 1215/1805-ci ildə Mədinəni və Hicazın başqa ərazilərini ələ keçirə bilmişdir. 1215/1805 – 1220/1810-cu illərdə Səudun qoşunu İraqa və Suriyaya yürüşlər etmişdir. 1221/1811-ci ildə Osmanlı sultanı Səudluların hücumlarının qarşısının alınmasını *Misir* valisi Məhəmməd Əliyə tapşırmışdırlar. O da, Dəriyə əmirlərinə qarşı qoşun göndərmişdir. 1222/1813-cü ildə onlar Hicazın bir hissəsini ələ keçirə bilmişdirlər. Sonra dəriyəlilər Misir ordusuna bir neçə dəfə qalib gəlsələr də, bundan faydalana bilməmişdirlər.

Səud 1223/1814-cü ildə ölmüş, onun yerinə oğlu Abdullah keçmişdir. Onun hakimiyyəti Dəriyə əmirliyi, Hicaz, Ümman, Bəhreyn və Tihamənin bir hissəsinə yayılmışdır. Ancaq, sonra misirlilər səudlulara qarşı mübarizələrini davam etdirmiş və uğur qazanmışdırlar. 1226/1817-ci ilə qədər artıq bütün orta Nəcdi Məhəmməd Əlinin böyük oğlu İbrahim ələ keçirə bilmişdir. 1227/1818-ci ildə səudluların son dayağı olan Dəriyə şəhəri da alınmışdır. O hadisələr zamanı səudluların çoxusu öldürülmüş, digərləri isə qaça bilmişdirlər. Dəriyə şəhəri isə dağıdılmışdır.

Ağır məğlubiyyətə baxmayaraq bir-neçə ildən sonra paytaxtı Riyad olan Səudlular ölkəsi yaranmışdır. Onun əmiri səudluların digər soyundan olan Türki olmuşdur. Ancaq, bu ölkəni də 1247/1838-ci ildə misirlilər darmadağın etmişdirlər. 1259/1850-ci ildə səudlular Feysəlin başçılığı altında mərkəzi Riyadda olan bütün Orta və Şərqi Ərəbistanı birləşdirən ölkələrini yarada bilmişdirlər. Sonra bu ölkə ərəb əmirlərinin öz arasında olan daxili çəkişmələr səbəbi ilə gücdən düşmüşdür. Buna baxmayaraq Səudlu II Əbdüləziz 1321/1902-ci ildə Riyadı ələ keçirərək ölkəni yenidən qurmuşdur. Birinci dünya müharibəsindən sonra isə bu ölkə daha da güclənmişdir. Daha sonra onlar Nəcd və Hicazı da tutmuşdurlar.

Məhəmməd ibn Əbdülvəhhabın ardıcıllarını təkcə Ərəbistanda deyil, digər yerlərdə də olmuşdurlar. İslamın bidətlərdən qorunması şüarları ilə bir-çox müsəlman dini icmaları İndoneziya, Afrika ölkələri, Hindistan, Yaxın Şərq, Avropa, eləcə də dünyanın başqa yerlərində bu gün də fəaliyyət göstərirlər. Bir çox dini-siyasi hərəkatlar bu ideyalardan faydalanmışdırlar.

**VƏHY** – ***Allahın bəzi peyğəmbərlərinə nazil etdiyi buyuruqlardır.*** *Quranda* (4: 163) deyilir ki, bəzi *peyğəmbərlər* vəhylər almışdırlar. Bunun necə baş verdiyini ancaq onlar bilirdilər. *İslamın* ilk mənbələrində bu barədə ətraflı bilgilər yoxdur. Ancaq, ilahiyyatçılara görə *Allah* vəhyi peyğəmbərlərə ən böyük *mələklərindən* biri *Cəbrailin* vasitəsi ilə nazil etmişdir.

*Hədislərdən* belə nəticəyə gəlmək olar ki, vəhylər *Məhəmməd* peyğəmbərə yuxuda və ya mələk vasitəsi ilə nazil olmuşdur. Bəzən də, Cəbrail onun hüzuruna insan görkəmində gələrək ona vəhyləri çatdırırdı. Bəzən isə

Cəbrail öz görkəmində də gəlirdi, ancaq bu durumda onu yalnız peyğəmbərin özü görürdü. Rəvayətlərə görə Allah heç bir vasitəçi olmadan bir-başa peyğəmbərlə *isra* və *merac* zamanı ünsiyyət qurmuşdur. Məhəmməd peyğəmbərə bütün vəhylər söz və ifadələr şəklində və ya hər hansı bir obraz və duyğularla endirilmişdir.

**VƏQF** – ***əqli sağlığı yerində olan, yetkinlik yaşına çatmış müsəlmanların heç bir mənfəət güdməyərək, xeyriyyə məqsədi ilə müəyyən qurumlara bağışladığı pul və ya maldır.*** Bu varlı müsəlmanların yerinə yetirdikləri xeyriyyəçilik fəaliyyətləridir. Bunun da tarixi *Məhəmməd peyğəmbərin* dövründən başlayır. Rəvayətlərə görə o, torpaq və bağlarını imkansızlar üçün vəqfə bağışlamışdır. *Fəqihlər* hesab edir ki, *Quranın* 3: 92 ayəsində vəqfə işarə edilmişdir. *Fiqhə* görə daşınmaz əmlakın vəqf kimi verilməsindən öncə bu işin bütün *şərtləri* müəyyən olmalı, müqavilələr bağlanmalıdır. Vəqflər ictimai həyatın hər bir sahəsində ola bilər. İmkansızlar üçün *məscidlər*, məktəblər, bazarlar, dükanlar, hərbi və tibbi obyektlər vəqf edilə bilər.

**VƏLİ** – ***dinin vacib və müstəhəb əməllərini yerinə yetirən, haram və məkruhdan çəkinən, Allah nəzdində yüksək məqama yüksələn müsəlmandır.*** Bu sözün çoxluğu "*övliyadır*" ki, onlara müsəlmanlar sayğı göstərirlər.Vəliliyin ən yüksək zirvəsi *fiqhi* buyruqların icrası ilə yanaşı mənəvi yetkinliyə çatmaqdır. Vəli həm də *Quranın* "Əl-İmran" surəsinin 68-ci ayəsində anılan *Allahın* adlarından biridir.

**VƏLİD İBN MÜĞİRƏ** – ***nüfuzlu qureyşili, Məhəmməd peyğəmbərin əleyhdarlarından biri olmuşdur.*** *Məhəmməd* peyğəmbər məkkəliləri *İslama* dəvət etməyə başlayan zaman onu bu fikirdən daşındırmağa çalışanların arasında Vəlid ibn Müğirə də olmuşdur. Ancaq, bu cəhdlərin uğursuzluğunu görən Vəlid ona qarşı açıq *ixtilafa* girmiş, onun *peyğəmbər* deyil, sehrbaz olması haqqında şaiyələr yaymışdır. *Təfsirçilərə* görə məhz buna görə *Quranın* 15: 90-94, 69: 40-42, 52: 29, 74: 11-30 *ayələri* nazil olmuşdur. Vəlid 622-ci ildə 92 yaşında Məkkədə ölmüşdür.

**VƏSİ** – ***fiqhdə ölmüş adamı təmsil edən, onun vəsiyyətini yerinə yetirən əqli sağlığı yerində, yetkin və azad insandır.*** Şiəlikdə vəsi peyğəmbərin *vəsiyyətini* yerinə yetirənə deyirlər. Belə ki, Məhəmməd *peyğəmbərin* vəsisi *Əli ibn Əbu Talib* olmuşdur. İsna-əşəri və digər şiə *təriqətləri* hesab edir ki, peyğəmbərlər *Allahın* nazil etdiyi gizli sirləri seçilmiş vəsilərə, onlar da *hüccətlərə* ötürmüşdürlər.

**VƏSİL İBN ƏTA** (80/699 – 127/748) – ***müsəlman ilahiyyatçısı və kəlamçısı (I), mütəzililiyin yaradıcılarından biri olmuşdur.*** *Mədinədə* doğulmuş, həyatının çox hissəsini Bəsrə şəhərində keçirmişdir. Vəsil *Həsən Bəsri* ilə tanış olmuş, onun elmindən faydalanmışdır. Ancaq, böyük *günah* işləmiş insanın durumunun necə olacağı məsələsində onunla razılaşmayaraq öz davamçıları ilə birlikdə onun məktəbindən ayrılmış, *mütəzili* məzhəbini yaratmışdır.

**VƏSİLƏ** – ***Allaha nəyinsə vasitəsi ilə dua etmək, yardım diləmək, yaxınlaşmaq, bununla da Onun rizasına nail olmaqdır.*** Vəsilə bir-çox yollarla: *elmi* öyrənməklə, *Allaha* içdən gələn sevgi ilə, onun adlarını zikr etməklə, *şəriətə* tabe olmaqla, başqa mömin insanlara müraciət etməklə gerçəkləşir. Buna dair *Quran ayələri* də vardır (5: 35, 17: 57). Vəsilə, müsəlmanların bütün etdikləri əməllər kimi şəriətə uyğun uyqulanır. Ancaq, bu məsələdə *ixtilaflar* da vardır. Bəzi ilahiyy-

atçıların fikrincə ölmüş müqəddəslər vasitəçi ola bilməzlər. Ona görə də, onların *məzarlarına ziyarət* etmək doğru deyildir. Başqaları isə bu iddia ilə razılaşmırlar.

**VƏSİYYƏT** – ***ölüm ayağında olan insanın yaxınlarından reallaşmasını istədiyi hər hansı bir buyuruq və ya tapşırıqdır***. Vəsiyyət edənin ölümündən sonra onun varı, mülkü, əmlakı və pulu vəsiyyət etdiyi insanlara keçir. Mülkün bölünməsi, ölənin borclarının ödənilməsi, gedə bilmədiyi *həccin* yerinə yetirilməsi, dəfn xərclərinin qarşılanmasından sonra yerinə yetirilir. Vəsiyyətin qaydaları haqqında *Quranda* ayə vardır (4: 11). Ayrıca, bu barədə çoxlu *hədislər* də mövcuddur. *Şəriətə* görə nəyisə vəsiyyət edən insan bunu şahidlərin yanında aydın səslənən və anlaşılan sözlərlə və ya yazılı etməlidir. Belə olarsa, onda vəsiyyət qanunauyğun hesab edilir. Ölmüş adamın yerinə *zəkatın* və ya *kəffarənin* verilməsi, borcunun ödənilməsi, həccə gedilməsi üçün edilmiş vəsiyyətlər vacibdir. Malın, mülkün və pulun müəyyən qədərini yoxsulluq içində yaşayan qohumlara, dostlara, yaxınlara, məktəblərə, elmi ocaqlara, xəstəxanalara vəsiyyət edilməsi *müstəhəb* əməllərdən hesab edilir. Günahkar, dinsiz, mədəniyyətsiz adamlara nəyisə vəsiyyət etmək *məkruhdur*. *Malı* və pulu şəriətlə qadağan olunmuş əməllərin həyata keçirilməsi üçün vəsiyyət etmək *haramdır*.

Vəsiyyətin çox hissəsi birbaşa varislərə (oğula, qıza, arvada) çatmalıdır. Onun üçdə bir hissəsindən artığını yad adamlara və ya hər hansı bir qurumlara vəsiyyət etmək olmaz. Vəsiyyət edənin buna hüququ və sağlam düşüncəsi olmalıdır. Vəsiyyəti basqı altında deyil, könüllü etməlidir. Vəsiyyət etdiyi şey ona məxsus olmalıdır. Vəsiyyət edən azad olmalı, çünki kölə heç nəyi vəsiyyət edə bilməz. Qadına edilən vəsiyyət kişiyə edilənin yarısı qədər olmalıdır. Oğula iki qızın hissəsi qədər pay vəsiyyət edilə bilər.

**VƏSVƏSƏ** – d***ini məsələlərdə mütəmadi olaraq şübhələrə düşməkdir.*** İlahiyyatçılara görə vəsvəsəni müsəlmanların canına *şeytan* salır və təbii ki, onlar əsassızdır. Bunun çarəsi kimi onlar *Allaha* sığınmağı tövsiyə edirlər. Bu barədə *Quranın* “Nas” surəsində ayələr vardır.

**VƏZ** – ***məscidlərdə din xadimlərinin hansısa məsələnin örnəyini əsas tutaraq insanları nəsihətlə doğru yola yönətmələridir.*** Vəz edərkən onlar *Quran ayələri* oxuyur və *hədislərdən* nümunələr gətirirlər. Vəzlər daha çox *Ramazan* ayında, *cümə* və bayram günlərində oxunur. Vəzi oxuyan vaiz adlanır.

**VİCDAN** – ***insanda haqqı haqsızlıqdan, xeyri şərdən, yaxşını pisdən, ədaləti ədalətsizlikdən, mədəniyyəti mədəniyyətsizlikdən ayıran təbii əxlaqi mexanizmdir.*** Bu da insanın mənəvi və əxlaqi xüsusiyyətindən irəli gəlir. Hər bir insanın təbiətində yaxşılığa, doğruya, gözəlliyə, təmizliyə yönəlmələr vardır. Ancaq bununla yanaşı, bu yönəlmələrin qarşısını *nəfs* deyilən əks anlayış alır. Bu barədə *Quran* əyələri də vardır (91: 7-10). İlahiyyatçılara görə insan təbiətində yaxşılığa yönəlmə və pisliklərdən çəkinmə hissləri doğuşdan etibarən mövcuddur. Buna görə də, hər hansı bir iş görərkən hər bir insan onun haqlı və ya yanlış olduğunu ruhu ilə duyur. Çünki, ruhunun ayrılmaz bir parçası olan vicdan bunu ona bildirir. Ancaq, bir çox durumlarda günahkar nəfs bu yüksək duyğuları üzə çıxarmağa imkan vermir. İnsanın içində gedən bu daxili savaş həyatı boyu davam edir. Yenə bəzi ilahiyyatçılara görə insan ruhunun yüksək və müsbət xüsusiyyətləri *Allaha* inanmaqla üzə çıxır. İmansız *ruh* insanı pisliklərə sürükləyir. Bu baxımdan demək olar ki, insan dində

olduğu zaman onun vicdanı doğru istiqamətə yönəlir. Bundan başqa ilahiyyatçılar iddia edirlər ki, vicdan dini qanunlarla çərçivələnmir. Vicdanın qidası yalnız mənəviyyatdır. Mənəviyyatı olmayan insanın vicdanı da olmaz.

**VİDA HƏCCİ** – ***hicrətin onuncu ilinin Zülhiccə ayında Məhəmməd peyğəmbərin Məkkədən Mədinəyə hicrət etdikdən sonra Məkkəyə ilk dönüşü, eyni zamanda ilk və sonuncu həccidir.*** Məhəmməd *peyğəmbər* cüməyə düşən bu ayın onuncu günündə minlərlə müsəlmanın qarşısında məşhur *xütbəsini* oxumuşdur. Peyğəmbər *həcc* mərasiminin son qaydalarını bu həcc zamanı yerinə yetirmişdir. Sonralar müsəlmanlar həcci bu qaydalara uyğun icra etməyə başlamışdırlar.

**VİRD** – ***müəyyən vaxtda Quran ayələri və duaları oxumaq, Allahı zikr etməkdir.*** *Sufi* təriqətlərinin *zikrləri*, eləcə də mənəvi yolları belə adlanır.

**VİTR** – ***vacib olan işa namazından sonra qılınan xüsusi bir namazıdır.*** Bəzi *məzhəblərdə* bu *namazın* üçüncü *rükətində qunut* duası oxunur. Vitr namazının qılınması qaydaları *Məhəmməd* peyğəmbərin *hədislərində* vardır. Vitr namazının rükətlərinin sayı müxtəlif məzhəblərdə fərqlidir. *Hənəfi məzhəbində* bu namaz 3 rükətdən ibarətdir. Ancaq *Maliki, Şafii və Hənbəli məzhəblərində* rükətlərin sayı çoxdur. Hənəfi məzhəbində vitr namazı *fərz* deyil, *vacibdir*. Ona görə də, bu namazın *qəzası (II)* qılınmır. Vitr camaatla deyil, tək olaraq qılınır. Yalnız bəzi məzhəblərdə *Ramazan* ayında onun camaatla qılınmasına yol verilir.

**VÜZU** – bax: **DƏSTƏMAZ.**

# Y

**YAQUB** – ***kənanlıların peyğəmbərlərdən biri olmuşdur.*** *Quranın* 29: 27 ayəsində onun adı çəkilmişdir. Yaqub *İshaq* peyğəmbərin oğlu idi. Onun başqa adı İsrail olmuşdur. İsrail xalqı onun 12 oğlundan törəmişdir. *Musa, Davud, Süleyman, Zəkəriyyə, Yəhya, İsa* kimi bir çox İsrail *peyğəmbərləri* Yaqubun soyundan gəlməkdədir. Yaqub Şamda və ya *Mədyəndə* doğulmuşdur. Atası *İshaq* vəfat etdikdən sonra o, anasının təkidi ilə *Hərrana* getmişdir. O, orada qırx il yaşamış və əmisinə qulluq etmişdir. Öncə o, əmisinin böyük qızı Leyla ilə evlənmişdir. Bu evlilikdən onun çoxlu uşaqları doğulmuşdur. Daha sonra o, Leylanın bacısı Rəhilə ilə də evlənmişdir, çünki o zaman *İbrahim* peyğəmbərin *şəriətində* iki bacı ilə eyni vaxtda evlənib-yaşamaq qadağan olunmamışdır. Rəhilədən onun *Yusif* və *Binyamin* adlı iki oğlu doğulmuşdur. Yaqub peyğəmbərin həm də kənizləri var idi və onlardan da onun övladları olmuşdur. *Allah* Yaquba peyğəmbərlik verdikdə o, ailələsi ilə Hərrandan Kənana köçmüş və orada xalqı doğru yola dəvət etmişdir.

**YƏCUC VƏ MƏCUC** – ***yer üzündə fəlakətlər törədən azğın qəbilələrdir.*** Onların ortaya çıxması *qiyamət* gününün əlamətlərindən hesab edilir. Bu barədə *Quranın* "Kəhf" (18) surəsinin 94-cü ayəsində məlumat verilir. Bu qəbilələrin hər ikisi yer üzündə fəlakətlər törətmişdirlər. Buna görə *Zülqərneyn* onların qarşısını ala bilən möhkəm bir divar tikmişdir. Ancaq, qiyamət gününə yaxın onlar bu divarı aşaraq bütün yer üzünə hücum edəcəkləri rəvayət edilir. Rəvayətlərdə Yəcüc və Məcuc qəbilələrinin basqını *İsanın* ikinci gəlişindən

sonra baş verəcəkdir. *Dəccal* qalib gəldikdən sonra *İsa* öz tərəfdarları ilə bu qəbilələrlə savaşa başlayacaqdır. Ancaq, onlar bu qəbilələri məğlub edə bilməyəcəklər. O zaman o, *Allahdan* yardım diləyəcək və Allah da Yəcuc və Məcücü məhv edəcəkdir.

**YƏHUDİLƏR** – ***sami xalqlarından biridir.*** Bu xalq *Yaqubun* böyük oğlu Yəhudanın adı ilə bağlıdır. Onları *İsrail oğulları*, İsraillilər, İbranilər də adlandırırlar. *Yəhudilər* Kənanda (müasir *Fələstin* və ona yaxın yerlərdir) yaşamışdırlar. *İsrailiyyata* görə *Yusif* peyğəmbərin dövründə yəhudilər *Misirə* köçmüşdürlər. Onların peyğəmbəri *Musaya* müqəddəs kitab *Tövrat* nazil olunmuşdur. *Hədislərə* görə yəhudilər 71 qola ayrılmışdırlar. Sonra *Yuşa* peyğəmbər bu xalqı yenidən Kənana qaytarmışdır. *Davud* və *Süleyman* peyğəmbərin dövründə yəhudilər güclü dövlət qura bilmişdirlər. Ancaq, sonra doğru yoldan sapdıqlarına və *günahlara* batdıqlarına görə onlar *Allahın* qəzəbinə gəlmiş, öncə assuriyalılara, sonra isə babillilərə məğlub olmuşdurlar. Bu hücumlar zamanı *Qüds* dağıdılmış, sağ qalan yəhudilər isə Babilə sürgün edilmişdirlər.

Bu fəlakətdən sonra Tövratın yazlı nüsxələri məhv edilmiş, beləliklə əsl Tövrat Yəhudi xalqının hafizəsindən silinib getmişdir. Yalnız bəzi insanlar onun fraqmentlərini yadda saxlayıb gələcək nəsillərə ötürmüşlər. 400 ildən sonra müqəddəs kitab yenidən yığılmış, daha sonra isə Əhdi-Ətiqin digər kitabları yazılmışdır.

Tövrat unudulduğundan Allah yəhudilərə yeni *peyğəmbərlər* göndərmişdir. Ancaq, onların çoxunu yəhudilər qəbul etməmişdirlər. Onlar *İsanı* nə peyğəmbər, nə də Allahın ona nazil etdiyi *İncili* qəbul etməmişdirlər. Buna görə də, Allahın qəzəbinə gəlmiş yəhudiləri Roma imperiyası iki dəfə darmadağın etmişdir. Bu hadisələrdən sonra onların bir çoxu öldürülmüş, sağ qalanlar isə ölkələrindən qovulmuşdurlar.

Roma imperiyasında Xristianlıq rəsmi din olduqdan sonra yəhudilər xristianların təqiblərinə məruz qalmışdırlar. Ərəbistanda *İslamın* yayılmasından sonra yəhudilər Məhəmmədin peyğəmbərliyini qəbul etməmişdirlər. Sonra onların müsəlmanlarla *ixtilafı* düşdüyünə görə *Mədinədən* və digər ətraf bölgələrdən qovulmuşdurlar. Ancaq, sonra Xilafətdə onların durumu yetərli qədər yaxşılaşmış, onlar müsəlman ölkələrində yaşayıb yaratmışdırlar. Yəhudilər özlərini Tanrının seçilmiş xalqı hesab edirlər. Günümüzdə də, onlar Musa peyğəmbəri sonuncu peyğəmbər hesab edərək ondan sonra gələn peyğəmbərləri qəbul etmirlər. Müsəlman ilahiyyatçılarına görə onlar Allahın mahiyyəti, eləcə də peyğəmbərlərin həyatı məsələlərində yanlışlıqlara yol vermişdirlər. Yəhudilər Allahın göndərdiyi digər müqəddəs kitabları da inkar edirlər. *Quranda* yəhudilər, eləcə də onların tarixi barəsində çoxlu *ayələr* vardır. Müasir Yəhudilik bu xalqın milli dini hesab edilir.

**YƏHYA** – ***İsrail oğullarına göndərilmiş peyğəmbərlərdən biri olmuşdur***. *Zəkəriyyə* peyğəmbərin oğludur. Valideynlərinin uzun müddət övladları olmamışdır. Təxminən yüz yaşına çatmış Zəkəriyya peyğəmbər *Allahdan* bir uşaq diləmişdir (*Quran*, 3: 38). *Mələklər* də ona Yəhyanın doğulacağı müjdəsini vermişdirlər (Quran, 19: 7). Mənbələrə görə Yəhya *İsa* peyğəmbərlə eyni tarixdə doğulmuşdur. O, kiçik yaşlarından Allaha ibadət etmiş, *Tövratı* öyrənmiş, onu *təfsir* edə bilmişdir. Yəhya gecə-gündüz Qüdsdəki *Məscidül-Əqsa* məbədində və ya tənhalıqda ibadətlərlə günlərini keçirmişdir. Yetkinlik yaşına çatdıqda Allah ona *peyğəmbərlik* vermişdir. O, *Musa* peyğəmbərin *şəriəti* ilə hökm vermiş, *İsrail oğullarını* imana dəvət etmişdir. Sonra isə *İsanın* peyğəmbərlik dövrü başlamışdır. Buna görə

Yəhya, xalqı İsanın gətirdiyi yeni şəriətə tabe olmağa çağırmışdır. Tövratın hökmlərini əvəz etmiş *İncilin* əsasında hökmlər verməyə başlamışdır. Ancaq yəhudilərin çoxu onun dəvətini qəbul etməmişdir. Yəhudiyyə çarı Hirod, öncə Yəhya ilə yaxşı davranmış, sonra o, onun qardaşı qızı ilə evlənmək istəmişdir. Bu evliliyi də Yəhya yəhudi qanununa zidd olduğunu bəyan etmişdir. Buna görə o, qızın anası Yəhya ilə düşmənçilik edib, onun edam edilməsini tələb etmişdir. Hirod da onu edam etdirmişdir. Yəhya peyğəmbər haqqında Quranın 19: 13-15 *ayələrində* bəhs edilir.

**YƏSƏVİ ƏHMƏD** – Bax. **YƏSƏVİLƏR.**

**YƏSƏVİLİK** – ***tanınmış sufi təriqətlərindən birinin ardıcıllarıdırlar.*** Bu *təriqətin* adı türk soylu Əhməd Yəsəvi (562/1166-cı ildə vəfat etmişdir) ilə bağlıdır. O, tanınmış sufi Yusif Həmədaninin tələbəsi olmuşdur. Yəsəvi Mərkəzi Asiyada türk ellərinin *İslamı* qəbul etməsində böyük səylər göstərmişdir. Ənənəvi İslamla sufilərin mənəvi yolu arasındakı qarşıdurmaları aradan qaldırmağa çalışmışdır.

Əhməd Yəsəvi Türküstanda, Müasir Qazaxstanın Çimkənt şəhərinin yaxınlığında doğulmuş, təhsilini Buxarada almışdır. Onun türk dilində hikmətli şeirlər toplusu olan "Divani-Hikmət" əsəri günümüzə gəlib çatmışdır. Bundan başqa Əhməd Yəsəvinin bir çox əsərləri də olmuşdur. O, çoxsaylı tələbələr yetişdirmişdir. Onların arasında türk soylu Süleyman Ata və Mənsur Ata kimi sufilər də olmuşdurlar. İlk dövrlərdə Əhməd Yəsəvinin təriqəti Mavərənnəhr və Xarəzmdə, sonra isə Qafqaz, Anadolu və Balkanlarda yayılmışdır. Bu təriqət Mərkəzi Asiyada günümüzə qədər mövcuddur.

Yəsəvilər və *nəqşibəndilər* arasında çoxlu bənzərliklər vardır. Yəsəvi mənəviyyat təlimində daha çox insanın öz nöqsanları və *nəfsi* ilə mübarizə aparmaq ideyaları önəm daşımışdır. Bunu edə bilən insan, *zikrlərin* vasitəsi ilə saflaşıb nəfsindən qurtula bilər. Yəsəvilər zikrləri uca səslə deyərlər (cəhridir). Mənəvi inkişaf yolunda yəsəvilər *xəlvətə* çəkilməyə də üstünlük verirlər. Təriqətin *müridləri şeyxin* buyuruqlarını sual vermədən yerinə yetirirlər.

**YƏSRİB** – bax: **MƏDİNƏ.**

**YƏZİDİLİK** – ***xaricilərdən ayrılmış aşırı təriqətin ardıcıllarıdırlar.*** Onun yaradıcısı Yəzid ibn Anis olmuşdur. O, *Məhəmməd* peyğəmbərin *şəriətini* ortadan qaldıracaq bir *peyğəmbərin* yeni müqəddəs kitabla gələcəyinə inanırdı. *İslam* ənənəsində yəzidilər dindən çıxmış hesab edilirlər.

**YUNUS** – ***Allahın göndərdiyi peyğəmbərlərindən biri olmuşdur.*** *Quranın* 10-cu surəsi onun adı ilə bağlıdır. Rəvayətlərə görə Assuriyanın Neynəva şəhərində doğulmuş, orada boya-başa çatmış, sonra *Allahın* adı ilə öz xalqını doğru yola dəvət etmişdir. Onun atası imanlı bir insan olmuşdur. O, Allaha *dua* edərək Allahdan oğul övlad istəmişdir. Allah onun *dualarına* səs verib, onu Yunusla müjdələmişdir.

Yunus uzun illər boyu günahkar və *bütpərəst* xalqını inanca dəvət etməsinə baxmayaraq uğurlu nəticələr əldə edə bilməmişdir. Sonda bu xalqın düz yola gəlməsinə inamını itirmişdir. O, şəhər sakinlərini cəzalandırılacaqları ilə hədələmiş, sonra oranı tərk etmişdir. Ancaq, yolda olarkən Allahdan geriyə dönüb xalqının arasında daha qırx gün qalmaq və onları doğru yola dəvət etmək əmri almışdır. Yunus da geri qayıdaraq dəvətini davam etdirmiş, ancaq xalqı yenə də onu inkar etmişdir. Buna görə də, onun dözümü tükənmiş, buyurulan qırx günün bitməsinə üç gün qalmış yenidən şəhərdən çıxmışdır. O, getdikdən sonra göydə qara buludlar görsən-

mişdir. Bunu görən sakinlər cəzalandırılacaqlarını anlamışdırlar. Onlar Yunusun evinə gedib onun *peyğəmbərliyini* tanıdıqlarını bildirmək istədilər. Ancaq, onu tapa bilmədiklərinə görə şəhərdə yaşamış başqa bir inanclı insanın yanına getdilər. O isə onlara 2 gün ərzində *tövbə* etməsələr məhv olacaqları xəbərini vermişdir. Bunu eşidən neynəvalılar bir təpənin başına yığışıb Allaha yalvarıb tövbə etmiş, Yunus peyğəmbərə tabe olacaqlarına söz vermişdirlər. Bundan sonra Allah onların tövbələrini qəbul etmiş, fəlakəti onlardan uzaqlaşdırmışdır. Qara buludlar şəhərin üstündən çəkilmişdir (Quran, 10: 98).

Yunus isə o zaman Dəclə çayının sahilində bir gəmiyə minib, o yerlərdən uzaqlaşmaq istəmişdir. Halbuki, Allah ona belə bir göstəriş verməmişdir. Ancaq, çaydan açıq dənizə çıxan gəmi gəmiçilərin cəhdlərinə baxmayaraq suda durmuşdur. Onu hərəkətə gətirmək mümkün olmamışdır. Onda xəbər yayılmışdır ki, gəmidə qaçaq kölə var. Yunus da qaçaq kölə olduğunu etiraf etdiyinə görə atılan püşkün ona düşməsi səbəbi ilə gəmiçilər tərəfindən dənizə atılmışdır (Quran, 37: 140-141). Bu vaxt orada olan böyük bir balıq onu udmuşdur (Quran, 37: 142). Balığın qarnında Yunus Allaha dua etdi və onun duası qəbul olundu, balıq onu dəniz kənarına atdı. O orada bir müddət qaldıqdan sonra Neynəvaya qayıdıb onu gözləyən xalqının peyğəmbəri olmuşdur (Quran, 37: 147-148). Rəvayətlərə görə Yunus peyğəmbər 83 yaşında Neynəva şəhərində vəfat etmişdir.

**YUSİF** – ***Allahın göndərdiyi peyğəmbərlərdən bir olmuşdur.*** "Yusif" (12) surəsinin bütün məzmunu ona həsr edilmişdir. O, *Yaqub* peyğəmbərin Rəhilədən olan oğlu olmuşdur. Atası onu qardaşlarından çox istədiyinə görə onlar onu qısqanmışlar (*Quran*, 12: 8). Onlar Yusifi özləri ilə çölə apararaq onu öldürmək istəmiş, ancaq son anda qardaşların biri onun öldürülməsini deyil, bir quyuya atılmasını təklif etmişdir (Quran, 12: 10).

Qardaşlar evlərinə qayıdınca Yaqub *peyğəmbərə* demişdilər ki, Yusifi canavar parçalamışdır. Bunun sübutu kimi onun heyvan qanına bulaşmış köynəyini ona göstərmişdirlər. Yusifi quyudan karvanla *Misirə* gedən insanlar qurtarıb onu özləri ilə aparmış, orada bir yüksək rütbəli məmura kölə kimi satmışdırlar. Yusif bir müddət onun evində yaşamışdır. O, yetkinlik yaşına çatdıqda isə, *Allah* ona peyğəmbərlik vermişdir. Ancaq, o məmurun həyat yoldaşı *Züleyxa* gözəlliyi ilə seçilən Yusifə vurulmuş, onunla yaxınlıq etməyin yollarını axtarmağa başlamışdır. Yusif onun təklifindən imtina edildikdən sonra Züleyxa onu onunla yaxınlıq etməyə cəhd etməkdə günahlandırmışdır (Quran, 12: 23-26). Onun əri isə Yusifin şərləndiyini bilmiş, ancaq bu məsələni ört-basdır etmək üçün onu zindana atdırmışdır. Orada uzun müddət qalan Yusif günlərini ibadətlərdə keçirmişdir. Allah ona yuxu yozmaq bacarığını vermişdir. Onunla zindanda Misir *Fironunun* keçmiş aşpazı və şərab paylayanı da olmuşdurlar. Gecələrin birində onların hər ikisi yuxu görüb, bu yuxuların yozulması üçün Yusifin yanına gəlmişdirlər (Quran, 12: 36). Yusif də birinin edam olunacağını, digərinin isə azadlığa çıxacağı və fironun qulluğuna qayıdacağı xəbərini vermişdir. Daha sonra Yusif buraxılacaq dustaqdan fironuna onun haqqında söhbət açmağı istəmişdir. Sonra Yusifin dedikləri gerçəkləşmişdir. Ancaq, sərbəst buraxılmış adam fironun sarayında qulluq etməsinə baxmayaraq Yusifin istəyini yerinə yetirməmişdir. Buna görə də o, daha bir neçə il zindanda qalmışdır. Gecələrin birində Misir fironu da qəribə bir yuxu görmüş, saraydakıları yanına toplayaraq onlardan bu yuxunun yozumunu tələb etmişdir. Ancaq, onlardan heç biri bunu

edə bilməmişdir (Quran, 12: 44). Onda həmin o keçmiş dustaq Yusifi yada salaraq onun yuxuları yozma bacarığı haqqında firona məlumat vermişdir. Firon da Yusifin yanına gətirilməsini əmr etmiş, onu gətirdikdə ondan onun yuxusunun yozulmasını tələb etmişdir. Yusif də onun yuxusunun məzmunu ilə tanış olduqdan sonra bu ərazilərdə quraqlığın düşəcəyi haqqında xəbər vermişdir. Sonra o, Firona demişdir ki, quraqlıq dövründə aclıq düşməsin deyə bir neçə il boyu məhsul yığılıb anbarlarda tədarük edilməlidir (Quran, 12: 47-49). Bundan sonra Yusif azadlığa buraxılıb saraya gətirilmişdir. Orada o yüksək məmur olub məhsulun tədarük edilməsi işinin məsuliyyətini öz boynuna götürmüşdür. Bir neçə ildən sonra quraqlıq dövrü başlamış, ancaq görülən işlər və toplanan sərvətlərə görə Misir xalqı heç bir çətinliklə qarşılaşmamışdırlar. Tezliklə digər qonşu ölkələrdə quraqlıq səbəbi ilə aclıq başlamışdır. Aclıqdan qurtulmaq istəyən insanlar Misirə gəlib, taxıl, eləcə də digər yeyinti məhsulları alırdılar. Gələnlərin arasında Yusifin qardaşları da olmuşdurlar. Yusif onları tanıyandan sonra aralarında müəyyən hadisələr baş vermişdir. Ancaq, sonda Yusif onları bağışlamış, atası Yaqubla birlikdə onları Misirə dəvət etmişdir. Beləliklə, Yaqub peyğəmbərin oğullarının soyundan gələn *İsrail oğulları* uzun müddət Misirdə yaşamışdırlar. Ancaq, sonra misirlilər onlarla pis davranmış, onları kölə etmişdirlər. İsrail oğullarını köləlikdən isə *Musa* peyğəmbər qurtarmışdır.

**YUŞA İBN NUN** – ***İsrail oğullarına göndərilən peyğəmbərlərindən biri olmuşdur.*** Rəvayətlərə görə o, *Musanın* bacısı oğlu idi və onun ardıcılı olaraq *Tövratın* qanunları ilə hökmlər vermişdir. *Quranda* birbaşa adı çəkilmir, ancaq *təfsirçilər* hesab edirlər ki, Quranın “Maidə” (5) surəsinin 23-cü ayəsində ona işarə edilir. *İsrailiyyata* və *hədislərə* görə Yuşa *Misirdə* doğulmuş, *Yusif* peyğəmbərin soyundan olan Nunun oğlu olmuşdur. O, Musa *peyğəmbərin* yaxın adamı və yardımçısı olmuşdur. Yuşa İsrail oğulları ilə birlikdə Musa peyğəmbərin öndərliyi ilə Misirdən çıxaraq qızmar Tih çölünə gəlmişdir. Tövrata görə Musa İsrail xalqını Tanrının vəd etdiyi torpaqlara gətirdikdə onlar gördülər ki, orada çox güclü Amalika xalqı yaşayır. Musa da onlara dedi ki, biz amalikalılarla vuruşub, torpaqları almalıyıq. Onda İsrail xalqı qorxmuş və bu savaşa girməmişdirlər. Musaya dedilər ki, sən get öz Tanrınla onlarla vuruş, bu bizlik deyil. Onda Tanrı İsrail xalqına vəd olunmuş torpaqlara girməyi qadağan etmdir. Beləliklə, bu xalq 40 il alçaldılmış və rüsvay olunmuş halda səhralarda yaşamışdır. 40 ildən sonra o qorxaq, fitnəkar soy ölüb getmiş, onların yerinə yeni nəsil gəlmişdir. Musa artıq dünyasını dəyişmişdir. Onlar Musanın varisi olan Yuşanın yanına gəlib vuruşmağa hazır olduqlarını bildirmişdirlər. Yuşa da onları savaşa təşviq edərək amalikalıları darmadağın etmişdirlər. O zaman çoxlu möcüzələr də baş vermişdir. Bundan sonra İsrail xalqı Tanrı tərəfindən vəd olunmuş torpaqlarda məskunlaşmışdırlar.

# Z

**ZAHİD** – bax: **ABİD.**

**ZAHİR** – ***heç bir məcazi mənası olmayan, mənaları açıq olan ayə və hədislərdir.*** Onlar zaman və məkan baxımından dəyişməz olaraq qalır. Bəzi *məzhəblərdə* iddia edilir ki, hər bir ayənin həm *zahiri*, həm də *batini* mənaları vardır. *Kəlamda (I)* zahir açıq və aydın olan hər bir şeydir. Orada hər hansı bir şeyin görünən tərəfi belə adlanır. Zahir həm də *Allahın* gözəl adlarından biridir.

**ZAHİRİ MƏZHƏBİ** – ***İslam hüquq məzhəblərindən biridir.*** Bu *məzhəbin* ardıcılları bütün Quran *ayələrinin* mənalarının acıq və aydın (*zahir*) olduğunu iddia edir, onların gizli (*batini*) məna daşıdığını inkar edirlər. Zahirilər *qiyas*, istihsan kimi *fiqh* metodlarını istifadə etmirlər.

Zahiri məzhəbinin yaradıcısı *Davud Zahiri* kimi tanınmış Daud ibn Xələf İsfəhani olmuşdur. Sonra *İbn Həzm Əndəlusi* (384/994 – 456/1064) bu məzhəbin əsaslarını inkişaf etdirmişdir. Ona görə də o, zahiriliyin ikinci təsisçisi hesab olunur.

İbn Həzmin vəfatından sonra onun tələbələri zahiriliyi yaymağa başlamışdır. Bir zamanlar bu məzhəb İspaniya və Şimali Afrikada malikiliklə rəqabət aparmışdır. Hicrətin VI əsrində zahirilik bir müddət Müvahhidilər dövlətinin rəsmi məzhəbi olmuşdur. Ancaq, sonra malikilər təkrar öz mövqelərini bu ölkədə bərpa edə bilmişdirlər. Bundan sonra zahirilikdə geriləmə dövrü başlamışdır. Zamanımızda azsaylı zahiri icmaları yalnız Hindistanda yaşayırlar. Buna baxmayaraq zahiriliyin müsəlman elminin tarixində önəmli yeri olmuş, onun bir çox elementləri digər məzhəblərin təlimlərində bu gün də mövcuddur.

Zahirilər hesab edirlər ki, *Allah* birdir və ondan başqa heç kimə tapınmaq olmaz. Ancaq, onlar Allahın zatı və sifətlərinin birliyini iddia etmişdirlər. Beləliklə, *Quran* və *hədislərdə* anılan Mərhəmətli, Səxavətli, Mehriban və başqa bu kimi Allahın özəlliklərini *sünnilər* kimi onun sifətləri deyil, adları kimi başa düşürlər. Çünki, ayələrdə Allahın sifətləri haqqında açıq-aydın heç bir dəlil yoxdur.

Zahirilər *qəza* və *qədər* məsələsində insanı öz seçimində azad hesab etmişdirlər. Buna baxmayaraq insan, Allahın iradəsinə qarşı heç bir iş görə bilməz. Çünki, onun iradəsi mütləqdir. Buna görə də, Allah insanı bağışlaya və ya cəzalandıra bilər. İnsanın *günahları* məsələsində zahirilər hesab edirlər ki, *tövbələr* Allah tərəfindən qəbul olunur. Onlara görə kimsə tövbə etməyərək ölərsə, həyatı boyu törətdiyi yaxşı əməlləri, pis əməllərindən çox olarsa Allah onun günahlarını bağışlayar, *cənnət* qapılarını onun üzünə açar. İnsanın yaxşı əməlləri günahları ilə bərabər olarsa, o zaman o, *Ərafda* yer alacaqdır. Bir müddət orada qaldıqdan sonra cənnətlə müjdələnəcəkdir. İnsanın günahları yaxşı əməllərindən çox olarsa, onda o günahlarına görə cəzalandırılacaq, sonra isə törətdiyi yaxşı işlərinə görə yenə də cənnətə girəcəkdir.

Hakimiyyət məsələsində zahirilər hesab edirlər ki, xilafət qüreyş qəbiləsinin mənsubları tərəfindən idarə edilməlidir. Onlar ilk dörd *Raşidi xəlifələr* kimi seçilməli və ya təyin edilməlidirlər.

Fiqhdə zahirilər *fətvaları* ilk olaraq Quranın ayələri əsasında verirlər. Burada hər hansı bir çətinlik olarsa, onda ayələr başqa ayələrlə şərh edilməlidir. Fətvaların verilməsində ikinci qaynaq hədislərdir. Zahirilərə görə onların Quranla ayrılmaz əlaqəsi vardır. *Mütəvatir* xəbərlərin əsasında verilən hökmlər daha etibarlıdır. Eyni zamanda, onlar *səhih* olan *əhəd* hədislərə də böyük önəm verir, hətta onların üzərində əqidə məsələlərinin qurulmasını belə mümkün hesab edirlər. Zahirilərin hökmlərin çıxarılmasında üçüncü mənbə *icmadır*. Onlar yalnız *müctəhidlərin* Quran və hədislərə əsaslanan açıq-aydın ümumi *rəyini* qəbul edib, gizli icmanı inkar edirlər. Onlar malikilərin tanıdığı "mədinəlilərin icmasını" da inkar etmişdirlər. Ən etibarlısı isə *peyğəmbərin* səhabələrinin icmasıdır. Fətvaların verilməsində dördüncü mənbə dəlildir. Onu zahirilər inkar etdikləri qiyasın yerinə tətbiq edirlər. Dəlil yalnız Quranın açıq-aydın ayələrindən (*nasslardan*) çıxarılır, Dəlil metodu qiyasda olduğu kimi bənzətmə yolu ilə yerinə yetirilmir. Hökm verdikdə birbaşa

nassın dəlilindən istifadə edilməlidir. Əgər nassda hər hansı bir şeyə dair bir göstəriş olmazsa, onda onun qadağan olması haqqında söhbət gedə bilməz.

**ZAKİR** – ***sufi təriqətlərində zikr məclislərini aparan adamdır.*** Ümumiyyətlə, hər bir müsəlman *zikr* edən zaman *zakir* olur. Mənəviyyat yolçuluğunda zikr etmək yolları daha da qısaldır. Zikir Allaha qovuşmada, Onda ərimədə əsas amilə çevrilir.

**ZAVİYƏ** – bax: **RİBAT.**

**ZEYD İBN ƏLİ** (80/700 – 122/742) – ***Əli ibn Əbu Talib soyunun ən tanınmış nümayəndələrindən biri olmuşdur***. O, imam *Zeynül-Abidinin* oğludur. Zeydi *şiələri* onu imam və *əhli-beytin* ən parlaq nümayəndəsi hesab edirlər. *Zeydi məzhəbinin* yaranma tarixi onun adı ilə bağlıdır. Zeyd ibn Əli ilk *İslam* ilahiyyatçıları və *fəqihlərindən* biri olmuşdur. O, müxtəlif məsələlərin həllində öz metodunu inkişaf etdirmişdir. Onlar zeydi məzhəbində bu gündə istifadə edilməkdədir. Zeyd ibn Əli Əməvi *xəlifəsi* Hişamın dövründə hakimiyyətə qarşı üsyana başçılıq etmişdir. Hicrətin 122-ci ilində üsyan yatırıldıqdan sonra edam edilmişdir.

**ZEYD İBN HARİS** (8/629 ildə ölmuşdür) – ***Məhəmməd peyğəmbərin azadlığa buraxdığı köləsi və oğulluğu, eləcə də onun yaxın səhabələrindən biri olmuşdur.*** Əsli Yəməndən idi. Anası ilə birlikdə səfərdə olarkən basqına uğrayıb əsir götürülmüş, sonra isə qul kimi satılmışdır. Məhəmmədin həyat yoldaşı *Xədicənin* köləsi olmuşdur. Sonra o, onu Məhəmmədə bağışlamış, o da onu azadlığa buraxmışdır. Ancaq, Zeyd onunla əlaqəsini kəsməmiş, hər zaman onun yaxın adamlarından biri olmuşdur. Daha sonra *Məhəmməd* peyğəmbər onu oğulluğa götürərək özünün varisi etmişdir. Zeyd *İslama* gələn ilk müsəlmanlardan olmuşdur. Ən ağır dövrlərdə o, *peyğəmbərin* yanında olmuş, onu qorumuşdur. Məhəmməd peyğəmbər Taifə gedərkən Zeyd onu tək buraxmamış, onunla getmişdir. Orada taiflilər peyğəmbəri daşa basan zaman Zeyd peyğəmbəri qorumuşdur. Zeyd ibn Haris başqa müsəlmanlar kimi təqib olunmuşdur. Sonra *Mədinəyə hicrət* etmişdir. Burada o, quruculuq işinə qatılmışdır. *Bədr, Uhud, Xəndək* və digər döyüşlərdə vuruşmuşdur. Zeydin döyüş bacarığı olduğundan o, müxtəlif yürüşlərdə İslam ordusuna başçılıq etmişdir. Bəzən Məhəmməd peyğəmbər yürüşlərə çıxdıqda *Mədinənin* idarəçiliyini ona tapşırmışdır. Zeyd ibn Haris Muta döyüşündə *şəhid* olmuşdur.

**ZEYD İBN SABİT** (45/665-ci ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin ən tanınmış səhabələrindən biri, Quran katibi, Quranın sonuncu tərtibini həyata keçirən heyətin başçısı olmuşdur.*** O, *Mədinədə* hicrətdən on bir il öncə doğulmuşdur. O, *Xəzrəc* qəbiləsinə mənsub idi. Onun atası Mədinə qəbilələri olan Evs və Xəzrəc arasındakı savaşda (Buas döyüşündə) öldürülmüşdür. Hicrətdən sonra yetkinlik qaşına çatan Zeyd ilk dəfə *Xəndək* döyüşündə vuruşmuşdur.

Zeyd çox bacarıqlı və bilikli bir insan olmuş, yaxşı yaddaşı ilə seçilmişdir. O, ərəb dilindən başqa, süryani və ibrani dillərini bilmiş, *Məhəmməd* peyğəmbərə bu dillərdə göndərilmiş məktubları tərcümə etmişdir. Bundan başqa Zeyd Məhəmməd *peyğəmbərin* katibi olduğundan Quran *ayələrinin* yaxşı bilicilərindən biri, hətta o, *Quranı* əzbərdən bilən ilk müsəlmanlardan olmuşdur.

Məhəmməd peyğəmbərin vəfatından sonra Zeyd Bəni Səid ailəsinin toplantı yerində *Əbu Bəkrin* xəlifəliyə namizədliyini dəstəkləmişdir. Əbu Bəkr və Ömərin

xəlifəliyi dövründə Zeyd onların yaxın adamı olaraq dövlət idarəçiliyində yer tutmuşdur. Xəlifə *Osmanın* dövründə Quranın son redaktə işlərini görən heyyətə başçılıq etmişdir. Təxminən 54 yaşında Mədinədə vəfat etdiyi qeyd edilir.

**ZEYDİ MƏZHƏBİ** – ***ən qədim şiə məzhəblərindən biridir.*** *Məzhəbin* adı *Zeyd ibn Əli* ilə bağlıdır. Zeydilər Xilafətdə *peyğəmbərin* soyundan olmayanların da hakimiyyətini qanuna uyğun hesab edilər. Bununla belə, onlara görə peyğəmbərin soyundan olanlar xəlifəliyə daha çox layiqdirlər. *Xəlifənin* qanuna uyğun seçilməsi üçün bəzi *şərtlər* irəli sürürlər ki, bu da xəlifənin ədalətli olması və onu xalqın dəstəkləməsidir. Onlar ilk xəlifələr olmuş *Əbu Bəkr* və *Ömərin* xəlifəliyini qanuna uyğun sayırlar. Ancaq, *Əli ibn Əbu Talibin* xəlifəliyə daha layiq olduğunda qeyd edirlər. Eləcə də, zeydilər hesab edir ki, Əli və *Fatimənin* övladları Həsən və Hüseynin soyundan olan hər bir nüfuzlu kəs ölkə başçısı seçilə bilər və bu seçim digərlərinin seçilməsindən daha yaxşıdır.

Hakimiyyət məsələsində zeydilər həm də, ədalətsizliyə qarşı çıxmış və insanları bu amal uğrunda mübarizəyə səsləyən hər bir öndəri xilafətə layiq imam hesab etmişlər. Birinci növbədə bu işi peyğəmbər nəslinin nümayəndələri etməlidir. Onların təlimində zülmə qarşı üsyan qaldırmaq vacibdir.

Bununla bərabər digər *şiələrdən* fərqli olaraq zeydilər *qeybdə* olan imama etiqad etməzlər. Zeydilər də böyük *günah* etmiş müsəlmanların dinsizliklə inanc arasında olduqları inancını dəstəkləmiş, bununla da *mütəzililərə* yaxınlaşmışdırlar. Ancaq, onlardan fərqli olaraq zeydi ilahiyyatçıları *tövbə* etməyən günahkarların sonsuzluğa qədər *cəhənnəmdə* qalacağına dair birmənalı iddialar etməmişdirlər. *Qəza* və *qədər* məsələsində zeydi ilahiyyatçıları hər bir insanın törətdiyi əməllərə görə məsuliyyət daşıdığını iddia edirlər.

Zeyd ibn Əli *fiqhi* hökmlər də çıxarmışdır. Onlar onun tələbələri tərəfindən yazılmış “Məcmuil-Hədis” və “Məcmuil-Fıqh” kitablarında əks olunmuşdur. Bu iki kitab birlikdə “Məcmuil-Kəbir” adlanır. Orada toplanmış bütün *hədislərin* birbaşa peyğəmbərin *əhli-beytindən* söyləndiyini iddia edilir. Bu da zeydi məzhəbinin əsas kitablarından biridir.

Zeydi *fəqihləri* hökmləri ilk olaraq *Quran* və hədislərin əsasında verirlər. Bu mümkün olmazsa, onda *fətvalar qiyas* və istihsan kimi başqa hüquqi metodlarla verilir. Əgər bu metodlarla da məsələ həll olunmazsa, onda əqli dəlillərə müraciət edilir. Bununla da, zeydilərin baxışı mütəzililərə yaxınlaşır. Düşüncə məsələsində zeydilər hesab edir ki, əgər insan öz düşüncəsi ilə bir şeyin pis və ya yaxşı olduğunu anlayırsa, deməli o şeylər həqiqətdə də belədir. Zeydilər *ictihadı* hər zaman açıq hesab etmişdirlər.

Zeydi məzhəbinin ən tanınmış ilahiyyatçılarından biri Qasım ibn İbrahim Rassi Həsəni (170/787 – 242/856) olmuşdur. Onun səyləri nəticəsində zeydilik Yəməndə geniş yayılmışdır. Qasım ibn İbrahimin fiqh metodu hənəfi metodlarına yaxın idi. Hicrətin 245-ci ilində *Mədinədə* doğulan və zeydilərin *qərmətilərə* qarşı savaş aparmaq üçün Yəmənə gəlmiş Hadi İləlhaq Yəhya ibn Qasım onun soyundan olmuşdur. Hadinin ardıcıllarını hadivilər adlandırmışdırlar. Gilan və Deyləmdə zeydi ideyalarını Nəsir Kəbirə (230/844 – 304/917) yaymışdır. Bu iki insan zeydi təliminin inkişaf etməsində böyük işlər görmüşdürlər. Günümüzdə zeydi məzhəbi daha çox Yəməndə yayılmışdır.

**ZEYNƏB BİNT CƏHŞ** (20/642-ci ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin həyat yoldaşlarından biri olmuşdur.*** Zeynəb ilk müsəlmanlardan biri idi. *Məkkədən Mədinəyə* ilk hicrət edənlərdən olmuşdur. *Məhəmməd* peyğəmbər onu oğulluğu və

keçmiş köləsi *Zeyd ibn Haris* ilə evləndirmək istəmişdir. *İslamdan* öncəki dövrlərdə azad qadın keçmişdə kölə olmuş birisinə ərə gedə bilməzdi. Məhəmməd *peyğəmbərin* onları evləndirmək qərarı bu *adətə* son qoymuşdur. Ancaq, Zeydlə Zeynəbin evliliyi uğurlu olmamış və onlar boşanmaq qərarına gəlmişdirlər. Bundan sonra Məhəmməd peyğəmbər özü onunla evlənmişdir. Ancaq, ərəb adətlərinə görə o, oğulluğunun keçmiş həyat yoldaşı ilə evlənə bilməzdi. Rəvayətlərə görə bu zaman o adəti ləğv edən Quran ayəsi nazil olmuşdur (33: 37-40). Bundan sonra hicrətin beşinci ilində Məhəmməd peyğəmbər otuz beş yaşlı Zeynəblə evlənmişdir. Zeynəb təxminən 53 yaşında Mədinədə vəfat etmişdir.

**ZEYNƏB BİNT ƏLİ** (65/684-cü ildə vəfat etmişdir) – ***Əli ibn Əbu Talib və Fatimənin qızı olmuşdur***. *Məhəmməd peyğəmbərin* vəfat tarixinə təxminən beş il qalmış doğulmuşdur. Atası onu əmisi oğlu Abdullah ibn Cəfər ilə evləndirmişdir. Bu evlilikdən onların övladları olmuşdur. Kərbəla faciəsi zamanı Zeynəb qardaşı Hüseyn ibn Əlinin yanında olmuşdur. Bu döyüşdə onun bir-çox doğmaları öldürülmüşdür. O, özü isə əsir götürülərək Dəməşqə xəlifə Yəzid ibn Əbu Sufyanın yanına aparılmışdır. Orada *xəlifə* onu azad etmişdir. Bundan sonra Zeynəb *Misirdə* yaşamış və orada da vəfat etmişdir.

**ZEYNƏB BİNT HÜZEYMƏ** (4/626 ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin həyat yoldaşlarından biri olmuşdur.*** Soyu döyüşkən ərəb qəbiləsi olan Əmir ibn Sasadan gəlməkdədir. O, xeyriyyə işləri ilə məşğul olduğuna görə ona “Yoxsulların anası” deyirdilər. Zeynəbin birinci əri Tüfeyl ibn Haris adlı biri olmuşdur. Sonra Zeynəb ondan boşanıb, *Bədr* döyüşündə həlak olmuş Übeyd ibn Harisə ərə getmişdir. Hicrətin üçüncü ilində Əmir ibn Sasa qəbiləsinin döyüşçü dəstəsi *Məhəmməd* peyğəmbərin onların yanına göndərdiyi elçiləri öldürülmüşdülər. Bu hadisədən sonra müsəlmanların onlarla münasibətləri pozulmuşdur. Ancaq, Məhəmməd *peyğəmbər* qan tökülməsini istəməmiş, sülh yolu ilə ixtlafın həll olunmasına üstünlük vermişdir. Bunun üçün o, hicrətin dördüncü ilində Zeynəb bint Hüzeymə ilə evlənmişdir. Ancaq, onların birgə həyatı uzun sürməmiş, Zeynəb toydan bir neçə ay sonra vəfat etmişdir.

**ZEYNƏB BİNT MƏHƏMMƏD** (8/630-cu ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin böyük qızı olmuşdur***. Zeynəb *Məhəmmədin* peyğəmbərliyinə təxminən on il qalmış doğulmuşdur. Zeynəb yetkinlik yaşına çatdıqda onu *Məkkənin* tanınmış və nüfuzlu adamı olan Əbül-As Rabiəyə ərə vermişlər. Zeynəbin erkən yaşlarında ölmüş oğlu Əli və Ümamə adlı bir qızı olmuşdur. Hansı ki, Ümamə *Əli ibn Əbu Talibin* həyat yoldaşlarından biri olmuşdur.

Məhəmmədin *peyğəmbərlik* dövrü başlayanda Zeynəb bacıları və anası ilə birlikdə ilk *İslamı* qəbul edənlərdən olmuşdurlar. Ancaq, onun həyat yoldaşı Əbül-As *bütpərəst* olaraq qalmışdır. O dövrdə müsəlman qadının başqa dinə etiqad edən insanla evli olmasını qadağan edən ayə (Quran, 60: 10) nazil olmamışdır. Buna görə Zeynəb bütpərəst olan əri ilə *Mədinəyə hicrət* edənə qədər yaşamışdır. Əbül-As *Bədr* döyüşündə müsəlmanlara qarşı vuruşmuş və əsir düşmüşdür. Onu Məhəmməd peyğəmbərin yanına gətirmişlər və o da, onu azadlığa buraxmışdır. Əvəzində isə Əbül-As Zeynəbi atasının yanına Mədinəyə yollamalı idi və o, sözünü tutaraq vədini yerinə yetirmişdir.

Bundan sonra Əbül-As və Zeynəb uzun müddət görüşməmişdirlər. Məkkənin fəth edilməsindən az öncə, Əbül-As ticarət məqsədi ilə Suriyaya getmişdir. Ancaq, geri döndükdə onun karvanını müsəlmanlar ələ

keçirmişdirlər. Əbül-As isə qaçaraq həyatını qurtara bilmişdir. Bundan sonra o, Mədinəyə gizli girərək Zeynəblə görüşmüş, ondan yardım istəmişdir. Zeynəb peyğəmbərin yanına gedərək Əbül-Asın durumunu ona bildirmişdir. O da, müsəlmanların ələ keçirdikləri karvanını ona qaytarmışdır. Ancaq, qızına onunla evlilik münasibətlərinin davam etməsini qadağan etmişdir. Çünki o dövrdə, artıq müsəlman qadınının bütpərəstlə evlilikdə olmasını qadağan edən *Quran* ayəsi nazil olmuşdur. Hicrətin 7-ci ilində Əbül-As Məkkəyə qayıdıb işlərini səhmana salıb, borclarını qaytardıqdan sonra İslamı qəbul etmişdir. Bundan sonra Mədinəyə qayıdaraq peyğəmbərdən Zeynəblə evliliyinin bərpa edilməsini istəmişdir. Peyğəmbər də buna razılığını verdikdən sonra, onlar yenidən evlənmişdirlər. Əbül-Asla Zeynəb evlilik münasibətlərini davam etdirmişdirlər. Ancaq bir neçə aydan sonra Zeynəb ağır xəstəliyə tutularaq vəfat etmişdir.

**ZƏBH** – ***heyvanların şəriət qaydalarına uyğun kəsilməsidir.*** Heyvanın kəsilməsinin ən başlıca *şərti* "Bismillah" (Allahın adı ilə) sözlərinin deyilməsidir. Zəbh zamanı bu sözlər bilərəkdən deyilməzsə, onda həmin heyvanın ətinin yeyilməsi *haramdır*. Ancaq, bu sözlər unudularaq deyilməyibsə, o zaman əti yemək olar. "Bismillahın" yerinə "Allahu əkbər" (Allah böyükdür) sözlərini də demək mümkündür.

**ZƏBUR** – ***Davud peyğəmbərə nazil olmuş müqəddəs kitabdır***. Quranda (4: 163, 17: 55) Zəbur haqqında məlumat verilir. Zəbur *Allahın Bəni İsrailə Tövratdan* sonra göndərdiyi ikinci müqəddəs kitabdır.

*Davuda* kitab nazil olsa da, o *rəsul* olmamış, *Musa* peyğəmbərin *şəriəti* ilə hökmlər vermişdir. Zəbur bu baxımdan Tövratı gücləndirən əlavə kitabdır. Onun ayələri gözəl poetik üslubda yazılmış, Davud **peyğəmbər** isə onu gözəl səslə oxumuşdur. Rəvayət olunur ki, Davud peyğəmbər olduqca gözəl səsi sahib idi. Rəvayətlərə görə Zəburun ilk yazılı nüsxəsi ibrani dilində olmuş və o günümüzə gəlib çatmamışdır. İndi Zəbur *yəhudilərin* və xristianların müqəddəs kitabları olan Əhdi Ətiqin bir hissəsidir. Müsəlman ilahiyyatçılarının çoxuna görə Quran nazil olduqdan sonra Zəburda olan bütün dini hökmlər, digər müqəddəs kitablarda olan hökmlər kimi öz gücünü itirmişdir.

**ZƏİF HƏDİSLƏR** – ***səhih və həsən hədislər üçün irəli sürülmüş şərtlərə uyğun olmayan hədislərdir.*** Onların *Məhəmməd* peyğəmbər tərəfindən söylənilməsi şübhələr doğurur. *Fiqhi* məsələlərinin çözülməsində zəif *hədislərin* dəlil kimi istifadə olunması məsələsində müsəlman alimləri arasında müxtəlif fikirlər vardır. Onların çoxu buna yol verməmişdirlər. Onlara görə zəif hədislər şübhəli olduqlarına görə onlardan dəlil kimi istifadə etmək olmaz. Digər alimlər isə problemlərin həllində zəif hədislərə deyil, *qiyas* metoduna üstünlük vermişdirlər. Bəziləri isə müəyyən *şərtlərlə* zəif hədislərin əsasında fiqhdə hökm verməyin tərəfdarı olmuşdurlar. Hədisin zəifliyi yalnız ehtimaldırsa, sübuta yetirilməmişdirsə o zaman ondan dəlil kimi istifadə edilə bilər. Digər şərt ondan ibarətdir ki, zəif hədislər *Quran* və hədislərdə təsbit olunmuş inancın təməllərinə zidd olmamalıdır. Daha bir şərt ondan ibarətdir ki, müsəlmanlar zəif hədislə verilən hökmü dinin buyruğu kimi deyil, yalnız üstünlük gətirən əməl kimi dəyərləndirməlidir. Zəif hədislər bir neçə yerə bölünürlər. Onların bəziləri aşağıdakılardır:

1.Məhəmməd *peyğəmbərin* səhabələrindən deyil, başqa adamlar tərəfindən söylənilmiş "Qərib" hədislər;

2. Rəvayətçilər *silsiləsində* iki və ya daha

çox *ravinin* olmadığı "Müdəl" hədislər;

3. Rəvayətçilər silsiləsinin başlanğıcı bilinməyən "Müəlləq" hədislər;

4. Rəvayətçilərindən birinin nüfuzlu olmadığı "Məhcül" hədislər;

5. Mətnlərində və ya ravi silsilələrində bir-birindən fərqlənən xüsusiyyətlər olan "Məqlub" hədislər;

6. Rəvayətçilər silsiləsində Məhəmməd peyğəmbərin söylədiklərini eşidən səhabənin olmadığı "Məqtu" hədislər;

7. Rəvayətçilər silsiləsində birinci rəvayətçinin olmadığı "Müdəlləs" hədislər;

8. Rəvayətçilərinin müxtəlif variantlarda söylədikləri "Müdtərib" hədislər;

9. Adı və ünvanı bilinməyən rəvayətçinin olduğu "Münkəti" hədislər;

10. Hər hansı bir adı bilinməyən tabiundan söylənilmiş "Mürsəl" hədislər;

11. Etibarlı rəvayətçilərdən ötürülən, ancaq məna baxımından başqa hədislərdən fərqlənən "Şəz" hədislər.

**ZƏKAT** – ***Allah qarşısında savab qazanmaq niyyəti ilə varlı müsəlmanın bir il ərzində toplanan sərvətinin müəyyən bir hissəsinin yoxsullara bağışlamasıdır.*** Zəkat *İslamın* əsas *şərtlərindən* biridir. İslam *fiqhinə* əsasən onun verilməsi vacibdir. Zəkatın tarixi hicrətin ikinci ilindən başlayır. *Quranda* zəkatın verilməsi çox vaxt *namazla* birlikdə qeyd edilir (2: 43). Birinci xəlifə *Əbu Bəkrin* dövründə zəkatı verməkdən yayınan ərəb qəbilələri İslam dinindən çıxmış elan olunmuş, onlara qarşı şiddətli savaşlar aparılmışdır. Çünki, o dövrdə zəkatdan yığılan sərvət *beytül-malın* böyük hissəsini təşkil edirdi. İlahiyyatçılara görə zəkat malla edilən ibadətdir. Bu ibadətin sayəsində müsəlmanın *dünyaya* və dünya malına bağlılığı zəifləyir və o, *Allah* rızasını qazanmaq üçün malını kasıb müsəlmanlarla paylaşır. Zəkatı yalnız azad, yetkinlik yaşına çatmış varlı müsəlmanlar ildə bir dəfə onlara məxsus sərvətdən verməlidirlər. Varlılığın həddi də nisab adlanaraq müəyyənləşdirilmişdir. Ancaq, bu hədd *məzhəblər* üzrə fərqlidir. Bir çox ilahiyyatçılar hesab edir ki, nisab həddi 80,18 qram qızıla və ya 561,2 qram gümüşə bərabərdir. Bu ölçüdən çox yığılan sərvətin 2,5% zəkat üçün verilməlidir. Bəzi məzhəblərdə zəkat bəzək üçün istifadə olunan müxtəlif qızıl və gümüşdən hazırlanmış zinət əşyalardan da olmalıdır. Bəzi məzhəblərdə isə qadın və ya kişilərin bəzək əşyası kimi istifadə etdikləri qiymətli əşyalarından zəkat verilmir.

*Şəriət* qanunları ilə idarə olunan ölkələrdə zəkatın toplanılması dövlət qurumları tərəfindən yerinə yetirilir. Dünyəvi ölkələrdə isə hər bir müsəlman fərdi şəkildə zəkatı yoxsul müsəlmanlara və ya *vəqflərə* verməlidirlər.

**ZƏKƏRİYYƏ** – ***İsrail peyğəmbərlərindən biri olmuşdur.*** Zəkəriyyə *peyğəmbərin* soyu *Süleyman* peyğəmbərə qədər yüksəlir. Rəvayətlərə görə Zəkəriyyə Musanın *şəriəti* ilə dini hökmlər vermiş, xalqı *Tövratın* qanunlarına tabe olmağa çağırmışdır. Ancaq, israillilərin çoxu onun peyğəmbərliyini tanımamışdırlar. O, *abid* həyatı sürmüş, gecə-gündüz *Qüds* məbədində *Allaha* ibadət etmişdir. İsa peyğəmbərin anası *Məryəmin (I)* tərbiyəsi də Zəkəriyyəyə tapşırılmışdır. Zəkəriyyə ona Tövratı öyrətmişdir. Bundan sonra Məryəm möcüzələrlə qarşı-qarşıya gəlmişdir (*Quran*, 3: 38). Daha sonra Zəkəriyyənin *Yəhya* adlı bir oğlu dünyaya gəlmişdir. O da, İsrail peyğəmbərlərindən biri olmuşdur. Rəvayətlərə görə Zəkəriyyə peyğəmbər Hələbdə vəfat etmiş, orada da dəfn olunmuşdur.

**ZƏQQUM** – ***cəhənnəm ağacıdır***. *Quran ayələrinə* görə onun meyvələri acıdır və *cəhənnəm* əhli ondan dadacaqdır (44: 43-46; 56: 51-55).

**ZƏLLƏ** – ***peyğəmbərlərinin düşüncələrində ola bilən kiçik günah və yanlışlıqlar belə adlanır.*** *İslama* görə *peyğəmbərlər* düşünülmüş *günahlar* etməzlər. Bu səbəbdən də, onlar məsumdurlar. Kiçik günahlara gəldikdə isə hər bir insan yanlışlıq edə bilər. Peyğəmbərlərdə isə yanlışlıqları əməldə deyil, yalnız düşüncələrində ola bilərdi. *Allah* isə bu yanlışlıqları *vəhylərlərə* düzəltmiş və düşüncələrindən silmişdir.

**ZƏMƏXŞƏRİ MAHMUD** (467/1075 – 538/1143) – ***təfsirçi, fəqih və kəlam alimi olmuşdur.*** O, Xarəzmin Zəməxşər məntəqəsində Səlcuq sultanı Malik şahın dövründə yoxsul türk ailəsində doğulmuşdur. Ancaq, onun fars əsilli olduğunu qeyd edənlərdə olmuşdur. Mahmud gənc yaşlarında atın belindən yıxılaraq ağır zədə almış və ayağını itirmişdir.

O, ilk təhsilini atasından almışdır. Daha sonra elmlərə böyük maraq göstərmiş, Orta Asiyanın *elm* və mədəniyyət mərkəzi olan Buxara şəhərində təhsilini davam etdirmişdir. Burada *fiqhi, hədisləri, təfsiri, kəlamı (I)*, məntiqi, *fəlsəfəni* və ərəb dilini yaxşı öyrənmişdir. Hətta o, bir müddət siyasi baxışlarına görə təqib belə olunmuşdur. O *Məkkə*, Yəmən, Ərəbistanın başqa yerlərinə səyahət etmişdir. Bir müddət Məkkədə yaşamışdır. Burada o, bir çox kitablarını, o cümlədən onu dünyada tanıdan *Quran* təfsirini yazmışdır. Məkkədə tanındıqdan sonra o, Xarəzmə alim kimi qayıtmış, həyatının sonuna qədər burada yaşamışdır.

Mahmud Zəməxşəri əqidədə *mütəzili*, fiqhdə isə *hənəfi məzhəbinin* ardıcılı olmuşdur. Mütəzili olduğuna görə *sünni* ilahiyyatçıların tənqidinə məruz qalmışdır. Buna görə də, Səlcuq sultanları onun dərin biliyə sahib olmasına baxmayaraq onu dəstəkləməmişdirlər. Ancaq o da, ona qarşı yönələn tənqidləri cavabsız qoymamış, sünni alimləri ilə elmi mübahisələr aparmışdır. O dövrün bir çox tanınmış alimləri Zəməxşərinin tələbələri olmuşdurlar. O, ərəb dilinin qramatikasının ən mahir bilicisi olmuş, hətta o, bu sahədə əsərlər belə yazmışdır. Bundan başqa o, hədis elmi üzrə də kitabların müəllifidir. Ancaq, Mahmud Zəməxşərinin ən məşhur kitabı onun mütəzililik mövqeyindən yazılmış “Kəşşaf” adlanan *Quranın* təfsiri olmuşdur. Buna görə də, onun bu kitabını sünni ilahiyyatçılar tənqid etmiş, onu təkzib etmək üçün çoxlu əsərlər yazmışdırlar.

**ZƏMZƏM** – ***Məkkədə Məscidül-Haramda yerləşən su mənbəyidir.*** Rəvayətlərə görə susuzluqdan əziyyət çəkən *İbrahim* peyğəmbərin ikinci həyat yoldaşı *Həcər* burada Səfa və Mərva təpələri arasında su axtarmış, o zaman *Cəbrail* mələk onun köməyinə yetişmiş və dabanı (ya da qanadı) ilə yerə vurmuş və oradan Zəmzəm suyu qaynayaraq axmağa başlamışdır.

**ZINDIQ** – ***özlərini müsəlman kimi göstərib, ancaq qəlblərində İslamı qəbul etməyən insanlar belə adlanırlar.*** Ehtimala görə bu söz zərdüştlülərin müqəddəs kitabı olan “Zənd”dən əmələ gəlmişdir. *Fiqhdə* daha çox *münafiq* sözünə yaxın mənada istifadə edilir. Buna görə bir çox nüfuzlu müsəlman ilahiyyatçılarına görə zındıqlığı sübuta yetirilən insan ölümə məhkum olunmalıdır. Ancaq, belə insanlar səmimi *tövbə* edərlərsə, *Allah* onun tövbəsini qəbul edir. Tövbə etmiş zındığı ölümə məhkum etmək olmaz. İlahiyyatçıların əksəriyyəti hesab edir ki, tövbə etməmiş zındıqlar *cəhənnəm* odunda sonsuzluğa qədər yanacaqlar. Buna dair *Quranın* 3: 116 ayəsini dəlil kimi gətirirlər.

**ZİHAR** – ***ərin arvadını anasına, bacısına və digər evlənməsi haram edilən qadınlara bənzətməsidir***. Belə olduqda ər həyat yoldaşı ilə evlənməsi qadağan olan qadınlarla davrandığı kimi davranır, onunla cinsi yaxınlıq etmir. Bu *adət* islamöncəsi dövrlərdə ərəblərdə çox geniş yayılmışdır. Zihara and içən kimi ər-arvad münasibətləri bitirdi. *Məhəmməd peyğəmbərin* dövründə də zihar olmuşdur və bu adət *Quranda* (58: 1-4) qınanılır və bəyənilmir. Buna görə də, *İslamda* zihar etmək olmaz. Bunu edən kişi böyük *günah* işləyir. Ancaq belə bir şey olarsa, onda zihar edənə onun həyat yoldaşı *haram* olur. Onunla yenidən ər-arvad münasibətlərni davam etmək üçün kişi gərək *kəffarə* versin. Ziharın kəffarəsi bir kölənin azad edilməsidir. Zihar edənin köləsi olmazsa o zaman o, iki ay *oruc* tutmalıdır. Əgər buna da gücü çatmazsa, onda yoxsul bir müsəlmanı altmış gün səhər və axşam yedirtməlidir.

**ZİKR** – ***Allahı yada salmaq, Onu anmaqdır.*** Bu söz *Quran* və *hədislərdə* Allahı anmaq və *namaz* qılmaq anlamında işlədilmişdir. *Sufilikdə* zikr insana hər zaman *Allahın* varlığını yada salır və tərbiyələndirir. Müxtəlif sufi *təriqətlərində* zikr uca səslə (cəhri) və ya pıçıltı ilə (hafi) edilir. Sufilərin rəvayətlərinə görə uca səslə deyilən *zikrlərin* ənənəsi *Əli ibn Əbu Talibdən*, pıçıltı ilə edilən zikrlərin ənənəsi isə Əbu Bəkrdən gəlir. Zikrləri hər bir müsəlman təklikdə və ya camaatla edə bilər.

**ZİMMİLƏR** – ***İslam dövlətində yaşayan və İslam qanunu ilə qorunan digər dinlərin mənsublarıdırlar.*** Zimmilər öz dinlərində qala bilərdilər və *İslamı* qəbul etməyə məcbur edilmirdilər. Bunun qarşılığında onlar cizyə adlanan vergini ödəməli idilər. İlahiyyatçıların bir çoxu zimmilər kimi *əhli-kitabdan* olan xristian və *yəhudiləri* hesab edirlər (*Quran* 9: 29). Bəzi İslam alimləri zərdüştiləri də *Əhli-Kitab* hesab etmişdirlər. Bir çox tanınmış müsəlman ilahiyyatçıları hesab edirlər ki, *bütpərəst* ərəblər zimmi ola bilməz və onlardan cizyə alınmamalıdır. Onlara görə Ərəbistan yarımadasının ərəblər yalnız İslamı qəbul etməli idilər. Buna dair *Quranın* 48: 16 ayəsini dəlil kimi gətirirlər. Daha bir qrup ilahiyyatçılar hesab edirlər ki, bütpərəstlər və əhli-kitabın əksəriyyəti hansı dinə tapındığından asılı olmayaraq zimmidirlər. İslam dinini tərk edən *mürtədlər* zimmi ola bilməzlər.

İslam dövləti tərəfindən qorunmaq üçün zimmilər onun başçısı ilə anlaşmalı idilər. Bu anlaşma daimi olmalı, müddət çərçivəsi qoyulmamalı idi. Müsəlmanlar zimmilərlə bağlanmış anlaşmanı pozmamalı idilər. Yalnız savaşda düşmən tərəfinə keçmiş, cizyə verməkdən imtina etmiş və ya müsəlman olmuş zimmilərlə anlaşma pozulurdu. Zimmilər *Məkkə* və *Mədinə* şəhərlərindən başqa İslam dövlətinin hər yerində yaşaya bilərdilər. Onlar müsəlmanlarla düşmənçilik edən ölkələrlə işbirliyi qura bilməzdilər. Onlar gündəlik həyatlarında İslamın yasaq etdiyi spirtli içkiləri və ya donuz ətini müsəlmanların gözü qarşısında yeyib və içə bilməzdirlər. Dini ayinlərini də yalnız öz aralarında icra edə bilərdilər. Zimmilər İslamı, *Məhəmməd peyğəmbəri* açıq-açığına inkar və ya tənqid edə, eyni zamanda dini təbliğatla məşğul ola bilməzdirlər.

Müsəlmanlar isə zimmilərə *sədəqə* verə, ağır günlərində onlara yardım edə bilərdilər. Hətta, müsəlman kişiləri "Əhli-Kitabdan" olan qadınlarla evlənə də bilərlər.

**ZİNA** – ***şəriət qanunlarına uyğun olmayan, nigah bağlanmadan kişi və qadının cinsi əlaqədə olmasıdır.*** *İslamda* zina böyük *günahlardan* hesab edilir (*Quran*, 17: 32). Zina edənlər subaydırlarsa hamının gözü önündə şallaqlanmalı (Quran, 24: 2-5), bəzi

*məzhəblərə* görə isə sürgün edilməlidirlər. Zina edənlər evli insanlardırsa onlar daşqalaq edilməklə (*rəcm*) öldürülməlidirlər. Zina məhkəmədə sübut edilməlidir. Orada ən azı dörd *şahid* bunu təsdiq etməli və ya zina edənlər günahlarını özləri etiraf etməlidirlər.

Geniş mənada zina, insanların müxtəlif günahlarına aid edilə bilər. *Hədislərə* görə *haram* şeyə baxmaq gözlərin, ona toxunmaq əllərin, ona doğru addım atmaq isə ayaqların zinasıdır.

**ZİYARƏT** – ***müsəlmanlar tərəfindən müqəddəs hesab edilən yerlərə getməkdir.*** Ziyarət yerlərinə getmək *savab* qazandıran əməllərdən hesab olunur. Hər bir müsəlman maddi durumundan asılı olaraq həyatında ən azı bir dəfə də olsa *İslamın* müqəddəs şəhərləri olan *Məkkə* və *Mədinəyə həcc* ziyarətinə getməlidir. Bu da İslam dininin əsas *şərtlərindən* biridir. Bundan başqa, müxtəlif İslam *təriqətlərinin* öz ziyarət yerləri də vardır.

**ZÖHR** – ***günorta vaxtdır.*** Bu zaman *vacib* zöhr *namazı* qılınır. Bu namaz *əsr* namazının girdiyi vaxta qədər qılına bilər.

**ZÜBEYR İBN ƏVVAM** (36/656-cı ildə vəfat etmişdir) – ***Məhəmməd peyğəmbərin əmisi oğlu və səhabəsi olmuşdur.*** *İslamı* ilk qəbul edənlərdən olmuş və bu səbəbdən də təqiblərə məruz qalmışdır. 615-ci ildə Həbəşistana, sonra isə *Mədinəyə hicrət* etmiş, müsəlmanların *qureyşlilərlə* apardığı bütün döyüşlərdə istirak etmişdir. *Məhəmməd peyğəmbərin* vəfatından sonra *Raşidi xəlifələrin* dövründə Zübeyr Xilafətin Bizansa qarşı apardığı müharibədə də vuruşmuşdur. *Xəlifə Ömər* tərəfindən xəlifəliyi irəli sürülən altı namizəddən biri olmuşdur. O, xəlifə *Osmanın* öldürülməsinə qədər siyasətdən uzaq qalmışdır. O, əvvəllər *Əli ibn Əbu Talibin* xəlifəliyini tanısa da, Cəməl döyüşündə ona qarşı vuruşmuş orada da həlak olmuşdur.

**ZÜHD** – ***Allahla özü arasında olan hər bir maneəni ortadan qaldıran, dünya malından uzaq duran, bütün günlərini ibadətlə keçirən müsəlmanın həyat tərzidir.*** Zühd həyatı yaşayan insan bütün *günahlardan*, eləcə də şübhə doğuran əməllərdən çəkinir. Onlar hər yerdə *Allahın* nəzərini üzərilərində hiss edərək yaşayırlar.

**ZÜLEYXA** – ***Quranın "Yusif" (12) surəsinin 21-ci ayəsində anılan, ancaq adı çəkilməyən qadındır.*** O, *Misir* məmurunun arvadı olmuşdur. Evlərində kiçik yaşlarından qul kimi yaşayan *Yusifə* vurulmuşdur. Ancaq, öz sevgisinin qarşılığını ondan almadıqda ona böhtan atmışdır. Daha çox *israiliyyata* dayanan bəzi rəvayətlərə görə o, ərinin ölümündən illər sonra Yusiflə evlənmişdir. Ancaq, bir çox *İslam* alimlərinə görə onların evlənməsinə dair heç bir mötəbər dəlil yoxdur.

**ZÜLHİCCƏ** – ***həcc mərasiminin keçirildiyi müsəlman təqviminin on ikinci ayıdır.*** Bu ayın ilk on günü müqəddəs sayılır. Rəvayətlərə görə bu günlərin birində tutulan *oruc* savabına görə bir illik oruca bərabərdir. Ancaq *həcc ziyarətində* olan zəvvarlar Zilhiccə ayının ilk on günündə öz güclərini qoruyub saxlamaq üçün oruc tutmaya da bilərlər. Bu ayın onuncu günündə *Qurban* bayramı qeyd edilir. Zülhiccənin səkkizinci günü "Tərviyyə", doqquzuncu günü "Ərəfə", bayramdan sonrakı üç gün isə "Təşriq" adlanır.

**ZÜLQƏRNEYN** – ***adı Quranda anılan mömin bir insan olmuşdur***. *Təfsirçilərə* görə onun *peyğəmbər* olma ehtimalı olsa da, bu barədə heç bir dəqiq məlumat yoxdur. Bəzi rəvayətlərdə onun əsl adının İskəndər olduğu

iddia edilir. Buna görə onun Makedoniyalı İskəndər və ya İran şahlarından biri olması haqqında fərziyyələr irəli sürülmüşdür. Ancaq, bu fərziyyələr heç də bütün ilahiyyatçılar tərəfindən dəstəklənməmişdir.

Bəzi təfsirçilərə görə Zülqərneyn *İbrahim* peyğəmbərin dövründə yaşamış, onunla *həccə* getmiş, onun xeyir-duasını almış adamdır. Sonra o, qoşuna başçılıq edərək bir çox xalqlara bədbəxtlik və fəlakət gətirən *Yəcuc və Məcuc* qəbilələrinə qarşı vuruşmuşdur. Bu qəbilələrin yaşadıqları yerə gəldikdə Zülqərneyn bu qəbilələri dayandırmaq üçün daş və dəmirdən bir divar tikmişdir. Onun Böyük Çin Səddi olduğunu iddia edənlər də olmuşdur. Rəvayətlərdə *qiyamət* gününə az qalmış Yəcuc və Məcuc bu divarı aşaraq bütün dünyaya hücum edəcəkləri haqqında məlumat verilir. Bəzi rəvayətlərə görə Zülqərneyn Avropa və Asiya qitələrində çox yerləri ələ keçirərək orada *Allahın* dinini yaymışdır. O, *bütpərəstlərlə* vuruşmuş, *möminlərin* isə həvadarı olmuşdur. Yenə rəvayətlərə görə Zülqərneyn Suriya ilə *Mədinə* arasında yerləşən Dumatül-Cəndəldə vəfat etmiş və orada torpağa tapşırılmışdır. Başqa rəvayətlərə görə isə o, Məkkə yaxınlığında torpağa tapşırılmışdır. *Quranda* Zülqərneynin qissəsi "Kəhf" (18) surəsinin 83-98 *ayələrində* keçməkdədir.

**ZÜLKİFL** – ***Quranın 21: 85-86 ayələrində İsmail və İdris peyğəmbərlərlə birlikdə adı çəkilən bir mömin insandır.*** *Təfsirçilərə* görə onun *peyğəmbər* olub-olmaması mübahisəlidir. Ancaq, onların bir çoxu onu peyğəmbər kimi qəbul edirlər. Zülkifl Əlyəsənin qohumu olmuş, onun vəfatından sonra *İsrail oğullarını* doğru yola dəvət etmişdir. O, Musanın *şəriəti* və *Tövratın* qanunları ilə hökmlər vermişdir. Rəvayətlərə görə Suriyada vəfat etmişdir.

# LÜĞƏTİN MÖVZULAR ÜZRƏ QURULUŞU

## LÜĞƏTİN MÖVZULAR ÜZRƏ QURULUŞU

***I. ALLAH VƏ ONUN BİRLİYİ***

Allah
Əsmaül-Hüsnə
İlah
Kəlam (II)
Məbud
Tövhid

***II. AXİRƏT OLAYLARI***

Axirət
Bərzəx
Cənnət
Cəhənnəm
Dəccal
Ədn
Əməl dəftəri
Əraf
Həşr
Qəbir əzabı
Qəyyə
Qiyamət
Mehdi
Məhşər
Məsih
Məzar
Mizan
Münkər və Nəkir
Nəfxə
Ruh
Sirat
Sur
Şəfaət
Yəcuc və Məcuc
Zəqqum

***III. MƏLƏKLƏR***

Beytül-Məmur
Cəbrail
Əzrayıl
Harut və Marut
İsrafil
Mələklər
Mikail
Rühül-Qüds

***IV. ŞEYTANLAR VƏ CİNLƏR***

Cinlər
Əzazil
İblis
İfrit
Şeytan

***V. GÜNAHLAR VƏ ONLARDAN TƏMİZLƏNMƏ***

Cadu
Günah
Xəmr
İftira
İntihar
İrtidad
Kibr
Küfr
Qeybət
Qəsb
Qətl
Qəzf
Ləvat
Riba
Rüşvət
Təcdidül-İman
Təkfir
Tövbə
Şirk
Zəllə
Zina

**VI. CİHAD**

Bədr
Birül-Məunə
Cihad
Darül-Hərb
Fey

Həbəşistana hicrət
Hicrət
Xəndək
Qazi (I)
Qənimət
Qəzavat
Mədinəyə hicrət
Səbr
Səriyyələr
Şəhid
Təqiyyə
Uhud

***VII. İNSANLARIN ÇEŞİDLƏRİ***

Baliq
Cahil
Cariyə
Fasiqlər
Fəqirlər
Kafirlər
Məmlüklər (I)
Möminlər
Müəlləfəil-Qülub
Mühədrəmlər
Münafiqlər (II)
Mürtədlər
Müsafir
Müstəmin
Müşriklər
Şahikül-Cəbəl
Ümmət
Zındıq
Zimmilər

***VIII. BÜTPƏRƏSTLİK***

Bəl
Buzov
Büt
Bütpərəstlər
Cahiliyyət
Cibt
Hübəl
Lat
Mənat
Nasi
Nüsub
Saibə
Tağut
Üzza
Vasilə
Vədd

***IX. RİDDƏT VƏ YALANÇI PEYĞƏMBƏRLƏR***

Əsvəd Ənsi
Müseylimə
Riddət (II)
Səccah
Tüleyhə

***X. MÜSƏLMAN DÖVLƏTİ***

Abbasilər
Beytül-Mal
Beyət
Cizyə
Darül-İslam
Əməvilər
Fatimilər
Haşimilər
Xəlifə
Xərac
İqtə (Timar)
İmamət
Kordova xilafəti
Məmlüklər (II)
Mühtəsib
Nəkib (I)
Osmanlılar
Raşidi xəlifələr

***XI. ŞƏHƏRLƏR, ABİDƏLƏR, COĞRAFİ ADLAR***

Adül-İrəm

Antakiya
Babil
Bədr
Cudi Dağı
Əqəbə
Fələstin
Hərran
Hüdeybiyyə
Quba
Qüds
Mədinə
Məkkə
Misir
Nəcran
Tur dağı
Uhud

### *XII. MƏSCİDLƏR VƏ İBADƏT YERLƏRİ*

Həcərül-Əsvəd
Kəbə
Qubbətüs-Sahra
Mehrab
Məbəd
Məqamül-İbrahim
Məscid
Məscid əd-Dirar
Məscidül-Əqsa
Məscidül-Haram
Məscidün-Nəbəvi
Minarə
Minbər

### *XIII. XALQLAR VƏ QƏBİLƏLƏR*

Ad
Bədəvilər
Bəni İsrail
Evs
Ərim
Əshabül-Qaryə
Əshabür-Rəss
Əykə
Xəzrəc
Qureyş
Mədyən
Səmud

### *XIV. TARİXİ ŞƏXSİYYƏTLƏR VƏ OLAYLAR*

Asəf ibn Bərxiyə
Asiya bint Məzahim
Azər
Beyətür-Rizvan
Bələm ibn Bəur
Binyamin
Buhtunnəsr
Calut
Darun-Nədva
Diqyanus
Əbabil
Əshabül-Bədr
Əshabül-Fil
Əsri-Səadət
Firon
Həbib Nəccar
Hilfül-Füdul
Muxtar Səqəfi
Nəcaşi
Samiri
Züleyxa

### *XV. DİNİ İCMALAR*

Əhli-Kitab
Məcusilər
Nəsranilər
Sabiilər
Yəhudilər

### *XVI. QURANDAN ÖNCƏ ENDİRİLMİŞ KİTABLAR VƏ MÜQƏDDƏS ƏŞYALAR*

İncil
Mühərrəf
Sühuflar

Tabut əs-Səkinə
Tövrat
Zəbur

*XVIII. İSLAMIN İLK QAYNAQLARI*

**Ümumi anlayışlar**:

Ayə
Hədislər
Həsən hədislər
Kütubi-Sittə
Quran
Qüdsi hədislər
Səhih hədislər
Surələr
Sünnə
Şəriət
Zəif hədislər

**Hədis toplularının müəllifləri:**

Buxari Məhəmməd
Əbu Davud
Küleyni Məhəmməd
Məhəmməd ibn Macə
Müslim ibn Həcac
Nəsai Əhməd
Təbərani Süleyman
Tirmizi Məhəmməd
Şeyx Səduq

**Quran və hədislərin təfsiri:**

Alleqoriya
Əhəd xəbər
İsrailiyyat
Hafiz
Hurufi-Müqəttəə
Qiraət
Məcaz
Möhkəm ayələr
Müfəssir
Mühəddis
Mütəşabih ayələr
Mütəvatir xəbərlər
Nasslar
Nəsx və Mənsux
Ravilər
Təfsir
Şəzz

**Bəzi Quran və hədis təfsirçiləri:**

Beydavi Abdulla
Bəyhəqi Əhməd
İbn Həcər Əcgəlani
İbn Xəldun
İbn Kəsir
Qurtubi Məhəmməd
Məvərdi Əbülhəsən
Təbərani Süleyman
Təbəri Məhəmməd
İbn Qüteybə

*XVIII. PEYĞƏMBƏRLƏR VƏ BAŞQA SEÇİLMİŞ İNSANLAR*

**Ümumi anlayışlar:**

Mücəddid
Nəbi
Övliya
Peyğəmbər
Rəsul
Saleh (II)
Vəli

**Quranda adları çəkilən peyğəmbərlər:**

Adəm
Davud
Əlyəsə
Əyyub
Harun
Hud
İbrahim

İdris
İlyas
İsa
İshaq
İsmail
Loğman
Lut
Məhəmməd
Musa
Nuh
Saleh (I)
Süleyman
Şüeyb
Üzeyr
Yaqub
Yəhya
Yunus
Yusif
Zəkəriyyə
Zülkifl
Zülqərneyn

**Başqa peyğəmbərlər, padşahlar, möminlər:**

Bilqeys
Habil
Həcər
Xızır
İmran
İşmoil
Kalib ibn Yukna
Qabil
Məryəm (I)
Şəmun
Şəya
Şit
Talut
Taruh
Yuşa ibn Nun

## *XIX. PEYĞƏMBƏRLƏRİN MÖCÜZƏLƏRİ*

Buraq
İnşiqaqül-Qəmər
İsra və Merac
Mənn və Səlva
Möcüzə

## *XX. MƏHƏMMƏD PEYĞƏMBƏRİN AİLƏ ÜZVLƏRİ VƏ ONLARIN SOYLARI*

**Ümumi anlayışlar:**

Əhli-Beyt
Ələvilər (I)
Şəriflər
Seyidlər

**Məhəmməd peyğəmbərin soyundan bəziləri:**

Cəfər Sadiq
Əli ibn Məhəmməd
Əli ibn Musa
Əli Zeynül-Abidin
Fatimə bint Məhəmməd
Hüseyn ibn Əli
Məhəmməd ibn Əli
Məhəmməd ibn Həsən
Musa ibn Cəfər
Ruqiyyə bint Məhəmməd
Ümm Külsüm bint Məhəmməd
Zeynəb bint Məhəmməd

**Məhəmməd peyğəmbərin həyat yoldaşları və kənizləri:**

Aişə bint Əbu Bəkr
Cüveyriyə bint Haris
Həfsə bint Ömər
Xədicə bint Hüveylid
Məryəm (II)

Məymunə bint Haris
Reyhanə
Səfiyyə bint Hüyəyy
Səudə bint Zəma
Ümm Sələmə
Ümm Həbibə bint Əbu Süfyan
Zeynəb bint Cəxş
Zeynəb bint Hüzeymə

## *XXI. MƏHƏMMƏD PEYĞƏMBƏRİN ÇAĞDAŞLARI VƏ QOHUMLARI*

Abdullah ibn Əbdülmüttəlib
As ibn Vail
Abdullah ibn Übey
Əbdülmüttəlib
Əbu Cəhl
Əbu Ləhəb
Əminə bint Vəhb

## *XXII. MƏHƏMMƏD PEYĞƏMBƏRİN SƏHABƏLƏRİ*

**Ümumi anlayışlar:**

Ənsarlar
Əshabül-Kiram
Əshabüs-Süffə
Əshabüs-Şəcərə
Mühacirlər
Səhabələr

**Bəzi səhabələr:**

Abbas ibn Əbdülmüttəlib
Abdullah ibn Abbas
Abdullah ibn Əmir
Abdullah ibn Məsud
Abdullah ibn Ömər
Abdullah ibn Rəvaha
Abdullah ibn Salam
Abdullah ibn Ümm Məqtum
Abdullah ibn Zeyd
Abdullah ibn Zübeyr
Bəra ibn Əzib
Bilal Həbəşi
Büreydə ibn Hüseyb
Cabir ibn Abdullah
Dihyə ibn Xəlifə
Əbbad ibn Bişr
Əbban ibn Səid
Əbdürrəhman ibn Əvf
Əbu Bəkr Siddiq
Əbu Dücanə
Əbu Dərda
Əbu Əyyub Ənsari
Əbu Hüreyrə
Əbu Musa Əşəri
Əbu Səid Xudri
Əbu Süfyan ibn Hərb
Əbu Übeydə
Əbu Zər Gifari
Əli ibn Əbu Talib
Əmir ibn As
Əmmar ibn Yasir
Ənəs ibn Malik
Ərqəm ibn Əbu Ərqəm
Əsəd ibn Zürarə
Fəzl ibn Abbas
Həmzə ibn Əbdülmüttəlib
Həsən ibn Sabit
Hüzeyfə ibn Yəmən
Xalid ibn Valid
Müaz ibn Cəbəl
Müsab ibn Ümeyr
Nüman ibn Müqərrin
Osman ibn Əffan
Ömər ibn Xəttab
Səd ibn Əbu Vəqqas
Səd ibn Übədə
Səid ibn Zeyd
Səlman Farisi
Suraqa ibn Malik
Süheyb Rumi

### *XXIII. MƏHƏMMƏD PEYĞƏMBƏRİN SƏHABƏLƏRİNİN ARDICILLARI*

**Ümumi anlayışlar:**

Sələflər
Tabiunlar
Təbəət-Tabiunlar

**Ardıcılların bəziləri:**

Həsən Bəsri
Məhəmməd ibn Sirin
Nafi ibn Hürmüz
Səid ibn Cübeyr
Səid ibn Müseyyib
İbn Şihab Zühri

### *XXIV. FİQH*

**Ümumi anlayışlar:**

Adət
Ayətullah
Batil
Bidət
Caiz
Cənazə
Əcr
Əhd
Əshabi-Rəy
Əshabül-Hədis
Fasid
Fəqih
Fərz
Fəsad
Fətva
Fidyə
Fiqh
Ğina
Halal
Haram
Xitan
İctihad
İxtilaf
İqtə
İnnin
İslam
Kəffarə
Qazi (II)
Məkruh
Məzar
Məzhəb
Möhtəkirlik
Mübah
Müctəhid
Müfti
Müqəllid
Münkər
Müstəhəb
Nəzir
Rüxsət
Rükn
Savab
Səhih
Şərt
Surət
Təkfir
Təqiyyə
Təqlid
Təsvir
Təziyyə
Vacib
Vəsvəsə

**Təmizlənmə bölümü:**

Dəstəmaz
Cənabət
Cima
Hamam
Heyz
Hədəs
İstibra
İstihazə
İstinca
Qüsul

Məsh
Misvaq
Nəcasət
Nifas
Təharət
Təyəmmüm

Təkbir
Təravih
Təşəhhüd
Vəz
Vitr
Zöhr

**İbadətlər bölümü:**

Azan
Cümə namazı
Dua
Duha
Etiqaf
Əcr
Əsr
Fəcr
Hacət namazı
Xof namazı
Xütbə
İftitah
İqamə
İmsak
İstixarə
İşa
Qəza (I)
Qəza (II)
Qiblə
Qiyam
Qiyamül-Leyl
Qunut
Məğrib
Müəzzin
Nafilə
Nafilə namazları
Namaz
Niyyət
Rükət
Rüku
Səcdə
Səcdəyi-Səhv
Sübh
Təhəccüd
Təhiyyətül-Məscid

**Müamilələr bölümü:**

Ariyə
Bəyy
Hədiyyə
İcab
İcarə
İqalə
Lukat
Mal
Məfkuf
Müamilə
Vəqf
Vəsi
Vəsiyyət

**Vergilər bölümü:**

Cizyə
Fitrə zəkatı
Xüms
Xərac
Sədəqə
Üşr
Zəkat

**Cəzalar bölümü:**

Diyət
Əfv
Ğurra
Hədd
Qisas
Rəcm
Təzir
Üqubət

**Evlilik və boşanma:**

İddə
İlə
Mehr
Məhrəm
Mütə
Nikah
Talaq
Təcdidün-Nikah
Təəddüdüz-Zəvcət
Zihar

**Oruc, həcc və qurban:**

Ehram (I), (2)
Əqiqə
Ərəfat
Ərəfə
Əyyamül-Təşriq
Həcc
İftar
İhsar
Qurban
Mina
Naib
Oruc
Səfa və Mərva
Sühur
Tavaf
Ümrə
Vəqfə
Vida həcci
Zəbh

**Fiqh məzhəbləri:**

Cəfəri
Hənbəli
Hənəfi
Maliki
Şafii
Zahiri
Zeydi

**Figh məzhəblərinin yaradıcıları:**

Cəfər Sadiq
Davud Zahiri
Əbu Hənifə
Əhməd ibn Hənbəl
İbn Həzm
Malik ibn Ənəs
Şafii Məhəmməd ibn İdris
Zeyd ibn Əli

**Bəzi fəqihlər və onların ardıcılları:**

Əbu Yusif
İbn Abidin
İbn Cövzi
Küleyni Məhəmməd
Mustafa Səbri Əfəndi
Şeybani Məhəmməd
Şeyx Səduq

**Fiqh metodları:**

İcma
İstihsan
İstislah
Qiyas
Örf
Rəy

***XXV. KƏLAM, FƏLSƏFƏ, METAFİZİKA***

**Ümumi anlayışlar:**

Batin
Beytül-İzzət
Cədəl
Dəhrilər
Dünya
Elm
Əcəl
Ədl
Əhd

Ərş
Fani
Fəlsəfə
Hüccət
İradə
İslam
Kəlam (I)
Qeyb
Qəza və Qədər
Lövhi-Məhfuz
Nəfs
Səbəblər
Sidrətül-Müntəha
Təəssüb
Təfəkkür
Tənasüh
Təslis
Uqnum
Vəd və Vəid
Vəhy
Zahir

**Kəlam məktəbləri:**

Cəbrilər
Əşərilər
Qədərilər
Maturidilər
Mücəssimilər
Mürciilər
Mütəzililər

**Bəzi kəlamçılar:**

Bağdadi Əbdülqahir
Bakillani Əbu Bəkr
Əbülhəsən Əşəri
Əbu Mənsur Maturidi
İbn Qəyyim Cövziyyə
Məhəmməd ibn Əbdülvəhhab
Nəsəfi Hafizəddin
İbn Teymiyyə
Vəsil ibn Əta
Zəməxşəri Mahmud

**XXVI. MƏNƏVİYYAT VƏ SUFİLİK**

Abid
Arif
Beyət
Bərəkət
Cazibə
Cəlvət
Cəm
Dərviş
Ehsan
Eşq
Fəna
Hal
Xəlvət
Xirqə
İhsan
İxlas
İqan
İlham
İnsani-Kamil
İtminan
Kəlimeyi-Şəhadət
Kəramət
Qeyb və Hüzur
Qəbz və Bəst
Qütb
Məhv və İsbat
Mərifət
Mürid
Nəkib (II)
Rabitə
Ribat
Sahv
Səma
Silsilə
Sufilik
Sukr
Şeyx
Şəfa
Təkkə
Təriqət
Təsəvvüf
Vəcd

Vəhdəti-Şühud
Vəhdəti-Vücud
Vəsilə
Vicdan
Vird
Zahid
Zakir
Zikr
Ziyarət
Zühd

**Bəzi sufi şeyxləri:**

Bəyazid Bistami
Cəlaləddin Rumi
Cüneyd Bağdadi
Əhməd Fəruqi
Gijduvani Əbdül-Xaliq
İbn Ərəbi
Qəzali Məhəmməd
Quşeyri Əbdül-Kərim
Nəqşibənd Bəhaəddin
Şah Neymətullah Vəli

**Sufi təriqətləri:**

Bayramilər
Bədəvilər
Bəktaşilər
Çiştilər
Dəsukilər
Xəlvətilər
Kubravilər
Qədirilər
Qələndərilər
Məlamətilər
Mövləvilər
Neymətullahilər
Nəqşibəndilər
Rifailər
Sənusilər
Sührəvərdilər
Şazililər
Ticanilər
Yəsəvilər

## *XXVII. TƏRİQƏTLƏR, DİNİ AXINLAR, HƏRƏKATLAR*

Babilər
Bəhailər
Xaricilər
Qadiyanilər
Qızılbaşlar
Münafiqlər (I)
Müsəlman qardaşları
Sələfilər
Sufilər
Sünnilər
Şiələr
Vəhhabilər

**Xarici təriqətləri:**

Əcrədilər
Əzraqilər
İbadilər
Nəcdilər
Məymunilər
Süfrilər
Yəzdilər

**Şiə təriqətləri:**

Druzlar
Ələvilər (II)
İmamilər
İsmaililər
İsna-əşərilər
Qeysanilər
Qərmətilər
Qurabilər
Müstəlilər
Nizarilər
Səbailər
Zeydilər

### *XXVIII. İSLAHATÇILAR, MAARİFÇİLƏR VƏ SİYASƏTÇİLƏR*

Əbduh Məhəmməd
Əfqani Camaləddin
Xomeyni Ruhulla
İqbal Məhəmməd
Qütb Səid
Məhəmməd ibn Əbdülvəhhab
Məvdudi Əbül-Əla
Nursi Səid
Riza Məhəmməd Rəşid

### *XXIX. MÜSƏLMAN TƏQVİMİ, MÜQƏDDƏS GÜNLƏRİ VƏ BAYRAMLARI*

Aşura
Bəraət gecəsi
Cümə
Əşhurül-Hurum
İdəyn
Hicri təqvim
Qəndillər
Məhərrəm
Milad
Mövlud
Müqəddəs gecələr
Ramazan
Rəcəb
Rəqaib
Şəvval
Zülhiccə